AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI
FƏLSƏFƏ VƏ HÜQUQ İNSTİTUTU

SƏİDƏ HƏSƏNZADƏ
Hüquq üzrə fəlsəfə doktoru

# AZƏRBAYCANDA QADIN HÜQUQLARI VƏ AZADLIQLARI

(konstitusiya və beynəlxalq hüquqi təhlil)

BAKI
«Hüquq ədəbiyyatı» nəşriyyatı
2014

Elmi redaktor: FƏRHAD ABDULLAYEV
Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin sədri,
hüquq elmləri doktoru, professor

Rəyçilər: MƏHƏBBƏT DƏMİRÇİYEVA
BDU-nun "Mülki hüquq" kafedrasının müdiri,
hüquq elmləri doktoru, professor

RÜSTƏM MƏMMƏDOV
BDU-nun "Beynəlxalq ümumi hüquq" kafedrasının müdiri,
hüquq elmləri doktoru, professor

FƏXRƏDDİN NAĞIYEV
Azərbaycan Respublikası Prezidenti yanında Dövlət İdarəçilik
Akademiyasının "Dövlət quruculuğu və hüquq" kafedrasının
müdiri, hüquq üzrə fəlsəfə doktoru, dosent

CEYHUN SÜLEYMANOV
Azərbaycan Respublikası DİN-in Polis Akademiyasının
"Dövlət və hüquq nəzəriyyəsi" kafedrasının rəisi,
Respublikanın əməkdar müəllim, polis polkovniki,
hüquq üzrə fəlsəfə doktoru, dosent

H(40)-2014. Səidə Həsənzadə, hüquq üzrə fəlsəfə doktoru
*Azərbaycanda qadın hüquqları və azadlıqları:* (konstitusiya və beynəlxalq hüquqi təhlil), *Bakı,* «Hüquq ədəbiyyatı» nəşriyyatı *2014, 346 s.*

İSBN 9789952818307

*İnsan hüquqlarının müdafiəsinə xüsusi önəm verildiyi bir dövrdə, qadın hüquqlarının və azadlıqlarının konstitusiya və beynəlxalq hüquq elmlərinin müqayisəli tədqiqat metodu əsasında yazılmış bu əsər, son dərəcə aktual və müasir bir problemin elmi-nəzəri tədqiqinə həsr edilmiş ilk monoqrafiya hesab oluna bilər. Əsərin sonuna, ilk dəfə olaraq hazırlanmış «Azərbaycan Respublikasında qadın hüquqları və azadlıqları haqqında Qanun» layihəsinin müəllif mətni də əlavə edilmişdir.*

*Azərbaycan Dövlət Tibb Universitetini və Moskva Dövlət Sosial Universitetinin hüquq fakültəsini (qiyabi) əla qiymətlərlə bitirmiş, peşəkar həkim və hüquqşünas olan Səidə Həsənzadə hazırda AMEA-nın Fəlsəfə və Hüquq İnstitutunun «Beynəlxalq hüquq və beynəlxalq münasibətlər» şöbəsinin böyük elmi işçisi vəzifəsində çalışır. Ailə, qadın və uşaq hüquqlarının tədqiqi ilə məşğul olan müəllifin indiyə qədər 4 monoqrafiyası və 60-dan çox elmi məqaləsi dərc edilmişdir. Bu əsər onun 5-ci monoqrafiyasıdır.*

*Monoqrafiya ali məktəblərin hüquq fakültələrinin müəllimləri, doktorantları, tələbələri, qadın hüquqlarının müdafiəsi ilə məşğul olan təşkilatların əməkdaşları üçün nəzərdə tutulmuşdur.*

© Səidə Həsənzadə, 2014

MÜNDƏRİCAT

GİRİŞ ........................................................................................ 4

I FƏSİL. MÜSTƏQİLLİK İLLƏRİNDƏ AZƏRBAYCANDA KONSTİTUSİYA VƏ BEYNƏLXALQ HÜQUQUN İNKİŞAF DİNAMİKASI ........................................................ 18

II FƏSİL. QADIN HÜQUQLARI VƏ AZADLIQLARI: mahiyyəti və səciyyəvi xüsusiyyətləri ........................................ 91

III FƏSİL. QADIN HÜQUQLARI VƏ AZADLIQLARI: tarixi və müasir vəziyyəti ........................................................ 112

IV FƏSİL. QADIN HÜQUQLARI VƏ AZADLIQLARI: konstitusiya və beynəlxalq hüquqi təhlil .................................. 158

V FƏSİL. QADIN HÜQUQLARININ VƏ AZADLIQLARININ MÜDAFİƏSİ MƏSƏLƏLƏRİ .......................................... 261

NƏTİCƏ ........................................................................................ 304

XÜLASƏ ........................................................................................ 311

«AZƏRBAYCAN RESPUBLİKASINDA QADIN HÜQUQLARI VƏ AZADLIQLARI HAQQINDA QANUN»UN LAYİHƏSİ ........................................................ 324

*Əsəri, ideal xüsusiyyətləri və qayğıkeşliyi ilə bizlərə həməşə örnək olan istəkli anama, tarix üzrə fəlsəfə doktoru Həqiqət xanıma həsr edirəm.*

*Müəllif*

# GİRİŞ

Bəşəriyyət tarixində zaman-zaman aparılan araşdırmalar, sanballı tədqiqatlar və mükəmməl təhlillər bir mənalı şəkildə təsdiq edir ki, insan nəslinin təşəkkülündə və bu günkü yüksək təkamülündə qadının – ananın rolu əvəzsizdir. O, dünyaya insan gətirən yeganə bir varlıq – bəşəriyyətin anası hesab olunur. Qadın – insandır, anadır, bacıdır, həyat yoldaşıdır, maddi nemətlər istehsalının yaradıcısıdır, mənəvi-əxlaqi dəyərlərin və milli ənənələrin ən böyük daşıyıcısı və ən böyük qoruyucusudur. Bu gün hər hansı bir sivil cəmiyyəti və ailəni, ümumilikdə isə dünyamızı qadınsız təsəvvür etmək mümkün deyildir. Lakin etiraf edilməlidir ki, qadının cəmiyyətdəki və ailədəki konstitusiya statusunun, hüquqi mövqeyinin – hüquqlarının, vəzifələrinin, azadlıqlarının və məsuliyyətinin müasir vəziyyəti və bu sahədə əldə edilən uğurlar əsrlərlə aparılan ardıcıl mübarizənin nəticəsi kimi dəyərləndirilməlidir. Qadın hüquqları uğrunda mübarizə tarixi ən qədim dövrlərdən başlamış, 13-cü əsrdə daha da fəallaşmış, 20-ci əsrdə, xüsusilə II Dünya müharibəsindən sonrakı mərhələdə müəyyən uğurlu nəticələrlə tarixə düşmüşdür.[1] Böyük dahilər, ictimai – siyasi xadimlər, dövlət rəhbərləri uzun əsrlərdən sonra, nəhayət ki, bir mənalı şəkildə dərk etmişlər ki, qadınların hüquqlarını və azadlıqlarını heç olmasa, ən azı kişilərlə bərabərləşdirmədən, ona lazımı diqqət yetirmədən cəmiyyətin və ailənin inkişafına, bütövlüyünə, sülhə və əmin –

[1] İnsan hüquqları: bəşər rifahının təməli, Bakı, «İnam» Plüralizm Mərkəzi, 2001, s.8-40; İnsan hüquqları, Bakı, 2005, s.11-60; Əsgərov Ə. Beynəlxalq hüquq, Bakı, 1979, s.30-72; İnsan hüquqları, Bakı, «Şirvannəşr», 2005 (tərcümə: E.A.Likaşevanın rəhbərliyi ilə hazırlanmış dərsliyin tərcüməsi), s.172-195; Ümumi hüquqi və dövlət nəzəriyyəsi, Bakı, 2006, s.6-17

amanlığa nail olmaq mümkün deyildir. Qadın hüquqları sivilizasiyanın və ən yüksək mədəniyyətin ifadə formasıdır.

İcitmai – siyasi, fəlsəfi və hüquqi fikir tarixində insan hüquqları və azadlıqları sahəsində nəzəri təlimlər qədim yunan, qədim Roma, qədim Şərq, sonralar isə ingilis və fransız mütəfəkkirləri tərəfindən ardıcıl olaraq inkişaf etdirilmiş, cəmiyyətin xoşbəxtliyi, ailənin səadəti, dövlətin demokratikliyi, hüquqiliyi və ədalətliliyi məhz bununla əlaqələndirilmişdir. Ümumiyyətlə, qədim Avropada, Qərb ölkələrində, xristian cəmiyyətlərində qadına münasibət kifayət qədər mənfi olmuş, uzun əsrlər boyu o, «şeytan» kimi lənətlənmişdir. Qədim Şərqdə qadına münasibət yalnız islam dininin inkişafı ilə əlaqədar olaraq zaman – zaman dəyişmiş və inkişaf etmişdir. Lakin bütün bunlar, heç də o demək deyildir ki, qadın hüquqları və azadlıqları islam ölkələrində yüksək səviyyədə olmuşdur. Buna baxmayaraq mili və dini mınsubiyyətindən asılı olmayaraq, bütün ağıllı və müdrik insanlar, zamanından və məkanından asılı olmayaraq qadın və kişi hüquqlarının bərabərliyini, bu və ya digər dərəcədə vacib hesab etmiş, bütün təqiblərə baxmayaraq hətta, bəzən onun uğrunda qətiyyətlə mübarizə aparmaqdan belə çəkinməmişlər.[1]

Azərbaycan tarixində qadın hüquqlarının və azadlıqlarının qanunvericilikdə təsbit olunması və onun həyata keçirilməsi sahəsində vəziyyət dünyada baş verən proseslərdən əhəmiyyətli dərəcədə fərqlənməsə də, lakin ümumilikdə, qadına münasibət tarixən müəyyən hörmətə və diqqətə əsaslanmışdır. Elə buna görə də Azərbaycan tarixində bir çox qadın qəhrəmanlar, qadın hökmdarlar, qadın diplomatlar, bəlkə də başqa xalqlara nisbətən daha çox olmuş, sevilmiş və hörmət qazanmışlar. Azərbaycan Demokratik Cümhuriyyətinin, Azərbaycan Sovet Sosialist Respublikasının və müstəqil Azərbaycan Respublikasının qanunvericilik tarixində qadın hüquqlarının və azad-

[1] İnsan hüquqları, Bakı, «Şirvannəşr», 2005, s.47-91; Luis Henkin, Gerald L.Numan, Diane F.Orentliçer, David V.Libron, İnsan hüquqları,Bakı, «Adiloğlu», 2008, s. 43-115 Международароное право, Москва «Международные отношения», 2003, с. 19-27; Международная и внутригосударственная защита прав человека, Москва, 2011, с.25-74

lıqlarının konstitusiya tənzimlənməsinə bu və ya digər dərəcədə xüsusi diqqət yetirilmiş, bu isə ilk öncə qadın hüquqlarının və azadlıqlarının dünyada qəbul edilmiş beynəlxalq standartlarına söykənmişdir. Maraqlıdır ki, Moskva Dövlət Universitetinin hüquq fakültəsinin məzunu, sonralar Demokratik Cümhuriyyətin ilk ədliyyə naziri olmuş Xəlil bəy Xasməmmədov (1875-1947) «Azərbaycanlı qadınların səsvermə hüquqları barədə» Qanun layihəsini hazırlayıb, Qərb ölkələrindən xeyli əvvəl, hələ 1907-ci ildə Dövlət Dumasının Müsəlman Fraksiyasında gərgin müzakirələrdən sonra, müsbət həll olunmasına nail ola bilmişdir.[1] Şərqdə ilk Demokratik Respublikanın elan olunduğu vaxtdan, 28 may 1918-ci ildən etibarən rəsmi şəkildə Azərbaycanda qadın və kişi hüquqlarının bərabərliyi elan edilmiş və onun həyata keçirilməsi üçün əhəmiyyətli tədbirlər görülmüşdür. 28 may 1918-ci ildə qəbul edilmiş «Azərbaycan Xalq Cümhuriyyətinin İstiqlal Bəyannaməsi»ndə milliyyətindən, məzhəbindən, sinfindən, silkindən və cinsindən asılı olmayaraq bütün vətəndaşlara siyasi hüquqların və vətəndaşlıq hüquqlarının verilməsi bəyan edilmişdir.[2]

1921-ci ilin fevral ayında Azərbaycan hökumətinin başçısı Nəriman Nərimanovun rəhbərliyi ilə keçirilmiş bitərəf qadınların I Qurultayı Şərqdə müsəlman qadın hərəkatının yüksəlişində əhəmiyyətli rol oynamışdır. Zaqafqaziya qadınlarının I Qurultayının 1922-ci ilin may ayında, məhz Bakıda çağırılması və keçirilməsi Azərbaycan qadınlarının müsəlman Şərqinin həyatında əhəmiyyətli rol oynamasından xəbər verirdi. Bu istiqamətdə hələ 1923-cü ildən başlayaraq Bakıda «Şərq qadını» adlı jurnalın nəşrə başlaması, qadın maarifçiliyinin və qadın hüquqlarının təbliğində tarixi bir rol oynamışdır. Bu ənənə SSRİ tərkibində olduğu illərdə də Azərbaycanda davam etdirilmiş, qadının rolu daim dinamik inkişafda olmuş, ictimai – siyasi həyatda

---

[1] Ələkbərov U. Davamlı insan inkişafı və ekoloji sivilizasiyanın əsasları, Bakı, 2013, s.107; Gender terminlərinin izahlı lüğəti, Bakı, 2005, s.109; Алиева Л. Женщины в общественно-политической жизни Азербайджана (1900-1920 гг.), Баку, 2013, с.142-145

[2] Azərbaycan Xalq Cümhuriyyətinin İstiqlal Bəyannaməsi 28 may 1918-ci il, (Azərbaycan Xalq Cümhuriyyəti Ensiklopediyası Bakı, 2004, s.71)

onların rolu tədricən artırılmışdır. Azərbaycan SSR-nın fəaliyyət göstərdiyi dövrdə ölkənin əldə etdiyi bütün qələbələrdə qadınlar xüsusi xidmətlər göstərmiş, onlar səhiyyədə, təhsildə, idmanda, elmdə, dövlət quruculuğunda və ümumiyyətlə ölkənin ictimai-siyasi həyatında fəal iştirak etmişlər.[1] Bütün bunlara baxmayaraq, ölkəmizdə qadın hüquqlarının qanunvericilikdə təsbit olunması, bu hüquqların həyata keçirilməsi məsələsi milli qüvvələrin daim diqqət mərkəzində olmuş və qadın hüquqlarının genişlənməsinə xüsusi əhəmiyyət verilmişdir. 1972-ci ildə keçirilən Respublika qadınlarının IV Qurultayı ölkənin həyatında böyük ictimai-siyasi hadisəyə çevrilmiş və qadınların rolunun genişləndirilməsinə əhəmiyyətli təsir göstərmişdir. Keçən əsrin 70-ci illərinin ortalarına dair statistik məlumatların təhlilindən görünür ki, bu illərdə Azərbaycan qadınlarının 32 nəfəri SSRİ Ali Sovetinin, 22 731 nəfəri yerli sovetlərin deputatı, 200 nəfər qadın isə Sosialist Əməyi Qəhrəmanı kimi yüksək adın daşıyıcısı olmuşdur.[2]

«Azərbaycan Respublikasının Dövlət Müstəqilliyi haqqında Konstitusiya Aktı»na görə, Azərbaycan Respublikası 1918-ci il mayın 28-dən 1920-ci il aprelin 28-ə qədər mövcud olmuş Azərbaycan Xalq Cümhuriyyətinin varisi elan edilmişdir.[3] Bu aktın 19-cu maddəsində «İnsan hüquqları haqqında Ümumi Bəyannamə»də, Helsinki müşavirəsinin yekun aktında və hamılıqla qəbul edilmiş başqa beynəlxalq hüququ sənədlərdə nəzərdə tutulan bütün hüquqların və azadlıqların ölkədə maneəsiz həyata keçirilməsinə təminat verilmişdir. Konstitusiya mahiyyəti daşıyan bu mühüm sənəddə qadın hüquqlarının və azadlıqlarının mükəmməl təsbit olunması və onlara əməl edilməsi bir vəzifə olaraq qarşıya qoyulmuşdur.[4] Bununla yanaşı, ölkəmizdə qadın hüquqlarının beynəlxalq standartlara uyğunlaşdırılması sahəsində ən dəyərli və möhtəbər hüquqi sənəd 12 noyabr

---

[1] Camalova D.,Ömərova M., Gəncəli S. Qadın hərəkatının ön cərgələrində, Bakı, 2004, s.11-12

[2] Yenə orada, s.21-32

[3] Azərbaycan Respublikasının Dövlət Müstəqilliyi haqqında Konstitusiya Aktı, Bakı, 1994, s.3-10

[4] Yenə orada, s.3-10

1995-ci ildə referendum yolu ilə qəbul edilmiş Azərbaycan Respublikasının Konstitusiyası olmuşdur. Konstitusiya (lat. constitutio - «quruluş») dövlətin əsas qanunu olmaqla, ali hüquqi qüvvəyə malikdir. Bu sənəd dövlətin siyasi, hüquqi, iqtisadi, sosial sisteminin əsasını təsbit edir, ölkə vətəndaşlarının hüquqlarını və azadlıqlarını, onların təminatlarını müəyyən edir. «Konstitusiya» sözünün hərfi mənası «qurmaq, yaratmaq, əsasını qoymaq» mənasını verməklə, o aid olduğu dövlətin strukturunun əsasını, məqsədlərini və vəzifələrini, vətəndaşların statusunu, dövlətin hakimiyyət qollarını, hüquq sisteminin əsasını özündə əks etdirir. Ən ümumi şəkildə konstitusiya - ali hüquqi qüvvəyə malik olan, bir tərəfdən insan və cəmiyyət, digər tərəfdən insan və dövlət arasında münasibətləri, dövlətin özünün təşkili əsaslarını tənzimləyən hüquq normalarının sistemi olmaq etibarı ilə[1] onun tənzimləmə obyektləri sırasında dövlətin və şəxsiyyətin, insanın və vətəndaşın hüquqları və azadlıqları, onların konstitusiya təminatları mühüm əhəmiyyət kəsb edir.[2] Dövlətin Əsas Qanunu hesab edilən Konstitusiyada qadının statusunun – hüquqlarının, azadlıqlarının, vəzifələrinin, məsuliyyətinin təsbit olunması bir insan, bir vətəndaş və bir şəxsiyyət kimi qadına qoyulan böyük hörmətin, diqqətin və qayğının nəticəsi kimi qiymətləndirilməlidir.

Konstitusiyamızın ikinci bölməsinin üçüncü fəsli bütünlüklə «Əsas insan və vətəndaş hüquqlarına və azadlıqlarına» həsr olunmuş, kişinin və qadının eyni hüquqları və azadlıqları olduğu təsbit olunmuşdur. Burada göstərilmişdir ki, Azərbaycan dövləti irqindən, milliyyətindən, dinindən, dilindən, cinsindən, mənşəyindən, əmlak vəziyyətindən, qulluq mövqeyindən, əqidəsindən, siyasi partiyalara, həmkarlar ittifaqlarına və digər ictimai birliklərə mənsubiyyətindən asılı olmayaraq, hər kəsin hüquqlarının və azadlıqlarının bərabərliyinə təminat verir. İnsanın və vətəndaş hüquqlarını və azadlıqlarını irqi, milli, dini, cinsi, mənşəyi, dili, əqidəsi, siyasi və sosial mənsubiyyət əlamətlərinə görə məhdudlaşdırılması, bu göstəricilərə görə ayrı-seçkilik

[1] Nağıyev F. Konstitusiya hüququ, Bakı, 2009, s.16
[2] Azərbaycan Respublikasının Konstitusiyası, Bakı, «Hüquq ədəbiyyatı» nəşriyyatı, s. 7-9; Əsgərov Z. Konstitusiya hüququ, Bakı, 2011, s. 113-285

qadağan edilmişdir. Ümumiyyətlə, Konstitusiyada bir insan kimi qadının hüquqlarının və azadlıqlarının geniş təsbit olunması mükəmməl formada təmin edilmişdir.[1]

Ölkəmizdə müstəqillik illərində cəmiyyətin əsas özəyi kimi ailə dövlətin xüsusi himayəsinə götürülmüş, insan hüquqlarının və azadlıqlarının müdafiəsi sahəsində beynəlxalq standartlara cavab verən müdafiə mexanizmlərinin, İnsan Hüquqları üzrə Müvəkkilin (Ombudsman), Konstitusiya məhkəməsinin, üçpilləli məhkəmə sisteminin, hüquq-mühafizə orqanlarının, vətəndaş cəmiyyətinin çoxsaylı müxtəlif təsisatlarının təşəkkülü və inkişafı sahəsində bu vaxta qədər olmayan uğurlu nailiyyətlər əldə edilmişdir. Ulu Öndər Heydər Əliyev 19 sentyabr 1994-cü ildə «Qadınların IV Ümumdünya Konfransına hazırlıq»la əlaqədar olaraq «Azərbaycan qadınlarının Milli Komitəsinin yaradılması haqqında» Fərman imzalamışdır. Nəticədə 1995-ci ildə Pekində keçirilən IV Ümumdünya Qadınlar Konfransında Azərbaycan qadınları geniş şəkildə təmsil olunmuş və konfransın işində fəal iştirak etmişlər. İlk dəfə olaraq Azərbaycan qadınları beynəlxalq səviyyəli tədbirdə bu qədər geniş tərkibdə və yüksək səviyyədə təmsil olunmuşlar. 30 iyun 1995-ci ildə Azərbaycan Respublikası Birləşmiş Millətlər Təşkilatının 18 dekabr 1979-cu il tarixli «Qadınlar barəsində ayrı-seçkiliyin bütün formalarının ləğv edilməsi haqqında» Konvensiyasına qoşulmuş və öz üzərinə müvafiq öhdəliklər götürmüşdür.[2] Eləcə də ölkədə qadın siyasətinin əsas istiqamətlərini müəyyən etmək, bu sahədə məqsədyönlü iş aparmaq, problemləri həll etmək, qadınların kişilərlə bərabərliyini, xüsusi ilə onların dövlət idarəçiliyində fəal iştirakının təşkil və təmin olunmasını həyata keçirmək məqsədi ilə Heydər Əliyevin 14 yanvar 1998-ci il tarixli 668 saylı Fərmanı ilə, ölkədə «Qadın problemləri üzrə Dövlət Ko-

---

[1] Azərbaycan Respublikasının Konstitusiyası, Bakı, «Hüquq ədəbiyyatı» nəşriyyatı, s. 7-9; Əsgərov Z. Konstitusiya hüququ, Bakı, 2011, s. 113-285

[2] Hüseynov L. Beynəlxalq hüquq, Bakı, 2000, s.8; Abdullayev F. Azərbaycan Respublikasında Konstitusiya icraatının nəzəri və praktiki problemləri, Bakı, «Elm», 2009, s. 60-81; Abdullayev F. Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin hüquqi mövqeləri, Bakı, 2013, s.11-20

mitəsi» yaradılmış, 14 yanvar 1998-ci il tarixdə «Azərbaycanda qadınların rolunun artırılması tədbirləri haqqında» 727№-li Sərəncam imzalanmışdır. Bunun ardınca 25 sentyabr 1998-ci ildə Müstəqil Azərbaycan Respublikası qadınlarının ilk Qurultayı keçirilmişdir. Bu tədbir cəmiyyətdə qadınların rolunun əhəmiyyətli dərəcədə artırmışdır.[1] Nikah və ailə münasibətlərinin tənzim olunmasında 28 dekabr 1999-cu il tarixdə qəbul edilmiş Ailə Məcəlləsinin böyük tarixi əhəmiyyəti və rolu olmuşdur. 6 mart 2000-ci ildə Ümummilli Lider Heydər Əliyev «Azərbaycan Respublikasında dövlət qadın siyasətinin həyata keçirilməsi haqqında» 289 saylı Fərman imzalamışdır. Buna müvafiq olaraq elə həmin vaxt Azərbaycan Respublikası Nazirlər Kabinetinin 33 saylı Qərarı ilə «2000-2005-ci illər üçün Azərbaycan Respublikasının Qadın Problemləri üzrə Milli Fəaliyyət Planı» təsdiq edilmişdir. Belə fəaliyyət proqramlarının hazırlanması, qəbul edilməsi və icrası sonrakı illərdə də ənənə şəklini almışdır. Bu da dövlətin qadın siyasəti sahəsində konkret vəzifələrinin müəyyən edilməsi, onların planlaşdırılması və həyata keçirilməsi sahəsində səmərəli fəaliyyətin uğurla davam etdirilməsinə imkan yaratmışdır. 2003-cü ilin sentyabr ayında keçirilən Azərbaycan qadınlarının II Qurultayı qarşıda duran mühüm vəzifələri geniş müzakirə etmiş və müvafiq qərar qəbul olunmuşdur. Ümumiyyətlə, Azərbaycan qadınlarının I, II və III Qurultayları müstəqillik dövründə ölkənin qadın siyasətinin əsas istiqamətlərini və hədəflərini konkretləşdirmişdir.[2] Azərbaycan Respublikası dövlət müstəqilliyini bərpa etdikdən sonra qadın hüquqları ilə bağlı zəruri olan bütün beynəlxalq Konvensiyalar ratifikasiya edilmiş, Milli Qanunvericiliyin beynəlxalq standartlara uyğunlaşdırılması sahəsində geniş tədbirlər həyata keçirilmişdir. BMT-nin «İnsan alverinə və üçüncü şəxslər tərəfindən fahişəliyin istismarına qarşı» 2 dekabr 1949-cu il tarixli Konvensiyasının 31 may 1996-cı ildə, «Qadınların siyasi hüquqları haqqında» 20 dekabr 1952-ci il tarixli Konvensiyasının 4 avqust 1992-ci ildə, «İrqi ayrı-seçkiliyin bü-

---

[1] Heydər Əliyev və dövlət qadın siyasəti, Bakı, 2008, s.171

[2] Ailə, qadın, uşaq. Azərbaycan Respublikasının Ailə, qadın və uşaq problemləri üzrə Dövlət Komitəsinin 5 illiyinə həsr olunmuş xüsusi buraxılış, Bakı, mart 2011, s. 6-21

tün formalarının aradan qaldırılması haqqında» 21 dekabr 1965-ci il tarixli Konvensiyasının 31 may 1996-cı ildə, «Qadınlar barəsində ayrı-seçkiliyin bütün formalarının ləğv edilməsi haqqında» 18 dekabr 1979-cu il tarixli Konvensiyasının 30 iyun 1995-ci ildə, «İşgəncələrə və digər qəddar, qeyri-insani və ya ləyaqəti alçaldan davranış və cəza növlərinə qarşı mübarizə haqqında» 10 dekabr 1984-cü il tarixli Konvensiyasının 31 may 1996-cı ildə, «Ərdə olan qadının vətəndaşlığı haqqında» 29 yanvar 1957-ci il tarixlı Konvensiyasının 31 may 1996-cı ildə ratifikasiyası Milli Məclis tərəfindən həyata keçirilmişdir.

Avropa Şurasının, digər beynəlxalq və regional təşkilatların qadın hüquqları ilə bağlı sənədləri ölkəmizdə ratifikasiya edilmiş və milli qanunvericilikdə bütün bunların nəzərə alınması təmin olunmuşdur. Müstəqillik illərində qadın hüquqları, yalnız Konstitusiya səviyyəsində deyil, digər normativ hüquqi aktların layihələrinin hazırlanmasında, müzakirəsində və qəbulunda da nəzərə alınmışdır. Belə ki, Azərbaycan Respublikasının Cinayət Məcəlləsində, Mülki Məcəlləsində, Əmək Məcəlləsində, İnzibati - Xətalar Məcəlləsində, İnzibati - İcraat haqqında Məcəllədə, Cəzaların İcrası Məcəlləsində, sosial təminat hüququnun müxtəlif məsələlərinə dair qanunlarda, digər çoxsaylı normativ hüquqi aktlarda, hökumətin qəbul etdiyi qərarlarda qadın hüquqları ilə bağlı tənzimetmə məsələləri beynəlxalq standartlara tam cavab verə bilən bir səviyyədə hazırlanmış və qəbul edilmişdir. Qadın hüquqları ilə sıx bağlı olan yetkinlik yaşına çatmamışların hüquqlarının qorunması sahəsində zəruri olan bir çox qanunlar qəbul edilmişdir. «Repreduktiv sağlamlığın qorunması və ailə planlaşdırılması haqqında» Azərbaycan Respublikasının Qanun Layihəsi müxtəlif təşkilatlarda mütəxəssislər tərəfindən geniş müzakirə edilmiş və bu müzakirələr ölkədə böyük marağa səbəb olmuşdur. Qürur hissi ilə qeyd etmək lazımdır ki, Ulu Öndərimiz Heydər Əliyevin hələ 1969-cu ildən başlayaraq əsasını qoyduğu, müstəqillik illərində tam formalaşdırılmış qadın siyasəti və bu sahədə ictimai münasibətlərin hüquqi tənzimlənməsi tədbirləri, cənab Prezidentimiz İlham Əliyev tərəfindən də uğurla davam etdirilməkdədir. Belə ki, ölkə prezidenti,

cənab İlham Əliyevin 6 fevral 2006-cı il tarixli 361 saylı Fərmanı ilə «Qadın problemləri üzrə Dövlət Komitəsi»nin statusu daha da təkmilləşdiriləræk «Ailə, qadın və uşaq problemləri üzrə Dövlət Komitəsi» yaradılmış, onun səlahiyyətləri, hüquqları və fəaliyyət dairəsi genişləndirilmişdir. Komitənin müxtəlif istiqamətlərdə keçirdiyi tədbirlər ölkədə qadın hüquqlarının möhkəmləndirilməsinə əhəmiyyətli təsir göstərmişdir. «Qadınlara münasibətdə ayrı-seçkiliyin bütün formalarının ləğv olunması haqqında» Konvensiya üzrə IV dövr hesabatı ilə əlaqədar olaraq Komitənin həyata keçirdiyi tədbirlər kompleksi və onun nəticələri uğurlu olmuşdur. Hesabat dövründə ölkədə ayrı-seçkiliyə qarşı mübarizədə qanunvericilik tədbirlərinin gücləndirilməsi, 2008-2012-ci illərə dair Milli Fəaliyyət Proqramının həyata keçirilməsi, qadınların irəli çəkilməsi sahəsində vacib hesab edilən təkliflər, qadın alveri və fahişəliyin üçüncü şəxslər tərəfindən istismarına qarşı mübarizənin təkmilləşdirilməsi tədbirləri, ictimai-siyasi həyatda, təhsildə, elmdə, məşğulluq sahəsində, qadın sağlamlığının təmin olunmasında, cəzaçəkmə yerlərində saxlanılan qadınların hüquqlarının qorunmasında, ailə münasibətlərində qadınlara qarşı ayrı-seçkiliyin aradan qaldırılmasında, məişət zorakılığına qarşı mübarizədə kənd qadınlarının məşğulluq fəaliyyətinin yaxşılaşdırılması sahəsində həyata keçeirilən fəaliyyət və yeni dövr üçün hazırlanan tədbirlər planı mühüm əhəmiyyət kəsb etmişdir.[1]

10 oktyabr 2006-cı ildə «Gender (kişi və qadınların) bərabərliyinin təminatları haqqında», 22 iyun 2010-ci ildə «Məişət zorakılığının qarşısının alınması haqqında» qanunlar qəbul edilmişdir.[2] 2010-cu ilin may ayının 24-də Avropa Şurasının qadınlar və kişilər arasında bərabərlik məsələlərinə məsul nazirlərin «Gender bərabərliyi: de-yure və de-fakto bərabərliyinin təmin olunması» mövzusunda VII konfransının Bakı Bəyannaməsinin qəbul edilməsi qadın problemləri-

[1] Azərbaycan Respublikasının BMT-nin "Qadınlara münasibətdə ayrı-seçkiliyin bütün formalarının ləğv olunması haqqında" Konvensiyası üzrə 4-cü dövri hesabatı, Bakı, 2009, s.6-54

[2] «Məişət zorakılığının qarşısının alınması haqqında» Azərbaycan Respublikası Qanunun Kommentariyası, Bakı, 2011, s.28-42

nin həllində Azərbaycanın aparıcı mövqe daşımasının bariz nümunəsi idi. 29 dekabr 2012-ci il tarixli 800 saylı Sərəncamla «Azərbaycan 2020: Gələcəyə baxış İnkişaf Konsepsiyası»nın hazırlanması, «Azərbaycan ailəsi strategiyası»nın, habelə «Gender bərabərliyi üzrə Milli Fəaliyyət Planı»nın, «Milli Uşaq strategiyası»nın və digər bu kimi sənədlərin qəbul edilməsi ölkəmizdə ailə, qadın və uşaq problemlərinin uğurlu həllinə stimul vermişdir. Bu gün müstəqil Azərbaycanda qadınların sayı, dövlətin və cəmiyyətin həyatında onların rolu və təsiri sürətlə artmaqda və genişlənməkdədir. Belə bir mərhələdə ölkəmizdə qadın hüquqlarının və azadlıqlarının konstitusiyada təsbit olunması, qorunması, mühafizəsi və qadın hüquqlarının daim genişləndirilməsi istiqamətində sistemli, ardıcıl və kompleks tədbirlər hazırlanmış və həyata keçirilməkdədir. Cəmiyyətdə, dövlət həyatında və ailədə qadın nə qədər xoşbəxtdirsə, bu eyni dərəcədə cəmiyyətə, dövlətə və ailəyə də aiddir. Aparılan təhlillər göstərir ki, bu gün konstitusiya və beynəlxalq hüquqda qadın hüquqlarının və azadlıqlarının səciyyəvi xüsusiyyətlərinin müəyyən edilməsi, müqayisəli təhlillərinin aparılması, kompleks elmi-nəzəri təhlili və tədqiqi son dərəcə aktual və vacibdir. Qadın hüquqları sahəsində beynəlxalq hüquqi sənədlərdə nəzərdə tutulan standartların Azərbaycan Respublikası Konstitusiyasında təsbit olunması qadınlara münasibətdə müstəqilliyin ən böyük nailiyyətlərindən biri hesab oluna bilər.[1]

Azərbaycan Respublikasının suveren bir dövlət kimi yaranmasında, inkişafında və möhkəmləndirilməsində əsas qanun hesab edilən Konstitusiyamızın olduqca mühüm yeri və rolu olmuşdur. Bu mühüm sənəd xalqın iradəsini ifadə etməklə ali hüquqi qüvvəyə malikdir və ölkədə ondan yüksək normativ hüquqi akt yoxdur. Azərbaycan Respublikası Konstitusiyasının referendum - ümumxalq səsverməsi yolu ilə qəbul edilməsi onun ən yüksək, demokratik və hüquqi əsaslarını səciyyələndirən mühüm keyfiyyət göstəricisi kimi qiymətləndirilə bilər. Konstitusiya hüququnun mənbələri sırasında təbii hüquq və pozitiv hüquq mənbələri əsas rol oynayır və aparıcı

[1] "Azərbaycan qəzeti" 11 oktyabr 2006-cı il; "Azərbaycan qəzeti", 2 dekabr 2006-cı il

mahiyyət daşıyır. Bu mənada Azərbaycan Respublikasının Konstitusiyası xalq hakimiyyətini, dövlətin hüquqi əsaslarını, əsas insan və vətəndaş hüquqlarını və azadlıqlarını, qanunverici, icraedici və məhkəmə hakimiyyətini özündə birləşdirən dövlət hakimiyyətini, o cümlədən Naxşıvan Muxtar Respublikasının hüquqlarını, səlahiyyətlərini və vəzifələrini, yerli özünüidarə orqanlarının statusunu, qanunvericilik sistemini, konstitusiyaya edilə bilən dəyişikliklərin və əlavələrin hüquqi əsaslarını özündə ehtiva edən, ən yüksək hüquqi qüvvəyə malik olan normativ hüquqi akt hesab edilir. O, ölkənin sosial, siyasi, hüquqi, iqtisadi və digər sahələrdə ictimai münasibətlərini ali səviyyədə tənzim edən ən mühüm sənəddir. Ölkədə bütün digər hüquqi aktlar yalnız onun əsasında, ona müvafiq olaraq və onun tələblərinə cavab verən bir səviyyədə qəbul edilə bilər. Azərbaycan Respublikasının Konstitusiyası, xalq hakimiyyətinin və xalq suverenliyinin tanınmasını, əsas dövlət orqanlarının seçkili olmasını, dövlət idarəetməsində vətəndaşların hüquq bərabərliyinin təmin edilməsini, taleyüklü qərarların çoxluq tərəfindən qəbulunu, dəstəklənməsini vacib hesab edir və bu şərtlərə əsaslanır. İnsan hüquqlarının və azadlıqlarının anadangəlmə, ayrılmaz və universal xarakterini, qanunun aliliyini, şəxsiyyətin hüquqlarının təmin olunmasını, hakimiyyət bölgüsünün real surətdə həyata keçirilməsini, müstəqil məhkəmə hakimiyyətinin mövcudluğunu, xalqın – hakimiyyətin mənbəyi olması kimi prinsiplərə əsaslanır. Azərbaycan Respublikasının yeni konstitusiyasının ən mühüm keyfiyyət göstəricilərindən biri də ondan ibarətdir ki, bu sənəd beynəlxalq hüququn hamı tərəfindən qəbul edilmiş prinsiplərinə, normalarına, şərtlərinə, beynəlxalq konvensiyaların tələblərinə əsaslanır, insan hüquqlarının və azadlıqlarının təmin olunmasını dövlətin qarşısında duran mühüm vəzifələrdən biri hesab edir. Bu sənəddə ölkəmizdə qadın hüquqlarının və azadlıqlarının ən yüksək səviyyədə təsbit olunmasına, onun müdafiəsinə və mühafizəsinə xüsusi önəm verilmişdir.[1]

---

[1] Azərbaycan Respublikasının Konstitusiyası, Bakı, 2014, s.5-34

Bütün bu tədbirlərə baxmayaraq, ölkəmizdə qadın hüquqlarının və azadlıqlarının konstitusiya hüququ tədqiqi indiyə qədər müstəqil araşdırma mövzusu olmamışdır. Müstəqillik illərində demokratik, hüquqi, dünyəvi və unitar respublika quran, insan və vətəndaş hüquqlarının və əsas azadlıqlarının təmin olunmasını, vətəndaşlarına layiqli həyat səviyyəsinin təmin edilməsini başlıca və şərəfli vəzifəsi hesab edən Azərbaycan Respublikasında, qadının konstitusiya statusunun elmi-nəzəri tədqiqinə və hüquqi tənzimlənməsinə dair mükəmməl təkliflərin verilməsi, son dərəcə aktual və vacibdir. Bu problemin konstitusiya hüququ ilə beynəlxalq hüququn müqayisəli, kompleks və sistemli tədqiqi əsasında, ümumelmi və xüsusi elmi tədqiqat metodlarından, nəzəri, təcrübi təlimlərdən beynəlxalq ənənələrdən və elmi yanaşmalardan yaradıcılıqla istifadə etməklə araşdırılması milli elmimiz qarşısında duran mühüm vəzifələrdən biridir.

Qadın hüquqlarının və azadlıqlarının konstitusiya və beynəlxalq hüquqi istiqamətdə tədqiqi zamanı çoxsaylı elmi nəzəri ədəbiyyatlardan, beynəlxalq hüquqi sənədlərdən, konstitusiya və digər normativ hüquqi aktlardan geniş istifadə olunmuş, bu sahədə problemlər müəyyən edilmiş və onların aradan qaldırılmasının konkret yolları göstərilmişdir. Bu araşdırmalar zamanı konstitusiya və beynəlxalq hüquq sahəsində tanınmış dünya alimləri ilə yanaşı, milli hüquq elmimizin inkişafında böyük xidmətlər göstərmiş görkəmli tədqiqatçıların - Cahangir Kərimovun, Məsumə Məlikovanın, Murtuz Ələsgərovun, Urxan Ələkbərovun, Xanlar Hacıyevin, Fərhad Abdullayevin, Fuad Ələsgərovun, Lətif Hüseynovun, Elmira Süleymanıvanın, Rüstəm Məmmədovun, Əlikram Abdullayevin, Əmir Əliyevin, Şahin Əliyevin, Ziyafət Əsgərovun, Səfa Mirzəyevin, İlyas İsmayılovun, İbrahim Quliyevin, İlham Məmmədzadənin, Həsən Əlibəylinin, Əfsər Sadıqovun, Oqtay Əfəndiyevin, Vüqar Məmmədovun, Vəfaddin İbayevin, İlham Rəhimovun, Habil Qurbanovun, Məhəbbət Dəmirçiyevanın, Hicran Hüseynovanın, Rəna Mirzəzadənin, Əbülhəsən Abbasovun, Əli Abasovun, Zakir Qasımovun, Fəxrəddin Nağıyevin, Alış Qasımovun, Mais Əliyevin, Fərhad Mehdiyevin, Əli Hüseynovun, Şəhriyar Əliyevin, İsaxan Vəliyevin, Əli Rzayevin, Ənvər Seyidovun, Ceyhun

Süleymanovun, Zaur Əliyevin, Aydın Səfixanovun, Etibar Əliyevin, Aytən Mustafayevanın, Lalə Mövsümovanın, Ramiz Sevdimalıyevin, Rauf Qarayevin, Ceyhun Qaracayevin, Kamran Şəfiyevin, Rövşən İsmayılovun və başqa görkəmli tədqiqatçılarımızın əsərlərindən geniş və yaradıcılıqla istifadə edilmişdir.[1]

---

[1] Рудинский Ф.М. Наука прав человека и проблемы конституционного права, Москва, 2006 г. с. 207-210; Гражданин, закон и публичная власть, Москва, «Норма», 2005, с.120; Карташкин В.А. Права человека: международная защита в условиях глобализации, Москва, «Норма», 2009, с.51-57; Международная и внутригосударственная защита прав человека, (Учебник) Москва, «Статус», 2011, с. 73-75; Тегеран, Ялта: Постдам: Сборник документов, М., 1971, с. 8-10; Международное право, Москва, «Международные отношения», 2003, с. 67-70; Иванов Г.И. Права человека, Минск, «Дикта», 2011, с.112-114; Мовсумова Л.Д. Женское начало в истории человечества, Баку, 2011, с.17-20; Нуркаева Т.Н. Личные (гражданские) права и свободы человека и их охрана уголовно-правовыми средствами, Санкт-Петербург, 2003, с.201-203; Тасаков С.В. Нравственные основы норм уголовного права о преступлениях против личности, Санкт-Петербург, 2008, с.6-7; Энтин М.Л. Международные гарантии прав человека, опыт Совета Европы, Москва, 1997, с.196; Поленина С.В. Права женщин в системе прав человека: международный и национальный аспект, Москва, 2000, с.22-24; Дмитриева Г.К. Международная защита прав женщины, Киев, с.34-36; Пекинская декларация, платформа действий. Принятая 15 сентября 1995 года, с.67-68; Воеводин Л.Д. Юридический статус личности в России. Учебное пособие. М., Издательсво МГУ, Издателская группа ИФРА, 1997, с.47-50; Дамирчиева М.Д. Актуальные проблемы брачных правоотношений в Азербайджанской Республике, Автореферат диссертации на соискание ученой степени доктора юридических наук, Тбилиси, 2003, 107 стр.; Abdullayev F. Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin hüquqi möbqeləri, Bakı, 2013; Mehdiyev F. Nəzəriyyə və təcrübədə insan hüquqları, Bakı, 2013, s.45-47; Qadın hüquqları beynəlxalq hüquq və milli qanunvericilikdə, Bakı, 2002, s.12-14; İbrahimova G. Azərbaycan qadını: tarix və gerçəklik, Bakı, «Elm», 2009, s.332-334; Yusifpur Hacı Əbhürrəhman İslam dinində qadın məsələsi, Bakı, 1995, s.14-16; Qadın hüquqları: reallıq faktları təkzib edir, Bakı, 2001, s.11-12; Azərbaycan Respublikasının Konstitusiyası, Bakı, «Hüquq ədəbiyyatı», 2009, s.42; Əsgərov Z. Konstitusiya hüququ (dərslik), Bakı, 2011, s.567-570; Cəfərov İ. Azərbaycan Respublikası Konstitusiyasının şərhi, Bakı, «Hüquq ədəbiyyatı», 2010, s.456-457; Nağıyev F. Konstitusiya hüququ, Bakı, «Qanun», 2009; Qadın hüquqları üzrə bələdçi, Bakı, «Hüquq ədəbiyyatı», 2012, s.31-32; Gender terminlərinin izahlı lüğəti, Bakı, 2005, s.9-11; İnsan hüquqları, Bakı, 2007, «Çaşoğlu», s. 6-7; İnsan hüquqları, Bakı, «Adiloğlu», 2008, s.789-790; İnsan hüquqla-

Tədqiqat zamanı qadın hüquqlarının təşkilati-hüquqi istiqamətlərdə təkmilləşdirilməsinə dair təkliflər irəli sürülmüş, «Qadın hüquqları və azadlıqları haqqında Azərbaycan Respublikasının Qanunu»nun layihəsi ilk dəfə olaraq hazırlanıb müvafiq orqanlara göndərilmişdir.

Ümid etmək olar ki, «Azərbaycanda qadın hüquqları və azadlıqları (konstitusiya və beynəlxalq hüquqi təhlil)» adlı monoqrafiya hüquqşünas alimlərin, tələbələrin, hüquq müdafiəçilərinin və geniş oxucu kütləsinin marağına səbəb olacaqdır.

---

rı: bəşər rifahının təməli, Bakı, «İnam» Plüralizm Mərkəzi, 2001, s.96-98; İnsan hüquqları, Bakı, «Şirvannəşr», 2005 (E.A.Likaşevanın rəhbərliyi ilə hazırlanmış dərsliyin tərcüməsi), s.324-326; Əliyev Ə. İnsan hüquqları (dərslik), Bakı, 2013-cü il; Əliyev Ə. İnsan hüquqlarının beynəlxalq-hüquqi müdafiəsi, Bakı, 2009; Heydər Əliyev və dövlət qadın siyasəti, Bakı, 2008; Dəmirçiyeva M. Azərbaycan Respublikasının ailə hüququ, Bakı, "Qanun", 2008; Abdullayev Ə., Azarov A., Hüfner K., Röyter V. İnsan hüquqları: Beynəlxalq və milli müdafiə mexanimzləri, Bakı, 2008

# I FƏSİL

## MÜSTƏQİLLİK İLLƏRİNDƏ AZƏRBAYCANDA KONSTİTUSİYA VƏ BEYNƏLXALQ HÜQUQUN İNKİŞAF DİNAMİKASI

Dövlət cəmiyyəti təmsil edən, cəmiyyət üzərində rəhbərliyi və kütləvi hakimiyyəti həyata keçirən, onun inteqrasiyasını təmin edən, xüsusi idarəçilik və məcburiyyət aparatına malik olan elə bir vahid siyasi təşkilatıdır ki, o öz hakimiyyətini ölkənin bütün ərazisinə və əhalisinə şamil etməklə, yaratdığı xüsusi idarəetmə aparatı vasitəsi ilə öz daxili və xarici funksiyalarını həyata keçirir, ümumi göstərişlər verir və məcburiyət aparatına malikdir.[1] Bu mexanizmlər qanunverici, icraedici və məhkəmə hakimiyyəti orqanlarının sistemini əhatə etməklə, dövlətin əsas fəaliyyət istiqamətlərinə müvafiq olaraq, onun başlıca funksiyalarının həyata keçirilməsini təmin edir. Buna görə də ölkə miqyasında yeganə suveren hakimiyyətin məhz dövlətə mənsub olması ideyası bütün mütərəqqi nəzəriyyəçilər tərəfindən birmənalı şəkildə müdafiə edilir. Dövlət ölkənin daxilində və xaricində tam müstəqil olmaqla heç bir qurumdan, heç bir təşkilatdan asılı ola bilməz. «Dövlətlərin hüquqları və vəzifələri haqqında» VII Panamerika Konfransında qəbul edilmiş 1933-cü il «Beynəlxalq Montevidio Konvensiyası»nın tələblərinə görə, dövlət daimi milli əhaliyə, əraziyə, iqtisadi həyat birliyinə, hökumətə, başqa dövlətlərlə müstəqil olaraq əlaqələr qurmaq qabiliyyətinə malik olan xüsusiyyətlərə sahib olmalıdır.[2] Başqa sözlə hər bir dövlət, iqtisadi, siyasi və hüquqi cəhətdən müstəqil və suveren olması ilə səciyyəvidir. Buna görə də digər dövlətin qanuni və suveren hakimiyyəti altında olan ərazilər bir qayda

---

[1] Ümumi hüquq və dövlət nəzəriyyəsi, Bakı, 2006, s.40-41

[2] Ümumi hüquq və dövlət nəzəriyyəsi, Bakı, 2006, s.66; Hüseynov L. Beynəlxalq hüquq, Bakı, 2000, s.49

olaraq dövlət hesab edilə bilməz. Bu mənada suveren Azərbaycan Respublikasının ərazisi hesabına yaradılmış separatçı «Dağlıq Qarabağ» qondarma qurumu faktiki olaraq, başqa bir ölkənin, Ermənistanın hakimiyyəti altında fəaliyyət göstərməklə heç vaxtı dövlət hesab oluna bilməz. Belə qondarma bir qurum heç bir prespektiv vəd etmir.

Beynəlxalq hüquqda dövlətin mövcud olması, dövlətin suverenlik göstəricisi ilə sıx bağlıdır. Suverenlik dövlət hakimiyyətinin konkret ərazi daxilində müstəqilliyyinin və aliliyinin keyfiyyət göstəricisidir. Dövlətin daxili suverenliyi konstitusiya hüququ, xarici suverenliyi isə beynəlxalq hüquq elmi tərəfindən öyrənilir.[1] «Cəmiyyət hüququ», «dünya hüququ», «qlobal hüquq», «dövlətlərarası hüquq» və s. adlarla təqdim edilən müasir beynəlxalq hüququn və son dərəcə əhəmiyyətli olan konstitusiya hüquq elminin inkişafında, dünyada tanınmış ictimai siyasi xadimlərin, dövlət başçılarının, diplomatların, konstitusiya hüququ üzrə tanınmış alimlərin bu və ya digər dərəcədə rolu olmuşdur.[2]

Dövlətdaxili və beynəlxalq hüququn biri digərinə nisbəti məsələsi tədqiqatçı alimləri uzun müddət düşündürmüş və bu problemə yanaşma öz aktuallığını bu gündə saxlamaqdadır. Alimlərin bir hissəsi suverenliyin əsasını təşkil edən milli hüquq sistemlərinin vacib və önəmli olduğuna üstünlük verdiyi halda, digər alimlər beynəlxalq hüququn üstünlüyünə xüsusi yer ayırırlar. Bununla belə, tədqiqatlara tarixi yanaşma birmənalı şəkildə təsdiq edir ki, dövlətçiliyin təşəkkülü, əslində milli konstitusiyaların ona müvafiq olan hüquq sistemlərinin yaranması ilə sıx bağlı olmuşdur. Beynəlxalq hüquq isə cəmiyyətin və dövlətin inkişafının sonrakı mərhələlərində, dövlətlər arasında münasibətlərin inkişafının nəticəsi kimi yaranmış, beynəlxalq mühitin təsiri altında formalaşmış və əsasən iyirminci əsrdə mühüm təkamül yolu keçmişdir. İlk baxışda bir ta-

---

[1] Hüseynov L. Beynəlxalq hüquq, Bakı, 2000, s.49

[2] Bax ətraflı: Кожевников Ф.И. Русское государство и меюждународное право, Москва, 1947, с.18-37; Международное право, Москва, 2003, 715 с.; Шумилов В.М. Международное право, Москва, 2007, 485 с.; Международное и внутригосударственная защита прав человека, Москва, 2011, 830 с.

mın iki hissəsi kimi özünü göstərən, əslində isə vahid məqsədə xidmət edən dövlətdaxili və beynəlxalq hüquq sistemlərinin qarşılıqlı əlaqələri, onların birinin digərinə təsiri vaxtaşırı olaraq tədqiq edilmiş və bütün bunlar haqqında oxşar və fərqli mövqelər təşəkkül tapmışdır. Belə fikirlər və mülahizələr, təlimlər və baxışlar bəzən nəzəriyyə səviyyəsinə qədər yüksələ bilmişdir. Bu baxımdan dövlətdaxili və beynəlxalq hüququn biri-birinə olan münasibətinə, onların hər birinin cəmiyyətdə oynadığı rola, məkan və zaman göstəricilərinə, hadisələrə və proseslərə verdiyi qiymətə, tənzimlənmə mexanizmlərinə, sülh proseslərinin təşəkkül tapmasına və digər səciyyəvi xüsusiyyətlərə təsirinə görə monizm nəzəriyyəsi geniş yayılmış baxışlar sistemini özündə ehtiva edir. Bu nəzəriyyənin tərəfdarları belə hesab edirlər ki, əslində beynəlxalq və dövlətdaxili hüquq sistemi vahid bir tamın iki elementi kimi qiymətləndirilməlidir. Monizm nəzəriyyəsinə görə, ümumiyyətlə geniş mənada, hüquq - həmişə müəyyən normativ hüquqi aktlarla dövlətdaxilində və ya beynəlxalq səviyyədə yaranan ictimai münasibətləri tənzimetmə, nizamasalma funksiyası kimi əsas vəzifəni həyata keçirir. Sadəcə olaraq onlar öz təsir dairəsinə görə fərqlənirlər. Belə ki, dövlətdaxili hüquq sistemi konkret ölkənin ərazi yurisdiksiyası daxilində, beynəlxalq hüquq isə müvafiq beynəlxalq məkanda, dövlətlərarasında və ya dövlətlərlə beynəlxalq təşkilatlar arasında olan ictimai münasibətləri tənzim etməsi funksiyalarına görə fərqlənirlər. Lakin onların hər ikisi ictimai münasibətlərin hüquqi baxımdan tənzim etməsi funksiyasını yerinə yetirməklə, oxşar məqsədlərə və təyinata xidmət edirlər. Bununla belə beynəlxalq və dövlətdaxili hüquq arasında müəyyən fərqlərin və hətta bəzən ziddiyyətlərin olması da tamamilə mümkün hesab olunur. Monizm nəzəriyyəsinin səciyyəvi cəhəti bununla fərqlənir ki, bu nəzəriyyə beynəlxalq hüququn üstünlüyünü birmənalı şəkildə qəbul edir. Bu da onu göstərir ki, dövlətin qanunverici orqanı və milli məhkəmələri dövlətdaxili hüquq sisteminin beynəlxalq hüquqa uyğun olmasını tam təmin etmək funksiyasını yerinə yetirməlidir. Bu baxımdan, əgər zərurət yaranarsa, milli məhkəmələrin milli hüquq normasını

tətbiq etməyə tamamilə haqlı olması prinsipi, tam məqbul və qanuni hesab edilir. Monizm nəzəriyyəsinin ideoloqu kimi Hans Kelzen tanınsa da, lakin bu təlimin əsası alman filosofu Fridrix Hegel tərəfindən qoyulmuş və müxtəlif mütəfəkkirlər tərəfindən inkişaf etdirilmişdir. F.Hegelin «monizm nəzəriyyəsi»nə dair baxışlarını hüquq ədəbiyyatında bəzən «tərsinə monizm» nəzəriyyəsi kimi də səciyyələndirirlər.[1]

F.Hegelin baxışlarının mahiyyətində bu cəhət üstün mövqe tutur ki, milli hüquq, beynəlxalq hüquq üzərində üstünlüyə malikdir və əslində beynəlxalq hüquq milli hüququn tərkib hissəsi kimi qəbul edilməlidir. O öz mövqeyini milli suverenliyə əsaslanan dövlət suverenliyinin aparıcı mahiyyət kəsb etməsi motivi ilə əlaqələndirirdi. H.Kelzenin monist konsepsiyasına görə isə beynəlxalq hüquq qaydasının milli hüquq qaydasına olan nisbətini, əslində milli hüquq qaydası ilə korporasiyaların daxili hüquq normaları arasındakı nisbət kimi səciyyələndirmək olar. Bu mənada o belə hesab edir ki, əslində dövləti, yalnız hüquqi hadisə, hüquqi şəxs, başqa sözlə korporasiya kimi nəzərdən keçirmək düzgün olardı. Korporasiya isə hüququn vahid obyekti, hüquqi şəxs kimi aid olduğu fərdlər qrupunu təmsil etməsi ilə fərqlənir. Buna görə də «özünün antiideoloji xarakterinə görə hüquq nəzəriyyəsi, əslində həqiqi hüquq elmi hesab edilməlidir».[2]

Göründüyü kimi müəllif burada «dövlət» və «hüquq» anlayışlarının siyasi təbiətini qəbul etməmiş və onları ideologiyasızlaşdırmağa cəhd göstərmişdir. Bu da onu göstərir ki, mahiyyət etibarı ilə H.Kelzenin «dövlətin suverenliyi» anlayışına yanaşmasında müəyyən qüsurlu elementlər vardır. Başqa sözlə, dövlətin suverenliyini tanımaq o demək deyildir ki, dövlətlərarası beynəlxalq əlaqələrin və qloballaşma proseslərinin gündən-günə artdığı bir şəraitdə suveren dövlətlər yalnız öz daxilinə qapanaraq beynəlxalq aləmdən təcrid olunmuş vəziyyətdə yaşamalı, fəaliyyət göstərməli və beynəl-

---

[1] Kelsen N. General Theory of law and State. Cambridge, 1945, p.XV:

[2] Yenə orada

xalq hüquq normalarına məhəl qoymamalıdır. Bununla yanaşı, dövlətin beynəlxalq hüquq normalarına istisnasız olaraq tabeçilik göstərməsi heç də beynəlxalq hüququn milli hüquqdan tam üstün olması qənaətinə gəlməyə əsas verə bilməz.[1] Dövlətin suverenlik elementləri və onun inkişafı, yalnız dövlətdaxili və beynəlxalq hüquq normalarının qarşılıqlı əlaqələrinin və inteqrasiyasının üzvü surətdə əlaqələndirilməsi şəraitində təmin oluna bilər. Müasir dövlət milli dəyərlərə, milli suverenliyə və dövlətdaxili mükəmməl hüquq sisteminə malik olsa belə, beynəlxalq hüquq və beynəlxalq əlaqələr düzgün qurulmadan, ondan səmərəli istifadə edilmədən, onun mövcudluğu və inkişafı da təsəvvür edilməzdir. Bu mənada beynəlxalq və dövlətdaxili hüquq sisteminin birgə səyi, inteqrasiyası dövlətin dinamik inkişafının, daxili və xarici siyasətinin vacib amillərindəndir.

Beynəlxalq hüquq və dövlətdaxili hüquq sisteminin biri-birindən tamamilə ayrılıqda təsəvvür edən və müstəqil sahələr kimi qəbul edən dualizm nəzəriyyəsinə görə bunların hər biri tənzimetmə və fəaliyyət göstərmə predmetlərinə görə fərqli sahələri əhatə edir və onların eyni sahədə fəaliyyət göstərməsi əslində mümkünsüzdür. Başqa sözlə, tənzimetmə funksiyaları tamamilə fərqlı olan beynəlxalq hüquq, dövlətlər arasında yaranan ictimai münasibətləri tənzim edirsə, milli hüquq sistemi də ölkənin daxilində yaranan ictimai münasibətləri tənzim edir. Bu nəzəriyyənin əsas nümayəndəsi, alman alimi H.Tripel hesab olunur.

Beynəlxalq hüququn və dövlətdaxili hüququn qarşılıqlı münasibətlərinə dair koordinasiya nəzəriyyəsinin nümayəndələri bir qayda olaraq, bu iki hüquq sisteminin eyni sahədə fəaliyyət göstərməsini və eyni predmetli olması müddəasını qəbul etmirlər. Müəlliflərdən Keroli Naqiyə görə «dövlətin və sosial təbəqələrin qarşılıqlı hüquqlarını və vəzifələrini müəyyən edən daxili hüquq sistemini və qanunlarını bilmədən əslində beynəlxalq hüququ başa düş-

---

[1] Kelsen N. General Theory of law and State. Cambridge, 1945, p.XIX

mək və onu tətbiq etmək mümkün deyildir».[1] F.Martens isə hesab edir ki, beynəlxalq hüquq və dövlətdaxili hüquq sistemləri yalnız ayrıca hüquq sahələri deyil, həm də fərqli hüquq sistemləridir. Mahiyyət etibarı ilə onlar yanaşı inkişaf etsə də, lakin heç vaxt biri digərini əvəz etmir və ya biri digərinin qarşısını almır.[2]

Mütəxəssislər təsdiq edirlər ki, beynəlxalq və milli hüququn qarşılıqlı əlaqəsi özünü onların bir-birinə təsiri formasında da təcəssüm etdirir. Burada əsas yeri milli hüququn beynəlxalq hüquqa təsiri amili tutur, çünki beynəlxalq hüququ dövlətlər və ya dövlətlər birliyi yaradır. Milli hüququn təsir amilinin birinciliyinin qəbul edilməsi, milli hüququn beynəlxalq hüquq üzərində üstünlüyünü tanınması kimi başa düşülməməlidir. Bu hər şeydən əvvəl daxili siyasətin xarici siyasətdən ilkin olması ilə əlaqədardır. Daxili siyasət, bir qayda olaraq xarici siyasətə münasibətdə əsasdır və müəyyənedici hesab olunur. Müxtəlif tarixi dövrlərdə konkret ölkələr üçün vəziyyətin əksinə olması təcrübəsinə dair də tarixi faktlar vardır.

Daxili hüququn təsirinin birinci olması o demək deyildir ki, beynəlxalq hüquq normaları ayrı-ayrı məsələlərdə və yanaşmalarda milli hüquq normalarına güzəştə gedir. Dövlətlər öz beynəlxalq öhdəliklərini yerinə yetirməyə borcludurlar. Bu milli hüquq normalarına uyğun olmasa belə, həmin birincilik o deməkdir ki, beynəlxalq hüquq normalarının yaradılması prosesində dövlət, öz milli hüquq prinsiplərinin və normalarının mövqeyindən çıxış edir. Burada söhbət bir qayda olaraq, özünün konstitusiya hüquq normalarında təsbit edilmiş sosial və siyasi quruluşun əsaslarına zidd olan beynəlxalq hüquq normalarının yaradılmasından getmir. Təcrübədə dövlətlər çox vaxt öz milli hüquq sistemində əhəmiyyətli dəyişikliklər etməyi tələb edən beynəlxalq sazişlər bağlamağa o qədər də təşəbbüslər göstərmirlər. Bu da tamamilə təbii və başa

---

[1] Bax: Karoly Nogy/Problems of the relationship international and domestic law| Questions of International law. Leiden, 1993, p.133-134

[2] Мартенс Ф. Современное международное право цивилизованных народов. СПб., 1898, с.188

düşüləndir. Çünki, əslində dövlət öz milli hüququna əsaslanaraq üzərinə götürdüyü beynəlxalq öhdəliyi yerinə yetirməkdən imtina etməyə haqlı hesab oluna bilməz. Belə ki, hər hansı bir dövlət beynəlxalq konvensiyanı və ya beynəlxalq sənədi ratifikasiya edərkən və ya ona qoşularkən, məhz öz müstəqilliyindən və suverenliyindən istifadə edərək hərəkət edir və öz üzərinə müvafiq öhdəlik götürür. Bu baxımdan dövlətin öz öhdəliyindən imtina etməyə haqqı yoxdur. Təsadüfi deyil ki, beynəlxalq hüquqi prinsiplərə görə dövlətlər öz öhdəliklərinə əməl etməməyə görə müəyyən məsuliyyət daşıya bilərlər. Bu isə beynəlxalq hüquqi sanksiyalarla tənzim edilir.

Müəlliflərdən Hans Rupin beynəlxalq hüquqla dövlətdaxili hüququn münasibətləri barədə danışarkən qeyd edir ki, dövlət milli hüquqda təsbit olunmuş xarici siyasət prinsiplərini, siyasi fəaliyyəti və subyektlər arasındakı milli və beynəlxalq münasibətləri tənzim edən milli hüquq sistemlərinə və milli hüquq normalarına istinad edərkən, bu normaların daxili uzlaşmasını təmin edən hüquq və əxlaq qaydalarına zidd getməkdə haqlı hesab oluna bilməz.[1]

Hüquqda «suverenlik» termini ilə ifadə olunan sosial hadisələrin ayrı-ayrı elementləri, öz hüdudlarına görə beynəlxalq aləmin iştirakçıları tərəfindən tanınmış, beynəlxalq hüquq normalarında ifadə olunan «dövlətlərin suverenliyinə hörmət» prinsipinin məzmununu təşkil etməklə, əslində suveren dövlətlərə aid olan hüquqların və vəzifələrin məcmusu kimi özünü göstərir və müəyyən status qazanmış olur. Dövlətin öz daxili həyatında və beynəlxalq aləmdə bilavasitə və ya bilvasitə hüquqyaratma funksiyası, dövlətə xas olan spesifik sosial və hüquqi orqanizmin təcəssümü kimi özünü göstərir. Bu funksiya hər hansı bir tanıma və qeyri-tanımadan asılı olmayaraq mövcud olur. Suverenlik, yalnız müəyyən dərəcədə dövlətin mümkün davranışının ölçüsünü müəyyən edən norma kimi çıxış etdiyi zaman, əslində ona digər dövlətlərin hörmət etmək vəzifəsinə, müvafiq dövlətin subyektiv hüququ kimi baxmaq

[1] Rupp Hans, International law as part of the law of the land. Munich, 1991, page 21

mümkündür. Suveren olmayan dövlət beynəlxalq hüququn subyekti kimi çıxış edə bilməz.

Dövlət və hüquq münasibətlərinin, eləcə də dövlətlərin öz aralarındakı münasibətlərin müasir mərhələsi beynəlxalq miqyasda milli dövlətlərin ictimai-siyasi və diplomatik münasibətlərinin, ikitərəfli və çoxtərəfli əlaqələrinin, dövlətlərlə beynəlxalq və regional təşkilatlar arasındakı münasibətlərin hüquq müstəvisində, ədalətli tənzimlənməsində milli hüquq sistemi ilə yanaşı beynəlxalq hüququn özünəməxsus müstəsna rolu, əhəmiyyəti və yeri vardır. Buna görə də hər hansı bir müstəqil dövlətin və ya öz müstəqilliyini yenicə əldə etmiş dövlətin, müasir inteqrasiya və qloballaşma proseslərini yaşadığımız dövrdə, öz beynəlxalq münasibətlərini və əlaqələrini hüquqi cəhətdən düzgün qurmadan, təşkil etmədən onun, ümumiyyətlə təşəkkülünü və inkişafını təmin etməsi mümkünsüz olardı. Bu baxımdan 28 may 1918-ci ildə Azərbaycan xalqı tarixdə ilk dəfə olaraq özünün müstəqil və demokratik yönümlü dövlətini qurduqdan, habelə 18 oktyabr 1991-ci ildə onu yenidən bərpa etdikdən sonra, beynəlxalq əlaqələrinin və münasibətlərinin səmərəli təşkilinə və inkişafına öz müstəqilliyinin mühüm təminatı kimi xüsusi önəm vermişdir.

Tarixi təcrübə təsdiq edir ki, müstəqilliyini elan etmiş hər bir dövlətin əsas vəzifələrindən birincisi ölkənin daxilində zəruri qayda-qanun, iqtisadi-siyasi və sosial təsisatlar, mexanizmlər yaratmaqdan ibarətdirsə, ikinci əsas vəzifəsi diplomatik əlaqələrinin və beynəlxalq münasibətlərinin mümkün qədər geniş və əhatəli qurmasından ibarətdir. Bunlardan birincisini hüquqi baxımdan ölkənin konstitusiyası vasitəsi ilə bərqərar etmək mümkündürsə, ikincisini beynəlxalq hüquqla və beynəlxalq hüquq normaları ilə tənzim etmək zəruridir. Bu da onu göstərir ki, ölkənin daxili məsələləri konstitusiya ilə, xarici məsələləri isə beynəlxalq hüquq normalar ilə həll edilməlidir. Bunlar biri-biri ilə sıx və üzvü surətdə əlaqələndirilmiş şəkildə istifadə edilməlidir. Qarşıda duran hər iki vəzifə kifayət qədər çətin və məsuliyyətli olmaqla yanaşı dövlət müstəqilliyinin təşəkkülü və inkişafı üçün müstəsna əhəmiyyətə malikdir. Xüsusilə, qloballaşan dünyada, böyük güclərin dünya hökmranlığı uğrunda gərgin mübarizə apardığı bir dövrdə, bu vəzifələrin

uğurlu icrası hər bir müstəqil dövlət üçün son dərəcə aktual mahiyyət daşıyır.

Məlumdur ki, dövlətlər arasındakı münasibətləri nizama salmaq üçün, onların qarşılıqlı razılığı əsasında yaradılan hüquq normalarının bitkin sistemi, geniş mənada, beynəlxalq hüququn əsas mahiyyətini təşkil edir.[1] Beynəlxalq hüquq, eyni zamanda beynəlxalq və regional təşkilatlar arasında olan münasibətlərin tənzimlənməsində mühüm əhəmiyyətə malikdir. Bu hüquq diplomatiya və xarici siyasət məsələlərinin həll edilməsində, tənzimlənməsində və inkişafında geniş istifadə olunur. Ümumiyyətlə, nəzəri baxımdan beynəlxalq hüquq - dövlətlər arasında müvafiq razılaşmalardan sonra qəbul edilən, subyektlər, yəni beynəlxalq təşkilatlar, transmilli koorparasiyalar, habelə fərdlər üçün müəyyən nəticələr doğuran, beynəlxalq hüquqlar və vəzifələr müəyyən edən normalar sistemi kimi səciyyələndirilə bilər. Beynəlxalq hüquq, dövlətlər və beynəlxalq hüququn digər subyektləri arasında yaranan münasibətlərin tənzim edilməsində müstəsna əhəmiyyətə malikdir. Buna görə də son illər müasir beynəlxalq hüquq - hüquq normalarından istifadə etməklə beynəlxalq hüququn digər subyektləri arasındakı qarşılıqlı münasibətləri nizama salmaqla, tənzimetmə vasitəsi kimi ümumi məcburi qaydalar sistemini əhatə etməyə başlamışdır.[2]

Beynəlxalq münasibətlərin tənzimlənməsində beynəlxalq hüquq aparıcı mahiyyət daşıyır. Bu da onunla əlaqədardır ki, dövlətlər və beynəlxalq təşkilatlar arasında yaranan münasibətləri tənzimləyən hüquq normalarının və prinsiplərinin məcmusu olan beynəlxalq hüquq daim dinamik inkişafda və təkamüldədir. Bu son illərdə açıq-aşkar hiss olunmaqdadır. Beynəlxalq hüququn rolu artmaqdadır. Dövlətlərin mövcud olmasının və inkişafının obyektiv şəraiti onlar arasındakı siyasi, iqtisadi, hüquqi, sosial, beynəlxalq və digər münasibətlərin və əlaqələrin yaradılması zərurətini doğurmuş və bu münasibətlər tədricən daimi səciyyə formasını almışdır. Bu da həmin münasibətlərin hüquqi tənzimlən-

[1] Bax ətraflı: Международное право, М., 2003, с. 7-16; Шумилов В.М. Международное право, М., 2007, с.50-71; Марченко М.Н. Источники права, М., 2005, с.330-341; Hüseynov L. Beynəlxalq hüquq , Bakı, 2012, s.6

[2] Yenə orada

məsinə zərurət yaratmış və beynəlxalq hüququn təşəkkülündə müstəsna rol oynamışdır. Tədricən formalaşan suveren bərabərlik, müstəqillik, ərazi toxunulmazlığı, başqa dövlətlərin daxili işlərinə qarışmamaq, müqavilələrə riayət etmək və sair bu kimi prinsiplər beynəlxalq ünsiyyətin əsas rəhbər başlanğıcı, tələbləri kimi çıxış edir. Dövlətlərin tanınması, hüquq varisliyi, sığınacaq hüququ və s. bu kimi institututlar və normalar getdikcə zənginləşmiş və mükəmməlləşmişdir. Buna görə də beynəlxalq hüquqda ümumən qəbul olunmuş prinsiplər və normalar sonradan məcburi olan başlıca prinsiplərə çevrilmişdir. Beynəlxalq hüquq normaları dövlətlər arasında siyasi, iqtisadi, mədəni, humanitar və sair sahələrdə yaranan ən mühüm və ən müxtəlif münasibətləri tənzimləyir. Bu normaların yaranmasında ikitərəfli və çoxtərəfli sazişlərin, müqavilələrin, beynəlxalq konvensiyaların rolu əvəzsizdir. Buna görə də beynəlxalq hüququn məcəlləşdirilməsi istiqamətində BMT-nin Beynəlxalq Hüquq Komissiyasının səyləri tədqirəlayiq hadisə kimi mühüm əhəmiyyətə malikdir. Əgər nəzərə alsaq ki, beynəlxalq müqavilələrin iştirakçısı olan dövlətlər öz üzərilərinə götürdükləri öhdəlikləri lazımı qaydada yerinə yetirmədikdə və ya onların şərtlərini pozduqda müvafiq sanksiyalar tətbiq edilə bilər, onda beynəlxalq hüququn məcəlləşdirilməsinin vacibliyi bir daha diqqəti cəlb edir. Dövlətlər və beynəlxalq təşkilatlar arasında öz məzmununa və formasına görə yeni - yeni münasibətlərin yaranmasının, bu normaların məcəlləşdirməsinin vacib olduğunu daha qabarıq şəkildə irəli sürür. Qloballaşma və inteqrasiya prosesləri kontekstində hazırda beynəlxalq hüququn rolu və əhəmiyyəti müstəsna dərəcədə genişlənmiş, aktual mahiyyət kəsb etmiş və onun inkişaf meylləri son illər sürətlə genişlənməkdədir.[1]

İnsan hüquqlarının və demokratik dəyərlərin üstün mövqeyi, dünya dövlətlərinin suveren müstəqilliyinin məhz beynəlxalq təhlükəsizlik sistemindən asılı olması kimi səciyyəvi xüsusiyyətlərin beynəlxalq və dövlətdaxili məsələlərdə beynəlxalq münasibətlərin və beynəlxalq hüququn rolunun sürətlə artmasına və genişlənməsinə əhəmiyyətli təsir göstərmişdir. Bu kontekstdə, eyni zamanda beynəlxalq təşkilatların ro-

[1] Шумилов В.М. Международное право, М., 2007, с.9-31

lunun əhəmiyyətli dərəcədə artması, xüsusilə beynəlxalq hüququn nəzəri və təcrübi problemlərinin müasir inkişaf səviyyəsi, bu istiqamətdə yeni və uğurlu meyllər kimi diqqəti cəlb edir.[1] Xüsusilə, keçən əsrin sonuncu onilliyindən başlayaraq beynəlxalq hüququn və beynəlxalq münasibətlərin elmi nəzəri problemlərinin inkişafına və həllinə maraq artmış və genişlənmişdir. Bəşəriyyətə böyük bəlalar və fəlakətlər gətirən iki Dünya müharibəsi dünya nizamında beynəlxalq hüququn rolunu və əhəmiyyətini artırmış, onun inkişafına böyük təkan vermiş və aktuallığını gücləndirmişdir. Bu mənada Birləşmiş Millətlər Təşkilatının Baş Məclisi tərəfindən 11 dekabr 1946-cı il tarixdə «Beynəlxalq hüququn proqressiv inkişafı və məcəlləşdirilməsi haqqında» Qətnamə qəbul edilməsi mühüm tarixi hadisə kimi qiymətləndirilə bilər.[2]

Bir elm kimi beynəlxalq hüququn nəzəri və təcrübi baxımdan intensiv surətdə inkişaf etdirilməsi, təkmilləşdirilməsi, sonrakı illərdə də ardıcıl və sistemli şəkildə davam etdirilmiş, mükəmməl və bitkin bir təsisat, fenomen kimi formalaşdırılmışdır.[3]

Ümumiyyətlə, cəmiyyətdə gedən ciddi iqtisadi proseslər, kapitalizmin sürətli inkişafı və imperalizmin yetkinləşməsi, təbii sərvətlər uğrunda mübarizə və təmərküzləşmə meylləri beynəlxalq hüququn elmi-nəzəri, təcrübi inkişafına və təkamülünə mühüm təsir göstərmişdir. Hazırda müasir beynəlxalq hüquq elmi özünün ən yüksək inkişaf səviyyəsinə çatmışdır. İki dünya müharibəsi nəticəsində milyonlarla insanın məhvi, dövlətlərarası münaqişələrin və ziddiyyətlərin olması beynəlxalq münasibətlərin, beynəlxalq əlaqələrin, beynəlxalq hüququn və diplomatiyanın inkişafının bəşəriyyət üçün son dərəcə əhəmiyyətli və vacib olduğunu bir daha təsdiq etmişdir. Bu gün ən aktual və ən vacib problemlərdən biri, dünyada sülhün və təhlükəsizliyin təmin edilməsidirsə, ikinci əsas məsələ birinci ilə sıx bağlı olan və biri digərini tamamlayan insan hüquqlarının və azadlıqlarının təmin olunması məsələsidir. Bu isə beynəlxalq münasibətlərin və beynəlxalq hüququn bəşəri mənada dövlətlərin və xalqların həyat normasına çevrilməsi pro-

[1] Əliyev Ə. İnsan hüququnlarının beynəlxalq hüquqi müdafiəsi, Bakı, 2009, s.9.
[2] Yenə orada, s.9-10
[3] Rəcəbli H.M. BMT-nin ixtisaslaşmış qurumları, Bakı, 2003, s.34-45

sesindən daha çox asılıdır. Təsadüfi deyil ki, 8 sentyabr 2000-ci ildə BMT-nin «Minillik Bəyannaməsi» üzrə qəbul edilmiş Qətnamədə sülhün və təhlükəsizliyin, tərkisilahın və inkişafın təmin olunması, yoxsulluğun aradan qaldırılması, ətraf mühitin qorunması, insan hüquqlarının mühafizəsi, demokratiyanın və səmərəli idarəetmənin bərqərar edilməsi, birləşmiş millətlərin əlaqələrinin və səylərinin genişləndirilməsi və bəşəri əhəmiyyət daşıyan digər problemlərin həllinə istiqamətlənmiş tədbirlər kompleksinin nəzərdə tutulması xüsusi əhəmiyyət kəsb edir.[1]

«Minillik Bəyannamə» üzrə Ümumdünya Sammitinin nəticəsi olaraq 16 sentyabr 2005-ci ildə BMT-nin Baş Məclisi tərəfindən qəbul edilmiş Qətnamə insan hüquqlarının təmin olunması, qanunun aliliyinin, mühacirlərin və qaçqınların hüquqlarının müdafiəsi, onlara yardımların göstərilməsi, demokratiyanın həyat tərzinə çevrilməsi, qadınların, uşaqların hüquqlarının qorunması, insanların soyqırımdan, hərbi cinayətlərdən, etnik təmizləmələrdən, digər kriminal əməllərdən etibarlı müdafiəsi, ümumiyyətlə insanın təhlükəsizliyinin təmin olunması, sivilizasiyaların, mədəniyyətlərin və dinlərin əlaqələrinin və münasibətlərinin bəşəriyyətin mənafeyi naminə pozitiv yönümdə inkişaf etdirilməsi vəzifəsinin bir məqsəd olaraq qarşıya qoyulması, dünya birliyinin bu məsələlərə nə dərəcədə əhəmiyyət verdiyini bir daha təsdiq edir.[2] Mahiyyət etibarı ilə bu Qətnamə bəşəriyyətə və insanlığa doğru ünvanlanmış bir çağırış kimi yüksək dəyərləndirilə bilər.

Avropa Şurasının dövlət və hökumət başçılarının 2005-ci ilin may ayında keçirilən III Sammitində qəbul edilmiş «Varşava Bəyannaməsi» Avropada demokratiyanın, insan hüquqlarının və qanunun aliliyinin qorunması kimi yüksək və bəşəri əhəmiyyət daşıyan dəyərlərin inkişaf etdirilməsinin əsas istiqamətlərini müəyyən etdi. Bu istiqamətdə dünyada gedən proseslər bu gün də gündən-günə genişlənir və özünə daha çox tərəfdarlar toplayır. Bu çağırışa, əslində bu gün bütün tərəqqipərvər bəşəriyyət qoşulmuşdur.

[1] Məmmədov R., İsmayılova Ə., Hacıyev C. Qanunun aliliyi və insan hüquqlarının müdafiəsi mexanizmləri, Bakı, 2009, s.384-398

[2] Yenə orada, s. 399-406

Beynəlxalq səviyyədə qəbul edilmiş bu və digər çoxsaylı sənədlər, çağırışlar beynəlxalq hüququn, demokratiyanın və insan hüquqlarının inkişaf etdirilməsinə, elmi-nəzəri tədqiqinə və bu sahədə sanballı nəşrlər hazırlanmasına əhəmiyyətli təsir göstərmişdir. Təsadüfi deyil ki, 21-ci əsrin əvvəllərində, yaşadığımız müasir dövrdə qlobal mənada beynəlxalq hüquq «cəmiyyətin hüququ» kimi formalaşmağa, inkişaf etməyə, yeni məna və yeni məzmun kəsb etməyə başlamışdır. Bu da beynəlxalq hüququn bir elm kimi təkamülünə stimul vermişdir. Amerika hüquqşünası Anni-Mari Sloterin beynəlxalq hüququ artıq ərazi sərhədlərini keçən, bu sərhədlər arasında həyata keçirilən münasibətləri tənzim edən və hüququn bütün sahələrini özündə birləşdirən mükəmməl və qlobal bir elm kimi səciyyələndirməsi, tamamilə məntiqi və qanunauyğundur. Ümumiyyətlə, bu gün beynəlxalq hüququn müsbət yönümdə inkişafında 1990-2000-ci illəri əhatə edən «beynəlxalq hüquq onilliyi» tədbirinin keçirilməsinin mühüm rolu və əhəmiyyəti olmuşdur.[1]

Beynəlxalq hüququn nəzəri və təcrübi məsələlərinin uğurlu həllində «rəhbər başlanğıclar» hesab edilən prinsiplərin böyük əhəmiyyəti və rolu xüsusi qeyd edilməlidir. Müasir beynəlxalq hüququn əsas prinsipləri BMT Nizannaməsinin 2-ci maddəsində, Avropada Təhlükəsizlik və Əməkdaşlıq üzrə Helsinki Müşavirəsinin 1 avqust 1975-ci il tarixli Yekun Aktında öz rəsmi ifadəsini tapmışdır.[2] Bu sənədlərə görə beynəlxalq hüququn aşağıdakı prinsipləri – 1. Güc tətbiq etməmək və ya güclə hədələməmək, 2. Beynəlxalq mübahisələri dinc yolla həll etmək, 3. Dövlətin daxili yurisdiksiyasında olan işlərə qarışmamaq, 4. BMT Nizamnaməsinə uyğun olaraq dövlətlərin biri-biri ilə əməkdaşlıq etməsi, 5. Xalqların hüquq bərabərliyi və öz müqəddaratını təyin etməsi, 6. Dövlətlərin suveren bərabərliyi, 7. Dövlətlərin BMT Nizamnaməsinə uyğun olaraq öz üzərilərinə götürdükləri öhdəlikləri vicdanla yerinə yetirməsi, 8. Sərhədlərin toxunulmazlığı, 9. Dövlətlərin ərazi bütövlüyü və sonuncu 10. Əsas insan hüquqlarına və azadlıqlarına hörmət

---

[1] Əliyev Əmir, İnsan hüququnlarının beynəlxalq hüquqi müdafiəsi, Bakı, 2009, s.10
[2] Beynəlxalq sənədlər toplusu, Bakı, 2005, s.7-34; Hüseynov L.H. Beynəlxalq hüquq (dərslik) Bakı, 2002, s.31

edilməsi kimi prinsiplər, dünyada beynəlxalq münasibətlərin və beynəlxalq hüququn təşəkkülündə və inkişafında mühüm rol oynamışdır.[1] Beynəlxalq hüququn göstərilən bu prinsipləri bütövlükdə beynəlxalq birlik tərəfindən tanınır, qəbul olunur və onlara əsasən hörmət edilir. Buna görə də hüquq ədəbiyyatında haqlı olaraq göstərilir ki, beynəlxalq hüququn əsas prinsiplərindən kənarda və onlarsız beynəlxalq hüququn mövcudluğu təsəvvür edilməzdir. Beynəlxalq hüququn əsas prinsipləri biri-biri ilə üzvü surətdə bağlıdır, biri-birini şərtləndirir, biri-birini tamamlayır və bir vəhdət kimi çıxış edir. Təsadüfi deyil ki, BMT Nizamnaməsinə uyğun olaraq dövlətlər arasındakı münasibətlərə və əməkdaşlığa aid olan beynəlxalq hüquq prinsipləri haqqında 1970-ci il Bəyannaməsində, bu prinsiplərin tətbiqi və təfsiri zamanı onların hər birinin, bütün digər prinsiplər nəzərə alınmaqla öyrənilməsi və tətbiqi xüsusi olaraq qeyd edilmişdir. Digər tərəfdən Avropada Təhlükəsizlik və Əməkdaşlıq üzrə Helsinki Müşavirəsinin Yekun Aktı mahiyyət etibarı ilə regional əhəmiyyətli bir sənəd olmasına baxmayaraq, orada göstərilən üç - sərhədlərin toxunulmazlığı, dövlətlərin ərazi bütövlüyü və əsas insan hüquqlarına və azadlıqlarına hörmət edilməsi prinsipin beynəlxalq hüququn prinsiplərinə daxil edilməsi onunla əlaqədardır olmuşdur ki, artıq onların ümumi beynəlxalq adət hüququnun bir hissəsi olmaq etibarı ilə bütün dövlətlər tərəfindən tanınması və qəbul edilməsi prosesi tam uğurla başa çatmışdır. Bütün bunlara görə də 1 avqust 1975-ci il tarixli «Avropada Təhlükəsizlik və Əməkdaşlıq üzrə Helsinki Müşavirəsinin Yekun Aktı»nda beynəlxalq hüququn on prinsipi rəsmi olaraq bəyan edilmiş və bu sənəddə öz məntiqi və hüquqi ifadəsini tapmışdır.[2]

Beynəlxalq hüququn və beynəlxalq münasibətlərin inkişaf tarixi göstərir ki, keçən əsrin 90-cı illərindən başlayaraq dünyada qüdrətli dövlət kimi tanınan SSRİ-nin öz içərisindən parçalanması və dağılması müstəqilliyini yenicə elan etmiş gənc ölkələrin - yeni respublikaların

---

[1] Международное право, М., 2003, с.47-76; Beynəlxalq sənədlər toplusu, I cild, Bakı, 2005, s.8.

[2] Hüseynov L. Beynəlxalq hüquq , Bakı, 2012, s.28-29; Əliyev Ə. İnsan hüquqlarının beynəlxalq hüquqi müdafiəsi, Bakı, 2009, s.14-21

yaranması ilə nəticələndi və milli demokratik hüquqi təsisatların inkişafına rəvac verdi. Ümumiyyətlə, bu dövr, beynəlxalq hüququn və beynəlxalq münasibətlərin yeni bir mərhələsinin başlanması kimi qiymətləndirilə bilər. Bir çox xüsusiyyətlərinə görə məhz SSRİ-nin dağılması beynəlxalq hüququn və beynəlxalq inkişafın keyfiyyət baxımından yeni bir dövrünün başlanmasına zərurət yaratdı. Bu mərhələ dünyada hüququn hökmranlığının vacibliyini şərtləndirir. Bəşəriyyət bütün sahələrdə, olduğu kimi beynəlxalq hüquq sahəsində də mühüm kəmiyyət və keyfiyyət göstəriciləri ilə səciyyəvi olan dinamik inkişaf mərhələsinə qədəm qoymuşdur. Dövlətlərin qarşılıqlı əlaqələrinin və asılılıqlarının yüksəlməsi, sülhün və təhlükəsizliyin qorunması sahəsində səylərin birləşdirilməsi, insan hüquqlarının və azadlıqlarının qorunmasına diqqətin artırılması, qlobal birgəyaşayış ideyalarının həyata keçirilməsi bir zərurətə çevrildi. Bu da müxtəlif millətlərin, müxtəlif xalqların, müxtəlif dəyərlərin, müxtəlif mədəniyyətlərin, müxtəlif dinlərin, müxtəlif dillərin fəaliyyət göstərdiyi və yaşadığı bir planetdə ahəngdar hormoniyanın - vahid dünya hüquq məkanının formalaşmasının və təşəkkülünün son dərəcə vacib olduğunu ortaya qoydu. Bu münasibətlərdə hüquqi tənzimlənmənin son dərəcə mükəmməl və ədalətli aparılması sülhsevər bəşəriyyətin arzusuna çevrildi. Dövlətdaxili hüquq sistemi və beynəlxalq hüquq yeni keyfiyyət göstəriciləri əsasında formalaşdırılmağa başlanıldı. Bu gün dünya hüquq sistemində beynəlxalq hüququn yeri və rolu əhəmiyyətli sürətdə artmaqda və inkişaf etməkdədir. Bütün bunlar ayrı-ayrı dövlətlərin əsas qanunlarının - konstitusiyalarının inkişafına və təkamülünə ciddi təsir göstərmişdir. Hər bir suveren dövlətin hüquq sisteminin əsasını təşkil edən konstitusiya, ölkənin ən yüksək hüquqi sənədi olmaqla digər dövlətlərlə, beynəlxalq təşkilatlarla münasibətlərin tənzimlənməsində mühüm əhəmiyyətə malikdir. Təsadüfi deyil ki, dövlətlərin suverenliyini tanıyan, ona hörmət edən və xüsusi önəm verən beynəlxalq hüquq, konstitusiyanın dövlətdaxili normativ hüquqi aktlar sistemində ən yüksək hüquqi qüvvəyə malik olduğunu tam qəbul edir. Konstitusiya və beynəlxalq hüququn qarşılıqlı əlaqələri, münasibətləri və nisbəti, milli və beynəlxalq hüququn müəyyən sərhədlər çərçivəsində inteqrasiyasına zərurət yaradır. İctimai və siyasi münasibət-

lərdə ən müxtəlif əhəmiyyəti və təsiri olan dəyərlərin beynəlmilləşməsi, bu gün milli hüquq sisteminin əsasını təşkil edən konstitusiya hüququ ilə beynəlxalq hüququn ən zəruri və vacib şərtlərinin nəzərə alınmasını və üzvü surətdə əlaqələndirilməsini tələb edir. Buna görə də müstəqilliyinin ilk illərindən başlayaraq, ölkəmizdə beynəlxalq hüququn inkişafına və milli hüquq sisteminin yenidən hazırlanmasına, zamanın tələbləri baxımından yanaşılmışdır. Qadın hüquqlarının və azadlıqlarının mükəmməl tədqiqinin, yalnız konstitusiya hüququ ilə beynəlxalq hüququn sintezi, birgə səyi və üzvü surətdə əlaqələndirilməsi əsasında araşdırılmasının mümkünlüyü nəzərə alınmış, tədqiqat zamanı metodoloji cəhətdən kompleks, elmlərarası və fənlərarası yanaşmaya üstünlük verilmişdir.[1]

Aydındır ki, dövlət qarşısında duran müstəsna dərəcədə geniş və əhatəli vəzifələri, ölkənin daxilində və xaricində uğurla yerinə yetirməkdən ötəri müəyyən struktur elementlərinə sahib olmalıdır. Hüquqi dövlətdə ictimai münasibətlərin müxtəlif səviyyələrdə, qanunun aliliyi kontekstində ədalətli həll edilməsinin vacib şərti ölkənin Əsas Qanununun - Konstitusiyasının demokratik yolla qəbul edilməsini tələb edir. İnsan hüquqlarının və azadlıqlarının beynəlxalq standartlarının konstitusiyada əks olunması, ona verilən yük-

---

[1] Bax ətraflı: Каламкарян Р.А., Мигачев Ю.И. Международное право как регулятор современных международно-правовых отношений, Государство и право, 2013, №11, с.46-59; Бернхардт Р., Европейский суд по правам человека в Страсбурге: новый этап, новые проблемы, Государство и право, 1999, №7, с.57-62; Талалаев А.Н., Два вопроса международного права в связи с Конституцией РФ, Государство и право, 1998, №3, с.64-70; Грицаев С.А. Концепция дополнительной юрисдикции международного уголовного суда по отношению к национальным системам уголовной юстиции, Государство и право, 2007, №11, с.64-70; Марочкин С.Ю. Верховенство права на внутригосударственном и международном уровнях: динамика развития и взаимодействия, Государство и право, 2013, №10, с.85-94; Тихомиров Ю.А. Право: национальное, международное, сравнительное, Государство и право, 1999, №8, с.5-12; Дерябина Е.М. Структурные и иные особенности правовой системы Европейского союза, Государство и право, 2013, №2, с.87-95; Военные суды в современном мире, Москва, «Норма», 2006; Бессарабов В.Г. Европейский суд по правам человека, Москва, «Юрлитинформ», 2004

sək dəyərdən başqa, həm də bu hüquqlara və azadlıqlara əməl olunmasının mühüm təminatlarından biri kimi dəyərləndirilməlidir. Bu mənada hüquqi dövlət dedikdə, hər şeydən öncə ictimai, siyasi, iqtisadi, sosial və hüquqi həyatın yalnız qanunlar, hüquqi prinsiplər və vasitələr əsasında qurulduğu ictimai-siyasi bir təsisat göz önünə gəlir. Dövlət orqanlarının vəzifə funksiyalarını tarazlaşdıran, hüquqi mexanizmlər vasitəsi ilə reallaşdırmağa əlverişli şərait yaradan, hakimiyyət bölgüsü kimi obyektiv hüquqi prinsipin bərqərar edilməsi mühüm əhəmiyyətə malikdir. Hüquqi dövlətdə siyasi hakimiyyətin əsas və başlıca vəzifəsi qanunla nəzərdə tutulan funksiyaları ciddi surətdə həyata keçirməyə və reallaşdırmağa xidmət edir. Dövlətin gücü və qüdrəti də elə bundan qaynaqlanır. Məhz Konstitusiya milli müstəqilliyi əks etdirən xalqın yeganə suveren hakimiyyətini təcəssüm etdirən ali hüquqi aktdır. Cəmiyyətin siyasi, iqtisadi və digər qanunauyğunluqlarını, etik və hüquqi təsəvvürlərini özündə əks etdirən, hakimiyyət bölgüsünə söykənən, cəmiyyətin bütün siyasi sistemini, insan və vətəndaş hüquqlarının və azadlıqlarının təsbit olunmasını əks etdirən məhz «əsas qanun» kimi dəyərləndirən Konstitusiya hesab edilir. Konstitusiya hüququn hökmranlığına, qanunun aliliyinə, ümumi formal bərabərlik prinsipinə söykənməklə, demokratik və hüquqi dəyərlər əsasında formalaşdırılan, ölkə ərazisində ən yüksək və suveren statusa malik olan ali hüquqi sənəd hesab edilir.[1]

Tarixi faktlar göstərir ki, dövlət və dövlətçilik tarixi qədim dövrlərə gedib çıxsa da, yazılı konstitusiyaların tarixi sonrakı dövrə təsadüf edir. İlk yazılı burjua konstitusiyasının Amerika Birləşmiş Ştatlarında 17 sentyabr 1787-ci ildə qəbul edildiyi müəyyən edilir.[2] Müxtəlif ölkələrin konstitusiyalarının təhlili onların məzmun və quruluşuna görə biri-birindən az və ya çox dərəcədə fərqləndiyini təsdiq edir.[3] SSRİ-nin və onun tərkibində təmsil olunan

---

[1] İcmayılov İ. Hüquqi dövlət: mülahizələr və təkliflər, Bakı, 1999, c.18-38

[2] Конституция США: История и современность, М., 1988, с.19

[3] Xarici Ölkələrin Konstitusiyaları, (ABŞ, İtaliya, Almaniya, Fransa, Türkiy, Çin), Qanun nəşriyyatı, 1994, № 2-3

respublikaların konstitusiyalarında daha çox siyasi, iqtisadi və sosial cəhətlərə diqqət yetirildiyi halda, demokratik, dünyəvi, hüquqi respublika quran ölkələrdə qanunveirici, icra və məhkəmə hakimiyyətinin, dövlət quruluşunun, vətəndaşların hüquqlarının və azadlıqlarının, qanunvericilik sisteminin və dövlət həyatlı üçün vacib olan digər məsələlərin təsbitinə daha çox üstünlük verilir. Bu baxımdan qadın hüquqlarının və azadlıqlarının beynəlxalq standartlarının Azərbaycan Respublikası Konstitusiyasında ifadə olunması mühüm tarixi nailiyyət hesab oluna bilər. Təsadüfi deyil ki, Fransanın «Vətəndaş və insan hüquqları Bəyannaməsi»nin 16-cı maddəsində göstərilirdi ki, insan hüquqlarına təminat verilmədiyi və hakimiyyətin bölünməsinin həyata keçirilmədiyi bir cəmiyyətdə konstitusiyanın mövcudluğu haqqında ümumiyyətlə danışmaq mümkünsüz olardı. Buna görə də dövlət hakimiyyətinin konstitusiyada təsbit olunan hüquq normaları ilə nizama salınması, dövlətin və vətəndaşların qarşılıqlı əlaqələrinin və münasibətlərinin yalnız qanun çərçivəsində tənzimlənməsi, hakimiyyət bölgüsünün təmin olunması, fikir müxtəlifliyinə hörmət edilməsi, qanunverici, icra və məhkəmə hakimiyyətinin, onların hər birinin hüquqlarının və səlahiyyətlərinin dəqiq müəyyən edilməsi olduqca mütərəqqi səciyyə daşıyır. İctimai-siyasi həyatda qanunun aliliyinin təmin olunması sahəsində konstitusiyanın mühüm əhəmiyyəti və rolu vardır. Konstitusiya konkret dövlətin qlobal mənada sütunu olmaqla onun əsas quruluşunu, ana xəttini, dövlətin məqsədlərini və vəzifələrini, vətəndaşlıq institutunun səciyyəvi cəhətlərini, insan və vətəndaş hüquqlarının və azadlıqlarının sistemini, onların həyata keçirilmə təminatlarını, müdafiə mexanizmlərini ümumxalq iradəsinin ifadəsi kimi əks etdirir. Konstitusiya hüquq elminin araşdırmaları göstərir ki, tarixən yeni müstəqillik qazanmış ölkələrin konstitusiyaları bir qayda olaraq, beynəlxalq Konvensiyalarda nəzərdə tutulmuş prinsiplərə, şərtlərə və dəyərlərə daha çox üstünlük verdikləri halda, qədim dövlətçilik tarixinə malik olan ABŞ, Fransa, İtaliya və digər bu kimi ölkələr öz konstitusiyalarını yaratmaqla, əslində digər ölkələrə nümunə olur və onların konstitusiya yaradıcılığı üçün

bir örnəyə çevrilirlər. Bu ənənələrə əsaslanan Azərbaycan Respublikasının yeni Konstitusiyasında insan hüquqlarına və azadlıqlarına geniş yer ayrılması ölkəmizin hüquqi dövlət qurması arzusundan qaynaqlanır. Qadın hüquqlarının və azadlıqlarının konstitusiya hüququ baxımından tədqiqi, beynəlxalq hüquqda bu məsələyə verilmiş diqqətlə müqayisəli şəkildə araşdırıldığı hallarda, konkret nəticələrə gəlmək mümkündür. Buna görə də tədqiqat zamanı qadın hüquqlarının və azadlıqlarının kompleks araşdırılması, qadınların konstitusiya statusunun təhlili əsasında aparılmış, bu məsələ ilə bağlı müvafiq təkliflər irəli sürülmüş, eyni zamanda beynəlxalq hüquq normaları ilə müqayisəli təhlillər aparılmışdır.

Azərbaycan Sovet Sosialist Respublikanın Ali Soveti 23 sentyabr 1989-cu ildə «Azərbaycan Respublikasının suverenliyi haqqında» Konstitusiya qanunu qəbul etdi. «Azərbaycan SSR-də Prezident vəzifəsinin təsis edilməsi haqqında» Azərbaycan SSR Ali Sovetinin Rəyasət Heyətinin 6 aprel 1990-cı il tarixli qərarı qəbul edildikdən sonra, 26 iyun 1991-ci ildə «Azərbaycan Respublikasında Prezident seçkilərinin keçirilməsi haqqında» qanun qəbul edildi. Ali Sovetin 5 fevral 1991-ci il tarixli Qanuni ilə «Azərbaycan Sovet Sosialist Respublikası» «Azərbaycan Respublikası» adlandırıldı. Azərbaycan Respublikasının Ali Soveti 30 avqust 1991-ci ildə «Azərbaycan Respublikasının Dövlət Müstəqilliyini bərpa etmək haqqında Bəyannamə» qəbul etdi və bu haqda elə həmin tarixdə də Ali Sovetin müvafiq qərarı qəbul edildi. Bunun da əsasında 18 oktyabr 1991-ci il tarixdə «Azərbaycan Respublikasının Dövlət Müstəqilliyi haqqında» Konstitusiya Aktı qəbul edildi. Bu xalqımızın tarixinə müstəqillik günü kimi daxil oldu.

25 may 1991-ci ildə «Azərbaycan Respublikasının iqtisadi müstəqilliyinin əsasları haqqında» Konstitusiya Qanununun qəbul edilməsi, ölkəmizin tarixində yeni iqtisadi inkişafın təşəkkülündə mühüm əhəmiyyətə malik olan bir hadisə idi.

«Azərbaycan Respublikasının Dövlət Müstəqilliyi haqqında» Konstitusiya Aktı[1] qəbul edildikdən sonra, ölkəmizin beynəlxalq hüququn subyekti kimi tanınması istiqamətində ardıcıl tədbirlər həyata keçirilməyə başlanıldı. Konstitusiya Aktının 12-ci maddəsində göstərilirdi ki, Azərbaycan Dövləti suveren hakimiyyəti daxili məsələlərdə ancaq hüquqla, xarici məsələlərdə isə Azərbaycan xalqının azad surətdə razılıq verdiyi müqavilələrdən və sazişlərdən irəli gələn müddəalarla məhdudlaşdırılır. Eləcə də həmin Aktın 16-cı maddəsində qeyd edilirdi: «Hamılıqla qəbul edilmiş beynəlxalq hüquq normalarına uyğun olaraq Azərbaycan Respublikası başqa dövlətlərlə münasibətlərini, dövlətlərin suveren bərabərliyi, zor işlətməmək və zor işlətməklə hədələməmək, dövlət sərhədlərinin toxunulmazlığı, mübahisələri dinc yolla nizama salmaq, başqa dövlətlərin daxili işlərinə qarışmamaq, insan hüquqlarına və əsas azadlıqlarına hörmət etmək, xalqların bərabərliyi və onların öz müqəddəratını təyin etmək hüququ, dövlətlərin əməkdaşlığı, beynəlxalq hüquqi öhdəlikləri vicdanla yerinə yetirmək kimi prinsiplər əsasında qurur».[2]

Göründüyü kimi bu müddəalar beynəlxalq hüququn hamılıqla tanınmış universal prinsiplərinə tamamilə uyğun olmaqla, onlara əməl ediləcəyi də bəyan edilirdi. Müstəqilliyin ilk illərindən başlayaraq, ölkəmizin beynəlxalq birliyə inteqrasiya olunması istəyi tamamilə təbii idi. Çünki belə bir əlaqə və əməkdaşlıq qurulmadan mürəkkəb bir regionda yerləşən, Dağlıq Qarabağ münaqişəsi kimi problemlə üzləşən, gənc və öz müstəqilliyini yenicə elan etmiş ölkənin təşəkkülü və inkişafı mümkünsüz olardı. Qərb və Şərq dünyasının qovuşduğu coğrafi məkanda yerləşən Azərbaycan Respublikası region dövlətləri ilə, dünyanın mütərəqqi və qabaqcıl ölkələri ilə, beynəlxalq və regional təşkilatlarla döstluq və əməkdaşlıq əlaqələrinin qurulmasına və inkişafına xüsusi diqqət verirdi. Ölkənin geostrateji mövqeyi, geniş maddi və texniki imkanları, zəngin təbii ehtiyatları, əmək resursları, elmi-texniki potensialı, beynəlxalq əhəmiyyətli enerji mənbələri

[1] Azərbaycan Respublikasının Dövlət Müstəqilliyi haqqında Konstitusiya Aktı, Bakı, 1994, s.3-10

[2] Azərbaycan Respublikasının Konstitusiyası Bakı, 1994, s.6-7

və enerji sahəsindəki təchizat potensialı, onun beynəlxalq miqyasda neft, qaz, enerji, nəqliyyat, kommunikasiya, təbii sərvətlərdən istifadə sahəsində beynəlxalq əlaqələrinin sürətlə genişlənməsi və inkişafı nəticəsində böyük uğurlar qazanmasına imkan verdi. Demokratik hüquqi dövlət, vətəndaş cəmiyyəti təsisatlarının yaradılması sahəsində əldə edilən nailiyyətlər, beynəlxalq əlaqələrinin genişlənməsinə, beynəlxalq öhdəliklərinin yerinə yetirilməsinə verilən önəm, beynəlxalq təşkilatlara inteqrasiya olunmaq, beynəlxalq hüququn inkişafına önəm vermək kimi təşəbbüslər tamamilə ədalətli və təbii idi. Buna görə də müstəqillik illərində bu istiqamətdə məqsədyönlü tədbirlər sistemi ardıcıllıqla həyata keçirilmişdir. Bunun nəticəsi olaraq ölkəmizin dünyada öz fəaliyyətinə, təsir mexanizmlərinə və əhatə dairəsinə görə ən əhəmiyyətli təşkilatlarından biri olan BMT-yə müraciətinə müsbət cavab verildi. BMT Baş Məclisinin tövsiyəsinə müvafiq olaraq 14 fevral 1992-ci il tarixli 742 saylı Qətnamə ilə Azərbaycan Respublikası Birləşmiş Millətlər Təşkilatının üzvlüyünə qəbul edildi. Bu sənəd 2 mart 1992-ci il tarixdən qüvvəyə mindi və Azərbaycan Respublikası faktiki olaraq həmin vaxtdan da BMT-nin üzvü kimi fəaliyyət göstərməyə başladı.[1]

Məlumdur ki, bu təşkilat beynəlxalq sülhün bərqərar olmasında, davamlı inkişafın və demokratikləşmənin qorunub saxlanmasında əvəzsiz rolu olan ən böyük beynəlxalq qurumlardan biri hesab olunur. Aydın məsələdir ki, müstəqili respublikamızım BMT kimi beynəlxalq təşkilatlarla, böyük və qüdrətli dövlətlərlə əlaqələri və əməkdşılığı yaradılmadan, onun inkişafı və tərəqqisi də mümkünsüz olardı. Buna görə də, ölkəmizin, bir respublika kimi müstəqilliyinin 9 noyabr 1991-ci il tarixdə qardaş Türkiyə Respublikası tərəfindən tanınması və 14 yanvar 1992-ci il tarixdən etibarən bu ölkə ilə diplomatik əlaqələr qurması mühüm bir addım idi. Azərbaycan Respublikası 6 fevral 1992-ci ildə Ukrayna ilə, 21 fevral 1992-ci ildə Fransa ilə, 28 fevral 1992-ci ildə ABŞ-la, 11 mart 1992-ci ildə Böyük Britaniya və Şimali İrlandiya krallığı ilə, 12 mart 1992-ci ildə İran İslam Respublikası ilə, 2 aprel 1992-ci

[1] Diplomatiya Ensiklopedik lüğət, Bakı, 2005, s.80, 170

ildə Çin Xalq Respublikası ilə, 4 aprel 1992-ci ildə Rusiya Federasiyası ilə, 7 aprel 1992-ci ildə İsraillə, 09 iyun 1992-ci ildə Pakistan İslam Respublikası ilə, 9 iyun 1992-ci ildə Tükmənistanla, 30 avqust 1992-ci ildə Qazaxıstan Respublikası ilə, 18 noyabr 1992-ci ildə Gürcüstan Respublikası ilə və bu kimi başqa dövlətlərlə diplomatik əlaqələr qurdu. Bu da dövlətimizin müstəqilliyinin təminatı və möhkəmləndirilməsi üçün mühüm əhəmiyyətə malik oldu.[1]

Bu fakt xüsusi qeyd edilməlidir ki, Azərbaycan Dövlət müstəqilliyini bərpa etdikdən sonra elə ilk illərdəcə onun dövlət müstəqilliyini 120-də çox dövlət tanımış, 70-dən artıq xarici dövlətlə diplomatik əlaqələr qurulmuşdur. Bu tədbirlər sonradan da intensiv şəkildə davam etdirilmişdir. Təsadüfi deyil ki, 25 iyun 1992-ci ildə Qaradəniz hövzəsində iqtisadi əməkdaşlıqla əlaqədar olaraq Bəyannamə imzalamış on bir dövlətdən biri məhz gənc Azərbaycan Respublikası oldu.[2]

Azərbaycan Respublikasının beynəlxalq təşkilatların işində iştirak etməsi onun təhlükəsizliyi və xarici siyasəti üçün mühüm əhəmiyyət kəsb edir. Miqyasından və nüfuzundan asılı olmayaraq, universal, beynəlxalq və regional təşkilatlar beynəlxalq mühitdə yaranan yeni təsirlərə qarşı mübarizədə daha fəal rol oynayırlar. Beynəlxalq təşkilatlar təhdidlərin aradan qaldırılmasına və onların qarşısının alınmasına yardım etməklə yanaşı, Azərbaycan Respublikasının milli maraqlarının qlobal siyasətdə müdafiəsinə imkan yaratdılar. Beynəlxalq və regional təşkilatlar ölkəmizin üzləşdiyi təhlükəsizlik problemlərinə tərəfdaş dövlətlərin diqqətini cəlb etmək üçün əlverişli forum rolunu oynayırlar. Bu baxımdan universal, beynəlxalq və regional təşkilatların mövcudluğu, inkişafı və müasir dünyada baş verən dəyişikliklərə uyğunlaşması ölkəmiz üçün əhəmiyyətli nəticələr verməkdədir.

Ulu Öndər Heydər Əliyevin beynəlxalq münasibətlərin genişləndirilməsində, diplomatik əlaqələrin təşəkkülündə və inkişafında xidmətləri misilsiz olmuşdur. Belə ki, o, hakimiyyətə gəldiyi ilk günlərdən başlayaraq ölkənin əsas qanununun - Azərbaycan Respublikası Konsti-

---

[1] Diplomatiya Ensiklopedik lüğət, Bakı, 2005, s.80, 170

[2] Həsənov Əli, Müasir beynəlxalq münasibətlər və Azərbaycanın xarici siyasəti, Bakı, 2005, s.435

tusiyasının qəbul edilməsinə xüsusi diqqət yetirməklə, əslində ölkənin daxili və xarici siyasətinin, Dağlıq Qarabağ münaqişəsinin, gənc və müstəqil dövlətin qarşısında duran digər taleyüklü problemlərin məhz hüquq müstəvisində tənzimlənməsinə və həllinə xüsusi önəm vermişdir. Heydər Əliyev Konstitusiya Komissiyasının iclasında demişdir: «...Dağlıq Qarabağ münaqişəsinə münasibətdə respublikamızın ərazi bütövlüyü, sərhədlərimizin toxunulmazlığı pozulmuşdur. Ölkəmizin beynəlxalq hüquq normalarına uyğun olan və beynəlxalq təşkilatların tanıdıqları sərhədlər, ərazi bütövlüyü bərpa edilməlidir... Buna görə də, xarici siyasətimizin ən əsas fundamental məqsədi Azərbaycanın müstəqilliyinin və ərazi bütövlüyünün hər yerdə təmin etməyə istiqamətlənməlidir... Biz dünyanın bütün dövlətləri ilə əlaqələri genişləndirməli, beynəlxalq təşkilatlarla münasibətləri möhkəmləndirməliyik».[1] «...Mən dünyanın ən böyük dövlətlərinin başçıları ilə görüşlərimi buna həsr etmişəm. BMT-nin, ATƏT-nin, İKT-nin, EKO-nun, habelə Təhlükəsizlik Şurasının daimi üzvü olan ABŞ-ın, Rusiyanın, Fransanın, İngiltərənin, Çinin rəhbərləri ilə görüşlərimdə Dağlıq Qarabağ münaqişəsinin beynəlxalq hüququn prinsipləri əsasında həll edilməsi barədə məsələlər qaldırmişam».[2]

Ulu Öndər Heydər Əliyev 1993-cü ilin oktyabr ayının 10-da keçirilən andiçmə mərasimindəki çıxışında göstərirdi: «Respublikamızın qarşısında duran əsas vəzifələrdən biri Azərbaycanın mənafeyini dünya müqyasında müdafiə edə bilən ağıllı, səriştəli xarici siyasətin yeridilməsidir. Bizim xarici siyasətimiz birinci növbədə Azərbaycan Respublikasının dövlət müstəqilliyini təmin etməyə yönəldilmişdir. Vəzifə dünyanın bütün dövlətləri ilə bərabərhüquqlu, qarşılıqlı faydalı əlaqələr yaratmaqdan və inkişaf etdirməkdən, bu əlaqələrdən həm Azərbaycan Respublikasının beynəlxalq mövqelərini möhkəmlətmək üçün, həm də respublikanın iqtisadiyyatını, elmini, mədəniyyətini inkişaf etdirmək üçün səmərəli istifadə etməkdən ibarətdir».[3]

---

[1] «Qanunçuluq» jurnalı, Bakı, 1996, №1-2, s.28-31

[2] Yenə orada, s.77-78

[3] Həsənov Əli Müasir beynəlxalq münasibətlər və Azərbaycanın xarici siyasəti, Bakı, 2005, s.244

Təsadüfi deyil ki, Heydər Əliyev 1993-2001-ci illərdə müxtəlif ölkələrə yüzdən çox səfər etmiş, bilavasitə 68 ölkənin prezidenti və dövlət başçısı ilə 485-dən çox görüş keçirmiş və bu görüşlərin hamısında Dağlıq Qarabağ münaqişəsinin həlli istiqamətində danışıqlar aparmışdır. Bu danışıqların 18-i ABŞ-ın prezidenti və xarici işlər naziri, 16-ı Fransanın, 23-ü Rusiyanın, 78-i Türkiyənin rəhbərləri ilə aparılmışdır. Eləcə də, BMT-nin, NATO-nun, MDB-nin, İKT-nın, İƏT-nın onlarla Zirvə Görüşündə bu məsələ müzakirə edilmişdir. ATƏT-in Budapeşt (1994), Lissabon (1996), İstanbul (1999) və digər Zirvə Toplantıları buna misal ola bilər.[1]

Burada xüsusi qeyd edilməsi lazımdır ki, ölkə prezidenti Cənab İlham Əliyevin xarici səfərləri zamanı Dağlıq Qarabağ münaqişəsi bütün beynəlxalq danışıqlarda əsas predmet mövzularından biri olmuş, bu sahədə iş daha da fəallaşdırılmış, xarici siyasətimizdə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin beynəlxalq hüququn prinsipləri əsasında həllinə istiqamətlənmiş fəaliyyət aparıcı mahiyyət daşımışdır. BMT-nin Baş Məclisi 14 mart 2008-ci il tarixdə «Azərbaycanın işğal edilmiş ərazilərində vəziyyət»lə bağlı məsələ müzakirə etmiş və müvafiq Qətnamə qəbul etmişdir. Başqa beynəlxalq və regional təşkilatlarda da bu məsələ dəfələrlə müzakirə olunmuş, qərarlar qəbul edilmiş, lakin problemin həlli indiyə qədər təmin olunmamışdır. Bunun da əsas səbəbi Ermənistanın müstəqil və suveren Azərbaycan dövlətinin beynəlxalq birlik tərəfindən tanınmış ərazilərinin silah gücünə, zorla işğal etməsi, orada öz silahlı qüvvələrini, separatçı qüvvələrlə birlikdə indiyə qədər saxlaması, beynəlxalq hüququn bir çox prinsiplərini kobud şəkildə pozması, nəzarətsiz ərazilərdən transmilli narkobiznesin, silah alverinin «çiçəklənməsi» üçün istifadə etməsi, dinc əhaliyə qarşı sülh və insanlıq əleyhinə olan cinayətlər törətmiş şəxslərin Ermənistanın rəhbərliyində təmsil olunması, onların qanun qarşısında cavab verməkdən yayınması və çoxsaylı digər maraqları dayanır. Hətta bir çox

[1] Seyidov Səməd. Heydər Əliyevin xarici siyasət xətti və müasirlik (Heydər Əliyev və Azərbaycanın müasirləşmə strategiyası), Bakı, 2011, s.223-230; 30 tarixi səfər: Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin rəsmi və dövlət səfərləri (1993-2003), Bakı, 2013

beynəlxalq sənədlərdə Ermənistanın işğalçı dövlət olması, Azərbaycan ərazilərini qanunsuz olaraq işğal etməsi, soyqırım cinayətlərinin törədilməsi etiraf edilməsinə baxmayaraq, bütün bunların mahiyyət etibarı ilə hələlik heç bir hüquqi nəticəsi olmamışdır. Azərbaycan isə beynəlxalq birlik qarşısında götürdüyü öhdəlikləri ilk gündən vicdanla yerinə yetirməyə çalışmış, beynəlxalq hüququn tələblərinə öz fəaliyyətində daim əməl etmişdir. Bu da təsadüfi deyildir. Belə ki, Azərbaycan dövləti müstəqilliyini bərpa etdikdən sonra beynəlxalq hüququn bütün əsas konvensiyalarına qoşulmuşdur. Hələ 1992-ci ilin fevral ayının 14-dən BMT-nin, 2001-ci ilin yanvar ayının 25-dən Avropa Şurasının üzvü kimi Azərbaycan üçün vacib və əhəmiyyətli olan, demək olar ki, bütün beynəlxalq müqavilələrin iştirakçısına çevrilmiş, ikitərəfli və çoxtərəfli müqavilələr imzalanmış, diplomatik əlaqələr qurulmuşdur. Bu proseslər bu gündə davam etdirilməkdədir.

Dağlıq Qarabağ münaqişəsi nəticəsində Azərbaycan əraziləri işğal edilmiş, ərazi bütövlüyü və dövlət suverenliyi pozulmuşdur. Bu münaqişə insan hüquqlarının və azadlıqlarının kütləvi pozulmasına, sülh və insanlıq əleyhinə olan beynəlxalq cinayətlərin törədilməsinə səbəb olmuşdur. BMT-nin bir sıra prinsiplərinin pozulması ölkəmizin beynəlxalq səviyyədə səylərinin gücləndirilməsini, beynəlxalq və regional təşkilatlarla əməkdaşlığın genişləndirilməsini kifayət qədər aktuallaşdırmışdır. Bu da təbiidir, ona görə ki, gənc və Dağlıq Qarabağ münaqişəsi kimi problemi olan bir respublika bu sahəyə xüsusi diqqət yetirmədən, onun inkişafı mümkünsüz olardı. Bununla belə ölkəmizin BMT-yə göstərdiyi maraq yalnız Ermənistan-Azərbaycan münaqişəsinin həlli məsələsi ilə məhdudlaşmır. O həm də BMT dəyərlərini bölüşərək insan hüquqları, iqtisadi və sosial sahələrdə həyata keçirilən müxtəlif proqramlar çərçivəsində beynəlxalq təşkilatlarla BMT ilə əməkdaşlığın genişləndirilməsinə xüsusi maraq göstərir. Ölkəmiz beynəlxalq ictimaiyyətin BMT və digər qurumlar çərçivəsində terrorçuluğa qarşı mübarizəsinə dəyərli töhfələr verməkdədir.

Ulu Öndər Heydər Əliyevin xalqın təkidli tələbi ilə hakimiyyətə qayıdışından sonra, ölkənin beynəlxalq əlaqələrinin və başqa ölkələrlə əməkdaşlığının hüquq müstəvisində genişlənməsi və inkişafı intensiv

xarakter almışdır. Belə ki, Azərbaycan dövlət müstəqilliyinin bərpasından sonra qısa bir müddət ərzində Birləşmiş Millətlər Təşkilatının (BMT), İslam Konfransı Təşkilatının (İKT), İqtisadi Əməkdaşlıq Təşkilatının (EKO), Avropada Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatının (ATƏT), Qara Dəniz İqtisadi Əməkdaşlıq Birliyinin, Avroatlantika Tərəfdaşlıq Şurasının, Avropa Şurasının, Müstəqil Dövlətlər Birliyinin üzvlüyünə qəbil edilmiş, 1975-ci il Helsinki Yekun Aktına qoşulmuşdur. Dağlıq Qarabağ münaqişəsi üzrə 1992-ci ilin mart ayında Avropada Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatının Minsk qrupu yaradılmışdır. Ölkəmiz 24 sentyabr 1993-cü ildə Müstəqil Dövlətlər Birliyinə, həmin ilin dekabrın 20-də Paris Xartiyasına, 4 may 1994-cü ildə «NATO-nun Sülh naminə tərəfdaşlıq» Proqramına qoşulmuşdur. 1997-ci ilin sentyabr ayında isə ölkəmizin yaxından səyi ilə yeni bir təşkilat - GUAM təşkilatı yaradılmış və iqtisadi sahədə əməkdaşlıq yönümlü «Yalta Xartiyası» qəbul edilmişdir. Eyni zamanda 12 may 1994-cü ildə siyasi və diplomatik vasitələrin köməyi,beynəlxalq sülh təşkilatlarının birgə səyi ilə Ermənistan - Azərbaycan müharibəsində «atəşkəs»in elan olunması, Dağlıq Qarabağ münaqişəsini həll etməsə də, lakin kütləvi insan ölümünün qarşısının alınmasına, siyasi sabitliyin və dinamik inkişafın təmin olunmasına əhəmiyyətli təsir göstərmişdir. BMT-nin Təhlükəsizlik Şurası Dağlıq Qarabağ münaqişəsi ilə bağlı məsələni dəfələrlə müzakirəyə çıxarmış, o cümlədən erməni silahlı qüvvələrinin işğal olunmuş ərazilərimizdən qeyri-şərtsiz çıxarılmasını tələb edən dörd Qətnamə qəbul etmişdir. Belə ki, BMT-nin Təhlükəsizlik Şurası Kəlbəcər rayonunun işğalı ilə əlaqədar olaraq 1993-cü ilin aprel ayının 30-da 822 №-li, Ağdam rayonunun işğalı ilə əlaqədar olaraq iyul ayının 29-da 853№-li, Qubadlı, Cəbrayıl və Füzuli rayonlarının işğal edilməsi ilə əlaqədar olaraq oktyabr ayının 14-də 874№-li, Zəngilan rayonunun işğalı ilə əlaqədar olaraq noyabr ayının 11-də 884 №-li qətnamə qəbul etsə də, onların heç biri indiyə qədər icra edilməmişdir. Bunun da əsas səbəblərindən biri BMT-nin işlək qurumlarının olmaması ilə əlaqədardır. Belə vəziyyətdə BMT-nin və onun ayrı-ayrı ixtisaslaşmış qurumlarının fəaliyyətinin təkmilləşdirilməsi, xüsusi ilə Təhlükəsizlik Şu-

rasının qətnamələrinin icrasını həyata keçirən xüsusi qurumun yaradılması aktual və vacibdir.

Ölkəmizin İslam Konfransı Təşkilatı ilə beynəlxalq əlaqələri xüsusi qeyd edilməlidir. Belə ki, SSR İttifaqının tərkibində olan müsəlman ölkələrindən biri kimi - ilk dəfə olaraq Azərbaycan Respublikası 8 dekabr 1991-ci ildə İslam Konfransı Təşkilatının üzvlüyünə qəbul edilmişdir. Bu təşkilat öz fəaliyyətinə və miqyasına görə BMT-dən sonra dünyada ikinci hökumətlərarası qurum hesab edilir. Bu təşkilatın yaradılması haqqında qərar 21 sentyabr 1969-cu ildə qəbul edilmişdir. Hazırda altmışa qədər ölkəni birləşdirən İslam Konfransı Təşkilatının əhalisinin ümumi sayı 1,5 milyard nəfərdən çoxdur. Azərbaycan Respublikasının beynəlxalq səciyyə daşıyan Dağlıq Qarabağ münaqişəsi dəfələrlə İslam Konfransı Təşkilatının Zirvə Görüşlərində müzakirə mövzusu olmuş, beynəlxalq hüququn prinsiplərinə və şərtlərinə əsaslanan çox sərt qərarlar qəbul edilmişdir. Buna baxmayaraq, həmin qərarlar və qətnamələr indiyə qədər icra edilməmişdir.

1994-cü ildə ATƏT-in Budapeşt Zirvə Görüşündə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin tez bir zamanda həll edilməsi məqsədi ilə ATƏT-in sülh qoruyan çoxmillətli qüvvələrini yaratmaq barədə qərar qəbul edilmişdir. Budapeşt Zirvə görüşündən sonra Minsk qrupu çərçivəsində danışıqlar sürətləndirilmiş, çoxsaylı hərbi əsirlərin və girovların iki tərəfli səylər, habelə Qırmızı Xaç Cəmiyyətinin himayəsi altında dəyişdirilməsi mümkün olmuşdur. Burada xüsusilə qeyd etmək lazımdır ki, hələ bu sərəncama qədər olan dövrdə də bu istiqamətdə bir sıra normativ hüquqi aktlar artıq hazırlanmış və müvafiq qanunlar qəbul edilmişdir. Belə ki, «Azərbaycan Respublikası Qanunlarının, Azərbaycan Respublikası Ali Sovetinin, onun orqanlarının qəbul etdikləri digər aktların imzalanması, dərc olunması və qüvvəyə minməsi haqqında» 9 fevral 1991-ci il tarixli, 26 may 1992-ci ildə «Azərbaycan Respublikasının bəzi qanunverici aktlarının qüvvəsini itirmiş hesab edilməsi haqqında», «Azərbaycan Respublikasının ərazisində hüquqi qüvvəsini müvəqqəti olaraq saxlayan keçmiş SSRİ qanunları və onların tətbiqi haqqında» 28 oktyabr 1992-ci il tarixli Qanunları buna misal ola bilər. Bu dövrün hüquq islahatları sahəsində

həyata keçirilən tədbirlər öz intensivliyinə, əhəmiyyətinə və genişliyinə görə xüsusi qeyd edilməlidir. Əgər bu normativ hüquqi aktların layihələrinin hazırlanması, ekspertizadan keçirilməsi, müzakirəsi və qəbul edilməsi prosesini bir sistem kimi təhlil etsək, onda bir sıra səciyyəvi cəhətləri xüsusi olaraq qeyd etməliyik.

Müstəqillik illərində ölkənin beynəlxalq hüquqi əlaqələrinin yaradılması və inkişafı, qanunvericiliyin beynəlxalq hüququn tələblərinə uyğunlaşdırılması, beynəlxalq əlaqələrin və xarici siyasətin müstəqilliyin tələblərinə cavab verən bir səviyyədə yenidən təşkil edilməsi və sair bu kimi əsas istiqamətlərdə aparılmışdır. Bu tədbirlər sırasında müstəqillik illərində qəbul edilmiş ilk konstitusiyanın əsas müddəalarının, prinsiplərinin və şərtlərinin, Azərbaycanın qoşulduğu beynəlxalq müqavilələrin, konvensiyaların, ölkəmizin üzərinə götürdüyü öhdəliklərin, ayrı-ayrı fəaliyyət sahələri üzrə digər beynəlxalq sənədlərin, ümumbəşəri dəyərlərin, insan hüquqlarının və azadlıqlarının təmin olunması sahəsində qarşıda duran vəzifələrin, yeni iqtisadi münasibətlərin beynəlxalq hüququn hamılıqla qəbul edilmiş tələblərinə müvafiq olaraq formalaşdırılmasına və tənzimlənməsinə xüsusi diqqət yetirilmişdir. Bazar münasibətlərinə keçidin, milli adət və ənənələrin, xüsusiyyətlərin, dünya təcrübəsinin, elmi müddəaların, nəzəri təlimlərin və digər çoxsaylı müsbət və yüksək tələblərə cavab verən meyarların nəzərə alınması, bu sahədə əsas istiqamətlərdən biri olmuşdur.

12 noyabr 1995-ci ildə ümumxalq referendumu yolu ilə qəbul edilmiş müstəqil Azərbaycan Respublikasının ilk Konstitusiyası ölkə daxilində və xaricində beynəlxalq əlaqələrin hüquqi əsaslarını, hüquqi dövlət quruculuğunun genişlənməsinə, insan hüquqlarının və azadlıqlarının müdafiəsinə etibarlı hüquqi təminat yaratmışdır. Xalqımızın tarixində müstəqillik illərinin ən böyük hüquqi və siyasi hadisəsi kimi müstəsna əhəmiyyətə malik olan konstitusiya ölkəmizdə demokratik, hüquqi, dünyəvi, unitar respublika qurulduğunu bəyan etmiş, Azərbaycan dövlətinin müstəqilliyini, suverenliyini və ərazi bütövlüyünü qorumaq, konstitusiya çərçivəsində demokratik quruluşa təminat vermək, vətəndaş cəmiyyətinin bərqərar edilməsinə nail olmaq, qanunun aliliyini təmin edən hüquqi, dünyəvi dövlət qurmaq, ədalətli iqtisadi və so-

sial qaydalara uyğun olaraq hamının layiqli həyat səviyyəsini təmin etmək, ümumbəşəri dəyərlərə sadiq olaraq bütün dünya xalqları ilə dostluq, sülh və əmin-amanlıq şəraitində yaşamaq kimi niyyətlərini və arzularını bəyan etmişdir. Əgər bu sənədin ümumxalq səsverməsi yolu ilə - referendum yolu ilə qəbul edildiyini və xalqın iradəsinin ifadəsi olduğunu nəzərə alsaq, onda konstitusiyamızın ictimai-siyasi və hüquqi mahiyyətini və dəyərini lazımınca qiymətləndirmiş olarıq.[1]

Yeni Konstitusiyamızda Azərbaycan dövlətinin bazar münasibətləri əsasında sosial yönümlü iqtisadiyyatın inkişafına şərait yaratması, azad sahibkarlığa təminat verməsi, iqtisadi münasibətlərdə inhisarçılığa və haqsız rəqabətə yol verməməsi, eləcə də iqtisadiyyatın inkişafının müxtəlif mülkiyyət növlərinə əsaslanaraq xalqın rifahının yüksəldilməsinə xidmət etməsi kimi meyarların təsbit olunması artıq ölkəmizin tarixində yeni bir ictimai siyasi sistemin, yeni bir dövlət quruculuğunun istiqamətləri, məqsəd və vəzifələri haqqında bitkin təəssürat yaradır.[2]

Konstitusiya müstəqilliyimizin möhkəmləndirilməsi, milli dövlətçilik təsisatlarının yeni bir mərhələdə təşəkkülü və təkamülü üçün mühüm əhəmiyyət kəsb edən hüquqi hadisə hesab oluna bilər. Bu sənəd ölkəmizdə hüquqi dövlət quruculuğunun beynəlxalq standartlar səviyyəsində inkişafı üçün tarixi əhəmiyyəti olan bir zəmin yaratmışdır. Konstitusiyada müstəqil, demokratik və hüquqi dövlət üçün səciyyəvi olan cəhətlər, hakimiyyət bölgüsü, insan hüquqlarının və azadlıqlarının geniş şəbəkəsi, vətəndaş cəmiyyətinin inkişafının konstitusion təminatları mükəmməl şəkildə öz təsbitini tapmışdır. Ordu quruculuğunun təşəkkülü, hüquq sisteminin əsaslı surətdə yenidən təşkili, dövlət idarəçiliyinin, maliyyə və kredit siyasətinin, qanunverici, icraedici və məhkəmə hakimiyyətinin mütərəqqi və demokratik dəyərlər sistemi əsasında yaradılması, xarici siyasət fəaliyyətinin müstəqil həyata keçirilməsini təmin edən təsisatların yaranması, mürəkkəb və geniş tənzimləmə sahələrinin hüquqi cəhətdən düzgün formalaşdırılması və qa-

[1] Azərbaycan Respublikasının Konstitusiyası, Bakı, 2012, s.4, 7
[2] Yenə orada, s.10

nunvericilik sisteminin mükəmməl hazırlanması istiqamətində misilsiz işlər aparılmışdır.

Ölkədə mürəkkəb ictimai-siyasi vəziyyətin və böhranlı şəraitin yaranması Azərbaycan xalqının təkidli tələbi ilə, görkəmli ictimai-siyasi xadim Heydər Əliyevin yenidən hakimiyyətə qayıdışı ilə nəticələndi. Bu da ölkənin ümumiyyətlə düşdüyü mürəkkəb iqtisadi, siyasi, hərbi və hüquqi problemlərinin uğurlu həllinə stimul verdi. Bütün bu sahələrdə diqqətəlayiq islahatlar həyata keçirildi və müsbət dəyişikliklər baş verdi. 8 fevral 1994-cü il tarixli Qanunla «Azərbaycan Respublikasının Konsul Nizamnaməsi» təsdiq edildi.[1] Eyni zamanda Ulu Öndər Heydər Əliyevin şəxsi səyi ilə ölkənin milli təhlükəsizliyinin və xarici siyasətinin yenidən təşəkkülü istiqamətində sistemli islahatlar aparıldı. Belə ki, respublikanın Xarici İşlər Nazirliyinin strukturu, əlaqələri, vəzifələri və funksiyaları əhəmiyyətli dərəcədə genişləndirildi. Bu sahədə qarşıda duran vəzifələrin uğurla həyata keçirilməsini təmin edən çevik mexanizmlərin yaradılmasına xüsusi diqqət yetirildi. Nəticədə 29 yanvar 2004-cü il tarixdə ölkə Prezidenti İlham Əliyevin fərmanı ilə Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinin yeni Əsasnaməsi təsdiq edilmiş, Xarici İşlər Nazirliyi və onun müxtəlif qurumlarının hüquqları daha da genişləndirmiş və məsuliyyəti artırılmışdır. Məhz bunun nəticəsidir ki, hazırda dünyanın əsas aparıcı dövlətlərində səfirliklər, konsulluqlar yaradılmış və onlar Azərbaycanın beynəlxalq əlaqələrinin və münasibətlərinin yüksək səviyyədə qurulmasında və inkişafında ciddi səylər göstərməkdədir.[2]

Ulu Öndər Heydər Əliyevin mühüm xidmətlərindən biri də dünyanın müxtəlif ölkələrində yaşayan azərbaycanlılarla əlaqələrin genişləndirilməsi və onların Dağlıq Qarabağ münaqişəsi ilə bağlı dövlətimizin mövqeyini dünyaya çatdırmağa səfərbər olunması ilə bağlı olmuşdur. Bu həm də beynəlxalq hüquqi əlaqələrin inkişafına mühüm bir töhfə

---

[1] Azərbaycan Respublikasının Qanunlar külliyatı, II kitab, Bakı, «Qanun» nəşriyyatı, 1997, s.136-1154

[2] Əlibəyli Həsən. Heydər Əliyev və Azərbaycan diplomatiyasının formalaşması problemləri Ulu önfər Heydər Əliyevin irsi və politologiyanın aktual problemləri, Məcmuə, Bakı, 2012-ci s.59- 66

olmuşdur. 2001-ci il noyabr ayının 9-u və 10-da Bakıda keçirilən Dünya Azərbaycanlılarının I Qurultayında xaricdəki azərbaycanlılarla sistemli iş aparılmasını təşkil etmək, onlar arasında milli birliyin möhkəmləndirilməsini təmin etmək məqsədilə xüsusi dövlət qurumunun yaradılması ideyasına müvafiq olaraq ölkə prezidenti 5 iyul 2002-ci il tarixdə «Xaricdə Yaşayan Azərbaycanlılarla İş üzrə Dövlət Komitəsinin yaradılması haqqında» Fərman imzalamışdır. 19 noyabr 2008-ci il tarixli 54 saylı Sərəncamla bu komitə - «Diasporlarla iş üzrə Dövlət Komitəsi» adlandırılmaqla, bu adla da bu günə qədər fəaliyyət göstərir və milli problemlərin həllində faydalı tədbirlər həyata keçirməkdədir.

Ölkəmizin siyasi həyatında, daxili və xarici siyasətində, ictimai-iqtisadi və sosial münasibətlərində baş verən əsaslı dəyişikliklər sonrakı illərdə Azərbaycan Respublikası Konstitusiyasına müvafiq dəyişikliklərin aparılmasına zərurət yaratdı. Məhz bunun nəticəsidir ki, 24 avqust 2002-ci ildə və 18 mart 2009-cu ildə referendum yolu ilə konstitusiyada edilmiş dəyişikliklər və əlavələr onu daha da mükəmməlləşdirilməsinə, təkmilləşdirilməsinə səbəb oldu. Belə ki, 24 avqust 2002-ci ildə keçirilən referendumla Azərbaycan Respublikası Konstitusiyasının ümumxalq səsverməsi - referendum yolu ilə həll edilən məsələlərə dair üçüncü hissənin əlavə edilməsi, «yaşamaq hüququ»na həsr olunmuş 27-ci maddəsinin təkmilləşdirilməsi, insan və vətəndaş hüquqlarının və azadlıqlarının təminatına dair 71-ci maddəyə üçüncü bəndin əlavə edilməsi, «Vətənin müdafiəsi»nə həsr olunmuş 76-cı maddəyə alternativ xidmətə dair qeydin əlavə edilməsi və digər təkmilləşdirilmələrin mühüm əhəmiyyəti var idi. Xüsusi ilə, «Azərbaycan Respublikasında insan hüquqları üzrə müvəkkillik» - Ombudsman institutunun yaradılması, Azərbaycan Respublikası prokurorluğuna qanunverici təşəbbüs hüququnun verilməsi, appelyasiya və iqtisad məhkəmələrinin fəaliyyətinin təkmilləşdirilməsi, Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin fəaliyyətinin əsaslı surətdə təkmilləşdirilməsi mühüm əhəmiyyətə malik idi.[1]

---

[1] «Qanunçuluq» jurnalı, Bakı, 2002, № 6, Xüsusi buraxılış s.9-23

Azərbaycanda insan hüquqlarının və azadlıqlarının daha da təkmilləşdirilməsi, müdafiə mexanizmlərinin, ailə, qadın və uşaq hüquqlarının, seçki sisteminin və seçki hüququnun beynəlxalq standartlara uyğunlaşdırılması sahəsində mühüm əhəmiyyət kəsb edən 18 mart 2009-cu il tarixli referendumun rəyi ilə Azərbaycan Respublikası Konstitusiyasına edilən əlavələr və dəyişikliklər konstitusiya hüququnun, beynəlxalq hüququn qarşılıqlı səyi və elmi müddəaları əsasında əhəmiyyətli dərəcədə inkişaf etdirildi və təkmilləşdirildi. Referendum yolu ilə edilən dəyişikliklə Azərbaycan Respublikası vətəndaşlarına layiqli həyat səviyyəsinin təmin olunması vəzifəsini dövlətin öz üzərinə götürməsi, 40 min nəfər seçki hüququ olan vətəndaşa qanunvericilik təşəbbüsü hüququnun verilməsi, bələdiyyələrin müstəqilliyinə dair təminatın artırılması, məhkəmə hakimiyyətinin əhəmiyyətli şəkildə təkmilləşdirilməsi mühüm əhəmiyyətə malik idi. Eləcə də referendum yolu ilə «bərabərlik hüququ»na (maddə 25), «ailə, uşaqlar və dövlət»ə həsr olunmuş normaya (maddə 27), «din və dövlət» (maddə 18), «mülkiyyət hüququ» (maddə 29), «şəxsi toxunulmazlıq hüququ» (maddə 32), «sağlam ətraf mühitdə yaşamaq hüququ» (maddə 39), «vicdan azadlığı» (maddə 28), «məlumat azadlığı» (maddə 50) və digər bu kimi maddələrə edilən dəyişikliyin əsasında insan hüquqlarının və azadlıqlarının daha da genişləndirilməsi niyyəti dayanırdı. Bununla yanaşı, referendum yolu ilə insan və vətəndaş hüquqlarının və azadlıqlarının təminatının gücləndirilməsi (maddə 71) insan hüquqlarının müdafiə mexanizmlərinin, o cümlədən məhkəmə yolu ilə müdafiənin daha da təkmilləşdirilməsi, bu sahədə Milli Məclisin və ölkə prezidentinin səlahiyyətlərinin əhəmiyyətli dərəcədə artırılması ötən dövr ərzində insan hüquqlarının və azadlıqlarının etibarlı şəkildə müdafiəsinin əsasında dayanmışdır. Ümumiyyətlə, qeyd edilən iki referendum vasitəsi ilə Azərbaycan Respublikası Konstitusiyasına edilən əlavələrin və dəyişikliklərin böyük əksəriyyəti insan hüquqlarının və azadlıqlarının təminatına, ailə münasibətlərinin mükəmməl tənzimlənməsinə, mülkiyyətin, şəxsi toxunulmazlığın, vicdan azadlığının etibarlı qorunmasına, qanunverici, icraedici və məhkəmə hakimiyyətinin daha da gücləndirilməsinə həsr olunmuşdur. Eləcə də, Azərbaycan Respublikasının seçki

hüququ olan 40 min vətəndaşının qanunvericilik təşəbbüsü hüququndan istifadə etməsi qaydasına dair norma və bələdiyyələrin müstəqilliyinin təminatının artırılması, konstitusiyanın demokratik və hüquqi dövlət prinsiplərinə uyğun olaraq inkişafını təmin etdi.[1]

Konstitusiyaya referendum yolu ilə edilmiş əlavələrdə və dəyişikliklərdə insan hüquqlarının və azadlıqlarının müdafiəsinə, hökumətlərarası müqavilələrin təsdiqinə və ləğv olunmasına dair müddəalar, eləcə də Konstitusiya Məhkəməsinin qərarlarının dərc edilməsi və beynəlxalq hüququn müxtəlif məsələlərinə dair standartlarına cavab verən dəyişikliklərin və əlavələrin edilməsi müsbət hal kimi qiymətləndirilə bilər.[2] Son illər Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin həyata keçirdiyi tədbirlər kompleksi öz ardıcıllığı və sistemi ilə diqqəti cəlb edir. İnsan hüquqlarının və azadlıqlarının müdafiəsini təmin edən normativ hüquqi aktların təkmilləşdirilməsi, qadın hüquqlarının təmin olunması, bununla bağlı olaraq bərabərlik, azadlıq, şəxsi toxunulmazlıq, sosial təminat, sərbəst toplaşmaq, ifadə azadlığı, seçki hüququ, birləşmək hüququ, azad sahibkarlıq hüququ, vərəsəlik hüququ, ailə hüququ, əmək hüququ, vergi hüququ və digər hüquqlara dair Konstitusiya Məhkəməsinin izahları və qərarları müstəsna əhəmiyyətə malik olmuş, ədalət mühakiməsinin qanuna müvafiq olaraq tətbiqinə əlverişli imkanlar yaratmışdır. Qadın hüquqları və azadlıqları ilə bağlı ədalət mühakiməsi orqanlarının fəaliyyətində istifadə edilən əsas prinsiplərin, cinayət, mülki və inzibati münasibətlərə dair məhkəmənin izahları təcrübədə geniş istifadə edilir.[3]

Azərbaycan dövlət müstəqilliyini bərpa etdikdən sonra mülkiyyət münasibətlərinin etibarlı şəkildə qorunmasının və mühafizəsinin hüqu-

---

[1] «Qanunçuluq» jurnalı, Bakı, 2002, № 6, Xüsusi buraxılış s.3-28; Mərkəzi Seçki Komissiyasının 18 mart 2009-cu il tarixli referendumla bağlı xüsusi bülliteni, Bakı, 2009

[2] «Qanunçuluq» jurnalı, Bakı, 2002, № 6, Xüsusi buraxılış s.3-28; Mərkəzi Seçki Komissiyasının 18 mart 2009-cu il tarixli referendumla bağlı xüsusi bülliteni, Bakı, 2009

[3] Abdullayev F. Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin hüquqi mövqeləri, Bakı, 2013, s.570-645

qi əsaslarının möhkəmləndirilməsinə diqqət artırıldı. Sonrakı illərdə istehsal alətləri və vasitələri üzərində ictimai mülkiyyətə əsaslanan sosializm quruluşundan imtina edilməsi, bazar münasibətləri əsasında sosial yönümlü iqtisadiyatın inkişafına diqqətin artırılması, mülkiyyət hüququnun, o cümlədən şəxsi mülkiyyət hüququnun qorunmasına verilən konstitusion təminat ölkənin ictimai – siyasi quruluşunda və insanların həyatında mühüm dəyişikliklərə səbəb oldu. 27 iyun 1991-ci ildə "Azərbaycan Respublikasında əhalinin məşğulluğu haqqında", 9 noyabr 1991-ci ildə «Azərbaycan Respublikasında mülkiyyət haqqında» Qanunlar qəbul edildi. 15 yanvar 1992-ci ildə isə «Xarici investisiyanın qorunması haqqında», 15 yanvar 1993-cü ildə "Varidata təminat verilməsi haqqında", 4 mart 1993-cü ildə "Antiinhisar fəaliyyəti haqqında", 13 yanvar 1995-ci ildə "İnvestisiya fəaliyyəti haqqında", 2 iyun 1995-ci ildə "Haqsız rəqabət haqqında" Azərbaycan Respublikasının Qanunlarının qəbul edilməsi ölkəmizə tədricən müxtəlif xarici sahibkarların investisiya yatırmasına əlverişli şərait və imkan yaratdı. 15 dekabr 1992-ci ildə «Sahibkarlıq fəaliyyəti haqqında Qanun»un qəbul edilməsi ölkənin daxilində bazar münasibətlərinin inkişafına stimul verdi. Bununla yanaşı «İstehlakçıların hüquqlarının müdafiəsi haqqında» 19 sentyabr 1995-ci ildə qəbul edilmiş Qanun zamanın tələblərinə tam cavab verirdi.

Müstəqillik illərində ölkənin daxili və xarici siyasət sahəsində zəruri problemlərinin uğurlu həllində, bazar münasibətlərinin təşəkkülündə ardıcıl və sistemli formada həyata keçirilən «Özəlləşdirmə Proqramı» mühüm tarixi hadisə kimi qiymətləndirilə bilər. Bolşevik inqilabından sonra zor gücünə, dəhşətli represiyalar hesabına formalaşdırılan mülkiyyət obyektlərinin, sosialist iqtisadiyyatının mahiyyət etibarı ilə əsaslı surətdə dəyişdirilməsi, daşınmaz əmlakın demokratik və hüququ əsaslarla özəlləşdirilməsi və ölkə əhalisinə qaytarılması kifayət qədər mürəkkəb və əhəmiyyətli bir tədbirlər sistemini əhatə etdi. «Azərbaycan Respublikasında dövlət mülkiyyətinin özəlləşdirilməsi haqqında» 7 yanvar 1993-cü ildə qəbul edilmiş Qanun ölkə iqtisadiyyatının güclənməsinə, sahibkarlığın inkişafına, əhalinin maddi vəziyyətinin yüksəlməsinə mühüm təsir göstərdi. Təsadüfi deyil ki, bazar iqtisadiyyatına

keçid dövründə milli iqtisadiyyatın əsaslarının formalaşması üçün respublika ərazisində, ayrı – ayrı fiziki şəxslərdə, habelə qeyri-dövlət hüququ şəxslərdə olan puldan, valyutadan və digər varidantdan sərbəst istifadə olunmasını təmin etmək məqsədi ilə 15 yanvar 1993-cü ildə «Varidata təminat verilməsi haqqında» konstitusiya qanunu qəbul edildi. Bu istiqamətdə «Maliyyə-sənaye qrupları haqqında» 23 aprel 1996-cı il tarixdə qəbul edilmiş Qanun da mühüm əhəmiyyətə malik oldu. [1]

Azərbaycan Respublikasının Prezidenti 18 avqust 1992-ci ildə «Azərbaycan Respublikasının Beynəlxalq Valyuta Fonduna, Beynəlxalq Yenidənqurma və İnkişaf Bankına və onlarla bağlı olan təşkilatlara daxil olmanın məqsədəuyğun hesab edilməsi haqqında» Fərman imzaladı. Bu Fərman Azərbaycan Respublikası Milli Məclisinin qərarı ilə təsdiq edildi. Bu qərarın 2-ci maddəsində Azərbaycan Respublikasının Beynəlxalq Valyuta Fonduna, Beynəlxalq Yenidənqurma və İnkişaf Bankına və onlarla bağlı olan təşkilatların Sazişlərinə, Konvensiyalarına qoşulmanın zəruriliyi qeyd edilirdi. Həmin təşkilatların Sazişlərinin və Konvensiyaların müvafiq maddələri Milli Məclisin göstərilən qərarı ilə birlikdə kütləvi informasiya vasitələrində dərc edildi. «Azərbaycan Respublikasında Beynəlxalq Valyuta Fondunun, Beynəlxalq Yenidənqurma və İnkişaf Bankının və onlarla bağlı olan təşkilatların sazişlərinin və konvensiyalarının tətbiq qaydası haqqında» 19 yanvar 1992-ci ildə qəbul edilmiş Qanun Beynəlxalq Valyuta Fondu, Beynəlxalq Yenidənqurma və İnkişaf Bankı, Beynəlxalq Maliyyə Korporasiyası, Beynəlxalq İnkişaf Assosiasiyası sazişlərinin, İnvestisiyasılarının hərtərəfli Təminatı Agentliyi və Beynəlxalq İnvestisiya Mübahisələrinin həlli Mərkəzinin əsasları haqqında Konvensiyalarda nəzərdə tutulan normaların Azərbaycan Respublikasının bütün ərazisində, Azərbaycan Respublikası həmin təşkilatlara daxil olduğu andan tətbiq edilməsi qaydalarını nəzərdə tutdu. Həmin sazişlərin və konvensiyaların normaları ilə Azərbaycan Respublikasnın qanunvericilik aktlarının nor-

---

[1] Azərbaycan Respublikasının Qanunlar külliyatı, II kitab, Bakı, «Qanun» nəşriyyatı, 1997, s. 29

maları arasında uyğunsuzluq yarandığı hallarda, sazişlərin və konvensiyaların normalarının tətbiq edilməsi qaydası müəyyən edildi.[1]

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 15 fevral 1994-cü il tarixli «Azərbaycan Respublikasında xarici ticarətin müvəqqəti qaydaları haqqında» 62 nömrəli Qərarı gənc ölkənin idxal və ixrac kvotalarını lisenziyalaşdırma, xarici ticarətdə hesablaşma qaydaları və digər məsələlərin həlli üçün əhəmiyyətli addım oldu. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2 iyul 1994-cü il tarixli 222 nömrəli Qərarı ilə «Azərbaycan Respublikasında xarici ticarətin təşkili haqqında» yeni qaydalar müəyyən edildi. Burada ixrac və idxalın növləri, aparılma qaydaları, hesablaşmaların tənzimlənməsi və gömrük orqanlarında təsdiq edilməsinə dair məsələlər tənzim edilirdi. 15 noyabr 1995-ci ildə Nazirlər Kabinetinin «Azərbaycan Respublikasında xarici ticarətin sərbəstləşdirilməsi haqqında» Qərarı xarici ticarət fəaliyyətinin tənzimlənməsi sahəsində irəliyə atılmış bir addım hesab oluna bilərdi. 24 iyul 1997-ci il tarixli Prezident Fərmanı xarici ticarətin liberallaşdırılmasına yeni yanaşma baxımından daha mükəmməl Qaydalar nəzərdə tuturdu. Ümumiyyətlə, bu dövrdə daxili və xarici siyasətin üzvü surətdə əlaqələndirilməsi, o cümlədən hüquqi tənzimləmə sahəsində həyata keçirilən tədbirlər ölkənin iqtisadi gücünün və insanların həyat şəraitinin inkişafında mühüm əhəmiyyətə malik oldu. Məhz görülmüş bütün bu tədbirlər nəticəsində Ulu Öndər Heydər Əliyevin ciddi səyləri ilə ölkənin iqtisadi müstəqilliyinin möhkəmləndirilməsi və insanların həyat şəraitinin yaxşılaşdırılması üçün faydalı əməkdaşlığa əsaslanan əlaqələrin beynəlxalq hüququn prinsipləri əsasında genişləndirilməsinə və inkişafına xüsusi diqqət yetirilirdi. Bu görkəmli dövlət xadiminin bilavasitə rəhbərliyi ilə bütün təzyiqlərə baxmayaraq, 1994-cü il sentyabr ayının 20-də «Xəzər dənizinin Azərbaycan sektorunda «Azəri», «Çıraq» və «Günəşli» yataqlarının dərinlikdə yerləşən hissəsinin birgə işlənməsi və neft hasilatının pay bölgüsü haqqında» Azərbaycan Dövlət Neft Şirkəti (ARDNŞ) ilə dünyanın 8 ölkəsinin - ABŞ-ın, Böyük Britaniyanın,

[1] Azərbaycan Respublikasının Qanunlar külliyatı, I kitab, Bakı, «Qanun» nəşriyyatı, 1997, s. 569

Rusiyanın, Türkiyənin, Norveçin, Yaponiyanın və Səudiyyə Ərəbistanının, 13 ən məşhur neft şirkətinin - «Amoco», BP, «McDermott», «Unocal», ARDNŞ, «LUKoyl», «Statoyl», «Ecson», «Türkiye Petrolları», «Pennzoyl», «Itochu», «Remco», «Delta»-nın iştirakı ilə «Əsrin müqaviləsi» imzalandı. Bu da təsadüfi deyildi, qanunauyğun bir prosesin, görülmüş tədbirlərin məntiqi nəticəsi idi. Belə ki, Azərbaycan müstəqilliyini elan edəndən sonra neft sənayesinə xarici kapitalı cəlb etməklə neft hasilatı və emalının artırılması, nəqli və onun beynəlxalq bazarda dünya qiymətlərinə uyğun olaraq satılmasının zəruriliyini dəyərləndirərək bu istiqamətdə gərgin iş aparılmış və uğurlu nəticələr əldə edilmişdir. Yuxarıda göstərilən müqaviləyə əsasən ARDNŞ-in ilkin payı 20% idi. 1995-ci ildə 5% «Ecson» şirkətinə (buna qədər «Ecson» müqavilədə iştirak etmirdi), 5% isə «TPAO» şirkətinə (ilkin olaraq «TPAO»-nun müqavilədə iştirak payı 1,75% idi) güzəşt edildi. ARDNŞ-nin 10%-lik güzəştinin əsas səbəbi kimi, öz payını maliyyələşdirməyə vəsaitinin olmaması faktı göstərilirdi. «Ecson» və «Tpao» şirkətləri 173,2 milyon ABŞ dolları məbləğində bonusunu Azərbaycana verməklə və ARDNŞ-in 10%-lik payının maliyyələşdirilməsini öz üzərlərinə götürdülər. Bundan başqa «İtoçu» kampaniyası «Mak-Dermott»un (ABŞ) 2,45%-lik payını da almaqla konsorsiumda onun yerini tutdu. «Penzoyl»un satdığı 5%-lik paydan 1,4705%-ni alan «İtoçu»nun müqavilədə ümumi payı – 3,9205%-ə çatdı. Eyni zamanda «Penzoyl»un satdığı 5% payın 3,006%-ni «Ecson» şirkəti, 0,5289%-ni isə «Yunokal» şirkəti aldılar. Konsersium üzvləri arasında imzalanan «Əməliyyatların birgə aparılması haqqında razılaşmaya» müvafiq olaraq «Azərbaycan Beynəlxaql Əməliyyat Şirkəti» (ABƏŞ) yaradıldı. «Əsrin müqaviləsi» isə 12 dekabr 1994-cü ildən qüvvəyə mindi.[1]

İlk beynəlxalq neft müqaviləsindən sonra ARDNŞ Azərbaycanın Xəzər şelfində və quruda yerləşən digər neft yataqları və perspektiv strukturlarının da birgə istismarı ilə bağlı xarici enerji kompaniyaları ilə kontraktlar imzaladı. Belə ki, 10 noyabr 1995-ci ildə «Qarabağ» perspektiv strukturunun işlənilməsi üzrə 4 xarici şirkətlə 25 il müddətinə

[1] Diplomatiya Ensiklopedik Lüğət, Bakı, 2005, s.86-88

müqavilə imzalandı. 4 iyun 1996-cı ildə «Şahdəniz» layihəsi üzrə müqavilə imzalandı və 17 oktyabr 1996-cı ildən qüvvəyə mindi. Bu müqavilə «Bi-Pi Eksploreyşn LTD» kompaniyası tərəfindən həyata keçirilirdi. «Dan Ulduzu» (Əşrəfi) layihələri üzrə hasilat bölgüsünə dair müqavilə isə 14 dekabr 1996-cı ildə imzalandı və müqavilə Abşeron Şimal Əməliyyat Şirkəti (AŞƏŞ) tərəfindən həyata keçirildi.

Qeyd etmək lazımdır ki, «Dan Ulduzu» (Əşrəfi) neft yataqlarının istifadə olunması barədə ölkəmiz hələ 1992-ci ildən başlayaraq ABŞ-ın «Amoko» və «Yunokal» şirkətləri ilə danışıqlara başlamışdı. Bu müqavilədə ABŞ şirkətlərindən başqa, Yaponiya və Səudiyyə Ərəbistanının şirkətləri də iştirak edirdilər.

Azərbaycanın Xəzər neftinin hasil edilməsi üzrə dördüncü beynəlxalq müqavilə 07 mart 1997-ci ildə qüvvəyə mindi. 13 yanvar 1997-ci ildə Parisdə Yelisey sarayında Fransa prezidenti Jak Şirakın və Ulu Öndər Heydər Əliyevin iştirakı ilə Xəzərin Azərbaycan sektorundakı Lənkəran – dəniz və Talış – dəniz yataqlarının kəşfiyyatı, işlənilməsi və hasilatın pay bölgüsü haqqında ARDNŞ ilə Fransanın «Elf Akiten»və «Total» şirkətləri arasında müqavilə imzalandı.

03 iyul 1997-ci ildə Ulu Öndər Heydər Əliyevin Rusiya Federasiyasına rəsmi səfəri zamanı Xəzərin Azərbaycan sektoruna mənsub «Yalama (D-222)» perspektiv strukturu ilə bağlı ARDNŞ ilə «Lukoyl» şirkəti arasında neft müqaviləsi imzalandı. Bu saysa altıncı müqavilə olmaqla, az sonra «Lukoyl» öz maraqlarını «Luk Arko» şirkətinə (Rusiya-ABŞ) güzəştə getdi. «Luk – Arko» Rusiyanın Lukoyl və ABŞ-ın «Arko» şirkətləri bazasında yaradılmış birgə kompaniya hesab olunur. Layihənin reallaşması üçün 2 milyard ABŞ dolları həcmində investisiya tələb olunurdu. Eləcə də 1 avqust 1997-ci ildə Ulu Öndər Heydər Əliyevin ABŞ-a rəsmi səfəri zamanı Vaşinqtonda «Abşeron», «Oğuz» və «Naxçıvan» strukturlarının birgə işlənilməsi üzrə üç Azərbaycan-Amerika neft kontraktı imzalandı və bu müqavilələr 5 dekabr 1997-ci ildən qüvvəyə mindi.

02 iyun 1998-ci ildə Bakının «Gülüstan» sarayında Xəzər dənizinin Azərbaycan sektorundakı «Kürdaşı» dəniz blokunun və qurudakı «Cənub-Qərbi Qobustan» və «Kürsəngi-Qarabağlı» bloklarının birgə

işlənilməsi haqqında ARDNŞ ilə İtaliyanın «Acip», Yaponiyanın «Mitsui», Türkiyənin «TPAO», Böyük Britaniyanın və Kanadanın «Komonvels oyl ənd qaz», ABŞ-ın «Frontera Resourses», «Amiroda Hess», «Yunion Teksas», Səudiyyə Ərəbistanının «Delta» şirkətləri arasında müqavilələr imzalandı.

ARDNŞ-in xarici enerji şirkətləri ilə bağladığı növbəti üç neft müqaviləsi Ulu Öndər Heydər Əliyevin 21 iyul 1998-ci ildə Böyük Britaniyaya rəsmi səfəri zamanı imzalandı. Bu müqavilələr Xəzər dənizinin Azərbaycan sektoruna aid olan «İnam», «Araz», «Şərq» və «Muradxanlı» perspektiv strukturlarını əhatə edir. Bundan başqa Ulu Öndər Heydər Əliyev 27 aprel 1999-cu ildə NATO-nun 50 illik yubiley tədbirləri ilə bağlı ABŞ-a rəsmi səfəri zamanı daha üç beynəlxalq neft müqaviləsi imzalandı. Bu müqavilələr Azərbaycanın Xəzər şelfindəki «Zəfər-Məşəl» və «Lerik blokları»nı, habelə quruda yerləşən «Padar yatağını» əhatə etdi.

Beləliklə, 1994-1999-cu illərdə Azərbaycan Dövlət Neft Şirkəti dünyanın 14 ölkəsinin - ABŞ, Böyük Britaniya, Fransa, Norveç, Türkiyə, İran, Səudiyyə Ərəbistanı, Yaponiya, Rusiya, İtaliya, İspaniya, Belçika, Almaniya, Kanada, 31 şirkəti ilə - Yunokal, Ekson, Penzoyl, Frontera, Resourses, Şevron, Mobil, Luk-Arko, Delta-Hess, Monkrif oyl, Bi-Pi, Amoko, Ramko, Komonvels oyl, Monyument, Elf Akiten, Total, Statoyl, TPAO, OİES, İtoçu, Capan Petroleum, İndoneziya Petroleum, Teykoku, Mitsui, Lukoyl, Lukacip, Sentral Fyuel, Acip, Repsol, Petrofina, Vinterşel və Alberta Enəci neft şirkətlərilə 19 beynəlxalq neft müqaviləsi imzalanıb başa çatdırıldı. Bütün bu müqavilələr üzrə Azərbaycanın neft sənayesinə 50 milyard ABŞ dolları həcmində investisiya qoyulması nəzərdə tutulurdu. Əslində bu 1994-1998-ci illərdə bütövlüklə neft sənayesinə 2 milyard 253 milyon ABŞ dolları həcmində sərmayə qoyuluşu demək idi. Bu da ümumiyyətlə Azərbaycan Respublikası iqtisadiyatına qoyulan bütün xarici sərmayələrin 65%-ni təşkil edirdi. «Əsrin müqaviləsi» üzrə «Çıraq-1» platformasından ilkin neft 1997-ci ilin dekabrında Bakı-Novorossiysk marşrutu üzrə Qara dəniz vasitəsilə daşınmış, 24 mart 1998-ci ildə isə ilk tanker Azərbay-

can nefti ilə yüklənib Bakı-Supsa boru-kəməri vasitəsilə 17 aprel 1999-cu il tarixdə istismara verilmişdir.[1]

Dünyada analoqu olmayan belə müqavilələr - ölkəmizin iqtisadi müstəqilliyinin əsaslarını möhkəmləndirilməsi üçün çox mühüm tarixi əhəmiyyət kəsb edən hadisə kimi dəyərləndirilə bilər. Bu tədbirlər sonralar da intensiv şəkildə inkişaf etdirilmişdir. Belə ki, 1998-ci ilin sentyabrın 7-8-də 32 dövlətin və 13 beynəlxalq təşkilatın birgə səyi ilə «Böyük İpək yolu»nun bərpası üzrə Konfransın keçirilməsi mühüm tarixi hadisə idi. Heydər Əliyevin layiqli davamçısı olan İlham Əliyevin ölkə prezidentliyinə seçilməsi, onun siyasi və iqtisadi kursunun ahəngdar inkişafına yeni ruh və yeni uğur gətirdi. Məhz bunların nəticəsi idi ki, ideyası Ulu Öndər Heydər Əliyev tərəfindən irəli sürülmüş bir çox uğurlu layihələr yeni prezident İlham Əliyev tərəfindən inamla davam etdirildi. Bakı-Tiflis-Ceyhan neft kəmərinin, Bakı-Tiflis-Ərzurum qaz kəmərinin, Bakı-Tiflis-Qars dəmir yolunun, Avropa-Qafqaz-Asiya Transqafqaz nəqliyyat dəhlizi»nin (TRASEKA), «Cənub Qaz dəhlizinə» NABUCCO və onun qolları olan Türkiyə, Yunanıstan, İtaliya Transatlantik qaz kəmərinin çəkilişi üzərində aparılan işlə yanaşı Azərbaycanın, Gürcüstanın və Rumıniyanın iştirakı ilə yeni qaz layihəsi üzərində aparılan iş nümunə kimi göstərilə bilər. 2003-cü ildə Azərbaycanın Avropa İttifaqı tərəfindən «Yeni qonşuluq siyasətinə daxil edilməsi», 2006-cı ildə «Enerji sahəsində tərəfdaşlıq haqqında» anlaşma memorandumun imzalanması, 2009-cu ilin may ayında «Şərq tərəfdaşlığı Proqramı»nın faəliyyətə başlaması uğurlu addımlar idi. Bu zaman beynəlxalq hüququn və beynəlxalq xüsusi hüququn mövcud imkanlarından geniş istifadə edilmiş, beynəlxalq hüquq normaları yaradıcılıqla inkişaf etdirilmişdir. Məlumdur ki, yenidənqurma siyasətindən sonra baş qaldıran Dağlıq Qarabağ münaqişəsi Azərbaycan iqtisadiyyatında böhranın başlanması ilə nəticələnmişdi. Lakin Heydər Əliyevin apardığı məqsədyönlü, müdrik və düşünülmüş iqtisadi siyasəti nəticəsində, neft kontraktlarının bağlanması, özəlləşdirmə siyasətinin ilkin nəticələri, sahibkarlığın inkişafına göstərilən qay-

[1] Diplomatiya Ensiklopedik Lüğət, Bakı, 2005, s.86-88

ğı, yeni səhmdar cəmiyyətlərin yaradılması, nizam-intizamın və iqtisadi əlaqələrin gücləndirilməsi nəticəsində 1996-cı ildə ilk dəfə olaraq ölkə iqtisadiyyatında inkişafın tarazlığı bərpa edildi və iqtisadi yüksəliş başlandı. Ümumidaxili məhsulun artım tempi bu gün dünyanın ən qabaqcıl ölkələri səviyyəsinə qalxmışdır. Bütün bunlar ən çox neft kontraktlarının bağlanması ilə əlaqədar olmuşdur.

«Əsrin müqaviləsi» ölkədə beynəlxalq iqtisadi və ekoloji hüququn təşəkkülü və inkişafında misilsiz tarixi hadisə, beynəlxalq hüququn inkişafının bariz nümunəsi idi. Bu sənəd tərtib edilərkən dünyanın ən inkişaf etmiş və qabaqcıl ölkələrinin beynəlxalq hüquq, beynəlxalq xüsusi hüquq, beynəlxalq iqtisadi hüquq, neft hüququ, investisiya hüququ və digər bu kimi sahələrdə ən görkəmli və tanınmış mütəxəssislərin iştirakı təmin edilmiş və mükəmməl bir sənəd hazırlanmışdır. Ulu Öndər Heydər Əliyevin bilavasitə rəhbərliyi ilə ölkəmizin hüquqşünasları, iqtisadçıları, neft mütəxəssisləri də bu tarixi və beynəlxalq əhəmiyyətli hüquqi sənədin hazırlanmasında və qəbulunda gərgin əmək sərf etmişlər. Heç şübhəsiz zaman keçəcək «Əsrin müqaviləsi» bir çox sanballı tədqiqatların araşdırma və öyrənmə mövzusu olacaqdır.

Ölkədə sovet dövründə nisbi müstəqilliyi ilə səciyyəvi olan bütün qanunların müstəqillik illərinin tələblərinə cavab verən, hüquqi dövlət quruculuğuna, insan hüquqlarının və azadlıqlarının etibarlı müdafiəsinə, beynəlxalq hüququn hamılıqla qəbul edilmiş prinsiplərinə və şərtlərinə, ən əsası isə referendum yolu ilə qəbul edilmiş yeni Konstitusiyanın tələblərinə tam cavab verən bir səviyyədə hazırlanmasına və qəbul edilməsinə böyük diqqət yetirildi. 1994-1995-ci illərdə baş verən dövlət çevrilişinə cəhd hadisələri cəmiyyətdaxili münaqişələrin və ziddiyyətlərin hüquq müstəvisində həllini tələb edirdi. Bu sahədə hüquqi baza rolunu konstitusiya oynayırdısa, digər normativ hüquqi aktların qəbulu Azərbaycan Respublikasının beynəlxalq birlik qarşısında üzərinə götürdüyü öhdəliklərdən, iqtisadi həyat şəraitindən, bazis-üstqurum münasibətlərindən irəli gəlirdi. Belə ki, hələ Azərbaycan Respublikası Ali Sovetinin 9 fevral 1991-ci il tarixli qərarı ilə ölkəmizin yeni Konstitusiyasının hazırlanması haqqında Komissiya yaradılmasına baxmayaraq, bu komissiya qarşısına qoyulmuş vəzifəni yerinə ye-

tirə bilmədi. Elə buna görə də Ulu Öndər Heydər Əliyevin ilk xidmətlərindən biri, «Yeni Konstitusiyanın hazırlanması haqqında» Komissiyanın yaradılmasından başlanıldı və bu iş 12 noyabr 1995-ci il tarixdə keçirilən referendum vasitəsi ilə uğurla başa çatdırıldı. Azərbaycan Respublikasının yeni Konstitusiyası qəbul edildi. Qeyd edilməsi zəruridir ki, müstəqillik illərində ölkədə keçirilən və dövlət əhəmiyyətli bütün tədbirlərin düşünülmüş və məqsədyönlü qərarlar əsasında həyata keçirilməsi təmin edilmişdir. Azərbaycan Respublikası Prezidentinin «Cinayətkarlığa qarşı mübarizənin gücləndirilməsi, qanunçuluğun və hüquq qaydasının möhkəmləndirilməsi haqqında» 9 avqust 1994-cü il tarixli Fərmanı, «İstehsal, xidmət, maliyyə-kredit fəaliyyətinə dövlət nəzarətinin qaydaya salınması və əsassız yoxlamaların qadağan edilməsi haqqında» 17 iyun 1996-cı il tarixli Fərmanı, «Dövlət nəzarət sisteminin təkmilləşdirilməsi və sahibkarlığın inkişafı sahəsində süni maneələrin aradan qaldırılması haqqında» 7 yanvar 1999-cu il tarixli Fərmanı, «Hüquqi islahatlar Komssiyasının yaradılması haqqında» 21 fevral 1996-cı il tarixli Sərəncamı, eləcə də «Məhkəmə hüquq islahatları haqqında», «Dövlət idarəetmə sistemində islahatlar aparılması üzrə dövlət komissiyasının yaradılması haqqında» Fərman və digər bu kimi sənədlər ölkədə aparılan islahatların planlı və ardıcıl surətdə həyata keçirilməsinə istiqamətlənmişdi. Bu da onunla əlaqədar idi ki, hüquq islahatlar cəmiyyətdə yaranan ictimai münasibətlərin ədalətli və obyektiv tənzimlənməsində normativ hüquqi aktların yerini və rolunu düzgün qiymətləndirməklə bağlı idi. Ölkənin əsas aparıcı hüquqşünasları, deputatları, hüquq-mühafizə orqanlarının rəhbərləri, görkəmli alimlər hüquqi islahatlarla bağlı təşkil edilmiş müxtəlif komissiyaların tərkibində təmsil edilirdilər. Eyni zamanda bu dövrdə ölkənin bütün əsas nazirliklərində, dövlət komitələrində, hüquq-mühafizə orqanlarında analoji komissiyalar yaradılaraq ölkənin qanunlarının, normativ hüquqi aktlarının tamamilə yenidən hazırlanması istiqamətində ardıcıl, səmərəli, gərgin və qətiyyətli fəaliyyət həyata keçirildi.

Azərbaycan Respublikası Konstitusiyasının 148-ci maddəsinə görə ölkəmizin tərəfdar çıxdığı beynəlxalq müqavilələr Azərbaycan Res-

publikasının Qanunvericilik sisteminin ayrılmaz tərkib hissəsi hesab olunur. Bu, ölkəmizdə qanun yaradıcılığı və qanuntətbiqetmə təcrübəsində yeni bir keyfiyyət göstəricisi olmaqla, dövlət hakimiyyət orqanları tərəfindən beynəlxalq hüququn əsas mənbəyi olan beynəlxalq müqavilələrin tətbiq edilməsinə və onlara istinad olunmasına hüquqi əsas verdi. Qanunvericilik sistemində Milli Məclis tərəfindən ratifikasiya olunmuş beynəlxalq müqavilələrdən əlavə, habelə səlahiyyətli dövlət orqanları tərəfindən respublikanın adından bağlanmış və ratifikasiya edilməsi tələb olunmayan beynəlxalq müqavilələrin tətbiq edilməsinə də imkan yaradılmışdır.

Azərbaycan Respublikası Konstitusiyasının 7-ci maddəsinin 2-ci bəndinə görə ölkəmizdə dövlət hakimiyyəti daxili məsələlərdə yalnız hüquqla, xarici məsələlərdə isə Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrdən irəli gələn müddəalarla məhdudlaşır. Rusiya Federasiyasında isə bu məsələ bir qədər fərqli həll edilmişdir. Belə ki, Rusiya Federasiyası Konstitusiyasının 15-ci maddəsi Rusiya Federasiyasının hüquq sisteminə, beynəlxalq hüququn hamılıqla tanınmış prinsipləri və normaları ilə yanaşı, həmçinin beynəlxalq adətləri də daxil etmişdir. Bu da ondan irəli gəlir ki, BMT-nin Beynəlxalq Məhkəməsinin statusuna uyğun olaraq beynəlxalq adətlərin hüquq norması kimi tanınması ümumdünya praktikasında sübut növü kimi müəyyən edilir və nəzərə alınır. Konstitusiyanın 10-cu maddəsinin məzmunundan aydın olur ki, beynəlxalq hüquq normalarında hamılıqla qəbul edilmiş prinsiplər beynəlxalq adət hüququnun əsasını təşkil etdiyindən, onlara da istinad edilməsi tamamilə qanuni və mümkün hesab olunurdu. Bu da onu göstərir ki, Azərbaycan Respublikası Konstitusiyasının 151-ci maddəsi ilk baxışdan beynəlxalq hüquq normalarının üstünlüyünü qəbul etsə də, əsas məqsəd beynəlxalq müqavilə ilə daxili normativ hüquqi aktlar arasında mümkün kolliziyaları aradan qaldırmağa hesablanmışdır.

Azərbaycan Respublikası Konstitusiyasının 148-ci maddəsinin 2-ci hissəsi insan hüquqları ilə bağlı Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrin tətbiqini nəzərdə tutur. Belə ki, insan hüquqları sahəsində Avropa standartlarının əsas hissəsi insan hüquqla-

rının və əsas azadlıqlarının müdafiəsi haqqında 1950-ci il Avropa Konvensiyasında, ona əlavə edilmiş 1, 4, 6 və 7 saylı Protokollarda ifadə olunmuşdur. Buna görə də «İnsan hüquqlarının və əsas azadlıqlarının müdafiəsi haqqında Avropa Konvensiyası» və onun Protokolları Azərbaycan Respublikasının 25 dekabr 2001-ci il tarixli Qanunu ilə təsdiq edilmişdir.[1] Hüquq baxımdan belə yanaşma tamamilə təbii və əsaslıdır. Ona görə ki, müasir beynəlxalq təcrübədə Avropa standartları beynəlxalq hüququn tərkib hissəsi kimi qəbul edilir. Qeyd edilən 25 dekabr 2001-ci il tarixli Qanun Avropa Məhkəməsinin mütləq yurisdiksiyasının tanınması ilə əlaqədar olaraq bizim qanunvericilik sistemi üçün məhkəmə presedent hüququnun təcrübədə istifadə edilməsini məqsədəuyğun hesab etdi.[2] Bu eyni zamanda, Azərbaycan Respublikasının bütün dövlət və məhkəmə hakimiyyəti orqanlarının fəaliyyətinin, onların qərarlarının və istifadə etdikləri prosedur qaydalarının, eyni zamanda qanunvericilik orqanlarının qərarlarının həmin Konvensiyanın müddəalarına zidd olmaması şərtinin irəli sürülməsinə əsas oldu.

Avropa Məhkəməsinin qərarları, beynəlxalq hüquq normaları, prinsipləri və şərtləri mühüm hüquqi əhəmiyyətə malikdir. Konstitusiyada göstərilən hüquqların və azadlıqların səmərəli şəkildə müdafiəsinin, qorunmasının və tətbiqinin Avropa standartları səviyyəsinə çatdırılmasını təmin etmək üçün, konkret işlər üzrə çıxarılan məhkəmə qərarları zamanı, Avropa Məhkəməsinin təcrübəsinin nəzərdən keçirilməsinin, öyrənilməsinin, təhlilinin və bütün bunlardan yaradıcılıqla istifadə olunmasının vacib olduğu vurğulanırdı. Bununla əlaqədar olaraq «Azərbaycan Respublikasının Məhkəmə sisteminin müasirləşdirilməsi və Azərbaycan Respublikasının bəzi qanunvericilik Aktlarına dəyişikliklər və əlavələr edilməsi haqqında» Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə ölkə prezidentinin 19 yanvar 2006-

---

[1] Səfixanlı A., İnsan hüquqlarınıən və əsas azadlıqlarının müdafiəsi haqqında Avropa Konvensiyasında insan hüquqları və azadlıqları ilə bağlı müddəalarının Azərbaycan Respublikasının Qanunvericilik sistemində təsbiti, Bakı, 2003, s.3-4

[2] Səfixanlı A., İnsan hüquqlarınıən və əsas azadlıqlarının müdafiəsi haqqında Avropa Konvensiyasında insan hüquqları və azadlıqları ilə bağlı müddəalarının Azərbaycan Respublikasının Qanunvericilik sistemində təsbiti, Bakı, 2003, s.3-4

cı il tarixli Fərmanı, bu istiqamətdə ardıcıl və səmərəli tədbirlər görülməsini bir vəzifə kimi qarşıya qoymuşdur.[1] Bununla əlaqədar olaraq Azərbaycan Respublikasının Ali Məhkəməsi 30 mart 2006-cı ildə «Ədalət mühakiməsinin həyata keçirilməsi zamanı «İnsan hüquqlarının və əsas azadlıqlarının müdafiəsi haqqında» Avropa Konvensiyası müddəalarının və insan hüquqları üzrə Avropa Məhkəməsi presedentlərinin tətbiqi haqqında» 5 №-li Plenium qərarı qəbul etmişdir.[2] Qərarın 2-ci maddəsində göstərilir ki, Azərbaycan Respublikası «İnsan hüquqlarının və əsas azadlıqlarının müdafiəsi haqqında» Avropa Konvensiyasının iştirakçısı və 15 aprel 2002-ci ildə onu ratifikasiya etmiş dövlət kimi Konvensiya və onun protokollarının təfsiri və tətbiqi məsələləri üzrə insan hüquqları üzrə Avropa Məhkəməsinin qərarlarının məcburiliyini tanıyır. Azərbaycan Respublikası Konvensiyanı ratifikasiya etdiyi dövrdən sonra yurisdiksiyası altında olan insanların Konvensiyada nəzərdə tutan hüquqlarını təmin etməlidir... İnsan və vətəndaş hüquqlarının və azadlıqlarının pozulması ilə bağlı məhkəmələr milli qanunvericiliklə yanaşı konvensiya müddəalarını da rəhbər tutmalı və bu zaman İnsan Hüquqları üzrə Avropa Məhkəməsinin təcrübəsinə istinad etməlidirlər.[3]

Məlumdur ki, Azərbaycan Respublikasının cinayət hüququ roman-german hüquq sisteminə aiddir. Bu sistemdə isə qanun və hüquq eyniləşdirilmir və hüquq mənəviyyatla sıx bağlı olur. Hüquq normaları optimal səviyyədə ümumiliyə malik olmaqla kazual halları, konkret presidentləri deyil, qeyri-müəyyən dairədə şəxslər üçün davranış qaydasını təsbit edir. Qanun və hüquq eyniləşdirilmədiyi üçün məhkəmələrin qanuna verdiyi izahat müəyyən rol oynayır. Buna görə də hüququn mənbələri sırasında hüquqi adətlər məhdud rol oynayır və az istifadə edilir.[4] Bu mənada Azərbaycan Respublikasının Cinayət Məcəlləsinin

[1] Hakimin stolüstü kitabı, Bakı, 2009, s.436-437
[2] Azərbaycan Respublikası Ali Məhkəməsinin Pleniumunun qərarlar məcmuəsi (1991-2008), Bakı, 2008, s.26-38
[3] Azərbaycan Respublikası Ali Məhkəməsinin Pleniumunun qərarları (1962-2007), Bakı, 2007, s.446
[4] Səməndərov F.Y. Cinayət hüququ Bakı, 2009, s.626-627

5.2.-ci maddəsi haqlı olaraq cinayət qanununun analogiya üzrə tətbiqinə yol vermir.[1] Başqa sözlə, törədilən ictimai təhlükəli əməlin kriminallığı cinayət qanununda nəzərdə tutulmursa, belə əməl analogiya üzrə cinayət sayıla bilməz. Çünki, kontinental hüquq sistemi adəti və ya presidenti - hüququ mənbələr sırasına daxil etmir. Belə bir vəziyyətdə İnsan hüquqları üzrə Avropa Məhkəməsinin presidentlərinin tətbiqi və bu onun təcrübəsinə istinad edilməsi roman-german hüquq sisteminə aid olan Azərbaycan Respublikasının Cinayət qanunvericiliyinin tətbiqi təcrübəsində istifadə edilə bilməsi imkanı nəzəri və təcrübi cəhətdən ciddi şəkildə tədqiq olunmalıdır.[2]

Azərbaycan Respublikası Konstitusiyasının 151-ci maddəsi beynəlxalq və milli hüququn qarşılıqlı münsibətlərinin tənzimlənməsində, beynəlxalq hüquq münasibətlərində onun yerinin müəyyən olunmasında mühüm əhəmiyyət kəsb edir. Belə ki, Azərbaycan Respublikasının Konstitusiyasının 7, 10, 12- ci maddələri, 95-ci maddənin 4-cü bəndi, 109-cu maddəsinin 17-ci və 30 bəndləri, 148-ci maddənin ikinci hissəsi və 151-ci maddəsi beynəlxalq və ölkədaxili hüququn qarşılıqlı münasibətləri və nisbəti məsələlərində həlledici əhəmiyyətə malikdir.

Azərbaycan Respublikasının Konstitusiyası qanunvericilik sisteminə daxil olan normativ hüquqi aktlarla Azərbaycan Respublikasının tərəfdar çıxdığı dövlətlərarası müqavilələr arasında ziddiyyətlər yarandığı hallarda, beynəlxalq müqavilələrin tətbiq edilməsi üstünlüyünü nəzərdə tutur. Lakin bu zaman Azərbaycan Respublikasının Konstitusiyası və referendum yolu ilə qəbul edilən Aktlar istisnalıq təşkil edir. Bütün bunlara baxmayaraq, konstitusiya normalarına əsaslanmaqla beynəlxalq hüquqla dövlətdaxili hüququn münasibətini və nisbətini müəyyən etmək təcrübədə müəyyən çətinliklər də yaradır.

Nəzəri baxımdan beynəlxalq hüququn dövlətdaxili hüquqla əlaqələrini və münasibətlərini ifadə edərkən çox vaxt elmi ədəbiyyatlarda «milli hüquqi implementasiya» ifadəsindən istifadə edilir. Bu termin beynəlxalq hüququn daxili qanunvericiliyə gətirilməsi və onun üsulları

---

[1] Azərbaycan Respublikasının Cinayət Məcəlləsi, Bakı, 2012, s.4

[2] Марченко М.Н., Источники права, М., 2006, с.388-389

ilə bağlı gedən mühüm prosesin məzmununu ifadə edir. Milli – hüquqi implementasiya ancaq dövlətlər səviyyəsində deyil, həm də beynəlxalq təşkilatlar səviyyəsində baş verir. Beynəlxalq hüquq normalarının milli şəraitlərə uyğunlaşdırılaraq qanunda birbaşa əks olunması dövlətdaxili qanunvercilikdə, beynəlxalq hüquq normalarının müəyyən olunmasında təzahür edir. Hüquqi aktların implementasiyası prosesinin nizamlanmasında Azərbaycan Respublikası Prezidentinin 1994-cü il 16 avqust tarixli «Azərbaycan Respublikasının beynəlxalq müqavilələrə qoşulma praktikasının qaydaya salınması üzrə tədbirlər haqqında» 106 saylı Sərəncamı mühüm rol oynamışdır. Bu sərəncama görə ölkəmizin xarici siyasətinin əsas istiqamərlərinə uyğun olaraq beynəlxalq münasibətlərin ayrı-ayrı sahələrində Azərbaycan Respublikasının dövlət mənafelərini təmin etmək məqsədi ilə beynəlxalq müqavilələrin siyahısının tərtib olunması, bu müqavilələrin Milli Məclisə təqdim edilməsinin ardıcıllığı hüquqi cəhətdən dəqiq müəyyən edilməli idi. Sərəncamda eyni zamanda göstərilmişdir ki, beynəlxalq müqavilələr Milli Məclisə təqdim edilərkən onlara qoşulmağın zəruriliyi, siyasi, iqtisadi və hüququ cəhətdən əsaslandırılmalı, bu müqavilələr rəsmi mənbələrdən əldə edilməli, Azərbaycanın dövlət dilinə - Azərbaycan dilinə tərcümə edilməli, tərcümə mətninin rəsmi mətnlə audentikliyi hüquqi baxımdan təsdiq olunmalı və yalnız bütün bunlardan sonra Respublikanın Nazirlər Kabineti və digər əlaqədar qurumlarla razilaşdırıldıqdan sonra ölkə prezidentinə təqdim edilməlidir.[1]

Bu sərəncamda nəzərdə tutulan tələblərə ciddi və sistemli şəkildə əməl olunması nəticəsində ölkəmiz bütün zəruri olan beynəlxalq müqavilələrə qoşulmuş, onun beynəlxalq əlaqələri və beynəlxalq münasibətləri qanunvericiliyə müvafiq olaraq qurulmuşdur.

Beynəlxalq hüququn inkişafında 13 iyun 1995-ci il tarixli «Azərbaycan Respublikasının beynəlxalq müqavilələrinin bağlanması, icrası və ləğv edilməsi qaydaları haqqında» Qanunu mühüm əhəmiyyət kəsb edir. Bu Qanunun 1-ci maddəsində göstərilir ki, Azərbaycan Respub-

---

[1] «Azərbaycan Respublikasının beynəlxalq müqavilələrə qoşulma praktikasının qaydaya salınması üzrə tədbirlər haqqında» 16 avqust 1994-cü il tarixli, 106 saylı Sərəncam. Bakı, 1994, s.1

likasının beynəlxalq müqaviləsi, ölkəmizin xarici dövlətlərlə və beynəlxalq təşkilatlarla «Azərbaycan Respublikasının beynəlxalq müqavilələrinin bağlanması, icrası və ləğv edilməsi qaydaları haqqında» 13 iyun 1995-ci il tarixli Qanununda müəyyənləşmiş qaydada yazılı şəkildə bağlanan razılaşmadır.[1] Qanun beynəlxalq müqavilələrin müqavilə, saziş, konvensiya, pakt, protokol, nota kimi bağlanma və ifadə olunma formalarını nəzərdə tutur. İdarə mənsubiyyətinə və əhəmiyyətinə görə xarici dövlətlərlə və beynəlxalq təşkilatlarla Azərbaycan Respublikası adından və Azərbaycan hökuməti adından bağlanmış müqavilələr müvafiq qaydada dövlətlərarası və ya hökumətlərarası müqavilələr hesab edilirlər. Azərbaycan Respublikasının beynəlxalq müqavilələri, onun məcburiliyinə razılığı, müqavilənin imzalanması, müqaviləni təşkil edən sənədlərin mübadiləsi, müqavilənin ratifikasiyası, qəbul edilməsi, təsdiq edilməsi, ona qoşulma vasitəsilə və ya razılığa gələn tərəflərin şərtləşdiyi hər hansı başqa üsulla bağlanıla bilər.[2]

Ümumiyyətlə, bu Qanun müstəqillik illərində beynəlxalq müqavilələrin bağlanması, icrası və ləğv edilməsi kimi mürəkkəb, geniş və məsuliyyətli prosedurları mükəmməl tənzim etməklə ölkəmizin beynəlxalq əlaqələrinin və münasibətlərinin hüquq müstəvisində həll edilməsi və inkişafı sahəsində mühüm əhəmiyyətə malik olmuşdur.

Azərbaycan Respublikasının Konstitusiyası qəbul edildikdən sonra beynəlxalq münasibətlərdə həyata keçirilən geniş tədbirlər bu sahədə müxtəlif normativ hüquqi aktlarla hüquqi tənzimlənməyə zərurət yaratdı. Elə buna görə də 13 iyun 1995-ci il tarixdə «Azərbaycan Respublikasının beynəlxalq müqavilələrinin bağlanması, icrası və ləğv edilməsi qaydaları haqqında» Azərbaycan Respublikasının Qanunu qəbul edildikdən sonra «İdarələrarası xarakter daşıyan Azərbaycan Respublikasının beynəlxalq müqavilələrinin bağlanması, icrası və ləğv edilməsi haqqında Qaydalar»ın hazırlanmasına zərurət yarandı. Belə bir «Qaydalar» hazırlandı və ölkə prezidenti, cənab Heydər Əliyevin 20 dekabr

---

[1] «Azərbaycan Respublikasının beynəlxalq müqavilələrinin bağlanması, icrası və ləğv edilməsi qaydaları haqqında» 13 iyun 1995-ci il tarixli 1057№-li Qanun. s.1

[2] «Azərbaycan Respublikasının beynəlxalq müqavilələrinin bağlanması, icrası və ləğv edilməsi qaydaları haqqında» 13 iyun 1995-ci il tarixli 1057№-li Qanun, s.1

1996-cı il tarixli «İdarələrarası xarakter daşıyan Azərbaycan Respublikasının beynəlxalq müqavilələrinin bağlanması, icrası və ləğv edilməsi qaydalarının təsdiq olunması haqqında» 526 saylı Fərmanı ilə təsdiq edildi.[1]

Müstəqillik illərində xarici elementli mülki hüquq münasibətlərinə tətbiq olunmaq məqsədi ilə «Beynəlxalq xüsusi hüquq haqqında» Azərbaycan Respublikasının 6 iyun 2000-ci il tarixli qanunu bu sahədə tənzimləmə proseslərində mühüm əhəmiyyət kəsb etdi.[2]

Məlumdur ki, beynəlxalq hüququn dövlətdaxili hüquqa uyğunlaşdırılmasının və tətbiqinin nəzəriyyədə üç əsas – inkorporasiya, istinad və resepsiya üsulu fərqləndilir. İnkorporasiya üsulundan istifadə zamanı dövlət, adətən beynəlxalq aktın tənzimlədiyi məsələni, əsasən eyni üsulla tənzimləyən akt qəbul etmək yolu ilə reallaşdırır. Bu zaman Azərbaycan Respublikası Prezidentinin 16 avqust 1994-cü il tarixli «Azərbaycan Respublikasının beynəlxalq müqavilələrə qoşulma praktikasının qaydaya salınması üzrə tədbirlər haqqında» Sərəncamında nəzərdə tutulan tələblərə əməl edilir.[3]

Resepsiya üsulunda beynəlxalq müqavilənin müvafiq normasının milli qanunvericiliyə olduğu kimi gətirilməsi, yəni onun təkrarlanması, dəqiqləşdirilməsi, inkişaf etdirilərək qanunvericiliyə uyğunlaşdırılması yolu ilə həyata keçirilir. Beynəlxalq aktların resepsiyası ən müxtəlif hüquq sahələrində istifadə olunur.[4]

---

[1] «İdarələrarası xarakter daşıyan Azərbaycan Respublikasının beynəlxalq müqavilələrinin bağlanması, icrası və ləğv edilməsi qaydalarının təsdiq olunması haqqında» Azərbaycan Respublikası Prezidentinin 20 dekabr 1996-cı il tarixli 526 saylı Fərmanı, s.1

[2] «Beynəlxalq xüsusi hüquq haqqında» Azərbaycan Respublikasının 6 iyun 2000-ci il tarixli Qanunu

[3] «Azərbaycan Respublikasının beynəlxalq müqavilələrə qoşulma praktikasının qaydaya salınması üzrə tədbirlər haqqında» Sərəncam, Bakı, 16 avqust 1994-cü il

[4] Международное права, М., 2003, с.9-17; Azərbaycan Respublikasının iştirakçısı olduğu beynəlxalq konvensiyaların milli qanunvericilikdə təsbiti, Bakı, 2003, s.6; Hüseynov L., Beynəlxalq hüquq, Bakı, 2012, s.61-62

İstinad üsulu[1] isə öz xarakterinə görə dövlətdaxili qanunvericiliyin gÖndərici və blanket dispozisiyalarına daha çox oxşayır. Bu halda daxili qanunvericiliyə elə normalar əlavə edilir ki, bu hal üçün onlar hər hansı beynəlxalq aktın birbaşa tətbiq olunmasını nəzərdə tutur. İstinad üsulu beynəlxalq hüquq normasını olduğu kimi saxlayan və onu qanunvericiliyə gətirən üsullardan biri hesab edilir. Məsələn Azərbaycan Respublikası Konstitusiyasının 10-cu, 69-cu, 70-cı, 151-ci maddələrində beynəlxalq hüquqa istinadlar vardır.

Azərbaycan Respublikası Konstitusiyasının 148-ci maddəsinin II hissəsinin ifadə formasını və onun konkret mənasını əsas götürərək, əslində belə başa düşmək olar ki, Azərbaycan Respublikasinın qanunvericiliyinin tərkib hissəsi beynəlxalq adət hüququ deyil, yalnız beynəlxalq müqavilə hüququ hesab edilir. Beynəlxalq müqavilələr Azərbaycan Respublikasının xarıci dövlətlərlə, beynəlxalq təşkilatlarla və xarici beynəlxalq qurumlarla münasibətlərini tənzimləyir. Həmin müqavilələr Konstitusiyaya və qanunlara uyğun olaraq Azərbaycan Respublikası adından buna səlahiyyəti olan müvafiq dövlət orqanları tərəfindən bağlanılır. Azərbaycan Respublikası Konstitusiyasının 95-ci maddəsinin 4-cü bəndinin məzmunundan göründüyü kimi həmin beynəlxalq müqavilələr Azərbaycan Respublikasının ərazisində məcburi hüquqi qüvvəyə malikdir. Buna görə də beynəlxalq müqavilələr beynəlxalq hüquq qaydasının və Azərbaycan Respublikasının xarici dövlətlərlə münasibətlərinin sabitliyi üçün çox vacibdir. Beynəlxalq və dövlətdaxili hüququn biri-birinə təsiri daxili və xarici siyasətin qarşılıqlı əlaqəsi kimi obyektiv amillərlə şərtlənir. Belə bir qarşılıqlı təsirin təkmilləşdirilməsində əhəmiyyətli hal, dövlətin hüquqyaratma prosesində həm dövlətdaxili və həm də beynəlxalq hüquq normalarının yaradıcılıqla nəzərə alınması kimi qiymətləndirilə bilər. Beynəlxalq müqavilələrin və milli hüquq normalarının qarşılıqlı əlaqələrindən irəli gələn yanaşma üsuluna görə, xarici dövlətləri üç qrupa bölmək olar. Konstitusiyalarında milli qanunvericiliyin hüquqi qüvvəsi beynəlxalq müqa-

[1] Azərbaycan Respublikasının iştirakçısı olduğu beynəlxalq konvensiyaların milli qanunvericilikdə təsbiti, Bakı, 2003, s.6

vilələrdən üstünlük təşkil edən Norveç, Danimarka, İngiltərə kimi ölkələr, konstitusiyalarında beynəlxalq müqavilələrin hüquqi qüvvəsi milli qanunvericilikdən üstünlük təşkil edən Rusiya, Fransa, Almaniya, Portuqaliya kimi ölkələr və konstitusiyalarında milli qanunvericiliklə beynəlxalq müqavilələrin eyni hüquqi qüvvəsini nəzərdə tutan Polşa, İsveçrə, Belçika kimi ölkələr bütün bunlara nümunə kimi göstərilə bilər.

Rusiya Federasiyası Konstitusiyasının 15-ci maddəsinin dördüncü hissəsinə uyğun olaraq, beynəlxalq hüququn hamılıqla tanınmış prinsipləri, normaları, habelə Rusiya Federasiyasının beynəlxalq müqavilələri onun hüquq sisteminin tərkib hissəsi hesab olunur. Rusiya Federasiyasının beynəlxalq müqavilələrində, qanunlardan fərqli olaraq başqa qaydalar müəyyən edilərsə, beynəlxalq müqavilələrdən irəli gələn bu qaydalar tətbiq edilməlidir. Oxşar müddəalar Almaniya Konstitusiyasında da mövcuddur. Həmin Konstitusiyanın 25-ci maddəsində deyilir: «Beynəlxalq hüququn ümumi normaları Federasiya hüququnun tərkib hissəsidir. Bu normalar qanunlardan üstün tutulur və federasiya sakinləri üçün bilavasitə hüquqlar və vəzifələr doğurur».[1]

Bu məsələ ilə bağlı Azərbaycan Respublikasının Konstitusiyasında nəzərdə tutulan müvafiq normada beynəlxalq müqavilələrin Azərbaycan Respublikasının qanunvericilik sisteminə aid olan normativ hüquqi aktlardan üstün hüquqi qüvvəyə malik olması göstərilmişdir. Bu qaydanın Konstitusiyada müəyyənləşdirilməsini, beynəlxalq hüququn subyekti kimi, Azərbaycan Respublikası tərəfindən beynəlxalq hüququn ən vacib prinsiplərindən biri olan beynəlxalq öhdəliklərin vicdanla yerinə yetirilməsini şərtləndirən əsas amillərdən biri hesab etmək olar.[2]

Dövlət müstəqilliyi bərpa edildikdən sonra ölkəmizin xarici siyasətinin əsas istiqamətlərinin düzgün müəyyən edilməsinə xüsusi diqqət yetirildi. Burada xarici ölkələrlə və dövlətlərlə münasibətlərin düzgün qurulması ilə yanaşı, beynəlxalq təşkilatlarla da əlaqələrin yaradılma-

[1] Международное права, М., 2003, с.9-10; Шумилов В.М. Международное права, М., 2007, с.434-439

[2] Azərbaycan Respublikasının İnsan hüquqları üzrə müvəkkili (Ombudsman), Azərbaycan Respublikasının iştirakçısı olduğu beynəlxalq konvensiyaların milli qanunvericilikdə təsbiti, Bakı, 2003, s.3-8

sına mühüm əhəmiyyət verildi. 24 yanvar 1992-ci ildə Azərbaycan Respublikasının Parlamenti «Xüsusi dəvət edilmiş qonaq statusu» almaq üçün Avropa Şurasına müraciət etdi. Avropa Şurası Parlament Assambleyası Bürosunun təşəbbüsü əsasında 28 iyun 1996-cı il tarixli qərarla Azərbaycan Respublikasına Avropa Şurası yanında «Xüsusi dəvət edilmiş qonaq statusu» verildi və həmin vaxtdan da ölkəmizin nümayəndə heyəti Avropa Şurasının işində iştirak etməyə başladı. 11 oktyabr 1997-ci ildə Strasburqda keçirilən Zirvə toplantısında iştirak edən Ulu Öndər Heydər Əliyev bu əlaqələrin inkişafına mühüm təsir göstərdi və onun baş katibə müraciəti əsasında bu əlaqələrin genişləndirilməsinə böyük dəstək verildi. Ulu Öndər Heydər Əliyevin 8 iyul 1996-cı il tarixli «Avropa Şurası və Azərbaycan Respublikası arasında əməkdaşlıq proqramının həyata keçirilməsi tədbirləri haqqında» Sərəncamında nəzərdə tutulan məsələlərin icrası sahəsində, müstəqillik illərində gərgin, mərhələli və ardıcıl fəaliyyət həyata keçirilmişdir. Belə ki, Ulu Öndər Heydər Əliyevin 8 iyun 1996-cı il tarixdə «Avropa Şurası ilə Azərbaycan Respublikası arasında əməkdaşlıq proqramının həyata keçirilməsi tədbirləri haqqında» Sərəncamı müstəqillik illərində yeni Konstitusiya qəbul edildikdən sonra, Avropa Şurası ilə əməkdaşlığın zəruriliyi haqqında ilk addım kimi dəyərləndirilə bilər. Lakin bu sahədə daha səmərəli və daha effektli tədbirlərin görülməsi istiqamətində işlər sonrakı illərdə də ardıcıl olaraq davam etdirildi. 20 yanvar 1998-ci il tarixdə «Azərbaycan Respublikası ilə Avropa Şurası arasında əməkdaşlığın dərinləşdirilməsi sahəsində tədbirlər haqqında» Prezident sərəncamı öz genişliyinə, əhəmiyyətinə və dəyərinə görə daha mühüm önəm kəsb edirdi.[1] Bu sərəncamda Avropa Şurasının müxtəlif qurumları ilə, o cümlədən Avropa Şurasının Parlament Assambleyası ilə ikitərəfli və çoxtərəfli əlaqələrin genişləndirilməsi, qanunvericiliyin Avropa standartlarına və Azərbaycan Respublikasının yeni konstitusiyasından irəli gələn tələblərə uyğunlaşdırılması prioritet istiqamətlər kimi müəyyənləşdirilmişdir. Sərəncamda üç ay müddətində «Polis haqqında», «Prokurorluq haqqında», «Noratiat haqqında», «Vəkillik haqqında», «Bələ-

[1] Azərbaycan Respublikası, İnsan hüquqları, Bakı, 1998- s.74-82

diyyələrin statusu haqqında», «Bələdiyyələrin seçkiləri haqqında», «Cinayət məcəlləsi», «Cinayət prosessual məcəllə», «Mülki-prosessual məcəllə» və digər bu kimi qanunların layihələrinin hazırlanması, Avropa Şurasının ekspertlərinin iştirakı ilə onların Avropa standartlarına və normalarına cavab verib-verməməsi məsələsinin aydınlaşdıraraq qanunverici orqana təqdim edilməsi, müzakirəsi və qəbul edilməsi sahəsində böyük işlər həyata keçirildi. Ümumiyyətlə, əsas diqqət yeni hazırlanan qanunların və normativ hüquqi aktların insan hüquqları üzrə Avropa Konvensiyasının tələblərinə uyğunlaşdırılmasına, Avropa Sosial Xartiyasının əsas Prinsiplərinə əməl edilməsinə istiqamətlənmişdi. İnsan hüquqlarının etibarlı müdafiəsi sahəsində milli mexanizmlərin yaradılmasına xüsusi diqqət yetirilirdi. Buna görə də ölkədə Konstitusiya Məhkəməsinin, üçpilləli məhkəmə sisteminin, insan hüquqları üzrə müvəkkilliyin yaradılması, vəkillərin rolunun artırılması, hüquqi yardımın təkmilləşdirilməsi, penitensiar sistemdə idarəçiliyin və insan hüquqlarının mühafizəsinin daha etibarlı təşkilinə və hüquqi tənzimlənməsinə xüsusi diqqət yetirildi.

Ulu Öndər Heydər Əliyevin 3 fevral 1998-ci il tarixli müraciəti əsasında Milli Məclis Cinayət, Cinayət Prosessual və İslah Əmək Məcəlləsində müvafiq dəyişikliklər etməklə ölüm cəzasını cəzaların sistemindən xaric etdi. Eləcə də, «Ömürlük azadlıqdan məhrumetmə cəzası» CM-nın 22-1, «müəyyən müddətə azadlıqdan məhrumetmə cəzası» isə 22-cü maddədə müvafiq dəyişiklik aparılmaqla həll edildi. Ölkə prezidentinin 20 yanvar 1998-ci il tarixli Sərəncamı ilə «Azərbaycan Respublikası ilə Avropa Şurası arasında əməkdaşlığın dərinləşdirilməsi sahəsində tədbirlər haqqında» Sərəncamı həyata keçirilən kompleks tədbirlərin geniş dairəsini özündə birləşdirirdi. Bütün bunlar uğurla həyata keçirildi. Belə tədbirlərdən biri də insan hüquqlarının daha etibarlı müdafiəsini və mühafizəsini təmin etmək məqsədilə cəzaçəkmə müəssisələrinin və istintaq təcridxanalarının Daxili İşlər Nazirliyi orqanlarından alınıb, Ədliyyə Nazirliyinə verilməsi və penitensiar sahədə xüsusi xidmətin yaradılması ilə başa çatdırıldı.

Azərbaycan Respublikasının yeni Konstitusiyası müstəqilliyin siyasi və hüquqi əsaslarını təmin etməklə yanaşı, ölkəmizin beynəlxalq

hüquqi əlaqələrinin təşəkkülündə və inkişafında mühüm rol oynamışdır. Gənc Azərbaycan Respublikası elə müstəqilliyinin ilk günlərindən başlayaraq beynəlxalq hüquqi əlaqələrinin genişləndirilməsinə, xarici ölkələrlə münasibətlərinin beynəlxalq hüququn hamılıqla qəbul edilmiş prinsip və şərtləri əsasında formlaşdırılmasına xüsusi önəm verdi. Təsadüfi deyil ki, Azərbaycan Respublikası Konstitusiyasının 10-cu maddəsində göstərilir ki, Azərbaycan Respublikası başqa dövlətlərlə münasibətlərini hamılıqla qəbul edilmiş beynəlxalq hüquq normalarında nəzərdə tutulan prinsiplər əsasında qurur. Bu da hər şeydən əvvəl demokratiyaya keçidin, insan və vətəndaş hüquqlarının və azadlıqlarının təmin edilməsindən ibarət olan başlıca məqsədlərə çatmağın həlledici əsasları kimi əhəmiyyətli olmuşdur. Çünki demokratiyanın inkişafı insan hüquqlarının və azadlıqlarının qorunması, hüquqi dövlətin təşəkkülü, beynəlxalq hüquq normalarına müvafiq olaraq və onun tələblərinə cavab verərək ölkənin ictimai, siyasi və hüquqi simasının dəyişilməsinin və onun dinamik inkişafının əsas şərti kimi səciyyələndirilə bilər. Bu gün beynəlxalq hüququn, xalqların sülh və yaşamaq hüququna çevrilməsi prosesi günümüzün tələblərindən irəli gəlir. Qloballaşan dünyada beynəlxalq təşkilatlarla əlaqələrin möhkəmləndirilməsi, inteqrasiya prosesləri, dövlətlərarası əlaqələrin müasir səviyyədə qurulması, sülh və beynəlxalq təhlükəsizliyin təmin edilməsi, dinc yanaşı yaşamaq və faydalı əməkdaşlıq prinsiplərə əməl edilmədən yeni müstəqillik qazanmış ölkənin təşəkkülü və inkişafı, təcrübi cəhətdən qeyri-mümkün olardı. Məlumdur ki, dövlətlər arasında münasibətlərin sivil qaydada həll edilməsində, suveren və bərabər hüquqlu dövlətlərin işgüzar əlaqələrinin qurulmasında, daxili və xarici siyasət məsələlərinin effektiv tənzimlənməsində, ümumbəşəri məsələlərin ədalətli həllində beynəlxalq hüququn və beynəlxalq əməkdaşlığın müstəsna rolu vardır. Dövlətlərin suverenliyinə və bərabərliyinə hörmət etmədən beynəlxalq dövlətlər ailəsində mövcud olmaq, fəaliyyət göstərmək, yaşamaq və inkişaf etmək qloballaşan dünya kontekstində kifayət qədər çətin məsələdir. Buna görə də beynəlxalq hüququn hamıqla qəbul edilmiş prinsiplərinin və şərtlərinin Azərbaycan Respublikasının Konstitusiyasının mahiyyətində özünün geniş təsbitini tapmışdır.

Azərbaycan Respublikası Konstitusiyasının 12-ci maddəsində insan və vətəndaş hüquqlarının və azadlıqlarının, Azərbaycan Respublikasın vətəndaşlarına layiqli həyat səviyyəsinin təmin olunmasının dövlətimizin ali məqsədi olduğunun bəyan edilməsi, onun xoş niyyətlərindən və ümüdlü perspektivlərindən xəbər verir. Konstitusiyamızda insan və vətəndaş hüquqlarının və azadlıqlarının Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrə uyğun olaraq tətbiq edilməsi prinsipinin öz ifadəsini tapması, uzun illər totalitar rejimdə yaşamış bir ölkənin yeni bir inkişaf yolunu - demokratiya və hüquqi dövlət qurmaq yolunu tutması təqdirəlayiq hadisə kimi qiymətləndirilməlidir.

Azərbaycan Respublikası Konstitusiyası qəbul edildikdən sonra qanunvericiliyin intensiv və ardıcıl surətdə yenidən hazırlanması, müzakirəsi, qəbul edilməsi və beynəlxalq hüquq normalarına uyğunlaşdırılması istiqamətində gərgin iş aparılmışdır. Bu sahədə Ulu Öndər Heydər Əliyevin misilsiz rolu, qətiyyəti, cəzarəti, təcrübəsi və yorulmaz fəaliyyəti yüksək dəyərləndirilməlidir. Bu mürəkkəb, çətin, məsuliyyətli və taleyüklü fəaliyyət prosesinin kortəbii, qeyri-elmi və kompaniya şəklində aparmamaq üçün Ulu Öndərin təşəbbüsü ilə 26 noyabr 1999-cu il tarixdə «Normativ hüquqi aktlar haqqında» Azərbaycan Respublikasının Qanunu qəbul edildi. Bu da prosedur baxımından mühüm və müstəsna əhəmiyyət kəsb edirdi. İllər keçdikdən sonra həmin qanun daha da təkmilləşdirildi və bu gün milli və tarixi ənənələrə söykənən qanunverici orqanimiz – Milli Məclis 21 dekabr 2011-ci ildə «Normativ hüquqi aktlar haqqında» Azərbaycan Respublikasinin Konstitusiya Qanununu qəbul etdi.[1] Bu Qanun öz müasirliyi, mükəmməlliyi baxımından daha işlək olmaqla beynəlxalq hüququn əsas tələblərinə tam cavab verir. Konstitusiya qanunu formasında qəbul edilmiş bu sənəddə normativ hüquqi aktların dəqiq iyererxasiyası, sistemi, ümumi və xüsusi əlamətləri müəyyən edilməklə yanaşı, həm də dövlətdaxili qanunlarla beynəlxalq hüququn hamılıqla qəbul olunmuş prinsiplərinin və şərtlərinin, respublikanın tərəfdar çıxdığı beynəlxalq mü-

[1] Normativ hüquqi aktlar haqqında Azərbaycan Respublikasının Konstitusiya Qanunu, Bakı, 2011

qavilələrin qarşılıqlı münasibətləri, yeri, rolu və əhəmiyyəti dəqiqi müəyyən edildi. Əsas məsələlərdən biri də ondan ibarət idi ki, bu sənədlərdə müstəqillik illərinin ən yadda qalan siyasi və hüquqi hadisələrindən biri olan müstəqil Azərbaycan Respublikasının Konstitusiyasının referendum yolu ilə qəbul edilmiş müddəaları tam nəzərə alınmışdır.

22 fevral 1998-ci il tarixdə «İnsan və vətəndaş hüquqlarının və azadlıqlarının təmin edilməsi sahəsində tədbirlər haqqında» Fərmanı və bu sahədə Dövlət Proqramının 18 iyun 1998-ci il tarixli 838 saylı Sərəncamla təsdiq edilməsi səmərəli və effektli tədbirlərin əsasını qoydu. Azərbaycanın, Avropa Şurasının insan hüquqları sahəsində mühüm sənədlərinə qoşulması, milli qanunvericiliyin təkmilləşdirilməsinə və insan hüquqları sahəsində Avropa standartlarına cavab verən yeni qanunların qəbuluna, qüvvədə olan qanunvericiliyə müvafiq dəyişikliklərin və əlavələrin edilməsinə gətirib çıxarmışdır. Bu günədək Azərbaycan Avropa Şurasının bir çox sənədlərinə - konvensiyalarına, onların protokollarına və digər sənədlərinə qoşulmuşdur. Beləliklə, Azərbaycan müstəqilliyinin ilk on illiyində insan hüquqları sahəsində demək olar ki, bütün beynəlxalq sazişlərə qoşulmuş, təşkilatı və hüquqi tədbirlər kompleksi hazırlanmış və həyata keçirilməyə başlanılmışdır. Xüsusilə, məhkəmə hakimiyyəti tamamilə yenidən qurulmuş və beynəlxalq standarlara uyğunlaşdırılmışdır. Belə ki, Azərbaycan Respublikası Konstitusiyasının qəbulundan sonra yeni məhkəmə hakimiyyətinin hüquqi əsaslarının yaradılması və təkmilləşdirilməsi sahəsində fəaliyyət diqqəti cəlb edir. Bu hər şeydən əvvəl hakimiyyətin üçüncü qolunun - məhkəmə hakimiyyətinin beynəlxalq standartlar səviyyəsində yaradılması və formalaşdırılması arzusundan irəli gəlirdi. Çünki səlahiyyətli məhkəmə hakimiyyəti olmadan ədalət mühakiməsini həyata keçirmək, münaqişələrin və mübahisələrin ədalətli həllini təmin etmək, insan hüquqlarının və azadlıqlarının etibarlı müdafiəsini həyata keçirmək mümkün deyildir. Bu baxımdan müstəqilliyin sonrakı illərində məhkəmə hakimiyyətinin və onun fəaliyyətinin hüquqi tənzimlənməsi sahəsində beynəlxalq və Avropa standartlarına cavab verə bilən hüquqi baza yaradıldı, təşkilatı hüquqi tədbirlər görüldü. Ümumiyyətlə, geniş

mənada götürdükdə 1995-ci ildən sonra dövlət həyatı üçün vacib olan bütün normativ hüquqi aktların hazırlanmasında və təşkilati tədbirlərin görülməsində beynəlxalq hüquq üzrə təcrübəli ekspertlərin imkanlarından geniş istifadə edilmiş və hazırlanan layihələrin beynəlxalq standartlara cavab verməsi şərtinə xüsusi diqqət yetirilmişdir. Konstitusiyamızın yeddinci fəslinin müddəalarına uyğun olaraq, 10 iyun 1997-ci ildə «Məhkəmələr və hakimlər haqqında» Qanun qəbul edilmişdir.[1]

Müstəqillik illərində Azərbaycanın hüquq sistemi üçün tamamilə yeni olan bir təsisatın – Konstitusiya Məhkəməsinin yaradılması istiqamətində müvafiq tədbirlər həyata keçirilmiş, 21 oktyabr 1997-ci ildə «Konstitusiya Məhkəməsi haqqında» Qanun qəbul edilmişdir.[2] Buna müvafiq olaraq 14 uyil 1998-ci ildə ilk dəfə olaraq Azərbaycan Respublikasının Konstitusiya Məhkəməsi yaradılmışdı. Bu Azərbaycan Respublikasının Konstitusiyasına və «Konstitusiya Məhkəməsi haqqında» 21 oktyabr 1997-ci il tarixli Qanuna müvafiq olaraq ölkəmizin Ali Konstitusiya ədalət mühakiməsi orqanı hesab olunur. Onun əsas məqsədi Azərbaycan Respublikası Konstitusiyasının aliliyini təmin etmək, hər kəsin hüquqlarını və azadlıqlarını müdafiə etməkdən ibarətdir. Qeyd edilməsi zəruridir ki, sonrakı illərdə Konstitusiya Məhkəməsinin hüquqları və səlahiyyətləri referendum yolu ilə edilən dəyişikliklər zamanı daha da təkmilləşdirilmiş, təşkilatı hüquqi əsasları beynəlxalq standartlara uyğunlaşdırılmışdır. Bu məqsədlə Azərbaycan Respublikası Konstitusiyasında nəzərdə tutulmuş müddəalara tam cavab vermək üçün 23 dekabr 2003-cü ildə «Konstitusiya Məhkəməsi haqqında» yeni Qanun qəbul edilmişdir.[3] Bu Qanunda beynəlxalq təcrübə nəzərə alınmış, Avropa Şurasının və beynəlxalq təşkilatların mütəxəssis – ekspertləri tərəfindən sənəd yüksək qiymətləndirilmişdir. Konstitusiya Məhkəməsinin maddi texniki bazasının və kadr imkanlarının genişləndirilməsi nəticəsində son illər məhkəmənin fəaliyyəti beynəlxalq hüquqi baxımdan yüksək dəyərləndirilir.

---

[1] Azərbaycan Respublikasının Məhkəmə hakimiyyəti (normativ hüquqi aktlar toplusu) Bakı, 2011, s.17-73

[2] Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, Bakı, 1998, s.25-46

[3] Konstitusiya Məhkəməsi haqqında Qanun, Bakı, 2004, s.53

«Azərbaycan Respublikasının insan hüquqları üzrə müvəkkil»i (Ombudsman) haqqında Konstitusiya Qanunu 28 dekabr 2001-ci ildə qəbul edildi. Bu da ölkəmizin Avropa hüquq məkanına inteqrasiyası prosesində həyata keçirilən islahatların ən mühüm mərhələlərindən biri kimi qiymətləndirilə bilər.[1]

«Azərbaycan Respublikasının insan hüquqları üzrə müvəkkil»i (Ombudsman) haqqında Konstitusiya Qanunun 1-ci maddəsində göstərilirdi ki, bu təsisat ölkə Konstitusiyasında və Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrdə təsbit olunmuş və Azərbaycan Respublikasının dövlət və yerli özünüidarə orqanları, onların vəzifəli şəxsləri tərəfindən pozulan insan hüquqlarının və azadlıqlarının bərpa edilməsi üçün təsis edilmişdir.[2] Göründüyü kimi insan hüquqlarının və azadlıqlarının bərpası ilə məşğul olan ombudsman, eyni zamanda özünün əməli fəaliyyətində dövlətdaxili hüquq sisteminin tərkib hissəsi olan Avropa İnsan Hüquqları Konvensiyasının tələblərinə eməl edilməsinə də nəzarəti həyata keçirir. Hüquqi dövlətin ən mühüm əlamətlərindən biri olan insan hüquqlarının və azadlıqlarının müdafiəsi məqsədi ilə yaradılmış Ombudsman təsisatının, insan hüquqlarının və əsas azaqlıqlarının müdafiəsi haqqında Avropa Konvensiyasının müddəalarının Azərbaycan təcrübəsində təminatı sahəsində əhəmiyyəti rolu olan təşkilatlardan biri hesab edilir.[3]

Qanun mənasından göründüyü kimi Ombudsman təsisatı əməli hüquq-müdafiə fəaliyyəti göstərməklə vətəndaşların real problemləri ilə yaxından tanış olmaq, öz fəaliyyətinin nəticələrini sistemləşdirib, təhlil etmək, insan hüquqlarının və azadlıqlarının müdafiəsi və təmin olunması istiqamətində qanunvericiliyin yeniləşməsinə və daha da təkmilləşməsinə kömək etmək, əhalinin müxtəlif təbəqələri arasında insan hüquqları və azadlıqları ilə bağlı maarifləndirmə tədbirlərini həyata keçirmək, idarəetmədə və hakimiyyətin ayrı-ayrı qollarında yol verilmiş

---

[1] Azərbaycan Respublikasının İnsan hüquqları üzrə müvəkkil (Ombudsman) haqqında Qanun, Bakı, 2009, s.14

[2] Yenə orada, s.3

[3] Süleymanova E. Avropa İnsan Hüquqları Konvensiyasının implementasiyasında Ombudsmanın rolu, Bakı, 2010, s.2-5

vəzifədən sui-istifadə hallarınının aradan qaldırması, dövlət orqanlarının və vəzifəli şəxslərin öz vəzifələrinə əməl edilməsini təmin etmək kimi geniş funksiyaları həyata keçirir. Ombudsman təsisatı vətəndaş və dövlət münasibətlərinin daha yüksək səviyyəyə qaldırmaqla ikitərəfli etimadın yaranması prosesinə təkan verir. Bu da onun vasitəçi qismində, barışıdırcı mövqedən, dövlətlə vətəndaş cəmiyyəti arasında körpü funksiyasını daşıması ilə mühüm nəticələr verir. Ümumiyyətlə, Ombudsman təsisatı müstəqil bir struktur olmaqla, insan hüquqlarının və azadlıqlarının müdafiəsi üçün əlavə bir dövlət mexanizmi kimi çıxış edən kamil hüquq müdafiə strukturlarından biridir. Belə təsisatın yaradılmasının və effektiv fəaliyyətinin təmin edilməsi Azərbaycanın dünya və Avropa hüquq məkanına inteqrasiyası prosesinin daha da sürətləndirilməsinə töhfələr vermişdir. Bütün bunlara görə də Ombudsman institutu dünyanın sivilizasiyalı ölkələrinin hüquq sistemlərində haqlı olaraq insan hüquqlarının müdafiəsində, dövlət orqanlarının fəaliyyətinin möhkəmləndirilməsində vacib mexanizm hesab olunur.[1]

«İnsan huquqlarının və əsas azadlıqlarının mudafiəsi haqqında» Avropa Konvensiyasının əsas müddəaları müstəqilliyin ilk illərindən başlayaraq milli qanunvericiliyimizdə tədricən təsbit olunmağa başlanılmışdır. Xüsusilə 12 noyabr 1995-ci ildə referendum yolu ilə Azərbaycan Respublikasının Konstitusiyası qəbul edildikdən sonra və eləcə də 25 dekabr 2001-ci ildə «Avropa İnsan hüquqlarının və əsas azadlıqlarının müdafiəsi haqqında» Konvensiya təsdiq edildikdən sonra bu məsələ və onunla bağlı qarşıda duran əsas problemlər intensiv surətdə həll edilməyə başlanılmışdır. 24 dekabr 2002-ci ildə «Azərbaycan Respublikasında İnsan huquq və azadlıqlarının həyata keçirilməsinin tənzimlənməsi haqqında» Konstitusiya Qanununun qəbul edilməsi, bu istiqamətdə irəliyə atılmış mühüm bir addım oldu.

Ulu Öndər Heydər Əliyevin yaratdığı «Məhkəmə hüquq islahatı» Komissiyasının gördüyü intensiv və ardıcıl tədbirlər nəticəsində müstəqillik illərində qanunların və digər normativ hüquqi aktların hazırlan-

[1] Süleymanova E. Avropa İnsan Hüquqları Konvensiyasının implementasiyasında Ombudsmanın rolu, Bakı, 2010, s.6-7

ması və qəbulu sahəsində geniş fəaliyyət həyata keçirilmişdir. Əslində isə bu fəaliyyət müstəqilliyin ilk illərindən başlanılmışdır. 25 may 1991-ci ildə «Azərbaycan Respublikasının İqtisadi müstəqilliyinin əsasları haqqında» Konstitusiya qanunu, 9 dekabr 1991-ci ildə «Dövlət sərhəddi haqqında» Qanun, 15 yanvar 1992-ci ildə «Xarici investisiyaların qorunması haqqında» Qanun, 3 iyun 1992-ci ildə «Siyasi partiyalar haqqında» Qanun, 20 avqust 1992-ci ildə «Dini etiqad azadlığı haqqında» Qanun, 7 dekabr 1992-ci ildə və sonradan 19 iyul 2009-cu ildə «Təhsil haqqında» Qanun, 15 dekabr 1992-ci ildə «Sahibkarlıq fəaliyyəti haqqında» Qanun, 26 noyabr 1993-cü ildə «Müdafiə haqqında» Qanun, 6 yanvar 1994-cü ildə «Hərbi vəziyyət haqqında» Qanun, 24 fevral 1994-cü il də «Həmkarlar ittifaqları haqqında» Qanun, 13 yanvar 1995-ci ildə «İnvestisiya fəaliyyəti haqqında» Qanun, 18 fevral 1995-ci ildə «Aqrar islahatların əsasları haqqında» Qanun, 13 mart 1996-cı ildə «Əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin huquqi vəziyyəti haqqında» Qanun, 16 iyul 1996-cı ildə «Torpaq islahatı haqqında» Qanun, 17 noyabr 1996-cı ildə «Enerji resurslarından istifadə haqqında» Qanun, 10 iyun 1997-ci ildə «Məhkəmələr və hakimlər haqqında» Qanun, 11 dekabr 1998-ci ildə «Cinayət prosesində iştirak edən şəxslərin dovlət mudafiəsi haqqında» Qanun, 19 iyun 1998-ci ildə «Məlumat azadlığı haqqında» Qanun, 30 sentyabr 1998-ci ildə «Azərbaycan Respublikasının vətəndaşlığı haqqında» Qanun, 13 noyabr 1998-ci ildə «Sərbəst toplaşmaq azadlığı haqqında» Qanun, 29 dekabr 1998-ci ildə «Təhqiqat, ibtidai istintaq, prokurorluq və məhkəmə orqanlarının qanunsuz hərəkətləri nəticəsində fiziki şəxslərə vurulmuş ziyanın odənilməsi haqqında» Qanun, 26 iyun 1997-ci ildə «Əhalinin sağlamlığının qorunması haqqında» Qanun, 28 oktyabr 1999-cu ildə «Əməliyyat-axtarış fəaliyyəti haqqında» Qanun, 28 oktyabr 1999-cu il «Polis haqqında» Qanun, 26 noyabr 1999-cu ildə «Notariat haqqında» Qanun, 28 dekabr 1999-cu ildə «Vəkillər və vəkillik fəaliyyəti haqqında» Qanun, 28 dekabr 1999-cu ildə «İcra məmurları haqqında» Qanun, 21 iyun 2000-ci ildə «Dövlət qulluğu haqqında» Qanunu, 8 iyun 2001-ci ildə «Diplomatik xidmət haqqında» Qanun, 27 dekabr 2001-ci ildə «Məhkəmə qərarlarının icrası haqqında» Qanun, 27 dekabr 2001-ci

ildə «İcra haqqında» qanun, 28 dekabr 2001-ci ildə «Azərbaycan Respublikasının insan hüquqları üzrə müvəkkili (Ombudsman) haqqında» Qanun, 23 dekabr 2003-cü ildə «Konstitusiya Məhkəməsi haqqında» Qanun, 24 iyun 2004-cü ildə «Milli təhlükəsizlik haqqında» qanun, 29 iyun 2004-cü ildə «Kəşfiyyat və əks-kəşfiyyat haqqında» Qanun, 28 iyul 2005-ci ildə «Narkotik vasitələr, psixotrop maddələr və perekursorlar haqqında» Qanun, 21 oktyabr 2005-ci ildə «İnzibati icraat haqqında» Qanun, 7 fevral 2006-ci ildə «Əmək pensiyaları haqqında» Qanun və onlarla digər normativ hüquqi aktlar qəbul edilmişdir. Bütün bunlar müstəqillik əldə ediləndən sonra qanunların, başqa normativ hüquqi aktların qəbulu sahəsində görülən işlər haqqında mükəmməl təsəvvür yaradır.

Eləcə də, görülmüş tədbirlər nəticəsində ölkənin hüquqi həyatında müstəsna əhəmiyyət kəsb edən bir çox Məcəllələr hazırlanıb müzakirə edilmiş, qəbul olunmuş və qüvvəyə minmişdir. Belə ki, 30 dekabr 1999-cu ildə Azərbaycan Respublikasının Cinayət Məcəlləsi, 14 iyul 2000-ci ildə Azərbaycan Respublikasının Cəzaların İcrası Məcəlləsi, 01 fevral 1999-cu ildə Azərbaycan Respublikasının Əmək Məcəlləsi, 14 iyul 2000-ci ildə Azərbaycan Respublikası Cinayət Prosessual Məcəlləsi, 28 dekabr 1999-cu ildə Azərbaycan Respublikası Mulki Prosessual Məcəlləsi, 11 iyul 2000-ci ildə Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsi, 28 dekabr 1999-cu ildə Azərbaycan Respublikasının Ailə Məcəlləsi, 23 may 2003-cu ildə Azərbaycan Respublikasının Seçki Məcəlləsi, 30 iyun 2009-cu ildə Azərbaycan Respublikasının İnzibati - prosessual Məcəlləsi, 30 iyun 2009-cu ildə Azərbaycan Respublikasının Mənzil Məcəlləsi və digər zəruri məcəllələr hazırlanmış və qəbul edilmişdir.

Göründüyü kimi bilavasitə Ulu Öndər Heydər Əliyevin rəhbərliyi ilə yeni müstəqil Azərbaycanın ictimai-siyasi və hüquqi həyatında müstəsna əhəmiyyət kəsb edən və bir çox sahələrdə ictimai münasibətləri mükəmməl tənzim edən çoxsaylı qanunların, məcəllələrin və digər mükəmməl normativ hüquqi aktların hazırlanması, müzakirəsi, qəbulu, qüvvəyə minməsi və icraya yönəldilməsi istiqamətində bütün milli tariximizdə olmayan misilsiz qanunvericilik fəaliyyəti həyata keçirilmiş-

dir. Bütün bu sənədlər, normativ hüquqi aktlar Azərbaycanın hüquqşünas - mütəxəssisləri tərəfindən hazırlansa da, onlar bütünlüklə Avropanın, ABŞ-ın, BMT-nin, Avropa Şurasının və digər yüksək ixtisaslı qurumlarının mütəxəssislər tərəfindən ekspertizadan keçirilmiş və əsasən onların beynəlxalq standarlara cavab verdiyi müəyyən edilmişdir. Bu zaman insan hüquqlarına və əsas azadlıqlarına dair BMT-nin, Avropa Şurasının, Avropa İttifaqının, digər beynəlxalq və regional təşkilatların meyarları gözlənilmiş və onlara müvafiq olaraq hazırlanmışdır. Bu proses indi də davam etməkdədir.

Ümumiyyətlə, 1988-ci ilin fevral ayından başlayaraq, bu günə qədər davam edən Dağlıq Qarabağ münaqişəsi dəfələrlə müzakirə edilməsinə baxmayaraq indiyə qədər öz həllini tapmamışdır. Dağlıq Qarabağ münaqişəsi bir çox beynəlxalq təşkilatlarda – BMT-nin Təhlükəsizlik Şurasında, Baş Məclisində, İslam Konfransı Təşkilatında, Avropa Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatında, Avropa Şurasının Parlament Assambleyasında və digər qurumlarda vaxtaşırı olaraq müzakirə edilmiş və müvafiq qərarlar qəbul edilmişdir. Bu qərarlar ümumiləşdirilirkən beynəlxalq və regional təşkilatların Dağlıq Qarabağ münaqişəsi ilə əlaqədar olaraq aşağıdakı nəticələr çıxarılması xüsusi olaraq qeyd edilməlidir:

- Dağlıq Qarabağ ərazisi Azərbaycan Respublikasına məxsusdur.
- Azərbaycan Respublikasının ərazi bütövlüyü, suverenliyi və sərhədləri Ermənistan Respublikası tərəfindən güc tətbiq edilməklə pozulmuş, ərazi işğal edilmiş və sərhədlər dağıdılmışdır.
- Dağlıq Qarabağın ərazisində sülh və insanlıq əleyhinə olan cinayətlər törədilmiş, tarix və mədəniyyət abidələri, o cümlədən islam tarixinə və mədəniyyətinə aid olan abidələr məhv edilmiş, çoxsaylı ərazilərdə yanğınlar törədilmiş, sular zəhərlənmiş, flora və faunanın nadir inciləri məhv edilmişdir.
- Dağlıq Qarabağ münaqişəsi nəticəsində Ermənistan tərəfindən Azərbaycanın mülki əhalisi yerdəyişməyə və etnik təmizləməyə məruz qalmışdır.

- Münaqişə Azərbaycan Respublikasının ərazi bütövlüyü çərçivəsində həll edilməlidir və s.[1]

Göründüyü kimi beynəlxalq və regional təşkilatların apardığı tədqiqatlar, müzakirələr və nəticələr Ermənistan Respublikasının beynəlxalq hüququn prinsiplərini və normalarını ən kobud və cinayətcasına pozmasına dair faktlar birmənalı şəkildə təsdiq edilməsinə baxmayaraq, problem indiyə qədər həll edilməmiş və çıxarılan qərarlar icrasız qalmışdır. Bu bir tərəfdən beynəlxalq və regional təşkilatların nüfuzuna ciddi təsir göstərir, digər tərəfdən isə onlara olan inamı azaldır və ikitərəfli standartların beynəlxalq hüquqda adi hal alması kimi pis bir ənənənin yaranmasına səbəb olur. Ümumiyyətlə, beynəlxalq hüquq bu məsələləri ciddi şəkildə tənzim etməli və təcavüzkar dövlətlərə qarşı ən qəti sanksiyaların tətbiq edilmə mexanizmləri yaradılmalıdır.

Bəşəriyyət tarixində ilk dəfə olaraq 9 dekabr 1948-ci ildə «Genosid cinayətinin qarşısının alınması və onun cəzalandırılması haqqında» BMT Konvensiyası qəbul edilmiş və bu Konvensiya 12 yanvar 1951-ci ildən qüvvəyə minmişdir. Ulu Öndər Heydər Əliyevin səyi nəticəsində 31 may 1996-cı il tarixli Azərbaycan Respublikasının Qanunu ilə ölkəmiz həmin Konvensiyaya qoşulmuşdur. Dağlıq Qarabağ münaqişəsi ilə əlaqədar olaraq azərbaycanlılara və Axıska türklərinə qarşı istər Ermənistan ərazisində, istərsə də Dağlıq Qarabağ regionunun Qaradağlı, Malibəyli, Xocalı, Xocavənd və başqa ərazilərində sülh və insanlıq əleyhinə olan silsilə cinayətlər törədilmişdir. «Xocalı soyqırımı» kimi tarixə düşmüş hadisə öz ictimai təhlükəliliyinə görə xüsusilə seçilir. Belə ki, 1992-ci ilin fevral ayının 25-dən 26-a keçən gecə Xocalı şəhərinin dinc əhalisi milli mənsubiyyətlərinə - azərbaycanlı və türk olduqlarına görə kütləvi surətdə öldürülmüş, ağır bədən xəsarətləri yetirilmiş və bütöv bir şəhər tarixin səhifəsindən silinmişdir. Həmin vaxtdan sonra bir çox ölkələr bu hadisəni soyqırım kimi tanısa da, təqsirli şəxslər indiyə qədər məhkəmə məsuliyyətinə verilib layiqli cəzalarını almamışlar. Aparılan istintaq nəticəsində soyqırımın törədilmə-

[1] Qarayev R. Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin nizamlanmasında beynəlxalq təşkilatların qərarlarının əhəmiyyəti və beynəlxalq hüquq, Bakı, 2012, s.128-133

sinin əsas təşkilatçıları və icraçıları haqqında kifayət qədər möhtəbər sübutlar toplanılsa da, təqsirli şəxslərin əməllərinə indiyə qədər hüquqi qiymət verilməmişdir. Bunun bir səbəbi də müvafiq qurumların beynəlxalq və milli hüququn zəruri prosedur qaydalarını bilməməsi və ya bu qaydaların tətbiqi üçün qəti tədbirlər görməməsi ilə əlaqədardır.[1]

Məlumdur ki, BMT-nin diplomatik korpusunun 17 iyul 1998-ci il tarixli konfransında «Beynəlxalq cinayət məhkəməsi» təsis edilmişdir. Bu məhkəmə beynəlxalq birliyi narahat edən ən ciddi cinayətlərə görə məsuliyyət daşıyan şəxslərə münasibətdə yurisdiksiyasını həyata keçirməyə səlahiyyətli olan daimi bir orqan kimi formalaşdırılmışdır. Bu məhkəmə beynəlxalq hüquq subyektliliyinə, eləcə də hüquq qabiliyyətinə malik olmaqla, xüsusi razılaşmalar əsasında hər hansı bir dövlətin ərazisində öz funksiyasını və səlahiyyətlərini həyata keçirə bilər. Başqa sözlə, Beynəlxalq Cinayət Məhkəməsinin Roma statutunun 5-ci və 6-cı maddələrinin tələblərinə əsasən bu məhkəmə genosid cinayətlərini icraata qəbul edib, ona mahiyyəti üzrə baxmaq və müvafiq qərar qəbul etmək funksiyasını həyata keçirməyə səlahiyyətlidir. Bütün bunlarla yanaşı Roma statutunun «Ratione temporis yurisdiksiyası»na (11-ci maddə) görə məhkəmə yalnız statusu qüvvəyə mindiyi tarixdən sonra, yəni 17 iyun 1998-ci ildən sonra törədilmiş cinayətlərə münasibətdə müvafiq yurisdiksiyaya malikdir.[2]

Beynəlxalq Cinayət Məhkəməsinin Roma statutunun 5-ci maddəsinin tələbinə əsasən, bu məhkəmənin yurisdiksiyası, yalnız Roma statutunun iştirakçısı olan dövlətlərə şamil edilə bilər. Haaqa Tribunalında isə məsələyə o vaxt baxıla bilər ki, həmin cinayətlər Roma statutunu ratifikasiya etmiş dövlətin ərazisində və Roma statutunu ratifikasiya etmiş dövlətin vətəndaşı tərəfindən törədilmiş olsun. Bundan başqa soyqırım cinayətlərinin beynəlxalq sülhə və təhlükəsizliyə təhlükə yaradan vəziyyətdə törədildiyi və BMT Təhlükəsizlik Şurasının BMT Nizamnaməsinin VII bölməsinə müvafiq olaraq Beynəlxalq Cinayət Məhkəməsinə müraciət etdiyi hallarda da baxmaq səlahiyyətlərinə

[1] Zahidov B. Xocalı faciəsi soyqırımdır. Azərbaycan qəzeti, 26 fevral 2012-ci il, №46 (6027)

[2] Beynəlxalq sənədlər toplusu. I cild. B., 2005. s.264-265

malikdir. Bu hüquqi əsaslar və şərtlər hazırda mövcud olmadığına görə «Xocalı soyqırımı»nı törədənlərin cinayət işinə Haaqa Tribunalında baxılması hüququ cəhətdə mümkünsüzdür. Çünki Azərbaycan Beynəlxalq Cinayət Məhkəməsinin Roma statutunu imzalamamışdır və ölkəmiz bu beynəlxalq təşkilatın subyekti deyildir. Ermənistan isə 1 oktyabr 1999-cu ildə Roma statutunu imzalasa da, lakin onu indiyə qədər ratifikasiya etməmişdir. Buna görə də «Xocalı soyqırımı»nı törədənlərin əməlləri Haaqa tribunalının yurisdiksiyasının təsiri altına düşsə belə, Azərbaycan bu statusu imzalamadığından xalqımıza qarşı törədilən soyqırım cinayətinə baxılması barədə Azərbaycanın müraciəti icraata qəbul edilməyəcəkdir. Digər tərəfdən Azərbaycan beynəlxalq cinayət məhkəməsinin üzvü və Roma statutunu ratifikasiya etsə belə, yenə də bu barədə toplanmış materiallar icraata qəbul edə bilməz. Ona görə ki, Xocalı soyqırımı 25-26 fevral 1992-ci ildə baş vermişdir. Həmin vaxt isə Azərbaycan bu məhkəmənin üzvü olmamışdır. Hazırda bu məsələ Azərbaycan dövləti və milləti üçün taleyüklü problemlərdən biri olduğuna görə müxtəlif çıxış yolları axtarılmalı və məsələnin hüquq müstəvisində ədalətli həlli təmin edilməlidir. Belə ki, «Genosid cinayətinin qarşısının alınması və onu cəzalandırılması haqqında» BMT-nin 9 dekabr 1948-ci il tarixli Konvensiyanın 6-cı maddəsi bu məsələyə müsbət cavab verir. Oradan belə aydın olur ki, Xocalı soyqırımı barədə cinayət işi universal yurisdiksiya prinsipinə müvafiq olaraq Azərbaycan Respublikasının səlahiyyətli məhkəmələri tərəfindən icraata qəbul edilə bilər və həmin cinayəti törədənlər öz layiqli cəzalarını ala bilərlər. Beynəlxalq hüquq nəinki milli məhkəmələrə belə bir imkanı verir, hətta onların üzərinə belə bir öhdəlik qoyur. «Polyuxoviçin Avstraliya İttifaqına qarşı» işi üzrə Avstriya məhkəməsinin, Adolf Ayxmanın işi üzrə Yerusəlim məhkəməsinin (1961-ci il), Rafik Sariçə qarşı Danimarka milli məhkəməsinin (1994), Duşko Tadiçə qarşı - Almaniya Ali Məhkəməsinin (1994), Darko Knecevіçə qarşı Niderland Ali Məhkəməsinin (1997) və onlarla digər faktlar vardır ki, soyqırım cinayətlərinə milli məhkəmələrdə baxılaraq ədalətli hökmlər çıxarılmışdır. Bu da bir daha təsdiq edir ki, Xocalı qətliamını törədənlərin cinayət işinə Azərbaycanın Xocalı şəhəri ərazisinin tabe olduğu ağır

cinayətlər məhkəməsində baxılması tamamilə mümkündür. Çünki Xocalı soyqırımı Azərbaycan ərazisində, keçmiş Azərbaycan vətəndaşları olan ermənilər tərəfindən, Azərbaycan vətəndaşı olan azərbaycanlılara və məhsəti türklərinə qarşı törədilmişdir. Bu, milli və beynəlxalq hüququn tələblərinə tamamilə müvafiqdir. Çünki universal yurisdiksiya prinsipinə görə genosid və başqa beynəlxalq cinayətlər törətmiş şəxsləri mühakimə etmək Azərbaycanın, onun istintaq və məhkəmə orqanlarının borcudur.[1]

Sülh və insanlıq əleyhinə olan cinayətləri törətmiş şəxslərin əməllərinə, müstəsna hal kimi, qiyabi olaraq baxılmasının mümkünlüyü haqqında Azərbaycan Respublikasının Cinayət – Prosessual Məcəlləsində müvafiq dəyişikliklər edilməklə «Xocalı soyqırımı»nı törədənlərin cinayət işinə Azərbaycan Respublikasının müvafiq ərazi üzrə ağır cinayətlər məhkəməsində baxmaqla məsələni hüquqi baxımdan həll etmək və təqsirli şəxslərin layiqincə cəzalandırılması haqqında qiyabi hökm çıxarmaq tamamilə mümkündür. Bu cür hallar dünya təcrübəsində də vardı. Burada nəzərə almaq lazımdır ki, belə cinayətləri törətmiş şəxslərin Ermənistanın, Rusiyanın və ya hər hansı başqa bir ölkənin ərazisində olmasından asılı olmayaraq, onların tutulub Azərbaycana ekstradisiya edilməsi və cəzalarının icra edilməsi beynəlxalq hüququn tələblərindən irəli gəlir. Belə ki, soyqırım konvensiyasının 7-ci maddəsinin tələbinə görə təqsirləndirilən şəxslərin verilməsi məsələsində soyqırım və yaxud konvensiyanın 3-cü maddəsində sadalanan digər əməllər siyasi cinayət sayılmır. Bu da onu göstərir ki, təqsirləndirilən şəxslərin hər hansı bir siyasi motivlə əlaqələndirilməsi və onları Azərbaycana verməkdən imtina edilməsi mümkünsüzdür.[2]

Məsələnin başqa bir hüquqi həlli yolu da vardır. Azərbaycanın səlahiyyətli orqanlarının vəsatətləri əsasında Xocalı soyqırımı üzrə, yaxud, ümumiyyətlə, Ermənistanın və ya onun separatçı qüvvələrinin, hərbçilərinin azərbaycanlılara qarşı həyata keçirdiyi sülh və insanlıq əleyhinə olan cinayətlərə görə xüsusi səlahiyyətli Beynəlxalq Cinayət

---

[1] Zahidov B. Xocalı faciəsi soyqırımdır. Azərbaycan qəzeti, 26 fevral 2012-ci il, №46 (6027)

[2] Beynəlxalq sənədlər toplusu. B., 2008. s.284

Məhkəməsinin yaradılması da mümkündür. Bunun üçün Azərbaycanın səlahiyyətli orqanlarının BMT-nin Təhlükəsizlik Şurası qarşısında məsələ qaldırması zəruridir. Hesab edirəm ki, münaqişə ilə bağlı BMT Təhlükəsizlik Şurasının dörd qətnamə qəbul etməsi və bu qətnamələrin heç birinin indiyə qədər icra edilməməsi, münaqişə zamanı törədilmiş ağır cinayətlərlə bağlı «ad hoc» xüsusi beynəlxalq tribunalın yaradılması haqqında Azərbaycan Respublikasının qaldırdığı vəsadət BMT-nin Təhlükəsizlik Şurası tərəfindən təmin edilə bilər. Mövcud Nizamnamə və prosedurlar daxilində və beynəlxalq hüququn tələbləri əsasında «Xocalı soyqırımı» üzrə xüsusi Beynəlxalq Cinayət Məhkəməsi yaradılarsa, həmin məhkəmədə məsələyə mahiyyəti üzrə baxılıb təqsirli şəxslərin layiqincə cəzalandırılmaları təmin edilə bilər. Bu eyni zamanda, BMT-nin Baş Assambleyasının 9 dekabr 1998-ci il tarixli «Hamı tərəfindən tanınan insan hüquqlarını və əsas azadlıqlarını dəstəkləmək və müdafiə etməklə bağlı cəmiyyətdəki fərdlərin, qrupların və orqanların hüquq və məsuliyyəti haqqında Bəyannaməsi»nin tələblərindən irəli gəlir.[1]

Ən nəhayət, təhlillər göstərir ki, Birləşmiş Millətlər Təşkilatının II Dünya Müharibəsindən sonra qəbul etdiyi bir sıra Konvensiyalar müasir dövrün tələblərinə tam cavab vermir, köhnəlmişdir, ayrı-ayrı normalar mükəmməl hesab edilə bilməz, eyni məsələlər üzrə müxtəlif vaxtlarda qəbul edilən Konvensiyalar işlək deyildir, dövlətdaxili qanunlarla beynəlxalq hüquq normaları arasında aşkar uyğunsuzluqlar vardır, onların icra mexanizmləri yoxdur. Elə «Genosid cinayətinin qarşısının alınması və onun cəzalandırılması haqqında» BMT Konvensiyası müasir tələblərə cavab vermir, vurulmuş maddi və mənəvi zərərlərin kompensasiya mexanizmləri yoxdur. Azərbaycan-Ermənistan və Dağlıq Qarabağ münaqişəsi üzrə BMT Təhlükəsizlik Şurasının dörd məlum qərarı icrasız qalmışdır. BMT-nin üzvü olan və bir çox Konvensiyaları ratifikasiya etmiş Ermənistan beynəlxalq hüququn və beynəlxalq birliyin əksəriyyətinin iradəsini ifadə edən qətnamələrə məhəl qoymur, onları icra etməkdən qəsdən imtina edir. Təcavüzkar

[1] Beynəlxalq sənədlər toplusu. B., 2005. I cild. s.97

dövlət dünyaya meydan oxuyur, hamılıqla qəbul edilmiş prinsipləri və normaları yerinə yetirmir. Sual yaranır: belə olduqda məsələ beynəlxalq hüquq müstəvisində necə həll edilməlidir? Başqa suallar da vardır və bütün bunlar hər kəsi ciddi narahat edir. Analoji vəziyyət başqa regionlarda da vardır. Sivilizasiyaların ən yüksək təkamül mərhələsi, 21-ci əsrin ilk onilliyi olmasına baxmayaraq, dünyada qlobal problemlərin hüquq müstəvisində, dinc danışıq yolu ilə, qanunla və ədalətlə deyil, zorla və silah gücünə həll edilməsinə üstünlük verilir. Bu gün dünyada yüzlərlə münaqişə və mübahisələr qalır. Dünyanın müxtəlif ölkələrində və müxtəlif regionlarında ərazi, dini, irqi, milli, etnik və digər zəminlərdə münaqişələr və müharibələr davam edir. Bir müstəqil ölkə başqa bir müstəqil ölkənin hakimiyyətini devirir, ərazisini işğal edir, xalqını qırır, təbii sərvətlərini ələ keçirir, yaşadığımız balaca planet sanki «qan çanağı»na çevrilmişdir, tərəqqipərvər bəşəriyyət isə aciz vəziyyətdə gözləyir. Bütün bunlar bu günümüzün reallıqlarıdır.[1]

Dünyanın qüdrətli dövlətləri beynəlxalq təşkilatlarla birlikdə toplanıb bu məsələlərin həllini təmin etməyə, 21-ci əsrin qlobal çağırışlarına cavab verməyə borcludur. Birləşmiş Millətlər Təşkilatının, Avropa Birliyinin, Avropa Şurasının, ATƏT-in, İslam Konfransı Təşkilatının və digər bu kimi beynəlxalq və regional təşkilatların ayrı-ayrı aktual məsələləri üzrə vahid, Yekun Konvensiyalarının hazırlanması və qəbul edilməsi vaxtı çatmışdır. Eləcə də beynəlxalq və regional münaqişələrin, mübahisələrin və problemlərin həlli istiqamətində qəbul edilmiş qətnamələrin icrasını təmin edən işlək mexanizmlərin də yaradılması olduqca aktualdır. Bu zəmində Beynəlxalq Cinayət Məhkəməsinin, Cinayət Məcəlləsinin və Mülki Məcəllənin mükəmməl və işlək formada, beynəlxalq standartlara cavab verən bir səviyyədə hazırlanması, normativ hüquqi bazasının yaradılması əhəmiyyətli olardı. Əminliklə demək olar ki, bu məsələlərin həlli vaxtı çatmışdır.

Azərbaycan xarici siyasətinin və beynəlxalq münasibətlərinin təhlili göstərir ki, ölkəmiz dünyanın inkişlaf etmiş və qabaqcıl ölkələri

[1] Zahidov B. «Xocalı faciəsi soyqırımdır». Azərbaycan qəzeti, 26 fevral 2012-ci il, №46 (6027)

ilə, regional və beynəlxalq təşkilatlarla münasibətlərini elmi əsaslarla qurur. Bəşəriyyəti narahat edən qlobal problemlər demokratik və sivil inkişaf yolunu tutmuş ölkəmiz üçün də prioritet istiqamət təşkil edir. Bu yolda əsas meyar beynəlxalq sülhü və təhlükəsizliyi qorumaq, hamı tərəfindən qəbul edilmiş beynəlxalq prinsiplərə əməl etmək, bununla belə həm də ölkəmizin milli maraqlarını və milli mənafeyini təmin etməkdir. Son vaxtlar millətlərarası, dinlərarası, mədəniyyətlərarası, sivilizasiyalararası problemlərin həllinə həsr olunmuş beynəlxalq konfranslar ölkəmizin həm də bu məsələlərə ciddi önəm verməsinin son dərəcə vacib olduğunu bir daha təsdiq edir. Beynəlxalq hüquq elminin müasir metodları və metogologiyaları, elmi - nəzəri müddəaları tam təsdiq edir ki, beynəlxalq münasibətlərin ədalətli tənzimlənməsində mədəniyyətlərin, dinlərin, millətlərin, sivilizasiyaların dialoqlarının müstəsna rolu vardır. Bir sözlə, müstəqillik illərində ölkəmizin xarici siyasətinin, beynəlxalq münasibətlərinin, əlaqələrinin, diplomatiyasının tədqiqi bir daha təsdiq edir ki, kompleks elmi – nəzəri, ideoloji, müasir, dinamik yanaşmaların nəticəsində bu sahədə böyük uğurlar əldə edilmişdir.

Xüsusilə qeyd etmək lazımdır ki, respublikamız «İnsan hüquqlarının və əsas azadlıqlarının müdafiəsi haqqında» Avropa Konvensiyasını və ona əlavə olunmuş 1, 4, 6, 7 saylı Protokolları 2001-ci il 25 dekabr tarixində ratifikasiya etmiş və üzərinə müvafiq öhdəliklər götürmüşdür. Avropalı mütəxəssislər, beynəlxalq ekspertlər bu təşəbbüsləri və səyləri yüksək dəyərləndirirlər. Bütün bunlarla yanaşı, qanun yaradıcılığı və beynəlxalq hüququn imkanlarından istifadə bu gün də olduqca aktual və əhəmiyyətlidir. Bu da təsadüfi deyildir. Ölkəmizin Dağlıq Qarabağ münqişəsi uzun illərin səylərinə baxmayaraq, indiyə qədər həll olunmamışdır. Beynəlxalq və regional təşkilatların səyləri hələlik səmərə vermir. Azərbaycanın isə bu məsələdə mövqeyi beynəlxalq hüququn hamılıqla qəbul edilmiş prinsip və şərtlərinə, hamılıqla tanınmış ərazi bütövlüyünə və məsələnin danışıqlar yolu ilə ədalətli həllinə üstünlük verilməsinə söykənir. Bununla bağlı qeyd edilməsi zəruridir ki, Daqlıq Qarabağ münaqişəsi kontekstində suverenliyimizin və ərazi bütövlüyümüzün bərpası, azərbaycanlılara qarşı illərlə bir

sistem kimi həyata keçirilən sülh və insanlıq əleyhinə olan cinayətlər, vurulan maddi və mənəvi zərərlər indiyə qədər hüquq müstəvisində, qanuni olaraq öz həllini tapmamışdır. Buna görə də ölkəmizin və vətəndaşlarımızım beynəlxalq səylərinin gündən-günə artırılması tamamilə təbiidir. Xarici İşlər Nazirliyinin və digər dövlət qurumlarının, qeyri-hökumət təşkilatlarının birgə səyi ilə Xocalı soyqırımının tanınması sahəsində Heydər Əliyev fondunun və onun Moskva nümayəndəliyinin fəaliyyəti olduqca əhəmiyyətlidir. Azərbaycanın Avropaya inteqrasiya olmaq sahəsində NATO-ya «Şərq tərəfdaşlığı» kontekstində beynəlxalq islam təşkilatları ilə və digər çoxsaylı beynəlxalq və regional təşkilatlarla əlaqələrində Dağlıq Qarabağ münaqişəsinin həllinə üstünlük verməklə həyata keçirilməsinə önəm verilir.

Ölkə rəhbərliyinin daxili və xarici siyasətinin nəticəsidir ki, Azərbaycan Respublikası 24 oktyabr 2011-ci ildə böyük səs çoxluğu ilə BMT Təhlükəsizlik Şurasının iki illiyə (2012-2013) qeyri-daimi üzvü seçilmiş, 1 may 2012-ci ildən etibarən estafeti ABŞ-dan almaqla BMT Təhlükəsizlik Şurasına sədrlik etmiş və bir aydan sonra onu Çin Xalq Respublikasına ötürmüşdür. Müstəqilliyinin iyirmi illiyini qeyd etmiş gənc bir ölkə üçün belə bir uğurlu nəticənin əldə edilməsi məhz, beynəlxalq hüququn və beynəlxalq münasibətlərin düzgün və səmərəli həyata keçirilməsi sayəsində onun dinamik inkişafı nəticəsində mümkün olmuşdur.

Beynəlxalq münasibətlərdə və beynəlxalq hüquqi problemlərin həllində əldə edilmiş uğurlar ölkəmizin daxili və xarici siyasətinin ahəngdar və əlaqəli şəkildə həyata keçirilməsinin nəticəsi kimi səciyyələndirilə bilər. Azərbaycanın bir çox nümayəndələri beynəlxalq təşkilatlarda uğurla təmsil olunur və beynəlxalq hüquqa öz töhfələrini verirlər. Ölkəmizdə beynəlxalq hüququn elmi – nəzəri tədqiqi sahəsində də çoxsaylı tədqiqatlar aparılır, beynəlxalq və regional hüququn inkişafına dair səmərəli təkliflər irəli sürürlər. Ölkəmiz və alimlərimiz beynəlxalq konfranslarda uğurla təmsil olunur və çoxsaylı tədqiqatları ilə bu elmi daha da zənginləşdirirlər. Eləcə də alimlərimiz Dağlıq Qarabağ münaqişəsi kontekstində soyqırım, terrorizm, transmilli mütəşəkkil cinayətkarlıq, narkobiznes, çirkli pulların yuyulması, kiber cina-

yətkarlıq, insan alveri və digər beynəlxalq sülh və insanlıq əleyhinə olan cinayətlərlə bağlı səmərəli təkliflər irəli sürür, beynəlxalq tribunalardan ədalətli mövqe nümayiş etdirməyi haqlı olaraq gözləyirlər.

«Azərbaycan Respublikasının Milli Təhlükəsizliyi haqqında Qanun» 29 iyun 2004-cü il tarixdə, «Kəşfiyyat və əks-kəşfiyyat fəaliyyəti haqqında» Qanun 29 iyun 2004-cü il tarixdə qəbul edilmiş, 23 may 2007-ci ildə «Azərbaycan Respublikasının Milli Təhlükəsizlik Konsepsiyası», 22 iyun 2010-cu ildə «Azərbaycan Respublikasının Hərbi Doktrinası»nın qəbul edilməsi Dağlıq Qarabağ münaqişəsinin beynəlxalq hüquq müstəvisində həllinə mühüm töhfə verəcəkdir. Bu sənədlərdə ölkəmizin beynəlxalq hüquq və beynəlxalq münasibətlər sahəsində qarşıda duran vəzifələrinin əsas istiqamətləri müəyyən edilmişdir. Ölkədə təhlükəsizlik mühitinin yaradılması, milli maraqların və milli təhlükəsizliyin, müstəqilliyin, suverenliyin, ərazi bütövlüyünün və konstitusiya quruluşunun etibarlı qorunması vacib hesab edilmişdir.

«İnsan və vətəndaş hüquqlarının və azadlıqlarının təmin edilməsi sahəsində tədbirlər haqqında» Azərbaycan Respublikası Prezidentinin 22 fevral 1998-ci il tarixli Sərəncamı, «Azərbaycan Respublikası ilə Avropa Şurası arasında əməkdaşlığın dərinləşdirilməsi haqqında» Azərbaycan Respublikası Prezidentinin 20 yanvar 1998-ci il tarixli Sərəncamı, «Azərbaycan Respublikasında İnsan hüquqlarının müdafiəsi sahəsində» 18 iyun 1998-ci il tarixli Dövlət Proqramı mühüm əhəmiyyət kəsb etmişdir. Eləcə də son illər «Azərbaycan Respublikasında İnsan hüquqlarının müdafiəsi üzrə Milli Fəaliyyət Proqramı», «Azərbaycan Respublikasında insan hüquqlarının və azadlıqlarının müdafiəsi sahəsində səmərəliliyin artırılması sahəsində Milli Fəaliyyət Proqramı», BMT-nin «İşgəncələrə və digər qəddar qeyri-insanı, yaxud ləyaqəti alçaldan rəftar və cəza növləri haqqında» Konvensiyasının icrası ilə bağlı ölkədə həyata keçirilmiş təşkilatı hüquqi tədbirlər səmərəli nəticələr vermişdir.

Son illər qəbul edilmiş beynəlxalq sənədlərdə insan hüquqlarının və azadlıqlarının təmin olunması problemi, hər hansı bir dövlətin müstəsna daxili məsələsi kimi deyil, artıq beynəlxalq birliyi

ciddi surətdə narahat edən ümumi və qlobal bir problem kimi yanaşmanı tələb edir.[1] Bu da onu göstərir ki, insan hüquqları və azadlıqları məsələsi artıq beynəlxalq səciyyə daşıyır və beynəlxalq birliyin üzvü olan dövlətləri bu sahəyə səfərbər edir.

Etiraf edilməlidir ki, konstitusiya demokratiyanın ən mühüm institutlarından biri olmaqla, Azərbaycan dövlətinin həyatında və hüquq sisteminin təşəkkülündə müstəsna əhəmiyyətə malikdir. O, hüquqi sənəd olmaqla yanaşı, həm də siyasi sənəd hesab edilir. Bu da ondan irəli gəlir ki, konstitusiya mətninin hazırlanmasında, layihənin müzakirəsində və onun qəbulunda ölkənin əsas siyasi qüvvələri iştirak edirlər. Konstitusiya qanunvericilik sisteminin, hüquqi dövlət quruculuğunun, hakimiyyət bölgüsünün, insan və vətəndaş hüquqlarının və azadlıqlarının əsas dairəsinin müəyyən edilməsinin əsasında dayanır. Konstitusiya ölkədə əın yüksək hüquqi qüvvəyə malik olmaqla ictimai münasibətlərin ən mühüm və ən vacib sahələrini nizama salır və tənzim edir. Vətəndaş – dövlət, dövlət – şəxsiyyət, dövlət – hüquq, vətəndaş – qanun münasibətlərini tənzim edən əsas qanun – konstitusiya ölkədə sabitliyin qorunmasında, hüquq subyektləri arasında münasibətlərin ədalətli tənzimlənməsində, qarşılıqlı əlaqələrin və münasibətlərin davamlılığında, vətəndaş cəmiyyətinin hüquqi cəhətdən təşəkkülündə və inkişafında, məhkəmə hakimiyyətinin formalaşmasında, hüquqi dövlət quruculuğunda mühüm əhəmiyyətə malikdir. İnsan hüquqları və azadlıqları konstitusiya hüququnun ən əsas və vacib institutlarından biridir. Bu sənəddə hüquqların və azadlıqların məcmusu, vətəndaşla dövlət arasında mövcud olan münasibətlərin məzmununu təşkil edir. Qadının konstitusiya statusunun, onun əsas hüquqlarını və azadlıqlarını vəzifələri ilə vəhdətdə müəyyən etməklə, vətəndaş kimi qadının statusunun səciyyəvi cəhətlərini müəyyən edir.[2] Bu

---

[1] Məmmədov R., İsmayılova Ə., Hacıyev C. Qanunun aliliyi və insan hüquqlarının müdafiəsi mexanizmləri, Bakı, 2009, s. 384-403 ; İnsan hüquqları: bəşər rifahının təməli, Bakı, 2001, s. 11-41.

[2] Cəfərov İ. Azərbaycan Respublikasının Konstitusiyasının şərhi, Bakı, 2010, s.3-9, 133-134

da konstitusiya əsasında hazırlanmış çoxsaylı normativ hüquqi aktlarla tənzim edilir.

Müstəqillik illərində Azərbaycanda beynəlxalq hüququn və ona müvafiq olaraq konstitusiya hüququnun inkişafı və müasir vəziyyəti böyük təkamül yolu keçməklə qarşıdan duran əsas vəzifələrin həyata keçirilməsinə əlverişli imkan yaradır. Ümumiyyətlə, 21-ci əsrin problemlərinə və təhdidlərinə səmərəli cavab vermək üçün BMT-nın və digər beynəlxalq qurumların iş qabiliyyətinin artırılması, beynəlxalq hüquq sisteminin möhkəmləndirilməsi, qəbul edilmiş qərarların icrasının təmin olunması sahəsində qətiyyətli tədbirlərin görülməsi və islahatların aparılması, bu gün dünyada birmənalı şəkildə dəstək almaqdadır.[1] Hüquqi dövlət prinsiplərinə, demokratik dəyərlərə və vətəndaş cəmiyyətinin güclü inkişafını və bütün bunlara müvafiq olaraq, qadın hüquqlarının və azadlıqlarının təmin olunmasını yüksək səviyyədə həyata keçirmək üçün

[1] Bax ətraflı: Басик В.П. Количественные и качественные изменения правовых принципов гражданства Российской Федерации. Государство и право, 2005, №6, с.90-96; Крылова Е.Г. Принцип разделения властей в организации государственной службы, Государство и право, 2007, №11, с.12-19; Малый А.Ф. Государственная власть как правовая категория, Государство и право, 2001, №3, с.94-99; Автономов А.С. Ценность Конституции, Государство и право, 2009, №3, с.5-11; Эбзеев Б.С. Конституции Российской Федерации - 20 лет: государство, демократия, личность сквозь призму практического конституционализма, Государство и право, 2013, №12, с.5-17; Чиркин В.Е. О базовых ценностях Российской Конституции (К 20 летию конституции России), Государство и право, 2013, №12, с.18-25; Марченко М.Н. Конституция постсоветской России: проблемы теории и методологии познания, Государство и право, 2013, №12, с.26-33; Мартышин О.В. Конституция и идеология, Государство и право, 2013, №12, с.34-44; Дмитриев Ю.А. Можно ли повысить демократический потенциал действующей конституции Российской Федерации, Государство и право, 2013, №12, с.45-53; Чиркин В.Е. Российская конституция и международный опыт, Государство и право, 1998, №12, с.5-11; Миронов О.О. Конституция не может быть неизменной, Государство и право, 1998, №4, с.5-9; Шейнис В.Л. Тернистый путь Российской Конституции, Государство и право, 1997, №12, с.62-73; Волосникова Л.М. «Академическая мобильность» как конституционно-правовая категория, Государство и право, 2010, №4, с.85-90; Проблемы укрепления конституционной законности в Республиках Российской Федерации, Государство и право, 1998, №12, с.95-97

müasir dövrümüz beynəlxalq və konstitusiya hüququnun səylərinin birləşdirilməsi tələb edir. Buna görə də hazırda ölkəmizdə qadın hüquqlarının və azadlıqlarının təmin olunması məhz bu istiqamətdə aparılır.

# II FƏSİL

## QADIN HÜQUQLARI VƏ AZADLIQLARI: mahiyyəti və səciyyəvi xüsusiyyətləri

İnsan hüquqlarının və azadlıqlarının tərkib hissəsi olan qadın hüquqlarının tədqiqi müstəsna əhəmiyyətə malikdir. Bu problemin elmi nəzəri tədqiqinə insan nəslinin və müasir cəmiyyətin mühüm sosial qrupunu təşkil edən qadınların və qızların, ilk öncə bir varlıq olaraq bioloji və sosioloji xüsusiyyətlərinə müəyyən aydınlıq gətirilməsinə zərurət vardır. Belə yanaşma olmadan qadın hüquqlarının və azadlıqlarının kompleks araşdırılmasını uğurla başa çatdırmaq mümkünsüz olardı. Bu baxımdan müxtəlif elmi nəzəriyyələr və müxtəlif elm sahələri tərəfindən aparılan kompleks araşdırmalar, yekun olaraq «qadın» anlayışına müəyyən definisiya verilməsinə imkan yaradır. Buna görə də təbiətdə, ailədə və cəmiyyətdə qadın kimi sosial rolu, bioloji, fizioloji, psixi, fiziki xüsusiyyətləri, dünyaya uşaq gətirmək, ona süd vermək, analığın digər keyfiyyətlərini özündə əks etdirən və ana kimi səciyyələndirilə bilən kompleks xüsusiyyətlərin məcmusunu özündə ehtiva edən insan cinsi qadın hesab olunur. Fərdi mahiyyət daşıyan qadın cinsi və qadına mənsub olan hüquqların və azadlıqların beynəlxalq standartlarının müəyyən edilməsi və konstitusiya hüquq sistemində təsbit olunması metodoloji cəhətdən bütün digər məsələlərin uğurlu həllinin əsası kimi çıxış edə bilər. Cinsi fərqlərin psixoloji xüsusiyyətlərinin öyrənilməsi qadın və kişi fərqliliyinin, feminist antropologiyanın və etnoqrafiyanın tədqiqinə zərurət yaradır. Bioloji fərqlərdən asılı olmayaraq insanların sosial rollarında, fəaliyyət formalarında, emosional xüsusiyyətlərində, davranışlarında, hərəkətlərində səslərində, vərdişlərində, yazışmalarında, həyata münasibətlərində aşkar edilən mövcud durum, qadın hüquqlarının qanunvericilikdə təsbitinə, tətbiqinə və müdafiəsinə diqqətin artırılmasını tələb edir. Cinsi əlamət üzrə özünü kateqoriyalaşdırmanı qəbul və istifadə etmək, fərdi seçimdən asılı olmadan daha çox bioloji

cəhətlərlə şərtlənir və sosial cəhətdən məcburidir. Bu baxımdan hər bir insanın öz mahiyyətinə və xüsusiyyətlərinə görə ya kişi, ya da qadın cinsinə mənsub olması qaçılmazdır.

Tədqiqata başlayarkən belə optimal bir seçimə üstünlük verildi ki, qadın hüquqlarının və azadlıqlarının kompleks elmi nəzəri tədqiqinə məhz qadının bioloji xüsusyyətlərinə müəyyən aydınlıq gətirilməsindən başlanılması olduqca vacibdir. Belə yanaşma və metodoloji seçim hər şeydən əvvəl onunla bağlıdır ki, bəşər tarixində əsrlər boyu qadın hüquqlarının məhdudlaşdırılmasının, pozulmasının, qadına qarşı ayrı-seçkiliyin real mövcudluğunun kökündə, əsasında məhz onun bioloji xüsusiyyətləri - qadın cinsinə mənsub olması kimi keyfiyyət xüsusiyyətləri dayanmışdır. Cəmiyyətdə bu kateqoriyadan olan insanlar digərlərindən - kişilərdən ona görə fərqləndirilmiş, sıxıldırılmış, hüquqsuz vəziyyətə salınmışdır ki, o bioloji cəhətdən qadın cinsinə mənsubdur. Buna görə də bir insan olaraq, cinsinə görə qadın olaraq fərqləndirilən insanın, tədqiqatımızın obyekti olan qadının, bioloji xüsusiyyətlərinin və səciyyəvi cəhətlərinin müəyyən edilməsi, qadın hüquqlarının və azadlıqlarının bioloji əsasının müəyyən olunması və tədqiqata məhz bu baxımdan başlanılması, bir giriş kimi seçilmişdir.

Bu gün qadın hüquqlarının və azadlıqlarının konstitusiya əsaslarının tədqiq edilməsi, öyrənilməsi, bu hüquqların real olaraq həyata keçirilməsinin müasir problemlərinin həll edilməsi cəmiyyətin sifarişi kimi vacib və əhəmiyyətlidir.[1]

---

[1] Bax ətraflı: Поленина С. Международно-правовая защита прав женщин: принцип универсальности и культурного разнообразия; Кряжков В.А. Женщины и право (Обзор материалов конференции в Саратове), с. 133-138; Полиция. Женщина. Гуманизм (Международный научный конгресс женщин-полицейских), Научная жизнь, 1996, с.133-146; Салагай О.О. Дефиниция биологического пола человека в международном и национальном праве, Государство и право, 2011, №6, с.34-40; Лейбин В.М. Человек как глобально-уникальная проблема современности, Век глобализации 1/2011 130-139, Природа, общество, человек; Малеина М.Н. Правовой взгляд на проявление нетрадиционных способностей (качеств) человека, 1994; Малеина М.Н. Право на имя, Государство и право, 1998, №5, с.99-103; Романовский Г.Б. Юридическое определение момента

Təbiət insanı kişi və qadın cinsi kimi iki növə ayırmaqla əslində bioloji, sosioloji və hüquqi fərqliliyin ilkin əsasını qoymuşdur. Buna görə də əsrlər boyu kişi-qadın münasibətlərində fiziki gücü ilə tarixən üstünlük qazanan və fərqlənən kişinin rolu həmişə üstün olmuş, cəmiyyətdə və ailədə hakim mövqeyinin üstünlüyü ilə seçilmişdir. Bütün bunlara görə də tarixin müəyyən mərhələlərində, təbii olaraq qadın hüquqları uğrunda hərəkat başlamış və bu uzun illər ərzində böyük ümid və inadkarlıqla davam etdirilmişdir. Qadınlar təbiətin onlara verdiyi «zəiflik» meyarları ilə razılaşmamış, əqli, fiziki, mənəvi, əxlaqi və digər xüsusiyyətləri ilə güclü olduqlarını bəşəriyyətə sübut etməyə çalışmışlar. Yaradıcı varlıq olaraq ailənin və nəslin inkişafında qadınların əvəzsiz rolu cəmiyyətin, dövlətin və ailənin həyatında onun bacarıqlarının və imkanlarının son dərəcə geniş olduğunu önə çəkmiş və bütün bu istiqamətlərdə fasiləsiz mübarizə aparılmışdır. Etiraf edilməlidir ki, müəyyən uğurlu nəticələr əldə edilməsə də, lakin qadın hüquqlarının geniş təsbitində və real surətdə həyata keçirilməsində əsaslı dəyişikliklər, əsasən 20-ci əsrdə baş vermişdir. Bu proses indi də davam etməkdədir. Dünyanın inkişaf etmiş ölkələrində qadın hüquqları sahəsində böyük uğurlar əldə edilsə də, bununla belə dünyanın bəzi re-

---

возникновения права на жизнь, Государство и право, 2007, №11, с.71-78; Ковалев М.И. Право на жизнь и право на смерть Государство и право, 1992 № 7, с.68-75; Головистикова А.Н. Философское содержание категории «Жизнь» и ее реализация в праве, Государство и право, 2000, №6, с.30-39; Демичев А.А., Исаенкова А.В. Смерть с точки зрения права, Государство и право, 2008, №8, с.86-89; Смирнова Р.М. Правные возможности для женщин: опыт европейского сообщества, За рубежом, с. 143-152; Принципы, пределы, основания Ограничения прав и свобод человека по Российскому законодательству и международному праву, Государство и право, 1998, №8, с.39-70;№ 10, с.45-62; Реализация конституционного принципа равноправия полов, Государство и право, 1998, №6, с.25-37; Лунеев В.В. О равенстве и равноправии в современной России, Автономов А.С. Ценность Конституции, Государство и право, 2009, №3, с.5-11; Реализация конституционного принципа равноправия полов, Государство и право, 1998, №6, с.25-37; Жуков В.Н. Право как ценность, Государство и право, 2010, №1, с.21-34; Rüstəmov R. Din, genetika və ictimai irsiyyət baxımından qadin-kişi münasibətləri, Dövlət və din: ictimai fikir toplusu, Bakı, 2011, №4, s.87-104

gionlarda qadın hüquqlarının və azadlıqlarının təmin olunması sahəsində ciddi böhran indi də qalmaqdadır.[1]

Bu gün dünyada aparılan müxtəlif istiqamətli elmi tədqiqatlarda insan hüquqlarının və azadlıqlarının təmin olunması probleminə xüsusi önəm verilsə də, fəqət qadın hüquqlarının və ya kişi hüquqlarının müstəqil tədqiqat mövzusu kimi fərqli araşdırılması hallarına yalnız son illərdə rast gəlmək mümkündür. Normativ hüquqi yaradıcılıq baxımından da qadın hüquqlarına həsr olunmuş müstəqil və ayrıca qanunların qəbul edilməsi təcrübəsi kifayət qədər yeni və məhduddur. Daha geniş mənada vurğulamaq zəruridir ki, qadın hüquqları və azadlıqları ilə bağlı bir sıra beynəlxalq və dövlətdaxili hüquq normaları mövcud olsa da, bu gün nə milli, nə də beynəlxalq səviyyədə müstəqil olaraq «qadın hüquqları və azadlıqları haqqında» normativ hüquqi akt indiyə kimi hazırlanmamış və qəbul edilməmişdir.

Tarixən cəmiyyət – dövlət münasibətlərində insan amili həmişə aparıcı mahiyyət daşımışdır. Bu da onunla əlaqədardır ki, bəşəriyyət tarixində bütün hadisələrin və proseslərin əsasında, mərkəzində məhz İnsan – Fərd – Şəxsiyyət faktoru dayanır. Təsadüfi deyil ki, məhz insanın bir varlıq olaraq müxtəlif elm sahələri tərəfindən öyrənilməsi, tədqiq olunması zaman-zaman davam etdirilmişdir. C.Ceyms özünün «Şəxsiyyət» əsərində bu kateqoriyanının - şəxsiyyətin tərkib elementlərini fiziki, sosial və mənəvi elementlərdən ibarət olmaqla üç əsas hissəyə ayırırdı. Bizim hər birimizin bədən quruluşu bir varlıq olaraq şəxsiyyətin fiziki, cəmiyyətlə birlikdə və digər insanlara münasibətdə götürülmüş şəxsiyyət sosial, insanın mənəvi qabiliyyətinin, xüsusiyyətlərinin və təfəkkürünün vəhdəti isə şəxsiyyətin mənəvi aspektini əhatə edir.[2] Bu mənada qadının bir fərd, bir şəxsiyyət olmaqla konstitusiyon statusunun tədqiqi onun fiziki, mənəvi və sosial elementlərinin tədqiqinə zərurət yaradır.

---

[1] Həsənzadə S.B. «Heydər Əliyevin Azərbaycan qanunveciliyində qadın hüquqlarının təsbit olunması sahəsində rolu», Ulu Öndər Heydər Əliyevin 90 illiyinə həsr olunmuş Konfransın materialları, Bakı, may 2013, s.78-90

[2] Джеймс Дж.У. Личность, М., Политиздат, 1991, с.624

Yer üzündəki canlıların ən yüksək və ali təbəqəsi, tarixi proseslərin əsasında dayanan, maddi və mənəvi mədəniyyətin yaradıcısı və onun inkişafının subyekti olan insana indiyə kimi bitkin anlayış verilməmiş, onun mahiyyəti və səciyyəvi xüsusiyyətləri sona qədər araşdırılmamışdır. Eyni zamanda, insan cinsinə məxsus olan subyektlərin – qadının və kişinin mahiyyəti, ümumi və fərdi səciyyəvi xüsusiyyətləri tam araşdırılmamış, ümumiyyətlə bu məhfuma və onun arxasında dayanan insan obrazına – kişi və qadına bioloji, sosial, hüquqi, fəlsəfi və sair mənalarda mükəmməl aydınlıq gətirilməmişdir. Tədqiqatlarda insan - qadın, kişi hüquqları, onların ümumi və fərdi cəhətləri, mahiyyəti, yeri və rolu dəqiqləşdirilməmiş, ictimai-siyasi, humanitar və təbabət elmlərinin müxtəlif sahələri tərəfindən kompleks tədqiqatlara cəlb edilməmişdir. Bu baxımdan insan hüquqlarının, o cümlədən qadın hüquqlarının mahiyyətinin, hüquqi aspektlərinin və səciyyəvi xüsusiyyətlərinin tədqiq olunması son dərəcə vacib və aktual mahiyyət kəsb edir.[1] Burada xüsusi olaraq qeyd edilməlidir ki, məhz son illər insan hüquqlarının və azadlıqlarının genişləndirilməsi və bu problemin ayrı-ayrı istiqamətlərinin tətqiqi zamanı insan dedikdə, təbii olaraq həm də qadın nəzərdə tutulmuşdur. Bununla belə qadın hüquqlarının müstəqil tədqiqat mövzusu kimi əlahiddə araşdırılması son dərəcə vacib və əhəmiyyətlidir. Bu da onunla əlaqədardır ki, tarixən cəmiyyətdə qadının rolu real olaraq son dərəcə mühüm və əhəmiyyətli olmuşdur.

Cəmiyyətin aparıcı qüvvəsi kimi təqdim olunan kişilər yaratdıqları normativ hüquqi aktlarda əks cinsin – qadınların hüquqlarına və azadlıqlarına ümumiyyətlə, ya yer ayırmamış, ya da qadın hüquqlarının genişləndirilməsinə tarix boyu müqavimət göstərmişlər. Qadın hüquqlarının genişləndirilməsinə qısqanclıqla yanaşmış və qadınların cəmiyyətin həyatındakı rolunu yalnız ailədaxili fəaliyyət səviyyəsində mümkün hesab etmişlər. Bu sahədə müxtəlif dinlərin rolu olduqca geniş və təsirli olmuşdur. Bəşər tarixində ağıllı və müdrik qadınlar isə bu haqsızlıqla

[1] Zahidov B. İntihar (həyat və ölüm haqqında kriminoloji, sosioloji və psixoloji etüdlər), Bakı, 2012, s.14

barışmamış və zaman-zaman kişilər arasında da öz tərəfdarlarını tapmaqla öz mübarizələrini sona qədər davam etdirmişlər.

İnsan – cəmiyyət – dövlət münasibətlərində hüquqi tənzimlənmə, idarəçilik sistemində istisnasız olaraq ən çox ehtiyac duyulan fəaliyyət sahələrindən biri hesab olunur. Hüquq isə cəmiyyətdə qanunauyğun olaraq meydana gələn, sosial baxımdan qarşılıqlı fəaliyyətin elə bir xüsusi formasıdır ki, onun bütün iştirakçıları qarşılıqlı, ötürücü hüquqlara və vəzifələrə sahib olur və insanın tələbatlarını, maraqlarını dövlətin qadağan etmədiyi, yaxud yaratdığı ixtisaslaşmış orqanların simasında təminat verdiyi və mühafizə etdiyi xüsusi qaydada realizə edilir. Hüquq münasibəti cəmiyyətdə və dövlət həyatında tərəflərin konkret davranışını müəyyənləşdirir və ictimai təcrübəyə tənzimlənmə, qayda yaratma elementləri daxil etməklə sosial-iqtisadi əsasa və özünəməxsus hüquqi xüsusiyyətlərə malik olur. Bu baxımdan son illər insan-cəmiyyət-dövlət münasibətlərində diqqəti ən çox çəkən məsələlərdən biri, bəlkə də birincisi məhz insan hüquqlarının və azadlıqlarının tədqiqi, öyrənilməsi, onların etibarlı müdafiəsinin təmin olunması sahəsində səmərəli fəaliyyətin təşkilatı – hüquqi əsaslarının təkmilləşdirilməsi problemi hesab oluna bilər. Şəxsiyyətin hüquqlarının və azadlıqlarının hüquqi baxımdan qanunvericilikdə əks olunması, həyata keçirilməsi və müdafiəsi demokratik və hüquqi dövlətin ən vacib funksiyalarından biridir. Bu hüquqların mükəmməlliyi və müdafiəsi bəşər tarixində insanlığın ən ideal arzularından biri olmaqla, müasir hüquqi dövlətlər qarşısında da duran mühüm prioritetlərdən hesab edilir. Buna görə də vaxtı ilə, «tarixi - siniflər mübarizəsi tarixi» kimi səciyyələndirən tədqiqatçılar, siyasi xadimlər, nəzəriyyəçilər, bu gün tarixi – «insan hüquqları və azadlıqları uğrunda mübarizə tarixi» kimi xarakterizə etməkdə tamamilə haqlıdırlar. Təsadüfi deyildir ki, Birləşmiş Millətlər Təşkilatı, bəşər ailəsinin bütün üzvlərinə xas olan ləyaqətləri və onların bərabər və ayrılmaz hüquqlarını qəbul etməyi – azadlığın, ədalətin və ümumi sülhün təməli olduğunu, insan hüquqlarına laqeydliyin və həqarətin bəşəriyyətin vicdanını hiddətləndirən vəhşi əməllərə gətirib çıxardığını və insanların söz və əqidə azadlığına mane olacağı qorxusu və ehtiyaclardan azad olacaq bir dünyanın yaradılmasının insanların ən ali arzusu

kimi bəyan etdiyini, insanın müstəbidliyə və zülmkarlığa qarşı sonuncu vasitə kimi əl atmağa məcbur qalmasını təmin etmək məqsədi ilə insan hüquqlarının qanun hökmüylə qorunmasının zəruri olacağını, insanın əsas hüquqlarına, insan şəxsiyyətinin ləyaqətinə və dəyərlərinə, kişilərin və qadınların hüquq bərabərliyinə olan inamlarını təsdiq etdikləri və daha çox azadlıq şəraitində sosial tərəqqiyə və həyat şəraitinin yaxşılaşdırılmasına yardım göstərmək, insan hüquqlarına və əsas azadlıqlarına hamılıqla hörmət və riayət etmək niyyətini alqışlayaraq «İnsan hüquqları haqqında Ümumi Bəyannamə»ni - insan hüquqlarının və azadlıqlarının zəngin və mükəmməl formada ifadə edən beynəlxalq əhəmiyyətli Bəyannaməni elan etdi. Bu Bəyannamənin preambula hissəsində, insan hüquqlarına və azadlıqlarına dair yaranmış tarixi zərurətin beynəlxalq zəminləri, məqsədləri və vəzifələri mükəmməl formada öz ifadəsini tapmış və əsaslandırılmışdır.[1]

İnsanın dünyaya qadın və ya kişi cinsi olaraq gəlməsinin mahiyyəti alimləri həmişə dərindən düşündürmüşdür. Aydın olmuşdur ki, hər şeydən əvvəl insanın qadın və ya kişi cinsi kimi yaranmasının və formalaşmasının səbəbi, ana bətnində olan yumurta hüceyrəsinin X və ya Y xromosomunun hansı birindən mayalanmasından və baş verən fizioloji proseslərdən asılıdır. Orqanizmdə olan, heç bir digər hüceyrəyə oxşamayan yumurta hüceyrəsi, öz formasına və fiziologiyasına görə ana bətnindəki inkişaf prosesində ardıcıl, sistemli, həm də qanunauyğun dəyişikliklərə məruz qalır. Nəticədə gələcək insanın toxumaları və xüsusi funksiyalı orqanları formalaşmağa başlayır. Əslində isə, yumurta hüceyrəsinin inkişaf proqramının mənbəyi ana bətnindəki vakumdan, necə deyərlər kosmik fəzadan bəhrələnərək insanın qolokrafik modeli əsasında, gələcək konkret insanın spesifik obrazı formalaşmağa başlayır. İnsan embrionun bölünən hüceyrələri yalnız qoloqrafik nüsxənin həcmini doldurur və yumurta DNT spirialını öz informasiya mənbələri ilə, toxumaları gələcək insana xas olan spesifik, fizioloji xüsusiyyətlər, daxili və zahiri əlamətlər kimi səciyyəvi bir formada

[1] Beynəlxalq sənədlər toplusu, Bakı, 2005, I cild, s. 51-58

yetişdirir. Gələcək insanın şüurunu isə hərəkətə gətirən, fəzanın rezonans axınları nəticəsində öz informasiya göstəricilərini, valideynlərinin normasına uyğun gəlidiyi nöqtəyə, səviyyəyə qədər gətirib çatdıran inkişaf prosesləri baş verir. Embrionunun informasiya, energetika mənbəyi cinsi mənsubiyyətdən məhrum olsa da, onda gələcək şüur, məhz ana bətnində yaranır, inkişaf edir və baş verən digər fizioloji proseslər əsasında müvafiq olaraq qadın və ya kişi cinsi formalaşmış insan yaranır.[1]

Tədqiqatlar göstərir ki, qadın və kişi - «insan» adlanan varlığın iki tərəfini, iki fərdi cinsi ehtiva etsə də, zahiri və daxili baxımdan müəyyən oxşarlıq elementləri mövcud olsa da, mahiyyət etibarı ilə onlar heç də eyni deyillər. İnsan olaraq qadın və kişi, daxili və xarici bədən quruluşlarına, bioloji və fizioloji xüsusiyyətlərinə, cinsi fəaliyyətlərinə, vərdişlərinə, temperamentlərinə, duyğularına, sinir sisteminə, əqli və zehni qabiliyyətlərinə, yaddaşlarına, sosial və psixoloji davranışlarına, hadisələrə və proseslərə yanaşmalarına, cəmiyyətdəki və məişətdəki fərqli rollarına və digər çoxsaylı xüsusiyyətlərinə görə biri-birindən fərqlənirlər. Nəsil artırmaq üçün kişi cinsinə mənsub olan orqanlardan fərqli olaraq, ana təbiət qadının nəsil artırmaq üçün vacib olan orqanlarını möhkəm sümük müdafiə sistemi ilə etibarlı şəkildə, hər hansı xarici təsirlərdən və zədələrdən qoruyan bir sahədə, qarın boşluğunda yerləşdirmişdir. Bu anaya olan ilahi məhəbbətin əsl təcəssümü kimi də qiymətləndirilə bilər. Dünyaya uşaq gətirmək üçün vacib olan əlaqə zamanı kişi toxumlarının sayı bir milyonu keçdiyi halda, qadın orqanizmi bütün həyatı boyu cəmi dörd yüz ədəd yumurta hüceyrəsi hasil edir. Qadın yumurta hüseyrəsi olduqca mürəkkəb quruluşa malik olmaqla, nəsillərarası irsiyyət xüsusiyyətlərinin ötürülməsində əsas daşıyıcı funksiyasını yerinə yetirir. Qadın yumurtasının yaranması və inkişafı da kifayət qədər mürəkkəb olmaqla, yalnız insan orqanizminin normal temperatur şəraitində - 36,6 dərəcədə yetişir. İnsan genomundakı 23 cüt xromosomdan 22-nin insanin cinsiyyətinə heç bir dəxli yoxdur. Yalnız 23-cü xromosomun – qadındakı «XX», kişidəki «XY» xromosom-

[1] Малахов Г. Женские тайны, мужские проблемы, Москва, 2002, с.3-8

larının cinsiyyətlə bilavasitə əlaqəsi vardır. Kişi Y – xromosomu, qadın X-xromosomuna nisbətən olduqca az informasiya daşıyıcısıdır. Kişi toxumu yalnız eyni şansla «Y» və «X» daşıyıcısı olmaq imkanına malikdir. Əgər mayalanma zamanı yumurta hüseyrəsinə Y xromosomu keçərsə, dölün cinsinin oğlan, X xromosomu keçərsə isə qız olacağı müddəası elmi cəhətdən tam təsdiq edilmişdir. Oğlanlarda Y xromosomunun genealogiyasını genetik analizlə yoxlamaq mümkün olduğu halda, qızlarda X xromosomlarının hansının atadan, hansının anadan alındığını yoxlamaq və müəyyən etmək çətindir.[1]

Bu gün genetika elmi bir mənalı şəkildə təsdiq edir ki, bizim bir gözümüz öz mənbəyini atamızdan, digər gözümüz isə öz mənbəyini anamızdan alır. Övlad olaraq atamızın və anamızın bütün müsbət və mənfi xüsusiyyətləri, əlamətləri bizim simamızda, canımızda və ruhumuzda özünü birbaşa təcəssüm etdirir. Hər gen cütünün bir surəti anadan, digər surəti isə atadan qaynaqlanır. Əgər şəklimizin sol yarısından – üzün sol yarısından iki nüsxə götürüb birini güzgüdə çevirib bir bütöv üz-sima yaratsaq anamıza, bacımıza, sağ tərəfdən eyni qaydada qurama isə bizi müvafiq olaraq atamıza və ya qardaşımıza oxşacadaqdır. Beynin sol yarımkürəsi kişi – ata bazisindən formalaşırsa, sağ

---

[1] Кайданов Л.З. Генетика популяций. Москва, Изд-во «Высшая школа», 1996, с.111-113; Сингер М., Берг П. Гены и геномы: В 2 т. М.: Мир, 1998, т. 1,2, с.46-47; Льюин Б. Гены: Пер. с англ. – М., Мир, с.33-34; Малахов Г. Женские тайны, мужские проблемы, Москва, 2002, с.1-21; Айала Ф. Кайнер Дж. Современная генетика: В 3 т. М.: Мир, 1987-1988, т.1-3, с.121-125; Дубинин Н.П., Карпец И.И., Кудрявцев В.Н. Генетика. Поведение. Ответственность, Москва, 1982, с.195; Дубинин Н.П. Наследование биологическое и социональное// журнал «Коммунист», 1980, №11, с.60; Кузницева Н.Ф., Лейкина Н.И. Криминалический аспект соотношения соционального и биологического// Советского государство и право, 1977, №9; Герцензон А.А. Против биологических теории причин преступности// Вопросы предупреждения преступности, М., 1966, №4; Богданов В. Преступность в крови// Российская газета, 2008 30 октября; Голоднюк м.Н. Некоторые вопросы женской преступности// Вестник МГУ, 1978, №1; Сеченов И.М. Рефлексы головного мозга, М., 1961, с.89; Холлигер В. Человек и агрессия, М., 1975, с.129; Rüstəmov R. Din, genetika və ictimai irsiyyət baxımından qadin-kişi münasibətləri, Dövlət və din: ictimai fikir toplusu, Bakı, 2011, №4, s.87-104

yarımkürəsi isə qadın – ana təməlindən formalaşır. Hər bir yarımkürə bədənin əks tərəfindəki orqan, əza və ətrafları idarə edir.[1]

Ümumiyyətlə, qadın və kişi cinsi bioloji, fizioloji, psixioloji, genetik, sosial və bir çox digər xüsusiyyətlərinə görə fərqli mahiyyət daşıyırlar, hətta onlar vahid «insan» adı altında təmsil olunsalar da və ya ilk baxışda oxşar görünsələr də təhlillər göstərir ki, hər iki cins biri-birindən birmənalı şəkildə fərqlidirlər. Bunların hər birinə – qadına və kişiyə indiyə qədər müstəqil anlayışlar verilməsi ənənəsi hələlik ki, elmə məlum deyildir və onların fərqindən danışarkən bir qayda olaraq tədqiqatlarda çox vaxt cinsi fərqə həmişə üstünlük verilmişdir. Lakin elə ən qədim hüquq abidələri hesab edilən dini kitablarda - Zəburda, Tövratda, İncildə, Quranda qadına və kişiyə fərqli münasibət az və ya çox dərəcədə əks etdirilmişdir. İncildə və dünyanın ən qədim eposu sayılan «Bilqamış» dastanında kişinin və qadının ayrı – ayrı cins olaraq Allah tərəfindən yaradıldığı, xəlq edildiyi göstərilmişdir. Orada qeyd edilmişdir ki, Adəm və Həvva ilk insanlar olaraq yaradıldıqdan sonra, onlar arasında mehr yarandı, ünsiyyətə girərək ər-arvad kimi yaşamağa başladılar. Bu da kişi – qadın münasibətlərinin başlanğıcı, ilk əvvəli mabədi hesab oluna bilər. Qədim Şumer əfsanələrinə görə Göy (An) və Yer (Ki) arasında yaranmış münasibətlərdən Engül və Enki tanrıları

[1] Кайданов Л.З. Генетика популяций. Москва, Изд-во «Высшая школа», 1996, с.111-113; Сингер М., Берг П. Гены и геномы: В 2 т. М.: Мир, 1998, т. 1,2, с.46-47; Льюин Б. Гены: Пер. с англ. – М., Мир, с.33-34; Малахов Г. Женские тайны, мужские проблемы, Москва, 2002, с.1-21; Айала Ф. Кайнер Дж. Современная генетика: В 3 т. М.: Мир, 1987-1988, т.1-3, с.121-125; Дубинин Н.П., Карпец И.И., Кудрявцев В.Н. Генетика. Поведение. Ответственность, Москва, 1982, с.195; Дубинин Н.П. Наследование биологическое и социональное// журнал «Коммунист», 1980, №11, с.60; Кузницева Н.Ф., Лейкина Н.И. Криминалический аспект соотношения соционального и биологического// Советского государство и право, 1977, №9; Герцензон А.А. Против биологических теории причин преступности// Вопросы предупреждения преступности, М., 1966, №4; Богданов В. Преступность в крови// Российская газета, 2008 30 октября; Голоднюк м.Н. Некоторые вопросы женской преступности// Вестник МГУ, 1978, №1; Сеченов И.М. Рефлексы головного мозга, М., 1961, с.89; Холлигер В. Человек и агрессия, М., 1975, с.129; Rüstəmov R. Din, genetika və ictimai irsiyyət baxımından qadin-kişi münasibətləri, Dövlət və din: ictimai fikir toplusu, Bakı, 2011, №4, s.87-104

doğuldu və bununla da insan nəsli yaranıb inkişaf etməyə başladı. Sonralar qadağan edilmiş meyvələrə tamah gösərən Enki tanrısı günah əməlinə görə cənnətdən qovuldu. Rəvayətə görə onun bədəninin səkkiz hissəsindən, səkkiz şəfaverici vasitə, qabırğa hissəsindən isə Minti ilahəsi- həyat yoldaşı kimi yaradıldı. Bu da onu göstərir ki, kişinin qadının qabırğasından yaradılması müddəası bir ideya kimi hələ qədim Şumer rəvayətlərində belə öz əksini tapmışdır. İncildə isə bundan fərqli olaraq, qadının kişinin qabırğasından yaradılması müddəası irəli srülmüşdür. İncildə insanın iki cinsi özündə birləşdirən varlıq kimi yaradıldığı müddəası öz əksini tapmış, kişi bütün yaranışın «tac»ı kimi təqdim edilmiş və qadının onun qabırğasından yaradıldığı göstərilmişdir. İnsan adlanan bu varlıqların – qadının və kişinin fərqli yaranışı, onların heç də biri-birinin eyni olması demək deyil, fərqli və müəyyən mənada əksikliklərin vəhdəti kimi vahid bir adda, «insan» kimi yaradılması və təşəkkül tapması da müəyyən bir məntiqə, qanunauyğunluğa söykənmişdir. Belə ki, antik fəlsəfədə göstərildiyi kimi, dünyada hər şeyin ikili mahiyyəti olduğu kimi, qadın və kişi də fərqli mahiyyət daşıyırlar. Bu da ondan irəli gəlir ki, tarixən yalnız biri-birinə zidd olan qüvvələrin yeni həyatın başlanğıcı və inkişafı üçün əsas ola bilməsi müddəası elmdə aparıcı mahiyyət daşımışdır. Çünki qadın və kişi fərqliliyi olmadan, bu gün insan nəslinin inkişafının mümkünsüz olması müddəası artıq elm tərəfindən birmənalı şəkildə təsdiq edilmişdir. Bu mənada dünyanın – insanlığın davamı və inkişafı, sonradan birmənalı şəkildə öz təsdiqini tapmış məntiqi mühakimələrə əsaslandığı heç bir şübhə doğurmur. Belə ki, həyatın dialektik inkişafının məğzində məhz əksliklərin vəhdətinin və mübarizəsinin dayandığı, əslində bununla bir daha etiraf edilir. Bu gün müasir elmin inkişafı tam təsdiq edir ki, mayalanmış insan rüşeyminin ilkin mərhələsində faktiki olaraq cins olmur. Əslində o, cinssiz olaraq, ümumi bir insan rüşeymi kimi özünü göstərir və bu rüşeym beş həftədən sonra öz cinsi əlamətlərini, özününün ilkin elementlərini formalaşdırmağa başlayır. Doqquz həftəlik dölün cəmi 2 qram çəkisi, 3 sm uzunluğu olmasına baxmayaraq, mikroskop altında gələcək kişinin və ya qadının ilkin əlamətlərini müşahidə etmək mümkündür. Artıq hamiləliyin dördüncü ayından sonra

dölün cinsiyyətini - qız və ya oğlan olacagını həkimlər müəyyən edə bilirlər. Hətta bu gün elmi fəaliyyət nəticəsində sübuta yetirilmişdir ki, ana bətnində olan rüşeymin inkişafının ilkin mərhələsində dölün gələcəkdə qız və ya oğlan olacağına stimul vermək, istiqamətləndirmək, təsir göstərmək, tənzimləmək, necə deyərlər idarə etmək artıq reallığa çevrilmişdir. Qız doğularkən oğlana nisbətən cəmisi 25 qram yüngül olur. Bu fərq sonralar da yaş nisbətinə görə davam edir. Yetkin qadının ürəyi kişinin ürəyi ilə müqayisə də həcmcə kiçik olur. Qan dövranı miqdarca azlıq təşkil edir, nəfəs sisteminin imkanları geri qalır. Qadın orqanizminin bütün funksional sistemi, xolestrin mübadiləsi istisna olmaqla, öz zəifliyi ilə seçilir. Buna görə də kişinin qan damarlarında xolestrin daha çox yığılıb qalır və nəticədə qadınlara nisbətən kişilərdə ürək-damar xəstəlikləri əhəmiyyətli dərəcədə çox olur. Kişilərdə sümüklərin ölçüləri və əzələ kütləsi çox olduğuna görə o, fiziki cəhətdən daha güclü olur. Qeyd edilməsi zəruridir ki, on yaşadək olan qızların qol qüvvəsi eyni yaşlı oğlanlara nisbətən artıq olmasına baxmayaraq, sonralar bu fərq oğlanların xeyrinə əhəmiyyətli dərəcədə artır və dəyişir. Statistik təhlillər göstərir ki, bütün dünya ölkələrində qadınların orta yaş ömrü kişilərə nisbətən daha çox olur. Bu da kişilərin payına düşən fiziki işin ağırlığı, spirtli içkilər, tütün qəbulu, zərərli vərdişlərin təsiri və digər bu kimi mənfi amillərlə sıx bağlıdır.

Təhlillər göstərir ki, kişinin və qadının əqli qabiliyyətlərində, başında və beynində belə aşkar fərqli cəhətlər vardır. Qadınların intusiya imkanları geniş olur və onlar kifayət qədər emosionallıqları ilə seçilirlər. Qadınlar həyat münasibətlərində və əlaqələrində özləri üçün mənəvi qida almaq imkanına üstünlük verdikləri halda, kişilər maddi tərəfə daha çox diqqət yetirirlər. Onlar öz istedadlarını poeziyada və təsviri incəsənətdə reallaşdırdıqları halda, bəstəkarlıq istedadı zəif inkişaf edir, özlərinə məlum olan həqiqətləri üzə vurmağa, ailələrinin və ya münasibətlərinin korlanacağı, dağılacağı qorxusu ilə gizlətməyə meylli olur, məkrlilik, hiyləgərlik bacarığı ilə fərqlənirlər. Kişiləri pis xəbərlər, peşə uğursuzluqları, maddi çətinliklər, qadınları isə tənhalıq, ailə narazılıqları, uşaqlarla bağlı problemlər daha çox narahat edir. Qadınları sevgidə məhəbbət, nəzakət, diqqət və hörmət maraqlandırırsa,

kişiləri öz vaxtlarını zövqlə keçirmək, şəhvət hissi və şöhrətpərəstlik xüsusiyyətləri daha çox cəlb edir.[1]

İslam dininə görə Allah dünyanı əvvəl yaratmış, sonra isə insanı xəlq etmişdir. Bu mənada Qurani-Kərimin «əl-Hicr» surəsinin 26-cı ayəsində deyilir: «Biz insanı quru - (toxunduqda saxsı kimi səs çıxaran) və qoxumuş (və ya torpaqdan dəyişib başqa şəklə düşmüş) qara palçıqdan yaratdıq!»

«... (ya Peyğəmbər!) xatırla ki, o zaman sənin Rəbbin mələklərə belə demişdir: «Mən palçıqdan bir insan (Adəmi) yaradacağam, onu tamamlayıb (insan şəklinə salıb) Öz ruhumdan (Özümün yaratdığım ruhdan) üfürən kimi ona səcdə edin»(31, əl-Hicr surəsi)

Dini kitablarda qadın kimi təqdim edilən Həvva hər şeyi bilməyə, öyrənməyə can atan varlıq kimi təsvir edilir. Bu da qadın psixologiyasını, xislətini, onun istənilən hadisələrə və proseslərə daxilən marağını, hər şeyi öyrənmək və bilmək həvəsini xarakterizə edən və fərqləndirən tipik səciyyəvi qadın keyfiyyətlərdən hesab oluna bilər. Kişi kimi təqdim edilən Adəm isə əksinə, sadəlövh, çox passiv və primitiv formada – «gil-palçıq parçası» kimi təqdim edilir. Elə bunun nəticəsidir ki, ilahi qaydaları pozaraq Həvva qadağan olunmuş meyvəni dadıb yeməklə dəyişir və Adəmi də yoldan çıxarmaqla qoyulmuş qadağaları pozur. Həvvanı çılpaq və cazibədar bir xanım kimi görən Adəm, kişilər üçün səciyyəvi olan bir hal keçirərək sevib-sevilmək eşqi ilə yanır, alovlanır. Nəticədə Allahın qoyduğu qaydalara əməl etməyən Həvvanın özbaşına hərəkətləri, onun bir növ şeytanın felinə uyaraq yoldan çıxması, Həvvanın simasında qadın nəslinə nifrət yaradır və zaman-zaman Həvvanın irsi davamçıları olan qadınların lənətlənməsinə gətirib çıxarmışdır. Başqa sözlə bu rəvayət ilkin dövrdə qadının kişi üzərində mövqe üstünlüyünü göstərir və cəmiyyətin inkişaf tarixində qadın, «kişini yoldan çıxaran», «qoyulmuş qaydalara əməl etməyən» varlıq təəssüratı yaradır. Xristianlıq dinində qadınların hüquqları bir qayda olaraq məhdudlaşdırılmışdır. Məhz buradan da qaynaqlanaraq Avropanın müxtəlif ölkələrində qadınların «murdar olmaları» haqqında fikir for-

[1] Bayramov Ə.S., Əlizadə Ə.Ə. Psixologiya, Bakı, 2000, s.74

malaşmış və dini kitablarda qadınların müqəddəs «İncil»ə toxunması yasaq edilmişdir. Demokratiyanın beşiyi olan Fransa kimi bir ölkədə hələ 18-ci əsrdə «Qadın insandır, yoxsa Şeytan?» adlı mövzu ətrafında elmi konfransın keçirilməsi dediyimizə nümunə ola bilər. Ümumilikdə isə demokratiya, azadlıq, qadın hüquqları və mənafeləri uğrunda ardıcıl və qətiyyətli mübarizə aparılmasına baxmayaraq 19-cu əsrin sonlarına qədər olan müddətdə xristian aləmində qadın hüquqları sahəsində uğurlu heç bir nəticə əldə etmək mümkün olmamışdır.

Tarixi məxəzlər və arxeoloji qazıntılar bəşəriyyətin ilkin dövründə ibtidai formada da olsa, ailənin idarə olunmasında, ərzaq təminatında, ocağın qorunmasında, nəslin artırılmasında, uşaqların böyüdülməsində hakim mövqenin anaya – madərşaha məxsus olduğunu sübuta yetirir. Belə ki, İsveç hüquqşünas alimi, professor İohan Bahofen Yakob (alm. Johann Jakob Bachofen, 1815-1887) 1861-ci ildə «Analıq hüquq nəzəriyyəsi» adlı əsərində arxeoloji qazıntıların və aparılan elmi tədqiqatların nəticəsində hələ patriarxal, yəni ata hökmranlığı dövründən əvvəl ana hökmranlığının, yəni madərşahlığın mövcud olduğunu sübuta yetirmişdir. Oxşar mövqe alman alimi Fridrix Engelsin «Ailənin, xüsusi mülkiyyətin və dövlətin mənşəyi» əsərində də öz təsdiqini tapmışdır. Bir çox arxeoloqlar da dünyanın müxtəlif ölkələrində apardıqları qazıntılar zamanı ana hökmranlığının tarixən mövcud olması nəticəsinə gəlmişlər. Sonralar təbiətin və cəmiyyətin inkişafında əhəmiyyətli rol oynamış əmək bölgüsünün təşəkkülü, istehsal alətlərinin və vasitələrinin inkişafı, əmək məhsullarının artması, ilkin mülkiyyət münasibətlərinin yaranması müxtəlif səbəblərə əsaslanan qəbilələrarası ziddiyyətlərin və münaqişələrin, amansız təbiətlə mübarizənin kəskinləşməsi, fiziki gücün üstünlüyü hesabına əldə edilən uğur, qələbə, maddi nemətlər uğrunda mübarizə tarixi, cəmiyyətdə kişilərin rolunun əhəmiyyətli dərəcədə artırılmasına stimul vermiş və sanki qadının rolu arxa cəbhəyə, ikinci sıraya keçmişdir. Bununla belə, qədim dinlərdə və rəvayətlərdə qadının rolu bir ana kimi çox vaxt müqəddəsləşdirilmiş, qədim şumerlər qadını- ananı hər şeydən – vardan, dövlətdən, övladdan belə üstün tutmuşlar. Qədim şumer təfəkkürünə görə həyatda hər şey qazanmaq, əldə etmək olar, ancaq ananı yox. Buna görə də ana müqəddəs

hesab olunmuş, analıq ləyaqəti, analıq haqqı hər bir övlad üçün, hansı cinsə mənsub olmasından asılı olmayaraq əzəli və əbədi olmuşdur.

Qədim yunanlarda Fidiy, Poliklet və Kresilay kimi heykəltəraşların Artemida məbədinin sütunlar üzərində yaratdıqları gözəl, cazibəli qadının sağ döşü (süd vəzisi) kəsilmiş vəziyyətdə təsvir edilmişdir. Bu da onunla əlaqədar idi ki, antik dövrdə qız uşaqlarının sağ süd vəzisi yandırılaraq kəsilirdi ki, amansız döyüşlər zamanı oxun yayını çəkərkən döşləri ona mane olmasın. Bəlkə bu fakt cəmiyyətin bütün ağırlığını öz üzərində daşımaq missiyasının aparıcı qüvvəsi kimi ananın - madərşahın bir varlıq olaraq, qadın təkamülünün ibrətamiz nümunəsi olmaqla onun keşməkeçli taleyi haqqında məlumat verir.

Ümumiyyətlə qadının və kişinin genetik, bioloji, fizioloji xüsusiyyətləri, davranış və düşüncə tərzləri, intellektuallıq əmsalları, əqli kamillik səviyyəsi, sosial təyinatı əhəmiyyətli dərəcədə fərqlidir. Qadın məntiqi, kişi məntiqindən kəskin surətdə seçilir. Öz fəaliyyətində qadın həmişə nə istədiyini bilir. Qadın düşüncəsinə görə əgər məqsədə çatmaq qarşıya qoyulmuşdursa, o zaman məqsədə çatmaq yolları ikinci dərəcəli əhəmiyyət kəsb edir. Bu gün feminizim ictimai hərəkatı qadınların cəmiyyətdə rolu, hüquqları və vəzifələri ilə məşğul olan bir fəlsəfi təlim, hərəkat kimi müəyyən uğurlara nail olsa da, müxtəlif mənfi təzahürlərin də meydana çıxmasına səbəb olmuşdur. İnsanlar cinsi həyatın təbii gedişinə ən müxtəlif üsullarla və vasitələrlə müdaxilə etmək imkanlarına sahib olmuşlar. Qadınlar hamiləliyin qarşısını müxtəlif üsullarla almağa çalışır, rüşeymin hansı cinsə mənsub olmasını bildikdən sonra müəyyən istiqamətlər seçir, ona daha çox sərf edəni – oğlanı və ya qızı seçim edərək saxlamaq imkanı və ya əksinə, məhv etmək imkanı əldə edirlər. Qadın orqanizmi heç nəyə baxmadan hormon ifraz etmək keyfiyyətini qoruyub saxlayır. O bu fəaliyyətini müəyyən yaşa qədər davam etdirmək iqtidarında olur. Məhz belə əməliyyatlar və müdaxilələr nəticəsində, cinsi əlaqənin intensivliyinə baxmayaraq, hamiləlik baş vermir və populyasiyada gender disbalansı yaranır. Seksual aktiv qadınların sayı çoxalır, onların cinsi cüt tapmaq şansı azalır. Qadın aqressivləşir və bu aqressivlik kişiyə doğru istiqamət alır. Bu zaman qadının cinsi instinkti nə baş verdiyini dərindən «anlamır», nəticədə qadının

cinsi meyli öz cinsindən olan fərdlərə doğru yönəldilir. Beləliklə də lesbiyanlıq kimi xoşagəlməz təzahürlər yaranmağa başlayır. Cinsi cəhətdən fəal qadınların çox olması kişilərdə «cinsi toxluğ»un yaranmasına gətirib çıxarır, onlar passivləşir və oyanma vəziyyətinə gəlmək üçün müxtəlif süni dərman vasitələrindən, preparatlarından istifadə etmək məcburiyyətində qalırlar. Bu zaman qadın aqressivliyinin yaratdığı qorxu hissi kişiyə öz zəifləmiş cinsi meylini başqa səmtə yönəltməyə təhrik edir. Bütün bunların nəticəsində də qadınlar və kişilər arasında müxtəlif cinsi pozğunluqlar, anormal hadisələr və proseslər baş verir. Yaxud uşaq doğumunu tənzim etmək üçün qadınlar müxtəlif vasitələrdən istifadə edir, doğuşun qarşısını alır, uşaqların sayını və cinsini tənzim edir və bəzən də genetik cəhətdən qüsurlu doğulan zəif fərdlər nəsil törətmədən tələf olurlar. Öz körpəsini itirən ana ruhi sarsıntılar keçirir və bu sarsıntının təsiri altında yenidən uşaq doğmağa həvəs qalmır. Dünyaya qüsurlu gələn körpələrin yaşamaq imkanları müasir tibbi texnologiyalardan istifadə etməklə genişlənir və qüsurlu doğulan uşaqların sayı çoxalmağa başlayır. Bu gün seksual pozğunluqlar kontekstində və qüsurlu yanaşmalar nəticəsində təəssüf ki, homoseksualizm yanlış olaraq orqanizmin xüsusiyyəti kimi təqdim edilir. Son illər feministlər kişinin və qadının xarici görünən fərqlərinin aradan qaldırılmasını vacib hesab edir və bu cəhətə xüsusi diqqət yetirirlər. Bəzi kişilər özlərini «üçüncü cins»in nümayəndələri kimi aparmağa xüsusi meyl və həvəs göstərirlər. Uniseks geyim qaydasının və geyim paltarlarının təbliğinə geniş yer ayrılır. Homoseksualizmdən başqa uniseksin ən pozğun təzahür formalarından biri kimi özünü göstərən karnaval mədəniyyəti mahiyyət etibarı ilə transvestizm fenomeninin artmasına səbəb olur. Bu fenomenin əsas mahiyyəti fiziki cinsin xarici əlamətlərini minimum səviyyədə aşağı salmaqla qadın və kişi arasındakı fərqin aradan qaldırılmasına istiqamətlənmişdir. Bu günki meyllər və reallıqlar belə nəticəyə gəlməyə əsas verir ki, dünyamız feminizasiyalaşmaqdadır. Bu baxımdan Məhəmməd peyğəmbərin - «özünü qadına oxşadan kişini və özünü kişiyə oxşadan qadını lənətləməsi» tamamilə haqlı hesab edilməlidir. Xristianlıqdan fərqli olaraq islam qadının və kişinin Allah qarşısında bərabər olduğunu və bərabər hüquqlu yaradıldı-

ğını təsbit edir. «Mömin olub yaxşı işlər görən – Allaha itaət edən kişiyə və qadına (dünyada və axirətdə) xoş həyat nəsib edəcək və etdikləri ən yaxşı əməllərə görə mükafatlarını verəcək» kimi müddəalar islamın son dərəcə mütərəqilliyini və müasirliyini şərtləndirir. Ümumiyyətlə, qadın cinsinə mənsub olaraq doğulmuş körpələrini ən amansız üsullarla qətlə yetirən ərəb dünyasında Məhəmməd peyğəmbərə (s.ə.s) tanrıdan daxil olan müqəddəs kəlamların təsiri altında birdən-birə kəskin surətdə dəyişməsi islam dininin dünyəvi və fəlsəfi mahiyyətini və əhəmiyyətini dərindən başa düşmək üçün olduqca ibrətamizdir. Məhz İsam dini qadına və anaya ən yüksək dəyər və hörmət təcəssüm etdirərək, «cənnətin anaların ayağı altında olması» kimi böyük bir qiymət vermiş, ana, qadın, qız ictimai mühitdə və ailədə verilən yüksək dəyəri ilə seçilmişdir.[1]

Aparılan təhlillər qadın və kişi münasibətlərini ən müxtəlif istiqamətlərdə tədqiqi və təhlili təsdiq edir ki, onlar fərqli bioloji varlıq olmaqla yanaşı, cəmiyyətdə və ictimai siyasi proseslərdə fərqli mövqeləri ilə seçilirlər. Qadının cəmiyyətdəki rolu haqqında danışarkən xüsusilə qeyd edilməlidir ki, bu gün bəşəriyyət insan cinsinin mövcudluğunda, artmasında, təşəkkülündə və təkamülündə qadına - anaya minnətdar olmalıdır. Qadın anadır, bacıdır, həyat yoldaşıdır, cəmiyyətin üzvüdür, maddi nemətlərin istehsalçısıdır, odun və ocağın keşikçisidir. Qadın – ana, kişilərdən fərqli olaraq dünyaya insan - övlad, nəsil gətirmək qabiliyyətinə malikdir. Ailənin qorunub saxlanılması, dünyaya uşaq gətiril-

[1] Bax ətraflı: Дубинин Н.П., Карпец И.И., Кудрявцев В.Н. Генетика. Поведение. Ответственность, Москва, 1982, с.195; Дубинин Н.П. Наследование биологическое и социональное// журнал «Коммунист», 1980, №11, с.60; Кузницева Н.Ф., Лейкина Н.И. Криминалический аспект соотношения соционального и биологического// Советского государство и право, 1977, №9; Герцензон А.А. Против биологических теории причин пресступности// Вопросы предупреждения пресступности, М., 1966, №4; Богданов В. Преступность в крови// Российская газета, 2008 30 октября; Голоднюк М.Н. Некоторые вопросы женской пресступности// Вестник МГУ, 1978, №1; Сеченов И.М. Рефлексы головного мозга, М., 1961, с.89; Холлигер В. Человек и агрессия, М., 1975, с.129; Rüstəmov R. Din, genetika və ictimai irsiyyət baxımından qadin-kişi münasibətləri, Dövlət və din : ictimai fikir toplusu, Bakı, 2011, №4, s.87-104

məsi, ona süd verilməsi, böyüdülməsi, inkişaf etdirilməsi, tərbiyə olunması, insan cinsinin bioloji fərqliliyinin qorunub saxlanılması məhz ananın, qadının adı ilə bağlıdır.

Təbiətdə və cəmiyyətdə qadın cinsinə mənsub olan fərdin öz istəyi ilə əks cinslə – kişi ilə könüllü olaraq ünsiyyətə girməsi, ər-arvad münasibətlərində olması, nəticədə bətnində uşaq yetişdirməsi, dünyaya gətirməsi, doğması, ona döşlərindən süd verib bioloji inkişafının təmin etməsi, bir ana kimi nəvaziş və qayğı göstərməsi, tərbiyə edib yetişdirməsi, gələcək həyata hazırlaması və sair bu kimi maddi, mənəvi, bioloji və əxlaqi xüsusiyyətlərin məcmusu, özündə analıq hüququnun mahiyyətini təşkil edir və ana olmaq keyfiyyətlərini ehtiva edir. Əslində bu proseslər bir sistem kimi analıq hüququnun səciyyəvi elementlərini özündə birləşdirir. *Analıq hüququ* son dərəcə vacib və bəşəri mahiyyət daşıdığından hesab edirəm ki, Konstitusiyada belə bir normanın – «analıq hüququ»nun müstəqil olaraq təsbit olunması bir çox problemlərin həllinə kömək etmiş olardı.

Normal vəziyyətlərdə analığın və ya analıq xüsusiyyətlərinin və geniş mənada bu fəaliyyətin kişidə və ya kişi cinsli şəxslərdə olması mümkünsüzdür.

Məhdud dünyagörüşlü tarixi proseslər və reallıqlar kişilərin bilavasitə səyi ilə qadının rolunu təəssüf ki, zaman-zaman azaltmış, qadınlar ən müxtəlif mənalarda təqib olunmuş, sıxıntılara məruz qalmış və cəmiyyətin sonrakı inkişafında həyat onları öz hüquqları uğrunda mübarizə aparmağa vadar etmişdir. Bu proses əsrlərlə ən müxtəlif coğrafi ərazilərdə, regionlarda, ölkələrdə, ictimai-siyasi quruluşlarda az və ya çox dərəcədə təkamül yolu keçmiş, cinslər arasında günü bu gündə bərabərlik, ideal vəziyyətdə təmin olunmamışdır. Buna görə də bu gün qadın hüquqlarının müstəqil fenomen kimi tədqiqi son dərəcə vacib və əhəmiyyətlidir. Hüququn subyekti kimi qadın hüquqlarının kompleks tədqiqi, hər şeydən öncə ən müxtəlif elm sahələr – biologiya, fiziologiya, genetika, antropologiya, psixologiya, təbabətin müxtəlif sahələri, fəlsəfə, hüquq, ictimai-siyasi elmlərin ən müxtəlif sahələri tərəfindən zaman-zaman əldə edilmiş elmi kəşflərə, təlimlərə, nəzəriyyələrə, baxışlara əsaslanaraq insana – o cümlədən kişiyə və qadına müstəqil

olaraq bir subyekt kimi, bioloji, sosial varlıq kimi konkret anlayış verilməsindən başlanmalıdır. Bu fenomenə indiyə kimi mükəmməl anlayış, definisiya verilməmişdir. Heç şübhəsiz, bu da insan hüquqlarının və azadlıqlarının, o cümlədən qadınla bağlı olan ən müxtəlif problemlərin, o cümlədən qadın hüquqlarının tədqiqində müəyyən çətinliklər yaratmışdır. Buna görə də, bizim fikrimizcə, müxtəlif elm sahələrinin apardığı tədqiqatlar, araşdırmalar, təhlillər və əldə olunmuş məlumatları məcmuu şəklində yekunlaşdırılaraq «insan»a bir varlıq kimi, onun biri-birindən fərqli cinsləri olmaq etibarı ilə «kişi»yə və «qadın»a ayrı-ayrılıqda müstəqil olaraq aşağıdakı təriflərin verilməsi məqsədəmüvafiq hesab edilməlidir.[1]

Beləliklə, yer üzündəki canlıların ən yüksək və ali təbəqəsi, tarixi prosesin, maddi və mənəvi mədəniyyətin yaradıcısı və inkişafının subyekti, həyatın digər formaları ilə genetik cəhətdən bağlı olan, əmək alətləri və maddi nemətlər istehsal etmək qabiliyyətinə, aydın nitqə, təfəkkürə, şüura, zəkaya, cəmiyyətdə ictimai-siyasi rola malik olan, fəal hərəkətlər edən, həyatın gözəlliklərindən, təbiətin ecazkarlıqlarından zövq almağı bacaran, bioloji, fizioloji, morfoloji, genetik, anatomik əlamətlərin məcmusunu özündə birləşdirən, öz nəslini artırmaq kimi bioloji funksiyanı yerinə yetirməyə qadir olan, biososial və intellektual varlıq – insan cinsi hesab olunur. İnsan kişi – erkək, və qadın – dişi kimi iki bioloji cinsdə təmsil olunur.

Təbiətdə, ailədə və cəmiyyətdə kişi kimi sosial rolu, anatomik, genetik, fizioloji, morfoloji, emosional, psixi və fiziki xüsusiyyətləri, cinsiyyət vəzilərinin erkək histoloji quruluşu, kişi cinsinə mənsub olan

---

[1] Дубинин Н.П., Карпец И.И., Кудрявцев В.Н. Генетика. Поведение. Ответственность, Москва, 1982, с.195; Дубинин Н.П. Наследование биологическое и социональное// журнал «Коммунист», 1980, №11, с.60; Кузницева Н.Ф., Лейкина Н.И. Криминалический аспект соотношения соционального и биологического// Советского государство и право, 1977, №9; Герцензон А.А. Против биологических теории причин пресступности// Вопросы предупреждения преступности, М., 1966, №4; Богданов В. Преступность в крови// Российская газета, 2008 30 октября; Голоднюк М.Н. Некоторые вопросы женской преступности// Вестник МГУ, 1978, №1; Сеченов И.М. Рефлексы головного мозга, М., 1961, с.89; Холлигер В. Человек и агрессия, М., 1975, с.129

hormanlar ifrazetmə qabiliyyəti, cinsi və hormonal xromosomları, özünəməxsus kişi orqanları olan, qadının dünyaya uşaq gətirmək sahəsindəki fəaliyyətində aktiv erkək rolu oynayan, habelə kişi kimi səciyyələndirilə bilən çoxsaylı digər xüsusiyyətlərin məcmusunu özündə ehtiva edən bioloji insan cinsi, kişi hesab edilir və bu kişi cinsinin əsas mahiyyətini təşkil edir.

Təbiətdə, ailədə və cəmiyyətdə qadın kimi sosial rolu, anatomik, genetik, fizioloji, morfoloji, emosional, psixi, fiziki xüsusiyyətləri, cinsiyyət vəzilərinin dişi histoloji quruluşu, qadın cinsinə mənsub olan hormanlar ifrazetmə qabiliyyəti, cinsi və hormonal xromosomları, özünəməxsus qadın cinsi orqanları olan, dünyaya uşaq gətirmək, ona süd vermək, analığın digər başqa keyfiyyətlərini özündə əks etdirən və ana kimi səciyyələndirilə bilən kompleks xüsusiyyətlərin məcmusunu özündə ehtiva edən bioloji insan cinsi isə qadın hesab olunur. Buna görə də fərdi mahiyyət daşıyan qadın cinsi və qadına mənsub olub hüquqların və azadlıqların beynəlxalq standartlarının müəyyən edilməsi və dövlətdaxili hüquq sistemində təsbit olunması müstəsna əhəmiyyətə malikdir. Təsadüfi deyil ki, beynəlxalq hüququn ən mühüm prinsiplərindən birini, dövlətlərin və beynəlxalq hüququn digər subyektlərinin insan hüquqlarına və azadlıqlarına hörmət etməsi prinsipi təşkil edir. Qadın hüquqlarının kişi hüquqları ilə bərabərləşdirilməsi, eyniləşdirilməsi, yaxud qadın hüquqlarının genişləndirilməsi uğrunda hərəkat, cinslərin bərabərliyinin təmin olunması sahəsində ictimai-siyasi təlimlər - feminizm və gender siyasəti bir çox ictimai-siyasi xadimləri öz ətrafında birləşdirsə də, apardığımız və yuxarıda şərh etdiyimiz müddəalar qadın və kişi bərabərliyinin bioloji, fizioloji, hüquqi, sosial və digər baxımdan mümkünsüz olduğunu tam təsdiq edir. Qadınların həyat tərzində qızlıq və ya dulluq mərhələsinin fərqləndirilməsinə də zərurət vardır. Qızlıq dövrü adətən 10-12 yaşdan başlayaraq, qadın cinsinə mənsub olan fərdin ərə getdiyi dövrə qədər olan müddəti əhatə edir. Bakirəlik mərhələsi kimi qiymətləndirilən bu dövr daha çox tanınmış və kübar ailələr üçün səciyyəvi olsa da, orta əsrlərdə bakirəlik tələbləri şəhərli qadınlara da tətbiq edilməyə başlanıldı. Dulluq isə sosial və hüquqi baxımdan ərə getmiş qadının həyat

yoldaşının ölməsindən və ya nikah münasibətlərinin pozulmasından sonrakı mərhələni əhatə edir. Hüquqi baxımdan qadının statusuna, hüquqlarına və vəzifələrinə müəyyən dərəcədə olsa da təsir göstərən qızlıq, bakirəlik və dulluq dövrü qanunvericilikdə tənzim edilməsə də, lakin uzun illərin adətləri, ənənələri, etik və əxlaqi dəyərləri bu məsələyə aydınlıq gətirmişdir.[1]

Qadının və kişinin təbiət tərəfindən bəxş edilmiş bioloji, fizioloji, sosial, genetik, psixoloji və digər çoxsaylı cəhətlərindəki kəskin fərq, feminizm və gender təlimlərinin illuziya olduğunu sübuta yetirir. Buna baxmayaraq, ailədə, cəmiyyətdə, dövlət həyatında qadının müstəsna rolu, dünyaya uşaq gətirmək kimi müstəsna yaradıcılıq fəaliyyəti, insan nəslinin inkişafında, maddi nemətlər istehsalında onun rolu qadın hüquqlarının aparıcı mahiyyətini təsdiq edir. Bu baxımdan qadın hüquqları, bütün mənalarda genişləndirilməli, cəmiyyətdə qadın, həm də ana olmaq etibarı ilə onun rolu, imkanları intihasız olmalıdır.[2]

---

[1] Gender terminlərinin izahlı lüğəti, Bakı, 2005, s.28, 139

[2] Həsənzadə S.B. Azərbaycanda qadın hüquqlanın bəzi səciyyəvi xüsusiyyətləri haqqinda, Hüquq elminin müasir problemləri: Azərbaycan Respublikasında insan hüquq və azadlıqlarının müdafiəsinin yeni tendensiyaları mövzusunda IV Respublika elmi-nəzəri konfransın materialları, 6-7 may 2014-cü il, Bakı, s.105-114; Həsənzadə S.B. İnsan hüquqları kontekstində qadının mahiyyəti və səciyyəvi xüsusiyyətləri, DİN Polis Akademiyasında BMT-nin Ümumdünya insan hüquqları bəyannaməsinin 65 illiyinə həsr olunmuş "Müasir dövrdə insan hüquqlarının təminatının aktual problemləri" mövzusunda beynəlxalq elmi-praktiki konfransın materialları, 2014, s.102-112; Həsənzadə S.B. Qadın hüquqları - insan hüquqlarının və azadlıqlarının tərkib hissəsi kimi, "Hüquq elminin müasir problemləri" mövzusunda III Respublika konfransının materialları, B., mart 14-15 may 2013, s.105-110; Həsənzadə S.B. Qadın və uşaq hüquqlarının qorunması aktual problem kimi, AMEA-nın Fəlsəfə, Sosiologiya və Hüquq İnstitutunun Elmi Əsərləri (hüquq seriyası). № 1 (18). B., 2012, s.259-264

# III FƏSİL

## QADIN HÜQUQLARI VƏ AZADLIQLARI: tarixi və müasir vəziyyəti

İnsan hüquqları və azadlıqları probleminin tədqiqində mühüm mərhələlərdən birini, məhz qadın və kişi hüquqlarının kompleks öyrənilməsi məsələsi təşkil edir. Bu problem bəşəriyyət tarixində həmişə diqqət mərkəzində olsa da, lakin qadın azadlığı uğrunda mübarizə tarixində fransız mütəfəkkirlərinin rolu əvəzsizdir. Fransa inqilabı qadın hüquqları uğrunda siyasi hərəkatın təşəkkülündə və inkişafında tarixi rol oynamışdır. Fransız utopik sosialisti Şarl Furye qadınlara siyasi hüquqlar uğrunda mübarizədə nəhayət ki, müstəqillik verilməsinin son dərəcə aktual olduğunu dərk edən ilk mütəfəkkirlərdən idi. Fransa Konstitusiyasının müəlliflərindən biri olan S.Kondorse kişi və qadın hüquqlarının bərabərliyinin vacibliyini qeyd etdiyi halda, hazırladıqları konstitusiya layihəsində qadınlara siyasi hüquqlar verilməsi müddəasını nəzərdə tutmamışdı.[1] Bununla belə, Fransanın 1791-ci il Dekretində qadınlara vərəsəlikdə, 1792-ci il Qanununda isə boşanmada kişilərlə bərabər hüquq nəzərdə tuturdu. Belə bərabərlik hüququ eyni zamanda Napaleonun Mülki Məcəlləsinə də daxil edilmişdir. Bütün bunlarla yanaşı qadınların siyasi hüquqlarının tarixi inkişafı, əsasən Avropa ölkələrində 19-cu əsrin sonu 20-ci əsrin əvvəllərindən etibarən genişlənməyə başlamışdı. Aparılan mübarizələr nəticəsində Şimali Avropa ölkələrində qadınların siyasi hüquqları əhəmiyyətli dərəcədə genişləndirildi. Keçən əsrin ilk onilliyində Norveçdə, sonra isə Danimarkada qadınlara aktiv seçki hüquqi ilə yanaşı, həm də müxtəlif qanunverici və icraedici orqanlara seçilmək hüququ da verilmişdir. Lakin əmək hüququ sahəsində qadınlarla kişilərin bərabərliyi ilk dəfə olaraq universal səciyyə daşıyan Millətlər Liqasının Statutunda öz təsbitini tapmış

---

[1] Шепкина Е. Женские движения в годы Франциской революции. Государственное изд-во «Петербург», С.-Пб. 1921, с. 84; Люшер Франсуа Конституционная защита прав и свобод личности, Москва, «Прогресс», «УНИВЕРС», 1993, с.6-11

oldu.[1] Qadınlarla kişilərin bərabərliyi hüququ geniş mənada ilk dəfə olaraq Birləşmiş Millətlər Təşkilatının Nizamnaməsində nəzərdə tuturdu. Qadın hüquqlarının elmi-nəzəri tədqiqatı sahəsində araşdırmalar da keçən əsrdə əhəmiyyətli dərəcədə genişləndirilmişdir. Problem müxtəlif ölkələrdə müxtəlif tədqiqatçılar tərəfindən araşdırılmasına baxmayaraq, bu məsələdə boşluqlar, ziddiyyətlər və öyrənilməli məsələlər həddindən çoxdur. Xüsusilə, Azərbaycan kimi öz müstəqilliyini, zaman etibarı ilə yeni bərpa etmiş ölkələrdə qadın hüquqlarının öyrənilməsi çox vacibdir. Belə ki, təhlillər cəmiyyətdə və ailədə baş verən proseslərdə qadınların yeri və rolu haqqında dərindən təhlil aparılmasının vacib olduğunu şərtləndirir.

İnsan hüquqlarının və azadlıqlarının əldə edilməsi uğrunda mübarizə tarixi bəşəriyyətin tarixi ilə üst-üstə düşür. Bu hüquqların tərkib hissəsi olan qadın hüquqları uğrunda mübarizə tarixi də kifayət qədər qədim və zəngin hadisələrlə doludur. Lakin bu hüquqlar və azadlıqlar haqqında danışarkən müasir günlərimizdə artıq təşəkkül tapmış hüquqlarından və azadlıqlarından klassik mənada danışmaq düzgün olmazdı. Bu hüquqların və azadlıqların müasir və yetkin təşəkkülü isə məhz keçən əsrin taleyinə düşmüşdür. Müasir dünyanın və yaşadığımız dövrün ən aktual və ən əhəmiyyətli problemlərindən biri olan insan və vətəndaş hüquqlarının və azadlıqlarının tarixi kifayət qədər zəngin və rəngarəngdir. Nəzəri baxımdan bu problemin tarixi qədim yunan demokratiyasının ilk çağlarına təsadüf edir. Başqa sözlə desək, «İnsan hüquqları»nın tarixi insanlığın tarixi qədər qədimdir. Bəşəriyyətin tarixi əslində, insan hüquqları uğrunda mübarizə tarixidir. Dünyanın ən dəyərli varlığı olan insan, ən qədim dövrlərdən başlayaraq, həmişə öz hüquqları və azadlıqları uğrunda mübarizə aparmaq fəaliyyəti ilə diqqəti cəlb etmişdir. Hələ eramızdan əvvəl 5 - 6-cı əsrlərdə qədim polislərdə insan hüquqları və onun yüksək səviyyədə təmin olunması ideyası və bunun uğrunda mübarizə öz uğurları ilə tarixə düşmüşdür. Lakin insan hüquqlarının, o cümlədən qadın hüquqlarının dünyada, bu gün fenomenal təzahür kimi formalaşmasında və təşəkkülündə bəşəriyyət qə-

[1] Карташкин В.А. Международная защита прав человека, Москва, 1976, с. 71

dim yunan, qədim Roma, sonrakı illərdə isə ingilis və fransız mütəfəkkirlərinə, onların yorulmaz fəaliyyətinə, zəngin elmi araşdırmalarına minnətdar olmalıdır. Dini kitablar istisna olmaqla insan hüquqları və azadlıqları ilə bağlı yazılı qanunların tarixi 13-cü əsrin əvvəllərinə təsadüf edir. Belə ki, İngiltərədə sahibkarlara tətbiq olunan verginin artırılmasına etiraz edən əhalinin təkidli tələbi ilə 1265-ci ildə ilk qanunverici orqan – Parlament yaradıldı. 1640-cı ildə yeni vergi siyasətinə qarşı bağlanan narazılıq burjia inqilabının baş verməsini sürətləndirdi. 1689-cu ildə monarx hakimiyyətinin məhdudlaşdırılmasını, parlamentin səlahiyyətlərinin artırılmasını təmin edən «Hüquqlar haqqında Bill»in qəbul edilməsi ilə yanaşı, İngiltərədə monarxiyalı respublikanın yaradılması təmin edildi. Corc Vaşinqtonun rəhbərliyi ilə baş verən üsyan İngiltərədən iqtisadi və siyasi asılılığı aradan qaldırmasına xidmət edirdi. Aparılan gərgin mübarizələr nəticəsində 1776-cı ildə koloniyalar İngiltərədən ayrılaraq «İstiqlal Bəyannaməsi»ni qəbul etdilər. Bu da koloniyalarda vergi siyasətinin düzgün aparılmamasının, əhalinin incidilməsinin, özbaşınalıq və sui-istifadə hallarının baş verməsinə etiraz əlaməti olaraq aparılan gərgin mübarizənin nəticəsi idi. Dünyanın bir çox ölkələrində olduğu kimi əhalinin iqtisadi maraqlarını kütləvi şəkildə pozmaq İngiltərənin həyatında və dövlət quruluşunda əsaslı dəyişikliklər ilə nəticələndi. Belə ki, İngiltərədə monarxın hüququnu məhdudlaşdırmaq, onu silki nümayəndəliklə birləşdirmək uğrunda mübarizə ilk öncə 1215-ci ildə «Böyük Azadlıqlar Xartiyası»nın (Magna Carta Libertatum) qəbul edilməsi ilə nəticələndi. Təsadüfi deyil ki, İngiltərə burjua quruluşunun formalaşması dövründə qəbul edilən 1628-ci il «Hüquqlar haqqında Petisiya» bu dövrün mühüm sənədlərindən biri kimi tarixə düşmüşdür. Bu Petisiya, təbəələri Kral Administrasiyasının özbaşınalığından müdafiə etməyi tələb edən müəyyən vəzifələri, məhz Krala həvalə edirdi. İnsan hüquqlarının təmin edilməsi yolunda növbəti addım 1678-ci ildə «Habeas korpus Aktı»nın qəbul edilməsi oldu. Burada şəxsiyyətin toxunulmazlıq təminatları, «təqsirsizlik prezumpsiyası» prinsipi və şəxsiyyətin hüquqlarının müdafiəsi üçün zəruri olan digər ən mühüm müddəalar nəzərdə tutulur-

du. Güclənən burjuaziya ilə torpaq sahiblərinin hökmran təbəqəsi arasında kompromisi, qarşılıqlı güzəşti və səmimi barışığı möhkəmləndirən və konstitusiyalı monarxiyanı təsdiq edən akt isə 1689-cu il tarixli «Hüquqlar haqqında Bill» adlı sənəd oldu. Bu sənəddə parlamentə geniş hüquqlar verilir, onun icazəsi olmadan qanunların təsirini dayandırmaq, monarxın taxt-tacı xeyrinə vergi və rüsum tutmaq, sülh dövründə ordu saxlamaq kimi məsələlər qanunvericilik yolu ilə qadağan edilir, «hakimiyyət bölgüsü» prinsipinə əməl olunması zəruri hesab olunurdu. Bu sənəddə kral nazirlərinə parlament üzvi olmaq hüququ qadağan edilir, hakimlərin əvəzedilməzliyi prinsipi öz ifadəsini tapırdı. Bütün bunlar burjua münasibətlərinin intensiv inkişafı, feodal özbaşınalığına və mütləqiyyətə qarşı mübarizə aparan, onların özbaşınalıqlarına müəyyən sərhəd qoymağı tələb edən burjua silki hakimiyyətinin güclənməsi nəticəsində mümkün oldu. Qeyd edilməsi zəruridir ki, burjuaziyanın apardığı ardıcıl və sistemli mübarizə nəticəsində İngiltərədə və ABŞ-da qəbul edilən həmin sənədlər özündə əslində konstitusiya elementlərini əks etdirirdi. 17 sentyabr 1787-ci il tarixdə qəbul edilmiş ABŞ-ın Konstitusiyası klassik mənada ilk burjua konstitusiyası olmaqla və müəyyən dəyişikliklər nəzərə alınmaqla başqa ölkələr üçün də nümunə olan mühüm bir sənəd səciyyəsi daşıyır.

İnsan hüquqları və azadlıqları haqqında nəzəri təlimlər qədim Yunanıstanın məşhur filosofları, eləcədə böyük mütəfəkkirlər C.Lokk, C.Lilbern, Ş.Monteskyö, D.Didro, J.J.Russo və digər görkəmli şəxsiyyətlər tərəfindən yaradıcılıqla inkişaf etdirilirdi. Bütün bunların nəticəsində azadlıq və insan hüquqları ideyalarının sonrakı inkişafı Amerika Birləşmiş Ştatlarında əhəmiyyətli dərəcədə inkişaf etdirildi. Məlumdur ki, tarixən ictimai-iqtisadi formasiyalar, əmək bölgüsü inkişaf edib dəyişdikcə, kapitalist münasibətlərinin təşəkkülünə, cəmiyyətdə hüquqlar və azadlıqlar uğrunda mübarizəyə əhəmiyyətli təsir göstərmiş və daha mütərəqqi səciyyə daşımışdır. Yeni ərazilərin işğalı, təbii sərvətlərlə zəngin olan regionların fəthi, istehsal alətlərinin və vasitələrinin təkmilləşdirilməsi, istehsal və satış bazarı uğrunda davam edən mübarizə tarixi, qanlı səhifələrlə zəngin olmuşdur. İngiltərə burjuaziyasının Amerika qitəsinin bir hissəsini, yerli əhalinin, hinduların kütləvi surətdə

qırılması nəticəsində işğal etməsindən sonra, koloniya tipli regional təsisatların yaradılması, Hindistanın işğalı, Çinin yarımüstəmləkəyə çevrilməsi və sair bu kimi dəyişikliklər sinfi mübarizənin güclənməsinə əhəmiyyətli təsir göstərdi. Bu mənada 17-18-ci əsrlərdə Şimali Amerikada İngiltərənin on üç koloniyasının yaradılması təsadüfi hesab oluna bilməzdi. Nəticə etibarı ilə kral tərəfindən qəbul edilən fərmanlar əsasında müxtəlif vaxtlarda koloniyalara, daxili məsələlərdə müəyyən muxtariyyət verilməsi, bir növ təqdirəlayiq hadisə kimi qiymətli idi. Buna görə də koloniyalar arasında bağlanan müqavilələr mahiyyət etibarı ilə böyük əhəmiyyət kəsb edirdi.

«Təbii hüquq» ideyalarına əsaslanaraq koloniyalar, coğrafi vəziyyətinə görə beynəlxalq aləmdən təcrid olunmuş halda yaşayaraq öz qanunlarını yaratmağa başladılar. Burada ədalətlilik və hamı üçün vahid olan qanunların qəbul edilməsinə xüsusi önəm verilirdi. Digər şərtlərdən biri olan - dini azadlığın tanınması tələbi, əslində hakimiyyəti dini işlərə müdaxilə etməkdən çəkindirmə məqsədinə xidmət edirdi. Aparılan mübarizə və qətiyyətli insanların immiqrasiyası nəticəsində, bir qrup zədagan Amerikanın Cənubunda, kəndlilər və sənətkarlar isə Şimalında məskunlaşmaqla sosial qruplaşma tipində formalaşmışdı. Cənubda qul əməyindən istifadə edilərək böyük plantasiyalar yaradılırdı. Şimalda isə fermer təsərrüfatları, sənətkarlıq və sahibkarlıq inkişaf edirdi. 17-ci əsrin ortalarında koloniyalarda vahid federasiyada birləşmək fikirləri irəli sürülməyə başlandı. Belə bir ittifaqın yaradılmasının əsas səbəbləri sırasında koloniyaların ümumi mənafelərinin qorunması, qarşılıqlı ticarət əlaqələrinin genişləndirilməsi, Fransanın təcavüzündən birgə müdafiə olunmaq və sair bu kimi niyyətlər dayanırdı. Buna görə də Federasiya birliyinin birinci layihəsi 1748-ci ildə Benjamin Franklin tərəfindən hazırlandı. Lakin bu ideyanı İngiltərə qəbul etmədi. Çünki ayrılıqda yaşayan koloniyaların istismarı daha əlverişli və gəlirli idi. Koloniyaların həyatının müxtəlif sahələrində, o cümlədən ticarət, istehsal və digər sahələrdə İngiltərə tərəfindən müəyyən edilən məhdudiyyətlər koloniyalarda təbii narazılığın yaranmasına səbəb oldu. Onların xəbəri olmadan ingilislər tərəfindən müəyyən edilən ağır vergilər. bu narazılığı daha da kəskinləşdirdi. 1775-ci ilin yazında koloniyalarda

Corc Vaşintonun rəhbərliyi ilə İngiltərəyə qarşı hərbi çıxışlar, üsyanlar başlandı. İstiqlal müharibəsi zamanı ABŞ-ın Kontinental Ordusunun baş komandanı kimi üsyana rəhbərlik edən Corc Vaşinqtonun səyləri nəticəsində 1776-ci ilin iyul ayında on üç koloniyanın nümayəndələri Filadelfiyada yığışıb Birləşmiş Ştatların «İstiqlaliyyət Bəyannaməsi»ni qəbul etdilər. Orada elan edilirdi ki, istismar olunan və zülmə məruz qalan xalqın etiraz etmək hüququ vardır. Rəsmi qaydada, ilk dəfə bu aktda «xalq suverenliyi» ideyası öz hüquqi ifadəsini tapmış oldu. Burada deyilirdi ki, ali hakimiyyət xalqa məxsusdur və yalnız o, müəyyən edə bilər ki, hansı hökumət onun mənafeyinə uyğundur. Bəyannamədə insanın təbii hüquqları tanınırdı. Mühüm tarixi, siyasi və hüquqi əhəmiyyəti olan bu Bəyannamədə deyilirdi ki, bütün insanlar doğulduğu andan bərabərdir və ayrılmaz hüquqlara malikdirlər. Belə hüquqlara yaşamaq hüququ, azadlıq hüququ daxil edilirdi. Əslində hökumət, bu hüquqları təmin etmək məqsədilə yaradılmışdır. Əgər hər hansı idarəçilik forması xalqın mənafeyinə ziddirsə, o bu idarəçilik formasını ləğv edib, yeni hökumət yaratmaq hüququna malikdir.[1]

1783-cü ildə Versalda, İngiltərə Amerika Birləşmiş Ştatların müstəqilliyini rəsmi olaraq təsdiq etdi. Bəyannamədə göstərilən hüquqların təbiiliyi onda idi ki, fərdə anadangəlmə hüquqların məxsus olduğu etiraf edilirdi. Bu hüquqlarsız da o, öz insani keyfiyyətlərini, insan olduğunu təzahür etdirə bilərdi. Bununla da insan hüquqlarının ayrılmazlığı prinsipi öz ifadəsini hüquqi sənədlərdə tapmış oldu. Bununla da insan hüquqları haqqında liberal konsepsiya özünün ilk hüquqi ifadəsini 1776-cı ilin Virciniya Bəyannaməsində, 17 sentyabr 1787-ci ildə qəbul edilmiş Birləşmiş Ştatların ilk yazılı Konstitusiyasında, habelə sonralar ABŞ-da 1791-ci ildə qəbul edilmiş «İnsan hüquqları haqqında Bill»də

[1] Henkin L., Numan G.L., Libron D.V. İnsan hüquqları, Bakı, 2008, s. 56-288; Международноя и внутригосударственная защита прав человека, Москва, «Статус», 2011, с.25-74; İnsan hüquqları, Bakı, 2005, s.148-151; İnsan hüquqları, Bakı, "Şirvannəşr", 2005 (tərcümə: E.A.Likaşevanın rəhbərliyi ilə hazırlanmış dərsliyin tərcüməsi), s.144-181;İnsan hüquqları: bəşər rifahının təməli, Bakı, "İnam" Plüralizm Mərkəzi, 2001, s.11; Əliyev Q. Azərbaycan qanunverciliyi insan hüquqları haqqında, Bakı, 2000, s.3-19; Mehdiyev F. Nəzəriyyə və təcrübədə insan hüquqları, Bakı, 2013, s.8-12

tapdı. İnsan hüquqlarına aid müddəalar bu Konstitusiyada bilavasitə öz əksini tapmasa da, burada göstərilən «hakimiyyətlər bölgüsü» prinsipi insan hüquqlarının və azadlıqlarının təminatı kimi mühüm əhəmiyyət kəsb edirdi. Bu Konstitusiya ştatların müzakirəsinə və təsdiqinə təqdim edilərkən,[1] on üç ştatdan ən azı doqquzu onu təsdiq etdikdən sonra qüvvəyə minmiş hesab olunurdu. Lakin müzakirələr zamanı insan hüquqlarına dair müddəaların konstitusiyada olmaması, ştatlarda müəyyən narazılığın yaranmasına səbəb oldu. Ştatların qanunvericilik Məclisləri Konstitusiyada insan hüquqları haqqında müddəaların əlavə edilməsi tələbi ilə çıxış etdilər. Bu fikir əhali arasında da müsbət qarşılandı və dəstəkləndi. Buna görə də 17 sentyabr 1787-ci il Konstitusiyasına müəyyən dəyişikliklər aparılmasına zərurət yarandı. Nəticədə, Konqres tərəfindən 1791-ci ildə Amerika Birləşmiş Ştatlarının Konstitusiyasına 10 düzəlişdən ibarət «Hüquqlar haqqında Bill» adlı sənəd əlavə edildi, yalnız bundan sonra, 1791-ci ildə, ştatlar tərəfindən təsdiqləndikdən sonra qüvvəyə mindi. Birinci düzəlişə əsasən, ABŞ Konqresi söz, mətbuat, yığıncaq, din və s. azadlıqları məhdudlaşdıran qanunlar qəbul edə bilməzdi. Konqres hər hansı bir din yaradan və ya ona sərbəst etiqad olunmasını qadağan edən söz və mətbuat azadlığını, habelə vətəndaşların dinc niyyətlə toplaşma və öz şikayətlərini hökumətə bildirmək üçün ərizə vermə hüquqlarını məhdudlaşdıran heç bir qanun qəbul edə bilməzdi.

İkinci düzəlişdə deyilirdi ki, «Azad bir dövlətin təhlükəsizliyi üçün yaxşı təşkilatlanmış polisə ehtiyac olduğundan, xalqın silah saxlama və gəzdirmə hüququ pozula bilməzdi».

Üçüncü düzəlişə əsasən, heç bir əsgər, sülh dövründə heç vaxt, müharibədə isə qanunla nəzərdə tutulan halları çıxmaqla, sahibinin icazəsi olmadan hər hansı bir evdə yerləşdirilə bilməzdi.

Dördüncü düzəlişdə qeyd olunurdu ki, vətəndaşların özlərinin, mənzillərinin, kağızlarının və əşyalarının əsassız axtarışı və həbslərdən mühafizə hüququ pozulmamalıdır. Axtarış və həbs haqqında order kifayət qədər əsas olmadan, and və ya vədlə təsdiqlənmədən verilə bil-

[1] Henkin L., Numan G.L., Libron D.V. İnsan hüquqları, Bakı, 2008, s.142-184

məzdi. Bu zaman, orderlə axtarışın yeri, həbs, müsadirə olunacaq şəxs və əşyalar dəqiq təsvir edilməli idi. Belə ki, ABŞ-da 12 iyun 1776-ci il tarixli «Virciniya Hüquqlar Bəyannaməsi», 4 iyul 1776-cı il tarixli «ABŞ-ın Müstəqillik Bəyannaməsi», 17 sentyabr 1787-ci il ABŞ Konstitusiyası, 1789-1791-ci illərdə qəbul edilmiş «Hüquqlar haqqında Bill» və sair sənədlər insan hüquqlarının əsas elementlərinin özündə əks etdirməklə daha da təkmilləşdirildi.[1]

Təsadüfi deyildir ki, K.Marks bu tarixi sənədləri qiymətləndirərək yazırdı: «Amerika, böyük demokratik respublika ideyasının ilk dəfə yarandığı, insan hüquqlarının ilk Bəyannaməsinin elan olunduğu və 18-ci əsr Avropa inqilabına ilk təkan verən ölkə kimi səciyyələndirilə bilər».[2] Bu mütərəqqi və demokratik ənənəni uğurla davam etdirərək Fransanın 26 avqust 1789-cu ildə «İnsan və vətəndaşın hüquq Bəyannaməsi»nin, 1791, 1795 və 1848-ci il Konstitusiyalarının, 1793-cü il Polşa Konstitusiyasının və digər bu kimi sənədlərin qəbul edilməsi insan hüquqlarının tənzimlənməsi və mühafizəsi sahəsində böyük tarixi hadisələr kimi dəyərləndirilə bilər.

Beləliklə, konstitusiyanın bir çox elementlərini və xüsusiyyətlərini özündə əks etdirən 1215-ci ildə qəbul edilmiş «Böyük Azadlıqlar Xartiyası» (Magna Carta Libertatum), 1628-ci ildə qəbul edilmiş «Hüquq haqqında Petisiya», 1679-cu ildə qəbul edilmiş «Habeas Korpus Aktı», 1689-cu ildə qəbul edilmiş «Hüquqlar haqqında Bill», 1776-cı ildə qəbul edilmiş «Verciniya Hüquqlar Bəyannaməsi», ABŞ-ın Müstəqillik Bəyannaməsi, 1787-ci ildə qəbul edilmiş ABŞ Konstitusiyası, 1789-1791-cı illərdə qəbul edilmiş «Hüquqlar haqqında Bill» (ABŞ), 1789-cu ildə qəbul edilmiş Fransanın «İnsan və vətəndaşın hüquq Bəyannaməsi», 1793-cü ildə qəbul edilmiş Fransa Konstitusiyası kimi mühüm və tarixi, sənədlər insan hüquqlarının və azadlıqlarının tarixində ən mühüm əhəmiyyəti olan qanunvericilik normaları kimi misilsiz dəyərə malik olmuşdur. Bu normativ hüquqi aktlarda qadın hüquqlarına müs-

---

[1]Henkin L., Numan G.L., Libron D.V. İnsan hüquqları, Bakı, 2008, s.142-184
[2] Marks K., Engels F. Seçilmiş əsərləri, 16-ci il, 1959, 15-21

təqil olaraq yer ayrılmasa da, lakin bu sənədlərin qəbulu ilə insan hüquqlarına və azadlıqlarına əhəmiyyətli töhfələr verilmişdir.[1]

Tarixi faktlar və tədqiqatlar göstərir ki, insan hüquqlarının və azadlıqlarının tərkib hissəsi olan qadın hüquqları uğrunda əsrlərlə mübarizə aparılmış, tədqiqat əsərləri yazılmış, normativ hüquqi aktların layihələri işlənib hazırlanmış və bütün bunlar öz tarixi rolunu oynamışdır. Hələ 18-ci əsrdə fransız mütəfəkkiri S.A.Kondersenin «Vətəndaş hüquqlarına qadınların yaxın buraxılması», İngiltərədə M.Uolltsounkrofun «Qadının tabeçiliyi haqqında», Almaniyada T.F.Gilnelin «Qadının vətəndaş vəziyyətini yaxşılaşdırılması haqqında» və onlarla bu kimi əsərlər böyük marağa səbəb olsa da, lakin qadın hüquqlarına münasibətin dəyişməsində yadda qalan hadisəyə çevrilmədi. Bununla belə, 18-ci əsrin sonlarından başlayaraq cəmiyyətdə qadının rolununun və hüquqlarının artırılması istiqamətində müxtəlif hərəkatlar və təlimlər formalaşmağa başladı. Bu proses 19-cu əsrdə və iyirminci əsrin birinci yarımilliyində daha da gücləndi və müxtəlif hüquqi sənədlərdə öz əksini tapmağa başladı. Təsadüfi deyil ki, qul alverinə qarşı beynəlxalq miqyasda «Afrika qulları ilə alverə son qoyulması haqqında» 1890-ci Brüssel Bəyannaməsinin, «Quruda və dənizdə qul alverini ləğv etmək haqqında» 1919-cu il Sen-Jermen Konvensiyasının, Millətlər Cəmiyyəti Şurasının «Köləlik haqqında» 25 sentyabr 1926-cı il Cenevre Konvensiyasının və bu qərara dəyişiklik edilməsi haqqında 23 oktyabr 1953-cü il tarixli Protokolun qəbul edilməsi, aparıcı dövlətlərin birgə səyi ilə hələ qədim dövrlərdən qalmış qul ticarətinin qarşısını almağa yönəldilmiş dəyərli təşəbbüslər kimi əhəmiyyətli idi. Bu normativ hüquqi aktlar qadın hüquqları ilə sıx bağlı olmuşdur.

Dünyada gedən ciddi iqtisadi və siyasi proseslər, dünyanın bölüşdürülməsi uğrunda mübarizə, zaman etibarı ilə bir-birinin ardınca baş verən Birinci və İkinci Dünya müharibələri çoxsaylı insan qırğınına və insan hüquqlarının kütləvi pozulmasına səbəb olmuşdur. Hər an genişlənən yeni-yeni müharibə təhlükəsi dövlətləri dərindən düşünməyə vadar etdi. Birinci Dünya müharibəsinin yekununda ABŞ Prezidenti

[1] Henkin L., Numan G.L., Libron D.V. İnsan hüquqları, Bakı, 2008, s.142-184

Vudro Vilsonun təşəbbüsü ilə hamının hörmət edəcəyi beynəlxalq bir qurumun yaradılması zərurəti barədə ideya irəli sürdü. Buna görə də 14 avqust 1919-cu ildə Versal sülh konfransında Millətlər Cəmiyyətinin Nizamnaməsinin layihəsi elan edildi. Nəticədə ABŞ-ın arzu etdiyi beynəlxalq təşkilat - Millətlər Cəmiyyəti yaradıldı. Lakin etiraf edilməlidir ki, insan hüquqlarının və azadlıqlarının müdafiə məsələsi ilə bilavasitə bağlı olmasa da, bu qurum əsasən xalqlar arasında əməkdaşlığı inkişaf etdirmək, sülh və beynəlxalq təhlükəsizliyi qorumaq məqsədilə yaradılmışdı. Bu qurum insan hüquqları ilə bu və ya digər dərəcədə sıx bağlı olan beynəlxalq təşkilat kimi də səciyyələndirilə bilər. Lakin tarixin sonrakı gedişində dünyada sürətlə inkişaf edən və tez-tez dəyişən siyasi, iqtisadi və beynəlxalq proseslər nəticəsində Millətlər Cəmiyyəti, qarşısına qoyduğu missiyanın həyata keçirilməsi sahəsində yadda qalan uğurlar qazana bilmədi.

İkinci dünya müharibəsinin doğurduğu böyük fəlakətlər və milyonlarla insanın, o cümlədən qadınların məhvi, onların hüquqlarının kütləvi pozulması beynəlxalq birliyin aparıcı dövlətlərinin birgə səyi ilə yeni bir təşkilatın yaradılması zərurətini irəli sürdü. Belə ki, hələ müharibənin gedişində 1 yanvar 1942-ci ildə 26 dövlətin adından «Birləşmiş Millətlər Deklarasiyası» adlandırılan sənəd imzalandı. Burada göstərilirdi ki, dünyada yeni bir beynəlxalq təşkilatın yaranması «düşmən üzərində qəti qələbənin çalınması, insan həyatının, azadlığının qorunması, müstəqilliyin əldə edilməsi, ədalətə və insan haqqlarına əməl olunması məqsədi ilə lazımdır».[1] 01 dekabr 1943-cü ildə imzalanmış Tehran Konfransı faşizm üzərində qələbə qazanılması, zülmün, istibdadın və istismarın tam aradan qaldırılması üçün bütün ölkələrin səylərinin birləşdirilməsinin və əməkdaşlığının genişləndirilməsinin vacib olduğunu bəyan etdi.[2]

Sülhün və təhlükəsizliyin qorunması naminə ümumi beynəlxalq təşkilatın yaradılması barədə qərar qəbul etmiş Krım Konfransında SSRİ, ABŞ və Böyük Britaniya rəhbərləri bəyan etdilər ki, elə bir şərait

[1] Внешная политика Советского Союза в период Отечественной войны, т.1, М., 1946, 194

[2] Тегеран, Ялта: Постдам: Сборник документов, М., 1971, 98-99

yaratmaq lazımdır ki, dünyanın bütün insanları ömrü boyu qorxu və ehtiyac bilmədən yaşaya bilsinlər.[1] 1944-cü ilin sentyabr ayında keçirilən «Dumbarton – Okse Konfransı»nda yeni yaradılacaq beynəlxalq təşkilatın Nizamnaməsinin layihəsində insan hüquqları və azadlıqları məsələsinin əks olunması vacib bilindiyi halda, müxtəlif ictimai-siyasi quruluşların mövcud olduğu ölkələrin bu məsələ ətrafında birgə razılığa gəlməsində müəyyən çətinliklər yarandı. 1945-ci ildə San-Fransisko Konfransında BMT-nin Nizamnaməsinin qəbul edilməsi üçün əsas olan ilkin müqavilənin birinci fəslinin üçüncü bəndində qeyd edilirdi ki, beynəlxalq, iqtisadi, sosial və digər humanitar problemlərin həll edilməsində beynəlxalq əməkdaşlığı həyata keçirmək müddəası təşkilatın əsas məqsədi hesab olunur.[2]

SSRİ, ABŞ, Böyük Britaniya və Çinin birgə səyi ilə Nizamnamənin birinci maddəsinin üçüncü bəndinə görə «iqtisadi, sosial, mədəni və ya humanitar xarakterli beynəlxalq problemlərin həll edilməsinə, irqinə, cinsinə, dilinə və ya dini mənsubiyyətinə fərq qoyulmadan bütün insanların əsas hüquqlarına və azadlıqlarına hörmətin dəstəklənməsidə və həvəsləndirilməsində beynəlxalq əməkdaşlığa nail olmaq» BMT-nın qarşısında duran əsas və mühüm məqsədlərdən biri hesab olunurdu.[3] Həmin Nizamnamənin 55-ci maddəsinin «c» bəndi isə «irqi, cinsi, dili və dini mənsubiyyətinə fərq qoyulmadan bütün insanların əsas hüquqlarına və azadlıqlarına hamılıqla hörmət edilməsinə və riayət olunmasına dəstək vermək» öhdəliyini qarşıya mühüm bir vəzifə kimi qoyurdu.[4]

Beləliklə, Birləşmiş Millətlər Təşkilatının Nizamnaməsinin 26 iyun 1945-ci il tarixdə imzalanması və 24 oktyabr 1945-ci ildən etibarən qüvvəyə minməsi, bəşəriyyət tarixinə düşməyə layiq olan mühüm bir tarixi hadisə kimi yüksək qiymətləndirilə bilər.

1946-cı ildə beynəlxalq səviyyədə «Qadının siyasi, iqtisadı və sosial hüquqlarının» təmin olunmasına kömək sahəsində Komissiya»-

---

[1] Yenə orada, s.185-193

[2] Крылов С.Б. История создания Организации Объединенных Нации, М., 1960

[3] Beynəlxalq sənədlər toplusu, Bakı, 2005, I cild, s.8-18

[4] Yenə orada, s.20-21

nın yaradılması mühüm tarixi əhəmiyyətə malik oldu. Aparılan təhlillər və araşdırmalar dünyada qadın hüquqları və azadlıqları sahəsində ciddi problemlərin mövcud olduğunu müəyyən etdi.

10 dekabr 1948-ci ildə BMT-nin «İnsan hüquqları haqqında Ümumi Bəyanmə»nin qəbul edilməsi, dünyada insan hüquqlarının və azadlıqlarının formalaşdırılması və təşəkkülü sahəsində ən böyük hüquqi sənədlərdən biri kimi mühüm əhəmiyyətə malik oldu. Bu sənəd insan hüquqları və azadlıqları uğrunda, o cümlədən qadın hüquqları və azadlıqları uğrunda əsrlərlə davam edən mübarizəsinin nəticəsi idi.

San – Fransisko Konfransı «İnsan hüquqları haqqında Beynəlxalq Bill»in hazırlanmasını vacib hesab etdi. 16 fevral 1946-cı il tarixdə isə İqtisadi və Sosial Şura özünün «İnsan hüquqları üzrə Komissiya»sını yaradaraq, Bill haqqında mövqeyini bildirməyi həmin quruma tapşırdı. SSRİ, Belarusiya, Polşa, Ukrayna, Çexoslovakiya, Yuqoslavoya, Səudiyyə Ərəbistanı və Cənubi Afrika Birliyi ölkələrinin nümayəndələri «Bəyannamə»nin dövlətlərin suverenliyi prinsipini pozduğuna, əsas hüquqların və azadlıqların həyata keçirilməsinə təminat vermədiyinə və bir sıra digər təkliflərin nəzərə alınmadığını bəhanə gətirərək səsvermə zamanı bitərəf qaldılar. Beləliklə, Eleanor Ruzveltin, Rene Kassenin və Caris Meylikin böyük xidmətləri nəticəsində əsas mətni hazırlanmış və redaktə olunmuş «İnsan hüquqları haqqında Ümumi Bəyannamə» 10 dekabr 1948-ci ildə 8 bitərəf 48 səs çoxluğu ilə BMT-nin Baş Assambleyanın 217 A (3) saylı Qətnaməsi ilə qəbul edildi.[1] Bu sənəd insan hüquqları sahəsində 20-ci əsrin ən böyük nailiyyətlərindən biri hesab oluna bilər. Bununla belə, Bəyannamədə həm mülki və siyasi, həm də sosial, iqtisadi və mədəni hüquqların geniş siyahısı və mükəmməl «katoloq»u təsbit olunmuşdu. İnsan hüquqlarının hərbi xarakterini tanıyaraq görkəmli fransız alimi Rene Kassen Bəyannamənin elə birinci maddəsində təntənəli surətdə yazmışdı ki, bütün insanlar öz ləyaqətlərində və hüquqlarında azad və bərabər doğulurlar.[2] Bəyannamə dünyada hüquq mədəniyyətinin və düşüncəsinin bariz nəticəsi idi. Bununla belə BMT

[1] Мовчан А.П. Международная защита прав человека, М., 1958, с.31-42
[2] Yenə orada, s.51-56

Nizamnaməsinin 7-ci maddəsində haqlı olaraq göstərilir: «Bu Nizamnamənin heç bir müddəası Birləşmiş Millətlər Təşkilatına səlahiyyət vermir ki, hər hansı bir dövlətin əsas etibarı ilə daxili yurisdiksiyasında olan məsələlərə müdaxilə etsin...»[1]

«İnsan hüquqları haqqında Ümumi Bəyannamə»nin qəbul edilməsi təxminən iki il vaxt tələb etdi. «Mülki və siyasi hüquqlar haqqında», «İqtisadi sosial və mədəni hüquqlar haqqında» Beynəlxalq Paktların mətnlərinin razılaşdırılması üçün iyirmi ilə yaxın vaxt keçdi. Bu mətnlər BMT-nin İnsan hüquqları üzrə Komitəsində işlənib hazırlandı və yekunlaşdırılmaqla 1954-cü ildə BMT-nin Baş Assambleyasına təqdim edildi. Lakin bu sənədlərin qəbul edilməsi üçün on iki il vaxt keçdi. Bununla əlaqədar olaraq otuz beş ratifikasiya sənədləri təqdim edildi və nəhayət ki, 16 dekabr 1966-cı ildə bu paktlar qəbul edildi. Lakin onların qüvvəyə minməsindən on il keçdi və bu paktlar 3 yanvar 1976-cı ildə qüvvəyə mindi. Birləşmiş Millətlər Təşkilatı səviyyəsində «İnsan hüquqları haqqında Ümumi Bəyannamə» və qeyd edilən iki pakt, BMT-nin İnsan hüquqları üzrə yeganə ümumi sənədləri hesab olunurlar. Beynəlxalq hüquq ədəbiyyatında «Mülki və siyasi hüquqlar haqqında» Beynəlxalq Paktın 1966-cı və 1989-cu illərdə qəbul edilmiş iki fakültativ protokollarla birlikdə bu sənədlər adətən «İnsan hüquqlarına dair Beynəlxalq Bill» kimi tanınır.[2]

«İnsan hüquqları haqqında Ümumi Bəyannamə» BMT Baş Məclisi tərəfindən Qətnamə formasında qəbul edildiyinə görə ilk öncə o, yalnız tövsiyə xarakteri daşıyırdı. Bununla belə, dünyanın demək olar ki, bütün ölkələri və xalqları tərəfindən tanınaraq, istinad edilmiş «Bəyannamə»də elan olunmuş əsas hüquqlar və azadlıqlar hal-hazırda əksər ölkələr tərəfindən hüquqi cəhətdən vacib olan normalar kimi tanınır və qəbul edilir. İnsan hüquqları və azadlıqları sahəsində bütün xalqların və dövlətlərin əldə etməli olduqları beynəlxalq standartlar qismində qəbul edilmiş «Ümumi Bəyannamə» bu gün beynəlxalq hüququn əsas

[1] Beynəlxalq sənədlər toplusu, Bakı, 2005, I cild, s.8
[2] Yenə orada, s.12-96

mənbələrindən biri olmaqla, bir çox dövlətlər tərəfindən insan hüquqlarına aid müxtəlif qanunların, xüsusilə ölkələrin konstitusiyalarının və onların ayrı-ayrı normalarının işlənib hazırlanması sahəsində rəhbər model kimi geniş istifadə olunur. Bəyannamə 360-da çox dilə tərcümə olunmuş və Gennesin rekordlar kitabına düşmüşdür. O, beynəlxalq və fundamental əhəmiyyətli hüquqi sənəd statusu qazanmışdır.

BMT Nizamnaməsinin və «İnsan hüquqları haqqında Ümumi Bəyannamə»nin qəbul edilməsi beynəlxalq hüququn tənzimləmə funksiyası sahəsində yeni keyfiyyət dəyişikliklərinin başlanğıc mərhələsi kimi qiymətləndirilə bilər. Təsadüfi deyildir ki, ötən dövr ərzində BMT-nin üzvü olan iki yüzə qədər ölkənin milli konstitusiyalarının hazırlanmasında, bu sənəddən bu və ya digər dərəcədə istifadə edilmişdir. Sonrakı dövrlərdə də beynəlxalq hüquq yaradıcılığı məhz BMT-nin, onun Baş Assambleyasının, Təhlükəsizlik Şurasının, İqtisadi və Sosial Şurasının, Hamilik Şurasının, Haaqa Beynəlxalq Məhkəməsinin, eləcə də BMT-nin on yeddi ixtisaslaşmış təşkilatının və digər qurumlarının bilavasitə yaxından iştirakı və köməyi ilə beynəlxalq hüquq sahəsində misilsiz xidmətlər kimi tarixə çevrilmişdir. Etiraf edilməlidir ki, bu sənədlər insan və vətəndaş hüquqlarının və azadlıqlarının, o cümlədən qadın hüquqlarının və azadlıqlarının təkmilləşdirilməsi, müdafiəsi və mühafizəsi sahəsində mühüm əhəmiyyətə malik olmuşdur. Bu sənədlər içərisində 16 dekabr 1966-cı ildə qəbul edilmiş «Mülki və siyasi hüquqlar haqqında», «İqtisadi, sosial və mədəni hüquqlar haqqında» Beynəlxalq Paktlar, «Uşaq hüquqlarına dair» Konvensiya, «Hamı tərəfindən tanınan insan hüquqlarını və əsas azadlıqlarını dəstəkləmək və müdafiə etmək haqqında hüquq və məsuliyyət haqqında» BMT Bəyannaməsi mühüm əhəmiyyət kəsb etmişdir. BMT Baş Məclisinin 1970-ci il Bəyannaməsində birbaşa göstərilirdi ki, hər bir dövlət insan hüquqlarına və əsas azadlıqlarına ümumi hörmət və riayət edilməsinə birgə və müstəqil təsir göstərmək yolu ilə kömək etməlidir.[1] 16 dekabr 1966-cı il tarixli BMT-nin «Mülki və siyasi hüquqlar haqqında» və «İqtisadi,

---

[1] www.prezident.az Azərbaycan Respublikası Prezidentinin Sərəncamları və Fərmanları

sosial və mədəni hüquqlar haqqında» Paktlar, birlikdə «İnsan hüquqları haqqında Beynəlxalq Bill»in əsas məzmununu təşkil etməklə mühüm tarixi əhəmiyyətə malik olmuşdur.

Beynəlxalq miqyasda insan hüquqları və azadlıqları sahəsində qəbul edilmiş bu normativ hüquqi aktlar məişətdə, ictimai - siyasi həyatda, siyasi proseslərdə ardıcıl və sistemli şəkildə tətbiq edilən, eyni zamanda qadın hüquqlarının məhdudlaşdırılması, irqi və cinsi ayrı-seçkilik salınması prosesləri kontekstində dünya dövlətlərinin səylərinin səfərbər edərək beynəlxalq əhəmiyyətli bir çox normativ hüquqi aktların qəbul edilməsi ilə nəticələndi. Birləşmiş Millətlər Təşkilatının, digər beynəlxalq və regional qurumların birgə səyi ilə qadın hüquqlarının və azadlıqlarının tənzimlənməsi, həyata keçirilməsi, müdafiəsi və mühafizəsi sahəsində beynəlxalq standartların əsas meyarlarının formalaşdırılması ardıcıl və sistemli formada gündəmə gəldi. Belə ki, 2 dekabr 1948-ci ildə BMT-nin «İnsan alverinə və üçüncü şəxslər tərəfindən fahişəliyin istismarına qarşı Konvensiya»sının, «İnsanlarla ticarətə və üçüncü şəxslər tərəfindən fahişəliyin istismarına qarşı mübarizə haqqında» 02 dekabr 1949-cu il tarixli Konvensiyasının, «Köləliyin, qul ticarətinin və köləliyə oxşar institutların və adətlərin ləğv olunması haqqında» 30 aprel 1950-ci il tarixli Konvensiyasının, 20 dekabr 1952-ci ildə «Qadınların siyasi hüquqları haqqında Konvensiya»sının, «Vətəndaşlığın azaldılması haqqında» 4 dekabr 1954-cü il tarixli Konvensiyasının, «Ərli qadının vətəndaşlığı haqqında» 29 yanvar 1957-ci il tarixli Konvensiyasının, «Nikaha daxil olmağa razılıq, minimal nikah yaşı və nikahların qeydə alınması haqqında» 7 noyabr 1962-ci il tarixli Konvensiyasının, «İrqi ayrı-seçkiliyin bütün formalarının ləğv edilməsi haqqında» 20 dekabr 1965-ci il tarixli Konvensiyasının, «Qadınlar barəsində ayrı-seçkiliyin ləğv edilməsi haqqında» 1967-ci il tarixli Bəyannamənin, «Ölkə daxilində yerini dəyişmiş şəxslərin məsələləri üzrə müddəa»ya dair sənədin, «Qadın və uşaqların fövqəladə hallarda, silahlı münasiqələr dövründə müdafiəsi haqqında» 14 iyun 1977-ci tarixli Bəyannamənin, «Qadınlara münasibətdə ayrı-seçkiliyin bütün formalarının ləğv olunması haqqında» 18 dekabr 1979-cu il Konvensiyanın, «İşgəncələrə və digər qəddar, qeyri-insani, yaxud ləyaqəti alçaldan rəf-

tar və cəza növlərinə qarşı» 10 dekabr 1984-cü il tarixli Konvensiyasının, «Yetkinlik yaşına çatmayanlar barəsində Ədalət mühakiməsinin həyata keçirilməsinə aid» 29 noyabr 1985-ci il tarixli Standart Qaydalar»ın və onlarla digər beynəlxalq konvensiyaların, sazişlərin, paktların, bəyannamələrin, bəyanatların qəbul edilməsi bəşəriyyətin qadın hüquqlarına və azadlıqlarına verdiyi böyük önəmin bariz nümunəsi idi.[1]

«İnsan hüquqları haqqında Ümumi Bəyannamə» insanların azad və bərabər doğulmaqla, onların irqi, cinsi, dili, dini, siyasi, milli, sosial, silki bərabərlik və siyasi statusuna görə eyni hüquqlu olduğunu bəyan edir. Bu «Bəyannamə» insanların kölə və asılı vəziyyətdə saxlanılmasını, işgəncələrə və qeyri insanı rəftara məruz qalmasını qadağan edir. İnsanların yaşamaq, azadlıq, şəxsi toxunulmazlıq, qanun qarşısında bərabərlik, sərbəst hərəkət və yaşayış yeri seçmək, nikah və ailə münasibətlərinə girmək, əmlaka sahib olmaq, dövlətin idarə olunmasında iştirak etmək, seçmək və seçilmək, işləmək, əmək haqqı almaq, məzuniyyətə çıxmaq, təhsil almaq, layiqli yaşamaq və sağlam olmaq, sosial təminat hüququndan istifadə etmək, hüquqlarının qorunması üçün məhkəməyə müraciət etmək, vicdan, din, düşüncə və ifadə azadlığına sahib olmaq, pozulmuş hüquqlar və azadlıqlar barədə istədiyi müdafiəçi vasitəsilə məhkəmədə hüquqlarını müdafiə etmək, qərəzsiz, açıq və ədalətli məhkəmə tələb etmək və sair bu kimi kompleks hüquqları olduğu təsbit olunur.

BMT-nin 16 dekabr 1966-cı ildə qəbul edilmiş iki paktı – «Mülki və siyasi hüquqlar haqqında», «İqtisadi, sosial və mədəni hüquqlar haqqında» paktları, habelə «Uşaq hüquqlarına dair» Konvensiya, «Hamı tərəfindən tanınan insan hüquqlarını və əsas azadlıqlarını dəstəkləmək və müdafiə etmək haqqında hüquq və məsuliyyət haqqında» BMT Bəyannaməsi, 20 dekabr 1952-ci ildə qəbul edilmiş «Qadınların siyasi hüquqları haqqında» Konvensiya, 18 dekabr 1965-ci il tarixdə qəbul edilmiş «Qadınlara münasibətdə ayrı-seçkiliyi bütün formalarının aradan qaldırılması haqqında» Konvensiya, 21 dekabr 1965-ci il tarixdə qəbul edilmiş «İrqi ayrı-seçkiliyin bütün formalarının aradan qaldırılması

[1] Beynəlxalq sənədlər toplusu, Bakı, 2005.; Beynəlxalq sənədlər toplusu, Bakı, 2008

haqqında» Konvensiya və yüzlərlə digər sənədlər insan və vətəndaş hüquqlarının və azadlıqlarının təkamülündə müstəsna rol oynamışdır. Belə ki, BMT-nin 16 dekabr 1966-cı il tarixli «İqtisadi, sosial və mədəni hquqlar haqqında» Paktı millətlərə və xalqlara öz müqəddaratını təyin etmək, eləcə də hər bir fərdin sosial, iqisadi və mədəni inkişafının təmin olunmasına çalışmaq, ədalətli əmək haqqı almaq, qadınların və kişilərin bərabərliyi əsasında qənaətbəxş yaşayış, normal iş şəraiti və istirahət hüququna malik olmaq, həmkərlar təşkilatlarında birləşmək, təhsil almaq, o cümlədən pulsuz ibtidai təhsil almaq, mədəni və elmi həyatda iştirak etmək, yaradıcılıq azadlığına sahib olmaq, aclıqdan müdafiə olunmaq, fiziki və psixi sağlamlığını qorumaq, sağlam ətraf mühitdə yaşamaq və sair bu kimi hüquqları nəzərdə tutmuşdur. Pakt hüquqların və azadlıqların yalnız qanun çərçivəsində məhdudlaşdırılmasını mümkün hesab etməklə hüquqların və azadlıqların azaldılmasını yolverilməz hesab etmişdir.[1]

BMT-nin «Mülki və siyasi hüquqlar haqqında» 16 dekabr 1966-cı il tarixli Paktı millətlərin öz müqəddaratını təyin etmək hüququnu tanımaqla, insanların irqi, rəngi, cinsi və sair fərqə görə, habelə ümumiyyətlə insan hüquqlarının məhdudlaşdırılmasının qadağan edilməsini vacib hesab edir. Pakt kişi və qadınların mülki və siyasi hüquqlarının təmin olunmasını, fövqəladə vəziyyət şəraitlərində insan hüquqlarının qorunmasını vacib hesab edir, işgəncələri, insanın kölə halında saxlanılmasını, məcburi əməyə cəlb edilməsini, borca görə azadlıqdan məhrum edilməsini, müharibə təbliğatını, zorakılığı və dini nifrəti, dil, din, cins və digər fərqlərə görə ayrı seçkiliyi qadağan edir. Bu sənəddə yaşamaq hüququnun insanın ayrılmaz hüququ olduğu bəyan edilir və ölüm hökmünün ləğv edilməsi arzu olunur. İnsanın öz mahiyyəti və təbiəti etibarı ilə azadlıq və şəxsi toxunulmazlıq hüququnun qorunması, onun insanı rəftara və hörmətə layiq olması hüququnun qorunması, davranışlarında azad və sərbəst olmaqla ölkədən çıxarılmanın yalnız qanunlar əsasında həyata keçirilməsinin mümkünlüyü, təqsirsizlik prezumpsiyası, məhkəmə qarşısında bərabərlik və müdafiə hüququnun

[1] Beynəlxalq sənədlər toplusu, Bakı, 2005, I cild, s. 58-59

təmin olunması, şəxsi və ailə həyatının toxunulmazlığının, düşüncə, fikir, vicdan, din və söz azadlığının qorunması, ailənin müdafiəsi, nikah hüququ, qanun qarşısında bərabərlik hüququ, etnik din və dil azadlığı mükəmməl formada ifadə edilmişdir.[1]

Göstərilən paktların fakultətiv protokolları, bu hüquqların və protokolların hər birinin mükəmməl tətbiqi üçün əlverişli şəraiti təmin edir və bu sənədlərin inkişafını zamanın tələblərinə uyğunlaşdırırdı. Bu baxımdan qadın hüquqlarının və azadlıqlarının beynəlxalq hüquqi tənzimlənməsi sahəsində BMT-nin Baş Assambleyasının 20 dekabr 1952-ci il tarixli 640 saylı Qətnaməsi ilə təsdiq edilmiş «Qadınların siyasi hüquqları haqqında», BMT-nin «Qadınlara münasibətdə ayrı-seçkiliyin bütün formalarının aradan qaldırılması haqqında» 18 dekabr 1979-ci il tarixli Konvensiyalarının, BMT-nin 20 dekabr 1993-cü il tarixli 48/104 saylı Qətnaməsi ilə təsdiq edilmiş «Qadınlara qarşı zorakılığın aradan qaldırılması haqqında» Bəyannamənin və digər beynəlxalq hüquqi aktların mühüm tarixi rolu olmuşdur. Eləcə də bu və ya digər şəkildə qadın hüquqları və azadlıqları ilə bağlı olan BMT-nin 7 noyabr 1962-ci il tarixli «Nikaha daxil olmağa razılıq, minimal nikah yaşı və nikahların qeydə alınması haqqında» Konvensiya, BMT-nin 21 dekabr 1965-ci il tarixli «İrqi ayrı-seçkiliyin bütün formalarının aradan qaldırılması haqqında» Konvensiya[2]və digər çoxsaylı normativ hüquqi aktlar qadınlara münasibətdə müxtəlif ictimai münasibətlərin beynəlxalq miqyasda tənzimlənməsini və beynəlxalq standartları təmin edən sənədlər kimi olduqca əhəmiyyətlidir. Bu sənədlər bəşəri təfəkkürün və insan hüquqları uğrunda mübarizənin nəticəsi, hüquqi ifadə formasıdır. Belə ki, qadın hüquqları və azadlıqları uğrunda aparılan mübarizənin tarixi zəminləri BMT-nin, hələ 1946-cı ildə dünya birliyində qadınların vəziyyətinə nəzarət etmək və qadınların hüquqlarının qorunmasına yardım etmək məqsədi ilə yaratdığı «Qadının statusu üzrə Komissiya»nın apardığı uzun müddətli müşahidələrinin və ümumiləşdirmələrinin nəticəsi kimi, 18 dekabr 1979-cu ildə BMT-nin Baş Assambleyasının Qət-

[1] Beynəlxalq sənədlər toplusu, Bakı, 2005, I cild, s. 69-89
[2] Beynəlxalq sənədlər toplusu, Bakı, «Qanun» nəşriyyatı, 2008, I cild, s. 58-59

naməsi ilə «Qadınlara qarşı ayrı seçkiliyin bütün formalarının ləğv edilməsi haqqında» Konvensiyanın qəbul edilməsi ilə yekunlaşdı. Hazırda bu Konvensiya demək olar ki, dünyanın əksər ölkələri tərəfindən dəstəklənir. Mahiyyət etibarı ilə altı fəsli, otuz maddəni əhatə edən Konvensiyanın preambula hissəsində haqlı olaraq göstərilir ki, «İnsan hüquqları haqqında Ümumi Bəyannamə»nin ayrı seçkiliyin yolverilməzliyi prinsipini qəbul etdiyi, bütün insanların azad, ləyaqət və hüquqi baxımdan bərabər doğulduğunu, cinsi fərqə görə ayrı seçkiliyin yolverilməzliyini bəyan etdiyi bir halda dünya dövlətləri tərəfindən kişilərlə qadınların bütün iqtisadi, sosial, mədəni, vətəndaş və siyasi hüquqlardan istifadə etməkdə bərabərliyini təmin edən «Qadınlar barəsində ayrı-seçkiliyin bütün formalarının ləğv edilməsi haqqında» Konvensiyanın qəbul edilməsi olduqca əhəmiyyətli bir hadisə idi.[1]

Bu Konvensiya onu tanıyan və qəbul edən milli dövlətlərin hüquq normaları əsasında qadınların öz ölkəsinin bütün ictimai, siyasi və mədəni həyatında, dövlət idarəçiliyində, siyasi fəaliyyətdə, ailə münasibətlərində kişilərlə bərabər əsaslarda fəaliyyət göstərməsinin beynəlxalq hüquqi əsaslarını müəyyən etmiş oldu və cinsi fərqlərə görə ayrı seçkiliyin qoyulmasının yolverilməzliyini bəyan etdi. Bu müddəa Konvesiyanın birinci və ikinci maddələrində müfəssəl olaraq göstərilmişdir.

Konvensiyada qadın və kişi münasibətlərinin bərabərliyinin təsbit olunması ilə yanaşı, qadın hüquqlarının müəyyən edilməsi, müdafiəsinin və mühafizəsinin kompleks hüquqi və siyasi əsasları (I, II maddələr), qadın hüquqlarının təminatları (III maddə), cəmiyyətdə cinsi rolun eyniləşdirilməsi və mövhumatçı fikirlərin aradan qaldırılması (V maddə), qadın hüquqlarının pozulmasının, o cümlədən cinsi istismarın və fahişəliyin yolverilməzliyi (VI, XVII maddələr), qadınların ictimai və siyasi həyatda, dövlət idarəçiliyində, təhsildə, əmək fəaliyyətində, evlilik və ailə həyatında, iqtisadi və sosial mənfəətlərin bölüşdürülməsində və digər bu kimi vacib məsələlərin həllində nəinki kişilərlə bəra-

[1] Beynəlxalq sənədlər toplusu, Bakı, 2005, I cild, s.705-707

bərləşdirilməsinin, habelə qadının rolunun artırılmasının vacibliyi barədə normalar nəzərdə tutulmuşdur.[1]

BMT-nin «Qadınlara qarşı zorakılığın aradan qaldırılması haqqında» 20 dekabr 1993-cü il 48/104 saylı Qətnaməsi ilə təsdiq edilmiş Bəyannamədə qadınlara qarşı zorakılığın təzahürləri, inkişaf meyilləri, səbəbləri, ümüdünya miqyasında geniş və ətraflı təhlil edilmişdir. Problemin aktuallığı BMT-nin himayəsi altında uzunmüddət aparılan müşahidələrin nəticələri kimi yekunlaşdırılmış və Bəyannamənin elan edilməsi zəruri hesab olunmuşdur. Sənəddə «qadınlara münasibətdə zorakılıq» termininə aydınlıq gətirilmişdir. Qeyd edilmişdi ki, qadına qarşı mənəvi və ya fiziki zorakılıqla müşahidə edilən, cinsi, fiziki və ya psixologi zərər vuran, mənəvi və fiziki əzəb verən, şəxsi və ictimai həyatda azadlığın məcburi məhdudlaşdırılmasında ifadə olunan hərəkət və hərəkətsizliklərin məcmusu mahiyyət etibarı ilə qadınlara münasibətdə zorakılıq anlayışının əsasını təşkil edir.[2] Bütün bu hərəkətlər və hərəkətsizliklər isə ailədə, məişətdə, ictimai yerlərdə, bir sözlə məkanından və zamanından, motivindən və məqsədindən asılı olmayaraq qadınlara və qızlara qarşı törədilməklə cəmiyyətdə və ailədə ziddiyyətlərin kəskinləşməsinə, insan hüquqlarının kobud şəkildə pozulmasına stimul verir. Bu baxımdan beş maddədən ibarət olan Bəyannamə üzv dövlətlər qarşısında qadınlara qarşı zorakılığın aradan qaldırılması sahəsində mühüm vəzifələr qoymuşdur.

Qadınlar üçün həyatı əhəmiyyət kəsb edən BMT-nin «Ərli qadının vətəndaşlığı haqqında» 29 yanvar 1957-ci il Konvensiyası, «Vətəndaşlığın azaldılması haqqında» 4 dekabr 1954-cü il tarixli Konvensiyası[3] və digər bu kimi Konvensiyalar mühüm əhəmiyyətə malik olmuşdur. Dağlıq Qarabağ münaqişəsi kontekstində BMT-nin «Qadın və uşaqların fövqəladə hallarda silahlı münaqişələr dövründə müdafiəsi haqqında» 14 dekabr 1974-cü il tarixli Konvensiyası[4] təəssüf ki, Ermənistanın işğalçı ordusu tərəfindən ən kobud formalarda pozulmaqda

---

[1] Yenə orada, s. 705- 717
[2] Beynəlxalq sənədlər toplusu, Bakı, 2005, I cild, s. 705- 717
[3] Yenə orada, s. 594- 598;
[4] Yenə orada, s.753-755

davam etməkdədir. Qadın hüquqlarının və azadlıqlarının qorunması haqqında danışarkən Dağlıq Qarabağ münaqişəsini xüsusi olaraq qeyd etməyə zərurət vardır. Belə ki, məhz bu münaqişə istər Ermənistan və istərsə də Azərbaycan ərazisində qadın hüquqlarının və azadlıqlarının pozulmasına, sülh və insanlıq əleyhinə cinayətlərin törədilməsinə səbəb olan ən ağrılı beynəlxalq bir cinayət kimi uzun illərdir davam etməkdədir. Qloballaşan dünya hadisə və proseslərin tez-tez dəyişməsi, müharibələrin, münaqişələrin, təbii fəlakətlərin, epidemiyaların, epizotiyaların, böyük ekoloji və digər qəzaların səciyyəvi xüsusiyyətləri ilə diqqəti cəlb edir. Ümumilikdə isə istər fövqəladə vəziyyət, istər hərbi vəziyyət və istərsə də müharibə vəziyyəti, onların hər birinə ümumi və fərdi yanaşma tələb edir. Lakin birmənalı şəkildə qeyd etmək olar ki, bu xüsusi vəziyyətlər insan hüquqlarının və azadlıqlarının qorunmasına daha çox önəm verilməsi ilə, onun hər an diqqətdə saxlanılması ilə və müstəsna yanaşma tətbiq olunaraq həyata keçirilə bilər. SSRİ-nin mövcud olduğu dövrdə bu məsələlər əsasən İttifaq dövləti tərəfindən tənzimlənir və idarə olunurdu. Məsələn, 22 iyun 1941-ci ildə «Hərbi vəziyyət haqqında» SSRİ Ali Sovet Rəyasət Heyətinin Fərmanı ölkədə xüsusi rejimin tətbiq olunması ilə yadda qalmışdır.[1] Ümumilikdə isə belə vəziyyətlərin tarixi qədim dövrdən başlanır. 17-19-cu əsrlərdə Avropada ilk dəfə olaraq «fövqəladə vəziyyət institutu» termini dövriyyəyə buraxıldı.[2] Böyük mütəfəkkir Şarl Monteskye yazırdı ki, ən azad xalqların təcrübəsi belə təsdiq edir ki, elə hallar ola bilər ki, qısa bir müddətə də olsa, azadlığın üzərinə «müəyyən örtük» salmaq zərurəti yarana bilər.[3] Rusiya tarixində isə fövqəladə vəziyyət institutu 1881-ci il 14 avqust tarixli «Dövlət asayişinin və ictimai sakitliyin qorunması tədbirləri haqqında Əsasnamə»nin qə-

---

[1] Боев В.И., Кочубей М.А., Новиков А.П. Война и уголовный закон, М., 2009, с.3

[2] Həsənzadə S. Dağlıq Qarabağ münaqişəsi qadın və uşaq hüquqlarının qorunmasına təhdid kimi, məqalə, «Hüquq elminin aktual problemləri»nə həsr olunmuş beynəlxalq elmi konfransın materialları, Türkiyə, Samsun, 2012, s.321-332

[3] Макиавелли Н. Избранные произведения. М.: Худ.лит., 1982, s.92

bul edilməsi ilə başlanılmışdır. 1984-cü ildə Paris Konfransında qəbul edilmiş «Müstəsna vəziyyətlərdə əsas insan hüquqlarına dair minimal standartlar haqqında» beynəlxalq sənəd fövqəladə vəziyyətin tətbiq edilməsinin hüquqi əsaslarını və bu zaman insan hüquqlarının qorunmasının minimum standartlarını müəyyən etmişdir. İnsan hüquqlarının beynəlxalq müdafiəsinin ən vacib problemlərindən biri fövqəladə vəziyyətlər şəraitində insan hüquqlarının, o cümlədən qadın hüquqlarının etibarlı şəkildə qorunmasını təmin etməyə yönəlmişdir.[1]

Qadın hüquqlarının və azadlıqlarının milli konstitusiyalarda - əsas qanunda təsbit olunması və bu normaların inkişaf etdirilməsi, tarixi baxımdan müəyyən təkamül yolu keçmişdir. Qədim tarixə malik olan Azərbaycan ərazisində müxtəlif adlarla mövcud olmuş dövlətlərdə primitiv qaydada olsa da qadının hüquqi statusu quldarlıq və feodalizm cəmiyyətlərinin tələblərinə cavab verən bir məzmunda və eyni zamanda müsəlman hüququnun klassik dəyərləri əsasında zaman-zaman təkmilləşdirilmişdir. Buna baxmayaraq tariximizdə sərkərdə, diplomat və hökmdar kimi məşhur olan qadınlarımız zamanın diqtəsi və reallıqları əsasında böyük nüfuz və hörmət qazanmış, tarixə düşmüşlər. Əlbəttə, belə qadınlarımızın hüquqsuzluğundan danışmaq qeyri-səmimi və qeyri-inandırıcı olardı. İstər tarixi tədqiqat əsərlərində və istərsə də bədii əsərlərdə Azərbaycanın qəhrəman qadınları, millətə və nəslə örnək olan anaları, öz müdrüklüyü, ağlı, zəkası, namusu və zəhmətkeşliyi ilə nümunəvi və ideal bir obraz kimi sevilmişdir.

Azərbaycan tarixində qadınların hüquqi vəziyyəti uzun əsrlər boyu islam hüququnun – şəriətin və fiqhin danışıqsız təsiri altında olmuşdur. Rusiya İmperiyasının yurisdiksiyası altında mövcud olduğu dövrlərdə isə müvafiq olaraq Rusiya qanunverciliyinin yalnız müəyyən sahələrdə, iri şəhərlərdə tətbiqinə tədricən yer ayrılsa da, lakin islam qanunları yenə də əhəmiyyətli təsirə malik olmuşdur.

[1] Bayramova P. Fövqəladə vəziyyət şəraitində insan hüquqlarının müdafiəsi, B., 2004, s.5-6

Sonrakı illərdə, xüsusi ilə Böyük Oktyabr sosialist inqilabından sonra rus qanunvericiliyinə bir çox sahələrdə milli status verilərək geniş surətdə tətbiq edilmişdir.

Keçən əsrin 70-ci illərindən başlayaraq qadın hüquqları və azadlıqları uğrunda mübarizə tarixi mühüm keyfiyyət dəyişiklikləri ilə müşayət olunmuşdur. Belə ki, Birləşmiş Millətlər Təşkilatının 1975-1985-ci illəri «Qadın onilliyi dövrü» elan etməsi dünyada qadınların vəziyyətinə dair ümumiləşdirmələrin, təhlillərin, monitorinqlərin aparılmasını və beynəlxalq konfranslarda müzakirəsi zərurətini irəli sürdü. Bunun nəticəsi olaraq 1975-ci ildə Meksikada keçirilən «Mexiko Konfransı» qadınların vəziyyətinin ümumdünya yaxşılaşdırılması uğrunda mübarizəyə səfərbər etdi. Sonrakı illərdə də «Qadınların vəziyyətinə dair Ümumdünya Konfransları»nı keçirmək bir ənənə şəklini aldı və müzakirə edilən məsələlər barədə müvafiq qərarların qəbul edilməsi üzv dövlətlərin, qadın hüquqlarına ən müxtəlif istiqamətlərdə diqqətin artırılmasını bir vəzifə kimi irəli sürdü. Bu baxımdan Pekin Konfransı öz ictimai-siyasi əhəmiyyətinə və dəyərinə görə son dərəcə əhəmiyyətli olan «Pekin Bəyannaməsi»nin qəbul edilməsi ilə nəticələndi. Belə tədbirlərin dairəsi və əhəmiyyəti getdikcə artmaqdadır. Lakin bütün bunlar qadın hüquqlarının və azadlıqlarının dövlətlərin diqqətdə saxlanılmasına və bu məsələdə səylərin birləşdirilməsinə stimul vermişdir. [1]

Azərbaycanda qadın hüquqlarının və azadlıqlarının araşdırılmasına həsr olunmuş bu tədqiqat əsərinin əsas məqsədində problemin məhz müstəqillik illərində - 1991-2014-cü illəri əhatə edən bir dövrdə araşdırılmasına önəm verilmişdir. Bununla yanaşı, müəyyən məsələlərə daha dərindən və məntiqi olaraq yanaşmanı təmin etmək üçün zəruri olduğu hallarda, qadın hüquqlarının müəyyən tarixi məsələlərinə də yer ayrılmışdır.

15-20 aprel 1917-ci ildə keçirilən Qafqaz müsəlmanlarının birinci Qurultayında «Qadınların vəziyyətinə dair» xüsusi müza-

---

[1] Gender terminlərinin izahlı lüğəti, Bakı, 2005, s.135-138

kirələr aparılaraq, siyasi Komissiyanın qəbul etdiyi Qətnamədə qadınlara və kişilərə bərabər hüquqların verilməsi zəruri hesab edilirdi. 1917-ci ilin fevral ayında Rusiyada baş vermiş inqilabdan sonra, milli azadlıq hərəkatının inamlı mübarizəsi nəticəsində 28 may 1918-ci il tarixdə Şərqdə ilk dəfə olaraq, müstəqil dövlət kimi – Azərbaycan Xalq Cümhuriyyətinin yaradıldığı bəyan edildi və «İstiqlal Bəyannaməsi» qəbul olundu.

30 avqust 1991-ci il tarixdə «Azərbaycan Respublikasının Dövlət Müstəqilliyinin bərpası haqqında» Bəyannamə qəbul edildi. 18 oktyabr 1991-ci il tarixdə qəbul edilmiş «Azərbaycan Respublikasının Dövlət müstəqilliyi haqqında Konstitusiya Aktı»nın ikinci maddəsində göstərilirdi ki, Azərbaycan Respublikası 1918-ci il mayın 28-dən 1920-ci il aprelin 28-dək mövcud olmuş Azərbaycan Respublikasının varisidir.[1]

Milli hökumətin «Müstəqillik Aktı»nda Şərq ölkələrində ilk dəfə olaraq cinsi mənsubiyyətindən asılı olmayaraq bütün vətəndaşlara mülki və siyasi hüquqlar verildi.[2] 18 avqust 1918-ci ildə isə «Azərbaycan təbəəliyi haqqında» Əsasnamə təsdiq edildi. 11 iyun 1919-cu ildə qəbul edilmiş «Müəssisəilər məclisinə seçkilər haqqında» Qanunda ilk dəfə olaraq qadınların seçkilərdə iştirak etmək hüququ təsdiq edildi. Azərbaycan Xalq Cümhuriyyətinin Parlamenti 11 avqust 1919-cu ildə «Azərbaycan vətəndaşlığı haqqında» Qanununda qadın və kişi bərabərliyi təsbit olunurdu. 1918-ci ilin dekabr ayının 10-da Xalq Cümhuriyyəti Parlamentinin iclasına təqdim edilmiş Musavat Fraksiyasının Bəyannaməsində qadınların əmək və sosial təminat hüquqlarının təsbit olunması təklif edilirdi. Ümumiyyətlə, Demokratik Cümhuriyyətin fəaliyyətində, Müəssisələr Məclisinə seçkilərdə, seçkili orqanların fəaliyyətinin təşkilində və hüquqi əsaslarının yaradılmasında qadınların rolunun genişləndirilməsinə xüsusi diqqət yetirilirdi. Bu həmin dövrdə qəbul

---

[1] Azərbaycan Respublikasının Dövlət müstəqilliyi haqqında Konstitusiya Aktı, Bakı, 1994, s.4.

[2] Azərbaycan Xalq Cümhuriyyəti (1918-1920) Parlament (stenoqrafik hesabatlar), 2 clddə, I.c., Bakı, 1998, s.402

edilmiş sənədlərdə və bu dövrün tarixinə dair araşdırmalarda öz təsdiqini tapır. Bu da ondan irəli gəlirdi ki, tarixən ölkəmizdə qadına bir ana kimi, bir bacı kimi, bir qız kimi, bir xanım kimi həmişə böyük hörmət və diqqət göstərilmişdir. Şərqdə ilk Demokratik Respublikanın elan olunduğu vaxtdan etibarən rəsmi şəkildə Azərbaycanda qadın və kişi hüquqlarının bərabərliyi elan edilmiş və onun real surətdə həyata keçirilməsi üçün əhəmiyyətli işlər görülmüşdür. 1921-ci ilin fevral ayında Azərbaycan hökumətinin başçısı Nəriman Nərimanovun rəhbərliyi ilə keçirilmiş Azərbaycanın bitərəf qadınlarının I Qurultayı Şərqdə qadın hərəkatının yüksəlişində misilsiz rol oynamışdır.[1] Eləcə də Zaqafqaziya qadınlarının I Qurultayının 1922-ci ilin may ayında məhz Bakıda çağırılması və keçirilməsi Azərbaycan qadınlarının müsəlman Şərqinin həyatında əhəmiyyətli rol oynamasından xəbər verirdi. Bu istiqamətdə hələ 1923-cü ildən Bakıda «Şərq qadını» adlı jurnalın nəşrə başlaması qadın maarifçiliyinin və qadın hüquqlarının təbliğində tarixi bir rol oynamışdır. Bu ənənə SSRİ tərkibində olduğu illlərdə də Azərbaycanda davam etmiş, qadının rolu daim dinamik inkişafda olmuş, ictimai-siyasi həyatda onların rolu artırılmışdır. Azərbaycan SSR-nın fəaliyyət göstərdiyi dövrdə ölkənin əldə etdiyi bütün qələbələrdə qadınların əhəmiyyətli xidmətləri olmuş, onlar səhiyyədə, təhsildə, idmanda, elmdə, dövlət quruculuğunda və ümumiyyətlə ictimai-siyasi həyatda fəal iştirak etmişlər.

Azərbaycan tarixində erməni – azərbaycanlı münaqişəsinin və represiyaların bütün əsas ağırlığı ən çox azərbaycanlı qadınların üzərinə düşmüşdür. 1905-1907, 1918-1920, 1938-1948-ci illərdə ölkə həyatında baş vermiş ciddi proseslər qadın hüquqlarına və azadlıqlarına maddi və mənəvi zərbələr vurmuşdur. Buna baxmayaraq, məkrli erməni siyasəti keçən əsrin 80-ci illərindən başlayaraq yenidən fəallaşmağa başlamış və ölkəmizə bu günə qədər davam edən ciddi problem yaratmışdır.

---

[1] Azərbaycan Respublikasının Konstitusiyası, Bakı, «Hüquq ədəbiyyatı», 2009, s.11-12

20 fevral 1988-ci ildə Azərbaycan SSR-nin tərkibində olan Dağlıq Qarabağ Muxtar Vilayət Sovetinin qanunsuz qərarı ilə Azərbaycan, hələ SSRİ-nin mövcud olduğu dövrdə Dağlıq Qarabağ münaqişəsinə cəlb edilmişdir. 21 sentyabr 1988-ci ildə sabiq Dağlıq Qarabağ Muxtar Vilayətində xüsusi vəziyyət elan edilmiş və «qadağan saatı» tətbiq edilmişdir. 12 yanvar 1989-cu ildə isə SSRİ Ali Sovetinin Rəyasət Heyəti «Dağlıq Qarabağ Muxtar Vilayətində xüsusi idarə forması» müəyyən etmiş və ictimai asayişi qorumaqdan ötrü SSRİ-nin daxili işlər orqanlarının 5400 nəfərdən ibarət əməkdaşını bu işə cəlb etmişdir.[1] Bütün bu tədbirlərə baxmayaraq 90-cı illərdən başlayaraq Dağlıq Qarabağ münaqişəsi insan hüquqlarının, o cümlədən qadın hüquqlarının pozulmasının mühüm səbəblərindən birinə çevrilmiş və bu proses bu günə qədər davam etməkdədir. Milli zəmində azərbaycanlılara qarşı soyqırımın tarixi qədim olsa da, lakin keçən əsrin 90-cı illərində ilk qurbanlar, iki azərbaycanlı gənc – Əli və Bəxtiyar milli münaqişə zəminində erməni seperatçıları tərəfindən qətlə yetirilmişlər.[2] Həmin ərəfədə «Ermənistan» adlanan ərazidən iki yüz mindən çox azərbaycanlı öz daimi yaşayış yerlərindən, tarixən onlara məxsus olan qədim torpaqlarından zorla köçürülmüşlər. Ümumilikdə isə son illərin məlumatlarından görünür ki, Ermənistanın Azərbaycana hərbi təcavüzü nəticəsində 20 mindən artıq azərbaycanlı həlak olmuş, 4866 nəfər itkin düşmüş, 100 min nəfərə qədər insan yaralanmış, 50 min nəfərə qədər insan bədəninin müxtəlif nahiyələrindən xəsarətlər almışlar. Eləcə də təcavüz nəticəsində 17 min kvadrat kilometr kənd təsərrüfatına yararlı torpaq sahəsi işğal altında qalmış, 900 yaşayış məntəqəsində olan 130939 ev, 2389 sənaye və kənd təsərrüfatı obyektləri, 1025 təhsil, 798 səhiyyə, 1510 mədəniyyət müəssisələri, 5198 kilometr avtomobil yolları, 348 körpü, 76940 kilometr elektrik xətti, 7568 kilometr su xətti dağıdılmışdır. Münaqişə ilə bağlı hətta BMT-nin Təhlükəsizlik Şurası tərəfindən

---

[1] Alışanlı A. Qarabağ problemi, B., 2009, s.20-21
[2] Yenə orada, s. 20-21

822, 853, 874 və 884 saylı qətnamələr çıxarmasına baxmayaraq, onların heç biri indiyə qədər icra olunmamışdır. Bütün bu vəziyyət Azərbaycanda qadın və uşaq hüquqlarının kütləvi şəkildə pozulmasına gətirib çıxarmış və bu təhdid bu gün də davam etməkdədir.[1]

Beynəlxalq hüquq, münaqişələr və müharibələr vəziyyətində insan hüquqlarının mühafizəsinin və müdafiəsinin əsas elementlərini və onun icra mexanizmlərini ətraflı tənzim etmişdir.[2] Müstəqillik illərində Azərbaycanda milli səviyyədə bu istiqamətdə zəruri olan normativ hüquqi aktlar qəbul edilmiş, mexanizmlər yaradılmış, tədqiqatlar aparılmış, bir çox məsələlərə aydınlıq gətirilmişdir. Qanunvericiliyə görə «müharibə vaxtı» dedikdə, Azərbaycan Respublikasının xarici dövlətlə müharibə vəziyyətində olması vəziyyəti başa düşülür. Aydındır ki, müharibənin başlanılması və başa çatması vaxtının dəqiq müəyyən edilməsi bir çox hüquqi faktların aydınlaşdırılması üçün olduqca əhəmiyyətlidir. Bu mənada müharibənin elan olunmasının və ya hərbi əməliyyatların faktiki aparılmasının ilk günü və ilk saatı müharibənin başlanması, hərbi əməliyyatların faktiki olaraq dayandırıldığı gün və saat isə müharibənin sonu hesab edilir. «Döyüş şəraiti» isə hərbi hissənin və ya bölmənin bilavasitə düşmənə qarşı dayanması və faktiki olaraq döyüş əməliyyatının aparılması vəziyyətini əhatə edir. «Döyüş şəraiti» və «müharibə vaxtı» anlayışları heç şübhəsiz biri-birindən əhəmiyyətli dərəcədə fərqlənir. «Döyüş şəraiti» yalnız müharibə vaxtı deyil, hər hansı bir döyüş tapşırığının yerinə yetirilməsi məqsədilə, hətta dinc dövrdə də mövcud ola bilər.[3]

Ekstremal şərait – hərbi vəziyyət, müharibə vəziyyəti, fövqəladə vəziyyət və digər bu kimi xüsusi vəziyyətlərin hüquqi tənzimlənməsi sahəsində müstəqillik illərində ən zəruri olan normativ

[1] İbayev V. Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi beynəlxalq hüquq müstəvisində. B., 2006, s.52-53 Иванов Г.И. Права человека, Минск, «Дикта», 2011, с.112-114;
[2] Yenə orada
[3] Azərbaycan Respublikasının Cinayət Məcəlləsi, B., 2011, s.231

hüquqi baza yaradılmışdır. Bu sənədlərin hər biri xüsusi şəraitin ayrı-ayrı məsələlərinin, o cümlədən insan hüquqlarının mühafizəsi və müdafiəsinin təmin olunması sahəsində vacib olan nizamlama məsələlərini reqlamentləşdirmişdir. 6 yanvar 1994-cü il tarixdə «Hərbi vəziyyət haqqında» Azərbaycan Respublikasının Qanunu qəbul edilmişdir. Sonrakı illərdə də ölkənin real müharibə vəziyyətində olması nəzərə alınaraq «döyüş şəraiti»nin, «hərbi vəziyyət»in, «fövqəladə vəziyyət»in və «müharibə vəziyyəti»nin hüquqi rejimlərinin müəyyən edilməsi sahəsində bir çox normativ hüquqi aktlar qəbul edilmişdir. Bütün bu sənədlər Azərbaycan Respublikasının referendum yolu ilə qəbul edilmiş 1995-ci il Konstitusiyasına əsaslanır. Belə ki, Konstitusiyanın 111-ci maddəsi hərbi vəziyyətin elan edilməsi, 112-ci maddəsi isə fövqəladə vəziyyətin tətbiq olunmasının hüquqi əsaslarını müəyyən etmişdir. Bu konstitusion normalar hazırlanarkən, müzakirə edilərkən və qəbul edilərkən beynəlxalq standartlara əsasən tam riayət edilmişdir.[1]

Azərbaycan Respublikası ərazisinin müəyyən hissəsi faktiki işğal olunduqda, xarici dövlət ölkəmizə qarşı müharibə elan etdikdə və ya silahlı hücum təhlükəsi yarandıqda, blokada vəziyyəti olduqda Azərbaycan Respublikasının Prezidenti ölkənin bütün ərazisində və ya onun ayrı-ayrı ərazilərində hərbi vəziyyət elan etmək hüququna malikdir. Fövqəladə vəziyyət isə eyni zamanda Azərbaycan Respublikasının ərazi bütövlüyünün pozulması hallarında, dövlətə qarşı qiyam və kütləvi iğtişaşlar başlandığı hallarda, təbii fəlakətlər və digər qəzalar baş verdikdə, ölkənin hakimiyyət və idarəçilik orqanlarının, vətəndaşların həyatının və təhlükəsizliyinin təhlükə altına alındığı hallarda ölkə prezidentinin ayrı-ayrı ərazilərdə fövqəladə vəziyyət tətbiq etmək səlahiyyətləri vardır. Belə qərarlar barədə prezident 24 saat müddətində qəbul etdiyi fərmanı qanunverici orqana – Respublikanın Milli Məclisinə təqdim etməlidir.[2]

---

[1] Cəfərov İ. Azərbaycan Respublikası Konstitusiyasının şərhi, B., 2010, s.545-555

[2] Azərbaycan Respublikasının Konstitutsiyası, B., 2011, s. 57-58

Azərbaycan Respublikası Prezidentinin 23 may 2007-ci il tarixli sərəncamı ilə təsdiq edilmiş «Milli Təhlükəsizlik Konsepsiyası»[1] və Azərbaycan Respublikası Milli Məclisinin 8 iyun 2010-cu il tarixli qərarı ilə təsdiq edilmiş «Azərbaycan Respublikasının hərbi doktrinası»[2] müharibə vəziyyətində olan ölkəmiz üçün talehyüklü məsələlərin kompleks həlli sahəsində dövlət siyasətinin əsas istiqamətlərini müəyyən etmişdir. Ölkədə «Səfərbərlik hazırlığı və səfərbərlik haqqında», «Fövqəladə vəziyyət haqqında», «Hərbi vəziyyət haqqında» Qanunların qəbul edilməsi, Fövqəladə Hallar Nazirliyinin yaradılması, habelə bütün bu məsələlərlə bağlı hüquq tənzimlənməsi problemlərinin beynəlxalq standartlara müvafiq olaraq hazırlanması, nisbətən daha çox zərurət duyulan qadın və uşaq hüquqlarının qorunmasına və müdafiəsinə diqqətin artırılması səciyyəvi xarakter daşımışdır.

«Müharibə qurbanlarının müdafiəsinə dair» 12 avqust 1949-cu il Cenevrə Konvensiyasının tələbləri, BMT-nin İnsan Hüquqları Komissiyasının 58-ci sessiyasının qəbul etdiyi «İtkin düşmüş şəxslər haqqında», habelə «Hərbi münaqişələr zamanı, sonradan həbs olunanlar da daxil olmaqla, girov götürülmüş qadın və uşaqların azad edilməsi haqqında» Qətnamələri Ermənistan Respublikası tərəfindən pozulur. Belə ki, Cenevrə Konvensiyasının şərhinə həsr olunmuş sənədin 27-ci maddəsində göstərilir ki, bütün mülki əhalinin istifadə etdiyi ümumi müdafiədən əlavə, qadınlar onların şərəfinə hər cür qəsdən xüsusi olaraq müdafiə edilməlidirlər. Bu onların milli mənsubiyyətindən, irqindən, dini etiqadından, yaşayış, ailə və sosial vəziyyətindən asılı olmayıb, onların qadınlıq ləyaqətindən irəli gəlir. Bu mənada BMT Baş Məclisinin 14 dekabr 1974-cü il tarixli 3318 saylı qətnaməsi ilə təsdiq edilmiş «Qadın və uşaqların fövqəladə hallarda, silahlı münaqişələr dövründə müdafiəsi haqqında Bəyannamə»[3] mühüm əhəmiyyət kəsb edir. Orada

[1] Azərbaycan Respublikasının Milli Təhlükəsizlik Konsepsiyasi, B., «Hüquq ədəbiyyatı» nəş., 2009,

[2] Azərbaycan Respublikasının hərbi doktrinası, B., «Hüquq ədəbiyyatı» nəş., 2010

[3] Beynəlxalq sənədlər toplusu, I cild, B., 2005, s.753-754

göstərilir ki, mülki əhaliyə, xüsusən onun ən müdafiəsiz hissəsi olan qadınlara və uşaqlara saysız-hesabsız əzablar gətirən «hücum etmə əməliyyatı»nın tətbiqi yolverilməzdir. Buna görə də Bəyannamənin 5-ci maddəsi birmənalı şəkildə müharibə edən tərəflərin hərbi əməliyyatların gedişində və ya işğal edilmiş ərazilərdə həbsxanaya salma, işgəncə vermə, güllələnmə, kütləvi həbsə alma, kollektiv cəzalandırma, qadınlara və uşaqlara qarşı törədilən bütün repressiya və qəddar, insanlıqdan kənar davranış formalarını cinayətkar əməl kimi qiymətləndirmişdir.[1]

BMT Baş Məclisinin Vyana Bəyannaməsində (1993-cü il) və onun fəaliyyət proqramında birmənalı şəkildə göstərilir ki, silahlı münaqişə şəraitində qadınların insan hüquqlarının pozulması beynəlxalq hüququn əsas prinsiplərinin pozulması kimi dəyərləndirilməli və belə əməllərə görə ən ciddi tədbirlər görülməlidir. Bu mövqe BMT Baş Məclisinin «Qadınlara münasibətdə zorakılığın aradan qaldırılması haqqında Bəyannamə»sində və 1995-ci il Pekin Bəyannaməsində də öz əksini tapmışdır.[2] Ermənistanın işğalçı ordusu Azərbaycan vətəndaşlarının beynəlxalq hüquqla tanınan insan hüquq və azadlıqlarını sistemli şəkildə və qeyri-insani formada, kütləvi surətdə pozur.

«Azərbaycan Respublikasının əsir və itkin düşmüş, girov götürülmüş vətəndaşlarla əlaqədar Dövlət Komissiyası»nın məlumatlarından aydın olur ki, hazırda əsir və itkin düşmüş, habelə girov götürülmüş şəxslər siyahısında olan 4211 nəfərin 256 nəfərini qadınlar, 47 nəfərini uşaqlar təşkil edir. Əsir götürülmüş 783 nəfərin isə 46 nəfərini qadınlar, 18 nəfərini uşaqlar təşkil edir. Komitənin gördüyü tədbirlər nəticəsində əsirlikdən xilas edilmiş 1400 nəfərdən çox insanın 343 nəfəri qadın, 169 nəfəri isə uşaq olmuşdur. Xocalı soyqırımı zamanı qətlə yetirilmiş 613 nəfərin 63 nəfərini azyaşlı uşaqlar, 106 nəfərini isə qadınlar təşkil etmiş, 25 uşaq hər iki valideynini, 130 uşaq valideynlərinin birini itirmiş, 8 ailə tama-

---

[1] İbayev V. Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi beynəlxalq hüquq müstəvisində. B., 2006, s.110

[2] Yenə orada

milə öldürülmüşdür. Bu zaman xəsarət alan 487 nəfərdən 76 nəfəri uşaqlar olmuşdur. Bu illər ərzində minaya düşmüş 350 nəfər uşağın da 56 nəfəri həlak olmuş, 294 nəfəri isə yaralanmışdır... Xocavənd rayonunun işğalı zamanı girov götürülmüş 117 nəfərin 50 nəfəri, Horadizin işğalı zamanı girov götürülmüş 40 nəfərin 29 nəfəri, Gorazilli kəndinin işğalı zamanı girov götürülmüş 40 nəfər, Kəlbəcər rayon Başlıbel kəndindən girov götürülmüş 29 nəfər qoca qadın və uşaq dərhal qətlə yetirilmiş, onların meyitləri üzərində vandalizm əməlləri törədilmişdir... Bəzi əsirlərin və girovların bədənləri üzərində işgəncələr, eksperimentlər aparılmış, transplantasiya məqsədilə ayrı-ayrı hissələr kəsilib götürülmüşdür.[1]

Bu gün də Dağlıq Qarabağ münaqişəsinin davam etməsi qadın və uşaq hüquqlarının mühafizəsi və etibarlı müdafiəsi üçün ciddi problemlər yaradır. İnsan hüquq və azadlıqlarının müdafiəsi sahəsində beynəlxalq çağırışlar regionda baş verən faciəvi hadisələr kontekstində olduqca miskin görünür. Ermənistan beynəlxalq birliyin üzvü olsa da, faktiki olaraq üzərinə götürdüyü öhdəlikləri, BMT-nin məlum dörd qətnaməsinin icrasını nümayişkaranə surətdə icra etmir.

Ağdamda, Tovuzda və digər sərhəd rayonlarımızda, suda axıdılan uşaq oyuncağına yerləşdirilmiş bombanın partlaması nəticəsində Rusiyadan qonaq gəlmiş azərbaycanlı məktəblinin həlak olması və ya məktəbə gedən şagirdin Ağdam rayonunda snayperdən açılmış atəşlə elə yoldaca qətlə yetirilməsi yaxın günlərimizin acı reallıqlarıdır. Belə faktlar kifayət qədər rəngarəng və tez-tez təkrarlanan ağır hadisələrdir. Beynəlxalq təşkilatlar, o cümlədən BMT-nin, Qırmızı Aypara və Qırmızı Xaç Komitələrinin, ATƏT-in müvafiq qurumlarının səyləri hələlik müsbət nəticələr vermir. Atəşkəs elan olunsa da, Ermənistan dövləti faktiki olaraq müharibəni açıq şəraitdə davam etdirir. Sanki «atəşkəs» adı altında erməni siyasəti fasiləsiz olaraq məkirli şəkildə həyata keçirilir. Bu da

[1] Səmədov E. Ermənisttanın Azərbaycana qarşı təcavüzününü qurbanı olmuş uşaqlar və qadınlar. Beynəlxalq konfransın materialları, B., 2009, s. 125-134

qadın və uşaq hüquqlarının pozulması hallarının sistemli və ardıcıl şəkil almasına gətirib çıxarmışdır. Proseslərin belə ardıcıl davam etməsi və ağır nəticələr verməsi ciddi tədbirlər görülməsinə zərurət yaradır. Hesab edirəm ki, qadın və uşaqlara qarşı iyirmi ildən çox davam edən bu faktların mənzərəsini yaradan nəşrlərin hazırlanması və müxtəlif dillərə tərcümə edilərək dünya ictimaiyyətinə çatdırılması olduqca vacibdir. Bu gün beynəlxalq və milli səviyyədə hamı insan hüquqlarının müdafiəsindən və mühafizəsindən danışsa da, ölkəmizdə qadın və uşaq hüquqları erməni seperatçıları tərəfindən demək olar ki, hər gün pozulur.

Ulu Öndər Heydər Əliyev parlamentdə Dağlıq Qarabağ münaqişəsinin vəziyyətinə dair aparılan müzakirələrdə haqlı olaraq demişdir ki, biz Azərbaycan xalqının hüquqlarının kütləvi şəkildə, vəhşicəsinə pozulmasını dünya ictimaiyyətinə ön planda çatdırmalıyıq və bunu yaymalıyıq, bunu bildirməliyik. Bu, bizim tarixi vəzifəmizdir, hər bir azərbaycanlının tarixi vəzifəsidir. Hərə öz imkanı çərçivəsində gərək bu vəzifəni yerinə yetirsin.[1]

Qadın və uşaq hüquqlarının müdafiəsi sahəsində milli təşkilatlar Ermənistan dövlətinin qadın və uşaqlara qarşı törətdikləri sülh və insanlıq əleyhinə olan müharibə cinayətlərinə dair faktları toplamaqla beynəlxalq səviyyədə mühakimə qurulması üçün tədbirlər görməlidir. Belə tədbirlərdən biri xüsusi statuslu məhkəmə orqanlarının yaradılması barədə təşəbbüsün qaldırılması, erməni faşistlərinin əməllərinin beynəlxalq tribunala verilməklə, onların layiqincə cəzalandırılması üçün tədbirlər görülməsinə istiqamətləndirilməlidir.

---

[1] «Azərbaycan» qəzeti, 19 dekabr 1997; Həsənzadə S.B. Müstəqillik illərində Azərbaycanda beynəlxalq hüququn dinamikası və aktual problemləri, "Beynəlxalq hüquq və beynəlxalq münasibətlər" şöbəsinin məqalələr toplusu, B., 2013, s.117-124; Həsənzadə S.B. Heydər Əliyevin Azərbaycan qanunvericiliyində qadın hüquqlarinin təsbit olunmasi sahəsində rolu, Ulu Öndər Heydər Əliyevin anadan olmasının 90-cı il dönümünə həsr edilmiş beynəlxalq elmi-praktik Konfransın materialları, Bakı, 06 may 2013, s.104-110

Azərbaycanda fəaliyyət göstərən insan hüquqlarının müdafiəsinə dair beynəlxalq və regional təşkilatlarla əməkdaşlıq genişləndirilməli, hər bir fakt haqqında onların vasitəsilə, habelə birbaşa həyata keçirilən tədbirlər sistemi hazırlanıb həyata keçirilməlidir. Bu zaman qadın və uşaq hüquqlarının müdafiəsi sahəsində Azərbaycanda və Ermənistanda fəaliyyət göstərən beynəlxalq və regional təşkilatların fəaliyyətsizliyi, ən aşağısı laqeydliyi də ciddi surətdə diqqətə çatdırılmalıdır. Onların fəaliyyətindəki laqeydlik, biganəlik, bürokratiya, süründürməçilik, qətiyyətsizlik müzakirə edilməli və onlardan ictimai haqq-hesab tələb edilməlidir. Bu gün Azərbaycanda və Ermənistanda münaqişə ilə bağlı beynəlxalq missiyanı həyata keçirən çoxsaylı qurumlar vardır. Buna baxmayaraq tez-tez təkrarlansa da, münaqişə nəticəsində girov götürülən əsirlərin, öldürülmüş şəxslərin meyitlərinin vaxtında qaytarılması istiqamətində səmərəli və intensiv tədbirlər görülmür. Ermənistanın günahı üzündən sərhədyanı regionlarda kənd təsərrüfat işlərinin həyata keçirilməsində ciddi problemlər vardır. Ekologiya qəsdən korlanır, meşələr yandırılır, heyvanat aləmi məhv edilir, sular zəhərlənir, tarixi abidələr dağıdılır. Ümumilikdə, Ermənistanın silahlı qüvvələri münaqişə dövründə azərbaycanlı qadınlara qarşı soyqırım, köləlik, əhalini deportasiya etmə, cinsi zorakılıq, işgəncə, muzdluluq, müharibə qanunlarını və adətlərini pozma, silahlı münaqişə zamanı beynəlxalq humanitar hüquq normalarını pozma, hərbi soyğunçuluq və digər bu kimi sülh və insanlıq əleyhinə olan və müharibə cinayətləri törədilməsinə dair çoxsaylı faktlar vardır. Münaqişə başlayandan sonra törədilən və bu gün də davam edən cinayət əməllərinin, o cümlədən qadınlara və uşaqlara qarşı törədilən ağır cinayət əməlləri ölkənin istintaq orqanlarının topladığı çoxsaylı dəlillərlə mübahisəsiz qaydada sübut olunur.

Münaqişə tərəflərinə sərbəst gedib-gələn beynəlxalq missiyanın əməkdaşları ən sadə problemlərin belə həllini təmin etməkdə acizdirlər. Nəzarətsiz zonalarda narkotik plantasiyalar salınır və narkotiklər istehsal edilir. Bu fakt BMT-nin tribunasından dəfələrlə səslənmişdir, lakin BMT-nin Narkotiklər və Cinayətkarlıq İdarə-

si bu barədə tədbir görmək niyyətində deyildir, onlar sadəcə olaraq bu faktları təkrar-təkrar elan etməklə vəzifələrini bitmiş hesab edirlər. Müvafiq beynəlxalq və regional təşkilatların regionda törədilən cinayətlərə, o cümlədən insan hüquq və azadlıqlarına qəsd edən əməllərə qarşı aşkar hərəkətsizliyi iyirmi ildən çoxdur ki, davam edir. Bu ümumiyyətlə beynəlxalq ictimaiyyətin erməni faşistlərinin qəddar cinayətlərinə qarşı laqeydlikdir. Bütün bunlar onu göstərir ki, hər iki ölkədə səmərəli hüquqi tədbirlər həyata keçirmək iqtidarında olan işlək mexanizmlərin yaradılması barədə tədbir görmək vaxtı çatmışdır. Belə təəsürat yaranır ki, beynəlxalq qurumlar münaqişənin uzanmasından və dərinləşməsindən narahat deyillər. Dağlıq Qarabağ ərazisində və ona yaxın bölgədə qadın hüquqları bu gündə intensiv şəkildə pozulmaqdadır.

Bu gün dünyada çoxsaylı beynəlxalq təşkilatlar fəaliyyət göstərirlər. Onların bir hissəsi illərlə uzanan münaqişələrin müxtəlif məsələlərinin həlli ilə məşğuldurlar. Lakin aydındır ki, təkcə beynəlxalq təşkilat yaratmaq məsələni həll etmir. Bu gün BMT kimi bir qurum öz qərarlarını icra etmək iqtidarında deyilsə, bu onun nüfuzuna ciddi təsir edir, onu hörmətdən salır, onun fəaliyyətini şübhə altına alır. Ümumilikdə isə sual yaranır: Öz qərarını icra etmək iqtidarına malik olmayan beynəlxalq qurumun üzv dövlətlərin milyonlarla vəsaiti hesabına saxlanılmasına bu gün zərurət vardırmı? Ona görə də indi BMT-yə inam və ümid azalmışdır. Bununla belə onu əvəz edəcək bir qurum bu gün varmı? Suallar çoxdur və düşündürücüdür. Lakin çıxış yolu tapılmalıdır.

Dövlətlərarası münaqişələrin və mübahisələrin qloballaşma dövründə daha da artacağı və dərinləşəcəyi şübhə doğurmur. Belə bir vəziyyətdə beynəlxalq təşkilatların qərarlarının icrasını təmin edən hərbi və ya inzibati qurumların işlək mexanizmlərinin yaradılması zamanın tələbidir. Məsələn, belə bir missiyanın NATO tərəfindən həyata keçirilməsinin mümkünlüyü məsələsinin nəzərdən keçirilməsi vaxtı çatmışdır. İstər NATO və istərsə də yeni yaradılacaq hər hansı başqa xüsusi qurum üzv dövlətlərin birgə səy-

ləri və razılıqları ilə yaradılmalı, onun fəaliyyətinin və mexanizmlərinin hüquqi tənzimlənməsi təmin edilməlidir.

Münaqişə zonalarında, habelə ekstremal vəziyyətlərdə qadın və uşaq hüquqlarının mühafizəsini təmin edən tədbirlərə diqqətin artırılması vaxtı çatmışdır. Bunu ölkəmizin Dağlıq Qarabağ münaqişəsi kontekstində üzləşdiyi reallıqlar və beynəlxalq hüququn prinsipləri tələb edir. Bunu sülhsevər Azərbaycan xalqının qadın və uşaq hüquqlarının qorunmasına olan böyük rəğbəti, məhəbbəti və istəyi tələb edir.

Avropanın beynəlxalq və regional əhəmiyyətli təşkilatları yarandığı ilk gündən başlayaraq, insan hüquqları və azadlıqlarının tənzimlənməsinə, o cümlədən qadın hüquqlarının və azadlıqlarının qorunmasına dair Avropa Konvensiyasını qəbul etmiş və bu istiqamətdə müvafiq Komitələr yaradılmışdır. Belə ki, Avropa Şurası bu qitədə ən böyük regional təşkilatlardan biri olmaqla, 4 noyabr 1950-ci ildə Avropa Şurasının üzvləri tərəfindən «İnsan hüquqlarının və əsas azadlıqlarının müdafiəsi haqqında» qəbul etdiyi Konvensiya 3 sentyabr 1953-cü ildən qüvvəyə mindi. Fərqli prosedur qaydada, yəni Amerikaarası Konfransda 20 noyabr 1969-cu ildə qəbul edilmiş insan hüquqları üzrə Amerika Konvensiyası 12 Latın Amerikası dövləti tərəfindən imzalanmışdır. Bu Konvensiya, eləcə də Afrika Xartiyası, Avropa Şurasının qəbul etdiyi «İnsan hüquqları və əsas azadlıqlarının müdafiəsi haqqında» Konvensiya məzmun etibarı ilə çox oxşar olsalar da, üzv dövlətlərin sayına və dairəsinə görə əhəmiyyətli dərəcədə fərqlənirlər. Bütün bu beynəlxalq və regional sənədlərdə qadın hüquqları və azadlıqları öz ifadəsini tapmış və qadın hüquqlarının məişətdə və ictimai həyatda intensiv formada inkişaf etdirilməsinə xüsusi önəm verilmişdir.

İnsan hüquqlarının və azadlıqlarının müdafiəsi haqqında 04 noyabr 1950-ci ildə Romada qəbul edilmiş Avropa Konvensiyasının müddəaları insan hüquqlarına hörmət olunması öhdəliyini bəyan etməklə, insanların yaşamaq, azadlıq, toxunulmazlıq, fikir, vicdan, din, ailə, nikah hüquqlarını tanımış, köləliyi, məcburi əməyi, işgəncələri, qanunsuz cəzalandırmanı, ayrı-seçkiliyi qadağan etmişdir. Konvensiyada insanların ədalətli məhkəmə, səmərəli müdafiə hüququ vacib hesab edilmiş,

insanların yığıncaq və birləşmək azadlığı, şəxsi və ailə həyatına hörmət hüququ tanınmaqla hüquqlardan sui-istifadənin qadağan edilməsi, əcnəbilərin siyasi fəaliyyətinin məhdudlaşdırılması öz ifadəsini tapmışdır. 20 mart 1952-ci il tarixli 01 saylı Protokolla mülkiyyətin müdafiəsi, təhsil hüququ, azad seçki hüququ, 16 oktyabr 1993-cü il tarixli 4 saylı Protokolla borca görə azadlıqdan məhrum etmənin qadağan edilməsi, hərəkət etmək azadlığı, vətəndaşın və əcnəbilərin kollektiv çıxarılmasının qarşısının alınması, 28 aprel 1983-cü il 6 saylı Protokolla ölüm cəzasının, o cümlədən müharibə zamanı ölüm cəzasının ləğv edilməsi, 22 noyabr 1984-cü il tarixli 7 saylı Protokolla əcnəbilərin çıxarılmasına dair prosessual təminatlar, cinayət işlərində şikayət vermək hüququ, məhkəmə səhvinə görə kompensasiya, eyni əmələ görə şəxsin iki dəfə məhkum edilməmək və ya cəzalandırılmamaq hüququ, ərin və arvadın hüquq bərabərliyi, 4 noyabr 2000-ci il tarixli 12 saylı Protokolla isə ayrı seçkiliyin ümumiyyətlə qadağan edilməsi vacib hesab edilmişdir.

Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin məlumatlarına görə ölkə əhalinin 1 yanvar 2013-cü il tarixə olan sayı 9356.5 min nəfər olmuşdur. Əhalinin 4966.2 min nəfəri və ya 53.1%-i şəhər, 4390.3 min nəfər və ya 46.9% -i kənd yerlərində yaşamışdır. Ölkə əhalisinin 4648.8 min nəfərini və ya 49.7%-ni kişilər, 4707.7 min nəfərini və ya 50.3%-ni qadınlar təşkil etmişlər. Bu da onu göstərir ki, qloballaşma konteksində cəmiyyətdə baş verən ciddi iqtisadi, siyasi, sosial və digər proseslər nəticəsində kənd əhalisinin sayı tədricən şəhər əhalisinin sayına yaxınlaşdığı halda, qadınların sayı son illər kişilərin sayını üstələmişdir. Əhalinin orta gözlənilən ömür uzunluğu ölkə üzrə 73.9 il olduğu halda, kişilərin ömür uzunluğu 71.3 il, qadınların ömür uzunluğu 76.6 il təşkil etmişdir. Bu da dünyanın bir çox inkişaf etmiş ölkələri ilə müqayisədə orta ömür yaşının ölkəmizdə əhəmiyyətli dərəcədə artdığını göstərir.

Təhlil edilən dövrdə ölkə əhalisinin sayında əmək qabiliyyətli insanların ümumi sayı 6473.6 min nəfər təşkil etmişdir. Bunun da 3263.5 min nəfəri və ya 50.4%-i kişilərin, 3210.1 min nəfəri və ya 49.6%-i qadınların payına düşür. Bütün bunlar onu göstərir ki,

ölkədə dinamik şəkildə inkişaf edən tərəqqi, ölkə əhalisinin sosial həyatında qadınların rolunu əhəmiyyətli dərəcədə yüksəltmiş, ölkənin ictimai-siyasi, sosial və iqtisadi həyatda onların rolu artmışdır. Təhllillər göstərir ki, ölkədə illik əhali artımı bu dövrdə 119.5 min nəfər və ya hər min nəfərə düşən artım 13 nəfər, doğulanların sayı ildə 174.5 min nəfər və ya hər min nəfərə 19 nəfər təşkil etmişdir. Bu dövrdə rəsmi nikahların sayında əvvəlki illərə nisbətən azalma baş vermişdir. Ümumiyyətlə hər min nəfər düşən nikahların sayı əvvəlki illə müqayisədə təxminən 1.1% azalmışdırsa, boşananların sayı 2013-cü ildə 0.4 nəfər artmışdır. Buna münasib olaraq ölkədə hər min nəfərə düşən boşananların sayı faiz etibarı ilə cüzi də olsa, artmağa meylli olmuşdur.[1]

Təhlil edilən dövrdə dövlət həyatında, cəmiyyətdə və ailə münasibətlərində baş verən müsbət proseslər ayrı-ayrı təzahürlərə, sosial və kriminal proseslərə bu və ya digər dərəcədə öz təsirini göstərmişdir. Baş verən dəyişikliklər ailədə, o cümlədən qadınlar və uşaqlar tərəfindən törədilən cinayətlərin dinamikasında özünü göstərir. Məlumatlarından görünür ki, 1990-cı ildə 1075, 1991-ci ildə 935, 1992-ci ildə 670, 1993-cü ildə 727, 1994-cü ildə 902, 1995-ci ildə 1171, 1996-ci ildə 1172, 1997-ci ildə 1339, 1998-ci ildə 1296, 1999-cu ildə 1102, 2000-ci ildə 1180, 2001-ci ildə 1693, 2002-ci ildə 2419, 2003-cü ildə 2217, 2004-cü ildə 2358, 2005-ci ildə 2520, 2006-cı ildə 2675, 2007-ci ildə 2505, 2008-ci ildə 2573, 2009-cu ildə 2665, 2010-cu ildə 2318, 2011-ci ildə 2074, 2012-ci ildə 1677, 2013-cü ildə isə 1012 cinayət hadisəsi qadınlar tərəfindən törədilmişdir. Strukturuna görə qadınlar tərəfindən törədilən cinayətlərin 36.1%-i dələduzluq, 14.1%-i sağlamlığa qəsdən yüngül zərər vurmaq, 8.6%-i oğurluq, 7.7%-i insan alveri, 4.9%-i narkotiklərin qanunsuz dövriyyəsi, 3.9%-i xuliqanlıq, 1.4%-i qaçaqmalçılıq, qalanları isə digər növ cinayətlərə aid olmuşdur. Açılması təmin edilmiş cinayət işləri üzrə kriminal əməllərin 92.9%-i insan alveri, 61.4%-i fahişəliyə cəlb etmə, 25%-i dələduzluq, 10%-i

[1] Azərbaycanda qadınlar və kişilər, Bakı, 2013, s.12-34

qaçaqmalçılıq, 7.7% xuliqanlıq, 4.5%-i sağlamlığa yüngül zərər vurma, 3.8%-i oğurluq olmaqla, qadınlar tərəfindən törədilmişdir.[1]

Təhlillərdən aydın olur ki, qadınlar tərəfindən törədilən cinayətlərin sayı ən az 213 hadisə olmaqla 1992-ci ildə, ən çox isə 2675 cinayət hadisəsi olmaqla 2006-cı ildə baş vermişdir. Məhkumluğun vəziyyəti təhlil edilərkən aydın olur ki, 1990-cı ildə 451, 1991-ci ildə 441, 1992-ci ildə 213, 1993-cü ildə 392, 1994-cü ildə 551, 1995-ci ildə 775, 1996-ci ildə 780, 1997-ci ildə 965, 1998-ci ildə 777, 1999-cu ildə 709, 2000-ci ildə 810, 2001-ci ildə 1293, 2002-ci ildə 1659, 2003-cü ildə 1146, 2004-cü ildə 1319, 2005-ci ildə 1272, 2006-cı ildə 1392, 2007-ci ildə 1380, 2008-ci ildə 1368, 2009-cu ildə 1189, 2010-cu ildə 1673, 2011-ci ildə 866, 2012-ci ildə 717, 2013-cü ildə isə 911 nəfər qadın müxtəlif cinayət əməlləri törətdiklərinə görə ölkənin məhkəmə orqanlarının hökmləri ilə müxtəlif cəzalara məhkum edilmişlər. Göründüyü kimi məhkum edilmiş qadınların ən az sayı 213 nəfər olmaqla 1992-ci ildə, ən çox sayı isə 1392 nəfər olmaqla 2006-cı ildə olmuşdur. Bütün bunlara müvafiq olaraq qadınlar tərəfindən törədilən cinayət hadisələri adam başına düşən hadisələrin sayına və adambashina düşən məhkumluq göstəricilərinə mütənasib olaraq artmış və ya müvafiq olaraq azalmışdır.

Qadınlar tərəfindən törədilən oğurluq, dələduzluq, narkotik vasitələrin satışı, qəsdən adam öldürmə, qəsdən bədənə xəsarət yetirmə, insan alveri kimi cinayətlərin artması tendensiyası müşahidə edilmişdir. Son illər ölkədə ilk dəfə olaraq qadınlar tərəfindən törədilən narkotik cinayətlərin sayı azalmağa meyl etsə də, lakin onlar tərəfindən törədilən xuliqanlıq və dələduzluq kimi cinayətlərin intensiv surətdə artması müşahidə edilmişdir. Xuliqanlıq hərəkətlərinin baş verməsində sərxoşluğa meylli qadınların rolu fəaldırsa, dələduzluqla məşğul olan qadınların bu fəaliyyətə təhrik edilməsində kişilərin rolu əhəmiyyətli dərəcədə artmışdır. Ümumiyyətlə, təhlil edilən dövrdə qadınlar tərəfindən törədilən cinayətlərin ümumi

[1] Yenə orada, s..29-30

kütləsinin yarıdan çoxu oğurluq, soyğunçuluq, quldurluq, dələduzluq və s. bu kimi tamah niyyəti ilə törədilən cinayətlər kateqoriyasına aid olmuşdur. Bu da bazar münasibətlərinə keçid şəraitində işsizliyin və yoxsulluğun artması kontekstində qadınların müxtəlif yollarla özgə əmlakını talamağa sövq edilməsi kimi özünü göstərir və cinayətlərin mühüm səbəblərindən biri kimi çıxış edir.

Qeydə alınmış cinayətlərin və cinayət törətmiş şəxslərin struktur göstəricilərinə görə təhlili göstərir ki, 2010-cu ildə məişət zəminində törədilən 1480 cinayət hadisəsinin 1157-i döymə, 208-i qəsdən sağlamlığa yüngül zərər vurma, 33-ü qəsdən sağlamlığa az zərər vurma, 30-u qəsdən adam öldürmə və ya adam öldürməyə cəhd, 9-u işğəncə vermə və s. bu kateqoriyadan olan cinayət əməllərinə aid olmuşdursa, 2011-ci ildə məişət zəminində törədilən 1782 cinayət hadisəsinin 1324-ü döymə, 313-i qəsdən sağlamlığa yüngül zərər vurma, 53-ü qəsdən sağlamlığa az zərər vurma, 39-u qəsdən adam öldürmə və ya adam öldürməyə cəhd, 11-i qəsdən sağlamlığa ağır zərər vurma, 6-ı işğəncə vermə əməllərinə aid olmuşdur. Görülmüş müəyyən kompleks tədbirlər nəticəsində 2012-ci ildə məişət zəminində baş verən hadisələrin sayı azalmış və bu qəbildən olan cəmi 1327 hadisə qeydə alınmışdır. Bunlardan da 375 hadisə qəsdən sağlamlığa yüngül zərər vurma, 49-u qəsdən sağlamlığa az zərər vurma, 27-i qəsdən adam öldürmə və ya adam öldürməyə cəhd, 10-u qəsdən sağlamlığa ağır zərər vurma və s. kimi cinayət əməllərinə aid olmuşdur. Təhlillər göstərir ki, kişi və qadın hüquqlarının bərabər olması konstitusiyon norma kimi təsbit edilməsinə baxmayaraq, işsizlik, yoxsulluq, sərxoşluq və digər amillər münaqişələrdə qadının rolunu fəallaşdırır. Bu gün Azərbaycan qadınının işləməyən, bütün gününü sərxoşluğa və tüfeyliyə sərf edib, ailəyə qayıtdıqda isə öz həyat yoldaşına və ya ailənin digər üzvlərinə qarşı zorakılıq edən, onları fasiləsiz olaraq incidən, təhqir edən, alçaldan kişilərin «şıltaqlıqları»na dözmək niyyətinin olmadığı müşahidə edilməkdədir. «Səbir kasası» dolan qadınlar, həyat yoldaşlarını qətlə yetirməkdən belə çəkinmirlər. 2010-cu ilin ilk on ayı ərzində öz ərini öldürən qadınların sayı 30-u keçmişdir.

Oxşar vəziyyət 2014-cü ilin birinci yarımilliyində də müşahidə edilməkdədir. Bu dövrdə zorakılığa dözməyərək, ərini öldürülməsi faktları artmağa meyilli olmuşdur.[1]

Qəsdən adam öldürmə və adam öldürməyə cəhd hadisələri ilə əlaqədar olaraq 2010-cu ildə 39, 2011-ci ildə 30, 2012-ci ildə isə 27 hadisə məhz məişət şəraitində - evdə, ailədə törədilmişdir. 2012-ci ildə törədilmiş cinayətlər üzrə zərər çəkmiş 10391 nəfərin 3759 nəfərini və ya 36,2%-ni, 2013-cü ildə 18565 nəfər zərər çəkmiş şəxsin 5110 nəfəri (364 nəfər ölmüşdür) və ya 27.5%-i qadınlar, 634 nəfəri və ya 3.4%-i yetkinlik yaşına çatmamış şəxslər təşkil etmişlər. Təhlillər göstərir ki, 2012-ci ildə məhkum edilmiş 1677 qadının 22 nəfəri qəsdən adam öldürmə və qəsdən adam öldürməyə cəhd, 92 nəfəri xuliqanlıq, 211nəfəri tamah motivi ilə, o cümlədən oğurluq, soyğunçuluq, quldurluq, dələduzluq, 45 nəfəri narkotik vasitələrin qanunsuz dövriyyəsi ilə məşğul olduğuna görə, 22 nəfər yol-nəqliyyat hadisələri törətdiklərinə görə məsuliyyətə cəlb edilmişlər. Təhlillər göstərir ki, 14-18 yaşlı uşaqlar arasında 1995-ci ildə 23, 2000-ci ildə 15, 2005-ci ildə 27, 2008-ci ildə 16, 2009-cu ildə 28, 2010-cu uldə 25, 2011-ci ildə 1, 2012-ci ildə 18, 2013-cü ildə isə 16 nəfəri yetkinlik yaşına çatmamış qız uşaqları olmuşlar. Bu uşaqlar içərisində hər iki valideyni olan və ailə tərbiyəsi almış uşaqlar əhəmiyyətli dərəcədə artmış, işləməyən, oxumayan və qrup formasında törədilən cinayətlər içərisində qızlar tərəfindən törədilən kriminal əməllərin sayı artmışdır. Bir fakta diqqət yetirmək əhəmiyyətlidir ki, 1996-ci ilə 393, 2000-ci ildə 186, 2005-ci ildə 56, 2008-ci ildə 61, 2009-cu ildə 86, 2010-cu ildə 60, 2011-ci ildə 62, 20120-ci ildə 45, 2013-cü ildə isə 51 nəfər qadın yalnız narkotik vasitələrin və psixotrop maddələrin qanunsuz dövriyyəsi ilə əlaqədar olaraq cinayət əməlləri törətdiklərinə görə məsuliyyətinə cəlb edilmişdir.[2] İqtisadi sahədə cinayət törətmiş məhkumların sayında qadınlar 1995- ci ildə 8.3%, 2000-ci ildə 8.4%,

---

[1] Həsənzadə S.B. Qadın cinayətkarliğinin profilaktikasina dair, Qanun jurnalı, №6 (236), 2014, s. 35-43

[2] «Reytinq» qəzeti, Bakı, 23 yanvar 2011-ci il

2005-ci ildə 4.1%, 2008-ci ildə 12.6%, 2009-cu ildə 8%, 2010-cu ildə 7.1%, 2011-ci ildə 7.4%, 2012-ci ildə 8.6%, 2013-cü ildə isə 9.2% təşkil etmişdir. Müvafiq olaraq həmin dövrdə məhkum olunmuş qadınların sayı da mütənasib qaydada artmağa meylli olmuşdur.

Təhlillər göstərir ki, 2012-ci ildə birinci instansiya məhkəmələrinə daxil olan 164283 sənədin 1264-ü qadınların evdən köçürülməsinə, 1138-i evə köçürməyə, 39213-ü aliment alınmasına dair olmuşdur. Əgər birinci instansiya məhkəmələrinin icraatına 2005-ci ildə daxil olan 8727 iş ailə münasibətləri ilə əlaqədar mübahisələrə aid olmuşdursa, bu rəqəm artaraq 2012-ci ildə 17074 təşkil etmişdir. Bunlardan 10063-ü nikah müqaviləsi, 1035-i atalıq faktının tanınması, 5144-ü ailə münasibətlərinin digər məsələləri ilə əlaqədar olan mübahisələrə aid olmuşdur. Ailə və nikah münasibətləri ilə əlaqədar olaraq məhkəmə mübahisələrinin sayı sürətlə artmaqdadır. Vətəndaşlıq vəziyyətinin akt qeydiyyatının olmamasına dair məhkəmələrdə 2005-ci ildə 325, 2008-ci ildə 312, 2009-cu ildə 319, 2010-cu ildə 242, 2011-ci ildə 268, 2012-ci ildə 346, 2013-cü ildə 412 iddia qaldırılmış və ya iddiaların sayı ildən-ilə artmışdır. Bu da onun göstərir ki, ailə və nikah münasibətlərində maarifləndirmə tədbirlərinin gücləndirilməsinə böyük zərurət vardır. Təhlillər göstərir ki, bu qəbildən olan iddialar daha çox rayon və kənd yerlərində yaşayan şəxslər tərəfindən verilir. Ailə münaqişələrinin və mübahisələrinin məhkəmədən kənar, ağsaqqalların və ictimai təşkilatların rolu ilə həll edilməməsi nəticəsində, eləcə də münaqişələrin vaxtında qarşısının alınmaması üzündən ailələr dağılır, bəzən insanların həyatına son qoyulur, qətlə yetirilən kişi ölür, qadın həbsxanaya düşür və nəticədə ailə bütünlüklə dağılır, uşaqlar kimsəsiz qalır və müxtəlif hüquq pozuntularına yol verilməklə cəmiyyətin özündə ziddiyyətlər kəskinləşməyə və dərinləşməyə meylli olur.

Təcrübə göstərir ki, ailə münaqişələri birdən-birə baş vermir. Mübahisələr və münaqişələr uzun müddət davam edir. Tərəflər müxtəlif hüquq-mühafizə, hakimiyyət və idarəçilik orqanlarına,

məhkəmələrə müraciət edirlər. Son vaxtlar hətta müxtəlif televiziya və radio kanalları da belə münaqişələrə silsilə şəklində verilişlər həsr etməyə həvəs göstərirlər. Müəyyən ailələrdə münaqişələr əsasən həll edilsə də, bəzən münaqişələr ailələrin dağılmasına gətirib çıxarır. Münaqişələr ağır nəticələr verməsi halları da vardır. 25 may 2014-cü il tarixdə Masallı rayonunun Qəriblər kəndində illər uzunu ərinin zülmünə və zorakılığına məruz qalan üç uşaq anası Q. nəhayət ki, onu bıçaqla qətlə yetirməklə ərinin fasiləsiz və amansız zülmünə son qoymuş, özünü polis orqanlarına təslim etmişdir. İllər uzunu davam edən bu zorakılıq hərəkətləri barədə ailə üzvləri, kənd ictimaiyyəti, hüquq-mühafizə orqanları kifayət qədər məlumatlı olsalar da, səmərəli profilaktiki tədbirlərin görülməməsi ağır nəticələr vermişdir.

Münaqişəli ailələrin uçotu çox vaxt tam aparılmır. Onlarla səmərəli profilaktiki tədbirlər həyata keçirilmir. İctimaiyyətin bu problemə münasibətində laqeydlik müşahidə edilir. Mövcud olan imkanlardan heç də tam, sona qədər və səbirlə istifadə edilmir. Uşaqların və qadınların hüquqlarının etibarlı şəkildə qorunmaması, ailədaxili münaqişələrin şiddətlənməsinə və son nəticədə ailələrin dağılmasına gətirib çıxarır. Əgər şəhər mühitində ictimai nəzarətin zəifliyi üzündən belə münaqişələr çox vaxt uğursuzluqla nəticələnirsə, rayon və kənd yerlərində münaqişələrin «ağsaqqallar» tərəfindən həllində tarixi ənənələr öz müsbət rolunu oynayır. Təəssüf ki, belə müsbət təcrübədən az istifadə edilir. Hüquqi baxımdan çevik mexanizmlərin olmaması və bu sahəyə birbaşa gündəlik diqqətin həyata keçirilməməsi üzündən boşanmalar şəhər yerində daha çox artmaqdadır. Qanunvericilik eyni cinsdən olan şəxslərin evlənməsini qadağan etmir. Əxlaqsızlıq, əyyaşlıq, fahişəlik cəmiyyətdə az da olsa, müəyyən yer tutsa da, hələ ki sözün geniş mənasında ciddi qınaqla üzləşmir. Bütün bunlar ailə münasibətlərində müəyyən böhran vəziyyətinin yaranmasına əlverişli şərait yaradır.

Ailə cəmiyyətin özəyi olmaqla, ər-arvad arasında sabit ictimai birlik kimi hüquqi, əxlaqi, psixoloji, bioloji, təsərrüfat, estetik, məişət dəyərləri əsasında formalaşan ittifaq kimi müstəsna əhəmiyyətə

malikdir. Mütərəqqi ictimai-siyasi quruluşlarda ailənin cəmiyyətin təşəkkülündə və inkişafında əvəzsiz rolu yüksək dəyərləndirilir. Təsadüfi deyil ki, Azərbaycan Respublikası Konstitusiyasının 17-ci maddəsinə görə ailənin cəmiyyətin əsas özəyi kimi dövlətin xüsusi himayəsində olduğu təsbit olunmuşdur.[1] İnsan və vətəndaş hüquqları və azadlıqları baxımından ailə münasibətlərinin yaranması, möhkəmlənməsi, nikahın qeydi və xitam verilməsinin prinsipləri, ailə münasibətlərinin iştirakçılarının hüquq və vəzifələri, dövlət orqanlarının bu sahədəki əsas vəzifələri, vətəndaşlıq vəziyyəti aktlarının qeydə alınmasının hüquqi baxımdan tənzimlənməsi 28 dekabr 1999-cu il tarixli Azərbaycan Respublikasının Ailə Məcəlləsi tərəfindən həyata keçirilir.[2] Ötən illərdə Məcəlləyə müvafiq dəyişikliklər və əlavələr edilməklə, o daha da mükəmməlləşdirilmiş, təkmilləşdirilmiş və beynəlxalq hüquq normalarına uyğunlaşdırılmışdır.

İnsan hüquqlarına və azadlıqlarına xüsusi önəm verildiyi müstəqillik illərində Azərbaycan qadınının hüquqları, sözün əsl mənasında əhəmiyyətli dərəcədə genişləndirilmiş, ailədə və cəmiyyətdə qadınların rolu artmışdır. Bu gün çox hörmətli və nüfuzlu ailələr, nəsillər hər birimizin qürur yerinə çevrilmişdir. Çox təəssüf ki, mənfi hallar da az deyildir. Vaxtilə milli-mənəvi dəyərlərimizə uyğun olaraq öz həyat yoldaşına özündən yüksək «təbəqə» kimi baxan, ona müticəsinə tabeçilik göstərən, ailə münasibətlərində ərin şəriksiz üstünlüyünü qəbul edən Azərbaycan qadını, son illər cəmiyyətdə gedən qlobal proseslər kontekstində ciddi dəyişikliklərə məruz qalmış, cəmiyyətdə və ailədə bir tərəfdən onun fəallığı son dərəcə artmış, digər tərəfdən isə ailə münasibətlərində, az da olsa, tənəzzül prosesləri sürətlənmişdir. İndi qadın nəinki öz həyat yoldaşından bərabərlik və üstünlük istəyir, habelə cəmiyyətdən daha geniş hüquqlar, vəzifələr, mövqelər tələb edir. Təəssüf ki, bəzi qadınların daha çox azadlığı, daha çox sərbəstliyi onların istədiyini etməyə hesablanır. «Açıq cə-

[1] Azərbaycan Respublikasının Konstitusiyası, Bakı, «Hüquq ədəbiyyatı» nəşriyyatı, 2011, s.10

[2] Azərbaycan Respublikasının Ailə Məcəlləsi, Bakı, «Hüquq ədəbiyyatı» nəşriyyatı, 2011, s.4-7

miyyət» ənənələrinə sürətlə uyğunlaşmaq istəyən qadın özünə sərbəst olaraq həyat tərzi seçir, xaricə sərbəst gedir, özünə müsbət imic formalaşdırmağa çalışır. Bununla yanaşı və təəssüf ki, o, həm də milli adət-ənənələrimizə uyğun olmayan həyat tərzinə tədricən öyrəşir, sevgisində daha «müstəqil» olmağa çalışır. Bu gün çox təəssüf ki, çoxarvadlılıq və çoxsevgililik, çoxərlilik və ya çoxməşuqluluq kimi mənfi hallara cəmiyyətdə az da olsa, rast gəlmək mümkündür. Kütləvi informasiya vasitələrinə konkret bir dövr ərzində diqqət yetirilərsə, dediklərizə dair onlarla fakta rast gəlmək mümkündür. Belə münasibətlərin son nəticəsi bəzən ağır cinayətlərə gətirib çıxarır. Başqa qadınlarla nikahsız münasibətlərin, nikahdan kənar gizli əlaqələrin bir gün üstü açıldıqda isə qətllər baş verir. Ən yaxşı halda isə boşanan tərəflərin nəticə etibarilə ailələri dağılır, talelər çox vaxt pozulur və uşaqlar sahibsiz qalırlar.[1]

Mövcud qanunvericilik və hüquq-mühafizə sistemi bu münasibətləri ədalətli tənzim etməyə yetərli deyil. Eyni zamanda təəssüf hissi ilə qeyd edilməlidir ki, cəmiyyətimizdə bütün bu proseslərin diqqətlə, elmi cəhətdən öyrənilməsi, bu münasibətlərin nizama salınması, düzgün məcraya yönəldilməsi istiqamətində işlər o qədər də səmərəli və effektli aparılmır. Ailələrin dağılmasının səbəbi fəlakət baş verdikdən sonra öyrənilməyə başlanır ki, bu zaman da artıq hər şey gec olur, müsbət nəticə vermir və ailələrin dağılmasına gətirib çıxarır.

İnsan alveri cinayətlərində, uşaqlara qarşı törədilən müxtəlif kriminal əməllərdə, fahişəliyə cəlb etmədə qadınların rolu az da olsa artmaqdadır. Bununla belə son illər qadınlara qarşı törədilən zorakılıq cinayətləri də çoxalmışdır. Yalnız 2009-cu ildə qeydə alınmış cinayətlər üzrə zərərçəkən 11851 nəfərin 5248 nəfəri və ya 44%-i, ölən 1235 nəfərin 303 nəfəri və ya 24.5%-i, baş vermiş qətl hadisələrində ölən 192 nəfərin 70 nəfəri və ya 36.4%-i qadınlar olmuşlar. 2009-cu ildə insan alveri ilə bağlı qeydə alınmış 320 cinayət faktının 325 şəxs

[1] Zahidov B.S. Qısqanclıq motivi ilə qəsdən adam öldürmə, onun cinayət-hüquqi və kriminoloji problemləri, Bakı, «Hüquq ədəbiyyatı» nəşriyyatı, 1998, s. 34-40

tərəfindən törədildiyi müəyyən edilmişdir.[1] Bunlardan 5 nəfəri və ya 1.6%-i yetkinlik yaşına çatmayan şəxslər, 188 nəfəri və ya 60.1%-i qadın, 6 nəfəri və ya 1.9%-i xarici ölkə vətəndaşları olmuş, 9 cinayət və ya 2.9%-i əvvəllər məhkum olunmuş şəxslər tərəfindən təkrar törədilmişdir. Əgər Bakı şəhərində 2008-ci ildə insan alveri ilə sıx bağlı olan 220 fakt, o cümlədən onlardan 48 fakt bilavasitə insan alveri, 163 fakt fahişəliyə cəlbetmə və ya əxlaqsız yuvalar saxlama olmuşdursa, 2009-cu ildə insan alveri ilə sıx bağlı olan qeydə alınmış 143 faktın 38-i bilavasitə insan alveri, 103 fakt fahişəliyə cəlbetmə və ya əxlaqsız yuvalar saxlama əməllərinə aid olmuşdur. Bu da keçən ilin eyni dövrünə nisbətən insan alveri ilə sıx bağlı olan cinayətlərin 77 və ya 35 %, insan alveri cinayətlərinin 10 və ya 20.8%, fahişəliyə cəlbetmə və ya əxlaqsız yuvalar saxlama isə 60 və ya 36.8% azalmışdır. 2008-ci ildə bu qəbildən olan cinayətlərin açılma faizi 96.4% olmuşdursa, 2009-cu ildə 93.3% olmuş və ya bu cinayətlərin açılması vəziyyəti pisləşmişdir. 2009-cu ildə qeydə alınmış insan alveri ilə sıx bağlı olan cinayətlərdən 83-ü və ya 59.3% cinayət, o cümlədən insan alveri cinayətlərindən 28-i və ya 96.6% cinayət, fahişəliyə cəlbetmə və ya əxlaqsız yuvalar saxlama cinayətlərindən 52-si və ya 49.1% cinayət, qadınlar tərəfindən 6-sı və ya 4.3% cinayət xarici ölkə vətəndaşları, 5-i və ya 3.6% cinayət əvvəllər məhkum olmuş şəxslər tərəfindən törədilmişdir. Bunlardan 1-i və ya 0.7% cinayət törədərkən yetkinlik yaşına çatmayan şəxslər olmuşlar.[2]

Yetkinlik yaşına çatmayan 250-yə qədər gənc qızın cinayət törətməsi, yetkinlik yaşına çatmayanlar arasında qrup alında sərxoşluq və narkomanlıq zəminində törədilən cinayətlərin artması müşahidə edilir. Ailə himayəsindən məhrum olan və valideynləri olmayan yetkinlik yaşına çatmayanlar tərəfindən törədilən cinayətlər artmağa meyllidir. Ümumiləşmələr göstəriri ki, 2001-ci ildən sonra 400-ə qədər qadın adam oğurluğunun, 1000-dən çox qadın isə insan alverinin qurbanı olmuşdur. Məhkum edilən qadınların ümumi cinayətkarlıqda

---

[1] Zahidov B.S. Qısqanclıq motivi ilə qəsdən adam öldürmə, onun cinayət-hüquqi və kriminoloji problemləri, Bakı, «Hüquq ədəbiyyatı» nəşriyyatı, 1998, s.39

[2] Azərbaycanda cinayətkarlıq və hüquqpozmalar, Bakı, 2010, s. 39-40

payı 5.6%-dən 9.7%-ə qalxmışdır. Əgər 2000-ci ildə məhkəmədə baxılan ümumi işlərin 2260-ı aliment tələbi ilə əlaqədar olmuşdursa, 2009-cu ildə bu rəqəm 3 dəfədən çox artaraq 7526 olmuş, ailə münasibətlərinə dair məhkəmələrdə baxılan iddiaların sayı 11192 təşkil etmişdir. Bunlardan 552-si atalıq faktının tanınmasına, 662-si övladlığa götürmə və ya onun ləğvi, 113-ü valideynlik hüququndan məhrumetmə, 42-si valideynlik hüququnun məhdudlaşdırılması, 2297 iş isə ailə münasibətlərinin digər məsələlərinə aid olmuşdur. Göründüyü kimi əvvəlki illərlə müqayisədə məhkəmələrdə nikah müqavilələrinin pozulması və etibarsız hesab edilməsi, atalıq faktının müəyyən edilməsi, valideyn hüquqlarından məhrumetmə, valideynlik hüquqlarının məhdudlaşdırılması sahəsində iddialar da əhəmiyyətli dərəcədə artmışdır. Bütün bunlar onu göstərir ki, ailədaxili münasibətlər heç də asan yolla getmir, mübahisələrin və münaqişələrin artması ildən-ilə yüksələn xətt üzrə inkişaf edir. Yalnız bunu göstərmək kifayətdir ki, 2009-cu ildə məhkəmələrə daxil olmuş sənədlərdən 20220-si alüment alınmasına, 1048 iş isə nikah münasibətlərinin pozulması ilə əlaqədar olaraq evə köçürməyə dair olmuşdur.[1]

Bütün bu təhlillər göstərir ki, Azərbaycan Respublikasında 22 iyun 2010-cu il tarixdə «Məişət zorakılığının qarşısının alınması haqqında» Azərbaycan Respublikasının Qanununun qəbul edilməsi, beynəlxalq öhdəliklərdən qaynaqlansa da, lakin ailədaxili zorakılığın qarşısının alınması istiqamətində səylərin birləşdirilməsinə zərurət yaratmışdır. Bu gün ölkədə ailəyə və qadına münasibətdə aparılan düzgün siyasət problemlərin həll edilməsində və qanun pozuntularının qarşısının alınmasında ailənin, o cümlədən ananın rolunun artmasına böyük tələbat yaradır. Bu isə cəmiyyətdə bütün qüvvələrin bu istiqamətdə səfərbər edilməsinə, ailənin rolunun artırılmasının olduqca əhəmiyyətli olduğunu bir daha təsdiq edir.[2]

---

[1] Azərbaycanda cinayətkarlıq və hüquqpozmalar, Bakı, 2010, s. 71

[2] Həsənzadə S.B. Heydər Əliyev və Azərbaycan ailəsi, Ulu Öndər Heydər Əliyevin 91 illiyinə həsr olunmuş konfransın materialları, Bakı, 2014, s.76-83; Həsənzadə S.B. İnsan və qadın: beynəlxalq və milli hüquqda, məqalə, «Azərbaycan 2020: Gələcəyə baxış İnkişaf Konsepsiyası»

kontekstində insan haqlarının səmərəli müdafiəsi» mövzusunda beynəlxalq elmi konfransın materialları, B., 2013, s.60-70

# IV FƏSİL

## QADIN HÜQUQLARI VƏ AZADLIQLARI: konstitusiya və beynəlxalq hüquqi təhlil

Bəşəriyyətin təkamül prosesi mahiyyət etibarı ilə azadlığın mütərəqqi və dinamik inkişafını tam ehtiva edir. Elə buna görə də min illər boyu dövlət və ayrıca bir fərdin şəxsi münasibətləri, həqiqətən dramatik səciyyə daşımış, uzun tarixi mübarizələr yolu keçmişdir. Bununla belə, hakimiyyət nəticə etibarı ilə, yaşamaq hüququ da daxil olmaqla insanın maraqları qarşısında tarixən baş əyməyə məcbur olmuş və onun hüquqlarını tanımaq məcburiyyətində qalmışdır. Elə bunun nəticəsidir ki, nəsillərin müdrik nəzəri fikri cəmiyyətdə daim barış tapmağa və bəşər övladının insanı, hakimiyyətin əsassız təhdidlərindən qorumağa, təbii, ayrılmaz hüquqlar vasitəsi ilə ona qarşı sədd qoymağa zaman-zaman təşəbbüslər göstərmişdir. İnsan hüquqlarının təbiətinə işıq salmış daha geniş yayılan baxışlar sistemi, onların ilk növbədə hər hansı tələb obyektini ehtiva edən müəyyən sosial imkan kimi başa düşülmüşdür. Buna görə də insan hüquqları, cəmiyyətin sosial fəaliyyəti, onun ictimai münasibətləri, fərdin həyatı ilə sıx bağlı bir şəraitdə təşəkkül tapmışdır. Çünki cəmiyyətdə insanın normal hüquqları olmadan onun həyatını təsəvvür etmək belə mümkün deyildir. Elə buna görə də insan hüquqlarının təmin olunması və insan hüquqlarına münasibətdə dövlət hakimiyyətinin məhdudlaşdırılması ideyası bu gün dünyada ictimai inkişaf prosesinə istiqamət verən mühüm ideyalardan biri kimi səciyyələndirilir və aktual mahiyyət daşıyır. Dünyanın əksər ölkələrində bu gün insan hüquqları, insanın ümumiyyətlə mövcud olmasının və milli inkişafının ən vacib şərti kimi qəbul edilir. Burada xüsusi qeyd edilməlidir ki, insanın istər cəmiyyət və istərsə də dövlət tərəfindən pozula bilməyən hüquqlara sahib olması ilə bağlı ideya, insan cəmiyyətinin yarandığı dövrdən meydana çıxmış, inkişaf etmiş, bu gün daha aktual bir mahiyyət kəsb etməklə, sanki bəşəriyyət bu hüquqların etibarlı müdafiəsinə səfərbər edilmişdir. Bəşəriyyətin tarixi inkişafında de-

mokratik və humanist təlimlər, ictimai-siyasi hərəkatlar və cərəyanlar, siyasi hüquqi doktrinalar və konsepsiyalar, baxışlar və nəzəriyyələr şəxsiyyətin daim yüksəlməsinə, insan hüquqlarının və azadlıqlarının genişlənməsinə və onların etibarlı müdafiəsinə yönəldilmişdir. Bu mənada insan hüquqları və azadlıqları dedikdə, əslində konkret fərdin, geniş mənada şəxsiyyətin cəmiyyətdə hüquqi imkanlarını, səlahiyyətlərini, yerini, rolunu, vəziyyətini, hüquqlarını, azadlıqlarını, vəzifələrini, məsuliyyətini, bir sözlə onun hüquqi statusunu ehtiva edən kompleks hüquq sisteminin məcmusu başa düşülür. İnsan hüquqları və azadlıqları insanın, onun cəmiyyətə, dövlətə və başqalarına olan münasibətlərini müəyyən edən təsəvvürlər sistemidir. İnsan hüquqları - şəxsiyyətin hüquq normalarında təsbit olunmuş, hakimiyyətlə, dövlətlə, cəmiyyətlə, başqaları ilə qarşılıqlı münasibətlərindəki statusunu səciyyələndirən rəftar normalarının məcmusu hesab olunur. Buna görə də mahiyyət etibarı ilə o, dövlətin zorakılığından və özbaşınalığından qorunmanın ən mühüm vasitələrinin müasir günlərimizdə geniş yayılmış üsullarından birinə çevrilmişdir. Bu gün insan hüquqları fenomenal və obyektiv baxışlar, təsəvvürlər, nəzəriyyələr və təlimlər sistemi kimi səciyyələndirilir və bu sahədə əldə edilən uğurlar zəmanəmizin ən böyük nailiyyəti hesab edilə bilər. Daha geniş mənada isə müasir elmi baxışlarda insan hüquqları humanitar biliyin kompleks sistemi kimi özünü göstərir. İnsan hüquqlarının tədqiqatçıları apardıqları araşdırmalar nəticəsində belə ümumi bir nəticəyə gəlirlər ki, bu hüquqlar insanın sağlam və normal olaraq doğulması anından ona məxsus olmaqla bunlar ayrılmaz, imtina olunmaz, başqasına verilməz bir səciyyə daşımaqla, univerisal mahiyyət daşıyır və insan ləyaqəti ilə sıx bağlıdır. İnsan hüquqları və azadlıqları özündə insan ləyaqətini, insan ruhunu, insan azadlığını, insan bərabərliyini, həmrəyliyini, ədalətini əhatə etməklə vətəndaş hüquqları ilə də sıx bağlıdır.[1]

---

[1] Дубинин Н.П., Карпец И.И., Кудрявцев В.Н. Генетика. Поведение. Ответственность, Москва, 1982, с.195; Дубинин Н.П. Наследование биологическое и социональное// журнал «Коммунист», 1980, №11, с.60; Кузницева Н.Ф., Лейкина Н.И. Криминалический аспект соотношения соционального и биологического// Советского государство и право, 1977, №9; Герцензон А.А. Против биологичес-

İnsan hüquqları bəşəriyyət tarixində hər şeydən əvvəl cəmiyyətdə olan zülmlərə qarşı insan özünüdərkinin nəticəsi, məhsulu kimi ortaya çıxmışdır. İnsan özünüdərk etdikdə, özü ilə dövlət arasında münasibətləri təhlil edib, müqayisə etdikdə, ona məxsus olan hüquqların məhdudlaşdırılmasında dövlətin fəal roluna gəlib çıxmışdır. Zorakılıq maşını kimi səciyyələndirilən dövlətin, bu sahədəki rolu diqqəti daha çox çəkmiş və insan dövlətdən daha geniş hüquqlar və azadlıqlar qoparmağa çalışmışdır. Nəticədə hüquqlar və azadlıqlar uğrunda mübarizələr başlamış, müdrik insanlar bu məsələyə dair öz fikirlərini və təlimlərini, nəzəriyyə və baxışlarını yaratmışlar. Bu baxımdan təbii hüquq nəzəriyyəsi ideyası dövriyyəyə buxarılmış və əsrlər boyu böyük maraq kəsb etmişdir. Belə bir nəticə hasil olmuşdur ki, insan hüquqlarının kökündə, əsasında, məhz onun bir varlıq olaraq insan kimi doğulması, ona məxsus olan ruhun və ləyaqətin, mənliyin və şərəfin, arzu və istəyin təbii olaraq yaranması amili dayanır. Bu hüquqlara insan ona görə sahibdir ki, ona görə bu hüquqlara iddialıdır ki, o insan kimi doğulmuşdur və o insandır. Bu baxımdan BMT-nin «Mülki və siyasi hüquqlar haqqında» 1966-ci il tarixli Paktında haqlı olaraq göstərilir ki, hər kəs hər yerdə hüquq subyekti kimi tanınmaq hüququna sahib olmalıdır.[1]

İnsan hüquqlarının ikinci əsas mənbəyi cəmiyyətdə olan siyasi sistem hesab olunur. Çünki məhz bu sistem insan hüquqlarının yaranmasını, inkişafını, tətbiqini, müdafiəsini və digər bu kimi əsas elementlərini müəyyən edir. Buna görə də müxtəlif ictimai-siyasi sistemlərdə insan hüquqlarının və azadlıqlarının kəmiyyət və keyfiyyət göstəricilərinə fərqli yanaşmalara rast gəlmək mümkündür.

Müxtəlif elmi təlimlərdə, baxışlarda, nəzəriyyələrdə, tədqiqatlarda, subyektlərə münasibətdə öz mənasına və məzmununa, məkan və zaman göstəricilərinə, yaranmasına və təşəkkül tapmasına, müdafiəsinə

ких теории причин пресступности// Вопросы предупреждения пресступности, М., 1966, №4; Богданов В. Преступность в крови// Российская газета, 2008 30 октября; Голоднюк м.Н. Некоторые вопросы женской преступности// Вестник МГУ, 1978, №1; Сеченов И.М. Рефлексы головного мозга, М., 1961, с.89; Холлигер В. Человек и агрессия, М., 1975, с.129

[1] Beynəlxalq sənədlər toplusu, Bakı, 2008, s.21-38

və mühafizəsinə, obyektlərinə və subyektlərinə, digər səciyyəvi xüsusiyyətlərinə görə insan hüquqlarının və azadlıqlarının ən müxtəlif təsnifatlarına rast gəlmək mümkündür. Belə təsnifatların insan hüquqlarının və azadlıqlarının təşəkkülündə, inkişafında və müdafiəsində elə də böyük bir əhəmiyyəti olması da, adətən belə təsnifatlar elmi tədqiqatların sistemli və kompleks tədqiqi üçün müəyyən əhəmiyyətli rola malik olmuşdur. Nəzəri ədəbiyyatlarda əsas təsnifatlardan biri, bunların bir tərəfdən mülki və siyasi, digər tərəfdən isə iqtisadi, sosial və mədəni hüquqlar kimi təsnifatlara ayrılması ilə səciyyələnir. Ümumilikdə isə tədqiqatçıların bir çoxu insan hüquqlarının və azadlıqlarının inkişafına və təkamülünə tarixi baxımdan, zaman kontekstində yanaşaraq, onları birinci, ikinci və üçüncü nəsil insan hüquqları kimi təsnifatlara ayırırlar. Son illər artıq bu hüquqların dördüncü nəsli haqqında fikirlər səslənir. İnsan hüquqlarının üç nəslə bölünməsi ideyası isə Strasburda fəaliyyət göstərən Beynəlxalq İnsan Hüquqları İnstitutunun əməkdaşı Karel Vasak tərəfindən hələ 1979-cu ildə irəli sürülmüşdür.[1]

Burjua inqilablarının nəticəsi olaraq birinci nəsil hüquqlarına və azadlıqlarına fikir, vicdan və din azadlığı, hər bir vətəndaşın dövlət işlərinin idarə edilməsində iştirak etmək hüququ, qanun qarşısında bərabərlik, yaşamaq, azadlıq, şəxsiyyətin təhlükəsizliyi, əsassız həbsin və qanunsuz saxlamanın yol verilməzliyi, sürgündən azad olma, ədalətli məhkəmə hüququ, digər şəxsi (mülki) və siyasi hüquqlar kompleksini daxil edirlər. Birinci nəsil hüquqlarını mülki və siyasi hüquqlar, təbii hüquqlar, neqativ hüquqlar kimi də səciyyələndirmək mümkündür. Jonh Locke'unı hesab edir ki, insanın yaşamaq, azadlıq və mülkiyyət hüquqlarına sahib olması, onun Allah tərəfindən yaradılması və bu hüquqların məhz yaranışdan etibarən onlara Allahın bəxşişi kimi qiymətləndirmək olar. Bu hüquqlar sisteminə neqativlik, aktuallıq, dəqiqlik kimi səciyyəvi xüsusiyyətlər daxil olmaqla, onların həyata keçirilməsi üçün maliyyə resursları tələb olunmur və liberal ideologiyanın bariz məhsulu kimi özünü göstərir. Bu insana Allah tərəfindən bəxş edilmiş hüquqların dövlət müdaxiləsindən istisnasız bir şəraitdə, beynəl-

[1] Mehdiyev F. Nəzəriyyə və təcrübədə insan hüquqları, Bakı, 2013, s.8-9

xalq təminatlar sistemi ilə qorunur. Başqa sözlə, dövlət müxtəlif bəhanələr göstərməklə, bu hüquqları təmin etməkdən boyun qaçıra bilməz. Bu hüquqlar insan üçün son dərəcə aktual və təxirə salınmadan həyata keçirilən hüquqlar hesab edilirlər. Birinci nəsil hüquqlar ayrılmazdır və toxunulmazdır. İnsanın yaşamaq, şəxsi həyat və mənzil toxunulmazlığı, azadlıq, fikir və din azadlığı, söz azadlığı, sərbəst toplaşmaq hüququ, seçki hüququ, birləşmək hüququ birinci nəsil hüquqlara aiddir.[1]

İkinci nəsil insan hüquqları xalqların öz iqtisadi səviyyəsini yaxşılaşdırmaq, mədəni statuslarını genişləndirmək, böyük sosial imkanlar qazanmaq, o cümlədən əmək, təhsil, sosial təminat, istirahət, mədəni həyatda iştirak etmək və sair bu kimi elementləri özündə birləşdirir. Xüsusiyyətlərinə görə iqtisadi, sosial və mədəni hüquqları özündə ehtiva edən ikinci nəsil hüquqları pozitiv və sosialist mahiyyətinə görə birinci nəsil hüquqlar sistemindən sonra gəlir. Bu hüquqlar cəmiyyətin müxtəlif üzvlərinə eyni şərtləri və eyni rəftarı təmin etməyə istiqamətlənmiş olur. Belə hüquqlara mənzil, hüququ, əmək hüququ, sağlamlıq hüququ, təhsil hüququ, sosial təminat hüququ və sair daxildirlər.

İkinci dünya müharibəsi başa çatdıqdan sonra isə insan hüquqlarının üçüncü nəsli formalaşdırılmağa başlanıldı. Bu hüquqlar mahiyyət etibarı ilə insanların həmrəyliyinə, kollektiv hüquqlarına, ümumilik və cəmiyyət vasitəsilə həyata keçirilən hüquqlar sistemini əhatə edir.[2] Kollektiv müraciət, sağlam ətraf mühitdə yaşamaq, ölkənin təbii sərvətlərindən bərabər surətdə istifadə etmək, öz müqəddəratını təyin etmək, iqtisadi və sosial inkişaf hüquqları üçüncü nəsil hüquqlar sisteminə aiddir.

Elmi ədəbiyyatlarda mahiyyətinə, məzmununa və əhatə dairəsinə görə insan hüquqları və azadlıqları «şəxsi hüquqlar və azadlıqlar», «siyasi hüquqlar və azadlıqlar», «sosial – iqtisadi və mədəni hüquqlar və azadlıqlar»,[3] «prosessual hüquqlar və azadlıqlar», «şəxsi, mülki hü-

[1] Mehdiyev F. Nəzəriyyə və təcrübədə insan hüquqları, Bakı, 2013, s.13
[2] İnsan hüquqları, Bakı, 2005, s.148-151
[3] İnsan hüquqları, Bakı, "Şirvannəşr", 2005 (tərcümə: E.A.Likaşevanın rəhbərliyi ilə hazırlanmış dərsliyin tərcüməsi), s.144-181;İnsan hüquqları: bəşər rifahının təməli, Bakı, "İnam" Plüralizm Mərkəzi, 2001, s.11

quqlar və azadlıqlar» və sair bu kimi çoxsaylı təsnifsatlara ayrıla bilir.[1] Müxtəlif qanunvericilik aktlarında, elmi nəzəri tədqiqatlarda göstərilən təsnifatların özləri də müəyyən sistemaltı elementlərə ayrılır. Bu barədə təsnifatları ümumiləşdirsək, ondan nəticə etibarı ilə şəxsi (mülki) hüquq və azadlıqlar – bərabərlik hüququ, yaşamaq hüququ, azadlıq hüquq, mülkiyyət hüququ, təhlükəsiz yaşamaq hüququ, şəxsi toxunulmazlıq hüququ, şərəf və ləyaqətin müdafiəsi hüququ, fikir və söz azadlığı, nikah hüququ, vicdan azadlığı, milli mənsubiyyət hüququ, ana dilindən istifadə hüququ; siyasi hüquq və azadlıqlar – vətəndaş hüququ, cəmiyyətin və dövlətin siyasi həyatında iştirak etmək hüququ, dövlətin idarə olunmasında iştirak etmək hüququ, seçki hüququ, müraciət etmək hüququ, birləşmək hüququ, sərbəst toplaşmaq hüququ, məlumat azadlığı, siyasi sığınacaq hüququ; sosial-iqtisadi və mədəni hüquqlar və azadlıqlar - mülkiyyət hüququ, əqli mülkiyyət hüququ, yaradıcılıq azadlığı, azad sahibkarlıq hüququ, əmək hüququ, tətil hüququ, istirahət hüququ, sosial təminat hüququ, sağlam ətraf mühitdə yaşamaq hüququ, sağlamlığın qorunması hüququ, mədəniyyət hüququ, təhsil hüququ, mənzil hüququ, zərərin ödənilməsini tələb etmək hüququ; prosessual hüquq və azadlıqlar – hüquqların və azadlıqların məhkəmə təminatı, hüquqi yardım almaq hüququ, məhkəmə aidiyyətinin dəyişdirilməsinə yol verilməməsi, təqsirsizlik prezumpsiyası, bir cinayətə görə təkrarən məhkum etməyə yol verilməməsi, məhkəməyə təkrar müraciət hüququ, qohumların əleyhinə ifadə verməyə məcbur etməyə yol verilməməsi, tutulan, həbsə alınan və cinayətin törədilməsində ittiham edilənlərin hüquqları kimi sistemaltı elemetləri və ya altsistemləri əhatə etmiş olar.[2]

İnsanın konkret dövlətə mənsubluğunu ifadə edən vətəndaşlıq institutu dövlətdaxili hüquq sistemində vətəndaşın hüquqları, azadlıq-

---

[1] Əliyev Q. Azərbaycan qanunverciliyi insan hüquqları haqqında, Bakı, 2000, s.3-19; Mehdiyev F. Nəzəriyyə və təcrübədə insan hüquqları, Bakı, 2013, s.8-12

[2] İnsan hüquqları, Bakı, 2005, s.148-151; İnsan hüquqları, Bakı, "Şirvannəşr", 2005 (tərcümə: E.A.Likaşevanın rəhbərliyi ilə hazırlanmış dərsliyin tərcüməsi), s.144-181;İnsan hüquqları: bəşər rifahının təməli, Bakı, "İnam" Plüralizm Mərkəzi, 2001, s.11; Əliyev Q. Azərbaycan qanunverciliyi insan hüquqları haqqında, Bakı, 2000, s.3-19; Mehdiyev F. Nəzəriyyə və təcrübədə insan hüquqları, Bakı, 2013, s.8-12

ları və vəzifələri kimi altsistemləri özündə birləşdirir. Buna görə də müəyyən cəmiyyətdə vətəndaşların vəzifələri dedikdə, onların hər şeydən əvvəl konkret dövlətə mənsub olduğu və müəyyən vəzifələr daşıdığı başa düşülür. Geniş hüquqlar və azadlıqlar kontekstində vətəndaşın müəyyən vəzifələr daşıması, onun statusunu səciyyələndirən keyfiyyət göstəricilərindən biri hesab olunur. Məsələn, vergiləri və başqa dövlət ödənişlərini verən, vətənə sədaqət göstərmək, dövlət rəmzlərinə hörmət etmək, vətəni müdafiə etmək, tarix və mədəniyyət abidələrinin qorunmasını təmin etmək, ətraf mühitin qorunmasına səy göstərmək, qanuna zidd vəzifələrin icrasına yol verməmək kimi vəzifələr konstitusion məsuliyyətin əsası kimi təsbit edilmişdir.[1]

Müxtəlif yanaşmalar və müxtəlif bölgülər əsasında formalaşan təsnifatlara rast gəlinsə də, lakin insan hüquqlarının və azadlıqlarının tarixinə, məzmununa və mahiyyətinə, tənzimlənmə obyektlərinin xüsusiyyətlərinə, şərtlərinə və sair meyarlara görə təsnifatların aparılması ən çox elmi tədqiqatlar üçün, problemin mahiyyətini daha asan açmaq üçün əhəmiyyətli və səmərəli ola bilər. Ümumiyyətlə, subyektiv xarakterli müxtəlif təsnifatlar və yanaşmalar kontekstində beynəlxalq və dövlətdaxili qanunvericilik aktlarında artıq normalaşdırılmış təsnifatlara üstünlük verilməsi tamamilə məqsədəuyğun və məntiqi hesab olunmalıdır. Buna görə də belə təsnifatlarda beynəlxalq hüquqi aktlarda ifadə edilmiş bölgülər, məsələn BMT-nin «İqtisadi, sosial və mədəni hüquqlar haqqında beynəlxalq Pakt»ında, «Mülki və siyasi hüquqlar haqqında beynəlxalq Pakt»ında və digər bu kimi beynəlxalq sənədlərdə göstərilən təsnifatlara üstünlük verilməsi tamamilə məntiqi və əsaslı hesab olunmalıdır.[2]

---

[1] İnsan hüquqları, Bakı, 2005, s.148-151; İnsan hüquqları, Bakı, "Şirvannəşr", 2005 (tərcümə: E.A.Likaşevanın rəhbərliyi ilə hazırlanmış dərsliyin tərcüməsi), s.144-181;İnsan hüquqları: bəşər rifahının təməli, Bakı, "İnam" Plüralizm Mərkəzi, 2001, s.11; Əliyev Q. Azərbaycan qanunverciliyi insan hüquqları haqqında, Bakı, 2000, s.3-19; Mehdiyev F. Nəzəriyyə və təcrübədə insan hüquqları, Bakı, 2013, s.8-12

[2] Beynəlxalq sənədlər toplusu, Bakı, I cild, 2005; İnsan hüquqları, Bakı, 2005, s.148-151; İnsan hüquqları, Bakı, "Şirvannəşr", 2005 (tərcümə: E.A.Likaşevanın rəhbərliyi ilə hazırlanmış dərsliyin tərcüməsi), s.144-181;İnsan hüquqları: bəşər rifahının təməli, Bakı, "İnam" Plüralizm Mərkəzi, 2001, s.11; Əliyev Q. Azərbaycan qanunverciliyi

İnsan hüquqlarının və azadlıqlarının subyektlərə görə təsnifatı zamanı, «uşaq hüquqları», «qadın hüquqları», «milli azlıqların hüquqrı», «qaçqınların hüquqları», «xarici vətəndaşların və ya vətəndaşlığı olmayan şəxslərin hüquqları» və sair bu kimi təsnifatların aparılması problemin tədqiqi və qanunvericilik normalarının tətbiqi baxımından olduqca əhəmiyyətlidir. Azərbaycan Respublikasının Konstitusiyasında insanın və vətəndaşın geniş hüquqları və azadlıqları təsbit olunsa da, lakin belə meyarlar əsasında təsnifatlar aparılmamışdır. Bununla belə insan və vətəndaşın hüquqlarının və azadlıqlarının müxtəlif mənalara və məzmuna, tənzimetmə obyektinə görə təsnifatlaşdırılması, onların öyrənilməsi və tətbiqi bu sahədə elmi tədqiqatların aparılması üçün heç şübhəsiz böyük əhəmiyyətə malikdir.

İnsan hüquqları və azadlıqları sahəsində təbii və pozitiv hüquq nəzəriyyələrinin yaranması və formalaşması fikri qədim tarixə malikdir. Bununla belə insan hüquqları və azadlıqları sahəsində aparılan uzun müddətli elmi nəzəri tədqiqatlar və sinfi mübarizə tarixi, mahiyyət etibarı ilə liberal demokratik təlimlərə söykənir. İnsanın təbii hüquqları onun məhz insan kimi doğulması, təşəkkül tapması, şəxsiyyəti, ağlı, ləyaqəti, vicdanı ilə birlikdə, məcmuu şəklində dəyərlidir. Bu hüquqlar bərabərliyə əsaslanır, alınmaz və pozulmaz hesab edilməklə, insan hüquqları ayrılmaz, ümumi, universal, bitkin və mükəmməl səciyyə daşıyırlar.[1]

İnsan kimi doğulmuş varlıq onun malik olduğu irqdən, cinsdən, dildən, dindən, siyasi və digər baxışlardan, milli və sosial mənşədən, mülkiyyətdən, doğum və başqa xarakterizəedici xüsusiyyətlərdən asılı olmayaraq insan haqlarına və azad olmaq hüqüquna malikdir. İnsan hüquqları cəmiyyət üzvü olan fərdin, geniş mənada şəxsiyyətin mükəmməlliyini, bütövlüyünü səciyyələndirən ümumbəşəri mədəniyyətin əsas elementi kimi də qiymətləndirilə bilər. İnsan hüquqları cəmiyyətin özəyinin möhkəmləndirilməsinə, siyasi qarşıdurmanın aradan qaldırılmasına və cəmiyyətin ahəngdar şəkildə, demokratik və hüququ

insan hüquqları haqqında, Bakı, 2000, s.3-19; Mehdiyev F. Nəzəriyyə və təcrübədə insan hüquqları, Bakı, 2013, s.8-12

[1] Azərbaycan Respublikasının Konstitusiyası, Bakı, 2010, «Hüquq ədəbiyyatı», s.13

əsaslarla inkişafına xidmət edir, əxlaqi mahiyyət daşıyır. Buna görə də müasir dünyamızda insan hüquqları ideyası ictimai inkişaf prosesinə istiqamət və təkan verən mühüm ideyalardan biri kimi dəyərlidir. İnsan hüquqları cəmiyyətin, dövlətin, hər şeydən əvvəl isə insanın, onun şüurunun inkişafı ilə sıx bağlıdır. Hakimiyyətlə münasibətdə şəxsiyyətin hüquqlarının və azadlıqlarının etiraf olunmasının və dərk edilməsinin ilkin tarixi forması təbii hüquq ideyası əsasında formalaşmış və böyük inkişaf yolu keçmişdir. İnsan hüquqlarına və azadlıqlarına dair çoxsaylı nəzəriyyələr və baxışlar olmuşdur. Lakin təcrübi cəhətdən insan hüquqlarının və azadlıqlarının son dərəcə zəruri və vacib olduğu, əsasən 20-ci əsrdə baş verən iki dünya müharibəsindən sonra daha da aktuallaşmışdır. İnsan hüquqları haqqında məsələ şəxsiyyətin hüququ statusu ilə üzvü surətdə bağlıdır. Bu insanın cəmiyyətdə və dövlət həyatında yerini, hüquqlarını, azadlıqlarını, vəzifələrini, məsuliyyətini səciyyələndirən və özündə birləşdirən mürəkkəb elementlər sistemidir. Şəxsin hüquqi statusu cəmiyyətdə onun vəziyyətini, varlığını, tələbatlarını, maraqlarını, mənafelərini, fəaliyyətini özündə əks etdirir. İnsan hüquqları insanlar arasında, insanla dövlət, insanla cəmiyyət arasında qarşılıqlı münasibətləri ehtiva edir. Şəxsin hüququ statusu onun ictimai statusunun bir hissəsi kimi fərdin əsas hüquqlarını əhatə edir. Buna görə də bu problem konkret ictimai münasibətlər, sosial imkanlar və vəzifələr çərçivəsini əhatə edir. Təsadüfi deyil ki, 1945-ci il Nurnberq məhkəməsinin qərarında nasist liderlərinin ittihamının əsasında onların «insaniyyətə qarşı cinayət» kimi səciyyələndirilən əməllərinin dayandığı xüsusi olaraq qeyd edilirdi. Çünki ictimai-siyasi həyatın əsasında dayanan insan bütün maddi və mənəvi nemətlərin əsas yaradıcı olmaqla həyata gəlməsi ilə əldə etdiyi təbii hüquqlar - insan-cəmiyyət və insan-dövlət münasibətlərində ən yüksək səviyyədə dayanmalıdır. Bu mənada dövlətlə qarşılıqlı münasibətlərində hər bir insan, məhz ona məxsus olan əxlaqi və hüququ haqların əsl sahibi olmağa tamamilə haqlıdır. Buna görə də hər bir insan doğulduğu gündən böyük, təkrarolunmaz və qiymətli bir varlıq olmaqla onun öz muxtariyyəti, müstəqilliyi, sərbəstliyi, şərəfi və ləyaqəti vardır. Dövlətin insanın ləyaqətinə toxunaraq onun muxtariyyətinə, müstəqilliyinə müdaxilə etməyə ixti-

yarı yoxdur. Bu da onu göstərir ki, hər hansı bir hakimiyyətin hüquqlarını, vəzifələrini və azadlıqlarının konkret çərçivəsi, həddi və hüdudu vardır. Bu baxımdan hər kəs öz hüquqlarını qoruyaraq dövlət qarşısında müvafiq tələblər irəli sürməyə tamamilə haqlıdır. İnsan ona məxsus olan, anadan doğularaq qazandığı hüquqlarla vəhdətdədir, ondan ayrılmazdır, onunla birlikdədir.[1]

Dövlət cəmiyyətin müəyyən inkişaf mərhələsində insanlar tərəfindən yaradılmış siyasi təsisat olmaqla mahiyyət etibarı ilə onun əsas vəzifəsi insana, onun rifahına xidmət etməkdir. İnsanlar öz hüquqlarını müdafiə etmək məqsədi ilə dövlətə könüllü olaraq verdikləri hüquqlar sərhəddində müstəqil hakimiyyətə sahibdir. Buna görə də heç bir qanun insan hüquqlarını kifayət qədər əsaslar və səbəblər olmadan pozmaqda və ya azaltmaqda haqlı hesab oluna bilməz.

Qlobal mahiyyət daşıyan dövlət bəşəriyyət tarixində ən aparıcı bir təsisata çevrilsə də, əslində o, insandan sonda dayanır və ona xidmət göstərməyə, onun hüquqlarını qorumağa borcludur. Ədalətli və demokratik cəmiyyətlərdə «hakimiyyət bölgüsü» prinsipinə ciddi əməl edilməklə yaradılan qanunverici, icraedici və məhkəmə hakimiyyətləri özbaşınalığın və səlahiyyətlərin zəbt edilməsinin qarşısını almağa xidmət edir. Məhz buna görə də ölkə miqyasında yeganə suveren hakimiyyətin məhz dövlətə mənsub olması ideyası, bütün mütərəqqi təlimlərdə birmənalı şəkildə dəstəklənir. Dövlət ölkənin daxilində və xaricində tam müstəqil olmaqla heç bir qurumdan, heç bir təşkilatdan asılı ola bilməz. «Beynəlxalq Montevidio Konvensiyası» (1933) dövlət statusuna aydınlıq gətirərək onun daimi əhaliyə, əraziyə, iqtisadi həyat birliyinə, müstəqil hökumətə, suverenliyə sahib olan bir təsisat kimi keyfiyyət əlamətlərini əks etdirmişdir. Bu da hüquqi cəhətdən beynəlxalq miqyasda hər hansı bir dövlətin qanuni və suveren xüsusiyyətlərinin, onun müstəqilliyinin əsas atributu olduğunu tam təsdiq edir. Beynəlxalq hüquq,

[1] İnsan hüquqları, Bakı, 2005, s.148-151; İnsan hüquqları, Bakı, "Şirvannəşr", 2005 (tərcümə: E.A.Likaşevanın rəhbərliyi ilə hazırlanmış dərsliyin tərcüməsi), s.144-181; İnsan hüquqları: bəşər rifahının təməli, Bakı, "İnam" Plüralizm Mərkəzi, 2001, s.11; Əliyev Q. Azərbaycan qanunverciliyi insan hüquqları haqqında, Bakı, 2000, s.3-19; Mehdiyev F. Nəzəriyyə və təcrübədə insan hüquqları, Bakı, 2013, s.8-12

dövlətin mövcud olmasını onun suverenliyi ilə şərtləndirir. Suverenlik dövlət hakimiyyətinin konkret ərazi daxilində müstəqilliyinin və aliliyinin keyfiyyət göstərici hesab olunur. Dövlətin daxili suverenliyi konstitusiya hüququ, xarici suverenliyi isə beynəlxalq hüquq elmi tərəfindən öyrənilir.[1]

Suverenlik dövlətin siyasi və hüquqi keyfiyyəti olmaqla hakimiyyətin ölkə daxilində və xaricində tamamilə müstəqil olması ilə səciyyəvidir. Təsadüfi deyildir ki, BMT Nizamnaməsində, BMT Baş Məclisinin 1970-ci il Bəyannaməsində, Helsinki Yekun aktında suveren bərabərlik və suverenliyə xas olan hüquqlara hörmət etmək müasir beynəlxalq hüququn ümumi tanınmış prinsipi kimi bəyan edilmişdir. BMT Nizamnaməsinin ikinci maddəsinin birinci bəndində göstərilir ki, Birləşmiş Millətlər Təşkilatı onun bütün üzvlərinin suveren bərabərliyi prinsipinə əsaslanır.[2]

Dövlət suverenliyi dövlət hakimiyyətinin ölkə daxilində qeyri-məhdud üstünlüyünü, dövlət başçısının isə xarici münasibətlər sahəsində tam müstəqilliyini nəzərdə tutur.[3] Buna görə də suveren bərabərlik prinsipinin məzmununu açarkən professor Lətif Hüseynov bunun əsasən iki elementdən ibarət olduğunu vurğulayır. O göstərir ki, hər bir dövlət tam suverenliyə malikdir, öz siyasi və iqtisadi sistemini sərbəst və maneəsiz olaraq özü müəyyən edir. Hər bir dövlət bütün digər dövlətlərin suverenleyinə, ərazi bütövlüyünə və siyasi müstəqilliyinə hörmət etməlidir. Suveren bərabərlik prinsipinin məzmununa daxil olan ikinci ünsürə görə isə bütün dövlətlər ərazisinin miqyasından, əhalisinin sayından, inkişaf səviyyəsindən və hərbi-siyasi potensialından asılı olmayaraq hüququ cəhətdən bərabər olmaqla beynəlxalq təşkilatlarda hər bir dövlət bir səsə malikdir. Buna görə də beynəlxalq hüquq normaları dövlətlər tərəfindən qarşılıqlı razılıq yolu ilə bərabər hüquqlu əsasda yaradılır.[4] Ölkə daxilində dövlət tam müstəqil olmadan

---

[1] Ümumi hüquqi və dövlət nəzəriyyəsi, Bakı, 2006, s.40-41; Hüseynov L. Beynəlxalq hüquq, Bakı, 2000, s.49

[2] Beynəlxalq sənədlər toplusu, Bakı, 2005, I cild, s.8

[3] Əsgərov Ə. Beynəlxalq hüquq, Bakı, 1979, s. 79

[4] Hüseynov L.Beynəlxalq hüquq, Bakı, 2000, s.29

orada insan hüquqlarının və azadlıqlarının təmin olunmasından söhbət belə gedə bilməz. Bu baxımdan insan hüquqlarının və azadlıqlarının müəyyən edilməsi və müdaifəsi dövlətin suverenliyindən əhəmiyyətli dərəcədə asılıdır.

Azərbaycan Respublikası dövlət müstəqilliyini bərpa etdikdən sonra BMT-nin, Avropa Şurasının və digər beynəlxalq və regional təşkilatların sənədlərini tanımış və onları ratifikasiya etmişdir. Buna görə də Azərbaycan Respublikasının yeni Konstitusiyasında BMT-nin «İnsan hüquqları haqqında Ümumi Bəyannamə»də, Avropa Şurasının müvafiq sənədlərində insan hüquqları və azadlıqları üçün, o cümlədən qadınlar üçün nəzərdə tutulmuş hüquqları və azadlıqları geniş mənada öz ifadəsini tapmışdır. Bu baxımdan qeyd edilməsi zəruridir ki, Azərbaycan Respublikası Konstitusiyasının müxtəlif maddələrində beynəlxalq hüquqa münasibətdə müəyyən yanaşmalar özünü göstərir. Konstitusiyanın 1-ci maddəsində hakimiyyətin mənbəyi olan Azərbaycan xalqına anlayış verilir və bu məsələdə beynəlxalq hüquqla müəyyənləşdirilmiş normaların istisna edilmədiyi vurğulanır.[1] Konstitusiyanın 7-ci maddəsində göstərilir ki, Azərbaycan dövləti demokratik, hüquqi, dünyəvi və unitar respublika olmaqla, ölkədə dövlət hakimiyyəti daxili məsələlərdə yalnız hüquqla, xarici məsələlərdə isə yalnız Azərbaycan Respublikanın tərəfdar çıxdığı beynəlxalq müqavilələrdən irəli gələn müddəalarla məhdudlaşır.[2]

Azərbaycan dövlətinin başçısı olan ölkə prezidenti Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrə riayət olunmasının təminatçısı statusuna malikdir. Həmin sənədin 10-cu maddəsində isə göstərilir: «Azərbaycan Respublikası başqa dövlətlərlə münasibətlərini hamılıqla qəbul edilmiş beynəlxalq hüquq normalarında nəzərdə tutulmuş prinsiplər əsasında qurur».[3] Konstitusiyanın 12-ci maddəsində göstərilir ki, ölkəmizdə insan və vətəndaş hüquqları və

[1] Azərbaycan Respublikasının Konstitusiyası, Bakı, «Hüquq ədəbiyyatı», 2010, s.5-6
[2]Yenə orada, s. 7
[3] Azərbaycan Respublikası Konstitusiyası, Bakı, «Hüquq ədəbiyyatı» nəşriyyat, 2010, s.8

azadlıqları Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrə uyğun olaraq tətbiq edilir.

Azərbaycan öz dövlət müstəqilliyin bərpa etdikdən sonra yuxarıda qeyd edilən zəruri beynəlxalq sənədlərə qoşulmuş, qadın hüquqları və azadlıqları sahəsində konstitusiya hüquq sisteminin əsasını yaratmış, onları referendum yolu ilə və inkişaf etdirmişdir. Ölkədə qadın hüquqlarının etibarlı mühafizəsini təmin edən mexanizmlər yaradılmış, regional təşkilat kimi Avropa Şurasının, digər beynəlxalq və regional qurumlarının qadın hüquqları ilə bağlı sənədləri milli qanunvericilikdə əsaslı surətdə nəzərə alınmışdır. Beynəlxalq hüquqi sənədlərə müvafiq olaraq Azərbaycan Respublikası Konstitusiyasında insanın və vətəndaşın geniş hüquqları və azadlıqları təsbit olunmuşdur. Bu hüquqlar və azadlıqlar heç bir ayrı-seçkilik olmadan bütünlüklə qadınlara da şamil edilir. İnsan hüquqları və azadlıqları haqqında danışarkən, onun ən ço qadınlara aid olmasının dərk etmək və düşünmək tamamilə məntiqidir.

«İnsan hüquqları haqqında Ümumi Bəyannamə»nin 6-cı maddəsinə görə «hər bir insan harada olmasından asılı olmayaraq özünü hüquqi subyekt kimi qəbul etməsi hüququna malikdir».[1] Bu da hər şeydən öncə insanı fiziki şəxs kimi hüquqi statusunun müəyyən edilməsi, onun hüquqlarının, vəzifələrinin və məsuliyyətinin hədlərinin, qanunvericilik yolu ilə müəyyən edilməsi, dövlətlə münasibətlərinin elementlərinin və əsas konturlarının dəqiqləşdirilməsi, konkret ölkənin vətəndaşı kimi hüquqi müəyyənliyinin konkretləşdirilməsini tələb edir.

Azərbaycan Respublikası Konstitusiyasına görə Azərbaycan xalqı Azərbaycan Respublikası ərazisində və ondan kənarda yaşayan Azərbaycan dövlətinə və onun qanunlarına tabe sayılan Azərbaycan Respublikası vətəndaşlarından ibarətdir. Azərbaycan xalqı vahiddir və bu vahidlik Azərbaycan dövlətinin təməlini, əsasını təşkil edir. Bu da onu göstərir ki, Azərbaycan Respublikası, bütün Azərbaycan Respublikası vətəndaşlarının ümumi və bölünməz Vətəni hesab edilir. Buna görə də Azərbaycan Respublikası Konstitusiyasının 52-ci maddəsində göstərilir ki, Azərbaycan dövlətinə mənsub olan, onunla siyasi və hüquqi bağ-

[1] Beynəlxalq sənədlər toplusu, I cild, Bakı, 2005, s.52

lılığı, habelə qarşılıqlı hüquqları və vəzifələri olan şəxs Azərbaycan Respublikasının vətəndaşı hesab edilir. Ölkəmizin ərazisində və Azərbaycan Respublikası vətəndaşlarından doğulmuş şəxs Azərbaycan Respublikasının vətəndaşıdır. Valideynlərindən biri Azərbaycan Respublikasının vətəndaşı olan şəxs də Azərbaycan Respublikasının vətəndaşı hesab olunur. «Vətəndaşlıq haqqında» Avropa Konvensiyasına görə «vətəndaşlıq» konkret şəxslə və ya fərdlə dövlət arasındakı hüquqi əlaqəni, bağlılığı əks etdirir. Bu zaman şəxsin etnik mənşəyi göstərilmir.[1] Hüquqi baxımdan «vətəndaşlıq» insanın dövlətlə elə sabit siyasi-hüquqi bağlılığıdır ki, bu zaman suveren dövlət hakimiyyəti həm dövlətin ərazi hüdudları daxilində, həm də onun sərhədlərindən kənarda insanı əhatə edir. İnsanın bu və ya digər dövlətin vətəndaşı olması, onun həmin dövlətin qanunvericiliyinə müvafiq olaraq müəyyən edilən hüquqları və azadlıqları əldə etməsinə və müvafiq vəzifələr daşımasına hüquqi əsas verir. Buna görə də dövlət və vətəndaş arasında qarşılıqlı hüquqlar və azadlıqlar və ona mütənasib olan qarşılıqlı vəzifələr və məsuliyyət yaranmış olur.

«Vətəndaşlıq haqqında» Avropa Konvensiyası, eləcə də onunla bağlı olan izahedici sənədlər, Konvensiyanın şərhinə həsr olunmuş izahlar, «Vətəndaşlığın azaldılması haqqında», «Ərli qadının vətəndaşlığı haqqında» BMT Konvensiyaları, «Apatridlərin statusu haqqında» Konvensiya şəxsin statusu, vətəndaşlığın qazanılmasının və ya itirilməsinin hüquqi əsasları, ərli qadının vətəndaşlıq məsələlərinin hüquqi həlli, ondan doğulan uşaqların statusunun müəyyən edilməsi, qadının hüquqlarının və vəzifələrinin həcmi haqqında məsələlərə aydınlıq gətirir.[2] Bütün bunlara müvafiq olaraq Azərbaycan Respublikası Konstitusiyasının tələbələrinə tam cavab verən və vətəndaşlıq haqqında yeni Qanun - «Vətəndaşlıq haqqında» Azərbaycan Respublikasının Qanunu 30 sentyabr 1998-ci il tarixdə qəbul edilmişdir. Bununla əlaqədar olaraq, 30 avqust 1999-cu ildə Azərbaycan Respublikası Prezidentinin 189 saylı Fərmanı ilə təsdiq edilmiş «Azərbaycan Respublikasının və-

---

[1] Vətəndaşlıq və miqrasiya haqqında normativ hüquqi sənədlər toplusu, Bakı, 2008, «Qanun» nəşriyyatı, s.17

[2] Yenə orada, s.17-82

təndaşlığı məsələlərinə baxılması və onların həll edilməsi qaydası haqqında» Əsasnamə bir çox münasibətlərin tənzimlənməsinə və icrasına əlverişli şərait yaratmışdır. Eləcə də Konstitusiyanın 53-cü maddəsində nəzərdə tutulan «vətəndaşlıq hüququnun təminatları» bir çox məsələlərə aydınlıq gətirmişdir.

Azərbaycan Respublikasının vətəndaşının heç bir halda vətəndaşlıqdan məhrum edilə bilməzliyi, Azərbaycan Respublikasından qovula bilməzliyi və ya xarici dövlətə verilə bilməzliyi, Azərbaycan dövlətinin, onun ərazisindən kənarda müvəqqəti və ya daimi yaşayan ölkə vətəndaşlarının hüquqi müdafiəsinə dair təminatların verilməsi, onlara hamilik edilməsi və digər bu kimi müddəaların konstitusiyanın 53-cü maddəsində nəzərdə tutulması, Azərbaycan Respublikası vətəndaşlığı üçün mühüm və əlverişli təminatlar sisteminin yaradıldığını təsdiq edir.

«Azərbaycan Respublikası vətəndaşlığı haqqında» Qanuna 30 may 2014-cü il tarixdə edilmiş son dəyişikliklərdə Azərbaycan Respublikası vətəndaşının xarici dövlətin vətəndaşlığına mənsubiyyətinin tanınmaması, əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin, Azərbaycan Respublikasının ərazisində doğulmuş uşaqların vətəndaşlığı məsələsinin hüquqi tənzimlənməsində yeni və daha mütərəqqi yanaşmalarla diqqəti cəlb edir. 30 avqust 1961-ci il tarixli Konvensiya nəzərə alınaraq Azərbaycan Respublikasının vətəndaşlığının itirilməsi üçün yeni şərtlər müəyyən edilmişdir. Bu şərtlərə görə 1) Azərbaycan Respublikası vətəndaşının digər dövlətin vətəndaşlığını könüllü əldə etməsi; 2) Azərbaycan Respublikası vətəndaşının xarici dövlətin dövlət və ya bələdiyyə orqanlarında, yaxud silahlı qüvvələrində və ya digər silahlı birləşmələrində könüllü xidmət etməsi; 3) Azərbaycan Respublikası vətəndaşının dövlətin təhlükəsizliyinə ciddi zərər vuran davranışı; 4) Azərbaycan Respublikasının vətəndaşlığını əldə etmiş şəxsin vətəndaşlığa qəbul olunmaq üçün zəruri olan məlumatı qəsdən saxtalaşdırması və ya saxta sənəd təqdim etməsi kimi hallar vətəndaşlığın itirilməsi üçün hüquqi əsas hesab edilmişdir.[1]

[1] «Azərbaycan» qəzeti, Bakı, 02 iyul 2014-cü il

Azərbaycan Respublikasının «Yaşayış yeri və olduğu yer üzrə qeydiyyat haqqında» 8 dekabr 1999-cu il tarixli Qanunu, «Qaçqınların və məcburi köçkünlərin hüquqi statusu haqqında» 21 may 1999-cu il tarixli Qanunu, eləcə də «Ölkədən getmək, ölkəyə gəlmək və pasportlar haqqında» Qanun, ona edilmiş əlavələr və dəyişikliklər şəxsin yaşayış yeri və olduğu yer üzrə qeydiyyatının tənzimləmə məsələlərini həll etmişdir. Əcnəbilər və vətəndaşlığı olmayan şəxslər Azərbaycan Respublikasında olarkən, qanunla və ya Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrlə başqa hal nəzərdə tutulmamışdırsa, Azərbaycan Respublikasının vətəndaşları ilə bərabər statusda bütün hüquqlardan istifadə edə bilər və bütün vəzifələri də yerinə yetirməlidirlər. Bununla yanaşı ölkəmizin ərazisində daimi yaşayan və ya müvəqqəti qalan əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin hüquqlarının və azadlıqlarının, yalnız beynəlxalq hüquq normalarına və Azərbaycan Respublikasının qanunlarına müvafiq olaraq məhdudlaşdırıla bilməsi qaydası kontekstində müəyyən edilmişdir.[1]

Azərbaycan Respublikası vətəndaşları dövlət və cəmiyyət qarşısında, onun hüquqlarından və azadlıqlarından bilavasitə irəli gələn müvafiq vəzifələr daşıyırlar. Bu vəzifələrin dairəsi və həcmi hər kəsin üzərinə Azərbaycan Respublikası Konstitusiyasına və qanunlarına müvafiq olaraq qoyula bilər. Hər bir şəxs Azərbaycan Respublikası Konstitusiyasına və qanunlarına əməl etməyə, başqa şəxslərin hüquqlarına və azadlaqlarına hörmət etməyə və qanunla müəyyən edilmiş vəzifələrini yerinə yetirməyə borlcudur.[2]

Azərbaycan Respublikasında vətəndaşlıq institutu vəzifələrin vəhdəti, universallığı, hüquqların və azadlıqların vəzifələrlə mütənasibliyi, vəzifələrin yerinə yetirilməməsinə görə məsuliyyətin tətbiq olunması və digər bu kimi prinsiplərə söykənir. Belə ki, konstitusiyanın və qanunların pozulması, o cümlədən Konstitusiyada və

---

[1] Azərbaycan Respublikasının Konstitusiyası, Bakı, 2014, "Hüquq ədəbiyyatı" nəşriyyatı, s.30; Алиев Ш. Научно-практический комментарий к Конституции Азербайджанской Республики, Баку, 2000, с.210-220

[2] Yenə orada

qanunlarda nəzərdə tutulan hüquqlardan istifadə edilməsi və ya vəzifələrin yerinə yetirilməməsi qanunla müəyyən edilmiş məsuliyyət yaradır.[1]

Məhkəmə və istintaq təcrübəsi, habelə İnsan Hüquqları üzrə Müvəkkiliyin (Ombudsman) illik hesabatları göstərir ki, Azərbaycan Respublikası Konstitusiyasında nəzərədə tutulmuş insan hüquqları və azadlıqları, eləcə də vətəndaşlar üçün nəzərdə tutulmuş vəzifələr bütünlüklə Azərbaycan qadınlarına da şamil edilməklə, ayrı-ayrı tənzimləmə məsələləri çoxsaylı normativ hüquqi aktlarda öz ifadəsini tapmışdır. Bütün bunlara baxmayaraq, reallıq bundan ibarətdir ki, dünyanın bir çox ölkələrində olduğu kimi, qadın və kişi hüquqlarının bərabərliyi, cinsi əlamətə görə ayrı-seçkilik, qüsurlu yanaşma, təhrifetmə, sui-istifadə halları, səhlənkarlıq, digər çoxsaylı səbəblər üzündən, qəsdən və ya ehtiyatsızlıq motivindən qadın hüquqlarının pozulması sahəsində təzahürlər az da olsa, cəmiyyətimizdə və həyatımızda qalmaqdadır.[2] Bütün bunlarla yanaşı ölkəmizdə qadın hüquqlarının və azadlıqlarının təmin olunması sahəsində ardıcıl, sistemli, kompleks və uğurlu dövlət siyasəti bu gün intensiv olaraq həyata keçirilməkdədir.

20 dekabr 1952-ci il tarixli 640 saylı Qətnamə ilə təsdiq edilmiş «Qadınların siyasi hüquqları haqqında» Konvensiya dünyanın müxtəlif ölkələrində illərlə aparılan siyasi hüquqlar uğrunda qadın hərəkatının nəticəsi idi. Bu Konvensiya mahiyyət etibarı ilə qadınlara kişilərlə bərabər şərtlər əsasında bütün seçkilərdə səs vermək, açıq seçkilərdə tələb edilən idarələrə seçilə bilmək, ictimai və dövlət xidmətində vəzifə tutmaq, dövlət funksiyalarını yerinə yetirmək hüquqları verirdi.[3]Azərbaycan Respublikası 04 avqust 1992-ci ildə «Qadınların siyasi hüquqları haqqında» Konvensiyaya qoşuldu və üzərinə müvafiq öhdəliklər götürdü.

---

[1] Azərbaycan Respublikasının Konstitusiyası, Bakı, 2014, s.80

[2] Azərbaycanda insan hüquqlarının və azadlıqlarının təmin edilməsi və müdafiədənin vəziyyətina dair illik hesabatlar, Bakı, 2004-2013; Azərbaycan Respublikasında cinayətkarlıq və hüquq pozmalar, Bakı, 2014;

[3] Bərabər hüquqlar, bərabər imkanlar, Bakı, 2002, s.101-105

Azərbaycan Respublikası Konstitusiyasının 148-ci maddənin II bəndinə görə Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələr Azərbaycan Respublikasının qanunvericilik sisteminin ayrılmaz tərkib hissəsi hesab olunur.[1] Konstitusiyanın 151-ci maddəsində isə konkret olaraq göstərilir ki, Azərbaycan Respublikasının qanunvericilik sisteminə daxil olan normativ hüquqi aktlar ilə (Azərbaycan Respublikasının Konstitusiyası və referendumla qəbul edilən aktlar istisna olmaqla) Azərbaycan Respublikasının tərəfdar çıxdığı dövlətlərarası müqavilələr arasında ziddiyyət yaranarsa, həmin beynəlxalq müqavilələr tətbiq edilir.[2] Bütün bunlar onu göstərir ki, Azərbaycanda beynəlxalq hüquq normalarının üstünlüyü tanınır, ölkənin qoşulduğu beynəlxalq müqavilələr, ölkə ərazisində üstünlük hüququna malik olmaqla tətbiq edilir. Bu baxımdan qadın hüquqlarına münasibətdə və Azərbaycanın qoşulduğu beynəlxalq və regional müqavilələr nəzərə alınmaqla, insanların hüquqlarının və azadlıqlarının geniş şəbəkəsi konstitusiyamızda mükəmməl formada ifadə olunmuşdur.

Azərbaycan Respublikası Konstitusiyasının 25-ci maddəsində kişi ilə qadının eyni hüquqları və azadlıqları olduğu, ölkədə insanların irqindən, milliyyətindən, dinindən, dilindən, cinsindən, mənşəyindən, əmlak vəziyyətindən, qulluq mövqeyindən, əqidəsindən, siyasi partiyalara, həmkarlar ittifaqlarına və digər ictimai birliklərə mənsubiyyətindən asılı olmayaraq, hər kəsin hüquqlarının və azadlıqlarının bərabərliyinə təminat verilmişdir. İnsan və vətəndaş hüquqlarının və azadlıqlarının irqi, milli, dini, dili, cinsi, mənşəyi, əqidə, siyasi və sosial mənsubiyyətinə görə məhdudlaşdırılması qadağan edilmişdir. Bu mənada insanın hüquqları və vəzifələri ilə bağlı qərarlar qəbul edən dövlət orqanlarının və dövlət hakimiyyəti səlahiyyətlərinin daşıyıcıları ilə münasibətdə qadının və kişinin hüquqi bərabərliyi normativ hüquqi aktlarda tam təsbit olunmuşdur.

Dövlət müstəqilliyi bərpa edildikdən sonra ölkəmizdə milli qanunların, o cümlədən qadın hüquqları və azadlıqları ilə bağlı bir sıra nor-

---

[1] Bərabər hüquqlar, bərabər imkanlar, Bakı, 2002, s.79

[2] Azərbaycan Respublikasının Konstitusiyası, Bakı, «Hüquq ədəbiyyatı», 2010, s.81

mativ hüquqi aktlar qəbul edilmişdir. Belə ki, 29 iyun 1992-ci ildə «Əməyin mühafizəsi haqqında», 30 iyun 1995-ci ildə «Mülki şəxslərin müdafiəsi və hərbi əsrilərin hüquqlarının qorunması haqqında», 19 sentyabr 1995-ci ildə «İstehlakçıların hüquqlarının müdafiəsi haqqında», 13 mart 1996-ci ildə «Əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin hüquqi vəziyyəti haqqnda», 15 mart 1996-ci ildə tarixli «Siyasi repressiya qurbanlarına bəraət verilməsi haqqında» və onlarla bu kimi normativ hüquqi aktların qəbul edilməsi insan hüquqlarının, o cümlədən qadın hüquqlarının mühafizəsində əhəmiyyətli rol oynamışdır.

Ölkəmizdə qadın hüquqlarının qanunvericilikdə təsbit olunması və bu hüquqların real surətdə həyata keçirilməsi sahəsində dinamik və intensiv inkişafda Ulu Öndərimiz Heydər Əliyevin xüsusi xidmətləri olmuşdur. Belə ki, onun 14 iyul 1969-cu ildə Azərbaycan Komunist Partiyası Mərkəzi Komitəsinin birinci katibi vəzifəsinə seçilməsi dövlətin və cəmiyyətin həyatında qadınların rolunun sürətlə artmasına təkan vermişdir. Bu illərdə minlərlə qadın dövlət vəzifələrinə - qanunverici, icraedici və məhkəmə hakimiyyəti orqanlarında müxtəlif vəzifələrə irəli çəkilmiş, onların əməyi dövlət və hökumət tərəfindən ən yüksək mükafatlara layiq görülmüşdür. 1972-ci ildə respublika qadınlarının IV Qurultayı ölkənin həyatında böyük ictimai-siyasi hadisəyə çevrilmiş və qadınların rolu genişlənmişdir. Ümumiyyətlə, keçən əsrin 70-ci illərinə dair statistik məlumatların təhlilindən görünür ki, bu dövrdə Azərbaycan qadınlarının 32 nəfəri SSRİ Ali Sovetinin, 22 731 nəfəri yerli sovetlərin deputatı, 200 nəfərə qədər qadın isə Sosialist Əməyi Qəhrəmanı kimi yüksək adın daşıyıcısı olmuşdur.[1]

«Azərbaycan Respublikasının Dövlət Müstəqilliyi haqqında Konstitusiya Aktı»nda insan hüquqlarına və azadlıqlarına üstünlük verilməsinə, bu hüquqlara hörmət edilməsinə, o cümlədən qadın hüquqlarının və azadlıqlarının etibarlı şəkildə qorunmasına təminat verilmişdir.[2] Qadın hüquqlarının beynəlxalq standartlara uyğunlaşdırılması sahəsində ən böyük hüquqi akt isə 12 noyabr 1995-ci ildə referendum yolu ilə

---

[1] Camalova D., Ömərova M., Gəncəli S. Qadən hərəkatının ön cərgələrində, Bakı, 2004, s.26-27

[2] Azərbaycan Respublikasının Konstitusiyası, Bakı, 1994, s. 3-10

qəbul edilmiş Azərbaycan Respublikasının Konstitusiyası olmuşdur. Bu sənəddə Azərbaycanda demokratik, hüquqi, dünyəvi və unitar respublika qurulduğu elan edilmiş, insan və vətəndaş hüquqlarının və azadlıqlarının, ölkə vətəndaşlarına layiqli həyat səviyyəsinin təmin edilməsinin dövlətimizin ali məqsədi olduğu elan edilmişdir.[1]

Konstitusiyanın ikinci bölməsinin üçüncü fəsli bütünlüklə «Əsas insan və vətəndaş hüquqlarına və azadlıqlarına» həsr olunmuş, kişinin və qadının eyni hüquqları və azadlıqları olduğu təsbit edilmişdir. Burada göstərilmişdir ki, dövlət irqindən, milliyyətindən, dinindən, dilindən, cinsindən, mənşəyindən, əmlak vəziyyətindən, qulluq mövqeyindən, əqidəsindən, siyasi partiyalara, həmkarlar ittifaqlarına və digər ictimai birliklərə mənsubiyyətindən asılı olmayaraq hər kəsin hüquqlarının və azadlıqlarının bərabərliyinə təminat verir. İnsan və vətəndaş hüquqlarını və azadlıqlarını irqi, milli, dini, dil, cinsi, mənşəyi, əqidə, siyasi və sosial mənsubiyyətinə görə məhdudlaşdırılması qadağan edilmişdir. Ümumiyyətlə, Konstitusiyada bir insan kimi qadının hüquqlarının və azadlıqlarının geniş təsbiti mükəmməl olaraq öz ifadəsini tapmışdır.

Müstəqillik illərində cəmiyyətin əsas özəyi kimi ailə dövlətin xüsusi himayəsinə götürülmüş insan hüquqlarının və azadlıqlarının müdafiəsi sahəsində beynəlxalq standartlara cavab verən müdafiə mexanizmlərinin, insan hüquqları üzrə müvəkkilin (Ombudsman), Konstitusiya məhkəməsinin, üçpilləli məhkəmə sisteminin, hüquq-mühafizə orqanlarının, vətəndaş cəmiyyətinin müxtəlif təsisatlarının təşəkkülü və inkişafı sahəsində bu vaxta qədər olmayan uğurlu nailiyyətlər əldə edilmişdir.

Ulu Öndər Heydər Əliyev 19 sentyabr 1994-cü ildə «Qadınların IV Ümumdünya Konfransına hazırlıq»la əlaqədar olaraq «Azərbaycan qadınlarının Milli Komitəsinin yaradıması haqqında» Fərman imzalamışdır. Məhz bu diqqətin nəticəsi olaraq 1995-ci ildə Pekində keçirilən IV Ümumdünya Qadınlar Konfransında Azərbaycan qadınları geniş şəkildə təmsil olunmuş və konfransın işində fəal iştirak etmişlər. 30 iyun 1995-ci ildə Ulu Öndər Heydər Əliyevin təşəbbüsü ilə Azərbay-

[1] Azərbaycan Respublikasının Konstitusiyası, Bakı, «Hüquq ədəbiyyatı», 2010, s.7-9

can Respublikası Birləşmiş Millətlər Təşkilatının «Qadınlara münasibətdə ayrı-seçkiliyin bütün formalarının ləğv olunması haqqında» Konvensiyasına qoşulmuş və öz üzərinə müvafiq öhdəliklər götürmüşdür.[1] Ölkədə qadın siyasətinin əsas istiqamətlərini müəyyən etmək, bu sahədə sistemli iş aparmaq, mövcud problemləri uğurla həll etmək, qadınların kişilərlə bərabərliyini, xüsusi ilə onların dövlət idarəçilik sistemində iştirakının təşkil və təmin olunmasını həyata keçirmək məqsədi ilə Heydər Əliyevin 14 yanvar 1998-ci il tarixli Fərmanı ilə ölkədə «Qadın problemləri üzrə Dövlət Komitəsi» yaradılmış, 14 yanvar 1998-ci il tarixdə «Azərbaycanda qadınların rolunun artırılması tədbirləri haqqında» 727 №-li Sərəncam imzalanmışdır. Bunun ardınca 25 sentyabr 1998-ci ildə Müstəqil Azərbaycan Respublikası qadınlarının ilk Qurultayı keçirilmiş, bu da cəmiyyətdə qadınların rolunun güclənməsinə təkan vermişdir.

Nikah və ailə münasibətlərinin tənzim olunmasında Ulu Öndər Heydər Əliyev tərəfindən Milli Məclisə təqdim edilmiş və 28 dekabr 1999-cu il tarixli qanunla təsdiq edilmiş Ailə Məcəlləsinin böyük tarixi əhəmiyyəti olmuşdur. 6 mart 2000-ci ildə isə Ümummilli Lider Heydər Əliyev Azərbaycan Respublikasında «Dövlət qadın siyasətinin həyata keçirilməsi haqqında» Fərman imzalamışdır. Azərbaycan Respublikasının Nazirlər Kabinetinin 33 saylı Qərarı ilə «2000-2005-ci illər üçün Azərbaycan Respublikasının Qadın Problemləri üzrə Milli Fəaliyyət Planı» təsdiq olunmuşdur. Belə fəaliyyət proqramının hazırlanması və qəbul edilməsi sonrakı illərdə ənənə şəklini almışdır. Bu da qadın siyasəti sahəsində konkret dövlət vəzifələrinin yeri, vaxtı, məqsədi, vəzifəsi və digər tədbirlərin icrası, onların məyyən edilməsi, onların planlaşdırılması və həyata keçirilməsi sahəsində səmərəli fəaliyyətin uğurlu aparılmasına imkan yaratmışdır.

2003-cü ilin sentyabr ayında Azərbaycan qadınlarının II Qurultayı keçirilmişdir. BMT Baş Məclisinin 20 dekabr 1952-ci il tarixli Qətnaməsi ilə təsdiq edilmiş «Qadınların siyasi hüquqları haqqında» Konvensiya 8 dekabr 1992-ci ildə, «Qadınlara münasibətdə ayrı-seçkiliyin

---

[1] Beynəlxalq sənədlər toplusu, I cild, Bakı, 2008, «Qanun» nəşriyyatı, s.207

bütün növlərinin aradan qaldırılması haqqında» 19 dekabr 1965-ci il tarixli Qətnamə 30 iyun 1995-ci ildə, «İrqi ayrı-seçkiliyin bütün formalarının aradan qaldırılması haqqında» 21 dekabr 1965-ci il tarixli Konvensiya 31 may 1996-cı ildə, «İnsan alveri ilə və üçüncü şəxslər tərəfindən fahişəliyin istismarı ilə mübarizə haqqında» 2 dekabr 1949-cu il tarixli Konvensiya 31 may 1996-cı ildə, «İşgəncələrə və digər qəddar, qeyri-insani və ya ləyaqəti alçaldan rəftar və cəza növlərinə qarşı mübarizə haqqında» 10 dekabr 1984-cü il tarixli Konvensiya 31 may 1996-cı ildə, «Ərdə olan qadının vətəndaşlığı haqqında» 29 yanvar 1957-ci il tarixlı Konvensiya 31 may 1996-cı ildə və digər bu kimi zəruri beynəlxalq sənədlərin ratifikasiyası Milli Məclis tərəfindən həyata keçirilmiş və Milli Qanunvericilikdə bu sənədlərin nəzərə alınması təmin edilmişdir. Avropa Şurasının, digər beynəlxalq və regional təşkilatların qadın hüquqları ilə bağlı sənədləri də ölkəmizdə ratifikasiya edilmiş və milli qanunvericilikdə bütün bunların nəzərə alınması təmin olunmuşdur.

Qadınların və qızların cəmiyyətin maddi nemətlər istehsalında mühüm roluna xüsusi önəm verən beynəlxalq əmək təşkilatı, həmkarlar ittifaqları konfederasiyaları, digər humanitar təşkilatlar bu sahələrdə əsas beynəlxalq standartları müəyyən etmiş, konvensiyalar və digər normativ hüquqi aktlar qəbul etmişdir. Bəşəriyyət tarixində müstəsna əhəmiyyət kəsb edən bu sənədlər zərif qadın əməyinin yalnız müəyyən şərtlər daxilində tətbiqinə imkan verir, onların əməyinin, sağlamlığının, səhhətinin qorunması, layiqli həyat şəraitinin öz əməyi ilə yaradılması, qadın əməyinin mühafizəsi kimi məsələləri önə çəkilmişdir. Müasir dünyamızda mövcud olan bir çox beynəlxalq təşkilatlardan xeyli əvvəl, hələ I Dünya müharibəsindən sonra 1919-cu ildə Versal sülh müqaviləsi nəticəsində Belçika, Kuba, ABŞ, Böyük Britaniya, Fransa, İtaliya, Yaponiya, Çexoslovakiya, Polşa dövlətlərinin nümayəndələrindən ibarət Komissiya Beynəlxalq Əmək Təşkilatının yaradılması haqqında qərar qəbul etmişdir. Bununla da, qadın əməyinin hərtərəfli mühafizəsi sahəsində mühüm qərarlar hazırlamaq və qəbul etmək imkanları ilə tarixə düşən mühüm bir beynəlxalq təşkilat yaradılması təmin edilmişdir. Digər beynəlxalq təşkilatlardan fərqli olaraq Beynəlxalq Əmək Təşki-

latı (BƏT) 1919-cu ilin yanvar-aprel aylarında keçirilən I yığıncağında qəbul edilmiş Konstitusiyanın qəbulu yolu ilə yaradılmışdır. Hazırda dünyanın əksər ölkələri Beynəlxalq Əmək Təşkilatının əmək və sosial təminat məsələlərinin müxtəlif problemlərinin həllini təmin edən və beynəlxalq standartlar müəyyən edən 150-dən çox Konvensiya və tövsiyələr qəbul etmişdir. Mütərəqqi İnkişaf yolunu seçən və hüquqi dövlət quran ölkələrin əksəriyyəti Beynəlxalq Əmək Təşkilatının üzvlüyünə qəbul edilmiş və onların Konvensiyalarını tanımışdır. Azərbaycan Respublikası müstəqilliyin ilk illərində 12 may 1992-ci ildə Beynəlxalq Əmək Təşkilatının üzvü olmuş, ötən dövr ərzində onun yüzə qədər Konvensiyasını və tövsiyələrini tanımış və bu istiqamətdə müvafiq tədbirlər görmüşdür. Beynəlxalq Əmək Təşkilatının 1930-cu il «İcbari və ya məcburi əmək haqqında» Konvensiyası, «Hər cür şaxtalarda, yeraltı işlərdə qadın əməyinin tətbiqi haqqında» 25 iyun 1935-ci il tarixli 45 nömrəli Konvensiyası, «Əmək haqqının düzgün ödənilməsi haqqında» 1951-ci il Konvensiyası, «Bərabər dəyərli əməyə görə kişilərə və qadınlara bərabər haqq verilməsi haqqında» 09 iyun 1951-ci il tarixli 100 nömrəli Konvensiya və 90 nömrəli Tövsiyə, «Analığın mühafizəsi haqqında» 28 iyun 1952-ci il tarixli 103 nömrəli Konvensiya və 95 nömrəli Tövsiyə, «Əmək və məşğulluq sahəsində ayrı seçkilik haqqında» 25 iyun 1958-ci il tarixli Konvensiya, «Ticarətdə və idarələrdə gigiyena haqqında» 09 iyun 1964-cu il tarixli 120 nömrəli Konvensiya, «Məşğulluq sahəsində siyasət haqqında» 1964-cü il 122 nömrəli Konvensiya, «Ticarətdə və idarələrdə gigiyena haqqında» 17 iyun 1964-cu il tarixli 120 nömrəli Tövsiyə, «Ailə öhdlikləri olan işçilər haqqında» 1981-ci il Konvensiyası, «Məşğulluğa yardım və işsizlikdən müdafiə haqqında» 1991-ci il 168 saylı Konvensiyası, «Sosial təminatın minimum normaları haqqında» 122 nömrəli Konvensiya, «Sosial təminatın hüquqi bərabərliyi haqqında minimum normaları haqqında» 118 nömrəli Konvensiya, «İş yerlərində havanın çirklənməsi ilə, səslə və titrəyişlə yaranan peşə risklərindən müdafiə haqqında» 1 iyul 1979-cu il 148 nömrəli Konvensiya, «Əmək miqrasiyası və mühacir zəhmətkeşlərin sosial müdafiəsi sahəsində» Tövsiyə və onlarla digər beynəlxalq sənədlər, qadın əməyinin və sağlamlığının eti-

barlı mühafizəsinə və qorunmasına zəruri imkan və şərait yaratmış, bu sahədə əsas beynəlxalq standartları müəyyən etmişdir.

«İnsan hüquqları haqqında Ümumi Bəyannamə»nin 23-cü maddəsində göstərilir ki, hər bir insan işləmək, işlədiyi işi sərbəst seçmək, ədalətli və əlverişli iş şəraitinə malik olmaq və işsizlikdən müdafiə olunmaq hüququna malikdir. Hər bir insan, heç bir ayrı-seçkiliyə məruz qalmadan, bərabər əməyə görə bərabər haqq almaq hüququna malikdir. İşləyən hər bir insan, onun özünün və ailəsinin layiqli dolanışığını təmin edən, əsalətli və qənaətbəxş həcmdə, zəruri hallarda isə digər sosial təminat vəsaitləri də əlavə edilməklə haqq almaq hüququna malikdir.[1] İnsan hüquqları sistemində əmək hüququnun, istirahət hüququnun, normal əmək şəraitinin və digər zəruri məsələlərin beynəlxalq standartlara cavab verən bir səviyyədə təmin olunması BMT-nin «İqtisadi, sosial və mədəni hüquqlar haqqında» və «Mülki və siyasi hüquqlar haqqında» beynəlxalq paktlarında, fakultativ protokollarında və digər sənədlərdə də öz ifadəsini tapmışdır. Maddi nemətlər istehsalında, insanın yaşamasında, inkişafında, bəşəriyyətin tərəqqisində və yüksəlişində əməyin, xüsusilə qadın əməyinin müstəsna rolu və yeri vardır. Bir varlıq olaraq insanın mövcudluğunu və inkişafını əməksiz təsəvvür etmək mümkün deyildir. Tarixən formalaşan əmək bölgüsü şəraitində ailənin və cəmiyyətin inkişafında qadının rolu əvəzsiz olmuşdur. Dünyaya insan gətirilməsində, onun böyüdülməsində və inkişafında əsas ağırlıq anaların, qadınların üzərində olmuşdur. Kapitalist münasibətlərinin inkişafı ilə əlaqədar olaraq dünyanın müxtəlif ölkələrində qadın əməyindən geniş istifadə edilmiş, südəmər analar zərərli və təhlükəli şəraitlərdə işlədilmişlər. 25 sentyabr 1906-cı ildə «Kölәlik haqqında» Konvensiyası qəbul edilmişdir. 1919-cu ildə «Köləliyin bütün formalarının, quruda və dənizdə, qul ticarətinin ləğv edilməsi haqqında» Sen-Jermen Konvensiyası 30 aprel 1950-ci ildə BMT-nin «Köləliyin, qul ticarətinin və köləliyə oxşar institutların və adətlərin ləğv olunması haqqında» Konvensiya qəbul edilmişdir. 29 oktyabr 1953-cü ildə BMT-nin «Kölәlik haqqında» Cenevrə Konvensiyasına mühüm dəyi-

[1] Beynəlxalq sənədlər toplusu, I cild, Bakı, 2005, s.55-56

şikliklər edilmişdir. 7 sentyabr 1956-cı ildə isə «Köləliyin, qul ticarətinin və köləliyə oxşar institutların və adətlərin ləğv olunması haqqında» əlavə Konvensiya qəbul edilmişdir.

Avropa Şurasının məqsəd və vəzifələrinə uyğun olaraq 18 oktyabr 1961-ci ildə Turində Avropa Sosial Xartiyası və ona aid Protokol qəbul edilmişdir. Bu sənədə sonralar dəfələrlə əlavələr və zəruri düzəlişlər edilmiş, üzv dövlətlər hər bir insanın sərbəst şəkildə seçdiyi ixtisas üzrə öz zəhməti ilə yaşayış üçün qazanc əldə etmək, ədalətli, təhlükəsiz və sağlam iş şəraiti, özlərinin və ailələrinin normal həyat səviyyəsi üçün yetərli olan ədalətli mükafatlandırma, iqtisadi və sosial maraqların müdafiəsi məqsədilə milli və ya beynəlxalq təşkilatlarda sərbəst birləşmək, kollektiv müqavilələr bağlamaq, uşaqlar və yeniyetmələrin məruz qaldıqları fiziki və mənəvi ziyan təhlükəsindən xüsusi müdafiə olunmaq, işləyən qadınların analıq dövründə xüsusi müdafiəsi, şəxsi qabiliyyətinə və maraqlarına uyğun olaraq peşə seçimi baxımından ona yardım göstərilməsi, səhhətini yaxşı səviyyədə saxlamaq, sosial təminat, sosial və tibbi yardım almaq, sosial xidmətlərindən faydalanmaq, əlillərin müstəqillik, sosial inteqrasiya və ictimai həyatda iştirak etmək, cəmiyyətin əsas özəyi olan ailənin sosial, hüquqi və iqtisadi müdafiəsi, uşaqların və gənclərin müvafiq sosial, hüquqi və iqtisadi müdafiəsi, hər bir vətəndaşın bərabər əsaslarla, hər hansı bir gəlir gətirən fəaliyyətlə məşğul olmaq, işçi-miqrantlar və onların ailə üzvlərinin müdafiə olunmaq və yardım yardım, cinsi əlamətə görə ayrı-seçkiliyə məruz qalmamaq, müəssisə daxilində informasiya almaq və məsləhətləşmək, əmək şəraitini və istehsal mühitini yaxşılaşdırmaq, hər bir ahılın sosial müdafiə hüququndan istifadə etmək, məşğulluğun dayandırıldığı hallarda müdafiə hüququ, işəgötürənin ödəmə qabiliyyətsizliyi halında, onların iddialarının müdafiəsi hüququna malik olmaq, iş yerlərində insan ləyaqətini qormaq, işə girən və ya işə girmək istəyən, ailə öhdəlikləri olan hər bir şəxsin heç bir ayrı-seçkiliyə məruz qalmadan və mümkün qədər öz işi ilə ailə öhdəlikləri arasında toqquşma yaratmadan bunu etmək hüququ, mənzil hüququ və sair bu kimi hüquqları təsbit edilmişdir. Ümumiyyətlə BMT-nin, Avropa Şurasının, xüsusilə Avropa Sosial Xartiyasının sənədlərində heç bir irqi ayrı-seçkilik qo-

yulmadan, bərabərlik hüququ tətbiq edilərək hər bir qadının əmək hüququ, təhlükəsiz və gigiyena tələblərinə tam cavab verən iş şəraitində işləmək hüququ, ədalətli əmək haqqı və mükafatlandırma hüququ, birləşmək hüququ, kollektiv müqavilə bağlamaq hüququ, işləyən qadınların müdafiəsi hüququ, peşə seçmək hüququ, peşə hazırlığı hüququ, sağlamlığının mühafizəsi hüququ, sosial təminat hüququ, sosial və tibbi yardım almaq hüququ, sosial xidmətdən faydalanmaq hüququ, hamiləliyə və doğuşa görə minimum sosial şəriatin və iş mühitinin yaradılması hüququ, əməkçi əlillərin və əqli cəhətdən qabiliyyətsiz şəxslirin peşə hazırlığı hüququ, ailənin sosial və iqtisadi müdafiə hüququ, anaların və uşaqların sosial və iqtisadi müdafiəsi hüququ, gəlir gətirən fəaliyyətlə məşğul olmaq hüququ, əməkçi miqrantların və onların ailələrinin müdafiə hüququ, yardım və kömək almaq hüququ geniş şəkildə əks olunmuşdur. 18 oktyabr 1961-ci ildə qəbul edilmiş Avropa Sosial Xartiyasının əlavə protokolunda cinsi əlamətə görə ayrı-seçkilik olmadan məşğulluq və peşəyə aid olan bərabər imkan və bərabər şərait hüququ, məlumat və məsləhətləşmə hüququ, əmək şəraitinin müəyyən edilməsi və yaxşılaşdırılmasında iştirak etmək hüququ, ahıl şəxslərin sosial müdafiə hüququ təsbit olunmuşdur.[1]

Müstəqillik illərindən başlayaraq Azərbaycan Respublikasında əmək münasibətlərinin tənzimlənməsi sahəsində beynəlxalq və Avropa standartlarına əməl olunması istiqamətində ardıcıl və sistemli tədbirlər həyata keçirilmiş, əmək münasibətləri sahəsində beynəlxalq konvensiyalar ratifikasiya edilmiş və milli qanunvericiliyin bu sənədlərə uyğunlaşdırılması üçün islahatlar aparılmışdır. Lakin qadın əməyinin tətbiqi sahələrində ictimai münasibətlərin tənzimlənməsi məsələləri referendum yolu ilə qəbul edilmiş konstitusiyada tam nəzərə alınmışdır. Qeyd edilmişdir ki, müxtəlif mülkiyyət növlərinə əsaslanan və bazar münasibətlərinə üstünlük verən iqtisadiyyatın əsas məqsədləri xalqın və hər bir vətəndaşın rifahının yüksəldilməsinə, onun sosial müdafiəsinin tam təmin edilməsinə və layiqli həyat şəraitinin yaradıl-

---

[1] Avropa İnsan Hüquqları Konvensiyası və Avropa Sosial Xartiyası, Bakı, 2001, s. 82-94; Avropa Şurası Yenidən baxılmış Avropa Sosial Xartiyası, Bakı, 2004, s.7 - 11

masına xidmət edir. İctimai – siyasi həyatın və iqtisadiyyatın yüksəlişində qadının rolu və onun əməyinin hüquqi tənzimlənməsinə diqqət artırılmışdır. Azad sahibkarlığa şərait yaradılmış və konstitusiyada qadın əməyinin fərdi və ictimai rifahın əsası olduğu göstərilmişdir. Hər kəsin əməyə olan qabiliyyəti əsasında sərbəst surətdə özünə fəaliyyət növü, peşə, məşğuliyyət və iş yeri seçmək hüququ tanımaqla yanaşı, eyni zamanda zorla işlədilmənin qadağan edilməsi əmək müqavilələrinin şəxsin könüllü istəyi və arzusu əsasında bağlanması qaydası nəzərdə tutulmuşdur. Eyni zamanda, hər kəsin təhlükəsiz və sağlam şəraitdə işləmək, heç bir ayrı-seçkilik, o cümlədən qadın və kişi cinsi fərqi tətbiq edilmədən öz işinə görə dövlətin müəyyənləşdirdiyi minimum əmək haqqı miqdarından az olmayan haqq almaq hüququ tanınmışdır. Bununla belə işsizlərin dövlətdən sosial müavinət almaq hüququnun tanınması, həmçinin işsizliyin aradan qaldırılması üçün dövlət bütün imkanlardan istifadə etməkdədir. 1 fevral 1999-cu il tarixli Qanunla təsdiq edilmiş Azərbaycan Respublikasının Əmək Məcəlləsi 11 iyul 1999-cu ildən qüvvəyə minmişdir. Əmək münasibətlərində qadınların və kişilərin bərabərliyi qanunda öz ifadəsini tapmış, bununla belə müxtəlif səbəblər üzündən ayrı-seçkiliyin salınması qəti qadağan edilmişdir. Əmək Məcəlləsində və onunla bağlı olaraq verilən normativ hüquqi aktlarda qadınların əmək hüquqları, onlara edilən güzəştlər, ödəmələr, mükafatlar, yardımlar, əmək mühafizəsi qaydaları beynəlxalq standartlara tam uyğunlaşdırılmış, qadın hüquqlarının və azadlıqlarının qorunması üçün müvafiq normalar nəzərdə tutulmuşdur. Məcəllənin 10-cu bölməsinin 36-cı fəslində qadınların əmək hüququ və onun həyata keçirilməsi üçün təminatlar nəzərdə tutulmuşdur. Hamilə və 3 yaşına çatmamış uşağı olan qadınlarla əmək müqaviləsinin bağlanma şərtləri yüngülləşdirilmiş, qadın əməyinin tətbiqi qadağan olunan sahələr konkretləşdirilmiş, onların gecə işlərinə cəlb edilməsi, zərərli və yeraltı sahələrdə işlədilməsi qadağan edilmiş, əlavə güzəştlər, yardımlar nəzərdə tutulmuşdur. Məcəllədə və onunla bağlı verilən normativ-aktlarda «Bərabər əməyə görə kişilərə və qadınlara bərabər haqq verilməsi haqqında» 24 may 1950-ci il tarixli 100 saylı Konvensiyada, «Qadınların müxtəlif yeraltı işlərdə və şaxtalarda əməyinin

məhdudlaşdırılması haqqında» 21 iyun 1935-ci il tarixli Konvensiyada, «Analığın mühafizəsi haqqında» 28 iyun 1952-ci ildə qabul edilmiş Konvensiyada nəzərdə tutulmuş şərtlər tam nəzərə alınmışdır. Bu da onunla əlaqədar olmuşdur ki, həmin konvensiyalar Azərbaycan Respublikasının Milli Məclisində ratifikasiya edilmiş və ölkəmiz bu sahədə öz üzərinə müvafiq öhdəliklər götürmüşdür.

Qadınların tətil hüququ, istirahət hüququ, sosial təminat hüququ, sağlam ətraf mühitdə yaşamaq hüququ, sağlamlığını qorunması hüququ, cəmiyyətin və dövlətin ictimai siyasi həyatında iştirak etmək hüququ, azad sahibkarlıqla məşğul olmaq hüququ Azərbaycan Respublikası Konstitusiyasında nəzərdə tutulmuş və onun həyata keçirilməsi üçün Birləşmiş Millətlər Təşkilatının, Beynəlxalq Əmək Təşkilatının, Avropa Şurasının, digər beynəlxalq və regional qurumların tələblərinə və şərtlərinə tam əməl edilməkdədir.[1]

Müstəqillik illərində qadın hüquqları yalnız Konstitusiya səviyyəsində deyil, digər normativ hüquqi aktların layihələrinin hazırlanmasında, müzakirəsində və qəbulunda da tam nəzərə alınmışdır. Belə ki, Azərbaycan Respublikasının Cinayət Məcəlləsində, Mülki Məcəllədə, Əmək Məcəlləsində, İnzibati – Xətalar Məcəlləsində, İnzibati – İcraat haqqında Məcəllədə, Cəzaların İcrası Məcəlləsində, sosial təminat hüququnun müxtəlif məsələlərinə dair qanunlarda və digər çoxsaylı normativ hüquqi aktlarda, hökumətin qəbul etdiyi qərarlarda qadın hüquqları ilə bağlı tənzimetmə məsələləri beynəlxalq standartlara tam cavab verə bilən bir səviyyədə hazırlanmışdır. Qadın hüquqları ilə sıx bağlı olan yetkinlik yaşına çatmamışların və uşaqların hüquqlarının qorunması sahəsində zəruri olan bir çox qanunlar da qəbul edilmişdir. Artıq xeyli müddətdir ki, «Repreduktiv sağlamlığın qorunması və ailə planlaşdırılması haqqında» Azərbaycan Respublikasının Qanun La-

[1] Bax ətraflı: Bərabər hüquqlar, bərabər imkanlar, Bakı, 2012; Qasımov A., Məmmədov O., Abdullayev M., Beynəlxalq əmək hüququ, Bakı, 2012; Azərbaycan Respublikasının Ailə Məcəlləsi, Bakı, "Hüquq nəşriyyatı", 2011; Gender terminlərinin izahlı lüğəti, Bakı, 2005; Avropa İnsan Hüquqları Konvensiyası, Bakı; İqtisadi azadlıq, Bakı, 2006; Avropa İnsan hüquqları Konvensiyası və Avropa Sosial Xartiyası, Bakı, 2001; Avropa Şurası yenidən baxılmış Avropa Sosial Xartiyası, Bakı, 2004

yihəsi müxtəlif təşkilatlar və mütəxəssislər tərəfindən geniş müzakirə edilmiş və bu müzakirələr ölkədə böyük marağa səbəb olmuşdur.

Ulu Öndər Heydər Əliyev tərəfindən daha da inkişaf etdirilmiş qadın siyasəti və bu sahədə ictimai münasibətlərin hüquqi tənzimlənməsi sahəsində kompleks tədbirlər sistemi cənab İlham Əliyev tərəfindən də uğurla təkmilləşdirilmişdir. Belə ki, 6 fevral 2006-cı ildə İlham Əliyevin Fərmanı ilə «Qadın problemləri üzrə Dövlət Komitəsi»nin statusu daha da təkmilləşdirilərək onun bazasında «Ailə, qadın və uşaq problemləri üzrə Dövlət Komitəsi» yaradılmış, onun səlahiyyətləri, hüquqları və fəaliyyət dairəsi genişləndirilmişdir. 10 oktyabr 2006-cı ildə «Gender (kişi və qadınların) bərabərliyinin təminatları haqqında» Qanun qəbul edilmişdir. 22 iyun 2010-ci ildə «Məişət zorakılığının qarşısının alınması haqqında» Azərbaycanda ilk dəfə olaraq Qanun qəbul edilmişdir. Bu gün müstəqil Azərbaycanda qadınların sayı, dövlətin və cəmiyyətin həyatında onların rolu və təsiri sürətlə artmaqda və genişlənməkdədir. Belə bir mərhələdə qadın hüquqlarının və qadınlara münasibətdə ictimai münasibətlərin ədalətli tənzimlənməsi sahəsində səmərəli tədbirlər həyata keçirilir. Ölkəmizdə qadın hüquqlarının və azadlıqlarının qanunvericilikdə təsbit olunması, bu hüquqların qorunması, mühafizəsi və qadın hüquqlarının daim inkişaf etdirilməsi ardıcıl, sistemli və kompleks şəkildə aparılması ilə səciyyəvidir.

Azərbaycan Respublikası Konstitusiyasının 12-ci maddəsində insan və vətəndaş hüquqlarının və azadlıqlarının təmin edilməsi dövlətin ali məqsədi kimi təsbit edilmişdir. Demokratik, hüquqi dövlət qurmaq, vətəndaş cəmiyyətini formalaşdırmaq insan hüquqlarının qanunvericilik yolu ilə təsbit edilməsi və onun müdafiəsini təmin edən təsisatlar olmadan qeyri-mümkündür. Xalqın suveren iradəsi üzərində qurulan Azərbaycan dövlətinin başlıca məqsədi və fəaliyyət istiqamətləri milli maraqları qorumaqla yanaşı, eyni zamanda qadın hüquqlarını və azadlıqlarını etibarlı şəkildə təmin etməkdən ibarətdir.

Xüsusilə II Dünya Müharibəsindən sonra dünya birliyi ölkələrinin birgə səyi ilə «İnsan hüquqları haqqında Ümumi Bəyannamə»nin qəbul edilməsi dünya tarixində bu istiqamətdə aparılan mübarizənin məntiqi nəticəsi və hüquqi qələbəsi kimi səciyyələndirilə bilər. BMT-nin,

Avropa Şurasının, Avropa Birliyinin və digər beynəlxalq və regional qurumların aktları, «Mülki və siyasi hüquqlara dair Beynəlxalq Pakt», «Sosial-iqtisadi və mədəni hüquqlara dair Beynəlxalq Pakt» və digər beynəlxalq sənədlərin qəbul edilməsi, bu məsələlərə xüsusi önəm verilməsi nəzərə alınaraq, müstəqillik illərində Azərbaycan Respublikasının ilk Konstitusiyasında insan hüquqlarına və azadlıqlarına dair normaların formalaşmasında əsas rol oynamışdır. Konstitusiyanın ikinci bölməsinin üçüncü fəslində nəzərdə tutulan 48 normada insan üçün zəruri olan hüquqların və azadlıqların bütün növləri beynəlxalq standartlara uyğun olaraq və hətta bir çox yerlərdə daha da genişləndirilmiş formada öz ifadəsini tapmışdır. Həmin bölmənin dördüncü fəsli isə «Vətəndaşların əsas vəzifələri» məsələlərinə həsr edilməklə, burada 9 norma nəzərdə tutulmuşdur. Qeyd edilməsi zəruridir ki, bu normalara əməl etmək müstəqillik Azərbaycan Respublikasının ali məqsədi olmaqla yanaşı, eyni zamanda Konstitusiyada sadalanan insan hüquqlarının və azadlıqlarının Azərbaycan Respublikasının tərəfdaş çıxdığı beynəlxalq müqavilələrə uyğun olaraq tətbiq edilməsini də nəzərdə tutmuşdur.

Qadın hüquqlarının qanunvericilik yolu ilə beynəlxalq və milli səviyyədə tənzimlənməsi sahəsində əsrlərlə davam edən gərgin mübarizə aparılmasına baxmayaraq, bu sahədə daha uğurlu nəticələr əsasən II Dünya Müharibəsindən sonra əldə edilmişdir. «İnsan hüquqları haqqında Ümumi Bəyannamə» bu sahədə ilk uğurlu addım olmuşdur. BMT-nin «İqtisadi, sosial və mədəni hüquqlar haqqında», «Mülki və siyasi hüquqlar haqqında» 16 dekabr 1966-cı il tarixli beynəlxalq Paktlarında, bütün bunlarla əlaqədar olaraq qəbul edilmiş Fakultətiv Protokollarda[1] cəmiyyətin bərabər hüquqlu üzvü kimi tanınan qadının hüquqlarının və azadlıqlarının bəşəri mənada tanınması, təsbit olunması, mühafizəsi və müdafiəsi sahəsində mühüm addımlar atılmışdır. Əslində bu beynəlxalq sənədlərdə insan hüquqlarının mühüm tərkib hissəsi kimi qadın hüquqlarının ümumdünya standartları təsbit olunmuşdur. Məqsəd bəşə-

[1] Beynəlxalq sənədlər toplusu, Bakı, 2005, I cild, s.51-96

riyyətin və cəmiyyətin ən dəyərli varlığı kimi qadının hüquqlarının və azadlıqlarının beynəlxalq səviyyədə mükəmməl şəkildə ifadə olunması və onun üçün cəmiyyətdə zəruri olan bütün imkanların və şəraitin yaradılmasına istiqamətlənmişdir.

5 may 1949-cu ildə «Avropa Şurasının Nizamnaməsi» imzalandıqdan və bu təşkilat 3 avqust 1949-cu ildə fəaliyyətə başladıqdan sonra, qadın hüquqlarının və azadlıqlarının Avropa məkanında tanınması, bu hüquqların Avropa ölkələrinin qanunvericilik aktlarında təsbit olunması, mühafizəsi və müdafiəsi sahəsində ardıcıl və sistemli tədbirlər həyata keçirilmiş, zəruri normativ hüquqi aktlar qəbul edilmişdir. 4 noyabr 1950-ci ildə qəbul edilmiş «İnsan hüquqları və əsas azadlıqlarının müdafiəsi haqqında» Avropa Konvensiyası, onun müvafiq protokolları bu sahədə mühüm və əhəmiyyətli sənədlər kimi dəyərləndilə bilər.[1]

Qadın hüquqlarının geniş şəbəkəsi məhz bu beynəlxalq hüquqi sənədlərə, eləcə də digər regional aktlara tamamilə müvafiq olaraq Azərbaycan Respublikasının 12 noyabr 1995-ci ildə referendum yolu ilə qəbul edilmiş ilk Konstitusiyasında geniş formada ifadə olunmuşdur.[2] Məzmun və məna etibarı ilə belə mükəmməl sənədlər – normativ hüquqi aktlar qadın hüquqlarının və azadlıqlarının kompleks formada təsbit olunmasının bariz nümunəsi kimi səciyyələndirilə bilər.

Hər bir dövlət beynəlxalq hüquq normalarının dövlətdaxili sahədə həyata keçirilməsini məhz milli hüquq sistemi əsasında reallaşdırır. Buna görə də, beynəlxalq hüquq üzrə öhdəliklərin yerinə yetirilməsinin təminat mexanizminin müəyyən edilməsi suveren dövlətin öz öhdəsinə buraxılır. Belə ki, dövlətlərin hüquq sisteminin demokratikləşdirilməsi dərəcəsi ilə onun beynəlxalq hüquqa münasibəti arasında sıx əlaqə vardır. Belə ki, beynəlxalq hüququn inkişafı hüququ dövlətin öz inkişafından çox asılıdır.[3] Bu ba-

---

[1] Avropa İnsan Hüquqları Konvensiyası və Avropa Sosial Xartiyası, Bakı, 2001, s. 36-81

[2] Azərbaycan Respublikasının Konstitusiyası, Bakı, 2013, s. 13-34

[3] İbayev V. Avropa məhkəməsi presidentləri: mülkiyyət hüququ, Bakı, 2007, s.9

xımdan tədqiqatçılar haqlı olaraq göstərirlər ki, milli hüquq sistemi vətəndaşların hüquqlarının və azadlıqlarının real surətdə müəyyən olunması və onun həyata keçirilməsi sahəsində müstəsna əhəmiyyətə malikdir. Bu da onunla əlaqədardır ki, hər bir insan, hər bir qadın bir vətəndaş olaraq konkret dövlətin ərazisində və yurisdiksiyası altında yaşayıb, fəaliyyət göstərməklə o, konkret dövlətin müəyyən etdiyi hüquqlardan və azadlıqlardan təcrübi baxımdan daha çox və daha geniş istifadə edir və bəhrələnir. Çünki, qadın bir vətəndaş olaraq konkret ölkənin yurisdiksiyası altında daha konkret desək, məsələn Azərbaycan Respublikasının vətəndaşı kimi onun qanunlarından istifadə edir, bəhrələnir və bu normalar onun statusunun müəyyən edilməsi üçün həlledici hüquqi əhəmiyyətə malikdir. Buna görə də qadın hüquqlarının və azadlıqlarının həcmini, imkanlarını, reallığını daha çox hiss edən, duyan və istifadə edən məhz həmin ölkənin sakini, konkret olaraq Azərbaycan Respublikasının vətəndaşı olan qadın hiss edir.

Şərqdə ilk dəfə olaraq qadın və kişi hüquqlarının bərabərliyi, qadınlar üçün bir sıra iqtisadi və siyasi hüquqların nəzərdə tutulması Azərbaycan Demokratik Cümhuriyyətinin sənədlərində öz ifadəsini tapsa da, sonradan SSRİ tərkibində fəaliyyət göstərdiyi dövrdə Azərbaycan Sovet Sosialist Respublikasının Konstitusiyalarında (1921, 1925 (qismən), 1937 və 1978-ci illər) qadın hüquqlarının intensiv genişləndirilməsi diqqəti cəlb edir. Bütün bunlara baxmayaraq, yuxarıda qeyd edildiyi kimi qadın hüquqlarının və azadlıqlarının daha mükəmməl ifadə forması və təsbiti referendum yolu ilə qəbul edilmiş Azərbaycan Respublikasının Konstitusiyasında öz ifadəsini tapmışdır. Buna görə də beynəlxalq sənədlərdə - «İnsan hüquqları haqqında Ümumi Bəyannamə»ndə, Avropa Şurasının sənədlərində təsbit olunan qadın hüquqlarının səciyyəvi cəhətləri Azərbaycan Respublikasının Konstitusiyasında mükəmməl formada öz ifadəsini tapmışdır. Bu baxımdan qeyd edilən sənədlərin müqayisəli təhlili qadın hüquqları haqqında müəyyən obyektiv nəticələr çıxarmağa, onların ümumdünya standartlarının əsas elementlərinin müəyyən edilməsinə əlverişli imkan verir və şərait

yaradır. Qeyd edilməsi zəruridir ki, qadın və kişi hüquqlarının bərabərliyi Birləşmiş Millətlər Təşkilatının Nizamnaməsinin Preambula hissəsində, eyni zamanda bu Nizamnamənin 2, 8 və bir sıra digər maddələrində də öz ifadəsini tapmışdır.

«İnsan hüquqları haqqında Ümumi Bəyannamə» 30 maddədən ibarətdir.[1] Bu Bəyannamənin Preambula hissəsində kişi və qadın hüquqlarının bərabərliyinin təsbit olunması sosial tərəqqinin əsası kimi səciyyələndirilmişdir. Bəyannamənin birinci maddəsində bütün insanların, o cümlədən qadınların və kişilərin cinsi mənsubiyyətindən asılı olmayaraq, öz ləyaqətləri və hüquqları etibarı ilə azad və bərabər doğulduqları bəyan edilmişdir. Göstərilmişdir ki, insana cinsindən asılı olmayaraq ağıl və vicdan bəxş edilmişdir və onlar biri-birinə münasibətdə qardaşlıq ruhunda davranmalıdırlar.[2]

Beynəlxalq hüquqi sənədlər – BMT-nin Nizamnaməsi, «İnsan hüquqları haqqında Ümumi Bəyannamə», «İqtisadi, sosial və mədəni hüquqlar haqqında», «Mülki və siyasi hüquqlar haqqında» 16 dekabr 1966-cı il tarixli beynəlxalq Paktlar, bütün bunlarla əlaqədar olaraq qəbul edilmiş Fakultətiv Protokollar, «Avropa Şurasının Nizamnaməsi», «İnsan hüquqları və əsas azadlıqlarının müdafiəsi haqqında» Avropa Konvensiyası, onun müvafiq protokolları və digər beynəlxalq sənədlər təhlil edilərkən qadın hüquqlarının və azadlıqlarının beynəlxalq standartlarının əsas dairəsini müəyyən etmək mümkündür. Belə standartlara qadının layiqli yaşamaq və sağlamlıq hüququ, nikaha girmək və ana olmaq hüququ, azadlıq və şəxsi toxunulmazlıq hüququ, əmək və istirahət hüququ, vətəndaşlıq və milli mənsubiyyət hüququ, mülkiyyət hüququ, təhsil hüququ, dövlətin idarə edilməsində iştiraketmək və seçki hüququ, sosial təminat hüququ, qanun qarşısında bərabərlik və ayrı-seçkiliyin bütün formalarının qadağan edilməsi hüququ, müdafiə hüququ, mədəniyyət hüququ, vicdan, din, ifadə, düşüncə və birləşmək azadlığı, ədalətli məhkəmə hüququ, təqsirsizlik prezimpiyası hü-

[1] İbayev V. Avropa məhkəməsi presidentləri: mülkiyyət hüququ, Bakı, 2007, s.51.
[2] Beynəlxalq sənədlər toplusu, Bakı, 2005, I cild, s.7-34

ququ və digər bu kimi hüquqları və azadlıqları şamil etmək olar. Qeyd etmək lazımdır ki, bu hüquqların və azadlıqların dairəsi, həcmi və məzmunu istər beynəlxalq hüquqi sənədlərdə və istərsə də dövlətdaxili hüquq normalarında müxtəlif məzmunda, geniş və ya məhdud mənada ifadə olunmasından asılı olmayaraq, əsas məqsəd cəmiyyətdə və hər hansı bir dövlətdə qadının kişilərlə bərabər hüquqa malik olmasını, onun öz həyatını, fəaliyyətini və ömrünü azad və firavan keçirməsini, ana kimi xoşbəxt həyat sürməsini, övladlarını tərbiyə edib öz arzusuna uyğun olaraq böyütməsini, cəmiyyətin və dövlətin qurulmasında və inkişafında bərabər hüquqla iştirak etməsini, xoşbəxt və mənalı ömür sürməsini, heç bir qanunsuzluğa məruz qalmamasını təmin etməyə istiqamətlənmişdir. Cəmiyyət və dövlət həyatı dinamik inkişafda olan bir proses kimi daim dəyişə və təkmilləşə bilər. Buna müvafiq olaraq qadın hüquqları və azadlıqları da daim təkmilləşməli və inkişaf etdirilməlidir. Buna görə də beynəlxalq və milli səviyyədə qadın hüquqlarının da daimi inkişaf etməsi, təkmilləşməsi tamamilə mümkün və təbii proses kimi qiymətləndirilməlidir. Azərbaycan Respublikası Konstitusiyasının 76-cı maddəsində Vətənin müdafiəsi hər bir vətəndaşın borcu hesab olunur. Qanunla müəyyən edilmiş qaydada vətəndaşlar hərbi xidmət keçir, bədənini qoruyurlar. Bu Konstitusion normanın icrası ilə əlaqədar olaraq ölkəmizdə müxtəlif normativ hüquqi aktlar qəbul edilmişdir. «Azərbaycan Respublikasında hərbi xidmətə çağırışın əsasları haqqında» Qanunun tələbinə görə 18 yaşından 35 yaşınadək olan kişi cinsli vətəndaşlar hərbi xidmətə çağırılırlar. Bununla belə, qanunun tələbinə görə Azərbaycan Respublikasının tibbi və ya başqa ixtisas təhsili olan qadın vətəndaşları da, yalnız özlərinin razılığı ilə hərbi uçota götürülə bilər və müqavilə əsasında Azərbaycan Respublikasının Silahlı Qüvvələrinin köməkçi və ya başqa bölmələrində xidmət edə bilərlər. Göründüyü kimi, Azərbaycan Respublikasının qadın vətəndaşlarının, hərbi xidmətə çağırışı müstəsna hal kimi yalnız onların öz razılığı əsasında mümkün hesab edilir. Bu da kişilərlə eyni statusa malik olan qadınların cəmiyyətin bərabər üzvü kimi Vətəni

müdafiə etmək vəzifəsinin könüllülük prinsipinə əsaslanması onlara olan humanist münasibətin nəticəsi kimi qiymətləndirilə bilər.

«İnsan hüquqları haqqında Ümumi Bəyannamə»nin 1-ci və 2-ci maddələrinin tələblərinə görə bütün insanlar öz ləyaqətləri və hüquqları etibarı ilə azad və bərabər doğulurlar. ...Hər bir insan irqi, dərisinin rəngi, cinsi, dili, dini, siyasi və digər əqidələri, milli və sosial mənsubiyyəti, əmlak vəziyyəti, silki mənsubiyyəti və digər vəziyyətlərinə görə heç bir fərq qoyulmadan, «İnsan hüquqları haqqında Ümumi Bəyannamə»də elan edilmiş bütün hüquqlara və azadlıqlara malikdirlər.[1] Bundan əlavə, insanın mənsub olduğu ölkənin və ya ərazinin siyasi, hüquqi və beynəlxalq statusuna, bu ərazinin müstəqil, asılı, özünü idarə etməsi və ya suverenliyi hər hansı digər şəkildə məhdudlaşdırılan ərazi olub-olmamasından asılı olamayaraq, insan hüquqlarına münasibətdə heç bir fərq qoyulmamalıdır.[2] Bu normalar və onun məzmunu Azərbaycan Respublikası Konstitusiyasının 24-cü maddəsində «insan və vətəndaş hüquqlarının və azadlıqlarının əsas prinsipi» kimi verilmişdir. Qeyd edilmişdir ki, hər kəsin (burada söhbət Azərbaycan Respublikasının vətəndaşından gedir), yəni Azərbaycan Respublikasının vətəndaşı olan qadının doğulduğu andan toxunulmaz, pozulmaz və ayrılmaz hüquqları və azadlıqları vardır.

İnsan hüqüqlarının və azadlıqlarının müxtəlif meyarlara görə - zamana, məkana, məzmuna, həcmə və digər göstəricilərə görə çoxsaylı təsnifatları mövcuddur. Bu hüquqlar və azadlıqlar hər şeydən əvvəl, daha çox konkret fərdə, konkret şəxsiyyətə, qadına şamil edilməsi ilə səciyyəvidir. Hər bir qadın bu hüquqları həyata gəlişi ilə – anadan doğulması ilə sahib olur. Lakin insan - dövlət münasibətlərinin tədqiqi göstərir ki, cəmiyyətdə, müxtəlif ictimai siyasi quruluşda, müxtəlif dövrlərdə və müxtəlif siyasi rejimlərdə dövlət, insanın təbii hüquqlarını zaman-zaman müəyyən çərçivədə, az və ya çox dərəcədə məhdudlaşdırmağa meylliliyi ilə diqqəti cəlb edir.

---

[1] Beynəlxalq sənədlər toplusu, Bakı, 2005, I cild, s. 52

[2] Yenə orada

Onun azadlıqlarını boğur. Əsrlərlə davam edən belə proseslər insanı öz hüquqları və azadlıqları uğrunda tarixi mübarizəyə səfərbər etmişdir. Beynəlxalq konvensiyalar isə hüquqlar və azadlıqlar sahəsində müdafiə olunma öhdəliyini daha çox dövlətlərin üzərinə qoyur. Müvafiq olaraq dövlətlər də bu sahədə öz üzərlərinə öhdəliklər götürürlər. Buna görə də ayrı-ayrı dövlətlərin konstitusiyalarında, beynəlxalq sazişlərə müvafiq olaraq insan hüquqları və azadlıqları əsas yerlərdən birini tutur və aparıcı mahiyyət daşıyırlar.

Müasir dövrümüzdə hüquqların və azadlıqların ən müxtəlif təsnifatları mövcud olsa da, fikrimizcə daha legitim təsnifat hər şeydən əvvəl beynəlxalq sənədlərdə nəzərdə tutulan təsnifatlar hesab oluna bilər. «İnsan hüquqları haqqında Ümumi Bəyannamə»də, BMT-nin «İqtisadi, sosial və mədəni hüquqlar» haqqında» Paktında, «Mülki və siyasi hüquqlar haqqında» Paktda, «İnsan hüquqları və əsas azadlıqları haqqında» Avropa Konvensiyasında, Azərbaycan Respublikasının Konstitusiyasında və digər mühüm və mötəbər sənədlərdə təsbit olunan hüquqların və azadlıqların ardıcıllığı, sistemi, məcmusu, dəyəri və əhəmiyyəti belə təsnifatlara nümunə ola bilər. Hansı kateqoriyaya aid edilməsindən asılı olmayaraq qadın hüquqları və azadlıqları ayrılmaz, bölünməz və universal səciyyə daşımaqla onlar biri-biri ilə sıx əlaqədədir, vəhdətdədir və biri digərini tamamlamaqdadır. «İnsan hüquqları haqqında Ümumi Bəyannamə»nin, «İnsan hüquqları və əsas azadlıqları haqqında» Avropa Konvensiyasının, müxtəlif Paktların və Fakultativ protokolların qəbulundan sonra insan hüquqlarının və azadlıqlarının dairəsi əhəmiyyətli dərəcədə genişlənmiş, onun universal xarakteri diqqəti daha çox cəlb etməyə başlamışdır. Məsələn, azadlıq hüququ olmayan insanın başqa hüquqlarından istifadə etməsi, yaxud təhsili olmayan insanın layiqli iş tapmaq və əmək haqqı almaq hüququnu realizə etməsi ağlabatan hesab oluna bilməz. Bu mənada insan hüquqları və azadlıqları biri-biri ilə qarşılıqlı əlaqədə olmaqla, biri-digərini tamamlamaqda və biri digərinin həyata keçirilməsində müstəsna əhəmiyyətə malikdir.

«İnsan hüquqları üzrə Vyana Bəyannaməsi»nin 5-ci maddəsində göstərilir ki, bütün insan hüquqları universal və bölünməzdir. Biri-birindən asılıdır və bir-biri ilə əlaqəlidir. Beynəlxalq ictimaiyyət insan hüquqlarına qlobal şəkildə ədalətli və bərabər şəkildə, eyni əsaslarla və eyni diqqətlə yanaşmalıdır. Milli və regional xüsusiyyətlərin, müxtəlif tarixi, mədəni və dini şəraitlərin nəzərə alınması vacibdir. Bütün insan hüquqlarının və əsas azadlıqlarının dəstəklənməsi və müdafiəsi siyasi, iqtisadi və mədəni sistemindən asılı olmayaraq üzv dövlətlərin mühüm vəzifəsi hesab olunmalıdır.[1]

«İnsan hüquqları haqqında Ümumi Bəyannamə»nin 2-ci maddəsinə əsasən hər bir insanın irqi, dərisinin rəngi, cinsi, dili, dini, siyasi və digər əqidəsi, milli və sosial mənsubiyyəti, əmlak vəziyyəti və digər göstəricilərinə görə heç bir fərq qoyulmadan bütün hüquqlara və azadlıqlara sahib olması hüququnu təsbit etmişdir. İnsanın mənsub olduğu ölkənin və ya ərazinin siyasi, hüququ və beynəlxalq statusuna, bu ərazinin müstəqil, asılı, özünü idarə etməyən və ya suverenliyi hər hansı digər şəkildə məhdudlaşdırılan ərazi olub-olmamasından asılı olmayaraq heç bir fərq qoyulmamalıdır.[2]

«İnsan hüquqlarının və əsas azadlıqlarının müdafiəsi haqqında» Avropa Konvensiyasının 14-cü maddəsinə görə hüquqlardan və azadlıqlardan istifadə cins, irq, rəng, dil, din, siyasi və digər baxışlar, milli və ya sosial mənşə, milli azlıqlara mənsubiyyət, əmlak vəziyyəti, harada doğulması və ya digər statusun olması kimi hər hansı əlamətlərə görə ayrı-seçkilik olmadan təmin olunmalıdır.[3]

Azərbaycan Respublikasının Konstitusiyasının 25-ci maddəsinə görə hamının qanun qarşısında bərabərliyi prinsipi tanınmışdır. Qeyd edilmişdir ki, hamı qanun və məhkəmə qarşısında

---

[1] Bax: Иванов Г.И. Права человека, Минск, 2011, с.137-197; İbayev V. Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi beynəlxalq hüquq müstəvisində, B., 2006, s.12-17

[2] Beynəlxalq sənədlər toplusu, I cild, Bakı, 2005, s.52

[3] Avropa İnsan hüquqları Konvensiyasi və Avropa Sosial Xartiyası, Bakı, 2001, s.44

bərabər hesab olunur. Kişi ilə qadının eyni hüquqları və azadlıqları vardır. Dövlət irqində, milliyyətindən, dinindən, dilindən, cinsindən, mənşəyindən, əmlak vəziyyətindən, qulluq mövqeyindən, əqidəsindən, siyasi partiyalara, həmkarla ittifaqlarına və digər ictimai birliklərə mənsubiyyətindən asılı olmayaraq, hər kəsin hüquqlarının və azadlıqlarının bərabərliyinə təminat verir. İnsan və vətəndaş hüquqlarını və azadlıqlarını irqi, milli, dini, dil, cinsi, mənəşəyi, əqidə, siyasi və sosial mənsubiyyətə görə məhdudlaşdırması qadağan edilmişdir. Hüquqlar və vəzifələrlə bağlı qərarlar qəbul edən dövlət orqanları və dövlət hakimiyyət səlahiyyətlərinin daşıyıcıları ilə münasibətlərdə hər kəsin bərabər hüquqları təmin edilməlidir.[1]

Göründüyü kimi ayrı-seçkiliyin qadağan olunması və insanların bərabərlik hüququnun məzmununu ifadə edən normanın bir çox müddəalarına aydınlıq gətirilməsinə ehtiyac vardır. Bu da onunla əlaqədardır ki, qeyd olunan normaların məzmunu onun bir sıra tərkib elementlərinin aydınlaşdırılmasını tələb edir. Ayrı-seçkiliyin salınması, çox vaxtı həm də insanların bərabər hüquqluluğu haqqında təlimlərlə üzləşir. Bu baxımdan insanın irqi əlamətləri, dərisinin rəngi, cinsi, dili, milli mənsubiyyəti, dini, vətəndaşlığı, peşəsi, sənəti, zahiri görünüşü, siyasi partiyalara və birliklərə mənsubluğu çox vaxt onun özündən asılı olmur. Bu bəzən təbii inkişaf prosesləri ilə, onun harada, hansı ailədə doğulması ilə sıx bağlı olur. İnsanın sosial, əmlak, silk, partiya və başqa mövqeyi cəmiyyətdə qazanılan statusla əlaqədar olaraq təşəkkül tapır. Birinci nəsil insan hüquqları arasında mühüm yer tutan bərabərlik hüququ özündə bir çox dəyərləri ehtiva edir. Təcrübədə ayrı-seçkiliyin salınması zamanı təəssüf ki, bu elementlərdən bir bəhanə kimi istifadə edilir. Bu isə insanın ləyaqəti ilə, şəxsiyyəti ilə, mövqeyi ilə sıx bağlı olur, cəmiyyətdə, dövlətdə və ailədə hüquqi müəyyənlik və hüquqi etibar prinsiplərinə kölgə salır. Beynəlxalq hüquq normaları bu məsələni ayrı-seçkilik hesab etdiyi halda, Azərbaycan Respublikasının Konstitusiyası buna bərabərhüquqluluq

[1] Azərbaycan Respublikasının Konstitusiyası, Bakı, 2014, s. 13-14

prinsipinin pozulması kimi baxır. Buna görə də məhz beynəlxalq hüquqi sənədlər insanın bərabər hüquqlu olduğunu qəbul edərək, ayrı-seçkiliyin bütün formalarının qadağan edilməsini vacib hesab edir. Çünki bu insan ləyaqətini alçaldır, ədalətə və bərabərliyə kölgə salır. İnsanın dərisinin rəngi, hansı dildə danışması, hansı dinə ibadət etməsi, hansı siyasi əqidəyə sahib olması, hansı ölkənin vətəndaşı olması, əmlak vəziyyəti, silki mənsubiyyəti, valideynlərinin və özünün sosial vəziyyəti və digər əlamətlər sonradan qazanılan keyfiyyət göstəriciləri olmaqla, insan kimi onun bu və ya digər hüquqlarının azaldılmasına və ya məhdudlaşdırılmasına hüquqi əsas verə bilməz. İnsanın bərabər hüquqluluğu və ona münasibətdə ayrı-seçkiliyin salınmasında daha çox zərər çəkən fərd çox vaxt qadınlar olur. Bəşər tarixində qadın olduğuna görə insanların hüquqları, məsələn siyasi hüquqları zaman-zaman məhdudlaşdırılmış və o, təqiblərə məruz qalmışdır. Bu ayrı-seçkiliyin çox müxtəlif növləri, əsasları, əlamətləri və keyfiyyətləri uzun illər insan hüquqlarının məhdudlaşdırılmasının «hüquqi əsası» kimi çıxış etmişdir. İnsanların bu keyfiyyət göstəricilərinə və fərqlərinə görə – dininə, dilinə, etnik və sosial mənşəyinə, siyasi əqidəsinə, cinsi əlamətlərinə, irqi göstəricilərinə görə fərqləndirilməsi onların siyasi həyatda iştirak etmək, nikah münasibətlərinə girmək, əmək və sosial təminat hüququnun həyata keçirməsində müəyyən ayrı-seçkiliyə səbəb olmuşdur. Buna görə də «Qadınların siyasi hüquqları haqqında» BMT-nin Konvensiyasında göstərilir ki, qadınlar bütün seçkilərdə heç bir ayrı-seçkilik qoyulmadan, kişilərlə bərabər şərtlərlə səsvermək hüququna malikdirlər və milli qanunla müəyyən olunmuş açıq seçkilər keçirilməsini tələb edən bütün idarələrə və vəzifələrə seçilə bilərlər. Qadınlar kişilərlə bərabər şərtlərlə ictimai dövlət qulluğunda vəzifə tutmaq və milli qanunla müəyyən edilən bütün ictimai dövlət funksiyalarını yerinə yetirmək hüququna malikdirlər.[1]

---

[1] Beynəlxalq sənədlər toplusu, I cild, Bakı, 2008, s.66-69

BMT-nin «Qadınlar barəsində ayrı-seçkiliyin bütün formalarının ləğv edilməsi haqqında» 18 dekabr 1979-cu il tarixli Qətnaməsi qadınlara münasibətdə bir çox məsələləri həll etməklə yanaşı, həm də qadınlar barəsində «ayrı-seçkilik» anlayışına aydınlıq gətirmişdir. Göstərilmişdir ki, qadınlar barəsində «ayrı-seçkilik» anlayışı, ailə vəziyyətlərindən asılı olmayaraq kişilərlə qadınların hüquq bərabərliyi əsasında siyasi, iqtisadi, sosial, mədəni, mülki və ya digər sahələrdə insan hüquqlarının və azadlıqlarının tanınmasının, qadınlardan istifadə edilməsinin və ya onların hüquqlarının həyata keçirilməsinin məhdudlaşdırılmasının heçə endirilməsinin, cinsi əlamətlərə görə hər hansı fərqləndirmənin aparılması, istisna və ya məhduddiyyətlərin tətbiq olunması kimi əməllərin məcmusunu əhatə edir.[1]

Konvensiya qadınlar barəsində ayrı-seçkiliyin bütün istiqamətlərdə ləğv edilməsini üzv dövlətlərə tövsiyə etmiş, qadınların siyasi, əmək, əmlak, nikah, təhsil, sosial təminat, seçki, sağlamlıq, şəxsi həyat, məhkəmə müdafiəsi, vicdan azadlığı və digər hüquqlarının və azadlıqlarının milli hüquq sistemində əks olunmasını vacib hesab etmişdir.[2]

Azərbaycan Respublikasının Konstitusiyası beynəlxalq konvensiyalara müvafiq olaraq qadınlarla kişilərin bərabərliyi hüququnu təsbit etmiş və məhz qadın cinsinə mənsub olduğuna görə bütün sahələrdə ayrı-seçkiliyin nəinki aradan qaldırılmasını, habelə ayrı-seçkiliyin ümumiyyətlə, qadağan edilməsini vacib hesab etmişdir. Dünyada qadınların imkanlarının genişləndirilməsinə xüsusi diqqət yetirilir və bu sahədə ən yüksək göstəricilər İsveçdə müşahidə edilir. Bu ölkənin parlament üzvlərinin 45%-ni qadınlar təşkil edirlər. Finlandiyada deputatların 37%-i, Norveçdə 34.6%-i qadınların payına düşdüyü halda, İranda və Türkiyədə bu rəqəm 5-4%, Nigeriyada 1.2%, Yəməndə isə 0.3% təşkil edir. Qadınlarla kişilərin bərabərhüquqluluğunun təmin edilməsi, qadınlara qarşı ayrı-seçkili-

---

[1] Beynəlxalq sənədlər toplusu, I cild, Bakı, 2005, s.705-717

[2] Yenə orada

yin aradan qaldırılması sahəsində görülmüş tədbirlər nəticəsində son illər ölkənin ictimai-siyasi həyatında qadınların rolu xeyli artmışdır. Məlumatlardan və təhlillərdən görünür ki,[1] hazırda dövlət qulluğunda çalışanların 28%-ni, sahibkarlıq fəaliyyəti ilə məşğul olanların 17%-ni, bədən tərbiyəsi və idman sahəsində çalışanların 39.8%-ni, bələdiyyə üzvlərinin 26.7%-ni qadınlar təşkil edirlər. 1990-cı ilə nisbətən parlamentdə təmsil olunan qadınların sayı hazırda 16%-ə çatmışdır. Milli Məclisin 3 sədr müavinindən 1 nəfəri, iki Dövlət Komitəsinin sədri, üç nazir müavini, İnsan hüquqları üzrə müvəkkil (Ombudsman), Naxçıvan Muxtar Respublikasının İnsan hüquqları üzrə müvəkkili, Konstitusiya Məhkəməsinin sədr müavini, bir nəfər üzvü, Dövlət Neft Şirkətinin vitse-prezidentlərindən biri, Xarici İşlər Nazirliyində çalışanların 91 nəfəri, hakimlərin 52 nəfəri, Ədliyyə orqanlarında işləyənlərin 1055 nəfəri, o cümlədən rəhbər vəzifələrdə çalışanların 80 nəfəri, notariusların 26 nəfəri, icra hakimiyyəti başçılarının müavinlərinin 35 nəfəri qadınların payına düşür. Daxili İşlər orqanlarının orta və böyük rəis heyətində 287 nəfər, sıravi və kiçik rəis heyətində 835 nəfər qadın xidmət edir. Hələ 2000-ci ildə ölkə üzrə «Qaçqın və məcburi köçkün qadınların münasib işlə təmin edilməsi» sahəsində həyata keçirilən Dövlət Proqramı öz müsbət nəticəsini verməkdədir. Belə ki, hazırda ölkədə ümumiyyətlə, qadın sahibkarlığının inkişafına göstərilən maddi və mənəvi dəstəyin nəticəsidir ki, qadın sahibkarların sayı 81647 nəfəri keçmiş və ya 17.9% təşkil etmişdir. Yoxsulluğun aradan qaldırılması, sosial yardımların ardıcıl olaraq genişləndirilməsi, yeni iş yerlərinin yaradılması, ixtisas və peşə hazırlığının sistemli olaraq həyata keçirilməsi nəticəsində əmək qabiliyyətli qadınların 69.2%-i özəl sektorda, 30.8%-i dövlət sektorunda işləməklə, o cümlədən sosial və idarəetmə sektorunda işləyən qadınların sayı 33% olmuşdur. Ölkənin bütün həyatında qadınların rolu intensiv surətdə artmaqdadır. Bu gün ölkənin səhiy-

---

[1] Azərbaycanın Demoqrafik göstəriciləri, Bakı, 2014, s. Siyasətdə və dövlət əhəmiyyətli qərarların qəbul edilməsində qadın və kişilərin balanslaşdırılmış iştirakı, İnsan hüquqları üzrə Baş Direktoratlığı Avropa Şurası, Bakı, 2003, s.50

yə, təhsil, elm, kütləvi informasiya vasitələri, idman və müxtəlif istehsal sahələrində çalışan qadınların sayı da artmaqdadır. Bütün bunlara baxmayaraq ölkədə kişilərə nisbətən qadınların ictimai-siyasi həyatda yeri, rolu, iştirak dərəcəsi, fəaliyyəti və digər göstəriciləri hələ də qənaətbəxş hesab oluna bilməz. Buna görə də qadınların rolunun artırılması, ayrı-seçkiliyin tamamilə aradan qaldırılması sahəsində tədbirlər davam etdirilməkdədir. Bu sahədə qadınların hüquqlarının və azadlıqlarının cinayət-hüquqi vasitələrlə mühafizəsi sahəsində də müəyyən tədbirlər nəzərdə tutulmuşdur.

Azərbaycan Respublikasının Cinayət Məcəlləsinin 111-ci maddəsində irqi ayrı-seçkilik (aparteid) cinayətinə görə, habelə insan hüquqlarının və azadlıqlarının pozulmasına görə cinayət və inzibati məsuliyyət nəzərdə tutulmuşdur. Cinayət Məcəlləsinin 21-ci fəslində insan və vətəndaşın konstitusiya hüquqları və azadlıqları əleyhinə olan cinayətlərə görə məsuliyyət müəyyən edən 24 maddədən ibarət tərkib müəyyən edilmişdir. Eyni zamanda, İnzibati Xətalar Məcəlləsində az əhəmiyyətli əməllərə görə inzibati təsir tədbirləri nəzərdə tutulmuşdur. İnzibati və cinayət məsuliyyəti qadınların hüquqlarının və azadlıqlarının pozulması sahəsində mühüm çəkindirici və profilaktiki əhəmiyyətə malikdir.

Qadın hüquqlarının və azadlıqlarının pozulması, əksər hallarda insanların bərabərlik hüququnun pozulması ilə səciyyəvi olur. Təhsildə, elmdə, sosial sferada, ailədə, cinsi münasibətlərdə və sair bərabərlik hüququnun pozulması cəmiyyətdə ziddiyyətləri və münaqişələri artırır, dövlətə və hüquqa olan inamı azaldır. Məhkəmə prosesində ədalət mühakiməsinin həyata keçirilməsində bərabərlik hüququnun pozulması sübutların araşdırılması, əldə edilməsi, obyektiv həqiqətin müəyyən olunması, qanuni və ədalətli məhkəmə qərarlarının qəbul edilməsi üçün son dərəcə vacib və əhəmiyyətli olan çəkişmə prinsipinin pozulmasına səbəb olur. Tərəfləri qeyri-bərabər səviyyəyə salır. Cəmiyyətdə insanların heç bir ayrı-seçkilik olmadan müxtəlif ictimai siyasi sahələrdə fərqləndirilməsi, onların birinə üstünlük və digərinə məhdudiyyət tətbiq edilməsi insanın bərabərhüquqlü olması prinsipini pozur, eyni hüquqi və-

ziyyətdə olan insanlar arasında fərqlilik, ayrı-seçkilik yaradır. Demokratik və hüquqi dövlətdə insanların hüquqlarının və azadlıqlarının bərabərliyi olduqca mühüm əhəmiyyətə malikdir. Qadın hüquqlarına münasibətdə ayrı-seçkiliyin salınması və bərabərliyin pozulması təcrübə baxımdan cəmiyyətdə narazılıq yaradır, tarazlığı pozur, münaqişələri və ziddiyyətləri artırır, hüquq pozuntularının çoxalmasına təsir göstərir. İctimai, siyasi və ailə həyatında ayrı-seçkiliyin təzahürü və bərabərliyin pozulması olduqca müxtəlif çeşidə malik olmaqla, müxtəlif mənfi nəticələr verə bilər.

«İnsan hüquqları haqqında Ümumi Bəyannamə»nin 3-cü maddəsinə görə, hər bir insan yaşamaq, azadlıq və şəxsi toxunulmazlıq hüququ vardır.[1] Bu norma Avropa Konvensiyasının 2-ci maddəsində yaşamaq hüququ adı altında verilmişdir.[2] Azərbaycan Respublikası Konstitusiyasının 27-ci maddəsi isə «yaşamaq hüququ» adı altında təsbit olunmuşdur.[3] Yaşamaq hüququ eyni ilə qadınlara da aid edilir. Göstərilən normativ hüquqi aktlarda yaşamaq hüququnun məzmunu, geniş mənada açılmasa da, əslində yaşamaq hüququ hər bir insanın bir varlıq olaraq dünyaya gəlməsi, bioloji mövcudluğu, cəmiyyətin üzvü kimi yaşaması, fəaliyyət göstərməsi, hüquqlardan və azadlıqlardan istifadə etməsi ilə sıx bağlıdır.[4] Cəmiyyətin əsas aparıcı qüvvəsi hesab edilən insan cinsinin özünəməxsus xüsusiyyətləri ilə səciyyəvi olan, ən mühüm və aparıcı sosial təbəqəsini məhz qadınlar təşkil edirlər. Digər insan cinsi kimi qadın cinsinə mənsub olan insan, bir varlıq olaraq doğularkən, dünyaya gələrkən ilk olaraq yaşamaq hüququndan bəhrələnir, onun yaşamaq hüququ elə təbii olaraq dünyaya gəlməsindən başlanır. Təsadüfi deyildir ki, dünyanın bir çox mütərəqqi ölkələrində

---

[1] Azərbaycanın Demoqrafik göstəriciləri, Bakı, 2014; Siyasətdə və dövlət əhəmiyyətli qərarların qəbul edilməsində qadın və kişilərin balanslaşdırılmış iştirakı, İnsan hüquqları üzrə Baş Direktoratlığı Avropa Şurası, Bakı, 2003, s.52

[2] Avropa İnsan Hüquqları Konvensiyası, Bakı, 2002, s.4-5

[3] Azərbaycan Respublikası Konstitusiyası, Bakı, 2011, s.14

[4] Алиев Ш. Научно-практический комментарий к Конституции Азербайджанской Республики, Баку, 20000, с.88-92

abort nəinki qadağa edilmiş, hətta buna görə qanunvericlikdə müəyyən məsuliyyət nəzərdə tutulmuşdur. Bu da onu göstərir ki, ana bətnində yaranmış və bioloji cəhətdən yetişmiş uşaq, insan olaraq doğulmaq hüququna sahibdir. Bu isə yaşamaq hüququnun tərkib hissəsi olmaqla, yaşamaq hüququnu ilk realizəsi, əvvəli kimi səciyyələndirilə bilər. Ətrafında baş verən hadisələri və prosesləri dərindən duymadan, dərk etmədən, qiymətləndirmədən o bir varlıq olaraq təbii ehtiyaclarını – yemək, nəfəs almaq, görmək, duymaq, müəyyən qıcıqlara reaksiya vermək, var olmaq və sair bu kimi bioloji xüsusiyyətlərindən istifadə edir, yaşayır, böyüyür və ətrafdakıları insan kimi dərk edənə qədər zaman etibarı ilə fasiləsiz olaraq əsaslı keyfiyyət dəyişikliklərinə məruz qalır, formalaşır, yetkinlik yaşına çatır, müəyyən ömür edir və ömrünü sona vurur. Qadın, həyatının sonuna qədər yaşamaq hüququndan istifadə edir, bəhrələnir, var olur və öz ömrünü bir insan kimi, bir qadın kimi başa vurur.

Qadının yaşamaq hüququ həyatla sıx bağlıdır. Həyat şəxsiyyət üçün mənəvi, ruhi, sosial və hüquqi nemətlərin ən vacibi və zəruri olanıdır. «Həyat» və «ölüm», «yaşamaq» və «ölmək» xüsusiyyətləri insana daha çox aid olan anlayışlardandır. Bu anlayışlar həyatın və ölümün mənasının dərk edilməsi, onunla bağlı ayrı-ayrı məsələlər üzrə zəruri meyarların dəqiqləşdirilməsi üçün son dərəcə vacibdir. Həyata gələn hər bir canlı ölümlə də həyatdan gedir. Yaşadığımız həyatın ən dəyərli varlığı olan insan ömrü bəşəri mənada zaman etibari ilə çox qısadır. Buna görə də yaşamaq və ölmək problemi ən müxtəlif elm sahələri tərəfindən zaman-zaman tədqiq edilmiş, öyrənilmiş və müəyyən nəticələr çıxarılmışdır. Bu problemin tədqiqi müasir dövrümüzdə də aktual mahiyyət daşıyır. Yaşamaq nə qədər gözəl, mənalı və sevimlidirsə, ölüm o qədər ağır və kədərlidir. Ölüm bütün qalan hüquqları, azadlıqları və vəzifələri, sevgi və nifrəti, sevinc və kədəri, arzuları və istəkləri, bir sözlə, insanın varlığı, şəxsiyyəti, mənəviyyatı, ruhu ilə bağlı olan hər nə varsa, hamısını məhv edir, onun yaşamaq hüququnu sona çatdırır. Buna baxmayaraq insan həyatının son dərəcə dəyərli ol-

ması, əvəzedilməzliyi, təkrarsızlığı barədə müddəaların sübut edilməsinə də ehtiyac qalmır. Bu baxımdan insan həyatı, onun yaşamaq hüququ, dünyanın böyük fikir dahilərinin daim marağına səbəb olmuşdur. Con Lokk, Hüqo Qrotsi, Benedikt Spinoza, Jan-Jak Russo, Şarl Monteskyö və digər böyük mütəfəkkirlərin fikirlərində yaşamaq hüququ təbii hüquqların tərkib hissəsi kimi səciyyələndirilmişdir. 16-17-ci əsrlərdə formalaşmış «təbii hüquq» nəzəriyyəsi insanın yaşamaq hüququna varlığın ayrılmaz hüququ kimi baxırdı. «Təbii hüquq» nəzəriyyəsinin, banilərindən biri olan Con Lokk yazırdı: «İnsan tam azadlıq hüququndan və onun imtiyazlarından məhdudiyyətsiz olaraq istifadə etmək üçün doğulur. O, öz təbiətinə görə öz mülkiyyətini, öz həyatını, öz azadlığını və öz əmlakını mühafizə etmək hüququna malikdir».[1] Con Lokk təbii hüquqlar içərisində ilkin yerlərdən birini məhz yaşamaq hüququna verirdi. Mütəfəkkir yaşamaq hüququ ilə bağlı fikirlərini müqavilə nəzəriyyəsində də inkişaf etdirərək, dövlətin mənşəyini insanlar arasında bağlanan qarşılıqlı müqavilə ilə əlaqələndirirdi. Huqo Qrotsi yaşamaq hüququnu səciyyələndirərkən ağırlıq mərkəzini məhz onun təbii xarakteri üzərinə salırdı. Onun ideyasına görə, insanın yaşamaq hüququ deyərkən, «təbii hüququn özü və insanın təbiəti başa düşülür».[2] Görkəmli fransız maarifçisi, «hakimiyyətlərin bölgüsü» nəzəriyyəsinin yaradıcılarından və onu inkişaf etdirənlərdən biri olan Şarl Lui Monteskyö yazırdı ki, bütün mülki və siyasi hüquqlardan əvvəl «təbii hüquqlar» gəlir və onlar bizim təbii varlığımızdan doğulduqları üçün də «təbii hüquqlar» adlandırılırlar.[3] Başqa sözlə, insanın təbii hüquqları konsepsiyasının tərəfdarları bu hüquqların qanunvericilikdə təsbit edilməsinin və möhkəmləndirilməsinin zəruriliyini olduqca vacib hesab edirdilər. Onların fikrincə, «təbii hüquq» nə zamanla və nə də məkanla şərtləşmir. Hətta yaradan olmasaydı belə təbii hüquqlar yenə də mövcud

---

[1] Локк Дж. Два трактата о направлении. Соч., т.3. М., 1988. с.310
[2] Гроций Г. О праве войны и мира. М., 1987. с.45
[3] Монтескье Ш. О духе законов. М., 1990. с.165

olacaqdı.[1] Fransanın 1789-cu il «İnsan və vətəndaş hüquqları Bəyannaməsi», 1793-cü il Fransa Konstitusiyası, 1791-ci ildə qəbul edilmiş ABŞ Konstitusiyası, 1945-cı il qəbul edilmiş BMT Nizamnaməsi və çoxsaylı digər beynəlxalq və regional hüququ sənədlər insanın «yaşamaq hüququ»nu tanımış və ona yüksək dəyər vermişlər. Bu ideyanın əsası bundan ibarət idi ki, insan hüquqları şəxsin anadan olması ilə təbii olaraq ona verilir və bu hüquqları ondan heç bir kəs, hətta dövlət də ala bilməz. Bu mənada bəşəriyyətin bütün tarixi sübut edir ki, hər bir fərdin yaşamaq haqqı onun təbii hüququdur.

İnsanın hüquqları və azadlıqları, vəzifələri və məsuliyyəti Azərbaycan Respublikasının Konstitusiyasında olduqca mükəmməl və ətraflı şəkildə əks olunmuşdur. Əsas qanunumuz hər kəsin doğulduğu andan toxunulmaz, pozulmaz və ayrılmaz hüquqlarını və azadlıqlarını tanımışdır. Hüquqlar və azadlıqlar hər kəsin cəmiyyət və başqa şəxslər qarşısında məsuliyyətini və vəzifələrini əhatə edir. Hər kəsin yaşamaq hüququ vardır, azadlıq hüququ vardır, şəxsi toxunulmazlıq hüququ vardır. Sağlamlığını qorumaq və tibbi yardım almaq hüququ vardır.[2] Ən başlıca ictimai nemətlərdən olan həyatın bütün vasitələrlə qorunması demokratik cəmiyyətlərdə dövlət və hüquq sisteminin başlıca məqsədini təşkil edir. Cəmiyyət, dövlət öz varlığını yalnız o vaxt təmin olunmuş hesab edir ki, o öz vətəndaşlarının həyatını etibarlı şəkildə müdafiə etmək iqtidarında olur.[3] Məhz bu baxımdan yaşamaq hüququ haqqında müddəa insan hüquqları üzrə bütün mühüm beynəlxalq sənədlərdə aparıcı istiqamət təşkil edir. İnsan və vətəndaş hüquqlarının və azadlıqlarının müdafiəsi ilə bağlı elə bir beynəlxalq hüquqi sənəd yoxdur ki, orada insanın yaşamaq hüququ haqqında danışılmasın

[1] История политических и правовых учений / Под ред. О.М.Мартыщина. М., «Зерцало», 2005. с.288

[2] Azərbaycan Respublikasının Konstitusiyası. B., «Hüquq ədəbiyyatı» nəş., 2009. s.14-20

[3] Капинус О.С. Эвтаназия в свете права человека на жизнь. М., 2006. с.164-165

və buna haqq qazandırılmasın. Bu hüquqa insan doğulduğu ilk andan sahib olur, mövcudluğunu və yaşamasını davam etdirir.

BMT-nin «Mülki və siyasi hüquqlar haqqında Beynəlxalq Pakt»ın 6-cı maddəsində göstərilir: «Yaşamaq hüququ hər bir insanın ayrılmaz hüququdur. Bu hüquq qanunla mühafizə olunur. Heç kəs həyatdan özbaşına məhrum edilə bilməz».[1]

Yaşamaq hüququ ilə, ondan özbaşına məhrum etmənin qadağan olunmasının əlaqəsi «İnsan hüquqlarının və əsas azadlıqlarının müdafiəsi haqqında» 4 noyabr 1950-ci il tarixli Avropa Konvensiyasında[2] da öz ifadəsini tapmışdır. Bu beynəlxalq hüquqi sənədlərdən başqa, insanın yaşamaq hüququnun beynəlxalq səviyyədə müdafiəsinə yardım edən və onun qüvvəsini daha da gücləndirən bir sıra regional hüquqi sənədlər də mövcuddur. Məsələn, Müstəqil Dövlətlər Birliyinin «İnsan hüquqlarının və əsas azadlıqlarının müdafiəsi haqqında» Konvensiyası öz məzmununa görə analoji təbiətə malik olan beynəlxalq hüquqi sənəddir[3].

Yaşamaq hüququ digər hüquqların və azadlıqların təməlini, ilkin hüquqi əsasını təşkil edir. Bu hüquq hər bir insanın ən ümdə təbii hüququ olmaqla, onun həyata gəlməsi ilə əldə edilir. Təsadüfi deyildir ki, məhz yaşamaq hüququ çoxsaylı beynəlxalq və milli qanunvericilik aktlarında, digər normativ hüquqi sənədlərdə müxtəlif hüquq normaları ilə təsbit edilmişdir.

Azərbaycan Respublikası Konstitusiyasının 27-ci maddəsində deyilir:

«I. Hər kəsin yaşamaq hüququ vardır.

II. Dövlətə silahlı basqın zamanı düşmən əsgərlərinin öldürülməsi, məhkəmənin qanuni qüvvəyə minmiş hökmünə əsasən ölüm

---

[1] Международный пакт о гражданских и политических правах / Нью-Йорк. 19.12.1966/ Сборник международных документов. М., 1993

[2] Собрание законодательства ООН. 08.01.2001. №2. ст.163; Бюллетень международных договоров. №3. 2001

[3] «Российская газета». № 120. 23.06.1995; Собрание законодательства РФ. 29.03.1999. №13. ст.1489; Бюллетень международных договоров. №6. М., 1999

cəzasının tətbiqi və qanunla nəzərdə tutulmuş digər hallar istisna olmaqla, hər bir şəxsin yaşamaq hüququ toxunulmazdır.

III. Müstəsna cəza tədbiri kimi ölüm cəzası tam ləğv edilənədək yalnız dövlətə, insan həyatına və sağlamlığına qarşı xüsusilə ağır cinayətlərə görə qanunla müəyyən edilə bilər.

IV. Qanunla nəzərdə tutulmuş zəruri müdafiə, son zərurət, cinayətkarın yaxalanması və tutulması, həbsdə olanın həbs yerindən qaçmasının qarşısının alınması, dövlətə qarşı qiyamın yatırılması və ya dövlət çevrilişinin qarşısının alınması, ölkəyə silahlı basqın edilməsi halları istisna olmaqla insana qarşı silah işlədilməsinə yol verilmir».[1]

Dünyanın inkişaf etmiş bütün hüquqi dövlətlərində insan və şəxsiyyət amili önə çəkildiyinə görə yaşamaq hüququnun etibarlı şəkildə qorunması və təmin olunması əsas vəzifə kimi qarşıya qoyulur. Dövlət müstəqilliyimizi əldə etdiyimiz ilk günlərdən başlayaraq ən ali məqsədlərindən biri hüquqi dövlət qurmaqdan ibarət olan Azərbaycan Respublikası, insana ali sərvət kimi yanaşır, onun əsas təbii hüququ olan yaşamaq hüququnu müdafiə etmək üçün bütün hüquqi vasitələrdən səmərəli istifadə etməyə çalışır. Azərbaycan Respublikası müsəlman Şərqində ölüm cəzasını ləğv edən ilk ölkələrdən birincisidir. Belə ki, «Azərbaycan Respublikasında ölüm cəzasının ləğv edilməsi haqqında» 10 fevral 1998-ci il tarixli Qanun olduqca humanist və demokratik məqsədlərə xidmət edən tədbirlərdən biri kimi müsbət qarşılanmış, ölkənin belə bir addımı sonrakı illərdə bir sıra başqa müsəlman ölkələri üçün də nümunəyə çevrilmişdir.[2]

Milli, irqi, dini və digər özəlliklərindən asılı olmayaraq, hər bir insanın, vətəndaşın, əcnəbinin, vətəndaşlığı olmayan şəxsin yaşamaq hüququnun təmin edilməsi Azərbaycan Respublikasının ən ali məqsədlərindən biridir. Buna görə də Azərbaycan Respublikası sülhməramlı bir dövlət olduğuna görə, insana qarşı hər hansı təca-

---

[1] Azərbaycan Respublikası Konstitusiyası. Bakı, «Hüquq ədəbiyyatı» nəş., 2009. s.14-15

[2] «İnsan hüquqları» sənədlər toplusu, Bakı, 1998, s.4-35

vüzü pisləyir və insan hüquqlarının müdafiəsilə bağlı qoşulduğu bütün beynəlxalq öhdəlikləri vicdanla yerinə yetirməyə çalışır. Bir çox normativ hüquqi aktlarla yanaşı, «İnsan hüquqlarının və azadlıqlarının müdafiəsi haqqında» Konvensiyanın tələblərinə müvafiq olaraq Azərbaycan Respublikasında 24 dekabr 2002-ci il tarixdə «Azərbaycan Respublikasında insan hüquqlarının və azadlıqlarının həyata keçirilməsinin tənzimlənməsi haqqında» Konstitusiya Qanununun qəbul edilməsi mühüm əhəmiyyətə malik olmuşdur. Bu qanununda göstərilmişdir ki, Azərbaycan Respublikasının Konstitusiyasının heç bir müddəası dövlət orqanları, təşkilatları və ya ayrı-ayrı şəxslər tərəfindən insan və vətəndaş hüquqlarının və azadlıqlarının ləğv edilməsinə və ya nəzərdə tutulandan artıq dərəcədə qanunsuz olaraq məhdudlaşdırılmasına səbəb ola və onlara dair qeyri-şərtlər müəyyən edilə bilməz.[1] Bu qanunda eyni zamanda vətəndaşların və məhkəmələrin Konstitusiya Məhkəməsinə müraciət etmək hüququ da bir daha öz ifadəsini tapmışdır.

Azərbaycan Respublikası hər cür silahlı müdaxilənin və müharibənin əleyhinədir. O hər hansı bir mübahisənin dinc yollarla həll edilməsinin tərəfdarıdır. Buna görə də ölkəmiz milli zəmində baş verən Dağlıq Qarabağ münaqişəsinin silah işlətməklə, zor göstərməklə deyil, məhz dinc yolla, beynəlxalq hüquq normalarının tətbiq edilməsi vasitəsilə həll edilməsinə üstünlük verir.[2]

Azərbaycan Respublikasında insanın yaşamaq hüququnun müdafisinə son dərəcə ciddi yanaşılmasının bariz nümunələrindən biri insanın həyatına və sağlamlığına qarşı hər cür kriminal əməllərlə cinayət-hüquqi mübarizənin getdikcə gücləndirilməsi və təkmilləş-

---

[1] Azərbaycan Respublikasının Konstitusiyası, Bakı, 2014, s.5-6

[2] Həsənzadə S.B. Dağlıq Qarabağ münaqişəsi qadın və uşaq hüquqlarının qorunmasına təhdid kimi, 04.06.2012-ci ildə "Hüquq elminin aktual problemləri"nə həsr olunmuş beynəlxalq konfransın materiallarında dərc edilmişdir. Türkiyə, Samsun, 2012, s.321-332; Гасанзаде С.Б. Гарантии прав женщин и детей в эктремальных условиях, RF-nın Oryol şəhərində keçirilən XIV beynəlxalq elmi konfransın materialları. RF, 2012, s.26-31; Həsənzadə S.B. Ekstremal şəraitlərdə qadın və uşaq hüquqlarının mühafizəsi, AMEA-nın Fəlsəfə, Sosiologiya və Hüquq İnstitutunun Elmi Əsərləri (hüquq seriyası). № 2 (17). B., 2011, s.284-289

dirilməsidir. Azərbaycan Respublikası Cinayət Məcəlləsinin müxtəlif bölmə və fəsillərində insanın yaşamaq hüququnun müxtəlif cəhətlərinin cinayət hüququ vasitələrlə müdafiəsinə dair çoxsaylı maddələr nəzərdə tutulmuşdur. Belə ki, sülh və insanlıq əleyhinə olan cinayətlər, müharibə cinayətləri, şəxsiyyət əleyhinə olan cinayətlər, insan və vətəndaşın konstitusiya hüququ və azadlıqları əleyhinə olan cinayətlər, ictimai təhlükəsizlik və ictimai qayda əleyhinə olan cinayətlər və bir sıra digər fəsillərdə və ayrı-ayrı maddələrdə insanların yaşamaq hüququna bu və ya digər dərəcədə qəsd edən əməllərə görə məsuliyyət nəzərdə tutulmuşdur.[1] Dövlət insanın yaşamaq hüququnun qorunmasını yalnız cinayət hüquqi vasitələrdən deyil, həm də sosial-iqtisadi, psixoloji və digər profilaktiki metodlardan istifadə etmək yolu ilə də qoruyur.

Avropa dövlətlərinin konstitusiyalarında ifadə edilən yaşamaq hüququnun təsbit edilməsi demək olar ki, oxşar mətn və oxşar məzmun təşkil edirlər. Belə ki, həmin hüquq ya qısa şəkildə bəyan edilir, ya da insanın digər təbii hüquqlarının təminatı ilə birgə təsbit olunur. Məsələn, Portuqaliya Konstitusiyasının 17-ci maddəsinin 1-ci hissəsində belə bəyan edilir: «İnsan həyatı toxunulmazdır». Həmin Konstitusiyanın 24-cü maddəsinin 2-ci hissəsində deyilir: «Ölüm cəzasının tətbiqinə yol verilmir». Yaxud Albaniya Respublikasının Konstitusiya Qanununun V fəslinin 1-ci maddəsində elan edilir ki, insanın yaşamaq hüququ qanunla müdafiə olunur. Məhkəmənin qanuni qüvvəyə minmiş ölüm cəzası haqqında hökmü olmadan heç kəs həyatdan məhrum edilə bilməz. Cinayətin törədildiyi anda 18 yaşına çatmayan şəxslərə, habelə qadınlara ölüm cəzası tətbiq edilmir. Xorvatiya Respublikası Konstitusiyasının 21-ci maddəsi də demək olar ki, analoji məzmuna malikdir. Həmin maddədə deyilir: «Hər bir insan yaşamaq hüququna malikdir. Xorvatiya Respublikasında ölüm cəzası Cinayət Məcəlləsindən çıxarılmışdır». Slovakiya Respublikası Konsti-

[1] Azərbaycan Respublikasının Cinayət Məcəlləsi, «Hüquq ədəbiyyatı» nəşriyyatı, B., 2014, s. 100-136

tusiyasının 15-ci maddəsində, Çexiya Respublikası Konstitusiyasının 6-cı maddəsində əlavə olaraq belə bir müddəa da təsbit edilmişdir ki, insan həyatı, həm də onun doğulmasınadək mühafizə edilməyə layiqdir. Bu onu göstərir ki, insanın yaşamaq anının əvvəli onun həyata gəldiyi andan başlasa da, əslində isə qanun insan həyatını normal vəziyyətlərdə, hətta ana bətnində də mühafizəsini diqqətdə saxlayır.

İrlandiyanın Konstitusiyası da bu yolla gedərək 40-cı maddədə bəyan etmişdir ki, dövlət hələ doğulmayanın, yəni ana bətnində olan rüşeymin də yaşamaq hüququnu tanıyır, uşağın yaşamaq hüququnu nəzərə alaraq, buna hörmət edilməsinə təminat verir və bu hüququ öz qanunları ilə mühafizə edir. Avropa ölkələrinin konstitusiyalarında bəzən yaşamaq hüququ bir maddə çərçivəsində digər hüquqlarla kompleks şəkildə təsbit edilir. İspaniyanın Konstitusiyası buna misal ola bilər. Belə ki, İspaniya Konstitusiyasının 15-ci maddəsində deyilir: «Hamı yaşamaq hüququna, fiziki və mənəvi toxunulmazlıq hüququna malikdir. Heç kəs heç bir halda işgəncələrə və ya ləyaqəti alçaldan qeyri-insani rəftara məruz qala bilməz. Müharibə dövründə hərbi cinayət qanunları ilə nəzərdə tutulan hallar istisna olmaqla, ölüm cəzası ləğv».[1]

İnsanın yaşamaq hüququnun normativləşdirilərək bir çox dünya dövlətlərinin konstitusiyalarında təsbit edilməsi bu hüququn müstəqil bir fenomen kimi nəzərdən keçirilməsini, hərtərəfli təhlilini və yeri gəldikcə kompleks şəkildə tədqiq edilməsini şərtləndirmişdir. Bu baxımdan yaşamaq hüququ – bu, ancaq özünəməxsus daxili quruluşa malik olan müstəqil hüquq kimi nəzərdən keçirilməlidir. Eyni zamanda heç kəs mübahisə etməz ki, məsələn, şəxsi toxunulmazlıq – bu, yaşamaq hüququnun təminatının ən zəruri şərtidir. Lakin bəzi müəlliflər belə hesab edirlər ki, həyat, sağlamlıq və fiziki azadlıq – bütün bunlar insan varlığının bioloji xüsusiyyətlərini əhatə edən nemətlərdir və onlar bir-biri ilə çox sıx

---

[1] Конституции государств Европы. Т.3. М., 2001 с. 16-275; Конституции зарубежных стран. М., 1996. с.45

bağlı olduqlarına görə, vahid obyekti – insanın şəxsi təhlükəsizliyini təşkil edirlər.[1] Bu mülahizədə belə bir cəhət unudulmuşdur ki, azadlıq və şəxsi toxunulmazlıq hüququ fərdin müstəqil mülki hüququdur və həmin hüquq «Mülki və siyasi hüquqlar haqqında» Beynəlxalq Paktın maddələrində də bəyan edilmişdir.[2]

İnsan həyatı özünəməxsus xüsusi məna çalarlarına malikdir. Bu həyat təbiətdəki heç bir canlının həyatına, həyat tərzinə, hərəkətlərinə, fəaliyyətinə, davranışına, istəklərinə və arzularına qarşıya qoyulan məqsədlərə, habelə yerinə yetirilməli olan vəzifələrə bənzəmir. İnsan həyatı əlahiddə fenomendir. Onun heç bir bənzəri və ya alternativi yoxdur. Elmə də, bəşəriyyətə də məlumdur ki, insana həyat dövlət, hökumət, hüquq sistemi və ya sərəncamlarla deyil, məhz Uca tanrı tərəfindən bəxş edilir. Lakin həyatın dövlət və ya hakimiyyət tərəfindən verilməsini iddia edən konsepsiyalar da mövcuddur. Bu halda dövlət və ya hakimiyyət, yalnız həyat kimi dəyərli sərvətə hörmət göstərməyə və onu müdafiə etməyə, qanunlar vasitəsilə təminatlandırmağa borcludur. N.N.Alekseyevin qeyd etdiyi kimi, hüquq norması dünyaya canlı varlıqlar gətirmək qabiliyyətinə malik deyildir.[3] Məhz buna görə də dövlət öz konstitusiyasında istənilən şəxsə yaşamaq hüququnun verilməsini təsbit etməklə, ona yalnız müəyyən məna və normativlik xarakteri verir. Bu məna insanın hüquqi mahiyyətində – ictimai münasibətlərdə hüququn subyekti olma keyfiyyətində ifadə olunur. İnsan həyatının hüquqi mahiyyəti onun öz subyektiv hüquqlarını realizə etməsində təzahür edir. Yaşamaq hüququ hələ həyatın özü demək deyildir. Bu, formal atributlu rəsmiyyətə malik subyektiv səlahiyyətlər kompleksi deməkdir. Məhz buna görə də yaşamaq hüququnu və həyatın özünü bir-birindən fərqləndirmək zəruridir.

---

[1] Мигнас И.А. Юридические гарантии личной безопасности граждан. М., 2000. с.10

[2] «Mülki və siyasi hüquqlar haqqında beynəlxalq pakt»/ Beynəlxalq sənədlər toplusu, I cild, Bakı, 2005, s.69-93

[3] Алексеев Н.Н. Основы философии права. СПб., 1998. с.79

İnsan həyatının mahiyyətinə dair müxtəlif təriflər mövcuddur. Həmin təriflərin xüsusiyyətləri onların formulə edildikləri bilik sahələrinin spesifikliyi ilə izah olunur. Ayrı-ayrı bilik sahələri həyatı öz öyrənmə predmeti baxımından izah etməyə çalışır. Buna görə də fəlsəfə, təbabət, biologiya, fizika, kimya və digər elm sahələri insan həyatını təbiətin fenomen varlığı qismində təsəvvür edir və öyrənirlər.

İnsan həyatının mahiyyətini izah etməyə səy göstərən müxtəlif dini təlimlər onu Allahın öz yaratdığı canlıya bəxş etdiyi nemət kimi təqdim etməyə çalışırlar. Bu isə artıq dini bir ehkama çevrilmək deməkdir. Belə ki, «insanı Allah yaratmışdır» müddəası dünya dinlərində və dindarlar arasında çoxdan təkzibedilməz bir aksiom kimi qəbul edilmişdir. İnsan, Allah tərəfindən ona bəxş edilmiş ömrü yaşamağa, necə deyərlər məhkumdur

Həyatın mahiyyətinə dair ilk ümumiləşdirilmiş tərifi alman mütəfəkkiri F.Engels vermişdir. O, yazırdı: «Həyat, zülali bədənlərin mövcud olmaq üsuludur və mövcud olmanın bu üsulu öz mahiyyətinə görə qidalanma və ifrazat yolu ilə bədənlərin kimyəvi tərkib hissələrinin daim təzələnməsindən ibarət olan bir prosesdir»[1].

Azərbaycan Sovet Ensiklopediyasında «həyat»ın mahiyyətinə dair definisiyaya görə «həyat – materiyanın hərəkətinin və təşkilinin ali formalarından biridir»[2]. Bu mənada həyat özünün müəyyən tarixi inkişaf mərhələsində yaranır və ona mürəkkəb zülali bədənlər xasdır. Bioloji həyat dedikdə isə, insan materiyasının təkamülü prosesində, müəyyən şəraitdə qanunauyğun surətdə yaranan varlığın yüksək forması başa düşülür.

Sosial həyat – bu, bioloji insan həyatının realizə olunma formasıdır. O belə formada insanın ictimai münasibətlərdəki iştirakı prosesində özünü göstərir. Bu isə daha çox insan həyatının hüquqi baxımdan müəyyən edilməsini təmin edən definisiya kimi dəyərləndi-

---

[1] Marks K., Engels F., Seçilmiş əsərlər, Bakı, 20-ci cild 1958, s.23

[2] Azərbaycan Sovet Ensikopediyası. 10 cilddə. X cild. Bakı, 1987. c.189

rilə bilər. Çünki həyat öz-özlüyündə hüquqi müdafiənin obyekti, insanın doğulması və ölümü isə hüquqi faktdır, hadisədir. Qanunverici yaşamaq hüququnun özünü həmin hüquqi faktların əmələ gəlməsi və onların xitam olunması ilə əlaqələndirir.

Beləliklə, «yaşamaq hüququ» və «həyat» mübahisəsiz olaraq eyni olmayan, bir-birilə eynilik təşkil etməyən anlayışlardır. Ona görə ki, hüquq – bu, sosial kateqoriya, həyat isə bioloji kateqoriya olmaqla qəbul edilməlidir. Ümumilikdə isə «həyat» və «yaşamaq hüququ» anlayışlarına, onların hər birini bir tam kimi səciyyələndirən tərkib elementlərinin və alt sistemlərin məcmusu kimi baxılması daha məntiqidir. Bu gün birmənalı şəkildə demək olar ki, insanın yaşamaq hüququnun qorunması artıq bəşəri və beynəlxalq mahiyyət daşıyır, dövlətlərin və cəmiyyətlərin inkişafının və demokratik dəyərlərinin göstəricisi kimi səciyyələndirilir. Avropa İnsan Hüquqları Məhkəməsinin 2002-ci ildə Türkiyə ilə bağlı qərarı bu sahədə böyük maraq kəsb edir. Həmin işdə iddiaçılar məişət tullantıları atılan poliqonun yaxınlığında qanunsuz ev tikmiş və orada öz yaşamaq hüquqlarını həyata keçirmişlər. Tullantıların altında yaranan metan qazının partlaması nəticəsində iddiaçının bir neçə ailə üzvü ölmüşdür. Hökumət iddia edir ki, bu işdə iddiaçıların öz günahları vardır, heç kəs onlara poliqonun yaxınlığında yaşamağa icazə verməmişdir, onlar bu təhlükəli yeri özləri seçmişlər. Üstəlik metan qazının partlayıb-partlamayacağı və nə zaman partlayacağı təxmin oluna bilən bir hal deyildir. Lakin ölkədaxili məhkəmə çəkişməsində artıq müəyyən olunmuşdur ki, yerli icra hakimiyyəti və yerli özünüidarəetmə orqanları səhlənkarlığa yol vermişlər. Belə ki, milli qanunvericiliyə görə məişət tullantıları poliqonunun min metr radiusunda olan ərazidə yaşayış yeri olmamalı idi. Eləcə də, partlayışdan daha iki il əvvəl ekspertlər qrupu bu zibilliyin hər cür təhlükə törətdiyini artıq bəyan etmiş və bu barədə rəy vermişlər. Bütün bunlara görə də Avropa İnsan Hüquqları Məhkəməsi Türkiyə Hökumətinin etirazı ilə razılaşmadı. Çünki məhkəmənin mövqeyinə görə Türkiyə hökuməti lazım olsa, iddiaçını və onun ailə üzvlərini poliqonun yaxınlığındakı yaşayış yerin-

dən zorla da olsa, köçürməli idi. Bütün bunları nəzərə alan Avropa İnsan Hüquqları Məhkəməsi iddiaçı Önər Yıldızın Türkiyəyə qarşı iddiasını təmin etdi. Bu qərarın əsasında insanın yaşamaq hüququnun dövlət tərəfindən qorunmasına verilən konstitusyon təminat əsas götürüldü.[1]

İnsan həyatının geniş şəkildə dərk edilməsinin tərəfdarları orqanizmin bioloji və psixi fəaliyyəti ilə məhdudlaşmır və bunu sosial hadisə kimi izah edirlər. İnsan məhz bu sosial hadisə çərçivəsində çoxsaylı əlaqələrin və münasibətlərin iştirakçısı olur. Özbaşına həyatdan məhrum etmənin qadağan olunması ilə yanaşı, yaşamaq hüququ məhz bu planda özündə «dövlət tərəfindən normal, layiqli və sağlam insan həyatını təmin edən hüquqi, sosial, iqtisadi və digər şəraitin yaradılmasını ehtiva edir».[2]

Y.İ.Kozlova və O.Y.Kutafin yazır: «Yaşamaq hüququ dedikdə, təhlükəsiz sosial və təbii həyat şəraitinin yaradılması və müdafiəsi üzrə bütün dövlət orqanlarının, ictimai strukturların və hər bir insanın fəal hərəkətlərinin kompleksini başa düşmək lazımdır».[3]

Qadın hüquqlarının və azadlıqlarının ümumiyyətlə həyata keçirilməsi üçün vacib olan təhlükəsiz həyat şəraitinin təmin edilməsi amillərinə aşağıdakı elementlər daxildir:

1. dövlətin müharibələrdən imtina etmək istiqamətində həyata keçirdiyi məqsədyönlü siyasəti;
2. sosial, milli və etnik münaqişələrin dinc vasitələrlə həll edilməsi;
3. şəxsiyyət əleyhinə olan cinayətlərlə və digər hüquq pozuntuları ilə məqsədyönlü mübarizənin aparılması;
4. vətəndaşların qanunsuz silah saxlaması hallarının bütün zəruri vasitələrlə qadağan edilməsi;
5. insanın həyat və sağlamlığına qarşı yönələn kriminal əməllərin profilaktikasının gücləndirilməsi və cinayətkarlığın nəzarətdə saxlanılması.

---

[1] Mehdiyev F. Nəzəriyyə və təcrübədə insan hüquqları, Bakı, 2009, s.66
[2] Катков Д.Б., Корчиго Е.В. Конституционное право. М., 1999. с.73
[3] Козлов Е.И., Кутафин О.Е. Конституционное право России. М., 1999. с.216

Müasir cinayət hüququ elmində həyat əleyhinə – insanın həyat və sağlamlığına qarşı olan cinayətlərin obyekti qismində ilk növbədə insan həyatı çıxış edir. Bu isə öz-özlüyündə «ictimai münasibətlərin məcmusu»[1] kimi təqdim olunur. Bir sıra müəlliflər insanın bioloji həyatına ictimai münasibətlərlə yanaşı qəsdin obyekti qismində baxırlar. Yaşamaq hüququ - bu, hər bir insanın obyektiv hüququdur. Bütün digər şəxslərin vəzifəsi istənilən başqa şəxsin həyatına qəsd etməkdən çəkinməkdən ibarətdir. Məhz bu zaman insan həyatının və sağlamlığının mühafizəsi üzrə ictimai münasibətlər təşəkkül tapır. Həyata edilən qəsd ictimai münasibətlərə zərər vurur. Məhz həmin münasibətlər insan həyatına qəsdin bilavasitə obyektini təşkil edir.[2]

İnsan həyatına qəsd edilməsi prosesində, həyatın obyekt olaraq qəbul edilməsi, onun bioloji hadisə kimi mütləq dəyərini aşağı salır. Heç kəs mübahisə etməz ki, şəxsiyyətin hüquqi statusu onun həyatının məzmununa daxildir və məhz bu mənada insanın əmək, ailə və digər hüquqları və azadlıqları əleyhinə olan cinayətlər cinayət-hüquqi mühafizənin obyekti kimi insanın həyatına, onu qoruyan ictimai münasibətlərə, maraqlara, dəyərlərə və sərvətlərə qəsd edir.

20-ci əsrin sonu və 21-ci əsrin əvvəlləri üçün səciyyəvi olan elmin inkişaf etdirilməsi səyi, hüquqşünaslıqda yaşamaq hüququnun tərifinə birmənalı olmayan definisiyaların verilməsinə gətirib çıxardı. Hüquqşünaslar qarşısında mürəkkəb bir sual qoyulurdu: yaşamaq hüququ eyni zamanda da yaşamaq vəzifəsidirmi? Bu, heç bir konstitusiyada və insan hüquqlarına dair beynəlxalq bəyannamələrdə öz uğurlu cavabını tapmamışdır. Əgər insanın yaşamağa hüququ vardırsa, deməli, o, bu hüquqdan istifadə etməyə haqlıdır. İnsan ona verilən həyata son qoymaq, yəni ölmək hüququna da sahibdirmi? Əgər həqiqətin gözlərinə dik baxılarsa, bu, elə bir yeni yanaşma və ya yeni bir sual hesab oluna bilməz. Bu suala hələ

---

[1] Курс советского уголовного права. Часть Особенная. Л., 1973. Т.3. с.478

[2] Уголовное право. Особенная часть/Под ред. Н.А.Беляева, Д.Л.Водяникова, В.В.Орехова. СПб., 1995. ч.1. с.86

E.Ferri cavab verərək yazırdı ki, əgər insana yaşamaq hüququ məxsusdursa, məntiqi olaraq ona ölmək hüququ da məxsusdur.[1] Oxşar mülahizəyə F.Nitsşenin mövqeyində də rast gəlmək mümkündür. O, yazırdı: «İnsandan onun yaşamaq hüququnu ala biləcəyimiz hüquq mövcuddursa, lakin ondan ölümü ala bilməyəcəyimiz hüququ yoxdur. Bu ancaq amansızlıq olardı».[2] Müasir tədqiqatçılar isə belə qeyd edirlər: «Ölmək hüququ belə görünür: həyata davam etməkdən, yaşamaqdan imtina etmək hüququ, yaxud ondan imtina etmənin mümkünlüyü hüququ».[3]

Azərbaycan Respublikasının qanunvericilik aktlarının heç birində ölüm hüququ öz leqal təsbitini tapmamışdır. Belə hüquqi fikir doktrinası ölüm hüququnun geniş müəyyənliyinə malikdir. O, insanın şüurlu və könüllü surətdə özü üçün münasib bildiyi, yaxud seçdiyi üsulla həyatdan getməsi mümkünlüyünü nəzərdə tutur. Zahirən hüquqi cəhətdən də yaşamaq hüququna malik olan insanın ölmək hüququna malik olmaması qeyri-məntiqidir. Çünki özünəməxsus mülkiyyəti üzərində istədiyi sərəncamı vermək hüququna malik olan insanın, öz şəxsi həyatı üzərində sərəncam verə bilmək hüququnun olmaması bir qədər qeyri-təbii səslənir və real görünmür. Hüquqi baxımdan fərdin, insanın statusunun dəqiq müəyyən edilməsi, bununla bağlı olaraq insanın ölümü, onun doğuluşu, insan həyatının mühafizəsi, insanın yaşamaq və ölmək hüququnun tədqiq üçün iki mühüm məsələnin aydınlaşdırılması olduqca vacibdir. Bunlardan biri, hansı canlının məhz hansı keyfiyyətlərinə görə insan hesab edilməsi, onun yaşamaq hüququnun nə vaxt başlanması, bu hüququn müdafiə edilməsi, eləcə də ölümün mahiyyəti, onun baş vermə anının müəyyən edilməsi və ölüm hüququnun reallaşdırılması məsələsinin uğurlu həlli üçün həyatın və ölümün baş verdiyi anın zaman etibarı ilə dəqiq müəyyən edilməsi çox əhəmiyyətlidir. Təsadüfü deyil ki, hər iki

[1] Дюркгейм Э. Самоубийство. Социологический этюд. М., 1994. с.327

[2] Ницше Ф. Человеческое, слишком человеческое. Соч. В 2-х томах. т.1. М., 1990. с.285

[3] Малиновский А. Имеет ли человек право на смерть? // Российская юстиция. 2002. №8. с.54

məsələ tarix boyu həmişə alimlərin diqqət mərkəzində olmuş və bu problemlərlə bağlı çoxsaylı tədqiqatlar aparılmışdır. Belə ki, insan həyatının mühafizəsi və yaşamaq hüququnun realizəsi ilə bağlı məsələlərin hüquqi baxımından obyektiv həlli üçün məkan və zaman anlayışının müəyyən edilməsi olduqca vacibdir. Çünki, həyat və yaşamaq hüququ ilə bağlı məsuliyyətin həllində bu anlayışların dəqiq müəyyən edilməsi istintaq və məhkəmə orqanları qarşısında vacib məsələ kimi dayanır. Məlumdur ki, qəsdən adam öldürmə cinayətlərinin əsas obyekti insanın həyatıdır, yaşamaq hüququdur. Buna görə də həyatın başlanğıcı və insanın ölüm anının müəyyən edilməsi uzun illərdir ki, mübahisəli mövzulardandır. Bu məsələ müxtəlif elm sahələri tərəfindən vaxtaşırı olaraq tədqiq edilir. Azərbaycan Respublikası Konstitusiyası insanın yaşamaq hüququnu tanıyır və bu hüququn müdafiəsini vacib hesab edir. Bu hüquq hər bir insana, hər bir fərdə aid olmaqla, onun müdafiəsi doğulduğu andan başlanır.[1]

Müəlliflərdən M.P.Avdeenkova və Y.A.Dmitriyeva haqlı olaraq göstərirlər ki, yaşamaq hüququ insana nəinki öz həyatlarını qorumağı, habelə başqa insanların həyatını da ətrafda yaranmış hər hansı bir təhlükədən qorumağa hüquq verir.[2]

Azərbaycan Respublikası Konstitusiyasının 27-ci maddəsi hər kəsin yaşamaq hüququnu tanıyır, həmin sənədin 24-cü maddəsi isə hər kəsin doğulduğu andan toxunulmaz, pozulmaz və ayrılmaz hüquqları və azadlıqları olduğunu bəyan edir. Azərbaycan Respublikasının vətəndaşlarının azadlıq hüququ (maddə 28), təhlükəsiz yaşamaq (maddə 31) hüququ, şəxsi toxunulmazlıq (maddə 32) hüququ, habelə hər kəsin sağlamlığını qorumaq və tibbi yardım almaq hüququ (maddə 41) vardır. Buna görə də insan həyatının qorunması və yaşamaq hüququnun başladığı anı müəyyən etmək kifayət qədər hüququ nəticə doğuran məsələlərdəndur. Müasir hüquq elmində insanın yaşamaq hüququnun mayalanmanın başlan-

---

[1] Головистикова А.Н. Философское содержание категории «жизнь» и ее реализация в праве// Государство и право, 2005, №6., с.30

[2] Авдеенкова М.П., Дмитриев Ю.А. Право на физическую свободу// Государство и право, 2005, №3, с.13-22

dığı vaxtdan və ya uşağın ana bətninə düşdüyü andan hesablanmasına dair fikirlər vardır. Belə yanaşmaya görə abort təkcə hamiləliyin pozulması deyil, habelə qəsdən ölüm kimi də qiymətləndirilə bilir. L.N.Linik göstərir ki, konstitusiyada nəzərdə tutulan yaşamaq hüququnun mənasına görə ana bətnində mayalanmanın başlanması anı, həyatın başlanğıc anı hesab edilməlidir.[1]

Müasir biologiya və embriologiya elmində formalaşmış baxışlara görə bioloji varlıq olmaq etibarı ilə insan fərdi cinsi hüceyrələrin təkrarsız gen yığımına başlandığı andan biologi quruluşuna və genetik embrion xüsusiyyətlərinə görə qadın orqanizmində inkişaf edən insan varlığı hesab edilir. Təsadüfi deyil ki, 1996-cı ilin dekabr ayında Avropa İttifaqının bioetika üzrə keçirdiyi sessiyasında bir sıra alimlər yekdil fikrə gəlmişlər ki, mayalanmanın 14-cü günündən sonra embrion insan hesab oluna bilər. Belə ki, tədqiqatlar göstərir ki, mayalanmadan 18 gün keçdikdən sonra döldə ürək, qan-damar və əsəb sistemi formalaşmağa, hamiləliyin əvvəlindən 12 həftə keçdikdən sonra isə döldə insan orqanizminin demək olar ki, bütün əsas sistemi fəaliyyət göstərməyə başlayır. Təbabətdə qeyri-adi cərrahi əməliyyatlarla uşaq embrinonunun xilas edilməsinə, onun yaşayıb, inkişaf etməsinə dair faktlar vardır. Məsələn Avstriyanın Lintse şəhərində 13 həftədən sonra doğulacaq qız uşağının əvvəlcədən xilas edilməsi və yaşamaqda davam etməsi faktı buna misal ola bilər.

Tibbdə 40 həftəlik hamilələyin normal hesab olunduğu bir şəraitdə, 28 həftəlik uşağın doğulması və həkimlərin səyi nəticəsində yaşamaqda davam etməsi tamamilə mümkün hesab edilir. Böyük Britaniyanın televiziya kanalları tərəfindən çəkilmiş «Mənim vaxtından əvvəl doğulmağım» adlı film 2004-cü ilin aprel ayında keçirilmiş abort prosesini və onun qurbanının – embrion ölümünün bütün incəliklərini əks etdirmişdir. Həmin vaxtdan da başlayaraq, abort əleyhinə Ümumdünya Kompaniyası başlamışdır. İnsan hüquqları haqqında Amerika Konvensiyasının 4-cü maddəsi

[1] Линик Л.Н. Конституционное право на жизнь, Чебоксары, 2005, с.23

birmənalı şəkildə təsdiq etmişdir ki, insan həyatının başlanğıcı mayalanma dövründən başlanır. Elə buna görə də ABŞ-ın sabiq prezidenti Corc Buş «Doğulmamış qurbanların zorakılıqdan müdafiəsi haqqında Akt»ı təsdiq etmişdir.

Nyu-York ştatı Cinayət Məcəlləsinin 125.00 paraqrafına müvafiq olaraq 24 həftədən çox hamiləliyi olan qadının bətnində olan və hələ doğulmamış uşağın ölümünə görə cinayət məsuliyyəti nəzərdə tutulmuşdur. İrlandiya qanunvericiliyi müstəsna hallar istisna edilməklə abortu qadağan etmişdir. Rusiya qanunvericiliyində də həyatın başlanğıc anına dair İ.Y.Foynitskinin, R.Şarapovun, V.D.Nabokovun, N.S.Taqansevin fikirləri diqqəti cəlb edir.

Hindistanın Cinayət Məcəlləsi ana bətnində uşağın ölümünə görə cinayət məsuliyyəti nəzərdə tutmur.[1]

Avropa İnsan Hüquqları Məhkəməsi hələ doğulmayan uşaqların hüquqlarının qorunmasına dair dəfələrlə məsələ müzakirə etmişdir. Konvensiyanın 2-ci maddəsi üzrə yaşamaq hüququnun hələ doğulmayan uşaqların həyatına şamil olunub-olunmaması məsələsi adətən aborta aid işlərə baxılması zamanı meydana çıxır. Avropa Şurasını təşkil edən dövlətlərdə abort məsələsində konsensus yoxdur. Bununla belə, müəyyən şəraitdə bəzi ölkələrdə aborta icazə verən qanunlar probleminin həllində suveren dövlətlərə müəyyən hərəkət sərbəstliyi verilsə də komissiya bəyan etdi ki, müəyyən hallarda 2-ci maddə hələ doğulmayan uşaqlara da tətbiq edilə bilər. Beləki N. Norveçə qarşı işdə (1992-ci il) komissiya bildirdi: «Komissiya qərara aldı ki, o rüşeymin 2-ci maddə üzrə müəyyən müdafiədən istifadə etməsinin mümkünlüyü barədə qərar qəbul etməməlidir. Lakin o, istisna etmir ki, razılığa gələn dövlətlərdə 2-ci maddənin rüşeymi müdafiə edib-etməməsi və nə dərəcə də müdafiə etməsi məsələsində geniş fikir ayrılıqlarının mövcud olmasına baxmayaraq, bu müəyyən hallarda mümkündür».[2] Lakin həmin halların nədən ibarət olması hələ aydın deyil. Komissiya Norveçin

---

[1] Уголовный Кодекс Индии. М., 1958, с.151

[2] Avropa İnsan Hüquqları Məhkəməsinin şərhlər və normativ aktları, Bakı, 2006-cı il, s.90-91

daxili qanunvericiliyinin ayrı-ayrı normalarını, yəni hamiləliyin 12-ci ci həftəsinə qədər abort etdirmək məsələsini ana tərəfindən həll edilməsi, hamiləliyin 12-ci həftəsindən sonra və 18-ci həftəsinə qədər abort üçün iki həkimin icazəsinin tələb olunması və bu müddətdən sonra, hətta bu addımı atmağa ciddi əsaslar olduqda belə, hamiləliyin qarşısını almağa yol verilməməsi və rüşeymin sag-salamat doğula biləcəyi mərhələdə aborta icazə verilməməsi haqqında normaları qəbul etdi.[1]

Avropa İnsan Hüquqları Məhkəməsi insanın yaşamaq və ölmək hüququnun ən mühüm elementlərinə dəfələrlə qayıtmış və bu müddəalar müzakirə edilərək daha bitkin və təkmil tövsiyyələr verilmişdir. Elə bunun nəticəsidir ki, Avropa İnsan Hüquqları Məhkəməsinin artıq 2004-cü il iyul tarixli qərarına görə könüllü abort tibbi əməliyyat hesab olunduğundan, məhkəmə bu əməliyyat nəticəsində dölün ölməsi faktının uşaq ölümü kimi qiymətləndirilə bilməməsi haqqında nəticəyə gəlmişdir.[2]

Bir çox ölkələrdən fərqli olaraq İtaliyada, Fransada və ABŞ-ın bir sıra ştatlarında insan ölümünün beyinin ölməsi anından hesab edilməsinə dair normativ hüquqi sənədlər qəbul edilmişdir.[3] Yuxarıda qeyd olunduğu kimi ürək və nəfəs fəaliyyətinin dayanması kliniki ölüm hesab edilirsə, beyinin öz funksiyalarını tam dayandırması, artıq bioloji ölümün baş verməsi anı kimi dəyərləndirilir.

Azərbaycan Respublikası Konstitusiyasının 27-ci maddəsi hər kəsin yaşamaq hüququnu tanıyır və bu hüquq Azərbaycan Respublikasının vətəndaşlarına onların anadan olduğu vaxtdan etibarən verilir. Lakin bir çox beynəlxalq sənədlərdə insanın yaşamaq hüququnun onun ana bətninə düşdüyü vaxtdan, mayalanmanın başlandığı vaxtdan etibarən hesablanmasına dair müddəalar vardır. İnsan hüquqları haqqında Amerika Konvensiyasının 4-cü maddəsində göstə-

---

[1] Avropa İnsan Hüquqları Məhkəməsinin şərhlər və normativ aktları, Bakı, 2006-cı il, s.92

[2] Yenə orada s.90-95

[3] Неговский В.А. Методологические проблемы современной реаниматологии// Вопросы философии, 1978, с.139

rilir ki, insanın yaşamaq hüququ ona ana bətninə düşdüyü vaxtdan, mayalanmanın baş tutduğu andan etibarən verilir və bu hüququn müdafiəsi qanunla qorunur. Təsadüfi deyil ki, çinlilər insanın ana bətninə düşdüyü vaxtı onun həyatının başlanğıc anı kimi qəbul edirlər.[1] Tarixən cinayət hüquq nəzəriyyəsində uşağın ana bətnindən xaric olunduğu an, həyatın başlanğıc anı hesab edilmişdir. Elə buna görə də 19-cu əsrdə A.P.Feyerbax uşağın doğulduğu və eyni zamanda yaşamağa başladığı anı həyatın başlanğıcı və onun cinayət hüququ vasitələrlə müdafiəsinin ilk anı hesab edirdi.[2]

Albert Berner Roma hüquqşünaslarının mövqeyini tənqid edərək ana bətnində olan embrionun, rüşeymin, insan dölünün ana bətnindən xaric olunmayınca, onu müstəqil varlıq hesab etməyin məntiqsizliyini göstərirdi.[3] Bu mövqeyi dəstəkləyən Avstriya hüquqşünası Frans fon List göstərirdi ki, insanın doğulduqdan sonra ilk nəfəs aldığı və tənəffüsün ağ ciyər vasitəsilə reallaşdırdığı vaxt həyatın başlanğıc anı hesab edilməlidir.[4] İngilis hüquq doktrinası bu mövqeyi müdafiə etmiş və ana bətnindən uşağın doğulmasını həyatın əvvəli kimi qiymətləndirmişdir. Onlar belə hesab edirdilər ki, ana bətnindən xaric olmadan, doğulmadan insan varlığından söhbət gedə bilməz. Müəlliflərdən S.Kenni göstərirdi ki, əgər doğulanın, hətta bir ayağı ananın bətnində qalmışdırsa, bu zaman insanın doğulmasından və ya insan ölümündən söhbət gedə bilməz. Uşaq ana bətnindən bütünlüklə xaric olunmuşdursa və nəfəs almağa başlamışdırsa, yalnız bu zaman insandan söhbət gedə bilər.[5] Bu mövqe ilə razılaşmayan N.S.Taqansev insanın nəfəsalma amilinin həyatın başlanğıcı ilə əlaqələndirilməsi mövqeyini tənqid etmişdir. Müəllif göstərmişdir ki, belə yanaşma

[1] Воеводин Л.Д. Юридический статус личности в России. М., 1997, s. 192-193
[2] Фейербах П.А. Уголовное право СПб, 1810, s.75
http://ru.scribd.com/doc/26245017/
[3] Бернер А.Ф. Учебник уголовного право, СПб, 1867, s.113
http://www.bibliard.ru/vcd-677-1-726/goodsinfo.html
[4] Лист Ф. Учебник уголовного право, СПб, 1905, s.5
http://www.lawlibrary.ru/izdanie49859.html
[5] Kenny’s outlines of criminal law. 17 th ed. Cambridge, 1958, p. 120

cinayət hüquq nəzəriyyəsinə və tibb elminin tələblərinə tam cavab vermir. Təcrübədən aydındır ki, bəzən doğulmuş uşaq bir müddət nəfəs almır, hərəkətsiz qalır, ona müəyyən tibbi yardımlar edilir, yumşaq yerinə yüngül sillə vurulur və yalnız bundan sonra o, nəfəs almağa və deməli yaşamağa başlayır. Bütün bunları nəzərə alaraq N.S.Taqansev dölün ana bətnindən bütünlüklə ayrılmasını həyatın başlanğıc anı hesab edirdi.[1] Bu mövqe A.K.Vulfert, M.N.Gernet, H.A.Neklyudov, V.D.Nabokov, A.A.Jijelenko tərəfindən də dəstəklənmişdir. Ümumiyyətlə, sovet dövrünün görkəmli tədqiqatçıları A.A.Piontokovski, B.S.Utevski, Ş.S.Raşkovski haqlı olaraq belə hesab etmişlər ki, həyatın başlanğıcı tibbdə deyildiyi kimi fizioloji doğuşun başa çatdığı andan başlanır.[2]

Ümumdünya Səhiyyə Təşkilatı müddətindən asılı olmayaraq hamiləliyin məhsulu olan yetişmiş dölün ananın bətnindən tamamilə xaric edildiyi və doğulanın nəfəs aldığı vaxtı, insanın həyatının başlanğıc anı hesab edir. Bu zaman ürək və nəbz döyünməyə başlayır, əzələlər təmasa reaksiya verir və başqa həyat əlamətləri açıq-aşkar görünür. Bu məsələni qanunvericilik yolu ilə tənzimlənməsinə böyük zərurət vardır. Nyu-York Cinayət Məcəlləsinin 125.00-ci maddəsinə görə uşaq ölümü dedikdə, nəinki doğulmuş uşağın ölməsi, habelə 24 həftəlik hamilə olan qadınların bətnində olan dölün ölməsini də insan ölümü kimi cinayət məsuliyyətinə səbəb olacağını hüquqi baxımdan məqbul hesab edir.

İnsanın yaşamaq hüququ ilə sıx bağlı olan ölmək hüququnun da elmi cəhətdən araşdırılması mühüm əhəmiyyət kəsb edir. Məlumdur ki, insan ölümü bir çox hüquqi nəticələrə mühüm təsir göstərir. Buna görə də bir təzahür forması olmaqla insan ölümü, onunla sıx bağlı olan ölüm anının dəqiq müəyyən edilməsi mühüm əhəmiyyət kəsb edir. İstər yaşamaq hüququ və istərsə də ölmək hüququ geniş mənada insanla sıx bağlı olduğundan hər iki təzahürün müxtəlif elmi istiqamətlərdə öyrənilməsinə zaman-zaman tədqiqat obyekti

---

[1] Таганцев Н.С. О преступлениях против жизни по русскому праву. СПб, 1870 , s. 25-31, http://bibliotekar.ru/ugolovnoe-pravo-3/7.htm

[2] Уголовное право РФ. М., 1996, с.20

kimi geniş yer ayrılmışdır. Təbabət elmində, ölüm anının müəyyən edilməsi uzun illər mübahisə və tədqiqat mövzusu olmuşdur. Tarixdə bu sahədə çoxsaylı araşdırmalar aparılmış və mövqelər zaman-zaman təkmilləşdirilmişdir. Hələ 1719-cu ildə Rene Laennik stetoskop aparatı ilə ürəyin alqoritmlərinin dinlənilməsi yolu ilə ölümün baş verməsinin vaxtının dəqiq müəyyən edilməsi üsulunu təklif etmiş və bunu təcrübə olaraq hətaya keçirmişdir. 1846-cı ildə həkim E.Boçet ürəyin auskulotasiyası üsulu ilə ölümün vaxtının dəqiq müəyyən edilməsinin daha etibarlı variantını təklif etmişdir. Lakin bu təklif özünü dogrultmamışdır. Buna görə də 1890-cı ildə həkim Maze ölümün xüsusi əlamətlər əmələ gələnə qədər cəsədin morqda saxlanmasını və yalnız bu əlamətlər göründükdən sonra ölümün baş vermə vaxtının dəqiq müəyyən edilməsi haqqında qəti fikir söyləməyin mümkünlüyü nəzəriyyərsini irəli sürmüşdür. Sonralar həkim İçard, F.Gannal və başqaları cox saylı müxtəlif təkliflər irəli sürmüşlər. Məsələn F.Gannal ölümün 418 əlaməti barədə fikir söyləmişdir. Ümumiyyətlə, ayrı-ayır insanların, görkəmli şəxsiyyətlərin ölümünün vaxtı barədə həkimlər zaman-zaman səhvlər etmişlər. Bu səhvlərin nəticəsində ölmüş hesab edilən insanlar sonradan dirilmiş və yaşamaqda davam etmişlər. Neapol şəhərində gənc ikən vəfat etmiş qadının dəfn edildikdən 2 gün sonra məzarı açılarkən onda həyat əlamətləri, o cümlədən məzardan çıxmağa uğursuz cəhdlər göstərməsinə dair əlamətlər aşkar edilmişdir. Buna görə də onun ölməsi barədə əsassız rəy vermiş şəxslər cinayət məsuliyyətinə cəlb edilmişlər.[1] İtaliyalı Françesko Petrarkanın ölümündən 20 saat keçdikdən sonra o dəfn edilərkən ayılmış və bundan sonra 30 il həyat sürmüşdür. 1982-ci ildə vəfat etmiş Pol Beylin sağalmaz xəstəliyə düşsə də o, 25 il koma vəziyyətində qalmışdır.[2] Bu kimi hallar çox olmuşdur.

[1] Орлов А.Н. Милосердна ли легкая смерть. Этюды биоэтики. Красноярск, 1995, с.25

[2] Mustafayeva A. Elmi tədqiqatlarda etik meyar, Məqalə Bakı, 2011, s.9

ABŞ-da aparılan araşdırmalar zamanı baş verən ölüm faktlarına dair həkim rəylərinin ən azı 5%-nin səhv olduğu üzə çıxarılmışdır.[1] Beynəlxalq Səhiyyə Təşkilatınını məlumatlarına görə bu kimi hallara başqa ölkələrdə də təsadüf edilir. Bütün bunlar onu göstərir ki, ölümün dəqiq müəyyən edilməsi kifayət qədər mürəkkəb məsələ olsa da, lakin son dərəcə vacib məsələlərdən biridir. Təsadüfi deyil ki, Rusiya Federasiyasının Səhiyyə naziri özünün 4 dekabr 1992-ci il tarixli 318 saylı əmri və ona edilmiş 1№-li əlavədə doğumun və ölümün əsas meyarlarının və vaxtının dəqiq müəyyən edilməsinə dair konkret göstərişlər vermişdir.[2] Belə meyarların Azərbaycan Respublikasının Səhiyyə və hüquq sistemində də dəqiq müəyyən olunması vacibdir.

F.Engels haqlı olaraq yazır ki, fiziologiya elmi sübut edir ki, ölüm heç də qəflətən, bir anda baş vermir, o özünü uzun bir müddət davam edən proses kimi göstərir.[3] Bütün canlı orqanizmlərin həyat fəaliyyəti qaçılmaz məntiqi sonluqla – ölümlə başa çatır. Ölümsüz həyat olmadığı kimi həyat olmadan da ölüm mümkünsüzdür. İnsanın baş beynin tələf olması və ürəyinin tam dayanması ölümün əsasıdır. İnsan orqanizminin sabit saxlamaq üçün tənəffüsün, ürək döyüntüsünün və su elektroid tarazlığının davam etməsi vacibdir. Ölüm baş verərkən orqanizmdə olan bütün bu proseslər tam dayanır. Başqa sözlə insanın tənəffüsü, ürək fəaliyyəti dayanarkən, eyni zamanda baş beynin bioelektrik aktivliyinin və refrekslərin sönməsi prosesi baş verir. Adi şəraitdə kliniki ölüm bioloji ölüm dövrü ilə əvəz olunur. Bioloji ölüm mərkəzi sinir sistemində, orqanizmin digər toxumalarında bərpa olunmaz dəyişikliklərlə nəticələnir. Bədənin tam hərəkətsiz vəziyyəti, dəri örtüklərinin solğunluğu, tənəffüsün, nəbzin və ürək döyüntüsünün olmaması, huşun tam itməsi, ağrı, termiki və qoxu qıcıqlarına qarşı, habelə buynuz qişa, bəbək və d. reflekslərin olmaması ölümün başlıca əlamətləridir. Ölüm anının

---

[1] Уолтер А.Э. Смерть мозга М., 1988, с.27

[2] Нуркаева Т.Н. Личные (гражданские) права и свободы человека и их охрана уголовно-правовыми средствами, СПб, 2003, с.105

[3] Marks K., Engels F. Seçilmiş əsərləri, Bakı, 1958, cild 20, s. 21

dəqiq müəyyən edilməsi hüquqi baxımından mühüm əhəmiyyət kəsb etməsinə baxmayaraq, onun tibbi baxımdan dəqiq müəyyən olunması xeyli çətindir və bu yalniz tibb ekspertləri tərəfindən dəqiqləşdirilə bilər.[1]

Ölümün səbəbləri həddindən çox və rəngarəng ola bilər. Tədqiq edilən intihar və ya evtanaziya nəticəsində baş verən ölümlərin dəqiq müəyyən edilməsi istintaq və kompleks ekspertizalar yolu ilə müəyyən edilə bilər. Buna görə də intihar və evtanaziya hadisələri zamanı baş vermiş olayı dəqiq müəyyən etmək üçün hadisə yerinin, o cümlədən meyidin daxili və xarici müayinəsinin keyfiyyətli aparılması və tədqiqi olduqca vacibdir. Bu istiqamətdə bir çox metodiki göstərişlər və monoqrafiyalar yazılmışdır.[2]

Hüquq ədəbiyyatında qeyd olunur ki, «ölmək hüququ – bu, insanın yaşamaq hüququ kimi, eyni təbii hüququdur. Evtanaziyaya isə insanın ölmək hüququnun realizəsinin bir növü kimi baxmaq lazımdır».[3] Bir sıra müəlliflərin fikrincə, suisid və evtanaziya bu hüququn fərqli realizə formalarıdır.[4] Qanunvericiliyə görə, şəxsin özünə qarşı törətdiyi suisid dekriminallaşdırılmışdır, evtanaziya isə qadağan olunmuş və kriminallaşdırılmışdır. Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 135-ci maddəsinə görə evtanaziya, yəni xəstənin xahişi ilə onun ölümünü hər hansı vasitə, yaxud hərəkətlə tezləşdirmə və ya onun həyatının davam etməsinə kömək edən süni tədbirləri dayandırma cinayət məsuliyyətinə səbəb olur[5].

Qadının yaşamaq hüququ dedikdə, insanın həyat və azadlıqlarının toxunulmazlığının beynəlxalq və milli hüquq normaları ilə

---

[1] Musayev Şakir, Məhkəmə təbabəti, B., 2006, s.71-75

[2] Расследование доведения до самоубийства, Ленинград- Москва, 1982; Asılma zamanı, asfikasiya nəticəsində baş vermiş ölüm hallarında hadisə yerinə baxışın və digər istintaq hərəkətlərinin metodikası və taktikası, B., 2011

[3] Эвтаназия. Определение медико-правовых аспектов. Вопросы конституционного права. М., 2004. с.76

[4] Танаев В.М. Право на смерть // Вестник государственного университета. Сер.: Право. Екатеринбург, 1999. №1. с.39

[5] Azərbaycan Respublikasının Cinayət Məcəlləsi. B., «Hüquq ədəbiyyatı» nəş., 2011. s.81

təminatlandırılmış təbii, ayrılmaz olaraq müdafiə edilməsi, onun üzərində sərəncam verilməsi imkanı başa düşülür. Yaşamaq hüququ son dərəcə mürəkkəb quruluşu və məzmunu ilə fərqlənir. İctimai münasibətlərin heç də hamısı bu və ya digər dərəcədə yaşamaq hüququnun realizə olunması ilə bağlı deyildir. Həmin ictimai münasibətlərin heç də hamısı qanunvericilik səviyyəsində lazımi qaydada tənzim edilməmişdir. Bu da öz növbəsində ictimai münasibətlərin həddən artıq çoxcəhətliliyi ilə əlaqədardır. Zaman etibarilə yaşamaq hüququnun itirilməsi anının hüquqi cəhətdən müəyyənləşdirilməsi geniş diskussiyaya səbəb olan problemlərdən biridir. Buna görə də ölüm anının müəyyən edilməsi problemi bütün dövlərdə kifayət qədər ciddi problem olmuş və vaxtaşırı olaraq tədqiq edilmişdir. Bu, transplantologiya erasında xüsusi aktuallıq kəsb etmişdir. Məhz ölüm anında həm hüquqi, həm də tibbi-bioloji proseslər və nəticələr baş verir. Təbii ölüm özü olduqca mürəkkəb fizioloji bir proses olmaqla tibbi, bioloji, psixoloji, hüquqi, iqtisadi, siyasi və s. nəticələr doğurur. Qocaman tarixə ölümün baş verməsinin ən müxtəlif meyarları məlumdur. İnsanın yaşamaq və ölmək anının zaman meyarının dəqiq müəyyən edilməsi obyektiv hüququ nəticələr çıxarmaq, qanuni və ədalətli qərarlar qəbul edilməsi üçün son dərəcə vacibdir.[1]

İnsan cinsinin mühüm sosial qrupunu təşkil edən qadın, həyata gəldikdən sonra ilk olaraq təbii ehtiyaclarını bir bioloji varlıq kimi davam etdirmək üçün orqanizmin tələbəatlarını ödəməyə çaslışır. Burada bir körpə olaraq onun rolu orqanizminin daxili tələbatlarını özünün və ya digər insanların köməyi ilə ödəməyə istiqamətləndirilir. O nəfəs alır, eşidir, ətrafdakılara reaksiya verir, aclıq tələbatını ödəməyə çalışır, süd əmir, veriləni yeyir və s.

«Təbii hüquq nəzəriyyəsi»nə görə insanın yaşamaq hüququ bütün digər hüquqlardan üstün hesab olunur, çünki insanın bütün digər

[1] Həsənzadə S.B., Zahidov B.S. Yaşamaq və ölmək anının müəyyən edilməsində zaman meyarı, «Azərbaycanda hüquqi dövlət quruculuğu və qanunçuluq – 2020: Gələcəyə baxış» mövzusunda beynəlxalq elmi- praktiki konfransın materialları, Bakı, 2012, s. 15-27

hüquqlarının əsasında məhz insanın yaşamaq və var olmaq hüququ dayanır. «İnsan hüquqları haqqında Ümumi Bəyannamə»nin 3-cü maddəsində «Mülki və siyasi hüquqlar haqqında» Paktın 6-cı maddəsində, Avropa Konvensiyasının 2-ci maddəsində nəzərədə tutulan yaşamaq hüququ müvafiq olaraq Azərbaycan Respublikası Konstitusiyasının 27-ci maddəsində də nəzərdə tutulmuş və mükəmməl formada təsbit olunmuşdur. İnsanın yaşamaq hüququ ilə sıx bağlı olan təhlükəsiz yaşamaq, şəxsi toxunulmazlıq, mənzil toxunulmazlığı, sağlam ətraf mühitdə yaşamaq, tibbi yardım almaq və sair bu kimi hüquqlar göstərilən beynəlxalq hüquqi sənədlərdə əks olunduğu kimi Azərbaycan Respublikası Konstitusiyasının müxtəlif maddələrində də nəzərdə tutulmuşdur. Belə ki, Konstitusiyanın 31-ci maddəsində təhlükəsiz yaşamaq hüququ, 32-ci maddəsində şəxsi toxunulmazlıq hüququ, 33-cü maddəsində mənzil toxunulmazlığı hüququ, 39-cu maddədə sağlam ətraf mühitdə yaşamaq hüququ, 41-ci maddədə sağlamlığın qorunması hüququ öz ifadəsini tapmışdır.

Bütün bunlar onu göstərir ki, hər bir qadının yaşamaq hüququ olmaqla, o toxunulmazdır və həyatı qanunlarla qorunur. Dövlətə silahlı basqın zamanı düşmən əsgərlərinin öldürülməsi, məhkəmənin qanuni qüvvəyə minmiş hökmü və qanunla nəzərdə tutulmuş digər xüsusi hallar istisna olmaqla, hər bir qadının yaşamaq hüququ toxunulmazdır. Müstəsna cəza tədbiri kimi ömürlük azadlıqdan məhrumetmə cəzası bir qayda olaraq qadınlara tətbiq edilmir. Eyni zamanda qanunla nəzərdə tutulmuş zəruri müdafiə, son zərurət, cinayətkarın yaxalanması və tutulması, həbsdə olanın həbs yerindən qaçmasının qarşısının alınması, dövlətə qarşı qiyamın yatırılması və ya dövlət çevrilişinin qarşısının alınması, ölkəyə silahlı basqın edilməsi halları istisna olmaqla, qadına qarşı silah işlədilməsinə yol verilmir. Əcnəbi və vətəndaşlığı olmayan qadınlar da Azərbaycan Respublikasında olarkən, qanunla və ya Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrlə, başqa hal nəzərdə tutulmayıbsa, Azərbaycan Respublikasının vətəndaşları ilə bərabər bütün hüquqlardan istifadə edə bilərlər. Azərbaycan Respublikası ərazisində daimi yaşayan və ya müvəqqəti qalan əcnəbi və vətəndaşlığı olmayan qadının hüquqları və azadlıqları yalnız beynəl-

xalq hüquq normalarına və Azərbaycan Respublikasının qanunlarına uyğun olaraq məhdudlaşdırıla bilər.

Hər bir qadının sağlam ətraf mühitdə yaşamaq, ətraf mühitin əsil vəziyyəti haqqında məlumat toplamaq və ekoloji hüquqpozma ilə əlaqədar olaraq onun sağlamlığına və əmlakına vurulmuş zərərin əvəzini almaq hüququ vardır. Bununla belə qadın ətraf mühitə, təbii ehtiyatlara qanunla müəyyən edilmiş hədlərdən artıq təhlükə törətmək və ya zərər vurmaqda haqlı hesab oluna bilməz.

Həyatı boyu qadının ən çox və ən geniş istifadə etdiyi hüquqlardan biri mülkiyyət hüququ hesab oluna bilər. Çünki insanın, vətəndaşın və şəxsiyyətin doğulması, böyüməsi, yetişməsi və normal həyat sürməsi daha çox mülkiyyət hüququ ilə üzvü surətdə əlaqədardır. Mülkiyyət hüququ bütün hüquq qaydalarının ən başlıcası və əsas institutlarından biri hesab olunur.[1]

Liberal fəlsəfə tarixində adətən, insan hüquqları haqqında danışarkən, əsasən mülkiyyət, yaşamaq və azadlıq hüquqları başa düşülmüşdür. Vaxtı ilə Con Lokk özünün «İdarəçilik haqqında iki traktat» əsərində, burjua cəmiyyətinin təşkilinin üç əsas prinsipini - mülkiyyət hüququnun təmin edilməsini, etiqada və fikrə dözümlülük göstərilməsini və siyasi qərarların çoxluğun rəyi ilə qəbul edilməsini vacib hesab edirdi.[2]

Azərbaycan Respublikası Konstitusiyasının 13-cü maddəsi mülkiyyət və 29-cu maddəsi mülkiyyət hüququna konstitusion definisiyanı vermişdir. Bəşəriyyət tarixində hələ dövlət və hüquq bir təsisat kimi formalaşana qədər belə, müxtəlif adlar altında «mülkiyyət» anlayışı mövcud olmuşdur. Mülkiyyət münasibətlərinin əsasında mahiyyət etibarı ilə «əşya» anlayışı dayansa da, lakin hələ Roma mülki hüququnda, «mülkiyyət hüququ»nun əsasında əşya-

---

[1] Вах: Суханов Евгений Понятие права собственности в российском законодательстве и модельном Гражданском кодексе для стран СНГ// Роль конституционных судов в обеспечении права согбственности. Сборник докладов, М., 2001, с.7

[2] Локк Дж. Сочинение в трех томах (Сер. Философское наследие), т.3., Москва, 1985-1988, с.293

dan istifadə, ondan faydalanma və onun üzərində sərəncam vermək kimi səlahiyyətlərin məcmusu dayanmışdır. Mülkiyyət, istehsal alətlərinin və vasitələrinin köməyi ilə istehsal olunan məhsulları, nemətləri, şeyləri, predmetləri əhatə edən iqtisadi kateqoriya kimi səciyyələndirilsə də, o həm də təbii formada yaranan müxtəlif nemətləri də əhatə edir. Bu bir tərəfdən iqtisadi, digər tərəfdən hüquqi kateqoriya olmaqla mülkiyyətə sahib olmaq, onun üzərində sərəncam vermək və ondan istifadə etmək kimi elementləri özündə əhatə edir. Bəşəriyyət tarixində mülkiyyət hüququ uğrunda mübarizə keşməkeşli hadisələrlə doludur. Buna baxmayaraq hələ «İnsan və vətəndaşın hüquqları haqqında» Fransa Bəyannaməsinin 17-ci maddəsində mülkiyyətin müqəddəsliyi və toxunulmazlığı bəyan edilirdi. Bu norma Fransanın 1793-cü il tarixli Konstitutusiyasının 16-cı, 17-ci və 19-cu maddələrində də öz ifadəsini tapırdı.[1] Sonralar dünyanın mütərəqqi inkişafı etmiş başqa ölkələrinin də konstitusiyalarında insanların mülkiyyət hüququ birmənalı şəkildə öz hüquqi təsbitini tapmışdır.[2]

Azərbaycan dövlət müstəqilliyini bərpa etdikdən sonra ölkədə ilk olaraq qəbul edilmiş qanunlar sırasında «Azərbaycan Respublikasının iqtisadi müstəqilliyinin əsasları haqqında» 25 may 1991-ci il tarixli Konstitusiya Qanunu, eləcə də «Azərbaycan Respublikasında mülkiyyət haqqında» 9 noyabr 1991-ci il tarixli Qanunu xüsusi olaraq qeyd edilməlidir.[3] «İqtisadi müstəqilliyin əsasları haqqında» Qanunda ölkənin iqtisadi müstəqilliyinin əsas məzmunu, məqsədi, prinsipləri, eləcə də mülkiyyətin dövlət mülkiyyəti, kollektiv mülkiyyət, xüsusi mülkiyyət və qarışıq mülkiyyət kimi dörd növü, habelə respublikanın hüdudlarından kənarda olan mülkiyyət kimi növləri fərqləndirilmiş və onların hüquqi rejiminin əsas meyarları fərqləndirilmişdir.

---

[1] Алиев Ш. Научно-практический комментарий к конституции Азербайджанской Республики, Баку, 2000, с.100-101

[2] Yenə orada, s. 102-106

[3] Azərbaycan Respublikasının Qanunlar Külliyatı, I kitab, Bakı, 1997, «Qanun» nəşriyyatı, s.143-157

İstehsal alətləri və vasitələri üzərində dövlət mülkiyyətinin tam üstünlüyünün mövcud olduğu sosialist sistemindən yenicə qurtulmuş bir ölkədə «Mülkiyyət hüququ haqqında» Qanunun qəbul edilməsi mühüm tarixi əhəmiyyətə malik idi. Bu qanun 5 bölmə və 30 maddədən ibarət olmaqla 1 aprel 1992-ci il tarixdən qüvvəyə mindi. Lakin Azərbaycan Respublikasının 12 noyabr 1995-ci il tarixli müstəqillik konstitusiyasında mülkiyyətin daha geniş anlayışı və hüququ rejimi öz təsbitini tapmışdır. «Azərbaycan Respublikasının iqtisadi müstəqilliyinin əsasları haqqında» 25 may 1991-ci il tarixli Konstitusiya Qanunundan fərqli olaraq 12 noyabr 1995-ci il tarixdə referendum yolu ilə qəbul edilmiş konstitusiyada mülkiyyətin 3 növü – dövlət mülkiyyəti, xüsusi mülkiyyət və bələdiyyə mülkiyyəti kimi növləri konkretləşdirilmişdir. Eləcə də Konstitusiyanın 13-cü maddəsinə əsasən ölkəmizdə mülkiyyətin toxunulmazlığı və dövlət tərəfindən müdafiə edilməsi norması birbaşa təsbit olunmuşdur. Qeyd edilmişdir ki, ölkədə dövlət mülkiyyətinə, xüsusi mülkiyyətə və bələdiyyə mülkiyyətinə əsaslanan iqtisadiyyatın məqsədi və təyinatı xalqın rifahının yüksəldilməsinə xidmətə yönəlməlidir. Bu da Azərbaycanda bazar münasibətlərinə əsaslanan sosial yönümlü iqtisadiyyatın inkişafına şərait yaratmalı, azad sahibkarlığın inkişafına təminat verməli və əksinə inhisarçılığa və haqsız rəqabətə yol verməməlidir.[1] Buna görə də Konstitusiyanın 29-cu maddəsində hər bir kəsin, deməli hər bir qadının mülkiyyət hüququ tanınmışdır. Qeyd edilmişdir ki, hər kəsin, başqa sözlə hər bir qadının mülkiyyətində daşınar və daşınmaz əmlaklar ola bilər. Mülkiyyət hüququ, hər bir qadının təkbaşına və ya başqaları ilə birlikdə əmlaka sahib olmaq, əmlakdan istifadə etmək və onun barəsində sərəncam vermək hüququ tanınmışdır. Konstitusiyada daşınar və daşınmaz əmlakın tam müsadirəsinə yol verilmədiyi göstərilmişdir.

Qadının mülkiyyət hüququnun tənzimlənməsində Azərbaycan Respublikasının 28 dekabr 1999-cu il tarixli Qanunu ilə təsdiq

[1] Azərbaycan Respublikasının Konstitusiyası, Bakı, 2013, s.10

edilmiş iki Məcəllənin – Azərbaycan Respublikasının Mülki Məcəlləsinin və Azərbaycan Respublikasının Ailə Məcəlləsinin müstəsna rolu vardır.[1] Mülki Məcəllə ölkədə mülki hüquq münasibətlərinin, o cümlədən əmlak və əşya hüququnun mahiyyətini, anlayışını, hüquqi rejimini, onunla bağlı ümumi müddəaları, sahiblik, istifadə və sərancam hüququnu, daşınmaz əşyalara mülkiyyət hüququnu, mülkiyyətin xüsusi növlərini, mülkiyyət münasibətlərinin qorunmasının qaydası və səciyyəvi xüsusiyyətlərini və mülki sahədə ictimai münasibətlərin tənzim edilməsi sahəsində aparıcı mahiyyət daşıyır. Bu məcəllənin normaları eyni ilə bərabər hüquqlar əsasında cəmiyyətin bir üzvü olan qadınlara da bütünlüklə şamil edilir.[2]

1 iyul 2000-ci il tarixdən qüvvəyə minən Ailə Məcəlləsi[3] ailə və nikah münasibətlərinin dövlət tənzimlənməsinin əsaslarını müəyyən etməklə yanaşı, həm də nikah dövründə qadının və kişinin ortaq mülkiyyəti və özünəməxsus olan mülkiyyətinin hüququ vəziyyətini, rejimini, tənzimetmənin digər məsələlərini qaydaya qoyur. Məcəllədə göstərilir ki, ailə üzvləri arasında, ailə qanunvericiliyi ilə tənzimlənməyən əmlak və şəxsi qeyri-əmlak münasibətləri, mülki qanunvericiliyin ailə münasibətlərinin mahiyyətinə zidd olmayan hissədə müvafiq normalar tətbiq olunur. Bu Qanun qadın və kişinin hüquq bərabərliyini, onların şəxsi və əmlak hüquqlarının tanındığını, mülkiyyət hüquqlarının qorunduğunu, bununla belə ər-arvadın ümumi birgə mülkiyyətə də sahib olmaq hüququnu təsbit etmişdir. Qadın ər ilə birlikdə ümumi əmlak üzərində sahiblik, istifadə və sərəncam hüququna malikdir. Başqa sözlə, qadının əmlakının hüquqi rejimi ər-arvad arasında mülkiyyətin müqavilə rejimi, onların öhdəlikləri üzərə məsuliyyətin dərəcələri, rolu və yeri mükəmməl tənzim edilmişdir. Ölkəmizdə azad sahibkarlığın inkişafında qadınların yeri, rolu və fəaliyyəti üçün bütün mümkün im-

[1] Azərbaycan Respublikasının Mülki Məcəlləsi, Bakı, 2013, 768 s.; Azərbaycan Respublikasının Ailə Məcəlləsi, Bakı, 2013, 141s.
[2] Yenə orada
[3] Azərbaycan Respublikasının Ailə Məcəlləsi, Bakı, 2013, s. 1-116

kanlar və şərait yaradılmışdır. Son illər sahibkar qadınların ölkə iqtisadiyyatına verdiyi töhfələr diqqəti cəlb edir. Bu da qadının təkbaşına və ya başqaları ilə birlikdə müəyyən əmlaka sahib olması, sahibkarlıq fəaliyyəti ilə məşğul olması, özünün iqtisadi və mülki vəziyyətini gendən-genə yaxşılaşdırmaq üçün mükəmməl imkanlar yaradır. Bu gün «Sahibkarlara dəstək Fondu»nun köməyi ilə ölkədə qadın sahibkarlığının gündən-günə genişlənməsi və inkişafı diqqəti cəlb edir. Vergilər Nazirliyinin məlumatlarından görünür ki, 81647 nəfərdən çox qadın artıq öz təşkilatını yaratmış, istehsalın, satışın, xidmətin və digər sahibkarlıq fəaliyyətinin həyata keçirilməsi fəaliyyəti ilə məşğul olurlar. Ümumiyyətlə ölkədə sahibkarlıqla məşğul şəxslərin 17.9%-dən çoxu qadınların payına düşür.

Sosialist təsərrüfat sisteminin və sosialist rejimin mövcud olduğu dövrdən fərqli olaraq mülkiyyətin hüququ rejimində müəyyən keyfiyyət dəyişiklikləri baş vermişdir. Azərbaycan Respublikasının dövlət mülkiyyəti Azərbaycan Respublikası Dövlətinə və onun xalqına məxsusdur. Bu, Azərbaycanın ərazi hüdudları çərçivəsində torpaq, yerin təki, daxili sular və ərazi suları, qitə şelfi, bitkilər, heyvanat aləmi, hava hövzəsi və s. daxildir. Bundan fərqli olaraq bələdiyyə mülkiyyəti yeni yaradılmış özünüidarə orqanlarının və əhalidən tutulan vergilərin hesabını formalaşdırılan fondlar, mənzillər, mədəni-məişət müəssisələri, istehsal və qeyri-istehsal sahələri və sairi əhatə edir. Qeyd edildiyi kimi sosialist rejimindən fərqli olaraq dövlət təhlükəsizliyi və ictimai təhlükəsizlik mülahizələrinə, beynəlxalq birlik qarşısında götürülmüş öhdəliklərə görə vətəndaşa məxsus ola bilməyən əmlaklar istisna olmaqla, hər bir vətəndaşın mülkiyyətində istənilən daşınar və daşınmaz əmlaklar, o cümlədən torpaq sahələri, evlər, bağlar, maşınlar, təyyarələr, pul vəsaitləri, kütləvi informasiya vasitələri və başqa dəyərli əşyalar ola bilər. Bütün bunlara baxmayaraq, konstitusiyada mülkiyyətdən insan və vətəndaş hüquqlarının və azadlıqlarının, habelə şəxsiyyətin ləyaqəti əleyhinə istifadə edilməsi qadağan edilmişdir.

Azərbaycan qadınının iqtisadi hüquqlarının, sahibkarlıq hüququnun, mülkiyyət hüququnun, əqlimülkiyyət hüququnun, daşın-

maz əmlaka sahib olmaq hüququnun və digər çeşidli hüquqlarının və azadlıqlarının kökündə, hər şeydən əvvəl etibarlı dövlət təminatı dayanır. Bu hüquqların dairəsi, müdafiəsi və mühafizəsi ölkəmizin tərəfdar olduğu beynəlxalq müqavilələrdən və konvensiyalardan irəli gəlir.

BMT-nin İnsan hüquqları Bəyannaməsinin 17-ci maddəsinə görə hər bir kəs təkbaşına və ya başqaları ilə birlikdə əmlaka sahib olmaq hüququna malikdir.[1] Heç kim öz əmlakından özbaşına məhrum edilməməlidir. Avropa Konvensiyasının müvafiq olaraq 1 saylı Protokolunun 1-ci maddəsində hər bir fiziki və hüququ şəxsin öz mülkiyyətindən maneəsiz istifadə hüququ tanınmışdır. Heç kəs cəmiyyətin maraqları naminə qanunla beynəlxalq hüququn ümumi prinsipləri ilə nəzərdə tutulmuş hallar istisna olmaqla öz mülkiyyətindən məhrum edilə bilməz.

«Əsas hüquqlar haqqında» Avropa İttifaqının 7 dekabr 2000-ci il tarixli Xartiyasında da hər kəsin öz mülkiyyətində qanuni əsaslarla əldə etdiyi əmlaka malik olmaq, ondan istifadə etmək, onun üzərində sərəncam vermək və onu vəsiyyət etmək hüququ tanınmışdır və əqli mülkiyyətin müdafiə altında olduğu göstərilmişdir. Müstəqil Dövlət Birliyinin 1995-ci il tarixli «İnsan hüquqları və əsas azadlıqları haqqında» Konvensiyasında mülkiyyət hüququ tanınmış və onun müdafiəsinə müvafiq təminatlar verilmişdir.

Azərbaycan Respublikası Konstitusiyasının 68-ci maddəsi, eləcə də Mülki və Mülki-Prosessual Məcəllələri mülkiyyətə vurulmuş zərərin ödənilməsi hüququnu nəzərdə tutur, onun müdafiəsi pozulduğu hallarda zərərin ödənilməsinin prosessual qaydalarını müəyyən edir. Azərbaycan qadınlarının mülkiyyət hüququnun etibarlı şəkildə qorunması, inkişaf etdirilməsi, möhkəmləndirilməsi, mahiyyət etibarı ilə qadının, onun ailə üzvlərinin, nəticə etibarı ilə cəmiyyətin rifahının yaxşılaşdırılmasına xidmət edir.

Mülkiyyətin son illər geniş yayılmış növlərindən biri əqli mülkiyyət hüququ hesab olunur. Azərbaycan Respublikasının Konsti-

[1] Beynəlxalq sənədlər toplusu, Bakı, 2008, Qanun nəşriyyatı, s.54

tusiyasının 30-cu maddəsi hər bir kəsin əqli mülkiyyət hüququ olduğunu bəyan etmişdir. Bu normada göstərilmişdir ki, müəlliflik hüququnun, ixtiraçılıq hüququnun və əqli mülkiyyət hüququnun bütün növləri qanunla qorunur. Bununla əlaqədar olaraq ölkəmizdə Mülki Məcəllə ilə yanaşı eyni zamanda 5 iyun 1996-cı il tarixli «Müəlliflik hüququ və əlaqəli hüquqlar haqqında», eləcə də 10 iyun 1996-cı il tarixli «Patent haqqında» müvafiq qanunlar qəbul edilmişdir. Bununla əlaqədar olaraq ölkədə müvafiq təşkilatı və hüququ tədbirlər görülmüş, ixtisaslaşmış qurumlar təsis edilmişdir.

Yaşamaq hüququndan sonra qadının sərbəst hərəkət etmək, istədiyi yerə getmək, istədiyi yerdən qayıtmaq, özünə yaşayış yeri seçmək, bir sözlə qanuna zidd olmayan istənilən hərəkəti və hərəkətsizliyi etmək, ərazi və məkan meyarlarından asılı olmayaraq sərbəstlik mövqeyi və vəziyyəti, «İnsan hüquqları haqqında Ümumi Bəyannamə»nin 3-cü, 9-cu, 13-cü maddələrində, «Mülki və siyasi hüquqlar haqqında beynəlxalq Pakt»ın 2-ci, 3-cü, 5-ci, 9-ci, 9-cu, 12-ci maddələrində, Avropa Konvensiyasının 5-ci, 15-ci maddələrində nəzərdə tutulmuşdur. Bütün bunlara müvafiq olaraq Azərbaycan Respublikası Konstitusiyasının 28-ci maddəsi insanın azadlıq hüququna həsr edilmişdir. Yaşamaq hüququ ilə sıx bağlı olan azadlıq hüququ demək olar ki, bütün beynəlxalq və milli hüquq sənədlərində aparıcı mahiyyət daşıyır. Fəlsəfi mənada azadlıq – insanların idrak və zərurətə yiyələnməsi vasitəsilə nail olduğu real sərbəstlik hesab olunur. Hegelə görə, dünya tarixi – azadlığın şüurda tərəqqisidir.[1] Azadlıq hüququ isə cəmiyyətin sosial, iqtisadi və hüquqi əsasları ilə müəyyən edilən, normativ hüquqi aktlarda öz əksini tapan və təmin edilən, başqalarının və cəmiyyətin hüququnu pozmamaq şərti ilə, sosial və hüquqi normalar çərçivəsində, insanın öz arzularına, istəklərinə və iradəsinə görə sərbəst davranmaq müstəqilliyi hesab olunur.[2] İnsanın doğulduğu vaxtdan etibarən ona məxsus olan və konkret dövlətlə əlaqələrindən asılı olmayaraq, təbii və alınmaz hüquqlarının və azadlıqları-

[1] Fəlsəfə, Ensiklopedik lüğət, Bakı, 1997, s.15
[2] Cəfərov İ. Azərbaycan Respublikası Konstitusiyasının şərhi, Bakı, 2010, s.148

nın məcmusu, şəxsi hüquqlar anlayışı ehtiva edir. Bu da cəmiyyətdə insanın hüquqi statusunu müəyyən edilməsi üçün olduqca vacib və əhəmiyyətlidiк.[1] Böyük mütəfəkkirlər haqlı olaraq göstərirlər ki, əslində bəşəriyyətin tarixi azadlıq uğrunda, azadlıq hüququ uğrunda mübarizə tarixi kimi dəyərləndirilə bilər. Yuxarıda qeyd edildiyi kimi «İnsan hüquqları haqqında Ümumi Bəyannamə»nin 1-ci maddəsində göstərilir ki, bütün insanlar ləyaqət və hüquqlarına görə azad və bərabər doğulurlar. Onların şüurları və vicdanları var və biri-birinə münasibətdə qardaşlıq ruhunda davranmalıdırlar.[2]

Azərbaycan Respublikası Konstitusiyasının 28-ci maddəsi azadlıq hüququnun məzmununa dəqiq aydınlıq gətirmişdir. Orada göstərilir ki, hər kəsin azadlıq hüququ vardır. Azadlıq hüququ yalnız qanunla nəzərdə tutulmuş qaydada tutulma, həbsəalma və ya azadlıqdan məhrumetmə yolu ilə məhdudlaşdırıla bilər. Qanuni surətdə Azərbaycan Respublikasının ərazisində olan hər kəs sərbəst hərəkət edə bilər, özünə yaşayış yeri seçə bilər və Azərbaycan Respublikasının ərazisindən kənara gedə bilər. Azərbaycan Respublikası vətəndaşının hər zaman maneəsiz olaraq öz ölkəsinə qayıtmaq hüququ vardır.[3]

Demokratik, hüquqi, dünyəvi və unitar respublika quran Azərbaycan Respublikasında dövlətin ali məqsədi - insan və vətəndaş hüquqlarının və azadlıqlarının... təmin edilməsinə istiqamətlənmişdir. Bu baxımdan Konstitusiyanın II bölməsinin 3-cü fəsli - əsas insan və vətəndaş hüquqlarını və azadlıqlarını kompleks qaydada nəzərdə tutan geniş şəbəkəni əhatə edir. Bu baxımdan insanın azadlıq hüququ və onun real surətdə təminatları, çoxsaylı digər hüquqların və azadlıqların həyata keçirilməsinin təminatlarından biri kimi qiymətləndirilə bilər. Əslində insan azad olmadan hər hansı bir hüququn ona mənsub olmasından və həyata keçirilməsindən

[1] Quliyev A.İ. Hüquq ensiklopediyası, Bakı, 2010, 961

[2] Beynəlxalq sənədlər toplusu, Bakı, 2008, Qanun nəşriyyatı, s.6

[3] Azərbaycan Respublikasının Konstitusiyası, Bakı, 2009, «Hüquq ədəbiyyatı» nəşriyyatı, s.15

söhbət gedə bilməz. Azadlıq hüququ olmayan insanın mülkiyyət hüququna, təhsil hüququna, istirahət hüququna, mənzil hüququna, söz azadlığına və sairə sahib olması ağlasığmazdır. Bütün bunlarla yanaşı insanın azadlıq hüququ daha çox təhlükəsiz yaşamaq və şəxsi toxunulmazlıq hüququ ilə bağlıdır. Bu baxımdan bir çox normativ hüquqi aktlarda bəzən azadlıq hüququ, həm də şəxsi toxunulmazlıq hüququ ilə birlikdə götürülür.

Qadının təhlükəsiz yaşamaq və şəxsi toxunulmazlıq hüququ qanunvericiliklə müəyyən edilmişdir. Buna görə də qanunla nəzərdə tutulmuş hallar istisna edilməklə qadının həyatına, fiziki və mənəvi sağlamlığına, mülkiyyətinə, mənzilinə qəsd etmək, ona qarşı zor işlətmək qanunvericiliklə qadağan edilmiş və belə əməllərin məsuliyyət yaradacağı nəzərdə tutulmuşdur. Azərbaycan Reaspublikası vətəndaşlarının azadlıq və şəxsi toxunulmazlıq hüququ «Azərbaycan Respublikasının vətəndaşlığı haqqında», «yaşayış yeri və olduğu yer üzrə qeydiyyat haqqında», «mənzil hüququ», «milli mənsubiyyət hüququ», «ana dilindən istifadə etmək hüququ», «şərəf və ləyaqətin müdafisəi hüququ», «sərbəst toplaşmaq azadlığı», «vicdan azadlığı», «cəmiyyətin və dövlətin siyasi həyatında iştirak etmək hüququ», «seçki hüququ» və onlarla digər hüquqlarla sıx bağlıdır və bütün bunlar azadlıq hüququnun həyata keçirilməsinin mühüm təminatları kimi dəyərlidir. Buna görə də azadlıq hüququ insanın hüquqları və azadlıqları sistemində mühüm vəsilələrdən birini təşkil edir və aparıcı mahiyyət daşıyır. Hüquqi dövlətdə hakimiyyətin bölünməsi prinsipinə real əməl edilməsi - vətəndaş hüquqlarının və azadlıqlarının təmin olunmasının başlıca şərtidir. Vətəndaşı fərdən azad olmayan ölkənin, özünün azad ölkə olması mümkün deyildir. Böyük fransız mütəfəkkiri Ş.L.Monteskyüyə görə azadlıq qanunlarla icazə verilən hər bir şey deməkdir. O, Roma tarixini tədqiq edərək göstərirdi ki, yalnız vətəndaşı azad olan, qayda-qanunun hökm sürdüyü respublikalarda cəmiyyət uğurla inkişaf edə bilər.[1] Hegel isə hüququ – azadlığın ölçüsü və ya qanunla müəyyən edilən

[1] Монтескье Ш.Л. Избранные произведения. М., 1955. с. 316

azadlıq kimi səciyyələndirirdi. Bu ölçünün müəyyən edilməsində qanunların müstəsna rolu vardır. Çünki azadlığın sərhədləri qanunlarla müəyyən edilir. Hüquq isə, azadlığın hamı üçün eyni olan ölçüsüdür.[1]

Ümumi formal bərabərlik prinsipindən doğan azadlıq iki üsulla həyata keçirilir: hüquqi icazə və hüquqi qadağalar yolu ilə.[2] Hüquqi icazə yolu vasitəsilə həyata keçirilən hüquqi tənzimetmədə icazə verilən azadlığın məzmunu və həddi qanunda dəqiq müəyyən edilir. Hüquqi qadağa üsulunda isə insan hərəkətlərində və münasibətlərində ictimai təhlükəli anlar qadağan edilir. Buna görə də müasir inkişaf etmiş hüquqi dövlətlərdə «qanunlarla qadağan edilməyən hər şeyə icazə verilməsi» prinsipi əsas götürülür. Bəşəri sərvətlərin ən alisi olan şəxsiyyət azadlığının təmin edilməsi, demokratik hüquqi dövlətin səciyyəvi əlamətidir. Məhz hüquqi dövlətdə azadlığın, ədalətin və sülhün əsasını təşkil edən insan ləyaqəti etiraf olunur və Azərbaycan Respublikası Konstitusiyasının 12-ci maddəsində göstərildiyi kimi, insan və vətəndaş hüquqlarının və azadlıqlarının təmin edilməsi, dövlətin ali məqsədi hesab edilir.[3]

İnsan hüquqlarının fəlsəfi-siyasi mahiyyəti insan varlığının bünövrəsini təşkil edən fərdi azadlığa nail olmaqdan başlanır. Ancaq insan ləyaqəti, ləyaqətin mahiyyət əlamətləri olan azadlığı və bərabərliyi, şəxsiyyətin özünəməxsusluğunu, iradə azadlığını real həyata keçirən dövlətlərdə azadlıqdan danışmaq olar. Azadlıq vətəndaşlığından asılı olmayaraq hər bir şəxsə məxsusdur və onun ayrılmaz təbii hüququdur.

Azərbaycan Respublikasının Konstitusiyasında nəzərdə tutulmuş azadlıq hüququ dekparativ mahiyyət daşımır. Çoxsaylı normativ hüquqi aktlar, çoxsaylı müdafiə mexanizmləri və təsisatları vardır ki, bütün bunlar azadlıq və şəxsi toxunulmazlıq hüququnun etibarlı müdafiəsinin keşiyində dayanır. Azərbaycan Respublikası Cinayət-Prosessual fəaliyyətin və mühakimə icraatının əsas prin-

---

[1] Гегель. Философия права. М., 1934 с. 31
[2] İsla İ.A. Hüquqi dövlət: mülahizələr və təkliflər, Bakı, 1999, s.38-41
[3] Cəfərov İlqar. Azərbaycan Respublikası Konstitusiyasının şərhi. Bakı, 2001, s.33

sipləri sırasında insan və vətəndaş hüquqlarının və azadlıqlarının qanunsuz məhdudlaşdırılması hallarında onun müdaifəsinə etibarlı təminat verilmişdir. Eləcə də, həmin Məcəllənin 12-ci maddəsində göstərilir ki, cinayət prosesini həyata keçirən orqanlar və vəzifəli şəxslər insanın və vətəndaşın hüquqlarına və azadlıqlarına riayət olunmasını təmin etməlidirlər. Cinayət-Prosessual Məcəllənin 14-cü maddəsi azadlıq hüququnun, 15-ci maddəsi şəxsi toxunulmazlıq hüququnun, 16-cı maddəsi şəxsi həyatın toxunulmazlıq hüququnun, 17-ci maddəsi isə mənzil toxunulmazlığı hüququnun təmin edilməsi kimi məsələlərin vacibliyini və aktuallığını bir daha təsbit etmişdir.[1] Bu da ondan irəli gəlir ki, konstitusiyamızın 28-ci maddəsində hər kəsin azadlıq hüququnun yalnız qanunda nəzərdə tutulmuş qaydada tutulma, həbsə alma və azadlıqdan məhrumetmə yolu ilə məhdudlaşdıra bilməsi qaydası nəzərdə tutulmuşdur. Çünki ictimai və dövlət həyatını bunsuz təsəvvür etmək qeyri-mümkündür. Tutulma – Azərbaycan Respublikası qanunları ilə nəzərdə tutulmuş hallarda və qaydada şəxsin azadlığını qısa müddətə məhdudlaşdırmaqla, onu xüsusi nəzərdə tutulmuş məkanda müvəqqəti olaraq saxlanılması vəziyyətini ehtiva edir. Həbs – qətimkan tədbiri, qanunvericiliklə nəzərdə tutulmuş hallarda, qaydada təqsirləndirilən şəxsin azadlığının qanunla müəyyən edilmiş müddətlərdə məhdudlaşdırmaqla, həbsdə saxlanılma yerlərində saxlanılma vəziyyətidir. Azadlıqdan məhrum etmə tədbiri, bir cəza növü olmaqla, məhkəmə hökmü əsasında şəxsin cəzaçəkmə müəssisələrində yerləşdirilməsi vəziyyətidir. Qanun insan azadlığının məhdudlaşdırılmasının hüquqi əsaslarını, qaydalarını, şərtlərini, rejimini ciddi müəyyən edir. Bunun əsasları İnzibati Xətalar Məcəlləsində, Azərbaycan Respublikası Cinayət və Cinayət-Prosessual qanunvericiliyində dəqiq müəyyən edilmişdir. Eyni zamanda insan azadlığının qanunla müəyyən edilmiş qaydaların pozulması ilə məhdudlaşdırılması müxtəlif növ məsuliyyət yaradır. Belə ki, Azərbaycan Respublikası Cinayət Məcəlləsinin «şəxsiyyətin

---

[1] Azərbaycan Respublikasının Prosessual Məcəlləsi, Bakı, 2013, s.17

azadlığı və ləyaqəti əleyhinə olan cinayətlər» adlı XIX fəslində, şəxsin azadlıqdan qanunsuz olaraq məhrum edilməsinə (CM-nin 145-ci maddəsi), adam oğurluğuna (CM-nin 144-cü maddəsi), insan alverinə (CM-nin 144-1-ci maddəsi), şəxsin psixiatriya xəstəxanasına qanunsuz olaraq yerləşdirilməsinə (CM-nin 146-ci maddəsi) və s. bu kimi əməllərə görə, habelə təqsiri olmadığını bilə-bilə şəxsin cinayət məsuliyyətinə cəlb edilməsinə (CM-nin 290-cı maddəsi), şəxsin qanunsuz olaraq tutulmasına, həbsə alınmasına və ya həbsdə saxlanmasına (CM-nin 292-ci maddəsi) görə, yaxud bilə-bilə ədalətsiz hökm, qərardad və ya qərar çıxarmağa görə (CM-nin 295-ci maddəsi) cinayət məsuliyyəti nəzərdə tutmuşdur. Əməliyyat-axtarış, kəşfiyyat və əks-kəşfiyyat fəaliyyətlərinin həyata keçirilməsi zamanı da insanın şəxsi azadlığının mühafizəsi qaydasına hüquqların və azadlıqların qorunması qaydasına ciddi əməl edilməsi tələb edilir. Bu qaydaların pozulması da müvafiq növ məsuliyyətə səbəb ola bilər (CM-nin 302-ci maddəsi). Göründüyü kimi Konstitusiyada müəyyən edilən şəxsi azadlıq hüququnun gözlənilməsi və ona əməl edilməsi qnunvericiliyin və hüquqmühafizə fəaliyyətinin mühüm prinsiplərindən hesab olunur. Bu normalar mülki, inzibati, cinayət və digər qanunvericilik aktları ilə dövlət tərəfindən mühafizə edilir. Buna görə də Cinayət Məcəlləsində şəxsi azadlıq hüququna qəsd edilməsi və ya onun məhdudlaşdırılması ilə bağlı əməllər məsuliyyətə səbəb olur. Hüquqi dövlət quran Azərbaycanda hər kəsin qanunla qadağan olunmayan üsul və vasitələrlə öz hüquqlarını və azadlıqlarını müdafiə etmək hüququ təsbit olunmaqla yanaşı, eyni zamanda Konstitusiyanın 26-cı maddəsinin 2-ci bəndində dövlətin hər kəsin hüquqlarının və azadlıqlarının müdafiəsinə təminat verməsi təsbit edilmişdir.[1]

«İnsan hüquqları haqqında Ümumi Bəyannamə»nin 16-cı maddəsinə görə yetkinlik yaşına çatmış kişilər və qadınlar irqi, milli və ya dini əlamətlərinə görə heç bir məhdudiyyət qoyulma-

[1] Azərbaycan Respublikası Konstitusiyası. Bakı, Hüquq ədəbiyyatı nəşriyyatı, 2008, s.12-13

dan nikah bağlamaq və ailə qurmaq hüququna malikdirlər. Onlar nikah bağlayarkən, nikah vəziyyətində olarkən və onun pozulması zamanı eyni hüquqlardan istifadə edirlər. Nikah yalnız hər iki tərəfin sərbəst və tam razılığı ilə bağlana bilər. Ailə cəmiyyətin təbii və əsas özəyidir, o, cəmiyyət və dövlət tərəfindən müdafiə olmaq hüququna malikdir.[1] Bu norma «İqtisadi, sosial və mədəni hüquqlar haqqında» Beynəlxalq Paktın 10-cu maddəsində daha da inkişaf etdirilərək göstərilir ki, cəmiyyətin başlıca özəyi olan ailəyə imkan dairəsində, ələlxüsus onun yaranma dövründə və öhdəsinə kiçik yaşlı uşaqların böyüdülməsi və tərbiyə olunması məsuliyyəti düşdüyü zaman hər tərəfli mühafizə və kömək təmin olunmalıdır. Nikah buna daxil olanların azad razılığı və iradəsi ilə bağlanmalıdır. Analar doğuşdan əvvəl və sonra müəyyən müddət ərzində xüsusi himayə ilə təmin olunmalıdır. Bu müddət ərzində işləyən analara haqqı ödənilən məzuniyyət və ya sosial təminat üçün zəruri müavinət təyin olunmalıdır. Həmin Paktın 11-ci maddəsinə görə hər bir şəxsin özünün və ailəsinin kifayət qədər qidalanmasını, geyimini, yaşayış yerini və həyat şəraitini daimi yaxşılaşmasını əhatə edən münasib həyat səviyyəsi hüququnu tanıyırlar.Təsadüfi deyildir ki, «Mülki və siyasi hüquqlar haqqında» Paktın 17-ci maddəsinə görə heç kimin şəxsi və ailə həyatına özbaşınalıqla və qeyri-qanuni müdaxilə, onun evinin toxunulmazlığına və məktublaşmalarının gizlinliyinə və ya qeyri-qanuni qəsd və ya onun ləyaqəti və ya nüfuzuna qanunsuz qəsd edilə bilməz. Həmin Paktın 23-cü maddəsi isə bu normaları inkişaf elətdirərək ailəni cəmiyyətin təbii və əsas özəyi hesab edir.[2]

«İnsan hüquqları və əsas azadlıqları haqqında» Avropa Konvensiyasının 12-ci maddəsində qeyd edilir ki, nikah yaşına çatmış kişilər və qadınlar bu hüququn həyata keçirilməsini tənzimləyən daxili qanunlara müvafiq olaraq nikaha girmək və ailə qrumaq hüququna malikdirlər.[3] «Ərdə olan qadınların vətəndaşlığı haq-

---

[1] Beynəlxalq sənədlər toplusu, I cild, Bakı, 2005, s.54

[2] Yenə orada, s.77-78

[3] Kuinin F. İnsan haqqları və sən, Bakı, s.25

qında» 29 yanvar 1957-ci il tarixli 1040 saylı Qətnamə ilə təsdiq edilmiş Konvensiya, «Nikaha daxilolmaya razılıq, nikah üçün minimal yaş həddi və nikahların qeydiyyatı haqqında» 7 noyabr 1962-ci il tarixli Konvensiya, «İnsanlarla ticarət və üçüncü şəxslər tərəfindən fahişənin istismarına qarşı mübarizə haqqında» 2 dekabr 1949-cu il tarixli 317 saylı Qətnamə ilə təsdiq edilmiş Konvensiya ailə və nikah münasibətlərinin beynəlxalq standartlarının müəyyən olunması sahəsində mühüm əhəmiyyətə malik olmuşdur. Bütün bunlara müvafiq olaraq hazırlanan Azərbaycan Respublikası Ailə Məcəlləsi Azərbaycan Respublikası Konstitusiyasının 34-cü maddəsinə müvafiq olaraq hazırlanmışdır. Belə ki, bu maddədə də beynəlxalq hüquq normalarına müvafiq olaraq göstərilir ki, hər kəsin qanunla nəzərdə tutulmuş yaşa çatdıqda ailə qurmaq hüququ vardır. Nikah könüllü razılıq əsasında bağlanılır. Heç kəs zorla evləndirilə və ya ərə verilə bilməz. Nikah və ailə dövlətin himayəsindədir. Analıq, atalıq, uşaqlı qanunla mühafizə edilir. Dövlət çoxuşaqlı ailələrə yardım göstərir. Ər ilə arvadın hüquqları bərabərdir. Uşaqlara qayğı göstərmək, onları tərbiyə etmək valideynlərin həm hüququ, həm də borcudur, valideynlərə hörmət etmək, onların qayğısına qalmaq uşaqların borcudur.

Qadının şəxsi və ailə həyatı barədə sirrlərini gizlətmək, saxlamaq, qorumaq, onun mənzilinə və yazışma sirrinə müdaxilə etmək qanunvericiliklə mühafizə edilir və bu qaydaların pozulması məsuliyyətə səbəb olur. Buna görə də öz razılığı olmadan qadının şəxsi həyatı haqqında məlumatların toplanılmasına, saxlanılmasına, istifadəsinə və yayılmasına yol verilmir. Eləcə də, qadının yazışma, telefon danışıqları, poçt, teleqraf və digər rabitə vasitələri ilə ötürülən məlumatlarının sirri dövlət tərəfindən mühafizə edilir və buna real təminatlar nəzərdə tutulmuşdur. Bu hüquq cinayətin qarşısını almaqdan və ya cinayət işinin istintaqı zamanı həqiqəti üzə çıxarmaqdan ötrü müstəsna hallarda səlahiyyətli orqanlar tərəfindən qanunvericiliklə nəzərdə tutulmuş qaydada məhdudlaşdırıla bilər. Qanunla müəyyən edilmiş hallar istisna olmaqla, qadın onun xəbəri olmadan və ya etirazına baxmadan izlənilməsi, video və foto çəkilişinə, səs yazısına və digər bu kimi hərəkət-

lərə məruz qalması yolverilməzdir. Qanunla müəyyən edilmiş hallar istisna olmaqla, hər bir qadın onun haqqında toplanmış məlumatlarla tanış olmaq hüququna malikdir. Belə tanışlığın nəticəsindən asılı olaraq o, haqqında toplanılmış və həqiqətə uyğun olmayan, tam olmayan, habelə qanunun tələbləri pozulmaqla əldə edilmiş məlumatların düzəldilməsini və ya çıxarılmasını ləğv etmək hüququna malikdir. Bütün bunlar qadın şəxsiyyətinə və qadın ləyaqətinə olan böyük hörmətin bariz nümunəsi kimi səciyyələndirilə bilər.

Qadının cəmiyyətdə ən şərəfli vəzifələrindən biri analıq, dünyaya uşaq gətirmək, onu doğub tərbiyə etmək və cəmiyyət üçün faydalı şəxsiyyət kimi yetişdirməkdən ibarətdir. Eyni zamanda cəmiyyətin bir üzvü kimi maddi nemətlər istehsalçısı kimi qadının sağlam olması müstəsna əhəmiyyət kəsb edir. Buna görə də qadının sağlamlığının qorunması və tibbi yardım göstərilməsi sahəsində geniş hüquqları və azadlıqları müəyəyn edilmişdir. BMT-nin «İqtisadi, sosial, mədəni hüquqlar haqqında Paktının 25-ci maddəsinə tam cavab verən bu hüquq müstəqillik illərində Azərbaycan Respublikası Konstitusiyasının 39-cu və 41-ci maddələrində, eləcə də 10 noyabr 1992-ci il tarixli «Sanitariya epidemioloji salamatlıq haqqında», 26 iyun 1997-ci il tarixli «Əhalinin sağlamlığının qorunması haqqında», 28 oktyabr 1997-ci il tarixli «Tibbi sığorta haqqında» və digər normativ hüquqi aktlarda geniş təsbit edilmişdir. Eləcə də ana və uşaqların sağlamlığının qorunması, hamiləliyə və uşağı saxlamağa görə əlavə müavinətlərin və ödənişlərin verilməsi, bu sahədə həmkarlar təşkilatının vəzifələri mükəmməl müəyyən edilmişdir. Buna görə də dövlət müxtəlif mülkiyyət növləri əsasında fəaliyyət göstərən səhiyyənin bütün növlərinin inkişafı üçün zəruri tədbirlər görmüş, sanitariya-epidemiologiya salamatlığına təminat verilmiş, tibbi sığortanın müxtəlif növlərinin inkişafı üçün təşkilatı-hüquqi tədbirlər müəyyənləşdirilmişdir. Bu kompleks tədbirlər Avropa Sosial Xartiyasının tələblərinə tamamilə cavab verir.

«İnsan hüquqları haqqında Ümumi Bəyannamə»nin 16-cı, «Mülki və siyasi hüquqlar haqqında beynəlxalq Pakt»ın 23-cü maddələri, BMT-nin 7 noyabr 1962-ci il tarixli «Nikaha daxil olmağa razılıq, minimum nikah yaşı və nikahların qeydə alınması haqqında» Kon-

vensiyaya müvafiq olaraq Azərbaycan qadının analıq və nikaha girmək hüququ Azərbaycan Repsublikası Konstitusiyasının 34-cü və sosial təminat hüququnu tənzim edən 38-ci maddələrində təsbit olunmuşdur. Azərbaycan Respublikasının 28 dekabr 1999-cu il tarixli Qanunu ilə təsdiq edilmiş Ailə Məcəlləsi hər bir qadının qanunla nəzərdə tutulmuş yaşı çatdıqda ailə qurmaq və nikah münasibətlərinə girmək hüququnu nəzərdə tutulmuşdur. Qadın əri ilə bərabər hüquqlara sahib olmaqla yanaşı onların yaratdığı ailə dövlətin himayəsindədir. Buna görə də qadının və ailənin inkişafı üçün dövlət geniş tədbirlər kompleksi müəyyən etmiş, sosial dövlət olaraq qadının, ailənin və uşağın sosial problemlərinin həlli sahəsində ardıcıl və səmərəli tədbirlər görülmüşdür.

Azərbaycan ailəsində qadının, ailənin və uşağın beynəlxalq əmək təşkilatının müəyyən etdiyi bütün güzəştlərdən, standartlardan və şərtlərdən istifadə edilməsi üçün zəruri şərait yaradılmışdır.

Ailələrin və cəmiyyətin inkişafı beynəlxalq ictimaiyyəti bu gün ciddi surətdə narahat edən problemlərdən hesab olunur. BMT-nin «İnkişaf hüququ haqqında» Bəyannaməsində haqlı olaraq göstərilir ki, hər bir insan və bütün xalqlar bütün insan hüquqlarının və əsas azadlıqlarının tam şəkildə gerçəkləşə biləcək, iqtisadi, sosial, mədəni və siyasi inkişafında iştirak etmək və buna töhfələr vermək, habelə onlardan faydalanmaq hüququna malikdir. İnkişaf hüququ bütün insan hüquqlarının və əsas azadlıqlarının bölünməzliyi və qarşılıqlı aslılığı prinsiplərinə söykənir. 2000-ci ilin sentyabr ayında qəbul edilmiş BMT-nin «Minillik Bəyannaməsi» cəmiyyətin və ailənin yüksək inkişafının təmin olunmasını, yoxsulluğun aradan qaldırılmasını inkişaf prosesinin başlıca məqsədi kimi müəyyən edilmişdir. BMT-nin üzv dövlətləri 2020-ci ilə qədər olan müddətdə, dünyada gündə bir dollardan az miqdar hesabına yaşayan və aclığa məruz qalan insanların miqyasını yarıya kimi azaltmaq, tam ümumi ibtidai təhsilə nail olmaq, uşaq ölümünü 2/3 dəfə azaltmaq, ana ölümünü 3 dəfə azaltmaq, yoluxucu və geniş yayılmış xəstəliklərin qarşısını almaq, ətraf mühitin davamlı inkişafını təmin etmək və qlobal inkişafı təmin etmək kimi öhdə-

liklər götürmüşdür.[1] Bütün bu məsələlər ailədə qadının rolunun əhəmiyyətli dərəcədə gücləndirilməsinə, ailənin rifah halının yaxşılaşdırılmasına, uşaqların tərbiyəsində və təhsilində ananın rolunun gücləndirilməsinə böyük zərurət yaradır. Bu məsələlərin hüquq müstəvisində qanunvericilik yolu ilə həlli hüquqi dövlətin tələblərindən irəli gəlir.

28 dekabr 1999-cu il tarixli Qanunla qəbul edilmiş Azərbaycan Respublikasının Ailə Məcəlləsi 01 iyun 2000-ci il tarixdən qüvvəyə minmişdir. Məcəllədə nikah münasibətlərində qadının yeri və rolu, nikahın bağlanmasının şərtləri və qaydaları, nikahın etibarsızlığı, nikaha xitam verilməsi, nikah münasibətində tərəf kimi kişinin və qadının və ya ərin və ya arvadın şəxsi hüquqları və vəzifələri, onların əmlakının hüquqi rejimi, mülkiyyətin müqavilə rejimi, ailə üzvlərinin, o cümlədən qadınların öhdəlikləri, vəzifələri, məsuliyyəti, nikahın qeydə alınmasının və pozulmasının tənzimlənmə məsələləri müxtəlif normalarda öz ifadəsini tapmışdır. Ailə Məcəlləsi qadının ailə qurmaq hüququ sahəsindəki irqi ayrı-seçkiliyin və bərabərhüquqluluq prinipinin gözlənilməsi sahəsində mükəmməl hüquqi sənəd hesab oluna bilər. Buna baxmayaraq, ictimai həyatdakı köklü dəyişikliklər ailə münasibətlərindəki təzahürlərə müvafiq olaraq dinamik şəkildə təkmilləşdirilmiş, müasirləşdirilmiş və beynəlxalq standartlara tamamilə uyğunlaşdırılmışdır. Qadının ailə və nikah hüququ cəmiyyətin bütün sahələrdə inkişafı üçün müstəsna əhəmiyyətə malikdir. Nəsil artırmaq, ağıllı uşaqlar böyütmək, ictimai tərəqqidə iştirak etmək, maddi nemətlər istehsalı ilə məşğul olmaq və digər həyatı əhəmiyyət daşıyan məsələlərin həllində ailələrin rolu əvəzsizdir. Bu rolun uğurla həyata keçirilməsində qadının hüquqlarının və azadlıqlarının mütərəqqi inkişafı yeni nəsil yetişdirməsi üçün əlverişli şərait yaradır. Buna baxmayaraq ailə və qadın münasibətlərində tənzimlənmənin təcrübi olaraq həyata keçirilməsindəki qüsurlar, cinsi ayrı-seçkiliyin

[1] Məmmədov R., İsmayılova Ə., Hacıyev C. Qanunun aliliyi və insan hüquqlarının müdafiəsi mexanizmləri, Bakı, 2009, s. 384-394

tətbiq olunması, bərabərhüquqluluğun gözlənilməməsi, qadınlar arasında və məişət zəminində hüquq pozuntularına şərait yaradır və bununla da cəmiyyətə və ailələrə mühüm zərər vurur.[1]

Məişət zəminində qadın cinayətkarlığının artması cəmiyyətdə və sosial mühitdə qadının rolunun və hüququnun genişləndirilməsi, mühüm sosial tənzim etmə institutu kimi adət və ənənələrin ciddi dəyişikliyə uğraması, işsizlik və yoxsulluğun artması, mənəvi-əxlaqi dəyərlərin tənəzzülü, psixoloji sarsıntılar, kütləvi informasiya vasitələrində yabançı meyllərin təbliği, kişi nüfuzunun getgedə aşağı düşməsi nəticəsində ənənəvi ailə başçısı rolunun azalması, ağsaqqallıq institutunun şəhər mühitində zəif işləməsi, ailə münaqişələrinin maddi çətinliklər və yoxsulluq üzündən artması, hüquq mühafizə sistemində profilaktiki tədbirlərin tədricən zəifləməsi və digər çoxsaylı səbəblər, bu kateqoriyadan olan kriminal əməllərin artmasına şərait yaradır. Buna görə də məişət zorakılığına qarşı mübarizədə ailənin və cəmiyyətdə qadının rolunun artırılması olduqca zəruri və aktualdır.[2]

«Məişət zorakılığının qarşısının alınması haqqında» Azərbaycan Respublikasının yeni Qanunu bu sahədə problemin hüquqi tənzimlənməsi, xüsusilə belə zorakılıqların qarşısının alınması sahəsində ən mükəmməl normativ hüquqi aktlardan biridir. Bu sənəd beynəlxalq konvensiyaların tələblərindən irəli gəlmişdir. Məişət zorakılığı ilə bağlı hələ 1853-cü ildə İngiltərədə «Qadınlara və uşaqlara qarşı zorakılığın aradan qaldırılması və cəzalandırılması haqqında» Akt sonradan daha da təkmilləşdirilmiş və başqa ölkələr üçün də nümunə olmuşdur. 1872-ci ildən başlayaraq, Amerikanın

---

[1] Azərbaycan Respublikasının Ailə Məcəlləsi, Bakı, "Hüquq ədəbiyyatı" nəşriyyatı, 2011, s. 1-5

[2] Криминология, М.. «Норма», 2010, 587-588; Aile Şurası «Aile ve Yoksulluk» bildirileri. Ankara, 18-20 Mayıs 2004, s.56-60; Qadın hüquqları: beynəlxalq və milli qanunvercilikdə, Bakı, 2002, s. 23-27; Ailə Məcəlləsinin yozumu, Bakı, «Qapp-poliqraf», 2005, s. 1-17

Massaçusets və Alabama ştatlarında qadınlara qarşı zorakılıq cinayət əməli kimi məsuliyyətə səbəb olmuşdur.[1]

Azərbaycan Respublikasında «Məişət zorakılığının qarşısının alınması haqqında» 22 iyun 2010-cu il tarixdə qəbul edilmiş Qanun ölkəmizin beynəlxalq müqavilələri ratifikasiya etməsi nəticəsində üzərinə götürdüyü öhdəliyin icrası ilə sıx bağlı olmuşdur. Buna baxmayaraq ailə mühitində, məişətdə qadın - kişi münasibətlərinin müxtəlif səbəblər üzündən kəskinləşməsi nəticəsində müxtəlif qəbildən olan hüquq pozuntularının və hətta cinayət faktlarının artması meyli belə bir qanunun hazırlanmasına və qəbuluna səbəb olmuşdur. Bu qanunda hər şeydən əvvəl qanun ilk dəfə olaraq «məişət zorakılığı»na, onun ayrı-ayrı növlərinə aydınlıq gətirmişdir. Göstərmişdir ki, məişət zorakılığı dedikdə, yaxın qohumluq münasibətlərindən birgə və ya əvvəllər birgə yaşamaqlarından sui-istifadə etməklə, bir şəxsin digər şəxsə qarşı qəsdən fiziki və mənəvi zərər vurması başa düşülür. Bu zorakılığın fiziki, psixi, cinsi, iqtisadi və s. formaları fərqləndirilir. Qanun məişət zorakılığının qarşısının alınması sahəsində əsas prinsipləri müəyyən edərkən, bu zaman insan hüquqlarının və azadlıqlarının təmin edilməsinə, qadınlara qarşı ayrı-seçkiliyin qadağan olunmasına, şəxsi və ailə həyatına müdaxilənin yolverilməzliyinə, konfidensiallığa riayət edilməsinə, zərərçəkmiş şəxslərin pozulmuş hüquqlarının bərpasına, bu sahədə dövlət və qeyri-dövlət qurumlarının qarşılıqlı əməkdaşlığına xüsusi önəm verir. Ən müsbət cəhətlərdən biri də ondan ibarətdir ki, qanunvericilik yolu ilə məişət zorakılığının qarşısının alınması sahəsində kompleks tədbirlər nəzərdə tutulmuşdur. Bu tədbirlərin növləri, o cümlədən hüquqi, sosial, qabaqlayıcı və digər tədbirlər sistemi müəyyən edilmiş, təşkilati-hüquqi formalar təkmilləşdirilmişdir.

Məişət zorakılığı barədə ərizə və müraciətlərin baxılması və həll edilməsi qaydasını nəzərdə tutan yeni meyarları dövlət orqan-

[1] «Məişət zorakılığının qarşısının alınması haqqında» Azərbaycan Respublikası Qanununun Kommentariyası, Bakı, 2011, s. 16

larının əsas vəzifələrini konkret olaraq müəyyənləşdirmişdir. Bu zaman cinayət-prosessual qanunvericiliklə müəyyən edilmiş tədbirlərlə yanaşı, bu məzmunlu şikayətlər üzrə məişət zorakılığı ilə bağlı dövlətin görməli olduğu vəzifələrin sistemi konkretləşdirilmişdir. Qanunun icrası ilə bağlı ölkə prezidenti, cənab İlham Əliyevin sərəncamı ilə kompleks tədbirlər nəzərdə tutulmuşdur. Bu sahədə məlumat bankının, reabilitasiya mərkəzlərinin, sığınacaqların, digər yardım mərkəzlərinin yaradılması, beynəlxalq və qeyri-hökumət təşkilatları ilə əməkdaşlığın genişləndirilməsi istiqamətində nəzərdə tutulan tədbirlər heç şübhəsiz öz faydalı nəticələrini verəcəkdir.

Son illərin təcrübəsi göstərir ki, məişət zorakılığı sahəsində profilaktiki tədbirlərin gücləndirilməsi cəmiyyətdə ailənin və qadının nüfuzunun yüksəldilməsinə mühüm təsir göstərəcəkdir. Cəmiyyətin əsas özəyi olan ailə özündə qadın və uşaqla yanaşı, həm də kişiləri birləşdirməklə, əslində bütün cəmiyyəti əhatə edir. Ailədaxili münaqişələr yetkinlik yaşına çatmayanların tərbiyəsini pozur, onların gələcək taleyini şübhə altında qoyur. Belə münaqişələr ailəni pozur, sərxoşluğa, narkomanlığa, tamah və zorakı cinayətlərin artmasına münbit şərait yaradır, əmək məhsuldarlığına mənfi təsir göstərir, cəmiyyətdə stabillik və sakitliyi pozur. Psixoloji sarsıntılar, əsəb gərginliyi, intihar və qətllər yaradır. Ailəsi xoşbəxt olmayan cəmiyyətin mahiyyət etibarilə özünün xoşbəxtliyi mümkün deyildir. Buna görə də son illər ailə münaqişələrinə qarşı mümkün olan bütün profilaktiki tədbirlərin görülməsinə diqqət artmaqdadır. Bu gün ailə və qadın problemləri ciddi surətdə, vaxtaşırı olaraq, sistemli şəkildə öyrənilməli və onların düzgün istiqamətə yönəldilməsi üçün qətiyyətli tədbirlər görülməlidir. Bu problemə qadının, ailənin, uşağın problemləri kimi yox, cəmiyyətin və Azərbaycan dövlətinin problemləri kimi baxmaq zəruridir.

Ailədaxili münaqişələrin və mübahisələrin hüquqi tənzimlənməsi hər şeydən əvvəl qadın hüquqlarının və azadlıqlarının qorunması, etibarlı müdafiəsi və mühafizəsi problemlərinə diqqətin artırılmasını prioritet kimi qarşıya qoyur.

Cəmiyyətin özəyini təşkil edən ailənin, habelə qadın və uşaqların hüquqlarının və azadlıqlarının qorunmasına, mənafelərinin gözlənilməsinə diqqət artırılmalı, təşkilati-hüquqi tədbirlər və bu istiqamətdə dövlət idarəçiliyinin səmərəliliyinin və effektivliyinin artırılmasına xüsusi diqqət yetirilməsi vacibdir. Yalnız belə olduqda bu sahədə uğurlar əldə etmək mümkün olmuşdur.

«İnsan və vətəndaş hüquqlarının və azadlıqlarının təmin edilməsi sahəsində tədbirlər haqqında» Azərbaycan Respublikası Prezidentinin 22 fevral 1998-ci il tarixli Fərmanının yerinə yetirilməsi sahəsində ölkədə geniş tədbirlər hazırlanmış və həyata keçirilmişdir. Bununla bağlı olaraq qadınların şəxsi azadlıq hüququnu qoruyan mükəmməl hüquq sistemi yaradılmış, normativ hüquqi aktların yeni tələblər baxımından hazırlanması və qəbulu təmin olunmuşdur. Hüquq mühafizə sisteminin və məhkəmə hakimiyyətinin tamamilə yenidən qurulması, onların fəaliyyətində qadın hüquqlarının və azadlıqlarının təmin olunması vəzifəsinin önə çəkilməsi, görülmüş kompleks təşkilati hüquqi tədbirlər qadınlara qarşı və qadınlar tərəfindən törədilən qanun pozuntularının azalmasına mühüm təsir göstərmişdir. Profilaktiki tədbirlərin, hüquq maarifçiliyinin gücləndirilməsi qadınların hüquq düşüncəsinin, hüquq təfəkkürünün və hüquq mədəniyyətinin inkişafına əhəmiyyətli təsir göstərmişdir. Bütün ölkə üzrə və hətta hər bir dövlət qurumunun insan hüquqlarının və azadlıqlarının müdafiəsinin təmin olunmasına istiqamətlənmiş tədbirlər sistemi bu mühüm vəzifənin bünüt ölkə üzrə icrasına səfərbərlik səciyyəsi daşımış, monotrinqlərdə, hesabatlarda, məruzələrdə, çıxışlarda bu məsələyə xüsusi önəm verilmişdir.

İnsan hüquqları üzrə müvəkkiliyin və Konstitusiya məhkəməsinin yaradılması və fəaliyyəti bu sahədə irəliyə doğru atılmış mühüm addım kimi qiymətləndirilə bilər. Bu gün vətəndaş cəmiyyətinin müxtəlif təsisatları yeni formalaşmasına baxmayaraq, artıq onlar geniş fəaliyyət göstərməkdədir. Min beş yüzdən çox qeyri-hökumət təşkilatının əllidən çoxu məhz qadın hüquqlarının və azadlıqlarının müdafiəsi sahəsində ardıcıl iş aparılmaqdadır.

«Azərbaycan Respublikasında məhkəmə sisteminin təkmilləşdirilməsi, Azərbaycan Respublikasında bəzi qanunvericilik aktlarının

dəyişdirilməsi və əlavələr edilməsi haqqında Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə» Azərbaycan Respublikası Prezidentinin 19 yanvar 2006-cı il tarixli Fərmanı insan hüquqları üzrə Avropa məhkəməsinin presedentlərinin tətbiqi imkanlarının öyrənilməsini tövsiyyə etmişdir. Bu gün ölkədə insan hüquqlarının və azadlıqlarının müdafiəsini və mühafizəsini etibarlı təmin edən mükəmməl təşkilatı-hüquqi tədbirlər sistemi və mexanizmi yaradılmışdır. Təsadüfi deyil ki, beynəlxalq səviyyəli ekspertlər müstəqillik illərində həyata keçirilmiş bu tədbirlərə yüksək qiymət verirlər. Konkret dövrü əhatə edən milli fəaliyyət proqramlarının hazırlanması və həyata keçirilməsi, bu sahədə əsaslı dəyişikliklərə səbəb olmuşdur.

Bütün bunlara baxmayaraq insan hüquqlarının və azadlıqlarının müdafiəsi vəziyyətini ideal hesab etmək də yalnış olardı. Ayrı-ayrı statistik təhlillər, ümumiləşdirmələr, araşdırmalar, Avropa İnsan Hüquqları Məhkəməsinin qərarları, ölkənin hüquq mühafizə orqanlarının təcrübəsi göstərir ki, işdə müəyyən qüsurlar da vardır. Statistik məlumatların və ümumiləşdirmələrin təhlilləri göstərir ki, müxtəlif əməllərə görə təqsirləndirilən şəxs kimi məsuliyyətə cəlb edilmiş və məhkəməyə verilmiş şəxslər barəsində işlərə açıq məhkəmə iclaslarında, dövlət ittihamçılarının iştirakı ilə baxılarkən, ayrı-ayrı şəxslərə verilmiş ittihamlar məhkəmədə bəzən öz təsdiqini tapmamışdır. Nəticədə ölkə üzrə 2001-ci ildə 19 nəfər, 2002-ci ildə 12 nəfər, 2003-cü ildə 10 nəfər, 2004-cü ildə 5 nəfər, 2005-ci ildə 7 nəfər, 2006-cı ildə 6 nəfər, 2007-ci ildə 8 nəfər, 2008-ci ildə 10 nəfər, 2009-cu ildə 12 nəfər, 2010-cu ildə 20 nəfər, 2011-ci ildə 21 nəfər, 2012-ci ildə 23 nəfər, 2013-cü ildə 22 nəfər, beləliklə cəmi 175 nəfər şəxs barəsində müxtəlif məhkəmələrin hökmləri ilə bəraət hökmü çıxarılmışdır.[1] Müxtəlif ibtidai araşdırma orqanları tərəfindən cinayət məsuliyyətinə cəlb edilmiş ayrı-ayrı şəxslərin və onların müdafiəçilərinin şikayətləri üzrə araşdırmalar aparılaraq 2002-ci ildə 2136 şikayətin 550-si və ya 25.7%-i, 2003-cü ildə 2471 şikayətin 671-i və ya 27.1%-i, 2004-xü ildə 3273 şikayətin 810-u və ya 24.7%-i, 2005-ci ildə 6620 şikayətin 1056-

[1] Azərbaycan Respublikası Statistika Komitəsinin məcmuəsi, Bakı, 2013, s. 12-16

sı və ya 15.9%-i, 2006-cı ildə 5616 şikayətin 1012-si və ya 18.0%-i, 2007-ci ildə 4566 şikayətin 1303-ü və ya 28.5%-i, 2008-ci ildə 5610 şikayətin 1209-u və ya 21.6%-i, 2009-cu ildə 4976 şikayətin 1348-i və ya 27.1%-i, 2010-cu ildə 5447 şikayətin 1318-i və ya 24.2%-i, 2011-ci ildə 11568 şikayətin 2099-u və ya 18.1%, 2012-ci ildə 12587 şikayətin 2291 və ya 18.2%, 2013-cü ildə 12612 şikayətin 2351-i və ya 18.7%-i qanuni və əsaslı olduğu müəyyən edilmiş və şikayətlər mahiyyəti üzrə təmin edilmişdir.[1] Eləcə də aparılan araşdırmalar və zərər çəkmişlərin şikayətləri əsasında müxtəlif istintaq orqanları tərəfindən icraatına xitam verilmiş qərarların qanuniliyi prokurorlar tərəfindən yoxlanılarkən ciddi prosessual qüsurlara yol verildiyi müəyyən edilmiş, nəticədə 2002-ci ildə 216, 2003-cü ildə 262, 2004-cü ildə 250, 2005-ci ildə 323, 2006-cı ildə 233, 2007-ci ildə 238, 2008-ci ildə 81, 2009-cu ildə 59, 2010-cu ildə 41, 2011-ci ildə 93, 2012-ci ildə 74, 2013-cü ildə 81 cinayət işi üzrə icraata xitam verilməsi haqqında müstəntiqlərin qərarları prokurorlar tərəfindən ləğv edilmiş və işlər göstərişlə cinayət təqibi aparmaqdan ötəri yenidən istintaq orqanlarına qaytarılmışdır.[2] Bütün bunlar onu göstərir ki, şəxsin azadlığı və ləyaqəti ilə bağlı qanunsuzluqların aradan qaldırılması üçün müvafiq tədbirlər görülməsinə baxmayaraq, qüsurlar bəzi hallarda da olsa təkrarlanır. Buna görə də son illər bu problem hüquqşünas-alimləri ciddi narahat edir. Bu sahədə bir sıra sanballı tədqiqatların aparılması da fikrimizi tam təsdiq edir.[3] Ölkəmizdə aparılan ardıcıl, sistemli və kompleks hüquq islahatları hüquq-mühafizə və məhkəmə orqanlarının fəaliyyətinin demək olar ki, yenidən daha uğurlu və müasir qaydada formalaşdırılması böyük ümüd yaradır. Bu sahədə həyata keçirilən konfransların, dəyirmi masaların və

---

[1] Azərbaycan Respublikası Statistika Komitəsinin məcmuəsi, Bakı, 2013, s. 12-16

[2] Yenə orada

[3] Bax: A.B.Серебренникова. Уголовно-правовое обеспечение конституционных прав и свобод человека и гражданина по законодательству Российской Федерации и Германии. Москва, 2005; Н.И.Капинус. Процессуальные гарантии прав личности при применении мер пресечения в уголовном процессе. М., 2007; Т.А.Нуркаева. Личные права и свободы и их охрана уголовно-правовыми средствами: вопросы теории и практики. СПб, 2003

başqa tədbirlərin də mühüm əhəmiyyəti olmuş, hüquq maarifçiliyi, hüquqi şüurun səviyyəsi əhəmiyyətli dərəcədə yüksəlmişdir.

Qadın hüquqlarının və azadlıqlarının qanunvericilikdə, aytrı-ayrı normativ hüquqi aktlarda təsbit olunması deklorativ xarakter daşımır, realdır və təminatlıdır. Belə ki, hər kəsin qanunla qadağan olunmayan üsul və vasitələrlə öz hüquqlarını və azadlıqlarını müdafiə etmək hüququnun tanınması Azərbaycan Respublikası Konstitusiyasının 26-cı maddəsində birbaşa nəzərdə tutulmuşdur. Azərbaycan dövləti hər bir qadının hüquqlarının və azadlıqlarının qorunmasına təminat vermişdir. Hüquqlarla və vəzifələrlə bağlı qərarlar qəbul edən dövlət orqanları və dövlət hakimiyyəti səlahiyyətlərinin daşıyıcıları ilə münasibətdə hər kəsin hüquq bərabərliyinə təminat verilməsi, vəzifəli şəxslərin məsuliyyətini daha da artırmış, bu sahədə əldə edilən nailiyyətlər onların hər birinin fəaliyyətinin başlıca meyarına çevrilmişdir.

Konstitusiya qadının insan və vətəndaş olaraq hüquqlarının və azadlıqlarının əsas prinsiplərini dəqiq müəyyən etməklə, hər şeydən əvvəl insanın təbii hüquqlarına əsaslanır. Hər kəsin doğulduğu andan toxunulmaz, pozulmaz və ayrılmaz hüquqları və azadlıqları olduğunu bəyan edən beynəlxalq hüquq normaları və buna müvafiq olaraq hazırlanan milli qanunlar onların müdafiəsi üçün əsas rolunu oynamışdır. Əsas qanunda göstərildiyi kimi təbii hüquqlardan istifadə, yaxud onların realizəsi başqalarının hüquqlarının və azadlıqlarının pozulması ilə müşayət oluna bilməz. Qadın hüquqlarının mükəmməlliyi cəmiyyətdə barışın möhkəmlənməsinə, inkişafın təmin olunmasına, qarşıdurmanın aradan qaldırılmasının əsas rəhnidir. Öz təbiətinə görə onlar konsensualdır və «mənim azadlığım başqalarının azadlığına zərər yetirməməlidir» prinsipinə söykənir. Konstitusiyamızın əsasında və ona müvafiq olaraq qəbul edilən qanunlarımızın təməlində dayanan ümdə prinsip, hər şeydən əvvəl qadının bir ana kimi cəmiyyətdə və dövlət həyatında anadangəlmə ali hüquqları, mənəvi, əxlaqi dəyərləri və insani keyfiyyətləri dayanır.

Konstitusiyanın tələbinə görə insan yaşamaq, azadlıq, şəxsi toxunulmazlıq, təhlükəsiz yaşamaq, mənzil toxunulmazlığı, nikah, əmək, tətil, istirahət, sosial təminat, sağlamlıq, təhsil, mənzil, milli mənsubiy-

yət, şərəf və ləyaqətin müdafiəsi, fikir və söz azadlığı, vicdan azadlığı, seçilmək və seçmək, birləşmək, hüquqi yardım almaq, təqsirsizlik prezumpsiyası, siyasi sığınacaq almaq və digər zəruri hüquqlara və azadlıqlara malik olması ətraflı şəkildə göstərilmişdir. Hər kəsin qanunla qadağan olunmayan üsul və vasitələrlə öz hüquqlarını və azadlıqlarını müdafiə etmək hüququ vardır. Hər bir fərd başqaları və bütövlükdə cəmiyyət, dövlət qarşısında öz məsuliyyətini dərk etməli, digərlərinin hüquqlara və azadlıqlara hörmətlə yanaşmalıdır.

İnsanın şəxsi hüquqları və azadlıqları onun fiziki mövcudluğu və mənəvi inkişaf imkanları ilə sıx bağlıdır. Bu sırada hər bir şəxsin yaşamaq hüququnun toxunulmazlığını və həyatdan qanunsuz məhrumetmənin qadağan edildiyini elan etməklə müəyyən elementləri əhatə edir. Bu mənada ölüm cəzasının ləğv edilməsi, azadlıq hüququnun isə ciddi surətdə qorunması xüsusi qeyd edilməlidir. Qanunvericilik azadlıq hüququnun məhdudlaşdırılmasını ciddi surətdə reqlamentləşdirmişdir. Eyni xüsusatlar şəxsin toxunulmazlıq hüququna, təhlükəsiz yaşamaq hüququna və mənzil hüququna da aiddir. Belə ki, qanunvericilik hər kəsin şəxsi və ailə həyatına müdaxilənin yolverilməzliyini, öz razılığı olmadan onun haqqında məlumatlar toplanmasını qadağan edir. Şəxsin həyatına, fiziki və mənəvi sağlamlığına, mülkiyyətinə, mənzilinə qəsd etmək, ona qarşı zor işlətmək, axtarış aparmaq və ya iradəsinin əleyhinə olaraq mənzilinə daxil olmaq cinayət məsuliyyətinə səbəb olur.

«İnsan hüquqları haqqında Ümumi Bəyannamə»nin 26-cı maddəsində hər bir insanın təhsil almaq hüququ tanınır. Orada göstərilir ki, təhsil ən azı ibtidai və ümumi səviyyələrdə pulsuz və məcburi olmalıdır. Hamının texniki və peşə, habelə hər bir insanın qabiliyyəti əsasında, hamının eyni dərəcədə ali təhsil almaq imkanı olmalıdır. Təhsil insan şəxsiyyətinin tam inkişafına və insan hüquqlarına və əsas azadlıqlara hörmətin artırılmasına yönəldilməlidir. Təhsil bütün xalqlar, irqi və dini qruplar arasında qarşılıqlı anlaşmaya, dözümlülüyə və dostluğa yardımçı olmalı və Birləşmiş Millətlər Təşkilatının sülhün qorunub saxlanması ilə bağlı fəaliyyətinə köməklik göstərməlidir. Valideynlər öz kiçik yaşlı uşaqları üçün təhsil növlərini seçməkdə prioritet

hüquqa malikdirlər.[1] «İqtisadi, sosial və mədəni hüquqlar haqqında» Beynəlxalq Paktın 13-cü maddəsi təhsil hüququnu insan şəxsiyyətinin tam inkişafına və ləyaqətinin dərk olunmasına yönəldilmiş mühüm tədbir kimi qiymətləndirir. Təhsil hüququ hamıya azad cəmiyyətin faydalı iştirakçısı olmaq imkanı kimi dəyərləndirilir. Təhsil hüququnun qadınlara şamil edilməsi cəmiyyətin inkişafının və təkamülünün mühüm vasitəsi kimi dəyərləndirir. Avropa Şurasının sənədlərində qadının təhsil hüququnun qorunması məsələsinin qanunvericilikdə təsbiti və həyata keçirilməsinə yüksək qiymət verilir və dövlətlər üzərinə bu sahədə mühüm vəzifələr qoyulur. Müstəqillik illərində qəbul edilmiş Azərbaycan Respublikasının Konstitutusiyası qadınların təhsil hüququna, yaradıcılıq azadlığına və əqli mülkiyyət hüququnun inkişaf elətdirilməsini olduqca vacib hesab edir. Buna görə də konstitutusiyamızın 42-ci maddəsində hər bir Azərbaycan Respublikası vətəndaşının o cümlədən qadınların və qızların təhsil almaq hüququnu nəzərdə tutmuşdur. Təhsilin inkişafına dövlət tərəfindən nəzarət edilməsi və onun minimum standartlarının müəyyən olunması dövlətin üzərinə mühüm vəzifələr qoyur. Hüquqların və azadlıqların qorunmasında və inkişafında təhsilin müstəsna əhəmiyyəti vardır. İnsana məxsus digər hüquqların və azadlıqların qorunmasında təhsil səviyyəsinin həlledici əhəmiyyəti vardır. Ölkəmizdə 19 iyun 2009-cu ildə qəbul edilmiş «Təhsil haqqında» Azərbaycan Respublikasının Qanunu və onunla bağlı olaraq qəbul edilmiş normativ hüquqi sənədlər ölkəmizdə qadın təhsilinin inkişafı üçün əlverişli imkan və şərait yaratmışdır. Bu gün ölkəmizin təhsil sistemində qadınların rolu kişiləri dəfələrlə üstələmişdir. Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyevanın rəhbərliyi ilə təhsil müəssisələrinin maddi-texniki bazası əhəmiyyətli dərəcədə gücləndirilmişdir. Xaricdə təhsilin dinamik şəkildə inkişafı, inteqrasiya və elmi nailiyyətlərdən yaradıcılıqla istifadə edilməsinə geniş imkankar açmışdır.

Azərbaycan Respublikası Konstitusiyası ailə ilə sıx bağlı olan milli mənsubiyyət hüququna, ana dilindən istifadə etmək hüququna,

[1] Beynəlxalq sənədlər toplusu, I cild, Bakı, 2005, s.56

şərəf və ləyaqətin müdafiəsi hüququna, fikir və söz azadlığına, vicdan azadlığına təminat verir. Hər kəsin dinə qarşı öz münasibətini müstəqil müəyyənləşdirmək hüququ, dini, yaxud əqidəni öz seçiminə müvafiq olaraq müstəqil şəkildə qəbul etmək, dəyişmək, təkbaşına və ya başqaları ilə bir yerdə istənilən dinə etiqad etmək və ya heç bir dinə etiqad etməmək, öz dini baxışlarını açıq şəkildə ifadə etmək, dini mərasimləri azad şəkildə yerinə yetirmək kimi mənəvi və əxlaqi dəyərlərin qorunmasına təminat verilir və bu hüquqların pozulması məsuliyyət yaradır.

Qadınların siyasi hüquqları və azadlıqları onun subyektiv hüquqlarının və azadlıqlarının mühüm tərkib hissəsi olmaqla, qadının dövlətin ictimai-siyasi həyatında və idarə olunmasında iştirak etmək imkanı kimi başa düşülür. Siyasi hüquqlar bütün digər hüquqların həyata keçirilməsinin zəruri şərti olmaqla, demokratiyanın atributu kimi çıxış edir. Dövlətin və onun orqanlarının təşkili və fəaliyyətində nümayəndəli və birbaşa iştirak etmək hüququ qadın hüquqlarının və azadlıqlarının ən mühüm elementlərindən biri hesab olunur. Bu eyni zamanda cəmiyyətin həyatında aktiv iştirak etmək hüququnun tərkib hissəsidir. Burada siyasi hüquqların və azadlıqların məqsədi qadının şəxsi muxtariyyətini təmin etməkdə deyil, siyasi prosesin aktiv iştirakçısı kimi təzahür etməni nəzərdə tutur. Bu da dövlətlə vətəndaş arasında münasibətlərin yaradılmasına və inkişafına xidmət edir. Mahiyyət etibarı ilə siyasi azadlıq şəxsi azadlığın mühüm ünsürlərindən biri kimi insanın şüurlu varlıq olduğunu, onun siyasi şüurun və siyasi iradənin daşıyıcısı, siyasi proseslərdə azad və müstəqil olaraq iştirak etməsi imkanlarını nəzərdə tutur. İnsan və vətəndaşın əsas siyasi hüquqları və azadlıqları milli qanunlarla yanaşı, beynəlxalq hüquq normalarında da özünün ifadəsini tapır və onların həyata keçirilməsi yalnız effektiv mexanizm və prosedurların mövcud olduğu şəraitdə mümkündür. Buna görə də siyasi plüralizm və onun sərvətlərinin ictimai şüur və davranış yolu ilə həyata keçirilməsinin real imkanları müstəsna əhəmiyyət daşıyır. Belə vəziyyətdə siyasi hüquqların və azadlıqların kütləvi ictimai şüur tərəfindən humanist sərvətlər kimi qəbul olunması və icrası müstəsna əhəmiyyətə malikdir. Bununla belə, xalqımızın tarixində elə bir mərhələlər də olmuşdur ki, insanlar, o cümlədən qadınlar siyasi

fəakliyyətlərinə görə ədalətsiz represiyalara, ölüm cəzalarına məhkum edilmişlər.

Ulu Öndər Heydər Əliyevin «Azərbaycan Respublikası ilə Avropa Şurasının əməkdaşlığının dərinləşdirilməsi sahəsində tədbirlər haqqında» 20 yanvar 1998-ci il tarixli Sərəncamı, «İnsan və vətəndaş hüquqlarının və azadlıqlarının təmin edilməsi sahəsində tədbirlər haqqında» 22 fevral 1998-ci il tarixli Fərmanı, eləcə də ölüm hökmünün ləğv edilməsi haqqında qərarı xalqımızın tarixində yadda qalan hadisələrdən olmuşdur. 1993-cü ilin iyun ayından başlayaraq, ölkəmizdə ölüm cəzasının icrasına moratorium qoyulmuş, Şərqdə, eləcə də Azərbaycan tarixində ilk dəfə olaraq ən ağır cəza - ölüm cəzası 10 fevral 1998-ci ildən etibarən ömürlük azadlıqdan məhrum etmə cəzası ilə əvəz edilmişdir. Heydər Əliyevin bununla bağlı olaraq xalqa etdiyi müraciətində deyirdi ki, mən cinayət-hüquq siyasətini hərtərəfli təhlil edərək ədalət, azadlıq, humanizm və insanpərvərlik kimi yüksək ideyalara sadiq qalaraq, ölkəmizdə ölüm cəzasının ləğv edilməsi qənaətinə gəlib, bu barədə müvafiq qərar qəbul edirəm.[1]

Heydər Əliyevin 15 mart 1996-cı il tarixli «Siyasi repressiya qurbanlarına bəraət verilməsi haqqında» Fərmanına müvafiq olaraq görülmüş tədbirlər nəticəsində, Azərbaycan Respublikasında repressiyaya məruz qalmış 79852 nəfərin 25524 nəfəri təmizə çıxarılmış və onlara bəraət verilmişdi. Bunların 27.8%-ni qadınlar təşkil edirdilər.[2] Ulu Öndər Heydər Əliyevin hakimiyyətdə olduğu dövrdə - 1993-2003-cü illərdə qəbul etdiyi amnistiya aktlar əsasında, yüz minə qədər adam, o cümlədən qadın müxtəlif cəzalardan azad edilmiş, öz ailəsinə və doğma əmək kollektivinə qayıtmışdır.[3]

Dövlət həyatında iştirak etmənin mühüm vasitələrindən biri olan seçki hüququ və vətəndaşlıq məsələləri tarixən müəyyən mərhələlərdən keçmişdir. Yeni Zellandiya və Avstraliya qadınlara vətəndaşlıq statusu verən və onların seçicilik hüququnu tanıyan ilk dövlətlərdən olmuşdur. Qadınlar Finlandiyada və Norveçdə 1906-

---

[1] Azərbaycan Respublikası insan hüquqları, Bakı, 1998, s.3-40; 41-95

[2] Əliyev E. Azərbaycanda 21-ci əsrin siyasi represiya qurbanları, Bakı, 2003, s.5-10

[3] «Qanunçuluq» jurnalı, 2008, №11, s.90-95

1907-ci illərdə, Danimarkada 1915-ci ildə, Alaminya, İsveç və Böyük Britaniyada 1918-ci ildə, ABŞ-da 1920-ci ildə, Fransada 1944-cü ildə, İtaliyada 1945-ci ildə, İsveçrədə 1971-ci ildə səsvermə hüququ əldə etmişlər. Azərbaycan Respublikası vətəndaşlarının seçki hüququ öz məzmununa görə seçmək və seçilmək, habelə referendumda iştirak etmək hüququnu əhatə edir. məhkəmənin qərarı ilə fəaliyyət qabiliyyətsizliyi təsdiq olunmuş şəxslərin seçkilərdə və referendumlarda iştirak etmək hüququ yoxdur. Hərbi qulluqçuların, hakimlərin, məmurların, din xadimlərinin, azadlıqdan məhrum edilmiş şəxslərin seçkilərdə iştirak etmək hüququ qanunla məhdudlaşdırıla bilər. Azərbaycan Respublikasının Seçki Məcəlləsi qadınların seçki hüququnun əsas məsələlərini mükəmməl olaraq tənzim etmişdir.[1]

Qadının sosial-iqtisadi və mədəni hüquqları və azadlıqları fərdin sosial-iqtisadi həyat şəraitinin, onun iş və məişətinin, məşğulluq və həyat səviyyəsinin, sosial müdafiəsinin layiqli səviyyədə təmin olunmasının mühüm atributu olmaqla, Azərbaycan Respublikası Konstitusiyasının 12-ci maddəsinə əsasən, həm də dövlətin ali məqsədlərindən biri hesab olunur. Bazar münasibətlərinə keçid, mülkiyyət hüquqlarının qorunması, iqtisadiyyatın inkişafına və dövlətin qüdrətlənməsinə böyük şərait yaratmaqla yanaşı, həm də qadın sahibkarlığının inkişafına şərait yaradır, inhisarçılığa və haqsız rəqabətə yol vermir. Bu da dövlətlə birlikdə qadının öz rifahının yüksəldilməsinə, onun sosial müdafiəsinə və ona layiqli həyat səviyyəsinin təmin olunmasına münbit şərait yaradır. Təsadüfi deyildir ki, dövlət cəmiyyətin özəyi kimi ailənin inkişafına, uşaq hüquqlarının mühafizəsinə təminat verməklə yanaşı, eyni zamanda qadınların təhsilinin, sağlamlığının, layiqli həyat şəraitində yaşamasını, yaradıcılıq imkanlarının genişləndirilməsini, elmi, mədəni, tarixi və mənəvi səviyyəsinin inkişafına xüsusi qayğı göstərir.

Azərbaycan Respublikası Konstitusiyasında göstərildiyi kimi insan hüquqları və azadlıqları ilə bağlı konstitusion hüquq normaları vətən-

---

[1] Azərbaycan Respublikasının Qanunlar Külliyatı, Bakı, 2003, s.78-95; Gender terminlərinin izahlı lüğəti, Bakı, 2005, s.109

daşların əsas vəzifələri ilə nisbətdə bərabər münasibətlərə bərabər mənafelər kimi səciyyələndirilməklə haqqa və ədalətə əsaslanır. Geniş hüquqlar və azadlıqlar verilən Azərbaycan qadını, eyni zamanda müəyyən vəzifələrə də cavabdehdirlər. Bu da dövlət və cəmiyyət qarşısında hər bir şəxsin onun hüquqlarından və azadlıqlarından bilavasitə irəli gələn vəzifələr daşıması ilə sıx bağlıdır. Belə vəzifələr içərisində vətənə sədaqət göstərmək, vətəni müdafiə etmək borcu, dövlət rəzmlərinə hörmət, tarix və mədəniyyət abidələrinin qorunmasında şəxsi məsuliyyət, ətraf mühitin qorunmasını öz borcu hesab etmək, Konstitusiya və qanunlara zidd vəzifələrin icrasına məcbur edilə bilməzlik, vergilərin və başqa dövlət ödənişlərinin tam həcmdə və vaxtında ödənilməsini təmin etmək kimi vəzifələr mühüm əhəmiyyət kəsb edir.

Azərbaycan Respublikasının hər bir vətəndaşı kimi hər bir qadın da ölkəmizin Konstitusiyasına və qanunlarına əməl etmək, başqa şəxslərin hüquqlarına və azadlıqlarına hörmət bəsləmək, qanunla müəyyən eidlmiş digər vəzifələri yerinə yetirmək vəzifəsi daşıyır.

Qeyd edilməsi zəruridir ki, qadın hüquqlarının və azadlıqlarının müdafiəsi, qorunması vətəndaşların əsas vəzifələrinin icrası qanunvericilikdə nəzərdə tutulmuş qaydada və əsaslarda ciddi surətdə mühafizə edilir. Məhz bu nöqteyi-nəzərdən Azərbaycan Respublikasının qanunvericiliyi - İnzibati və Cinayət Məcəlləsi, Vergi və Mülki Məcəllə, digər məcəllələr vətəndaş vəzifələrinin yerinə yetirilməməsinə, sui-istifadə hallarına yolverməyə görə müəyyən məsuliyyət nəzərdə tutur. Məsələn, həddi-buluğa çatmış Azərbaycan Respublikasının vətəndaşı yaşı çatdığı və sağlamlığı imkan verdiyi hallarda Azərbaycan Respublikasının Silahlı Qüvvələrində hərbi xidmət keçməlidir. Qanuni əsas olmadan hərbi xidmətdən yayınmaq üçün növbəti hərbi çağırışdan və ya səfərbərlik üzrə çağırışdan boyun qaçırılması şəxsin Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 321-ci maddəsində nəzərdə tutulan məsuliyyəti daşımasına əsas verir. Lakin belə əməllərə görə məsuliyyəti daha çox kişilər daşıdığı halda Vətənin müdafiəsi vəzifəsi eyni zamanda, qanunvericilikdə nəzərdə tutulmuş xüsusi hallarda qadınlara da aiddir.

Azərbaycan Respublikasının Dövlət bayrağı və ya Azərbaycan Respublikasının Dövlət gerbi barədə təhqiredici hərəkətlərə yol verilməsi Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 324-cü maddəsində nəzərdə tutulan məsuliyyəti yaradır. Belə faktların sayını artırmaq da olar. Lakin məsələnin mahiyyəti ondan ibarətdir ki, qanunla qorunan qadın hüquqlarının və azadlıqlarının pozulması məsuliyyət yaratdığı kimi, Azərbaycan Respublikası Konstitusiyası ilə müəyyən edilmiş vətəndaşların əsas vəzifələrinin icra edilməməsi də məsuliyyət yaradır. Bütün bunlar onu göstərir ki, qadın hüquqları və azadlıqları ilə, habelə onların vəzifələri ilə bağlı normalar deklarativ xarakter daşımır və müəyyən qanunlarla onların mühafizəsinə və müdafiəsinə təminat verilir.

Azərbaycan Respublikasında qadın hüquqlarının və azadlıqlarının təşəkkülü və inkişafı bir institut kimi, bir fenomen kimi tarixi baxımdan müstəqillik illərində son dərəcə aktuallıq kəsb etməklə, bu sahədə mühüm uğurlar əldə edilmişdir. Son illər beynəlxalq təşkilatlar tərəfindən aparılan monitorinqlər, tədqim edilən hesabatlar, məruzələr və məlumatlar belə inam yaradır ki, ölkəmizdə qadın hüquqlarının və azadlıqlarının daha da təkmilləşdirilməsi və müdafiə mexanizmlərinin fəaliyyətinin səmərəliliyi daha da artırılmalıdır.

Azərbaycan qadını heç bir halda din, vicdan, fikir və əqidəsini açıqlamağa məcbur edilə bilməz və bundan imtinaya görə təqsirləndirilə bilməz. Azərbaycan Respublikası Konstitusiyanın heç bir müddəasının qadına münasibətdə insan və vətəndaş hüquqlarının və azadlıqlarının ləğvinə yönəlmiş müddəa kimi təfsir edilməsi yolverilməz hesab olunur, çünki qadına münasibətdə insan və vətəndaş hüquqları və azadlıqları Azərbaycan Respublikası ərazisində birbaşa hüquqi qüvvəyə malikdir. Heç bir qadın törədildiyi zaman hüquq pozuntusu sayılmayan əmələ görə məsuliyyətə cəlb edilə bilməz. Hüquq pozuntusu törədildikdən sonra yeni qanunla bu cür hərəkətlərə görə məsuliyyət aradan qaldırılmışsa və ya yüngülləşdirilmişsə, yeni qanun tətbiq edilməsi nəzərdə tutulur. Bununla belə qadın, hüquqi baxımdan dövlət prinsiplərinə müvafiq olaraq, qanunla qadağan olunmayan hərəkətləri

etmək hüququna da malikdir. Heç bir qadın qanunla nəzərdə tutulmayan hərəkətləri etməyə məcbur edilə bilməz.

Təhlillər göstərir ki, bəşəriyyət tarixində qadın hüquqları uğrunda mübarizə sahəsində ardıcıl, sistemli və gərgin mübarizə aparılmışdır. Bu sahədə II Dünya müharibəsindən sonra müəyyən dönüş əldə etmək mümkün olmuşdur. Beynəlxalq səviyyədə xüsusi ilə ABŞ, Böyük Britaniya, Fransa, keçmiş SSRİ və başqa ölkələrdə qadınların milli təşkilatları, «Azadlıq uğrunda hərəkat», «Beynəlxalq feminist təşkilatların birləşmiş daimi Komitəsi», «Beynəlxalq qadın təşkilatlarının əlaqə Komitəsi», BMT-nin «Qadınların statusu üzrə Komissiyası» və sair bu kimi təşkilatlar yaradılmış və müasir günlərimizdə belə təşkilatların sayı daha da artmışdır. Ümumiyyətlə, aparılan qətiyyətli və ardıcıl mübarizə nəticəsində əsasən 20-ci əsrin əvvəllərindən başlayaraq dünyanın müxtəlif ölkələrində qadınlara seçki hüququ verildi. Azərbaycan qadınlarına isə belə bir hüquq Demokratik Cümhuriyyət tərəfindən verilmiş, qadınların və kişilərin bərabərlik hüququ tanınmışdır. Sonralar SSRİ-nin və Azərbaycan SSR-nin müxtəlif qanunvericlik aktlarında qadınların və kişilərin hüquq bərabərliyi tanınmış, onlara seçmək və seçilmək hüququ verilmişdir. Azərbaycan Respublikası Konstitusiyasının 54-cü maddəsində cəmiyyətin və dövlətin siyasi həyatında iştirak hüququ, 55-ci maddəsində dövlətin idarə olunmasında iştirak etmək hüququ, 56-cı maddəsində seçki hüququ kişilərlə bərabər şəraitdə, həm də qadınlara verilmişdir.

Beynəlxalq Konvensiyalara, müvafiq olaraq Azərbaycan Respublikasında qadınlar üçün zəruri hesab edilən başqa hüquqlar və azadlıqlar da verilmiş və bütün bunlar konstitusiyada təsbit olunmuşdur. Belə ki, konstitusiyamızın 35-ci maddəsində əmək hüququ, 36-cı maddəsində tətil hüququ, 37-ci maddəsində istirahət hüququ, 38-ci maddəsində sosial təminat hüququ, 40-cı maddəsində mədəniyyət hüququ, 42-ci maddəsində təhsil hüququ, 48-ci maddəsində vicdan azadlığı, 51-ci maddəsində yaradıcılıq azadlığı və sair bu kimi hüquqlar bütün Azərbaycan Respublikasının vətəndaşlarına aid olduğu kimi Azərbaycan qadınlarına da şamil edilmişdir.

Son illər insan hüquqlarının və azadlıqlarının, o cümlədən qadın hüquqlarının tənzimlənməsi sahəsində sistemli olaraq normativ hüquqi aktlar hazırlanıb qəbul edilmişdir. 1998-ci ildə, 2006-cı ildə və 2011-ci ildə «İnsan hüquqlarının və azadlıqlarının müdafiəsi üzrə üç milli fəaliyyət Proqramı»nın qəbul edilməsi mühüm irəliləyişə səbəb olmuşdur.[1] Eləcə də, «Təhqiqat, ibtidai istintaq, prokurorluq və məhkəmə orqanlarının qanunsuz hərəkətləri nəticəsində fiziki şəxslərə vurulmuş ziyanın ödənilməsi haqqında» 29 dekabr 1998-ci il tarixli Qanunu, «Vətəndaşların hüquqlarını və azadlıqlarını pozan qərar və hərəkətlərdən (hərəkətsizlikdən) məhkəməyə şikayət edilməsi haqqında» 11 iyun 1999-cu il Qanunu, «Azərbaycan Respublikasında insan hüquqlarının və azadlıqlarının həyata keçirilməsinin tənzimlənməsi haqqında» 24 dekabr 2002-ci il tarixli Qanunu, «Gender (kişi və qadınların) bərabərliyinin təminatları haqqında» 10 oktyabr 2006-cı il tarixli Qanunu, «Həbs yerlərində saxlanılan şəxslərin hüquqlarının və azadlıqlarının təmin edilməsi haqqında» 22 may 2012-ci il tarixli Qanunu, «Məişət zorakılığının qarşısının alınması haqqında» 22 iyun 2012-ci il tarixli Qanunu və sairə bu kimi normativ hüquqi aktlar, eyni zamanda qadın hüquqlarının tənzimlənməsi və qorunması sahəsində mühüm dəyişikliklərə səbəb olmuşdur. Ölkənin Ailə, qadın və uşaq problemləri üzrə Dövlət Komitəsi qadın hüquqlarının mühafizəsi sahəsində sistemli tədbirlər həyata keçirməkdədir. Dövlət və cəmiyyə həyatında beynəlxalq standartlara cavab verən əsaslı dəyişikliklər aparılmış və qadınların rolu əhəmiyyətli dərəcədə artırılmışdır.[2]

---

[1] American Journal of International Law ( далее- AJIL). 1972. April. Vol. 66. No.2

[2] Bax ətraflı: Права человека в России: декларации, нормы и жизнь. Государство и право, 2000, №3, с.37-50; Идеалы всеобщей декларации прав человека и современный мир, Государство и право, 1999, №11, с.95-99; Козулин А.И. Об источниках прав человека, 1994 Научные сообщения; Петрухин И.Л. Частная жизнь (Правовые аспекты), Государство и право, 1999, №1, с.64-73; Петрухин И.Л. Человек как социально-правовая ценность, Государство и право, 1999, №10, с.83-90; Крусс В.И. Личностные («Соматические») права человека в конституционном и философско-правовом измерении: к постановке проблемы, Государство и право, 2000, №10, с.43-50; Авдеенкова М.П., Дмитриев Ю.А. Право на физическую свободу, Государство и право, 2012, №3, с.13-22; Ми-

Beləliklə, nəzəri təlimlərin tədqiqi və təcrübədə formalaşan ənənələrin öyrənilməsi göstərir ki, Azərbaycanda qurulan hüquqi dövlətin fəaliyyətinin əsasında dayanan mühüm məsələlərdən biri də qadın hüquqlarının və azadlıqlarının həyatda real olaraq təmin olunmasına xidmət edir. Buna görə də ölkəmizdə müstəqillik illərində azadlığın, ədalətin və barışın əsasını təşkil edən qadın ləyaqəti, mənəviyyatı, əxlaqı, dəyəri, ruhu, analıq zirvəsi bir qayda olaraq hüquqi dövlətdə qanunlar vasitəsilə etiraf edilmiş, normativ hüquqi aktlarda təsbit olunmuş, qadınlarımıza sosial mənşəli ehtiyaclardan, qorxudan və vahimədən azad olunmuş bir şəraitdə, mühitdə yaşamaq imkanı yaradılmışdır. Bu da onunla bağlıdır ki, qadının öz iqtisadi, sosial, mədəni, mülki və siyasi hüquqlarından lazımı qədər bəhrələnməsinə zəruri şəraitin yaradılması, bu hüquqların və azadlıqların qadınlar üçün təmin edilməsinin əsasında dayanır. Ölkəmizdə qadın hüquqları fərdin özünə məxsusluğu, bütövlüyü və azadlığı ilə sıx bağlı olmaqla, əslində onun həyatının rifa-

---

ролюбова С.Ю. Право граждан на выбор места жительства: содержание и перспективы развития, Государство и право, 2012, №12, с.13-21; Информационно-аналитические материалы и предложения по вопросу «о мерах по защите прав граждан Российской Федерации в государствах – участниках СНГ и странах Балтии», Государство и право, 2005, №6, с.20-29; Чухвичев Д.В. Свобода личности и юридическая ответственность Государство и право, 2005, №3, с.103-108; Принципы, пределы, основания Ограничения прав и свобод человека по Российскому законодательству и международному праву, Государство и право, 1998, №8, с.39-70;№ 10, с.45-62; Идеалы всеобщей декларации прав человека и современный мир, Государство и право, 1999, №11, с.95-99; Бернхардт Р., Европейский суд по правам человека Страсбурге:новый этап, новые проблемы, Государство и право, 1999, №7, с.57-62; Обсуждение проблем народовластия и прав человека в Российской Академии Правосудия, Государство и право, 2012, №12, с.106-114; Нудненко Л.А. Функции конституционных прав и свобод личности в контексте взаимодействия гражданского общества и правового государства, Государство и право, 2012, №2, с.33-41; Лунеев В.В. Свобода лучше, чем несвобода, Государство и право, 2012, № 9, с.13-21; Варламова Н.В. Юрисдикция государства как основание ответственности за обеспечение прав и свобод человека (практика европейского суда по правам человека, Государство и право, 2007, №11, с.33-39

hına və xoşbəxliyinə xidmət edir. Buna görə də qadının azadlığı və bu azadlığın tərkib hissəsi olan məsuliyyət, müstəqilliyin və sabitliyin bərqərar edilməsi mühiti, məhz hüquqi dövlətdə mümkün olduğundan bu imkanlardan geniş istifadə edilmişdir. Qadın hüquqlarının fəlsəfi və siyasi mahiyyəti, onun varlığının əsasında dayanmaqla, Azərbaycan Respublikasında bir fərd olaraq qadının azadlığından bəhrələnir. Qadın ləyaqəti, ləyaqətin mahiyyətinin əsasını təşkil edən azadlıq, bərabərlik və ədalət olmadan, millətimizin, xalqımızın və qadınlarımızın xoşbəxtliyindən, ölkəmizdə hüquqi dövlətin qurulmasından danışmaq lüsuzsuz olardı. Bunlar isə dövlətdə, qadının cəmiyyətə verdiyi ilə ondan aldığı dəyərlər arasında müvafiq balansın gözlənilməsində özünü təcəssüm etdirir. Bu mənada qurduğumuz hüquqi dövlət, həm də ədalətli dövlət hesab olunur. Müasir dünyamızda qadın hüquqlarının və azadlıqlarının artıq lokal deyil, bəşəri mahiyyət daşıdığını və beynəlxalq bir problemə çevrildiyini nəzərə alsaq, onda Azərbaycan Respublikasında müstəqillik illərində qadın hüquqlarına və azadlıqlarına verilən diqqətin və qayğının səbəblərini başa düşmək olar.

# V FƏSİL

## QADIN HÜQUQLARININ VƏ AZADLIQLARININ MÜDAFIƏSI MƏSƏLƏLƏRİ[1]

Qadın hüquqlarının və azadlıqlarının təmin olunması sahəsində beynəlxalq, regional və milli səviyyədə fəaliyyət göstərən qurumların üzərinə mühüm vəzifələr düşür. Bu fəaliyyət olduqca geniş, zəngin və məsuliyyətli tədbirlər sistemini özündə birləşdirir. Konstitusiyada və ona müvafiq olan normativ hüquqi aktlarda qadının hüquqlarının və azadlıqlarının ifadəsi nə qədər mükəmməl olsa da, lakin bu hüquqların təcrübədə həyata keçirilməsi və təmin olunması daha mühüm və əhəmiyyətli mahiyyət daşıyır. Müdafiə və mühafizə fəaliyyəti ilə məşğul olan qurumlar qanunların tətbiqi prosesində çox vaxt onların boşluqlarını, qüsurlarını görür və bu barədə müəyyən təşəbbüslərlə çıxışlar edirlər. Bu mənada qadın hüquqlarının və azadlıqlarının təmin olunması sahəsində beynəlxalq, regional və milli müdafiə mexanizmləri ilə yanaşı, eyni zamanda milli dövlətlərin qabaqcıl fikir adamlarının, hüquq müdafiəçilərinin, qeyri-hökumət təşkilatlarının, bir sözlə, bütün ölkə vətəndaşlarının səyinin bu istiqamətə yönəldilməsi vacib və əhəmiyyətlidir. Bu fəaliyyət hər bir ölkənin, hər bir xalqın sağlam gələcəyi, ədalətli və insanpərvər cəmiyyət quruculuğu üçün önəmlidir. Buna

[1] Bax ətraflı: Игитова И.В. Механизм реализации европейской Конвенции «О защите прав человека и основных свобод», Государство и право, 1997, №1, с.76-82; Поленина С.В. Правовой механизм решения гендерных проблем в современной России. Государство и право, 2012, №10, с.5-11; Брусницын Л.В. Полномочия должностных лиц по обеспечению безопасности граждан, содействующих уголовному правосудию, Государство и право, 2012, №9, с.52-64; Правовое обеспечение безопасности человека (материалы научной конференции), Государство и право, 1999, №7, с.107-121; Киричёк Е.В. Теоретические аспекты модернизации организационно-правового механизма обеспечения конституционных прав и свобод человека и гражданина в Российской Федерации, Государство и право, 2013, №11, с.69-72; Колосова Н.М. Конституционная ответственность - самостоятельный вид юридической ответственности, Государство и право, 1997, №2, с.86-91

görə də Azərbaycanda qadın hüquqlarının və azadlıqlarının müdafiəsi sahəsində müstəqillik illərində səmərəli tədbirlər həyata keçirilmişdir. Müasir dövrdə insan hüquqlarının və azadlıqlarının mühüm sahələrindən biri olan qadın hüquqlarının qorunmasına, müdafiəsinə və mühafizəsinə beynəlxalq və konstitusiya hüquq elmləri nəzəri baxımdan xüsusi önəm verir. Azərbaycan dilinin izahlı lüğətində göstərildiyi kimi «mühafizə» nəyinsə və ya kiminsə hücumdan, təhlükədən, zərbədən, qəsdən xüsusi vasitələrlə qorunması və saxlanılması vəziyyətini ifadə edirsə, «müdafiə» sözü nəyinsə və ya kiminsə mövcudluğunun, bütövlüyünün, vəhdətinin gözlənilən hücumdan qorunması, hücuma qarşı durması və dayanması vəziyyətini özündə əks etdirir. Oxşar sözlər olsa da, lakin əslində mahiyyət etibarı ilə «müdafiə» dedikdə, nəyinsə və ya kiminsə mövcudluğunun, bütövlüyünün və tamlığının qorunması və saxlanması vəziyyəti başa düşülür.[1] Bu mənada qadın hüquqlarının və azadlıqlarının müdafiəsi məsələsi onun kompleks şəkildə tamlığının, bütövlüyünün təmin olunmasına xidmət edən mükəmməl bir mexanizmi özündə ehtiva edir. Bu vəzifə insanla, qadınla sıx bağlı olduğuna görə onun həyata keçirilməsi və bu vəziyyətə dair statusun bütövlüyünün təmin olunması müstəsna dəyərə malikdir. Təsadüfi deyil ki, qadın hüquqlarının və azadlıqlarının müdafiəsi beynəlxalq və konstitusiya hüququnun ən mühüm prioritetlərindən hesab olunur və bu sahədə mükəmməl mexanizmlər mövcuddur. Mahiyyət isə qadın hüquqlarının və azadlıqlarının təmin olunmasına, əgər bu müdafiənin elementləri pozulmuşdursa, belə vəziyyətlərdə onların bərpa olunmasını və ya əvvəlki vəziyyətə qaytarılmasını təmin etməyə xidmət edir. Son illər bu işə müxtəlif səviyyəli qeyri-hökumət təşkilatları da qoşulmuşlar. Onların fəaliyyəti haqqında müəyyən müsbət və dəyərli fikirlər mövcuddur. Buna baxmayaraq hər bir dövlət öz konstitusiyasına müvafiq olaraq qadın hüquqlarının və azadlıqlarının təmin olunması sahəsində üzərinə götürdükləri beynəlxalq öhdəliklərə mütənasib olaraq səmərəli tədbirlər görməyə borcludurlar. Beynəlxalq qurumlarda bu məqsədlərlə müvafiq strukturlar fəaliyyət göstərirlər. İstər beynəlxalq və istərsə də

[1] Axundov A. Azərbaycan dilinin izahlı lüğəti, Bakı, 2005, s.268-269

milli səviyyədə qadın hüquqlarının və azadlıqlarının qorunmasını təmin edən hər bir orqanın statusu - onun barəsində mövcud olan Əsasnamədə, Konvensiyada, müqavilədə, paktda, sazişdə, Konstitusiyada - bir sözlə normativ hüquqi səciyyə daşıyan müxtəlif sənədlərdə öz ifadəsini tapır. Hər bir qurumun statusu - hüquqları, vəzifələri, məsuliyyəti, fəaliyyət mexanizmləri, gördüyü tədbirlərin dairəsi, sistemi, üsulları və vasitələri müvafiq normativ aktlarda təsbit edilir. Nəzərə alsa ki, qadın hüquqlarının və azadlqlarının təmin olunmasına, onların icraasına nəzarər edən, onları müdafil və mühafizə edən qurumların sayı həddindən çoxdur, ondan belə təşkilatların yalnız bəziləri haqqında söz açmaq məqsədəmüvafiq hesab edilməlidir. Belə ki, istənilən şəxs, istənilən qurumun fəaliyyətini tənzim edən normativ hüquqi akta diqqət yetirməklə, bu təşkilatın hüquqları, vəzifələri, səlahiyyətləri, fəaliyyət mexanizmləri, qadın hüquqlarına əməl edilməməsi və ya bu hüquqların pozulmasına görə görüləcək tədbirlərin sistemi haqqında ətraflı məlumatlar almaq imkanına malikdir. Bu sahədə hüquq maarifçiliyi istiqamətində həyata keçirilən tədbirlər kifayət qədər geniş, əhatəli və səmərəli nəticələri ilə son illər diqqəti cəlb edir. Bütün bunlar onu göstərir ki, beynəlxalq və milli səviyyədə qadın hüquqlarının və azadlıqlarının müdafiəsi işi artıq özünün yetkinlik mərhələsini yaşamaqdadır. Bu işin əsas ağırlığı milli hökumətlərin üzərinə düşür. Azərbaycan Respublikasında qadın hüquqları və azadlıqları konstitusiyada mükəmməl ifadə olunmuş, müstəqillik illərində bu istiqamətdə uğurlu tədbirlər həyata keçirilmiş və zəruri təsisatlar yaradılmışdır. Azərbaycan qadın hüquqları sahəsində beynəlxalq birlik qarşısında üzərinə götürdüyü öhdəlikləri yerinə yetirməkdədir. Bu tədbirlər bu gündə davam etdirilir.

Qadın hüquqları sahəsində ən vacib məsələlərdən biri müxtəlif səviyyəli normativ hüquqi aktlarda qadın hüquqlarının və azadlıqlarının ifadə olunması - təsbit olunması məsələsidirsə, digər vacib məsələ bu hüquqlara və azadlıqlara müxtəlif səviyyələrdə əməl edilməsinin təmin olunması vəzifəsidir. Üçüncü vacib məsələ isə qadın hüquqlarının və azadlıqlarının pozulması zamanı beynəlxalq, regional və milli səviyyələrdə mövcud olan mexanizmlərdən istifadə etməklə pozulmuş hüquqların bərpasını təmin etməyə xidmət edir. Bu kompleks vəzifənin

icrası milli dövlətlərin üzərinə daha məsuliyyətli vəzifələr qoyur. Beynəlxalq müqavilələrə qoşulan və ya onu ratifikasiya edən dövlətlər öz üzərinə müvafiq öhdəliklər götürürlər. Beynəlxalq hüququn tələblərinə görə hər bir ölkə öz konstitusiyasına və normativ hüquqi aktlarına müvafiq olaraq, qadın hüquqları sahəsində üzərinə götürdükləri öhdəlikləri yerinə yetirməyə borcludur. Bu isə üç başlıca elementi özündə ehtiva edir. İnsan hüquqlarına dair beynəlxalq sazişlərə tərəfdar çıxmaqla dövlətlər üç geniş öhdəliyə: hörmət etmək, qorumaq və yerinə yetirmək öhdəliyinə riayət etməyə borcludur. Monitorinqlərin, yoxlamaların, təhlillərin, məhkəmə baxışlarının, dinləmələrin, görülmüş tədbirlərin, daimi nəzarətin nəticələri bu sahədə Azərbaycan Respublikasında mühüm tədbirlərin həyata keçirildiyini təsdiq etsə də, bu öhdəliklər və vəzifələr arasında müəyyən tarazlığın müvafiq hüquqlara mütənasib olaraq dəyişə biləcəyi ilə yanaşı, onlar mahiyyət etibarı ilə bütün mülki və siyasi hüquqlara, bütün iqtisadi, sosial və mədəni hüquqlara münasibətdə dəqiq tətbiq olunmanı tələb edir. Bu həm də ondan irəli gəlir ki, hüquqların və azadlıqların hər biri digərləri ilə sıx bağlı və əlaqədardır. Bu baxımdan hər bir dövlət səmərəli müdafiə vasitələrini seçməkdə haqlıdır. Beynəlxalq hüququn tələblərinə görə «hörmət etmək öhdəliyi» dedikdə dövlətin müdaxilə etmək imkanlarından çəkinməsi, bu hüquqların həyata keçirilməsini sarsıda biləcək hökumətlərin müəyyən hərəkətlərinin qadağan olunması fəaliyyəti başa düşülür. «Qorumaq öhdəliyi» isə dövlətləri şəxslərin qeyri-dövlət subyektləri tərəfindən müxtəlif sui-istifadə hallarından qorunması vəziyyətini ehtiva edir. Eləcə də, dövlətlər öz üzərilərinə götürdükləri öhdəliklərə müvafiq olaraq elə tədbirlər kompleksi hazırlayıb həyata keçirməyə borcludurlar ki, bu zaman qadın hüquqlarının ideala yaxın səviyyədə həyata keçirilməsini təmin edilmiş olsunlar.[1]

Keçən əsrdə baş verən iki dünya müharibəsi bəşəriyyətə misilsiz maddi və mənəvi zərərlər vurmuş, qadın hüquqlarının və azadlıqlarının

[1] İnsan hüquqları, Bakı, "Şirvannəşr", 2005, s.470-531; Mehdiyev F. Nəzəriyyə və təcrübədə insan hüquqları, Bakı, 2013, s.30-32, 296-306;Əliyev Ə. İnsan hüquqları, Bakı, 2013, s.217-222; Məmmədov R., İsmayılova Ə., Hacıyev C. Qanunun aliliyi və insan hüquqlarının müdafiəsi mexanizmləri, Bakı, 2009, s. 183-189, 184, 342-381

kütləvi və ən qəddar formalarda pozulmasına, sülh və insanlıq əleyhinə, eləcə də müharibə cinayətləri kimi ən ağır kriminal əməllərin baş verməsi ilə nəticələnmişdir. Bu səbəbdən də dünya birliyinin aparıcı dövlətləri əvvəlcə Millətlər Cəmiyyətinin, sonra isə Birləşmiş Millətlər Təşkilatının yaradılmasını zəruri hesab etmiş və bu təşkilatlardan insan hüquqlarının qorunması sahəsində istifadə etmə imkanlarını nəzərdə tutmuşlar. Buna görə də BMT-nin Nizamnaməsində, bu təşkilatın beynəlxalq sülhü və təhlükəsizliyi qoruyub saxlamaq, sülhə qarşı yaranmış təhlükəni aradan qaldırmaq, mübahisə və münaqişələrin dinc vasitələrlə, ədalətli və beynəlxalq hüququn prinsiplərinə uyğun olaraq nizamlanmasını, insanın və vətəndaşın hüquqlarının və azadlıqlarının qorunmasını təmin etmək, millətlər və xalqlar arasında dostluq və əməkdaşlıq münasibətlərini inkişaf etdirmək, irqinə, cinsinə, dilinə, dininə və digər mənsubiyyətinə görə heç bir fərq qoyulmadan bütün insanların əsas hüquqlarına və azadlıqlarına hörmətin dəstəklənməsində və həvəsləndirilməsində beynəlxalq əməkdaşlığa nail olmaq və sair... bu kimi qlobal məqsədlər naminə yaradılmışdır.[1]

Hüquq ədəbiyyatında haqlı olaraq qeyd edildiyi kimi, müasir beynəlxalq təşkilatların fəaliyyətində, son illər səlahiyyətlərinin genişləndirilməsi, strukturlarının təkmilləşdirilməsi və daha da mürəkkəbləşdirilməsi tendensiyası müşahidə edilməkdədir.[2] Hazırda dünyada fəaliyyət göstərən dörd mindən çox beynəlxalq, üç yüzdən çox hökumətlərarası təşkilatın qarşılıqlı əlaqələri və əməkdaşlığının əsasında Birləşmiş Millətlər Təşkilatı aparıcı bir qurum kimi dayanır. Məhz buna görə də beynəlxalq təşkilatlar sistemində yeni-yeni strukturların, müştərək orqanların və qurumların fəaliyyətinin əlaqələndirməsinə və təkmilləşdirilməsinə diqqət artmaqdadır. Beynəlxalq hüquqda «beynəlxalq təşkilat» termini dedikdə, adətən dövlətlərarası və hökumətlərarası qurumlar nəzərdə tutulur. Bu təşkilatların hüququ statusu, hüquqları və vəzifələri, fəaliyyət mexanizmləri, üzvülüyü, qərar qəbul etmə qaydaları, ərazi yuris-

---

[1] Beynəlxalq sənədlər toplusu, Bakı, I cild, 2005, s. 7-34

[2] Крылов Н.Б. Правотворческая деятельность международных организаций. М., 1998. с.81

diksiyası və digər elementləri biri-birindən müəyyən cəhətlərinə görə fərqlənsə də, lakin onların hər biri beynəlxalq miqyasda, dövlətlərarası səviyyədə, bu və ya digər problemlərin həllinə kömək etmək kimi şərəfli bir missiya həyata keçirir, üzv dövlətlərin mənafelərinin həllinə çalışır. Dövlətlərarası təşkilatlar, dövlətlərin üzvlüyü, beynəlxalq təsis müqavilələrinin mövcudluğu, daimi orqanlarının olması, üzv dövlətlərin suverenliyinə hörmət edilməsi və s. bu kimi prinsiplərə önəm verirlər. Bu əlamətləri nəzərə almaqla təsdiq etmək olar ki, beynəlxalq hökumətlərarası təşkilatlar ümumi məqsədlərə nail olmaq üçün beynəlxalq müqavilənin əsasında təsis edilmiş, daimi orqanları olan və üzv dövlətlərin ümumi mənafeləri naminə fəaliyyət göstərən dövlətlər birliyi hesab olunurlar. Belə təşkilatlar beynəlxalq ümumi hüququn subyektləri qismində çıxış edirlər. Beynəlxalq qeyri-hökumət təşkilatlarının başlıca əlaməti isə onların dövlətlərarası müqavilənin əsasında yaradılması, fiziki və ya hüquqi şəxsləri birləşdirməsində ifadə olunur. Beynəlxalq hüquq Assosiasiyası, Qırmızı Xaç və Qırmızı Aypara Cəmiyyətlərinin Beynəlxalq Federasiyası, Elmi İşçilərin Ümumdünya Federasiyası və s. bu kimi qurumlar buna misal ola bilər. Beynəlxalq təşkilatların təsnifatı üçün müxtəlif meyarlardan istifadə oluna bilər. Üzvlüyün xarakterinə görə onlar dövlətlərarası təşkilatlara və qeyri-hökumət təşkilatlarına bölünürlər. İştirakçıların dairəsinə görə dövlətlərarası təşkilatlar universal təşkilatlar hesab edilirlər. Dünyanın bütün ölkələri üçün açıq təşkilatlara misal olaraq Birləşmiş Millətlər Təşkilatını və onun ixtisaslaşdırılmış qurumlarını nümunə göstərmək olar. Regional təşkilatlar isə müəyyən regionun və ya regionda yerləşən bir neçə dövlətin ərazisində fəaliyyət göstərən qurumlardır. Regional beynəlxalq təşkilatlara yalnız bu regiona daxil olan dövlətlər üzv ola bilərlər. Buna misal olaraq Afrika Birliyi Təşkilatını, Amerika Dövlətləri Təşkilatını və s. göstərmək olar. Dövlətlərarası təşkilatlar həmçinin ümumi və xüsusi səlahiyyətli təşkilatlara bölünürlər. Ümumi səlahiyyətə malik olan beynəlxalq təşkilatın fəaliyyəti, üzv dövlətlər arasındakı münasibətlərin bütün sahələrini – iqtisadi, siyasi, sosial, mədəni və

s. sahələri əhatə edirlər. Xüsusi səlahiyyətə malik olan beynəlxalq təşkilatlar bir xüsusi sahə üzrə əməkdaşlıqla kifayətlənirlər. Bəzən buna sahəvi təşkilatlar da deyilir. Məsələn, Ümumdünya Poçt İttifaqı və Beynəlxalq Əmək Təşkilatı adından göründüyü kimi poçt xidmətləri üzrə dünya dövlətlərini özündə birləşdirir. Bundan başqa sosial, iqtisadi, siyasi, mədəni, elmi, dini, idman və s. sahələrdə də belə birliklər, ittifaqlar, assosiasiyalar fəaliyyət göstərirlər.[1]

Səlahiyyətlərinin xarakterinə görə təsnifat aparsaq, onda dövlətlərarası, millətlərarası, dinlərarası, mədəniyyətlərarası və s. bu kimi beynəlxalq təşkilatları fərqləndirmək olar. Beynəlxalq təşkilatların böyük əksəriyyəti birinci qrupa aiddir. Bu təşkilatların yaradılmasında əsas məqsəd dövlətlərarası əməkdaşlığı təşkil etməkdən, dövlətüstü təşkilatın yaradılmasından, məqsəd isə inteqrasiyanın inkişaf etdirilməsindən ibarətdir. Bu təşkilatların qərarları birbaşa üzv dövlətlərin vətəndaşlarına və hüquqi şəxslərinə şamil edilir. Beynəlxalq quruma üzv olma qaydasından asılı olaraq beynəlxalq təşkilatlar açıq və qapalı beynəlxalq təşkilatlar kimi növlərə ayrılırlar. Adının mənasından göründüyü kimi əgər istənilən dövlət, yaradılmış beynəlxalq təşkilata öz istəyindən asılı olaraq daxil olmaq imkanına malikdirsə, belə beynəlxalq təşkilatlar üzvülük üçün açıq hesab olunurlar. Beynəlxalq təşkilata üzvlük onun Nizamnaməsi ilə müəyyən edilmiş şərtlər daxilində mümkün ola bilərsə, belə qurumlar qapalı beynəlxalq təşkilatlar hesab olunurlar. Məsələn, Şimali Atlantika Bloku qapalı beynəlxalq təşkilat hesab olunur.[2]

Beynəlxalq təşkilatlar ümumi problemlərin birgə həll edilməsi üçün üzvlərin könüllü birliyi əsasında yaradılan və nizamnamə əsasında öz fəaliyyətlərini həyata keçirən beynəlxalq əməkdaşlığa sabit, strukturu dürüst müəyyən edilmiş forma əsasında təşəkkül tapır. Bundan başqa beynəlxalq təşkilatların dövlətlərin birliyi və

[1] Морозов Г.И. Международные организации. Некоторые вопросы теории. М., 2004. с.97

[2] Каваленко И.И. Международные неправительственные организации. М., 2006. с.66

ya assosiasiyası formasında təşkilinə də rast gəlmək mümkündür. Müəlliflərdən N.A.Uşakov beynəlxalq təşkilatların beynəlxalq hüquqa uyğun olaraq dövlətlər birliyi tərəfindən təsis edilməsi, fəaliyyət göstərməsi, həmçinin onların təşkilati-hüquqi vahidliyinin təmin olunması; dövlətlərarası sazişlə bəyan edilmiş məqsədlərə nail olmaq üçün təsis aktına müvafiq olaraq yaradılması; təşkilatın qaydalarına uyğun olaraq öz orqanları vasitəsilə beynəlxalq münasibətlərdə funksiyaları və səlahiyyətləri həyata keçirən, o cümlədən öz adından üzv dövlətlərlə, qeyri-üzv dövlətlərlə beynəlxalq əlaqələrin digər subyektləri ilə qarşılıqlı münasibətlərdə çıxış etməsi kimi əlamətləri özündə əks etdirir.[1] Ümumiyyətlə, müasir dövrdə beynəlxalq təşkilatların qlobal münasibətlərdə rolu, o cümlədən onların öz üzvlərinə təsir etmə mexanizmi müxtəlif istiqamətlərdə inkişaf etməkdədir. Məsələn, Avropa İttifaqı kimi dövlətüstü beynəlxalq təşkilatda qərarlar, quruma üzv olan dövlətlərin əksər səs çoxluğu ilə qəbul edilir və üzv dövlətlər üçün məcburi hüquqi qüvvəyə malikdir. Kommersiya funksiyalarını özündə birləşdirən bir sıra hökumətlərarası təşkilatların məqsədi və fəaliyyəti yalnız müəyyən sahədə dövlətlərarası əməkdaşlığın təmin olunmasından ibarət deyil, habelə gəlir əldə edilməsinə yönəlmiş müstəqil təsərrüfat fəaliyyətinin həyata keçirilməsindən də ibarətdir. Beynəlxalq təşkilatlar bu qurumun məqsədi, fəaliyyət prinsipləri, səlahiyyətləri, strukturu və əsas fəaliyyət istiqamətlərini müəyyən edən müqaviləyə uyğun olaraq beynəlxalq münasibətlərin bu və ya digər sahəsində əməkdaşlıq üçün daimi əsaslarla yaradılmış dövlətlər birliyi hesab olunurlar. K.A.Bekyaşev beynəlxalq təşkilatların hüquq subyektliyinin mühüm xüsusiyyətləri qismində beynəlxalq hüququn subyektləri tərəfindən beynəlxalq funksiyaların sərbəst yerinə yetirilməsi hüququnun mövcudluğu; beynəlxalq hüququn subyektləri tərəfindən beynəlxalq səviyyədə tanınma; xüsusi hüququn və öhdəliklərin mövcud olması; öz funksiyalarının sər-

[1] Ушаков Н.А. Международное право. Учебник. М., «Международное отношение», 2000. с.152

bəst yerinə yetirməsi hüququnun olması; müqavilələr bağlamaq hüququnun olması; beynəlxalq hüquq normalarının yaradılmasında iştirak etmək hüququnun olması; immunitet və imtiyazlara malik olmaq hüququ; beynəlxalq hüquq normalarının icrasının təmin edilməsi hüququ; beynəlxalq-hüquqi məsuliyyət kimi keyfiyyətlərin olması əlamətlərini xüsusi olaraq qeyd edir.[1]

Beləliklə, beynəlxalq hökumətlərarası təşkilatlar dedikdə, müəyyən məqsədlərin həyata keçirilməsi üçün beynəlxalq müqavilələrə uyğun olaraq yaradılan, təsis aktına, sabit və davamlı struktura, üzvlüyün özünəməxsus xarakterinə malik olan dövlətlərin könüllü birliyi nəzərdə tutulur.

Beynəlxalq təşkilatların müqavilələr bağlamaq hüququ təsis sənədlərində təsbit edilməklə yanaşı, onların fəaliyyəti milli hüquqla tənzim edilir. Beynəlxalq təşkilatların normayaratma funksiyası; məcəlləşdirmə funksiyası; informasiya funksiyası; nəzarət funksiyası; operativ funksiya kimi vəzifələri həyata keçirirlər. İlk növbədə onu qeyd etmək lazımdır ki, bütün beynəlxalq təşkilatların fəaliyyətində insan hüquqlarının müdafiəsi və təminatı prioritet istiqamət təşkil edir. Beynəlxalq təşkilatların qarşısında duran başlıca vəzifələr sülh və təhlükəsizliyin təmin edilməsinə, şəxsiyyətin formalaşmasına, onun inkişafına, hüquqlarının və azadlıqlarının qorunmasına yönəldilmişdir. Buna görə də onların yaradılması məqsədi ilə qarşısında duran vəzifələr çox vaxtı biri digərini tamamlamaqdadır. Qadın hüquqlarının müdafiəsi sahəsində əsas beynəlxalq hüquq normaları bilavasitə beynəlxalq təşkilatlar səviyyəsində qəbul edilmiş və onların həyata keçirilməsinə dəstək verilməkdədir. Bu sahədə qəbul edilən qərarların da ilk təşəbbüskarı məhz dünyanın böyük dövlətləri və ayrı-ayrı beynəlxalq təşkilatların özləri olmuşdur. Belə beynəlxalq sənədlərin sayı son illər sürətlə artmaqdadır. Buna görə də hesab edirik ki, ayrı-ayrı sahələr üzrə 21-ci əsrin müfəssəl konvensiyalarının qəbul edilməsi vaxtı çatmışdır. Onlarla müxtəlif təyinatlı, müxtəlif məqsədli və

[1] Международное право. Учебник /Под ред. К.А.Бекяшев. М., 2003. с.255-263

müxtəlif məzmunlu konvensiyalar qəbul etmək onların həyata keçirilməsində, tətbiqində və icrasında heç şübhəsiz müəyyən çətinliklər yaradır. Məsələn, qadın hüquqlarına və azadlıqlarına dair 21-ci əsrin müfəssəl beynəlxalq konvensiyasının qəbul edilməsi siyasi, iqtisadi, mülki, sosial, hüquq və s. sahələrdə kompleks bir sənəd olardı. Bu sənəddə eyni zamanda, onun icra mexanizminin də nəzərdə tutulması qadın hüquqlarının və azadlıqlarının nəinki mükəmməl təsbitini təmin etmiş olardı, habelə onun tətbiqini də xeyli dərəcədə asanlaşdırardı.

BMT, Avropa Şurası və s. beynəlxalq təşkilatlar tərəfindən qəbul edilmiş siyasi-hüquqi əhəmiyyətli beynəlxalq sənədlərə dünya birliyi dövlətlərinin demək olar ki, hamısı yekdilliklə tərəfdar çıxmışlar. Qadın hüquqlarının müdafiəsi və təminatı sahəsində beynəlxalq mexanizmlər təşkilati funksiyalara malikdirlər və həmin mexanizmlər də beynəlxalq təşkilat qismində fəaliyyət göstərirlər. Bu sahədə təşkilati mexanizmlərin formalaşmasında ayrı-ayrı beynəlxalq cəmiyyətlər də maraqlıdırlar. Bu qurumlar beynəlxalq təşkilati mexanizmlərinin fəaliyyətində qadın hüquqlarının müdafiəsinə və təminatına dair tövsiyə və təkliflər irəli sürmək yolu ilə yaxından iştirak edirlər. Təsadüfi deyil ki, BMT-nin Baş Assambleyasının «Hamı tərəfindən tanınan insan hüquqlarını və əsas azadlıqları dəstəkləmək və müdafiə etməklə bağlı cəmiyyətdəki fərdlərin, qrupların və orqanların hüquq və məsuliyyəti haqqında» 9 dekbar 1998-ci il tarixli 53/144 saylı Qətnaməsi bu sahədə mühüm səfərbəredici əhəmiyyət kəsb etmişdir.

Avropa miqyaslı beynəlxalq və regional təşkilatların yaradılmasına dair sənədlərdə, bu məkanda sülhün və əmin-amanlığın, insan hüquqlarının və azadlıqlarının bərqərar olması əzmi başlıca məqsəd olaraq bəyan edilmişdir. «İnsan hüquqlarının və əsas azadlıqlarının müdafiəsi haqqında» 4 iyun 1950-ci il Konvensiyasının Preambula hissəsində göstərilir ki, Avropa Şurasının məqsədinin onun üzvləri arasında daha böyük birliyə nail olmaqdan ibarət olduğunu və bu məqsədlərə nail olmağın əsas vasitələrindən birinin insan hüquqlarının və əsas azadlıqlarının dəstəklənməsi və gələcəkdə reallaşdırılması olduğunu vacib

hesab edərək, dünyada ədalətin və sülhün əsası olan və riayət edilməsi başlıca olaraq, bir tərəfdən həqiqi, demokratik, siyasi rejimlə, digər tərəfdən onların sadiq qaldığı insan hüquqlarını hamının anlaması və riayət edilməsi yolu ilə təmin olunan, əsas azadlıqlara öz dərin sadiqliklərini təsdiq edərək, vahid səylərlə hərəkət edən, siyasi ənənələrin, ideyaların, azadlığın və hüququn aliliyinin ümumi irsinə malik olan Avropa ölkələrinin hökumətləri kimi, Ümumi Bəyannamədə təsbit olunmuş hüquqların və azadlıqların kollektiv həyata keçirilmənin təmin edilməsi yolunda addımlar atmaq əzmi ilə yaradılmışdır.[1]

«Avropa Birliyinin Əsas azadlıqlar haqqında Şərti»nin Preampula hissəsi də maraq kəsb edir. Orada göstərilir ki, ortaq ruhi və mənəvi mirasın şüurunda olaraq Avropa Birliyi, insan ləyaqətinin, azadlığın, bərabərliyin və həmrəyliyin ayrılmaz və universal dəyərləri üzərində qurulmuş, demokratiya və hüquqi dövlət prinsiplərinə əsaslanmışdır. Birlik, azadlıq, təhlükəsiz və ədalətli məkan yaratmaqla, öz fəaliyyətinin başlıca məqsədini insan rifahında görür. Üzv dövlətlər bu ortaq dəyərlərin qorunub saxlanmasına və inkişafına dəstək verir, milli kimliklərinə, yaratdıqları hakimiyyət orqanlarının quruluşuna, Avropa xalqlarının mədəniyyətinin və ənənələrinin müxtəlifliyinə hörmətlə yanaşır. Birlik tarazlıq və davamlı inkişafı təmin etməyi hədəf seçmişdir. Şəxslərin və sərmayələrin sərbəst hərəkətini və azad sahibkarlıq fəaliyyətini təmin edir, əsas hüquqların və azadlıqların qorunmasını başlıca məqsəd və həm də vəzifə hesab edir.[2] Oxşar niyyət və məqsəd Avropa təhlükəsizlik və əməkdaşlıq Təşkilatının, Avropa Birliyinin və digər beynəlxalq və regional təşkilatların təsis sənədlərində də bəyan edilmişdir. Ümumiyyətlə, Avropa məkanında insan hüquqlarının və azadlıqlarının başlıca mahiyyətində insan ləyaqəti, azadlıq, bərabərlik, həmrəylik və ədalət kimi dəyərlər dayanır. «Avropa Birliyinin əsas azadlıqlar Şərti»ndə sadalanan bu dəyərlər sistemi insan hüquqlarının və azadlıqlarının yeni modelinin başlıca keyfiyyət göstəricilərini özündə ehtiva edir.

[1] Avropa İnsan Hüquqları Konvensiyası Bakı, 2012, s.3-4

[2] "Charter of Fundamental Rights of European Univon", http://eur-lex.europa.eu/LexUriServ/LexUriServ.do?uri=OJ:C:2010:083:0389:0403:en:PDF

BMT-nin Nizamnaməsi, Ümumi Bəyannamə,«Mülki və siyasi hüquqlar haqqında», «Sosial, iqtisadi və mədəni hüquqlar haqqında» Beynəlxalq Paktlar, onların Fakultativ Protokolları, «Qadınların siyasi hüquqları haqqında», «Qadınlar əleyhinə ayrı-seçkiliyin bütün formalarının ləğv olunması haqqında», «Ərli qadının vətəndaşlığı haqqında», «Nikaha daxil olmağa razılıq, minimal nikah yaşı və nikahların qeydə alınması haqqında», «İrqi ayrı-sekçiliyin bütün formalarının ləğv edilməsi haqqında», «İşğəncələrə və digər qəddar, qeyri-insanı, yaxud ləyaqəti alçaldan davranış və cəza növlərinə qarşı», «İnsan alverinə və üçüncü şəxslər tərəfindən fahişəliyin istismarına qarşı», «Köləliyin, qul ticarətinin və köləliyə oxşar institutların və adətlərin ləğv olunması haqqında», «Aparteidlərin statusu haqqında», «Vətəndaşlığın azaldılması haqqında» və digər Beynəlxalq Konvensiyalar qəbul edilmişdir. Avropa Şurası, Avropa Birliyi, Avropa Təhlükəsizlik və əməkdaşlıq Şurası, Müstəqil Dövlətlər Birliyi, Avropa Sosial Xartiyası və digər beynəlxalq və regional qurumlar tərəfindən qadın hüquqlarının və azadlıqlarının əsas sistemi, prinsipləri, şərtləri və icrası ilə bağlı çoxsaylı sənədlər qəbul etmiş, onların icrasına nəzarət edən, müdafiə və mühafizə edən mexanizmlər yaradılmışdır. Bütün bunlar birmənalı şəkildə belə bir nəticəyə gəlməyə əsas verir ki, qadın hüquqlarının və azadlıqlarının ifadə forması öz məzmununa, strukturuna və tərkibinə görə zəngin, rəngarəng və çoxaspektlidir. Bütün bunlar çox yaxşıdır. Lakin əsas və ən vacib məsələlərdən biri də normativ hüquqi sənədlərdə ifadə edilən qadın hüquqlarının və azadlıqlarının müdafiə mexanizmlərinin çevikliyi, effektivliyi, təsirliliyi, etibarlılığı, qətiyyəti və səmərəliliyi ilə çox bağlıdır. Buna görə də insan hüquqlarının və əsas azadlıqlarının beynəlxalq, regional və milli səviyyədə mükəmməl mexanizmlərinin yaradılması və fəaliyyəti son dərəcə vacib və aktualdır. Bununla belə qeyd edilməsi zəruridir ki, beynəlxalq, regional və dövlətdaxili təşkilatların tərkibində fəaliyyət göstərən struktur vahidlərinin kifayət qədər geniş və əhatəli olması[1] nəzərə alınaraq tədqiqatlar zama-

[1] Rəcəbli H.M. BMT-nin ixtisaslaşmış qurumları, Bakı, 2003; Rəcəbli H., İbayev V., Avropa Şurası, Bakı, "Elm", 1999;Карташкин В.А. Права человека: международная защита в условиях глобализации, Москва, «Норма», 2009; Энтин

nı yalnız qadın hüquqlarının və azadlıqlarının müdafiəsi ilə bağlı olan təşkilatlara müəyyən yer ayrılmışdır.

Birləşmiş Millətlər Təşkilatının Nizamnaməsində nəzərdə tutulan başlıca qurumlar sırasında BMT-nin Baş Məclisi, Təhlükəsizlik Şurası, İqtisadi və Sosial Şura, Qəyyumluq Şurası, Beynəlxalq Məhkəmə və Katiblik kimi struktur elementləri fəaliyyət göstərir. BMT Nizamnaməsinin 68-ci maddəsində eyni zamanda «İqtisadi və sosial Şura»ya insan hüquqlarına dəstək vermək sahəsində müvafiq komissiyalar təsis etmək səlahiyyəti də verilmişdir.

BMT Nizamnaməsinin 4-cü, 9-cu və 10-cu fəsilləri BMT Baş Məclisinin səlahiyyətlərinə və funksiyalarına həsr edilmişdir. Hazırda 195 nəfər nümayəndədən ibarət olan Baş Məclis Məşvərətçi orqan kimi hər hansı bir məsələni müzakirəyə çıxarmaqla 2/3 səs çoxluğu ilə qərar qəbul etmək səlahiyyətinə malikdir. Onun tərkibində fəaliyyət göstərən 6 əsas altkomitənin biri - hüquq məsələləri üzrə Komitə hesab edilir. Ümumilikdə isə Baş Məclis hər hansı bir məsələni öz sessiyasında, pleniumunda və ya iclasında müzakirəyə çıxarıb müvafiq qərar qəbul etmək səlahiyyətinə malikdir. Bundan fərqli olaraq 15 üzv dövlətdən (5 daimi, 10 müvəqqəti üzv) təşkil edilmiş Təhlükəsizlik Şurası BMT-yə yeni üzvlərin qəbulu, Beynəlxalq Məhkəmənin üzvlərinə dair tövsiyələrin verilməsi, Baş Katibin, Beynəlxalq Məhkəmənin hakimlərinin seçilməsini və qəyyumluq vəzifələrinin həyata keçirilməsini təmin edir. Təhlükəsizlik Şurası sülh və təhlükəsizlik məsələlərinə dair xüsusi komitələr və komissiyalar yaradır, illik və xüsusi məruzələr dinləyir və müvafiq qərarlar qəbul edir. İnsan hüquqları və azadlıqları ilə bağlı məsələyə münasibətdə beynəlxalq məhkəmənin Nizamnamədə nəzərdə tutulan geniş hüquqları, səlahiyyətləri və azadlıqları vardır.[1]

BMT-nin İnsan hüquqları üzrə müqavilə orqanları sırasında «İnsan Hüquqları Komitəsi», «Mülki və siyasi hüquqlar haqqında» Beynəlxalq Paktın 28-ci maddəsinə müvafiq olaraq yaradılmışdır. Tərkibində 18 nəfər ekspertin təmsil olunduğu komitə beynəlxalq və insan hü-

---

М.Л. Международные гарантии прав человека, Москва, 1997; Международная и внутригосударственная защита прав человека, Москва, «Статут», 2011

[1] Beynəlxalq sənədlər toplusu, Bakı, I cild, 2005, s.35-50

quqları üzrə standartların həyata keçirilməsi sahəsində məsələ müzakirə edir, hesabatlar qəbul edir və öz səlahiyyəti çərçivəsində tədbirlər görür. Belə monitorinqlərin və araşdırmaların, hesabatların və məruzələrin vaxtı, məzmunu, səciyyəvi cəhətləri qanunvericilikdə tam əhatə olunmuşdur. Bu baxımdan qeyd edilən komitənin fərdi şikayətləri qəbul etmək və müvafiq qərarlar vermək səlahiyyəti də qanunvericilikdə nəzərdə tutulmuşdur.[1] «İqtisadi, sosial və mədəni hüquqlar üzrə» Komitə BMT-nin «İqtisadi, sosial və mədəni hüquqlar haqqında» Paktında nəzərdə tutulmuş məsələləri müzakirə etməklə imperativ qərarlar qəbul etmək səlahiyyətində olsada, lakin bu komitənin fəaliyyətində son illər durğunluq müşahidə edilməkdədir.

BMT-nin «İnsan hüquqları üzrə Ali Komissarı» Baş Katib tərəfindən bu vəzifəyə təyin olunmaqla ona hesabat verir və öz statusuna görə onun müavini hesab edilir. Ali Komissar BMT-nin İnsan hüquqları sahəsində siyasəti ilə bağlı Baş Katibə müvafiq məsləhətlər verir, onu təmsil edir, insan hüquqları ilə bağlı layihələri, onun əsas istiqamətlərini müəyyən edir, «İnsan hüquqları sahəsində» Şuranın fəaliyyətinə nəzarət edir və koordinasiya funksiyasını həyata keçirir. Onun üç bölməsi və 250 nəfərdən ibarət əməkdaşı, bu sahədə xidməti fəaliyyətini uğurla həyata keçirməkdədir. BMT-nin «İnsan hüquqları» Şurası isə bu sistemdə daxili beynəlxalq orqan statusuna sahib olmaqla, onun əsas fəaliyyətini insan hüquqları sahəsində pozuntuların araşdırması ilə bağlı olur. Son illər bu komissiyanın tərkibi əsaslı surətdə yaxşılaşdırılmış və fəaliyyəti təkmilləşdirilmişdir. «Azərbaycanda insan hüquqlarının təminatı üzrə infrastrukturların genişləndirilməsi Proqramı»na müvafiq olaraq bu qurum ölkəmizdə elmin və təhsilin bu sahədə əsas istiqamətlərinin müəyyənləşdirilməsinə, tədrisin keyfiyyətinin yaxşılaşdırılmasına yadda qalan töhfələr vermişdir. «Vətəndaş və siyasi hüquqlar haqqında» Sazişin 28-ci maddəsinə əsasən yaradılan «İnsan hüquqları Komitəsi» 18 nəfər mütəxəssisdən ibarət orqan olmaqla üzv dövlətlərin hesabatlarını, fərdi məlumatlarını dinləyir, müvafiq tövsiyyələr verir və insan hüquqları sahəsindəki beynəlxalq standartların həyata

[1] Beynəlxalq sənədlər toplusu, Bakı, I cild, 2005, s.35-50

keçirilməsini təmin edir. BMT-nin 1984-cü ildə «İşğəncələrə qarşı" Konvensiyası əsasında yaradılan «İşgəncəyə qarşı Komitəsi» məsləhətçi bir orqan olmaq etibarı ilə insanlara qarşı işgəncə və pis rəftar göstərilməsinə dair tədqiqatlar aparan bir qurumdur.[1] Son illər bu Komitənin strukturunda və fəaliyyətində əsaslı keyfiyyət dəyişiklikləri baş vermiş, onun əlaqələri və faəliyyət dairəsi əhəmiyyətli dərəcədə genişlənmişdir.

BMT-nin «İqtisadi və sosial Şurası» insan hüquqları sahəsində 1235, 1503 prosedurları daxilində ayrı-ayrı ölkələrdə insan hüquqlarının vəziyyəti ilə bağlı situasiyaları və problemləri öyrənir, Baş Katibə və Baş Məclisə bununla bağlı müvafiq tövsiyyələr və təkliflər verir. Qadın hüquqları ilə bağlı 1979-cu ilin dekabr ayında BMT-nin Baş Assambleyası tərəfindən qəbul edilmiş «Qadınlara qarşı ayrı-seçkiliyin bütün formalarının ləğv edilməsi haqqında» Konvensiyanın qəbulundan sonra BMT-nin «Qadınlara qarşı ayrı-seçkiliyin ləğvi Komitəsi» təsis edilmişdir. Bu Komitə 23 ekspertin köməyi ilə şərh edilən Konvensiyanın «Mülki və siyasi hüquqlar haqqında» Beynəlxalq Paktın tələblərinə müvafiq olaraq yoxlama aparılması və aşkar edilən qanunsuzluqların üzv dövlətlərin diqqətinə çatdırılması sahəsində tədbirlər görməyə borcludur. Komitə eyni zamanda, «İrqi ayrı-seçkiliyin bütün formalarının ləğv olunması haqqında» Konvensiyanın vəziyyətini də öyrənmək, təhlil etmək və əsas problemləri üzv dövlətlərin diqqətinə çatdırmaq səlahiyyətinə malikdir. BMT-nin Baş Assambleyasının tərkibində fəaliyyət göstərən «İrqi ayrı-seçkiliyin ləğvi Komitəsi» (CERD), «Qadınlara qarşı ayrı-seçkiliyin ləğvi Komitəsi» (CEDAW), «Qadınların vəziyyəti üzrə Komissiya» (CSW), «İqtisadi, sosial və mədəni hüquqlar Komitəsi» (CESCR), «İşgəncələrə qarşı Komitə» (CAT), «İnsan hüquqları Komitəsi» (HRC), «Beynəlxalq əmək Təşkilatı» və digər bu kimi qurumlar bu və ya digər şəkildə üzv dövlətlərdə qadın hüquqlarının təmin olunması sahəsində mühüm tədbirlər həyata keçirməkdədir. İnsan hüquqları Komissiyasının tərkibində fəaliyyət göstərən «Qadınlara qarşı zorakılıq üzrə», «Zorakılıqla və ya könüllü

[1] Beynəlxalq sənədlər toplusu, Bakı, I cild, 2005, s.18-25

olmayan yoxa çıxarılma üzrə», «İrqçiliyin və irqi-ayrı-seçkiliyin müasir formaları üzrə» İşçi Qruplar müxtəlif ölkələrdə qadın hüquqlarının vəziyyətini öyrənir, təhlil edir və müvafiq rəhbər qurumlara məlumatlar təqdim edirlər. «Qadınların statusu üzrə» Komissiya isə qadın hüquqları ilə bağlı təxirəsalınmaz tədbirlərin həyata keçirilməsi, dünyada qadınların kişilərlə bərabər hüquqlara sahib olması haqqında normaların icrasına dair yoxlamalar aparır və hesabatlar təqdim edir. BMT-nin müqavilə orqanları üzrə müvafiq qurumları qadın hüquqlarının və azadlıqlarının vəziyyətini təlimatlarında, nəzərdə tutulmuş müddətlərdə və əvvəlcədən təsdiq edilmiş tədbirlər planında qeyd edilən ölkələrdə araşdırıb məruzələr təqdim edirlər. Bu qurumların hər biri BMT-nin müvafiq sənədləri əsasında fəaliyyət göstərir, aşağı qurumlara və vəzifəli şəxslərə vaxtaşırı olaraq hesabatlar və məruzələr təqdim edirlər.[1] İrqi ayrı-seçkiliyin qadağan edilməsi haqqında Konvensiyanın təhlili göstərir ki, irqi ayrı-seçkiliyin qadağan olunması insan hüquqlarının əsas dayağı hesab olunur. Qanundakı fərqləndirmə faktların müxtəlifliyinə söykənməlidir. Belə fərqlər iddiasız və obyektiv əsaslandırmanın vacib olduğunu tələb edir. Bu zaman mütənasiblik prinsipinin gözlənilməsi olduqca vacibdir. Qadınlara qarşı ayrı-seçkilik dedikdə, onların cinsinə, irqinə, rənginə, dilinə, dininə, siyasi mənsubiyyətinə, partiyalılığına, əqidəsinə, sosial mənşəyinə, əmlak vəziyyətinə, əlillik dərəcəsinə, cinsi oriyentasiyasına, etnik mənşəyinə və digər bu kimi xüsusiyyətlərinə görə bu və ya digər hüququnun azaldılmasını, məhdudlaşdırılmasını və ya pozulmasını başa düşmək vacibdir. Belə vəziyyətlərdə qadının pozulmuş hüquqları bərpa edilməli və nəticəsindən asılı olaraq, müvafiq tədbirlərin görülməsi vacibdir.

Qadın hüquqlarının müdafiəsini təmin edən regional təşkilatların fəaliyyəti hazırda üç əsas istiqamətdə təzahür edir. Bu müdafiə sistemi özündə insan hüquqlarının müdafiəsinin Avropa sistemini; insan hüquqları üzrə Amerikaarası Konvensiyanı; insan və xalqların hüquqlarının Afrika Xartiyasını əhatə edir. Avropa Şurası qa-

---

[1] İnsan hüquqlarının müdafiəsi, Hüquqşünaslar və BMT fəalları üçün soraq kitabçası, Bakı, 2004, s. 3-16

dın hüquqlarının müdafiəsi üzrə Avropa qitəsində ən böyük regional təşkilat hesab edilir.[1] Romada 4 noyabr 1950-ci ildə Şuranın üzvləri tərəfindən «İnsan hüquqlarının və əsas azadlıqlarının mühafizəsi haqqında» Avropa Konvensiyası qəbul edildi və 1953-cü il sentyabr ayının 3-dən etibarən qüvvəyə mindi. Konvensiya qəbul edildikdən 25 il sonra Avropa Şurasının bütün üzvləri faktiki olaraq onun iştirakçıları oldular[2].

Konvensiyanın Preambulunda qeyd edildiyi kimi, onun iştirakçıları olan dövlətlər özləri qarşısında belə bir məqsəd qoyurdular ki, «BMT-nin İnsan Hüquqlarının Ümumi Bəyannaməsi»ndə ifadə olunmuş «bəzi hüquqların həyata keçirilməsi» üçün «ilk addımlar» atılmasına zərurət vardır. Həqiqətən də konvensiyaya insan hüquqları haqqında Paktların və Ümumi Bəyannamədə təsbit edilmiş hüquq və azadlıqların yalnız bir hissəsi daxil edilmişdir. Lakin yaradılmış sistemin üstünlüyü ondan ibarətdir ki, bu sahədə beynəlxalq normalar fasiləsiz olaraq inkişaf edir və yeni sənədlərlə zənginləşdirilir. Konvensiyanın əlavə protokolları Avropa müdafiə sisteminə mülki və siyasi hüquqların demək olar ki, tam siyahısını daxil etmişdir. Avropa Konvensiyası əsasən iki orqan dövlətlərin və eləcə də ayrı-ayrı şəxslərin şikayətlərinə baxmaq səlahihyyətinə malik olan insan hüquqları üzrə Avropa Komissiyasını və İnsan hüquqları üzrə Avropa Məhkəməsini yaratmışdır. İstənilən iştirakçı dövlət Konvensiya qaydalarının 24-cü maddəsinə əsasən digər dövlət tərəfindən hüququnun pozulması barədə Komissiyaya şikayət verə bilər. Komissiya eyni zamanda ayrı-ayrı şəxslərin, qeyri-hökumət təşkilatlarının və bir qrup şəxsin hüquqlarının Konvensiya iştirakçıları tərəfindən pozulmasına dair şikayətlərə də baxmaq hüququna malikdir. Dövlətlərə qarşı verilən şikayətlərə o zaman baxılır ki, dövlətlər Komissiyanın 25-ci maddədə nəzərdə tutulan səlahiyyətlərini tanımış olsunlar. Avropa Şurasının bütün üzvləri

---

[1] Энтин М.Л. Международные гарантии прав человека. Практика Совета Европы. М., 1992

[2] Дженкис.М., Кей Р., Брэдли Э. Международные гарантии прав человека (практика и комментарии). М., 1997

tədricən təkcə Komissiyanın deyil, həm də Avropa Məhkəməsinin belə səlahiyyətlərə malik olmasını təsdiq etdilər. Avropa Şurasının Nazirlər Komitəsi şikayətlərə o zaman baxır ki, bu şikayətlər insan və qadın hüquqları üzrə Avropa Məhkəməsinə verilmiş olsunlar. Avropa Məhkəməsinə materialları həm Komissiyaya və həm də iştirakçı dövlətlərə təqdim edə bilər. Avropa Şurasının üzvləri 11 may 1994-cü il tarixdə insan hüquqları və əsas azadlıqlarının müdafiəsi haqqında Avropa Konvensiyasının fərdə, qeyri-hökumət təşkilatlarına və bir qrup şəxsə, birbaşa Məhkəməyə ərizə ilə müraciət etmək imkanı verən 11 saylı Protokol qəbul etmişdir. Həmin Protokol 1997-ci ilin oktyabr ayında iştirakçı dövlətlər tərəfindən imzalanıb təsdiq edildikdən sonra qüvvəyə minmişdir. Protokola uyğun olaraq insan hüquqları üzrə Avropa Məhkəməsi yeganə orqan kimi saxlanılmaqdadır.

İnsan hüquqları üzrə Avropa Məhkəməsi məsələlərə baxılması üçün komitələr, palatalar və Böyük palatalar təsis edir. Şikayətlərin münasibliyi haqqında məsələləri üç nəfər hakimdən ibarət olan Komitə həll edir. Bu onunla bağlıdır ki, Avropa Şurası üzvlərinin artması nəticəsində şikayətlər axını daim artır və buna görə də Komitələr fərdi şikayətlərin münasibliyi haqqında məsələləri vaxtında və səmərəli həll edə bilərlər. Böyük palatalar Konvensiyanın həyata keçirilməsinin daha mühüm məsələlərini, həmçinin münaqişədə iştirak edənlərin tələbi ilə ona verilmiş işləri müzakirə edir. Gələcəkdə Avropa Şurasının üzvlüyünə daxil olan hər hansı bir dövlət, nəinki Avropa Konvensiyasına qoşulmalıdır, həmçinin insan hüquqları üzrə Avropa Məhkəməsinin qərarları ilə yaradılan presedent hüququndan irəli gələn mühüm dəyişiklikləri də öz milli qanunvericiliyinə daxil etməlidir. Çoxsaylı Avropa Konvensiyaları əsasında Avropa Şurası çərçivəsində yaradılan nəzarət mexanizminin fəaliyyəti insan hüquqları üzrə müdafiə sahəsində Avropanın bütün dövlətlərinin hüquq sisteminin vahid şəklə salınmasına kömək edir.

Avropa Şurası ilə yanaşı insan hüquqları məsələləri Avropada Təhlükəsizlik və Əməkdaşlıq üzrə Müşavirənin (ATƏM) fəaliyyə-

tində də mühüm yer tutur. Bütün Qərbi və Şərqi Avropa dövlətlərini, habelə ABŞ və Kanadanı birləşdirən bu Müşavirə 1973-cü il iyul ayının 3-də Helsinkdə işə başlamış ən nüfuzlu Avropa regional təşkilatı hesab olunur. Müşavirə mahiyyət etibarilə 1994-cü ildə ATƏT-ə çevrilmişdir. Qeyd olunan prosedurlar daim yeni institutlarla və strukturlarla təkmilləşdirilmişdir. Həmin məsələ üzrə müfəssəl qərarlar 1992-ci ildə Praqada qəbul edilmişdir. Paris Xartiyasında yeni Avropa üçün ATƏM-in Parlament Assambleyasının yaradılması nəzərdə tutulmuşdur ki, buraya da bütün iştirakçı dövlətlərin parlament üzvləri daxil edilmişlər.

Avropada baş vermiş inteqrasiya prosesləri və onun əhəmiyyəti nadir hadisələrdəndir. Bu proses dünyanın başqa regionlarında hələ də təkmilləşməmişdir. Belə ki, 20 noyabr 1969-cu ildə Kosta-Rikada Amerikaarası diplomatik konfransla qəbul olunmuş insan hüquqları üzrə Amerikaarası Konvensiya bir çox cəhətdən Avropa Konvensiyasının eyni səciyyəsini daşıyır. Konfransda iştirak edən 19 Latın Amerikası dövlətindən yalnız 12-si, o cümlədən ABŞ da bu Konvensiyanı imzalamamışdır. Konvensiyanın 11 dövlət tərəfindən imzalanmasına 10 ilə yaxın müddət lazım gəlmişdir. Konvensiya yalnız 1978-ci ildə qüvvəyə minmişdir. 1999-cu il yanvar ayının 1-nə kimi, yəni 30 il keçdikdən sonra Amerika Dövlətləri Təşkilatına üzv olan ölkələrin heç də hamısı Konvensiyanı təsdiq etməmişdir.

Amerikaarası Konvensiyada qadın hüquqlarının müdafiəsi ilə bağlı elan edilmiş hüquqlar və azadlıqlar siyahısında mülki və siyasi hüquqlar haqqında Paktda təsbit edilmiş, xalqların öz müqəddəratını təyin etmək, etnik, din və dil, azlıqların öz mədəniyyətindən istifadə etmək hüququ, öz dininə etiqad, adət və ənənələrini gözləmək, habelə ana dilindən istifadə etmək və s. bu kimi hüquqların bir qismi öz hüquqi ifadəsini tapmışdır. Bu sənədin 26-cı maddəsində onların yalnız «ardıcıl yerinə yetirilməsi» haqqında ümumi bir tezis vardır. Qərbi Avropanın bir sıra tədqiqatçı alimləri təsdiq edirlər ki, Amerikaarası Konvensiya əsasında yaradılmış qadın hüquqlarının müdafiəsinin regional sisteminin fəaliyyət

göstərməsi, onun həmin regionun bir sıra ölkələrində siyasi rejimin qeyri-sabit olması ilə müəyyən edilən səmərəsizliyini sübut edir. Amerikarası Konvensiya Latın Amerikası qitəsində yaranmış, real həyat şəraiti və sosial-iqtisadi şərait nəzərə alınmadan tərtib edilmişdir. Qadın hüquqlarının müdafiəsi üzrə Avropa və Amerika regional təşkilatlarının fəaliyyətinin müqayisəli təhlili göstərir ki, yalnız siyasi sistemlərinin oxşarlığı, onların siyasi və hüquqi sabitliyi, tarixi təcrübəsi, sosial-iqtisadi inkişaf səviyyəsini yaxınlığı, ümumi hüquqi ənənələr əsasında bu fəaliyyətin faktiki olaraq səmərəli olması tamamilə mümkündür.[1] Göstərilən amillər Latın Amerikasında olduğuna nisbətən insan hüquqları üzrə Avropa Konvensiyasının və İnsan hüquqları üzrə Avropa Məhkəməsinin fəaliyyətinin nədən uğurlu olduğunu daha çox izah edir. Asiya ölkələrindən fərqli olaraq, Afrika dövlətlərinin spesifik xüsusiyyətini nəzərə alan, xalqların və insanların hüquqları, bu Xartiyanın qəbul edəlməsinin əsasında daynamışdır. 1981-ci ildə insan hüquqları üzrə regional təşkilat yaranmışdır. Xartiyada xalqların öz müqəddəratını təyin etmə, müstəmləkəçilik, xaricilərin müdaxiləsi və hökmranlığı ilə mübarizə, sosial-iqtisadi və mədəni inkişaf problemləri, təbii sərvətlər və ehtiyatlar üzərində hüquqların həyata keçirilməsi məsələləri ön plana çəkilmişdir. Beynəlxalq sülh və təhlükəsizlik, inkişaf, elmi-texniki tərəqqi, sağlam ətraf mühitə malik olmaq hüququ, müstəmləkəçilik qalıqlarının ləğv edilməsi, Afrikanın sərbəst inkişafı üçün xüsusi əhəmiyyətə malik olan xalq hüquqları Xartiyada mühüm yer tutur. Xartiya, həmçinin xalq, insan və qadın hüquqları Komissiyasını yaratmağı da qərara almışdır. Afrikada demokratiyaya doğru irəliləmə prosesi çox mürəkkəb və ziddiyyətli şəraitdə baş verir. Bu qitənin bir sıra liderləri belə hesab edirlər ki, ölkənin həyatındakı hüququn birinciliyi, əsas hüquq və azadlıqlara hörmət, demokratiyanın Avropa anlayışlarına tətbiq edilə bilən prinsipdir. Onlar dövlət suverenliyinin rolunu mütləqləşdirərək Afrikanın özünəməxsus ənənələrini nəzərə çatdı-

[1] İnsan hüquqları. Bakı, «Şirvannəşr», 2005, s.531

rırlar. Son illər bu istiqamətdə proseslər getdikcə daha da dərinləşir.

Qadın hüquqlarının və azadlıqlarının təmin olunması sahəsində Avropa təsisatları əsasən II Dünya müharibəsindən sonra yaradılmaqla, onların fəaliyyəti vaxtaşırı olaraq genişləndirilmiş və təkmilləşdirilmişdir. Avropada iqtisadi birliyə və atom enerjisi sahəsində əməkdaşlığa söykənən Avropa İttifaqı, əsasən iqtisadi birlik səciyyəsi daşımaqla, faktiki olaraq 1958-ci ildən fəaliyyətini genişləndirmişdir. Avropa İttifaqı «İnsan hüquqları və əsas azadlıqlarına dair Avropa Konvensiyası»nın, «İştirakçı ölkələrin Konstitusiya ənənələrindən irəli gələn və həmin ölkələrdə tətbiq olunan hüquqların və azadlıqların», «Ümumi hüquq prinsipindən yaranan hüquqlar və azadlıqlar» və «Avropa vətəndaşlığının tətbiq edilməsinə dair» müddəaların tətbiqində və ümumiyyətlə Avropada insan hüquqlarının və azadlıqlarının bərqərar olmasında bu təşkilatın, onun Parlamentinin, Nazirlər Şurasının, Avropa Komissiyasının, eləcə də Avropa İttifaqı Ombudsmanın müstəsna xidmətləri olmuşdur.[1] İnsan hüquqlarının və azadlıqlarının təmin olunması məqsədi ilə yaradılmış ilk regional sistem kimi Avropa Şurasının və onun qurumlarının fəaliyyətə başlaması qadın hüquqlarının qorunmasına müəyyən töhfələr vermişdir. Avropa Şurası öz Nizamnaməsinə müvafiq olaraq öz işçi təşkilatlarını - Nazirlər Komitəsini, Parlament Assambleyasını, Katibliyini, müvafiq alt qurumları yaratdı. Bu gün onlar qadın hüquqlarının və azadlıqlarının qorunması sahəsində mühüm tədbirlər həyata keçirməkdədir.

Avropa Təhlükəsizlik və Əməkdaşlıq Müşavirəsi, əslində Avropanın ən böyük regional təşkilatı hesab olunur. 1 avqust 1975-ci ildə insan hüquqlarının və azadlıqlarının təmin olunmasına xidmət edən «Avropada Təhlükəsizliyə və Əməkdaşlığa dair Helsinki Yekun Ak-

[1] Энтин М.Л. Международные гарантии прав человека, Москва, 1997; Международная и внутригосударственная защита прав человека, Москва, «Статут», 2011; Бессарабов В.Г. Европейский суд по правам человека, Москва, «Юрлитинформ», 2004; Ковалев А.А. Международная защита прав человека, Учебное пособие. М.: Статут, 2013, 591 с.; Avropa Şurası hüququ, Bakı, "Avropa Şurası" nəşriyyatı, 2006.

tı»nın imzalanması əslində beynəlxalq hüququn on əsas prinsipinin tamamlanması ilə nəticələndi. 1994-cü ildən isə bu təşkilat «Avropa Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatı» adı altında öz fəaliyyətini davam etdirir.[1] «İnsan hüquqlarının və əsas azadlıqlarının müdafiəsi haqqında Avropa Konvensiyası»nın 19-cu maddəsinə müvafiq olaraq 1950-ci ildən etibarən Avropa İnsan Hüquqları Məhkəməsi təsis edilmişdir. Mahiyyət etibarı ilə bu məhkəmə dövlətlərin və fiziki şəxslərin şikayətləri üzrə, konkret şərtlər daxilində, işləri öz icraata qəbul etmək və baxmaq səlahiyyətinə malikdir. «İnsan hüquqlarının və əsas azadlıqlarının müdafiəsi haqqında Avropa Konvensiyası»nı imzalamış Avropa Şurasının bütün üzvlərinə aid qərar qəbul etmək səlahiyyətinə malik olan beynəlxalq məhkəmə orqanı kimi Avropa İnsan hüquqları Məhkəməsi, eyni zamanda fərdi şəxslərin müraciəti üzrə şərh vermək və qərar qəbul etmək səlahiyyətinə malikdir. Bununla belə, məhkəməyə müraciət etmək üçün, müraciət edilən dövlətin Avropa İnsan Haqları Konvensiyasını ratifikasiya etməsi, pozulmuş hüquqların və azadlıqların Konvensiyada və ya onun əlavə Protokollarında təsbit olunması, pozulmuş hüquqlarların Konvensiyaya dair hər hansı bir Protokolda nəzərdə tutulması, Protokolun müvafiq dövlət tərəfindən ratifikasiya edilməsi, bütün dövlətdaxili hüquq müdafiə vasitələrinin tükənməsi, müvafiq sonuncu dövlətdaxili orqanın qəti qərarının qəbul edilməsindən sonra altı aylıq müddətin keçməməsi, şikayətin anonim olmaması, şikayətin mahiyyətcə Məhkəmənin artıq baxdığı məsələ ilə eyni olmaması, şikayətin beynəlxalq araşdırmanın və ya tənzimlənmənin digər prosedurasının predmeti olmaması, şikayətin açıq surətdə əsaslandırılması, şikayət vermə hüququndan sui-istifadə edilməməsi və digər bu kimi şərtlərin olduğu hallarda onların qəbul edilməsi nəzərdə tutulmuşdur.

Konvensiyanın pozulması müraciət edənə şəxsi ziyanın vurulması ilə bağlı olmalıdır. Yəni Konvensiyada təsbit olunmuş bu və ya digər hüquqların və azadlıqların pozulması, şəxsən onun özünə

[1] Beynəlxalq sənədlər toplusu, Bakı, I cild, 2005

aid olmalıdır, şəxsən onun özünün bu və ya digər hüququ (hüquqları) pozulmuş olmalıdır. Konvensiya üzrə müdafiə yalnız fərdlə hakimiyyət arasında olan münasibətlərə tətbiq edilir. Buna müvafiq olaraq, fərd Avropa Məhkəməsinə yalnız Konvensiyada və əlavə Protokollarda təsbit olunmuş və dövlət orqanlarının məsuliyyət daşıdığı hüquqların pozulması ilə əlaqədar müraciət etmək hüququna malikdir. Fərd digər bir fərdin hərəkəti ilə əlaqədar Avropa Məhkəməsinə müraciət edə bilməz. Qeyd olunan şərtlərdən birinə və ya bir neçəsinə əməl olunmadığı təqdirdə şikayət Məhkəmə tərəfindən qəbul olunmayacaqdır. Avropa Məhkəməsinə şikayət ərizəsi aydın və dolğun tərtib olunmalı, müraciət edən və ya onun vəkalətnamə ilə təsdiq edilmiş səlahiyyətli nümayəndəsi tərəfindən imzalanmalıdır. Qeyri-hökumət təşkilatları və ya şəxslər qrupu tərəfindən verilən ərizələr isə bu təşkilatı və ya şəxslər qrupunu təmsil edən şəxslər tərəfindən imzalanmalıdır.

Qeyd edilməsi zəruridir ki, Avropa Şurasının başlıca vəzifəsi, Avropada demokratiyanın möhkəmləndirilməsindən, insan hüquqlarının müdafiəsindən, hüququn aliliyinin təsdiqindən, sosial, mədəni və hüquqi sahələrdə Avropa dövlətləri qarşısında duran problemlərin həllinə birgə səylərin göstərilməsindən ibarət olmaqla, ötən dövr ərzində insan hüquqlarının və azadlıqlarının qorunması sahəsində böyük işlər görmüşdür. «İnsan hüquqlarının və əsas azadlıqların müdafiəsi haqqında» Avropa Konvensiyası, əslində «İnsan hüquqları haqqında Ümumi Bəyannamə»nin Avropa məkanında özünəməxsus davamı və inkişafı kimi səciyyələndirilə bilər. İnsan hüquqları və azadlıqları Konvensiyanın I fəslinin 2-18-ci maddələrində və ona əlavə edilmiş Protokollarda təsbit olunmuşdur. Lakin bu sənəd nəinki təməli insan hüquqlarını bəyan etdi, həm də, onların müdafiəsinin xüsusi mexanizmlərini yaratmış oldu. Əgər əvvəllər bu mexanizmə Konvensiyanın iştirakçısı olan dövlətlərin üzərilərinə götürdükləri öhdəliklərin yerinə yetirilməsini təmin etməyə görə məsuliyyət daşıyan üç orqan - Avropa İnsan Hüquqları Komissiyası, Avropa İnsan Hüquqları Məhkəməsi və Avropa Şurasının Nazirlər Komitəsi daxil idisə, 1 noyabr 1998-

ci ildə qəbul edilmiş 11 №-li Protokol qüvvəyə mindikdən sonra, bu vəzifəni Avropa İnsan Hüquqları Məhkəməsi həyata keçirməyə başlamışdır. Əvvəllər fərdi ərizəçilərin və Konvensiyanın iştirakçısı olan dövlətlərin verdiyi şikayətlərə, ilkin olaraq Avropa İnsan Hüquqları Komissiyasında baxılırdı. O, şikayətin qəbul olunması haqqında məsələni araşdırır və bu məsələ müsbət həll edildikdə, məcburi qüvvəyə malik olan yekun qərarın çıxarılması üçün işi Avropa İnsan Hüquqları Məhkəməsinə verirdi. Əgər iş məhkəməyə verilmirdisə, onda bu məsələni mahiyyəti üzrə Nazirlər Komitəsi həll edirdi. Lakin 1 oktyabr 1994-cü ildən Komissiya tərəfindən qəbul olunması mümkün hesab edilən şikayətlər üzrə işlərin Məhkəməyə ərizəçilərin özləri tərəfindən təqdim olunması qaydası tətbiq edilməyə başlanıldı. Avropa İnsan hüquqları Məhkəməsi üzv dövlətlərin Konvensiyaya əməl etməsinə və onu həyata keçirməyə xidmət edirdi. O, bu vəzifəni fiziki şəxslərin, şəxslər qrupunun və ya qeyri-hökumət təşkilarının verdiyi fərdi şikayətlər əsasında icraatına qəbul etdiyi konkret işlərə baxmaq və onları həll etmək yolu ilə həyata keçirirdi. Avropa İnsan Hüquqları Məhkəməsi Konvensiyanın iştirakçısı olan dövlətin məhkəmə sisteminə münasibətdə ali hüquqi instansiya hesab edilmir. Buna görə də, o, dövlət hakimiyyəti orqanının və ya milli məhkəmənin qəbul etdiyi qərarı ləğv etmir, qanunvericiyə göstərişlər vermir, milli qanunvericilik və ya məhkəmə təcrübəsi üzərində mücərrəd nəzarəti həyata keçirmir. Məhkəmənin hüquqi nəticələr doğuran sərəncam vermək hüququ da yoxdur. Məhkəmə Konvensiyanın tələblərinin həqiqətən pozulub-pozulmadığmı müəyyən etmək üçün yalnız konkret şikayətlərə baxır. Lakin Məhkəmə «ədalətli əvəz ödənişi» olaraq, maddi və ya mənəvi zərərin maliyyə kompensasiyası şəklində, habelə işi udmuş tərəfin bütün xərclərinin ödənilməsi barədə ödəniş təyin etməyə haqlıdır. Konvensiyanın 46-cı maddəsinə əsasən Məhkəmə qərarlarının icrasına, eləcə də Konvensiyanın iştirakçısı olan dövlətlərin daxili hüququ və ya məhkəmə təcrübəsi ilə Avropa Şurasının standartları arasında, Məhkəmənin aşkar etdiyi uyğunsuzluqların aradan qaldırılmasına nəzarət funksiyası Nazirlər

Kabineti tərəfindən həyata keçirilir. Məhkəmənin çıxardığı qərar yalnız iş üzrə cavabdeh olan dövlət üçün məcburidir. Konvensiyanın tətbiqi üçün bir çox prinsiplərə, qaydalara hüquqi müddəalara, anlayışlara və normalara, məhz son iyirmi ildə ətraflı şərhlər verilməsi ilə tarixə düşmüşdür. Azərbaycan Respublikasının insan hüquqlarının və əsas azadlıqlarının müdafiəsi haqqında Konvensiyanı ratifıkasiya etməsi onun yurisdiksiyası altında olan bütün şəxslərin Avropa İnsan Hüquqları Məhkəməsinə müraciət etmələrinə imkan verir. Məsələn Azərbaycanda Avropa İnsan hüquqlarının president hüququndan istifadə edilməsinə dair məhkəmələrə verilən göstərişlər təcrübədə mühüm keyfiyyət dəyişikliklərinə imkan verir. Avropa İnsan hüquqları Məhkəməsinə Azərbaycanla bağlı şikayətlər artmaqdadır. Bu məhkəmə 2011-ci ilin sonuna qədər Azərbaycanla bağlı baxdığı 93 işdən 22-i qadın hüquqlarının və azadlıqlarının bu və ya digər dərəcədə pozulması ilə bağlı olmuşdur.[1]

Ölkəmizin bu qurumun yurisdiksiyasını qəbul etməsi o deməkdir ki, bütün dövlət hakimiyyəti orqanlarının, xüsusən məhkəmə orqanlarının fəaliyyəti, onların qərarları və istifadə etdikləri prosedurалar, eyni zamanda qanunvericilik orqanlarının qərarları Konvensiyanın müddəalarına zidd olmamalıdır. Azərbaycan Respublikasının Konstitusiyasının 151-ci maddəsinə əsasən, qanunvericilik sisteminə daxil olan normativ hüquqi aktlarla (Konstitusiya və referendum yolu ilə qəbul olunmuş aktlar istisna olmaqla) ölkəmizin tərəfdar çıxdığı beynəlxalq müqavilələr arasında ziddiyyət yarandıqda, beynəlxalq müqavilələr tətbiq edilir. Bu baxımdan, Azərbaycan qanunvericiliyinin tərkib hissəsi kimi Konvensiyanın və onun əsas nəzarət orqanı olan Avropa İnsan Hüquqları Məhkəməsinin təcrübəsinin öyrənilməsi çox vacibdir.[2]

---

[1] Bax: Avropa İnsan Hüquqları Məhkəməsinin Azərbaycanla bağlı qərarlar toplusu, Bakı, "Hüquq maarifçiliyi cəmiyyəti"nin nəşri, 2012

[2] Bax ətraflı: Avropa İnsan Hüquqları Məhkəməsi. Seçilmiş qərarlar toplusu I cild, Bakı, 2008, s.3-5

Qadın hüquqlarının və azadlıqlarının Azərbaycan Respublikasında təmin olunmasında əsas qanunumuzun – Azərbaycan Respublikasının Konstitusiyasının müstəsna yeri və rolu olmuşdur. «Azərbaycan Respublikasının Dövlət müstəqilliyi haqqında Konstitusiya Aktı»nda və «Azərbaycan Respublikasının Konstitusiyası»nda xalq hakimiyyətinin, dövlətin əsaslarını, qanunvericilik, icra və məhkəmə hakimiyyətinin, yerli özünü idarəetmə orqanlarının, Naxçıvan Muxtar Respublikasının statusunun, ölkənin qanunvericilik sistemini müstəqil institutlar kimi müəyyən edən konstitusiyada əsas insan və vətəndaş hüquqları və əsas azadlıqları, vətəndaşların əsas vəzifələri sırasında qadını səciyyələndirən hüquqlar, vəzifələr, azadlıqlar və əsas vəzifələr geniş təsbit olunmuşdur. Bu zaman beynəlxalq konvensiyaların əsas şərtləri və tələbatları tamamilə nəzərə alınmış, ölkəmizin qoşulduğu beynəlxalq müqavilələr qanunverucilik sistemimizin tərkib hissəsi kimi öz ifadəsini mükəmməl formada tapmışdır. Qeyd edilmişdir ki, Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələr Azərbaycan Respublikasının Qanunvericilik sisteminin ayrılmaz tərkib hissəsidir. Bununla yanaşı Azərbaycan Respublikasının Konstitusiyası Azərbaycan Respublikasında ən yüksək hüquqa malik olduğu bəyan edilmişdir.

Qadın hüquqlarının və azadlıqlarının Konstitusiyada bu səviyyədə və bu genişlikdə nəzərdə tutulması, onun ayrı-ayrı normalarının tətbiqi sahəsində əsas ağırlıq mərkəzinin dövlətdaxili müdafiə mexanizmlərinin üzərinə düşdüyünü göstərir.Ölkəmizdə ilk dəfə olaraq, hüquqi dövlətin tələblərinə tam cavab verən qanunverici, icra və məhkəmə orqanlarının, bələdiyyələrin, qeyri-hökumət təşkilatlarının hüquqları, vəzifələri və məsuliyyəti normativ hüquqi aktlarla tənzim edilir. Bu orqanların fəaliyyətinin başlıca prinsiplərindən biri də qanunçuluq, insan hüquqlarına və azadlıqlarına əməl edilməsinin təmin olunması prinsipidir. İnsan hüquqlarının və azadlıqlarının, o cümlədən qadın hüquqlarının və azadlıqlarının pozulması, onun dərəcəsindən asılı olaraq məsuliyyətə səbəb olur. Qadın hüquqları və azadlıqları sahəsində qanunve-

rici, icra və məhkəmə orqanlarının vəzifələri qanunvericilikdə birbaşa, əhatəli və mükəmməl bir formada təsbit olunmuşdur. Bu sahədə müstəqillik illərində ölkəmizdə ardıcıl, sistemli və qətiyyətli tədbirlər görülmüşdür. İnsan və vətəndaş hüquqlarının və azadlıqlarının təmin edilməsi dövlətimizin ali məqsədi hesab olunur. Konstitusiyamızda göstərilən insan və vətəndaş hüquqları və azadlıqları, o cümlədən qadın hüquqları və azadlıqları Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrə uyğun olaraq tətbiq edilir. Konstitusiyada göstərildiyi kimi ölkəmizdə mülkiyyət insan və vətəndaş hüquqları və azadlıqları... şəxsiyyətin ləyaqəti əleyhinə istifadə edilə bilməz.[1] Eyni zamanda, insan ləyaqətini alçaldan və ya insanpərvərlik prinsiplərinə zidd olan dinlərin və dini cərəyanların yayılmasının və təbliğinin qadağan edilməsi ölkəmizdə humanizm və ədalət prinsiplərinin tələblərinə tamamilə cavab verir. Hər kəsin doğulduğu andan toxunulmaz, pozulmaz və ayrılmaz hüquqları və azadlıqları olduğu bəyan edilməklə, eyni zamanda bu hüquqların və azadlıqların hər kəsin cəmiyyət və başqa şəxslər qarşısında məsuliyyətini və vəzifələrini əhatə etməsi, qadın hüquqlarının və azadlıqlarının müdafiəsi və mühafizəsi üçün mühüm əhəmiyyət kəsb edir. Konstitusiyada ayrıca qeyd edilmişdir ki, hər kəsin, o cümlədən hər bir qadının qanunla qadağan olunmayan üsüllarla və vasitələrlə öz hüquqlarını və azadlıqlarını müdafiə etmək hüququ vardır. Bu da ondan irəli gəlir ki, dövlətimiz, hər bir qadının hüquqlarının və azadlıqlarının müdafiə olunacağına Konstitusiyamızın 26-cı maddəsində nəzərdə tutulan təminatları vermişdir.

Azərbaycan Respublikası Konstitusiyasının 71-ci maddəsinin tələbinə görə insan və vətəndaş hüquqlarını və azadlıqlarını gözləmək və qorumaq qanunvericilik, icra və məhkəmə hakimiyyəti orqanlarının borcu hesab olunur. Bu mənada insan və vətəndaş hüquqlarının və azadlıqlarının həyata keçirilməsini heç kəs məhdudlaşdırıla bilməz. Hətta müharibə vəziyyətində belə məhdudlaşdırıla bilməyən hüquq-

[1] Azərbaycan Respublikasının Konstitusiyası, Bakı, 2014, s.9

ların və azadlıqların dairəsi dəqiq müəyyən edilmişdir. «Mülki və siyasi hüquqlar haqqında» Paktın 4-cü maddəsində, «İnsan hüquqlarının və əsas azadlıqlarının müdafiəsi haqqında» Avropa Konvensiyasının 15-ci maddəsində, «İnsan hüquqları haqqında» Amerika Konvensiyasında insanın yaşamaq hüququnun, qanunla şəxs qismində tanınma hüququnun, vicdan, fikir və din azadlığının, ailə hüquqlarının, vətəndaşlıq hüququnun, məhkəmə müdafiəsi hüququnun və sair bu kimi hüquqlarının və azadlıqlarının məhdudlaşdırılması yol verilməz hesab edilir. İstər beynəlxalq və istərsə də konstitusiya hüququnda hər kəsin hüquqlarının və azadlıqlarının məhdudlaşdırılması yalnız Azərbaycan Respublikasının Konstitusiyasında, digər müvafiq normativ hüquqi aktlarda müəyyən edilmiş hallarda və əsaslarda məhdudlaşdırıla bilər. Belə məhdudlaşdırmaların qanuniliyinə və əsaslılığına dövlət tərəfindən ciddi nəzarət edilir və tənzim olunur.

Azərbaycanda hüquqi dövlət prinsiplərinə uyğun olaraq qanunla qadağan olunmayan hər bir hərəkətin edilməsinə icazə verilir. İnsan və vətəndaş hüquqlarının və azadlıqlarının pozulması ilə əlaqədar mübahisələr dövlətin yaratdığı məhkəmələr tərəfindən ədalət mühakiməsi qaydasında həll edilir.

Azərbaycan Respublikasının Konstitusiyası ilə müəyyən edilmiş qadın hüquqlarının və azadlıqlarının təşkilati hüquqi baxımdan təmin olunması və müdafiəsi sahəsində kompleks mexanizmlər fəaliyyət göstərir. İnsan hüquqlarının və azadlıqlarının məhdudlaşdırılması, beynəlxalq və Avropa hüququnda, Azərbaycan Respublikasının Konstitusiyasında, digər normativ hüquqi aktlarda nəinki nəzərdə tutulmuş, habelə bu məhdudlaşdırmaların hüquqi əsasları, prosedur qaydaları, müddətləri, üsulları və vasitələri dəqiq müəyyən edilmişdir. Qadın hüquqlarının və azadlıqlarının məhkəmə müdafiəsi, hüquqi yardım almaq hüququ və təkrar müraciət etmək hüququ, məhkəmə aidiyyatının dəyişməzliyi, təqsirsizlik prezumpsiyası, bir cinayətə görə təkrar məhkum etmənin yolverilməzliyi, qohumların əleyhinə ifadə verməyə məcbur etməyə yol verilməməsi, tutulan, həbsə alınan və cinayət törədilməsində ittiham edilən şəxslərin hüquqlarının qorunması və təminatı dəqiq müəyyən edilmişdir. Bu hüquqların icrası və həyata keçirilməsi mexanizm-

ləri cinayət, mülki, inzibati və konstitusiya icraatını tənzim edən prosessual məcəllələrlə tənzim edilir və bu qaydaların pozulması nəticəsindən asılı olaraq müvafiq məsuliyyətə səbəb olur.

Qadın hüquqlarının və azadlıqlarının hüquqi təminatı mexanizmləri onun həyata keçirilməsinin mühüm atributlarından hesab edilir. Qanunvericilik belə təminatlar sistemində daim təkmilləşdirmələr aparır, onu daha çevik, daha səmərəli və daha təsirli mexanizmlərlə təmin etməyə çalışır. Bu mexanizmlər sırasında insan hüquqlarının və azadlıqlarının məhkəmə müdafiəsi, icra hakimiyyəti orqanlarının vasitəsilə və beynəlxalq təşkilatların səyləri ilə həyata keçirilməsi təcrübəsi ölkəmizdə geniş yayılmışdır. Hüquqi dövlətdə bu müdafiə mexanizmləri insan hüquqlarının və azadlıqlarının üstünlüyü, müdafiə vasitələrinin alternativliyi, məqsədəmüvafiqliyi, müdafiə vasitələrində seçimin sərbəstliyi və digər bu kimi geniş yayılmış prinsiplərə söykənməsi, onun reallığından və təminatından xəbər verir. Belə prinsiplərin əhəmiyyəti insan hüquqlarının daha etibarlı təminatının təşkilati hüquqi əsaslarını təşkil edir. Müstəqillik illərində qadın hüquqlarının beynəlxalq normalar əsasında milli qanunvericiliyə gətirilməsi və milli mexanizmlərin yaradılması istiqamətində səmərəli fəaliyyət həyata keçirilmiş, ümumiyyətlə Azərbaycan Respublikasında qadın hüquqlarının və azadlıqlarının əsas dairəsinin müəyyən edilməsi, bu hüquqların və azadlıqların qorunması, müdafiəsi və mühafizəsi sahəsində səmərəli tədbirlər görülmüşdür. Ölkəmizdə qadın hüquqlarının və azadlıqlarının və onlara layiqli həyat səviyyəsinin təmin edilməsi Azərbaycan dövlətinin ali məqsədi olduğu istiqamətində tədbirlər daimi təkmilləşdirilir. Konstitusiyaya referendum yolu ilə edilmiş əlavələr və dəyişikliklər bunu tamamilə təsdiq edir. Beynəlxalq hüquq sisteminin üstünlüyünü tanıyan ölkəmizdə insan hüquqlarının və azadlıqlarının Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrə uyğun olaraq tətbiq edilməsi qaydası dəqiq müəyyən edilmişdir. Ölkəmizdə hər bir qadının qanunla qadağan olunmayan üsullarla və vasitələrlə öz hüquqlarını və azadlıqlarını müdafiə etmək imkanı vardır. Bu da hər bir qadının doğulduğu andan toxunulmaz, pozulmaz və ayrılmaz hüquqlarının və azadlıqlarının olması prinsipinin mühüm əhəmiyyət kəsb etdiyini təs-

diq edir. Qadın hüquqlarının və azadlıqlarının həcmi və dairəsi cəmiyyət və başqa şəxslər qarşısında məsuliyyətin və vəzifələrin məcmusunu əhatə etməklə, biri digərini tamamlayır. Qadına münasibətdə Azərbaycan Respublikasının Konstitusiyasında təsbit edilmiş insan və vətəndaş hüquqlarının və azadlıqlarının qorunmasını, müdafiəsini və mühafizəsini təmin etmək və qorumaq qanunvericilik, icra və məhkəmə hakimiyyəti orqanlarının borcu hesab edilir. Bu hüquqların məhdudlaşdırılması və pozulması yolverilməzdir. Hər bir qadının hüquqları və azadlıqları Azərbaycan Respublikası Konstitusiyasında və digər normativ hüquqi aktlarında dəqiq müəyyən edilməklə, onların yalnız digər şəxslərin hüquqlarının və azadlıqlarının pozulmasına səbəb olacaq dərəcədə və həddə məhdudlaşdırıla bilər. Müharibə, hərbi vəziyyət və fövqəladə vəziyyət, habelə səfərbərlik elan edilərkən qadına münasibətdə insan və vətəndaş hüquqlarının və azadlıqlarının məhdudlaşdırılması, habelə bu vəziyyətlərdə həyata keçirilməsinin prosedur qaydaları dəqiq müəyyən edilmişdir. Bu hüquqlar göstərilən vəziyyətlərdə Azərbaycan Respublikasının beynəlxalq öhdəliklərini nəzərə almaq şərti ilə qismən və müvəqqəti olaraq məhdudlaşdırıla bilər. Həyata keçirilməsi məhdudlaşdırılan hüquqlar və azadlıqlar haqqında əhaliyə qabaqcadan məlumat verilməs qaydası nəzərdə tutulmuşdur. Qadına münasibətdə insan və vətəndaş hüquqlarının və azadlıqlarının pozulması ilə əlaqədar olan mübahisələrin məhkəmə qaydasında həll edilməsi qanunvericilikdə tam nəzərdə tutulmuşdur. Qadın hüquqlarının və azadlıqlarının ədalətli məhkəmə müdafiəsinə təminat verilir. Eləcə də qadın, onun mülki hüquq və vəzifələri müəyyən edilərkən və ya ona qarşı hər hansı cinayət qaydasında hər hansı ittiham irəli sürülərsə, belə halda qanuni əsaslarla yaradılmış müstəqil və qərəzsiz məhkəmə vasitəsi ilə ağlabatan müdafiə işinin ədalətli və açıq araşdırması hüququ təmin olunmalıdır. Buna görə də qadın dövlət orqanlarının, siyasi partiyaların, həmkarlar ittifaqlarının və digər ictimai birliklərin, vəzifəli şəxslərin qərarlarından və hərəkətlərindən (yaxud hərəkətsizliyindən) məhkəməyə şikayət hüququna malikdir. Qadının yüksək keyfiyyətli hüquqi yardım almaq və səmərəli hüquqi müdafiə vasitələrindən istifadə etmək hüququ qanunvericilikdə birbaşa öz ifadəsini tapmışdır. Bu zaman

qadın nəzərdə tutulmuş hallarda hüquqi yardımı ödənişsiz və ya dövlət hesabına almaq hüququ vardır. Belə ki, hər bir qadın səlahiyyətli dövlət orqanları tərəfindən tutulduğu, həbsə alındığı, cinayət törətməkdə ittiham olunduğu andan müdafiəçinin köməyindən istifadə etmək hüququndan yararlana bilər. Qadın onun işinə qanunla müəyyən edilmiş məhkəmədə baxılması hüququndan istifadə edə bilər və eyni zamanda qadının öz razılığı olmadan onun işinə başqa məhkəmədə baxılması yol verilməz hesab edilir.

Məhkəmənin məhkum etdiyi hər bir qadının haqqında çıxarılmış hökmə qanunla nəzərdə tutulan qaydada yuxarı məhkəmədə yenidən baxılması, özünün əfv edilməsi və cəzasının yüngülləşdirilməsi haqqıda müraciət etmək hüququ vardır. Qadının bir cinayətə görə təkrarən məhkum edilə bilməsi yolverilməzdir. Eləcə də, qadının özünə, ərinə, övladlarına, valideynlərinə, qardaşına, bacısına qarşı ifadə verməyə məcbur edilməsi qanunvericiliklə qadağan edilmişdir. Səlahiyyətli dövlət orqanlarının tutduğu, həbsə aldığı, cinayət törədilməsində təqsirləndirdiyi hər bir qadına dərhal onun hüquqları bildirilir və tutulmasının, həbsə alınmasının və cinayət məsuliyyətinə cəlb edilməsinin səbəbləri izah edilir. Cinayət törədilməsində təqsirləndirilən hər bir qadın məhkum edilməzdən əvvəl dinlənilməlidir. Cinayət, habelə hakimiyyətdən sui-istifadə etmə nəticəsində zərər çəkmiş qadının hüquqları qanunla qorunur. Zərər çəkmiş qadının ədalət mühakiməsində iştirak etmək və ona vurulmuş zərərin ödənilməsini tələb etmək hüququ vardır. Hər bir qadının dövlət orqanlarının, yaxud onların vəzifəli şəxslərinin qanuna zidd hərəkətləri və ya hərəkətsizlikləri nəticəsində vurulmuş zərərin dövlət tərəfindən ödənilməsini tələb etmək hüququ vardır.

Beynəlxalq birlik qarşısında götürülmüş öhdəliklərə, hüquqi və sosial dövlət quruculuğu prinsiplərinə uyğun olaraq Azərbaycan Respublikasında qadın hüquqlarının və azadlıqlarının qorunmasını, müdafiəsini və mühafizəsini müvafiq icra hakimiyyəti, məhkəmə və prokurorluq orqanları, ictimai birliklər, həmkarlar ittifaqları təşkilatları, fiziki və hüquqi şəxslər təmin etməyə borcludurlar. Azərbaycan Dövləti hər bir qadının rifahinin yüksəldilməsinin, onun sosial müdafiəsinin və layiqli həyat səviyyəsinin qayğısına qalma siyasətini həyata keçirir. Bu

da ondan irəli gəlir ki, cəmiyyətin əsas özəyi kimi ailə dövlətin xüsusi himayəsindədir. Uşaqların qayğısına qalmaq və onları tərbiyə etmək valideynlərin - ərin və arvadın borcudur. Bu borcun yerinə yetirilməsinə və qadın hüquqlarının qorunmasına, müdafiəsinə və mühafizəsinə dövlət tərəfindən nəzarət edilir.

«Ümumdünya insan hüquqları Bəyannaməsi»nə, «Avropa insan hüquqları» Konvensiyasına, «İqtisadi, sosial və mədəni hüquqlar haqqında Beynəlxalq Pakt»a, «Mülki və siyasi hüquqlar haqqında Beynəlxalq Pakt»a və digər beynəlxalq hüquqi sənədlərə əsaslanaraq Azərbaycan Respublikası Konstitusiyasının 26-cı maddəsi hər kəsin qanunla qadağan olunmayan üsul və vasitələrlə öz hüquqlarını və azadlıqlarını müdafiə etmək hüququnu təsbit etmişdir.[1] Beynəlxalq konvensiyalara qoşulduqdan sonra ölkəmizdə qanunvericilik yolu ilə qadın hüquqlarının müdafiəsi məsələsi məhkəmə, prokurorluq, polis, insan hüquqları üzrə müvəkkil (Ombudsman), Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi, digər çoxsaylı dövlət və qeyri-hökumət təşkilatları tərəfindən həyata keçirilir. Ölkəmizdə icra hakimiyyəti strukturuna tabe olan bütün hüquq mühafizə orqanlarının mükəmməl bir sistemi fəaliyyət göstərir. Bu orqanların fəaliyyətinin ən əsas prinsiplərindən biri qanunçuluq prinsipi hesab olunur. İnsan hüquqlarının və azadlıqlarının müdafiəsi və mühafizəsi sahəsində səmərəli tədbirlərin həyata keçirilməsi, hüquq mühafizə orqanlarının istisnasız olaraq hər birinin fəaliyyətində əsas və vacib vəzifə kimi diqqətdə saxlanılır. Qadın hüquqlarının müdafiəsinin konkret olaraq müvafiq icra hakimiyyəti, məhkəmə və prokurorluq orqanları, bələdiyyələr, ictimai birliklər, həmkarlar ittifaqları təşkilatları və digər qurumlar tərəfindən həyata keçirilməsi qanunvericilikdə birbaşa təsbit olunmuşdur.[2]

İnsan hüquqlarının və azadlıqlarının beynəlxalq müdafiə mexanizmləri nə qədər mükəmməl və səmərəli olsalar da, onlar heç

[1] Azərbaycan Respublikasının Konstitusiyası. Bakı, «Hüquq ədəbiyyatı» nəş., 2009. s.14-15

[2] Yeni sənədlər, Qanun toplusu. Bakı, «Qanun», 1998. № 15-16. s.15

bir halda ölkədaxili mexanizmləri əvəz edə bilmir və yalnız bu mexanizmlərin tərkib hissəsi kimi fəaliyyət göstərdikdə səmərəli nəticələr verir. Bu da onu göstərir ki, hər bir inkişaf etmiş dövlətdə qadın hüquqlarının müdafiəsini təmin edən beynəlxalq vasitələrlə və mexanizmlərlə yanaşı, ölkədaxili milli mexanizmlərdən də qətiyyətlə və yaradıcılıqla istifadə edilməsi çox vacibdir. Beynəlxalq mexanizmlərdən fərqli olaraq milli mexanizmlər heç də bütün ölkələrdə eyni deyildir və bir çox hallarda onlar bir-birindən kəskin surətdə fərqlənirlər. Ölkədaxili milli mexanizmlər isə, bir qayda olaraq, əksər dövlətlərdə, yaxud ən azı demokratiyanın yüksək səviyyədə inkişaf etdiyi ölkələrdə oxşar və məqsədyönlü şəkildə fəaliyyət göstərirlər. İnsan hüquqlarının müdafiəsində Azərbaycan Respublikası dövlət orqanlarının rolu bir sıra əsas istiqamətlərə yönəldilir. Bununla belə dövlət orqanları bu problemə dövlətimizin ən ali məqsədinin bilavasitə insan hüquqlarının təmin edilməsi olduğunu nəzərə alaraq yanaşırlar. Dövlət orqanlarının fəaliyyətində ən başlıca istiqamətlərdən biri insan, habelə qadın hüquqlarının müdafiəsinin etibarlı təmin olunmasına istiqamətlənir. İnsan və qadın hüquqlarının qorunmasında dövlət orqanları birgə əməkdaşlıq şəraitində fəaliyyət göstərirlər və öz fəaliyyətlərini bu istiqamətdə sıx surətdə əlaqələndirirlər. Qadın hüquqlarının müdafiəsinin təminatında nəinki dövlətdaxili əməkdaşlığa, həmçinin də həmin dövlət orqanlarının beynəlxalq əməkdaşlığına, qarşılıqlı inteqrasiyasına və təcrübə mübadiləsinə xüsusi diqqət yetirilir.

Qadın hüquqlarının müdafiəsi və təminatı sahəsində Azərbaycan Respublikasında icra hakimiyyətinin rolu onun dövlət həyatında birbaşa bu prosesin əsas iştirakçısı qismində çıxış etməsi ilə izah olunur. İcra hakimiyyətinin Azərbaycan Respublikasının Prezidentinə məxsus olması, ilk növbədə onun insan hüquqları sahəsində əsas fəaliyyət istiqamətlərini müəyyən etməkdən başlanır. Azərbaycan Respublikası Konstitusiyasının 8-ci maddəsinin III hissəsində qeyd olunur ki, Azərbaycan Respublikasının Prezidenti Azərbaycan dövlətinin müstəqilliyinin, ərazi bütövlüyünün və Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilə-

lərə riayət olunmasının təminatçısıdır.[1] Konstitusiyanın 109-cu maddəsində təsbit edilən Azərbaycan Respublikası Prezidentinin səlahiyyətləri sırasına hökumətlərarası beynəlxalq müqavilələrin bağlanması, dövlətlərarası və Azərbaycan Respublikasının qanunlarından fərqli qaydalar nəzərdə tutan hökumətlərarası müqavilələrin təsdiqi və ləğv olunmaq üçün Azərbaycan Respublikasının Milli Məclisinə təqdim edilməsi və s. bu kimi məsələlər daxildir.[2]

Azərbaycan Respublikasının Prezidenti tərəfindən qadın hüquqlarının müdafiəsi və təminatı sahəsində verilən mühüm dövlətdaxili normativ hüquqi aktlar siyasi-hüquqi əhəmiyyətə malik olması ilə seçilir. «İnsan və vətəndaş hüquqlarının və azadlıqlarının təmin edilməsi sahəsində tədbirlər haqqında» Azərbaycan Respublikası Prezidentinin 22 fevral 1998-ci il tarixli Fərmanı; «İnsan hüquqlarının müdafiəsinə dair Dövlət Proqramının təsdiq edilməsi haqqında» Azərbaycan Respublikası Prezidentinin 18 iyun 1998-ci il tarixli Sərəncamı; «Azərbaycan Respublikasında insan hüquqlarının müdafiəsi üzrə Milli Fəaliyyət Planının təsdiq edilməsi haqqında» Azərbaycan Respublikası Prezidentinin 28 dekabr 2006-cı il tarixli Sərəncamı, İnsan hüquq və azadlıqlarının müdafiəsinin səmərəliliyini artırmaq sahəsində Milli Fəaliyyət Proqramının təsdiq edilməsi haqqında 27 dekabr 2011-ci il tarixli Sərəncamı, İnsan alverinə qarşı mübarizə üzrə (2009-2013, 2013-2018-ci illər) Milli Fəaliyyət Planı və s. sənədlər qadın hüquqlarının müdafiəsini təmin edən dövlət və qeyri-hökumət təşkilatlarının fəaliyyət mexanizmlərinin təkmilləşdirməklə yanaşı, həm də bu fəaliyyətin məzmununu əhəmiyyətli dərəcədə zənginləşdirmiş və qüvvələri səfərbər etmişdir.

Azərbaycan Respublikası Milli Məclisinin qadın hüquqlarının müxtəlif sahələrdə tənzimlənməsi sahəsindəki fəaliyyəti əsasən bu sahədəki beynəlxalq konvensiyaların ratifikasiyasından və mühüm beynəlxalq hüquq normalarının implementasiyası üçün milli qa-

---

[1] Azərbaycan Respublikasının Konstitusiyası. Bakı, «Hüquq ədəbiyyatı» nəş., 2009. s.8

[2] Yenə orada, s.53-56

nunvericilik aktlarının hazırlanmasından, müzakirəsindən və qəbulundan ibarət olan ardıcıl və sistemli mərhələləri əhatə edir. Ölkədə 28 dekabr 2001-ci il tarixdə Azərbaycan Respublikasının insan hüquqları üzrə müvəkkil (Ombudsman) institutu yaradılmışdır. Məhz bunun nəticəsi olaraq Azərbaycan cəmiyətində ilk dəfə olaraq Azərbaycan Respublikasının insan hüquqları üzrə müvəkkili (Ombudsman) seçilmişdir. Bu institut yeni yaradılan qurum olmasına baxmayaraq, qadın hüquqlarının müdafiəsinə xüsusi önəm verir. Həmin dövrdən başlayaraq hər il Ombudsmanın hesabatında qadın hüquqlarının vəziyyəti ölkə üzrə təhlil edilir, səciyyəvi hallar, qadın hüquqlarının pozulmasına şərait yaradan amillər və onların aradan qaldırılmasına dair təkliflər hesabatda öz əksini tapır.[1] Bu hesabatların məzmunundan görünür ki, qadın hüquqlarının və azadlıqlarının müdafiəsi sahəsində görülmüş tədbirlər bütün ölkə miqyasında müsbət dəyişikliklərlə səciyyəvidir. Aparılan tədqiqatlar və mövcud vəziyyət ölkəmizdə qadın hüquqlarının və azadlıqlarının təmin edilməsi sahəsində müstəqil «qadın hüquqları üzrə müvəkkilin» – Ombudsmanın təsis edilməsi məsələsinə baxılmasının vacibliyini gündəmə gətirir.

Qadın hüquqlarının müdafiəsi mexanizmləri içərisində ədalət mühakiməsi orqanlarının fəaliyyəti öz təsirinə, səmərəliliyinə və qətiyyətinə görə diqqəti daha çox cəlb edir. Məhkəmə hakimiyyəti, habelə onun insan hüquqlarının müdafiəsinə dair fəaliyyət istiqamətləri Azərbaycan Respublikası Konstitusiyasının VII fəslində təsbit edilmişdir. Məhkəmə müdafiəsi insan hüquqlarının və azadlıqlarının təmin edilməsinin müxtəlif mexanizmlərinin və vasitələrinin ən geniş yayılmış forması hesab olunur. Onun təyinatı yalnız «Mülki və siyasi hüquqlar haqqında Beynəlxalq Pakt»da deyil, həm də «İnsan hüquqları haqqında Ümumi Bəyannamə»də qeyd olunur. Belə ki, Bəyannamənin 8-ci maddəsinə əsasən hər bir insan konstitusiya və ya qanunla ona verilmiş əsas hüquqlarının pozul-

[1] Azərbaycanda insan hüquqlarının və azadlıqlarının təmin edilməsi və müdafiəsinin vəziyyəti (2002-2013-cü illərə dair məruzələrin hesabatı). Bakı, 2002-2013-cü illər

duğu hallarda, səlahiyyətli məhkəmələr tərəfindən bu hüquqlarının səmərəli şəkildə bərpa olunması imkanına malikdirlər. Ümumiyyətlə, məhkəmə orqanları mübahisə və münaqişələrin həlli sahəsində ən legitim qurumlardan biri kimi səciyyələndirilir. Qadın hüquqlarının müdafiəsinin təmin edilməsilə bağlı məhkəmə orqanlarının sistemi və onların fəaliyyət qaydası hər bir dövlətin hüquq sisteminin fəaliyyətini tənzim edən qanunlarla müəyyən edilir. Beynəlxalq hüquq isə məhkəmə fəaliyyətinin ayrı-ayrı normativ və prosessual məsələlərinə dair əsas standartları müəyyən edir. Bu mənada hər kəsin məhkəmə qarşısında bərabərliyi, təqsirləndirilən şəxsin müdafiəçinin hüquq xidmətindən istifadə etməklə həyata keçirilməsi hüququ, pulsuz tərcüməçiyə malik olmaq hüququ və s. bu kimi təminatlarla müşayət olunur.[1]

Qadın hüquqlarının və azadlıqlarının məhkəmə müdafiəsi Azərbaycan Respublikasının konstitusiyasında və qanunlarında bu sahədə beynəlxalq hüquq standartlarına tam uyğunlaşdırılmışdır. «İnsan hüquqları haqqında Ümumi Bəyannamə»nin 8-ci və Azərbaycan Respublikası Konstitusiyasının 60-cı maddəsinə əsasən hər kəsin hüquqlarının və azadlıqlarının məhkəmə müdafiəsinə təminat verilmişdir. Dövlət orqanlarının, siyasi partiyaların, həmkarlar ittifaqlarının və digər ictimai birliklərin, vəzifəli şəxslərin qərarlarından və hərəkətlərindən və yaxud hərəkətizliyindən məhkəməyə şikayət edilə bilər.[2] Eləcə də Azərbaycan Respublikasının Konstitusiyasına görə hər kəs hüquqları pozulduğu hallarda, məhkəməyə müraciət etmək hüququna malikdir. Konstitusiyanın 72-ci maddəsində təsbit edilir ki, hər bir şəxs onun hüquq və azadlıqlarından bilavasitə irəli gələn vəzifələri yerinə yetirməklə, qanunlara tam əməl etməli, digər şəxslərin hüquqlarına və azadlıqlarına hör-

[1] Seyidov Ə. Azərbaycan Respublikası məhkəmə icraatında beynəlxalq hüquq normalarının tətbiqi. Bakı, 2002. s.69-73

[2] Azərbaycan Respublikasının Konstitusiyası. Bakı, «Hüquq ədəbiyyatı» nəş., 2009. s.27

mət etməyə borcludur.[1] Qanunu bilməmək şəxsi məsuliyyətdən azad etmir.

«İnsan hüquqları haqqında Ümumi Bəyannamə»nin 10-cu və 11-ci maddələrində və Azərbaycan Respublikası Konstitusiyasının 63-cü maddəsində göstərilir ki, hər kəsin təqsirsizlik prezumpsiyası hüququ vardır; Cinayətin törədilməsində təqsirləndirilən hər bir şəxs, onun təqsiri qanunla nəzərdə tutulan qaydada sübuta yetirilməyibsə və bu barədə məhkəmənin qanuni qüvvəyə minmiş hökmü yoxdursa, təqsirsiz sayılır; Şəxsin təqsirli olduğuna əsaslı şübhələr varsa, onun təqsirli bilinməsinə yol verilmir; Cinayətin törədilməsində təqsirləndirilən şəxs özünün təqsirsizliyini sübuta yetirməyə borclu deyildir; Ədalət mühakiməsi həyata keçirilərkən qanunu pozmaqla əldə edilmiş sübutlardan istifadə oluna bilməz. Bütün şübhələr təqsirləndirilən şəxsin xeyrinə həll edilir. Məhkəmənin hökmü olmasa, kimsə cinayətdə təqsirli sayıla bilməz.[2]

«Məhkəmələr və hakimlər haqqında» Azərbaycan Respublikasının 10 iyun 1997-ci il tarixli Qanununun 3-cü maddəsində qeyd olunur ki, Azərbaycan Respublikası məhkəmələrinin fəaliyyəti yalnız ədalət mühakiməsinin və qanunvericiliklə müəyyən edilmiş hallarda və qaydada məhkəmə nəzarətinin həyata keçirilməsinə yönəldilmişdir[3]. Məhkəmələr ədalət mühakiməsini həyata keçirərkən Azərbaycan Respublikası Konstitusiyasında təsbit edilmiş insan və vətəndaş hüquqlarını və azadlıqlarını, mülkiyyət formasından asılı olmayaraq bütün müəssisə, idarə və təşkilatların, siyasi partiyaların, ictimai birliklərin, digər hüquqi şəxslərin hüquqlarını və qanuni mənafelərini hər cür qəsdlərdən və qanun pozuntularından müdafiə edir, Azərbaycan Respublikasının Konstitusiyasında nəzərdə tutulmuş digər vəzifələri həyata keçirirlər. Azərbaycan Respublikası Konstitusiyasının 25-ci maddəsinə əsasən Azərbaycan

[1] Azərbaycan Respublikasının Konstitusiyası. Bakı, «Hüquq ədəbiyyatı» nəş., 2009, s.32
[2] Yenə orada, s.28
[3] «Məhkəmələr və hakimlər haqqında» Azərbaycan Respublikasının Qanunu, Bakı, «Hüquq ədəbiyyatı» nəş., 2008. s.5

Respublikasında ədalət mühakiməsi irqindən, milliyətindən, dinindən, dilindən, cinsindən, mənşəyindən, əmlak vəziyyətindən, qulluq mövqeyindən, əqidəsindən, siyasi partiyalara, həmkarlar ittifaqına və digər ictimai birliklərə mənsubiyyətindən asılı olmayaraq hər bir şəxsin qanun və məhkəmə qarşısında hüquq bərabərliyi əsasında həyata keçirilir[1].

Azərbaycan Respublikasında ədalət mühakiməsi hakimlərin müstəqilliyi təmin edilməklə, heç bir məhdudiyyət qoyulmadan, faktlara əsasən, qərəzsiz, ədalətlə və qanunlara uyğun həyata keçirilir. Hər hansı bir şəxs tərəfindən, hər hansı bir səbəbdən bilavasitə, yaxud dolayısı ilə məhkəmə icraatına məhdudiyyətlər qoyulması, təsir göstərilməsi, hədələmə və ya müdaxilə edilməsi, habelə məhkəməyə qarşı hörmətsizlik nümayiş etdirilməsi, yaxud aşkar etinasızlıqı təzahür etdirən hərəkətlərə yol verilməsi yolverilməzdir. Bütün bunlar Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun surətdə müvafiq məsuliyyətin meydana çıxmasına səbəb olur. Vətəndaşların hüquq və azadlıqlarının məhkəmə müdafiəsinin forması kimi məhkəmə nəzarətinin bərqərar olması və Azərbaycan Respublikasının cinayət-prosessual qanunvericiliyində müstəqil institut kimi nəzərdə tutulması, cinayət mühakimə icraatında şəxsin hüquqlarının təminatının təqdirəlayiq mexanizmlərindən biri qismində çıxış elir. Məhkəmə nəzarətinin həyata keçirilməsi qaydasında məhkəmənin hər kəsin azadlıq, mənzil toxunulmazlığı, şəxsi toxunulmazlıq hüququnu, şəxsi sirrinin saxlanılması hüququnu məhdudlaşdıran, habelə dövlət, peşə və ya kommersiya sirrini özündə əks etdirən məlumatları ilə bağlı istintaq hərəkətlərinin məcburi aparılmasına, prosessual məcburiyyət tədbirlərinin həyata keçirilməsinə dair vəsadətlərə və təqdimatlara, cinayət prosesini həyata keçirən orqanların prosessual hərəkətlərinə və qərarlarına dair şikayətlərə baxılması üzrə geniş səlahiyyətlərə malikdir. Məhkəmə nəzarəti vətəndaşların konstitusiya hüquqlarının və

---

[1] Azərbaycan Respublikasının Konstitusiyası. Bakı, «Hüquq ədəbiyyatı» nəş., 2009. s.13-14

azadlıqlarının müdafiəsi üzrə məhkəmənin müstəqil prosessual funksiyası kimi təzahür edir.

«Konstitusiya Məhkəməsi haqqında» Azərbaycan Respublikasının 23 dekabr 2003-cü il tarixli Qanunun qəbul edilməsi, insan hüquqlarının, o cümlədən qadın hüquqlarının qorunması sahəsində bu orqanın üzərinə mühüm vəzifələr qoymuşdur.[1] Qanunun 1-ci maddəsində göstərilir ki, Azərbaycan Respublikasının Konstitusiya Məhkəməsi Azərbaycan Respublikası Konstitusiyası ilə onun səlahiyyətlərinə aid edilmiş məsələlərə dair ali konstitusiya ədalət mühakiməsi orqanıdır. Konstitusiya Məhkəməsinin əsas məqsədləri Azərbaycan Respublikası Konstitusiyasının aliliyini təmin etməkdən, hər kəsin əsas hüquqlarını və azadlıqlarını müdafiə etməkdən ibarətdir.

Qadın hüquqlarının müdafiəsi hüquq-mühafizə orqanlarının əsas fəaliyyət istiqamətlərindən birini təşkil edir. Bu baxımdan ilk növbədə prokurorluq orqanlarının fəaliyyəti əhali arasında geniş hörmət qazanmış, onların hüquqlarının müdafiəsində müsbət təcrübə ilə seçilmişdir. Prokurorluq və ona oxşar qurumlar dünyanın əksər dövlətlərində fəaliyyət göstərirlər. Bəzi ölkələrdə, o cümlədən Fransa və Almaniyada prokurorluğu kvaziməhkəmə orqanı hesab etmək meyli mövcuddur. Azərbaycan Respublikası təcrübəsində qanunla müəyyən edilmiş qaydada və hallarda qanunların icrasına və tətbiqinə nəzarət edən və Azərbaycan Respublikası Konstitusiyasının 133-cü maddəsinin I hissəsi ilə səlahiyyətinə daxil olan digər məsələlər üzrə fəaliyyət göstərən prokurorluq orqanları ölkə Konstitusiyası ilə məhkəmə hakimiyyətinin tərkib hissəsi kimi nəzərdə tutulmuşdur.[2] «Prokurorluq haqqında» Azərbaycan Respublikasının 7 dekabr 1999-cu il tarixli Qanununun 2-ci maddəsində qeyd olunur ki, Azərbaycan Respublikasının Prokurorluğu məhkəmə hakimiyyəti sisteminə daxil olmaqla ərazi və ixtisaslaş-

[1] «Konstitusiya Məhkəməsi haqqında » Azərbaycan Respublikası Qanunu. Bakı, «Hüquq ədəbiyyatı» nəş., 2004

[2] Azərbaycan Respublikasının Konstitusiyası. Bakı, «Hüquq ədəbiyyatı» nəş., 2009. s.70-71

dırılmış prokurorların Azərbaycan Respublikasının başqa prokuroruna tabeliyə əsaslanan vahid mərkəzləşdirilmiş orqanı hesab edilir.[1] Bu orqan ölkədə qanunların eyni cür və dürüst icrasına, qadınların hüquqlarının və azadlıqlarının qorunmasına nəzarəti həyata keçirir.

Azərbaycan Respublikası ədliyyə orqanlarının fəaliyyəti də insan hüquqlarının təminatı amili üzərində qurulmuşdur. Azərbaycan Respublikası Prezidentinin 18 aprel 2006-cı il tarixli Fərmanı ilə təsdiq elilmiş Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi haqqında Əsasnamənin 1-ci bəndində qeyd edilir ki, Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi qanunvericiliklə müəyyən edilmiş fəaliyyət istiqamətlərinə uyğun olaraq, ədliyyə sahəsində dövlət siyasətini və tənzimlənməsini həyata keçirən, hüquq-mühafizə orqanı statusu olan mərkəzi icra hakimiyyəti orqanlarından biridir. Nazirlik öz fəaliyyətini insan və vətəndaş hüquqlarına və azadlıqlarına hörmət, qanunçuluq və humanizm prinsipləri əsasında qurur. Məhz buna görə də Ədliyyə Nazirliyinin tərkibində insan hüquqlarının müdafiəsi üzrə müstəqil baş idarə fəaliyyət göstərir. Bu idarənin fəaliyyətində qadın hüquqlarının müdafiəsi və mühafizəsinə dair normativ hüquqi aktların hazırlanması, qəbulu, habelə təkmilləşdirilməsi ilə yanaşı, təcrübi məsələlər, eləcə də maarifləndirmə tədbirləri həyata keçirilir. Qadın hüquqlarının müdafiəsi ilə bağlı Nazirliyin Ailə, Qadın və Uşaq Komitəsi ilə birgə keçirdiyi tədbirlər səmərəli nəticələr verir.

İnsan hüquqlarının təminatında milli təhlükəsizlik orqanları da özünəməxsus fəaliyyət xüsusiyyətlərinə malikdir. «Milli Təhlükəsizlik haqqında» Azərbaycan Respublikasının 29 iyun 2004-cü il tarixli Qanununun 1-ci maddəsində göstərilir ki, Azərbaycan Respublikasının milli təhlükəsizliyi – dövlətin müstəqilliyinin, suverenliyinin, ərazi bütövlüyünün, konstitusiya quruluşunun, xalqın və ölkənin milli maraqlarının, insanın, cəmiyyətin və dövlətin hüquq və mənafelərinin daxili və xarici təhdidlərindən qorunmasının təmin edilməsidir. Qadın hüquqlarının müdafiəsi və mühafizəsi mahiyyət etibarilə bütün dövlət

[1] Azərbaycan Respublikası «Prokurorluq haqqında» Qanunu, «Hüquq ədəbiyyatı» nəş., 2009. s.3

orqanlarının, qeyri-hökumət təşkilatlarının çoxsaylı qurumlarının diqqət mərkəzində saxlanılır. Hazırda belə bir koordinasiya yolu əslində hökumətin bütün üzvlərinin təmsil olunduğu Nazirlər Kabinetini, habelə ixtisaslaşmış qurum olan Ailə, qadın və uşaq Problemləri üzrə Dövlət Komitəsinin əsas vəzifələrindən hesab edilir. Son illərdə bu sahədə geniş fəaliyyət həyata keçirilmiş və bu tədbirlər hazırda da intensiv olaraq davam etdirilməkdədir.

Azərbaycanda müstəqillik illərində qeyri-hökumət təşkilatları qadın hüquqlarının mühafizəsi sahəsində müəyyən təcrübə toplamış və ən müxtəlif məsələlər üzrə problemlərin həllinə dəstək olmuşlar. Ölkəmizdə qadının işğəncəyə, qeyri-insani, zorakı hərəkətlərə, belə təhdidlərə, ləyaqəti alçaldan rəftara və ya cəzaya məruz qalması, qadınını köləlikdə və ya asılılıqda saxlanılması, məcburi və ya icbari əməyə cəlb edilməsi qanunla qadağan edilmiş və belə əməllərin nəticəsindən, ictimai təhlükəliliyindən asılı olaraq müxtəlif məsuliyyət növləri nəzərdə tutulmuşdur. Təsadüfi deyildir ki, Azərbaycan Respublikasında «Məişət zorakılığının qarşısının alınması haqqında» 22 iyun 2010-cu il tarixli qanun qəbul edilmiş və bu qanun artıq fəaliyyətə başlamışdır. Hər bir qadın, Azərbaycan Respublikasının qüvvədə olan Əmək, Ailə, Mülki, Milki-Prossesual, Cinayət, Cinayət-Porsessual, İnzibati-Xətalar, İnzibati-İcraat, İnzibati-Prosessual Məcəllələri ilə, digər normativ hüquqi aktlarla, eləcə də Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrlə müəyyən edilmiş hüquqlarından, azadlıqlarından sərbəst istifadə edir və vəzifələrini icra etməməyə görə məsuliyyət daşıyır.[1]

Azərbaycan Respublikasında fəaliyyət göstərən bütün nazirliklərin, dövlət komitələrinin, səhmdar cəmiyyətlərin, bələdiyyələrin, qeyri-hökumət təşkilatlarının fəaliyyəti bu və ya digər dərəcədə qadın hüquqları ilə bağlıdır. İcra hakimiyyəti orqanlarına tabe olan digər dövlət

[1] Həsənzadə S.B. Məişət zorakılığına qarşı mübarizədə ailənin rolu, Adət-ənənələrimiz və müasirlik baxımından bir dəyər olaraq ailə. Beynəlxalq konfrans. Bakı, 2011 «Da» jurnalı, səh.30-41; Həsənzadə S.B. Məişət zorakılığına qarşı mübarizə gücləndirilməlidir, Müstəqil Azərbaycan 20 il. Dövlət, ailə, qadın və uşaq siyasəti. B., 2013, s.208-216

qurumlarının da fəaliyyətində qadın hüquqlarının gözlənilməsi vacib hesab edilir. Bununla belə, qadınlara qarşı ayrı-seçkiliyin qanunla qadağan edilməsinə baxmayaraq, bərabərlik hüququnun təmin olunması sahəsində müəyyən qüsurlar qalmaqdadır. Bu da onu göstərir ki, qanunverici, icra və məhkəmə orqanlarında ayrı-seçkiliyə yol verməmək və bərabərlik hüququnu təmin etmək məqsədi ilə bu orqanlarda çalışan qadınların nisbəti, onlara ayrılan yerlər və təmsilçilik məsələləri xüsusi qanunla tənzim edilməlidir. Yalnız belə olduğu halda tarixi ənənə pozularaq qanunverici, icra və məhkəmə orqanlarında işləyən və fəaliyyət göstərən qadınların sayını artırmaq mümkün ola bilər.

Hüquqi dövlət prinsiplərinə uyğun olaraq ölkədə vətəndaş cəmiyyətinin formalaşması və inkişafına xüsusi önəm verilir. Qeyri-hökumət təşkilatlarının fəaliyyətinin tənzimlənməsi sahəsində zəruri normativ-hüquqi aktlar yaradılmış, bu təşkilatlara dəstək göstərilməsi üçün xüsusi qurum təsis edilmişdir. Dövlət və ictimai – siyasi həyatın ən müxtəlif məsələlərinin həllində qeyri-hökumət təşkilatlarının rolu artmaqdadır. Ailə, qadın və uşaq problemlərinin öyrənilməsində və onun problemlərinin həllində qeyri-hökumət təşkilatlarının iştirakı surətlə genişlənir. Hazırda ölkədə fəaliyyət göstərən üç minə qədər qeyri -hökumət təşkilatının yüz əllisi ailə, qadın və uşaq problemlərinin müxtəlif məsələləri ilə məşğuldur. Qadın hüquqlarının vəziyyətinin öyrənilməsi, onun problemlərinin müəyyən edilməsi, aradan qaldırılması sahəsində təkliflərin verilməsi, qadın hüquqlarının təbliğinə xüsusi önəmin verilməsi, bu təşkilatların fəaliyyətində geniş yayılmışdır. Dövlətin ictimai – siyasi həyatında vətəndaşların iştirakının mühüm forması kimi yaradılan qeyri – hökumət təşkilatları nəinki qadın hüquqlarının qorunmasında fəallıq göstərirlər, habelə onlar öz fəaliyyətlərinə işgüzar qadınları da cəlb etməklə əhalinin bu vacib məsələdə fəallığının artırılmasına dəstək olurlar.

Beləliklə, müasir dövrümüzün reallığı bundan ibarətdir ki, bu gün qadına hörmət və onun şəxsiyyətinə xüsusi diqqət yetirilməsi ümumdünya insan hüquqları mədəniyyətinin tərkib hissəsi kimi formalaşmaqdadır. Bu isə insan və qadın hüquqları sahəsində elmi biliklərin intensiv inkişafı, insan hüquqlarına və əsas azadlıqlarına qarşı hörmətin

artırılması, ləyaqət hissinin hərətərfli yüksəlişi, bütün millətlərin və xalqların, dinlərin və dillərin, irqlərin və cinslərin qarşılıqlı anlaşılması, tolerantlığı, cinsi bərabərlik və dostluq münasibətlərinin qurulmasına və yüksəlişinə ciddi səy göstərilməsini tələb edir. İnsanlar arasında, qadınlar və kişilər arasında düzgün münasibətin, dostluğun və səmimiyyətin, sevginin və məhəbbətin təşəkkülü, mahiyyət etibarı ilə ailədə, cəmiyyətdə və yer üzündə sülhün və əmin-amanlığın, ədalətin və insan rifahının başlıca şərti kimi dəyərlidir. Belə dostluq və sevgi eyni zamanda bütün bəşəriyyətin arzusudur. Barış, inkişaf və tərəqqi yalnız qadına hörmətin, diqqətin və məhəbbətin təntənəsi şəraitində mümkündür. Bəşəriyyət bu niyyətlə və bu arzu ilə bu gün daha geniş amallar uğrunda ardıcıl və sistemli fəaliyyət göstərməkdən dəyərli heç bir şey tanımır.[1]

---

[1] Hasanzade S.B. Safeguard of women and children's rights in extreme conditions, Elmi əsərlər, 2013, 1(20), s. 143-150; Həsənzadə S.B. Dövlət idarəçiliyinin səmərəliliyi – ailə problemlərinin həllinin mühüm vasitəsi kimi, "Səmərəli dövlət idarəçiliyi: zamanın çağırışları" adlı beynəlxalq elmi konfransın materialları. 05-06 dekabr 2011. B., 2012, səh.543-551; Həsənzadə S.B. Cəmiyyətdə ailənin rolu gücləndirilməlidir, «Hüquq elminin müasir problemləri» I respublika konfransının materialı. 17-18 oktyabr 2011, s.64-68

# NƏTİCƏ

Qadın hüquqları ümumtanınmış insan hüquqlarının və azadlıqlarının tərkib hissəsi olsa da, lakin bu gün o, müstəqil hüquq institutu kimi formalaşmış və müstəqil tədqiqat mövzusuna çevrilmişdir. Qadın hüquqlarının və azadlıqlarının beynəlxalq hüquqda və konstitusiya hüququnda mükəmməl təsbit olunması uzun əsrlər boyu aparılan mübarizənin nəticəsi kimi səciyyələndirilə bilər. Lakin müxtəlif səviyyələrdə və müxtəlif yanaşmalarda, müxtəlif ölkələrdə və müxtəlif zaman kəsiyində, müxtəlif tədqiqatçılar tərəfindən müxtəlif aspektlərdə aparılan araşdırmalar, bu sahədə nəzəri və təcrübi baxımdan ciddi problemlərin hələ də qaldığına şəhadət verir. Buna görə də qadın hüquqları probleminin beynəlxalq və konstitusiya hüququ baxımından müstəqil olaraq vaxtaşırı tədqiqatlara cəlb edilməsi, onun problemlərinin müəyyən edilməsi, həll olunması, beynəlxalq və milli səviyyədə öyrənilməsi və boşluqlarının aradan qaldırılması kifayət qədər aktual və əhəmiyyətli hesab olunmalıdır. Bu, müasir dövrümüzün və cəmiyyətimizin sifarişi kimi olduqca vacibdir.

Beynəlxalq hüquq normalarının müxtəlif növlərinin tədqiqi, bu sahədə aparılan araşdırmalar, ümumiləşdirmələr və təhlillər bir mənalı şəkildə təsdiq edir ki, qadın hüquqlarının və azadlıqlarının beynəlxalq və konstitusiya hüququ sahəsində əsas standartlarının müəyyənləşdirilməsi mərhələsi artıq başa çatmışdır. Müxtəlif səviyyələrdə olan bu normativ hüquqi aktların əsas qayəsi ondan ibarətdir ki, qadın və kişi hüquqlarının bərabərliyi cəmiyyətdə, dövlətdə, ailədə tam təmin olunmalı, cinsi əlamətlərə görə ayrı seçkilik qadağan edilməli, qadınlara cəmiyyətin digər üzvləri ilə birlikdə bərabər hüquqlar və azadlıqlar verilməli və bu dəyərlərin təminatları üçün qətiyyətli tədbirlər görülməlidir. Uzun illər nəzəri və təcrübi baxımdan ayrı – seçkiliyin qadağan edilməsi və bərabərlik hüququnun qanunvericilik yolu ilə təsbit olunmasına baxmayaraq, hələ də ölkəmizdə siyasi və idarəçilik fəaliyyətində qadınların təmsilçiliyi sahəsində müvafiq fərqlər qalmaqdadır. Buna görə də qadınların qanunverici, icra və məhkəmə orqanlarında işləməsinə dair kvotalar dəqiq müəyyən edilməli və onun icrası üçün qətiy-

yətli tədbirlər görülməsi təmin olunmalıdır. Eyni qaydada, təhsildə, səhiyyədə, elmdə, mədəniyyətdə, incəsənətdə qadınların iştirakının və rolunun artırılması üçün müvafiq tədbirlər görülməlidir.

Tədqiqatlar göstərir ki, qadınların mülki, siyasi, iqtisadi, sosial hüquqları, onların digər hüquqları və azadlıqları ilə üzvi surətdə əlaqələndirilməklə analıq hüququ, uşaqların doğulmasında, böyüdülməsində və tərbiyə olunmasında, maddi istehsal və digər əmək şəraitlərində qadın sağlamlığının və əmək mühafizəsi qaydalarının təmin olunmasına diqqətin artırılması olduqca vacibdir. Milli qanunların beynəlxalq hüququn aparıcı mahiyyət daşıyan normativ hüquqi aktlarına – konvensiyalara, sazişlərə, paktlara, bəyannamələrə, protokollara uyğunlaşdırılması və implementasiyası sahəsində ardıcıl və sistemli tədbirlər sona qədər davam etdirilməlidir. Eləcə də qadın hüquqlarının və azadlıqlarının müdafiəsi sahəsində işlək, mükəmməl və çevik mexanimzlərin yaradılması və onun fəaliyyətinin intensiv olaraq təkmilləşdirilməsi olduqca vacibdir. Bu sahədə qadın hüquqları üzrə müstəqil müvəkkillik (Ombudsman) institutunun yaradılması məsələsi nəzərdən keçirilməlidir.

Dağlıq Qarabağ münaqişəsi kontekstində qadın hüquqlarının kütləvi və təhlükəli formada pozulması və ağır nəticələrin aradan qaldırılması bu münaqişənin beynəlxalq hüququn prinsipləri və normları əsasında həllini tələb edir. Qadınlara qarşı sülh və insanlıq əleyhinə və müharibə cinayətləri törətmiş şəxslərin əməllərinə beynəlxalq cinayət məhkəməsində baxılması olduqca vacib və zəruridir. Bununla əlaqədar olaraq ölkənin hüquq mühafizə orqanları üzərinə mühüm vəzifələr düşür. Bu baxımdan sülh və insanlıq əleyhinə olan cinayətləri törətmiş şəxslərin məsuliyyət məsələsinin həll edilməsi üçün Dağlıq Qarabağ münaqişəsi üzrə beynəlxalq hərbi tribunalın yaradılması üçün məsələ qaldırılması vacib hesab edilməlidir.

Qadın hüquqları və azadlıqları cəmiyyətin dinamik inkişafı ilə sıx surətdə bağlıdır. Cəmiyyətdə, dövlət həyatında və ailədə baş verən proseslər, bu hüquqların və azadlıqların vaxtaşırı olaraq öyrənilməsinə və bu hüquqların etibarlı şəkildə mühafizə olunmasını təmin edən tədbirlərin görülməsinə zərurət yaradır. Buna görə də Ailə, Qadın və Uşaq

hüquqları üzrə müstəqil elmi tədqiqat institutunun yaradılması məsələsi diqqətdə saxlanılmalıdır.

Tarixi faktlar göstərir ki, tarixən Azərbaycanda qadına həmişə böyük diqqət və hörmət göstərilmişdir. Bunun əsas təməli etiraf edilməlidir ki, islamda qadın hüquqlarına və azadlıqlarına verilən xüsusi diqqətdən qaynaqlansa da, bununla belə milli adətlər və ənənələr, tarixi zəminlər və dəyərlər, milli mentalitet və milli mədəniyyət elementləri zaman-zaman formalaşmış və kamillik səviyyəsinə yüksəlmişdir. Buna görə də Şərq ölkələrində ilk dəfə olaraq məhz Azərbaycanda qadınların hüquqlarının artırılması normativ hüquqi səviyyədə təsbit olunmuşdur. Azərbaycan qadını təhsildə, mədəniyyətdə, səhiyyədə, diplomatiyada, elmdə, dövlət idarəçiliyində böyük uğurlar qazanmış və cəmiyyətin ona göstərdiyi etimadı uğurla doğrultmuşdur. Bütün bunlar nəzərə alınaraq ölkəmizdə ilk dəfə də olsa «Azərbaycan Respublikasında qadın hüquqları və azadlıqları haqqında Qanun»un Layihəsinin hazırlanması vacib hesab edilmişdir.

Qadın hüquqları ilə bağlı tənzimlənmə məsələləri müxtəlif hadisələr və proseslərlə bağlı olaraq ayrı-ayrı konvensiyalarda və bəyannamələrdə öz mükəmməl ifadəsini tapmışdır. Hesab edirik ki, qadın hüquqlarının və azadlıqlarının beynəlxalq miqyasda tənzimlənməsinə dair konvensiyalardan uzun illər keçməsi, beynəlxalq münasibətlərdə və beynəlxalq hüquqda baş verən mühüm keyfiyyət dəyişiklikləri və digər zəruri amillər nəzərə alınaraq, dünya birliyi ölkələrinin birgə səyi ilə BMT-nin himayəsi altında «Qadın hüquqları və azadlıqları haqqında 21-ci əsrin müfəssəl Konvensiyası»nın hazırlanması və qəbul edilməsi vacibdir. Bu Konvensiyanın icra mexanizmlərinin müstəqil fəsildə göstərilməsi mühüm əhəmiyyət kəsb edərdi.

Ölkədə qadın hüquqlarının və azadlıqlarının normativ hüquqi bazası daim təkmilləşdirilməli və beynəlxalq hüququn tələblərinə uyğunlaşdırılmalıdır. Milli müdafiə mexanizmlərinin təkmilləşdirilməsi də olduqca vacibdir. Bu tələbləri nəzərə alaraq müəllif tərəfindən «Azərbaycan Respublikasında qadın hüquqları və azadlıqları haqqında» Qanun layihəsi hazırlanmış və müvafiq qurumlara təqdim edilmişdir. Əminliklə demək olar ki, belə bir Qanunun qəbul edilməsi qadının hü-

quqlarının və azadlıqlarının hüquqi tənzimlənməsi və etibarlı müdafiəsi sahəsində mühüm dəyişikliklərə səbəb olacaqdır.

Azərbaycanda qadın hüquqlarının və azadlıqlarının tənzimlənməsi, müdafiəsi və mühafizəsi sahəsində, təşkilatı-hüquqi mexanizmlərin yaradılması və inkişafı sahəsində müstəqillik illərində mühüm, planlı və kompleks tədbirlər görülməsinə baxmayaraq, beynəlxalq və milli təsisatların fəaliyyətinin təkmilləşdirilməsi və yeni çevik mexanizmlərin yaradılması sahəsində tədbirlərin görülməsi vacibdir.

Azərbaycan Respublikası qadın hüquqlarının və azadlıqlarının qanunvericilikdə təsbit olunmsı, onun müdafiəsi və mühafizəsi sahəsində beynəlxalq birlik qarşısında öz üzərinə götürdüyü öhdəliklərin icrasını yüksək səviyyədə təmin etməkdədir. İnsan hüquqlarının və azadlıqlarının aktual mahiyyət kəsb etdiyi bir dövrdə qadın hüquqlarının və azadlıqlarının beynəlxalq və konstitusiya hüququnda tənzimlənməsi, təkmilləşdirilməsi, müdafiəsi və mühafizəsi mühüm elmi və təcrübi əhəmiyyətə malikdir. Qadın hüquqlarının və azadlıqlarının beynəlxalq hüququ tənzimlənməsi sahəsində görülmüş tədbirlər bəşəriyyətin hüquq düşüncəsinin və hüququ təfəkkürünün tarixi nailiyyəti kimi qiymətləndirilməli və bu sahədə elmi nəzəri araşdırmaların yeni meyarları önə çəkilməlidir. Hər bir hüquqi təsisat və hüquqi problem kimi bu məsələnin də daim öyrənilməsi və inkişaf etdirilməsi vacib və zəruridir.

Cəmiyyətin özəyini təşkil edən ailənin, habelə qadın və uşaqların hüquqlarının və azadlıqlarının qorunmasına, mənafelərinin gözlənilməsinə diqqət artırılmalı, təşkilati-hüquqi tədbirlər və bu istiqamətdə dövlət idarəçiliyinin səmərəliliyinin və effektivliyinin artırılmasına xüsusi diqqət yetirilməsi vacibdir. Bunları şərti olaraq aşağıdakı kimi qruplaşdırmaq olar:

- Birləşmiş Millətlər Təşkilatının, Avropa Şurasının, Avropa İttifaqının, Avropa Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatının (ATƏT) insan hüquqlarının və azadlıqlarının qorunması sahəsində müvafiq qərarların və sərəncamların icrasını təmin etmək üçün NATO-nun nəzdində və ya müstəqil olaraq yeni ixtisaslaşdırılmış xüsusi beynəlxalq qurumun yaradılması sahəsində tədbirlər görülməsi məqsədəuyğun hesab edilməlidir.

Əks təqdirdə formal və icrası təmin olunmayan qərarlar beynəlxalq təşkilatların nüfuzuna ciddi zərər vura bilər:

- Dağlıq Qarabağ münaqişəsi kontekstində müstəqilliyimizin, suverenlimizin və konstitusiya quruluşumuzun beynəlxalq hüququn hamılıqla qəbul edilmiş prinsipləri və şərtləri əsasında bərpasını təmin etmək üçün səylərinin gücləndirilməsi vacib hesab edilməlidir. Dağlıq Qarabağ münaqişəsi zəminində BMT-nin Təhlükəzislik Şurasının dörd Qətnaməsinin icrası üçün tədbirlər görülməlidir.

- Dağlıq Qarabağ münaqişəsi kontekstində sülh və insanlıq əleyhinə olan cinayət törətmiş beynəlxalq canilərin əməllərinə hüquqi qiymət verilməsi üçün «Dağlıq Qarabağ münaqişəsi üzrə hərbi tirbunal»ın yaradılması üçün BMT-nin Təhlükəsizlik Şurası qarşısında məsələ qaldırılması vacibdir. Yurisdiksiyası milli məhkəmələrdə baxılmasına icazə verilən cinayət işlərinin istintaqının yekunlaşdırılıb məhkəməyə gÖndərilməsi təmin edilməlidir. Sülh və insanlıq əleyhinə cinayətlər etmiş şəxslərin işlərinə, müstəsna hal kimi məhkəmələrdə qiyabi baxılmasına icazə verən prosessual norma Azərbaycan Respublikasının Cinayət-Prossesual Məcəlləsinə əlavə edilməsi üçün qanunverici orqan qarşısında məsələ qaldırılmalıdır;

- Milli maraqların və milli mənafelərin beynəlxalq təşkilatlarda və xarici ölkələrdə təmin olunması üçün sistemli, ardıcıl və qətiyyətli tədbirlərin görülməsi, beynəlxalq təhlükəsizliyi təmin edən orqanların işində ölkəmizin təmsilçilərinin fəallığının artırılması vacib hesab olunmalıdır;

- Beynəlxalq terrorçuluğa, transmilli mütəşəkkil cinayətkarlığa, separatizmə, ekstremizmə, kütləvi qırğın silahlarının yayılmasına, regional hərbiləşdirməyə qarşı mübarizədə beynəlxalq təşkilatlarla və dövlətlərlə əlaqələrin və əməkdaşlığın genişləndirilməsi məqsədəuyğun olardı;

- İqtisadi, sosial, mədəni, milli və dini münasibətlərin inkişafında beynəlxalq hüququn və beynəlxalq münasibətlərin qabaqcıl metodlarından istifadə olunmasına diqqət artırılmalıdır;

- Milli qanunvericiliyin beynəlxalq hüquq normalarında uyğunlaşdırılması, BMT-nin, Avropa Şurasının, Avropa Birliyinin, İslam Konfransı Təşkilatının yeni və daha mütərəqqi Konvensiyalarının işlənib hazırlanması, beynəlxalq hüquqi sənədlərin, ikitərəfli və çoxtərəfli müqa-

vilələrin məcəlləşdirilməsi, külliyatının hazırlanması və çap olunması vaxtı çatmışdır;

- Beynəlxalq və regional münasibətlərin nəzəri və hüquqi əsaslarının öyrənilməsinə, araşdırılmasına, tədqiqinə, beynəlxalq hüquq üzrə elmi əsərlərin, normativ hüquqi aktların hazırlanmasına, beynəlxalq hüquq üzrə yüksək ixtisaslı elmi və təcrübi kadrların hazırlanmasına, elmi nəzəri konfransların keçirilməsinə xüsusi önəm verilməlidir;

- Beynəlxalq və dövlətdaxili normativ hüquqi aktların, elmi-nəzəri tədqiqatların diqqətlə araşdırılması qadın hüquqlarının və azadlıqlarının tənzimlənməsi və müdaifəsi sahəsində kompleks tədbirlər işlənib hazırlanmalı və onların həyata keçirilməsi üçün səmərəli tədbirlərin görülməsi vacibdir.[1]

- Ailə, Qadın və Uşaq problemləri üzrə Dövlət Komitəsinin statusu artırılmalı, Komitənin rayonlərdə və şəhərlərdə, habelə regionlarda müvafiq səlahiyyətli qurumlarının yaradılması zəruridir;

- Ölkədə ailə, qadın və uşaq problemlərinin elmi-nəzəri tədqiqini mütəmadi olaraq tədqiq edən, öyrənən və müvafiq tövsiyələr verən xüsusi qurumun - elmi şöbənin, elmi mərkəzin və ya ailə problemləri institutunun yaradılması məsələsi nəzərdən keçirilməlidir;

- Ailə, qadın və uşaq hüquqlarının müdafiəsini təmin edən qanunların daha da təkmilləşdirilməsi və onun beynəlxalq hüquq normalarına uyğunlaşdırılması sahəsində sistemli və ardıcıl tədbirlər həyata keçirilməlidir;

- Ailə, qadın və uşaq hüquqlarının müdafiəsi sahəsində beynəlxalq səviyyədə müsbət təcrübə öyrənilməli və tətbiq edilməlidir;

[1] Heydər Əliyev və dövlət qadın siyasəti, Bakı, 2008, «Nurlar» nəşriyyatı, s.3, s.32-34; İnsan hüquqları, Bakı, «Şirvannəşr» 2005 (tərcümə: E.A.Likaşevanın rəhbərliyi ilə hazırlanmış dərsliyin tərcüməsi), s.46-60; Beynəlxalq sənədlər toplusu, I cild, Bakı, «Qanun» nəşriyyatı, 2008, s.507-510; Beynəlxalq sənədlər toplusu, I cild, Bakı, «Qanun» nəşriyyatı, 2005, «GİSO Enterprise» KRİNB, s.618-630; Qadın hüquqları üzrə bələdçi, Bakı, «Hüquq ədəbiyyatı», 2012, 141-142

- Ailə, qadın və uşaq hüquqlarının pozulması ilə bağlı vəziyyət vaxtaşırı olaraq təhlil edilməli, səbəb və şərait öyrənilməli, profilaktiki tədbirlərin gücləndirilməsinə diqqət artırılmalıdır;
- Kütləvi informasiya vasitələrində, xüsusilə televizayalarda və radiolarda ailə, qadın və uşaq hüquqları sahəsində maarifləndirici və hüquq təbliğatı xarakterli verilişlərin təşkilinə diqqət artırılmalıdır;
- Ailə, qadın və uşaq problemlərinin hüquqi, fəlsəfəsi, psixoloji, sosioloji baxımdan elmi-nəzəri tədqiqinə xüsusi yer ayrılmalıdır.

**САИДА ГАСАНЗАДЕ**

## ПРАВА И СВОБОДЫ ЖЕНЩИН В АЗЕРБАЙДЖАНЕ (конституционного и международного правовое анализ)

## РЕЗЮМЕ

Права женщин, будучи составной частью прав и свобод человека, сегодня сформировались в независимый правовой институт и превратились в самостоятельную тему для исследования. Закрепление прав и свобод женщин в международном праве и национальной правовой системе, может характеризоваться как результат борьбы проводимой на протяжении многих веков. Тем не менее, неоднозначные подходы множества исследователей на различных уровнях в разных странах и периодах времени, а также в различающихся аспектах исследований в этой области, свидетельствуют о серьезных проблемах, которые по-прежнему остаются с теоретической и практической точек зрения. Поэтому, достаточно важным и актуальным должно рассматриваться периодическое привлечение проблем прав женщин, как предмет исследования на уровне международного и внутригосударственного права, определение и решение этих проблем, а также изучение и ликвидация пробелов на международном и национальном уровне.

Исследование различных видов норм международного права в этой области, изучение обобщений и анализа подтверждают, что определение прав и свобод женщин на международных и национальных уровнях и их соответствие определенным базовым стандартам, уже завершено. Главная цель этих правовых актов различных уровней, состоит в том, что должно быть обеспечено в полном объеме равноправие женщин и мужчин в обществе, государстве, семье, запрещена дискриминация по половому признаку, женщинам должны быть даны наряду с другими членами общества равные права и

свободы, должны быть приняты решительные меры, чтобы гарантировать эти ценности.

Исследования показывают, что наряду с гражданскими, политическими, экономическими, социальными правами женщин в органическом соответствии с другими их правами и свободами, благоприятным материнством, рождением и воспитанием детей в семьях, очень важно повышение внимания к материальным, производственным и другим условиям труда в правилах охраны здоровья и труда женщин. Должны быть продолжены до конца, меры в области соответствия и имплементации национальных законов нормативно правовым актам носителям международного права, конвенциям, договорам, пактам, декларациям, протоколам. Очень важно работать в области создания совершеенных и гибких механизмов по улучшению прав и свобод женщин, а также продолжение работ по их интенсивному совершенствованию.

В контексте Нагорно-Карабахского конфликта сопровождающегося массовыми и опасными формами нарушения прав женщин, а в последующем ликвидации их тяжелых последствий, требуется разрешение этого конфликта в соответствии с принципами и нормами международного права. В отношении преступлений против мира и человечности и военных пресступлений совершенных против женщин, является очень важным и необходимым рассмотрение этих действий в международном уголовном суде. В связи с этим, важная роль и задачи ставятся перед правоохранительными органами страны.

Права и свободы женщин тесно связаны с динамичным развитием общества. Процессы, происходящие в обществе, общественной жизни и семье, обеспечивают необходимость время от времени изучение этих прав и свобод и создания надежных мер для защиты этих прав.

Исторические факты показывают, что традиционно в Азербайджане к женщинам всегда проявляли большую заботу и уважение. Следует признать, что основой этого являлось,

уделение особого внимания в исламе правам и свободам женщин, однако надо отметить, что в дальнейшем развитии национальные обычаи и традиции, исторические основания и ценности, элементы национального менталитета и национальной культуры со временем полностью формируется и ДОСтигают своего уровня совершенства. Таким образом, увеличение прав женщин на Ближнем Востоке впервые, именно в Азербайджане было закреплено на нормативном уровне. Азербайджанская женщина добилась больших успехов в образовании, культуре, здравоохранении, дипломатии, науке, государственном управлении и этим успешно оправдала оказанное доверие со стороны общества.

В Азербайджанской Республике, в области закрепления прав и свобод женщин в законодательстве, их защите и охране, происходит обеспечение на самом высоком уровне исполнения своих обязательств перед международным сообществом.

В период актуализации прав и свобод человека, регулирование, защита, совершенствование и охрана прав и свобод женщин в международном и внутригосударственном праве, имеют важное научно-практическое значение. Проводимые меры в области регулирования прав и свобод женщин, прав человека в международном праве, соответствующие идеи и достижения права следует рассматривать как исторически значимый вклад в правосознание и правовое мышление человечества, и в этой области должны быть выдвинуты новые критерии для научных исследований. Как и каждое правовое учреждение и правовая проблема, они постоянно должны изучаться, и необходимо и важно их развивать.

Вопросы связанные с регулированием прав женщин, в зависимости от различных событий и процессов нашли свое точное выражение в отдельных конвенциях и декларациях. Считаем, что в связи с тем, что в течение многих лет в международных конвенциях регулирующих права и свободы жен-

щин, происходят качественные изменения в международных отношениях и международном праве, и поэтому имеет важное значение с учетом других серьезных факторов, вместе с усилиями международного сообщества подготовка и принятие под эгидой ООН Конвенции «XXI-й век о правах и свободах женщин». В то же время, постоянно должна совершенствоваться нормативно правовая база по правам и свободам женщин, и также проводиться адаптация к требованиям международного права. Исходя из этих требований, автором был подготовлен и представлен в соответствующие органы проект Закона «О правах и свободах женщин в Азербайджанской Республике». Мы можем с уверенностью сказать, что принятие такого Закона вызовет значительные изменения в правовом регулировании и надежной защите прав и свобод женщин.

Несмотря на системно и комплексно принимаемые меры в годы независимости в сфере регулирования, защиты и охраны прав и свобод женщин в Азербайджане, создания и развития организационно-правовых механизмов, для нас важно принятие мер по усовершенствованию деятельности международных и национальных учреждений и созданию новых гибких механизмов в этом совершенствовании.

Важно обратить особое внимание на защиту семьи образующей устои общества, а также прав женщин и детей, повысить внимание к соблюдению этих интересов, увеличению эффективности организационно-правовых мер в направлении результативности государственного управления. Условно все это можно сгруппировать нижеследующим образом:

- В целях восстановления прав и свобод человека со стороны Организации Объединенных Наций, Совета Европы, Европейского Союза, Организация по Безопасности и Сотрудничеству в Европе - (ОБСЕ), для обеспечения выполнения решений и распоряжений международных организаций существует целесообразность принятия мер в области обеспечения самостоятельного исполнения их решений либо прикреп-

лением к НАТО, либо созданием специализированнного отдельного международного учреждения. Иначе, формальные и без обеспечения исполнения эти решения, могут нанести серьезный ущерб репутации международных организаций:

- Для обеспечения восстановления нарушенного суверенитета, независимости, конституционного строя в контексте Нагорно-Карабахского конфликта, в соответствии с условиями и общепринятыми принципами международного права, считается важным активизация всех усилий. Все четыре резолюции Совета Безопасности ООН по поводу Нагорно-Карабахского конфликта, должны быть реализованы без промедления.

- Важное значение имеет поднятие вопроса перед Советом Безопасности ООН о создании «Военного трибунала по конфликту Нагорного Карабаха», для дачи правовой оценки действиям международных преступников совершивших преступления против мира и человечества в контексте Нагорно-Карабахского конфликта. Следует обеспечить завершение расследования уголовных дел и направление их в суды, при наличии попадания их под юрисдикцию национальных судов. Поднять вопрос перед законодательным органом, для дополнения Уголовно-Процессуального Кодекса Азербайджанской Республики процессуальной нормой, разрешающей судам в порядке исключения заочным образом рассматривать дела в отношении лиц совершивших преступления против мира и человечности;

- Необходимо считать важным повышение уровня деятельности представителей нашей страны в работе органов обеспечивающих международную безопасность, проведение систематических, последовательных и решительных мер в целях обеспечения национальной интересов в зарубежных странах и международных организациях.

- Целесообразно расширение связей и сотрудничества со странами и международными организациями в борьбе с ре-

гиональной милитаризацией, распространением оружия массового уничтожения, международным терроризмом, транснациональной организованной преступностью, экстремизмом и сепаратизмом;

- Увеличить внимание к использованию передовых методов в международных отношениях и международном праве для развития экономических, социальных, культурных, национальных и религиозных отношений;

- Признание наличия условий и времени к адаптации национального законодательства в соответствии с международным правом, разработке и подготовке новых и более прогрессивных Конвенций ООН, Совета Европы, Европейского Союза, Организации Исламская Конференция, Кодификации международных правовых документов, двусторонних и многосторонних договоров, подготовке и публикации их сборников;

- Особое внимание должно быть уделено изучению теоретических и правовых основ международных и региональных отношений, их рассмотрению и проведению исследований, подготовке и публикации нормативных правовых актов и научных трудов по международному праву, подготовке высококвалифицированных научных и практических кадров, проведению научно-практических конференций;

- Важны действия в связи с разработкой и принятием комплексных мер по эффективному осуществлению тщательного изучения международных и внутригосударственных нормативно правовых актов, научно-теоретических исследований в сфере регулирования и защиты прав и свобод женщин.

- Существует необходимость повышения статуса Государственного Комитета по Проблемам Семьи, Женщин и Детей, а также создания полномочных органов Комитета в районах, городах и регионах;

- Необходимо рассмотрение вопроса о создании в стране специального органа - научного отдела, научного центра или института по проблемам семьи, который бы регулярно зани-

мался научно-теоретическим исследованием проблем семьи, женщин и детей, их изучением и дачей соответствующих рекомендаций;

- Должны быть осуществлены систематические и последовательные меры в сфере усовершенствования законов обеспечивающих права семьи, женщин и детей, и их адаптацию в соответствии с международным правом;

- Должен быть изучен и реализован на международном уровне положительный опыт в сфере защиты прав семьи, женщин и детей;

- Должно быть увеличено внимание к усилению профилактических мер, изучению причин и условий, периодическому анализу ситуаций связанных с нарушением прав семьи, женщин и детей;

- Необходимо увеличение внимания к организации программ по правовому просвещению и пропаганде в сфере защиты прав семьи, женщин и детей, в средствах массовой информации, особенно на радио и телевидении;

- Следует уделять особое внимание научно-теоретическому исследованию вопросов семьи, женщин и детей, с точки зрения права, философии, психологии, социологии.

**SAIDA HASANZADEH**

## WOMAN'S RIGHTS AND FREEDOMS IN AZERBAIJAN (constitutional and international legal analysis)

## SUMMARY

Though woman's rights are the constituent part of universally recognized human rights and freedoms, nevertheless they have formed as an independent legal institution and turned into the subject of self-dependent research. The absolute consolidation of woman's rights and freedoms in the international law and inner law system may be characterized as a result of the struggle have been carried out for centuries to come, However, the studies carried out by different researchers on various levels, and at different approaches, in different for centuries and at different time crossings testify to remaining still the serious problems in this sphece from the theoretical and practical points of view. Therefore, drawing periodically the problem of woman's rights, been independent on international and inner level to the research, determining her problems, solution, studying on international and national level and removing the gaps should be considered quite actnal and significant.

Investigation of different kinds of the norms of international law, the studies, generalizations and analyses in this sphere testify monosemonsly to thar the stage of establishing the main standards of woman's rights and freedoms on international and national level has been already completed. The main purpose of these normative-law acts on different levels is that then the equality of woman's and man's rights in a society state, family should be absolutely guaranteed, division by sing should be prohibited, the women should be provided the equal rights and freedoms with other members of a society and to guarantee these values, the resolute measures are to be undertaken. The investigations display that maternity right alongside with woman's civic, political, economic, social rights, in child's birth, grewing up and education should be

paid inereased attention, as well as to guarantee of providing the rules of protection of woman's health and labour in industrial, material and other conditions.

The consecutive and systematic measures in a sphere of adjusting the national laws to the normative law acts bearing the leading essence of the international law-conventions, negotiations, pacts, declarations, protocols, and their implementations should be contінered to the end. As well, creation of the efficient, perfect and procupt mechanisms in a sphere of protection of woman's rights and freedoms, and improving intensively their activity is very important.

Violation of woman's rights in mass and dangerous form in the comtext of Nagorno-Karabagh context and removing its grave consequences demand solution to this conflict on basic of the principles and norms of international law. Hearing the actions of the persons committed against woman, peace and humanity at the international criminal court is very important and necessary. In connection with this the important daties fall on enforcement bodies.

The woman's rights and freedoms are closely connected with a dynamic development of a society/ the processes taking place in a society, in state's life and family creates the necessity to studying periodically there rights and freedoms and undertaking the measures providing in trusrworthy manner protection of there rights.

The historical facts show that in Azerbaijan a woman was historically honoured and paid a great attention. Its foundation, we have to confers, though originates from a particular attention paid to woman's rights and freedoms, with this the nation values and traditions, historical grounds and values, national mentality and elements of national cultura were formed at times and elevated to the level of perfection. Therefore in the Eastern countries namely in Azerbaijan, for the first time, extension of woman's rights has been consolidated on normative-law level. Azerbaijani woman has gained the great achievements in education, culture, health servi-

ces, diplomacy, science, state governing and won successfully confidence trusted to her by a society.

Azerbaijan Respublic has been providing on a high level putting in practice the duties undertaken before international unity in a sphere of consolidating woman's rights and freedoms in the legislation her protection and sugeguarding.

In the period when human rights and freedoms acquire actual essence, regulation of woman's rights and freedoms by international and innerstate law, perfection, defendence and protection have important and practical importance. The measures taken in a sphere of regulation of woman's rights and freedoms in international law should be estimated as historical achievement of legal thinking and legal mentality and the new criteria of scientific theoretical studies in this sphere are to be put foreground.

The constant study and development of this task as any legal institution and law problem is very important and necessary too.

The problems of regulation of woman's rights in connection with different evemts and processes have found their absolute reflection in some conventions and declarations. We think that since many years have passed for conventions concerning regulation woman's rights and freedoms of international scale, the qualibative changes taken place in the international relations and international law and taking into account other factors, it is important to prepare and abopt the Convention «On woman's rights and freedoms, the XXI$^{st}$ century» by the joint efforts of world unity countries and the patronage og UNO. As well, the normative law base of woman's rights and freedoms is to be constantly improved and adjusted to the requirements of international law.

Imoroving the national security mechanisms is also very important, Prosseding from these requirements the draft of the law «On woman's rights and freedoms in the Azerbaikan Republic has been prepared by the author and submitted to the corresponding bodies. We can say with certainty that adoption of such Law will

cause the important changes in legal regulation and reliable defence of woman's rights and freedoms».

Despite the systematic and complex measures taken during the years of independence in Azerbaijan in a sphere of regulation, defence and protection of woman's rights and freedom, the creation and development on improving activities of the international and national institutions and the new quick mechanisms in this perfection is very important for us.

It is important to pay a particular attention to protection of a family as a core of a society, as well the women's and children;s rights, to increase attention to observing these interests, increasing an efficiency of organization – legal measures in direction towards achievenements in state governing. All this can be conditionally grouped as follows;

- For the purpose of restoration of human rights and freedoms on the side of the Organization of United Nations, European Council, European Union, Organization on security and Cooperation in Europe (OSCE) – for guarantee of implementation of decisions and orders of the international organizations it is expedient to undertake measures in a field of providing independent solving these resolations either by attaching to NATO or foundation of the specialized international institution. Otherwise, the formal and unsolved decisions may seriously discreadit the reputation of the international organizations;
- For guaranteeing the restoration of infringed sovereignty, independence, con stitutional systemin the context of Nagorno-Karabagh conflict, in conformity with terms and principles of the international law, activization of all the effects is considered to be of importance. All the four resolutions of Security Council of UNO on Nagorno-Karabagh conflict must be implemented without delag;
- Raising a wuestion before the Security Council of UNO on foundation of the «Military Tribunalon the Nagorno-Karabagh conflict» for a legal assessment of the actions of the foreign felons

committed the crimes against the world and mankind in the context of the Nagorno-Karabagh conflict is of great importance;

- Completing investigation of the criminal cases and submission of them to the courts, if they are under the jurisdiction should be provided. To raise a question before the legislative body for supplementing the Criminal-Procedural Code of the Azerbaijan Respublic by procedure norm, allowing the courts as an exception to hear by default the cases in relation to the persons committed the crimes agains peace and mankind;
- It is necessary to consider important increasing the level of activities of the representatives of our country in the work of the bodies providing the international security, taking systematic, successive, and resolute measures for the purpose of providing the national interests in the foreing countries and international organizations:
- Expansion of the ties and cooperation with the countries and international oeganizations in the struggle against regional militarization, sprecding the weapons of mass annihilation, international terrorism, transnational organized criminality, extremism and separatism, is expedient;
- To increase attention to application of aduanced methods in international relations and international law for development of the economic, social, cultural, national and religious relations;
- Recognition of the presence of the conditions and time for adaptation of the national legislation in conformity with international law, elaboration and preparation of the new and more progressive Conventions of UNO, European Council, European Union, Organization of Islamic Conference, Codification of the international legal documents, bilateral and multilateral treaties, making ready and publication of their collections;
- Particular attention should be paind to a study of theoretical and legal foundations of the international and regional relations, their consideration and carrying out research, preparation and

publication of highly qualified scientific and practical personnel, holding the scientific and practical conferences;

- The actions are of importance in connection with elaboration and undertaking the complex measures on efficient realization of thourgh studying the international and innerstate normative-legal act, scientific and theoretical investigations in a sphere of regulation and deferce of woman's rights and freedoms;
- There is a necessity of raising the status of the state Committee on the problems of a family, woman and children, as well creation of the plenipotentiary agencies of the Committee in the districts, towns and regions;
- Consideration of question on creation of a special body – scientific department, scientific centre or institution or the institute on the problems of a family in the country, which would regularly cleal with a scientific and theoretical study of the problems of a family, woman and children, their study and giving the proper recommendations;
- Systematic and consecutive measures in a sphere of improving the laws, guarantecing the rights of a family, women and children and their adaptation in conformity with the international law should be brought into practice;
- Positive experience in a sphere of defence of the rights of a family, women and children is to be studied and realized;
- Attention to enforcement of the preventive measures, study of the cases and conditions, periodical analysis of the sitnations connected with infringement of the rights of a family, women and children is to be increased;
- Particular attention should be paid to the scientific and theoretical reseazed into the issues of a family, women and children from the points of view of law, philosophy, psychology, sociology.

*Layihə*

# AZƏRBAYCAN RESPUBLİKASINDA QADIN HÜQUQLARI VƏ AZADLIQLARI HAQQINDA QANUN

Bu Qanun Azərbaycan Respublikasın Konstitusiyasına, BMT-nin Baş Assambleyasının 20 dekabr 1952-ci il tarixli 640 saylı Qətnaməsi ilə təsdiq edilmiş «Qadınların siyasi hüquqları haqqında» Konvensiyasına, BMT-nin «Qadınlara münasibətdə ayrı-seçkiliyin bütün formalarının ləğv edilməsi haqqında» 18 dekabr 1979-ci il tarixli Konvensiyasına, BMT-nin 20 dekabr 1993-cü il tarixli 48/104 saylı qətnaməsi ilə təsdiq edilmiş «Qadınlara qarşı zorakılığın aradan qaldırılması haqqında» Bəyannaməsinə və digər beynəlxalq hüquq normalarına uyğun olaraq Azərbaycan Respublikasinda qadının hüquqlarını və azadlıqlarını, qadınlar haqqında dövlət siyasətinin əsas prinsiplərini, qadın hüquqlarının və azadlıqlarının müdafiəsi sahəsində dövlət orqanlarının, digər hüquqi və fiziki şəxslərin əsas vəzifələrini müəyyən edir.

## BİRİNCİ FƏSIL ÜMUMİ MÜDDƏALAR

**Maddə 1. Qanunun məqsədi**

Bu Qanunun əsas məqsədi Azərbaycan Respublikasında qadın hüquqlarının, azadlıqlarının və vəzifələrinin əsas dairəsini müəyyən etmək, bu hüquqların və azadlıqların qorunmasını, müdafiəsini və mühafizəsini təmin etmək, habelə bu sahədə dövlət orqanlarının, hüquqi və fiziki şəxslərin vəzifələrini müəyyən etməkdən ibarətdir.

**Maddə 2. Bu qanunda istifadə edilən əsas anlayişlar**

2.0. İnsan – yer üzündəki canlıların ən yüksək və ali təbəqəsi, tarixi prosesin, maddi və mənəvi mədəniyyətin yaradıcısı və inkişafının subyekti, həyatın digər formaları ilə genetik cəhətdən bağlı olan, əmək alətləri və maddi nemətlər istehsal etmək qabiliyyətinə, aydın nitqə, təfəkkürə, şüura, zəkaya, cəmiyyətdə ictimai-siyasi rola malik olan fərdi, emosional, psixi və fiziki xüsusiyyətləri ilə səciyyələnən bioloji, fizioloji, morfoloji, genetik, anatomik əlamətlərin məcmusunu özündə ehti-

va edən, öz nəslini artırmaq kimi bioloji funksiyanı yerinə yetirməyə qadir olan, biososial və intellektual varlıq.

2.0.1. Qadın - yaşından, milliyyətindən, irqindən, dinindən, nikaha daxil olub-olmamasından asılı olmayaraq ailədə və cəmiyyətdə qadın kimi sosial rolu, anatomik, genetik, fizioloji, morfoloji, emosional, psixi, fiziki xüsusiyyətləri, cinsiyyət vəzilərinin dişi histoloji quruluşu, qadın cinsinə mənsub olan hormanlar ifrazetmə qabiliyyəti, cinsi və hormonal xromosomları, dünyaya uşaq gətirmək, analığın başqa keyfiyyətlərini özündə əks etdirən və ana kimi səciyyələndirilə bilən kompleks xüsusiyyətlərin məcmusunu özündə ehtiva edən biososial insan cinsi.

2.0.2. Qız - tibbi baxımdan qızlıq bəkarətinin tamlığı pozulmayan və fizioloji baxımdan qadın cinsinə mənsub olan qadın.

2.0.3. Kişi - ailədə və cəmiyyətdə kişi kimi sosial rolu, anatomik, genetik, fizioloji, morfoloji, emosional, psixi və fiziki xüsusiyyətləri, cinsiyyət vəzilərinin erkək histoloji quruluşu, kişi cinsinə mənsub olan hormanlar ifrazetmə qabiliyyəti, cinsi və hormonal xromosomları, qadının dünyaya uşaq gətirmək sahəsindəki fəaliyyətində aktiv erkək rolu olan, habelə kişi kimi səciyyələndirilə bilən başqa xüsusiyyətlərin məcmusunu özündə ehtiva edən biososial insan.

2.0.4. Uşaq - 18 yaşına çatanadək və ya yetkinlik yaşına çatmamış və tam fəaliyyət qabiliyyəti əldə etməyən qızlar və oğlanlar uşaq hesab edilirlər. 7 yaşınadək olan uşaqlar körpə, 7-14 yaşınadək olan uşaqlar yeniyetmə, 14-16 yaşınadək olan uşaqlar azyaşlı, 18 yaşınadək olan və yetkinlik yaşına çatmamış şəxslər isə uşaq hesab edilirlər.

2.0.5. Gender – ictimai həyatın siyasi, iqtisadi, mədəni və digər sahələrində kişi və qadın münasibətlərinin hüquqi və faktiki bərabərliyini təmin edən ideyaların məcmusudur.

2.0.6. Bərabər imkanlar – insan hüquqlarının həyata keçirilməsində qadınlar və kişilər üçün yaradilan bərabər şərait və bərabər təminatlar sistemi.

2.0.7. Gender bərabərliyi - qadınların və kişilərin hüquq bərabərliyi və bu hüquqların həyata keçirilməsi üçün bərabər imkanlar və onların cəmiyyətdə bərabər sosial vəziyyətinin təmin olunması.

2.0.8. Cinsi mənsubiyyətə görə ayrı-seçkilik-seksual qısnama, cinsi əlamətə görə hüquqların bərabər həyata keçirilməsini məhdudlaşdıran və ya inkar edən istənilən fərq, istisna və ya üstünlük.

2.0.9. Qadına qarşı zorakılıq – qohumluq və yaxınlıq münasibətlərindən və ya birgə yaşamalarından sui-istifadə etməklə qadına qarşı qəsdən fiziki və ya mənəvi zorakılıq – döymə, sağlamlığına zərər vurma, işgəncə vermə, azadlığının məhdudlaşdırılması və ya bu məzmunlu təhdid.

2.0.10. Nikah – kişi ilə qadının ailə qurmaq məqsədilə müvafiq icra hakimiyyəti orqanında qeydiyyata alınan könüllü ittifaqı, könüllü birliyidir.

**Maddə 3. Qadın hüquqları barəsində milli qanunvericilik**

I. Qadın hüquqları haqqında milli qanunvercilik, bu Qanundan, Azərbaycan Respublikasının Konstitusiyasından və digər normativ hüquqi aktlarından ibarətdir. Normativ hüquqi aktların normaları qadınların bu qanunla müəyyən edilmiş hüquqlarını və azadlıqlarını məhdudlaşdıra bilməz.

**Maddə 4. Qadın hüquqlarının və azadlıqlarının təmin edilməsi vəzifəsi**

I. Qadın hüquqlarının və azadlıqlarının və onlara layiqli həyat səviyyəsinin təmin edilməsi Azərbaycan dövlətinin ali məqsədidir.

II. Bu Qanunda, eləcə də Azərbaycan Respublikası Konstitusiyasında sadalanan insan və vətəndaş hüquqları və azadlıqları Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrə uyğun olaraq tətbiq edilir.

**Maddə 5. Qadın hüquqlarının və azadlıqlarının müdafiəsi**

I. Hər bir qadının qanunla qadağan olunmayan üsullarla və vasitələrlə öz hüquqlarını və azadlıqlarını müdafiə etmək hüququ vardır.

II. Dövlət hər bir qadının hüquqlarının və azadlıqlarının müdafiəsinə təminat verir.

**Maddə 6. İnsan və vətəndaş hüquqlarının və azadlıqlarının əsas prinsipi**

I. Hər bir qadının doğulduğu andan toxunulmaz, pozulmaz və ayrılmaz hüquqları və azadlıqları vardır.

II. Qadının hüquqları və azadlıqları, eyni zamanda onun cəmiyyət və başqa şəxslər qarşısında məsuliyyətinin və vəzifələrinin məcmusunu əhatə edir.

**Maddə 7. Qadın barəsində dövlət siyasəti**

I. Azərbaycan Respublikasında qadın hüquqlarının və azadlıqlarının qorunmasını, müdafiəsini və mühafizəsini müvafiq icra hakimiyyəti, məhkəmə və prokurorluq orqanları, ictimai birliklər, həmkarlar ittifaqları təşkilatları, fiziki və hüquqi şəxslər təmin etməyə borcludurlar. Azərbaycan Dövləti hər bir qadının rifahinin yüksəldilməsinin, onun sosial müdafiəsinin və layiqli həyat səviyyəsinin qayğısına qalır.

II. Cəmiyyətin əsas özəyi kimi ailə dövlətin xüsusi himayəsindədir. Uşaqların qayğısına qalmaq və onları tərbiyə etmək valideynlərin - ərin və arvadın borcudur. Bu borcun yerinə yetirilməsinə, qorunmasına, müdafiəsinə və mühafizəsinə dövlət nəzarət edir.

**Maddə 8. İşğəncələrin və zorakılığın qadağan edilməsi**

I. Heç bir qadın işğəncəyə, qeyri-insani, zorakı hərəkətlərə, belə təhdidlərə, ləyaqəti alçaldan rəftara və ya cəzaya məruz qalmamalıdır.

**Maddə 9. Köləliyin və məcburi əməyin qadağan edilməsi**

I. Heç bir qadın köləlikdə və ya asılılıqda saxlanılmamalıdır.

II. Heç bir qadın məcburi və ya icbari əməyə cəlb olunmamalıdır.

**Maddə 10. Qadının insan və vətəndaş hüquqlarının və azadlıqlarının təminatı**

I. Qadına münasibətdə Azərbaycan Respublikasının Konstitusiyasında təsbit edilmiş insan və vətəndaş hüquqlarının və azadlıqlarının qorunmasını, müdafiəsini və mühafizəsini təmin etmək və qorumaq qanunvericilik, icra və məhkəmə hakimiyyəti orqanlarının və onların vəzifəli şəxslərinin borcudur.

II. Qadına münasibətdə insan və vətəndaş hüquqlarının və azadlıqlarının həyata keçirilməsini heç bir şəxs qanunsuz olaraq məhdudlaşdıra bilməz. Hər bir qadının hüquqları və azadlıqları Azərbaycan Respublikası Konstitusiyasında və bu qanunda müəyyən edilmiş əsaslarla, habelə digərlərinin hüquqları və azadlıqları ilə məhdudlaşır.

III. Müharibə, hərbi vəziyyət və fövqəladə vəziyyət, habelə səfərbərlik elan edilərkən qadına münasibətdə insan və vətəndaş hüquqlarının və azadlıqlarının həyata keçirilməsi Azərbaycan Respublikasının beynəlxalq öhdəliklərini nəzərə almaq şərti ilə qismən və müvəqqəti olaraq məhdudlaşdırıla bilər. Həyata keçirilməsi məhdudlaşdırılan hüquqlar və azadlıqlar haqqında əhaliyə qabaqcadan məlumat verilir.

IV. Qadın heç bir halda din, vicdan, fikir və əqidəsini açıqlamağa məcbur edilə bilməz və bundan imtinaya görə təqsirləndirilə bilməz.

V. Azərbaycan Respublikası Konstitusiyanın və bu Qanunun heç bir müddəasını, qadına münasibətdə insan və vətəndaş hüquqlarının və azadlıqlarının ləğvinə yönəlmiş müddəa kimi təfsir edilə bilməz.

VI. Qadına münasibətdə insan və vətəndaş hüquqları və azadlıqları Azərbaycan Respublikası ərazisində birbaşa qüvvədədir.

VII. Qadına münasibətdə insan və vətəndaş hüquqlarının və azadlıqlarının pozulması ilə əlaqədar olan mübahisəni məhkəmə həll edir.

VIII. Heç bir qadın törədildiyi zaman hüquq pozuntusu sayılmayan əmələ görə məsuliyyət daşımır. Hüquq pozuntusu törədildikdən sonra yeni qanunla bu cür hərəkətlərə görə məsuliyyət aradan qaldırılmışsa və ya yüngülləşdirilmişsə, yeni qanun tətbiq edilir.

IX. Qadın qanunla qadağan olunmayan hərəkətlər edə bilər. Heç bir qadın qanunla nəzərdə tutulmayan hərəkətləri etməyə məcbur edilə bilməz.

**Maddə 11. Qadının hüqüq və azadlıqlarının ədalətli məhkəmə təminatı**

I. Hər bir qadının hüquqlarının və azadlıqlarının ədalətli məhkəmə müdafiəsinə təminat verilir.

II. Hər bir qadın onun mülki hüquq və vəzifələri müəyyən edilərkən və ya ona qarşı hər hansı cinayət ittihamı irəli sürülərkən, qanun əsasında yaradılmış müstəqil və qərəzsiz məhkəmə vasitəsi ilə, ağlabatan müdafiə işinin ədalətli və açıq araşdırması hüququna malikdir.

III. Hər bir qadın dövlət orqanlarının, siyasi partiyaların, həmkarlar ittifaqlarının və digər ictimai birliklərin, vəzifəli şəxslərin qərarlarından və hərəkətlərindən (yaxud hərəkətsizliyindən) məhkəməyə şikayət edə bilər.

**Maddə 12. Hüquqi yardım almaq və səmərəli hüquqi müdafiə vasitələrindən istifadə etmək hüququ**

I. Hər bir qadının yüksək keyfiyyətli hüquqi yardım almaq və səmərəli hüquqi müdafiə vasitələrindən istifadə etmək hüququ vardır.

II. Qanunla nəzərdə tutulmuş hallarda qadına hüquqi yardım ödənişsiz və ya dövlət hesabına göstərilir.

III. Hər bir qadının səlahiyyətli dövlət orqanları tərəfindən tutulduğu, həbsə alındığı, cinayət törətməkdə ittiham olunduğu andan müdafiəçinin köməyindən istifadə etmək hüququ vardır.

**Maddə 13. Məhkəmə aidiyyətinin dəyişdirilməsinə yol verilməməsi**

I. Hər bir qadının onun işinə qanunla müəyyən edilmiş məhkəmədə baxılması hüququ vardır. Qadının öz razılığı olmadan onun işinə başqa məhkəmədə baxılmasına yol verilmir.

**Maddə 14. Bir cinayətə görə təkrar məhkum etmənin yolverilməzliyi**

I. Heç bir qadın bir cinayətə görə təkrarən məhkum edilə bilməz.

**Maddə 15. Məhkəməyə təkrar müraciət etmək hüququ**

I.Məhkəmənin məhkum etdiyi hər bir qadının haqqında çıxarılmış hökmə, qanunla nəzərdə tutulan qaydada yuxarı məhkəmədə yenidən baxılması, özünün əfv edilməsi və cəzasının yüngülləşdirilməsi haqqında müraciət etmək hüququ vardır.

**Maddə 16. Qohumların əleyhinə ifadə verməyə məcbur etmənin yolverilməzliyi**

I. Heç bir qadın özünə, ərinə, övladlarına, valideynlərinə, qardaşına, bacısına qarşı ifadə verməyə məcbur edilə bilməz. Əleyhinə ifadə verilməsi məcburi olmayan qohumların tam siyahısı qanunla müəyyən edilir.

**Maddə 17. Tutulan, həbsə alınan və ya cinayət törədilməsində təqsirləndirilən qadının hüquqları**

I. Səlahiyyətli dövlət orqanlarının tutduğu, həbsə aldığı, cinayət törədilməsində təqsirləndirildiyi hər bir qadına dərhal onun hüquqları bildirilir, tutulmasının, həbsə alınmasının və cinayət məsuliyyətinə cəlb edilməsinin səbəbləri izah edilir.

II. Cinayət törədilməsində təqsirləndirilən hər bir qadın məhkum edilməzdən əvvəl dinlənilməlidir.

**Maddə 18. Zərərin ödənilməsini tələb etmək hüququ**

I. Cinayət əməli, habelə hakimiyyətdən sui-istifadə etmə nəticəsində zərər çəkmiş qadının hüquqları qanunla qorunur. Zərər çəkmiş qadının ədalət mühakiməsində iştirak etmək və ona vurulmuş zərərin ödənilməsini tələb etmək hüququ vardır.

II. Hər bir qadının dövlət orqanlarının, yaxud onların vəzifəli şəxslərinin qanuna zidd hərəkətləri və ya hərəkətsizlikləri nəticəsində vurulmuş zərərin dövlət tərəfindən ödənilməsini tələb etmək hüququ vardır.

Maddə 19. Azərbaycan Respublikasının Əmək, Ailə, Mülki, Mülki-Prossesual, Cinayət, Cinayət-Porsessual, İnzibati-Xətalar, İnzibati-İcraat, İnzibati-Prosessual Məcəllələri ilə, digər normativ hüquqi aktlarla, eləcə də Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrlə müəyyən edilmuş hüquqlarından və azadlıqlarından istifadə etmək hüququ və məsuliyyət daşıması vəzifəsi

I. Hər bir qadın, Azərbaycan Respublikasının qüvvədə olan Əmək, Ailə, Mülki, Milki-Prossesual, Cinayət, Cinayət-Porsessual, İnzibati-Xətalar, İnzibati-İcraat, İnzibati-Prosessual Məcəllələri ilə, digər normativ hüquqi aktlarla, eləcə də Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrlə müəyyən edilmiş hüquqlarından, azadlıqlarından sərbəst istifadə edir və vəzifələrini icra etməməyə görə məsuliyyət daşıyır.

## İKİNCİ FƏSİL
## QADIN HÜQUQLARI

**Maddə 20. Qadının yaşamaq hüququ**

I. Hər bir qadının yaşamaq hüququ vardır, bu hüquq toxunulmazdır və qanunla qorunur.

II. Dövlətə silahlı basqın zamanı düşmən əsgərlərinin öldürülməsi, məhkəmənin qanuni qüvvəyə minmiş hökmü və qanunla nəzərdə tutulmuş digər xüsusi hallar istisna olmaqla, hər bir qadının yaşamaq hüququ toxunulmazdır.

III. Müstəsna cəza tədbiri kimi ömürlük azadlıqdan məhrumetmə cəzası qadınlara tətbiq edilmir.

IV. Qanunla nəzərdə tutulmuş zəruri müdafiə, son zərurət, cinayətkarın yaxalanması və tutulması, həbsdə olanın həbs yerindən qaçmasının qarşısının alınması, dövlətə qarşı qiyamın yatırılması və ya dövlət çevrilişinin qarşısının alınması, ölkəyə silahlı basqın edilməsi halları istisna olmaqla, qadına qarşı silah işlədilməsinə yol verilmir.

**Maddə 21. Əcnəbi və ya vətəndaşlığı olmayan qadının hüquqları**

I. Əcnəbi və ya vətəndaşlığı olmayan qadın Azərbaycan Respublikasında olarkən, qanunla və ya Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrlə, başqa hal nəzərdə tutulmayıbsa, Azərbaycan Respublikasının vətəndaşları ilə bərabər bütün hüquqlardan istifadə edə bilər.

II. Azərbaycan Respublikası ərazisində daimi yaşayan və ya müvəqqəti qalan əcnəbil və ya vətəndaşlığı olmayan qadının hüquqları və azadlıqları yalnız beynəlxalq hüquq normalarına və Azərbaycan Respublikasının qanunlarına uyğun olaraq məhdudlaşdırıla bilər.

**Maddə 22. Qadının sağlam ətraf mühitdə yaşamaq hüququ**

I. Hər bir qadının sağlam ətraf mühitdə yaşamaq hüququ vardır.

II. Hər bir qadın ətraf mühitin əsil vəziyyəti haqqında məlumat toplamaq və ekoloji hüquqpozma ilə əlaqədar olaraq onun sağlamlığına və əmlakına vurulmuş zərərin əvəzini almaq hüququ vardır.

III. Heç bir qadın ətraf mühitə, təbii ehtiyatlara qanunla müəyyən edilmiş hədlərdən artıq təhlükə törədə və ya zərər vura bilməz.

IV. Dövlət ekoloji tarazlığın saxlanılmasına, yabanı bitkilərin, ağacların, quşların və vəhşi heyvanların qanunla müəyyən edilmiş növlərinin qorunmasına təminat verir.

**Maddə 23. Qadının təhlükəsiz yaşamaq və şəxsi toxunulmazlıq hüququ**

I. Hər bir qadının təhlükəsiz yaşamaq və şəxsi toxunulmazlıq hüququ vardır.

II. Qanunla nəzərdə tutulmuş hallar istisna olmaqla, qadının həyatına, fiziki və mənəvi sağlamlığına, mülkiyyətinə, mənzilinə qəsd etmək, ona qarşı zor işlətmək qadağandır.

III. Hər bir qadının şəxsi və ailə həyatının sirrini saxlamaq hüququ vardır. Qanunla nəzərdə tutulan xüsusi hallardan başqa, qadının şəxsi və ailə həyatına müdaxilə etmək qadağandır. Hər bir qadının şəxsi və ailə həyatına qanunsuz müdaxilədən müdafiə hüququ vardır.

IV. Hər bir qadın öz şəxsi və ailə həyatına, mənzilinə və yazışma sirrinə hörmət hüququna malikdir. Müstəsna və qanunda nəzərdə tutulan xüsusi hallar istisna edilməklə, bu hüququn həyata keçirilməsinə hakimiyyət orqanlarının müdaxiləsi yolverilməzdir.

V. Öz razılığı olmadan qadının şəxsi həyatı haqqında məlumatların toplanılmasına, saxlanılmasına, istifadəsinə və yayılmasına yol verilmir. Qanunla müəyyən edilmiş hallar istisna olmaqla, hər bir qadın onun xəbəri olmadan və ya etirazına baxmadan izlənilə bilməz, video və foto çəkilişinə, səs yazısına və digər bu kimi hərəkətlərə məruz qoyula bilməz.

VI. Hər bir qadının yazışma, telefon danışıqları, poçt, teleqraf və digər rabitə vasitələri ilə ötürülən məlumatların sirrini saxlamaq hüququna dövlət təminat verir. Bu hüquq qanunla nəzərdə tutulmuş qaydada cinayətin qarşısını almaqdan və ya cinayət işinin istintaqı zamanı həqiqəti üzə çıxarmaqdan ötrü məhdudlaşdırıla bilər.

VII. Qanunla müəyyən edilmiş hallar istisna olmaqla, hər bir qadın onun haqqında toplanmış məlumatlarla tanış ola bilər. Hər bir qadının onun barəsində toplanmış və həqiqətə uyğun olmayan, tam olmayan, habelə qanunun tələbləri pozulmaqla əldə edilmiş məlumatların düzəldilməsini və ya çıxarılmasını (ləğv edilməsini) tələb etmək hüququ vardır.

**Maddə 24. Qadının sağlamlığının qorunması hüququ**

I. Hər bir qadının sağlamlığını qorumaq və tibbi yardım almaq hüququ vardır.

II. Dövlət müxtəlif mülkiyyət növləri əsasında fəaliyyət göstərən səhiyyənin bütün növlərinin inkişafı üçün zəruri tədbirlər görür, sanitariya-epidemiologiya salamatlığına təminat verir, tibbi sığortanın müx-

təlif növləri üçün imkanlar yaradır. Qadın, o cümlədən uşaqlı qadın beynəlxalq əmək təşkilatının müəyyən etdiyi bütün güzəştlərdən, standartlardan və şərtlərdən istifadə etmək hüququna malikdir.

III. Qadının həyatı və sağlamlığı üçün təhlükə törədən faktları və halları gizlədən vəzifəli şəxslər qanun əsasında məsuliyyətə cəlb edilirlər.

**Maddə 25. Qadının nikah və analıq hüququ**

I. Hər bir qadının qanunla nəzərdə tutulmuş yaşa çatdıqda ailə qurmaq, nikah münasibətinə girmək, ana olmaq, uşaq doğmaq, saxlamaq, böyütmək və tərbiyə etmək hüququ vardır.

II. Nikah qadının könüllü razılığı əsasında bağlanılır və dövlətin orqanlarında qeydə alınır. Heç bir qadın zorla ərə verilə bilməz.

III. Ailə dövlətin himayəsindədir. Analıq qanunla mühafizə edilir. Dövlət çoxuşaqlı qadınlara yardım göstərir.

IV. Qadının əri ilə hüquqları bərabərdir. Uşaqlara qayğı göstərmək, onları tərbiyə etmək hər bir ananın həm hüququ, həm də vəzifəsidir.

V. Anaya hörmət etmək, onların qayğısına qalmaq uşaqların borcudur. 18 yaşına çatmış əmək qabiliyyətli övlad, əmək qabiliyyəti olmayan anasını saxlamağa borcludur.

**Maddə 26. Qadının mənzil və mənzil toxunulmazlığı hüququ**

I. Hər bir qadının mənzil və mənzil toxunulmazlığı hüququ vardır.

II. Qanunla müəyyən edilmiş hallar və ya məhkəmə qərarı istisna edilməklə, mənzildə yaşayan qadının iradəsi ziddinə heç kəs mənzilə daxil ola bilməz.

III. Heç bir qadın yaşadığı mənzildən və evindən qanunsuz olaraq məhrum edilə bilməz.

IV. Dövlət yaşayış binalarının və evlərin tikintisinə rəvac verir, qadınların mənzil hüququnu gerçəkləşdirmək üçün xüsusi tədbirlər həyata keçirir.

V. Uşağı olan qadının mənzillə təmin edilməsinə dövlət qayğı göstərir.

**Maddə 27. Qadının təhsil hüququ**

I. Hər bir qadının təhsil almaq hüququ vardır.

II. Dövlət hər bir qadının və qızın pulsuz icbari ümumi orta təhsil almaq hüququnu təmin edir.

III. Təhsil sisteminə dövlət tərəfindən nəzarət edilir.

IV. Maddi vəziyyətindən asılı olmayaraq istedadlı qadının (qızın) təhsilini davam etdirməsinə dövlət zəmanət verir və şərait yaradır.

V. Minimum təhsil standartlarını dövlət müəyyən edir.

**Maddə 28. Qadının mülkiyyət və əqli mülkiyyət huququ**

I. Hər bir qadının mülkiyyət və əqli mülkiyyət hüququ vardır.

II. Mülkiyyətin heç bir növünə üstünlük verilmir.Qadının mülkiyyət hüququnun, xüsusi mülkiyyət hüququnun, müəlliflik hüququnun, ixtiraçılıq və əqli mülkiyyət hüququnun başqa növləri qanunla qorunur.

III. Hər bir qadının mülkiyyətində daşınan və daşınmaz əmlak, eləcə də əqli mülkiyyət hüququnun obyektləri ola bilər. Mülkiyyət hüququ, qadın mülkiyyətçinin təkbaşına və ya başqaları ilə birlikdə əmlaka sahib olmaq, əmlakdan istifadə etmək və onun barəsində sərəncam vermək hüquqlarından ibarətdir.

IV. Heç bir qadın məhkəmənin qərarı olmadan mülkiyyətindən məhrum edilə bilməz. Qadının əmlakının tam müsadirəsinə yol verilmir. Dövlət ehtiyacları və ya ictimai ehtiyaclar üçün qadına məxsus mülkiyyətin özgəninkiləşdirilməsinə yalnız qabaqcadan onun dəyərini ədalətli ödəmək şərti ilə yol verilir.

V. Dövlət qadının vərəsəlik hüququna təminat verir.

**Maddə 29. Qadının əmək hüququ**

I. Əmək qadının fərdi və ictimai rifahının əsasıdır.

II. Hər bir qadının öz əmək qabiliyyəti əsasında sərbəst surətdə özünə fəaliyyət növü, peşə, məşğuliyyət və iş yeri seçmək hüququ vardır.

III. Heç bir qadın zorla işlədilə bilməz.

IV. Qadın əmək müqaviləsini sərbəst surətdə bağlayır. Heç bir qadın əmək müqaviləsi bağlamağa məcbur edilə bilməz.

V. Qadın müstəsna hallarda, məhkəmə qərarı əsasında, şərtləri və müddətləri qanunla nəzərdə tutulan məcburi əməyə cəlb edilə bilər.

VI. Hər bir qadının təhlükəsiz və sağlam şəraitdə işləmək, heç bir ayrı-seçkilik qoyulmadan öz işinə görə dövlətin müəyyənləşdirdiyi

minimum əmək haqqı miqdarından az olmayan haqq almaq hüququ vardır.

VII. İşsiz qadının dövlətdən sosial müavinət almaq hüququ vardır.

VIII. Dövlət qadın işsizliyinin aradan qaldırılması üçün bütün imkanlardan istifadə edir.

IX. Hər bir qadın Azərbaycan Respublikasının qoşulduğu beynəlxalq müqavilələrdə, konvensiyalarda, sosial xartiyalarda və Beynəlxalq Əmək Təşkilatının müvafiq sənədlərində nəzərdə tutulmuş hüquqlardan və azadlqlardan istidafə edir.

Maddə 30. Qadının azad sahibkarlıq fəaliyyəti hüququ

I. Hər bir qadın qanunla nəzərdə tutulmuş qaydada öz imkanlarından, qabiliyyətindən və əmlakından sərbəst istifadə edərək təkbaşına və ya başqaları ilə birlikdə azad sahibkarlıq fəaliyyəti və ya qanunla qadağan edilməyən digər iqtisadi fəaliyyət növü ilə məşğul ola bilər.

**Maddə 31. Qadının istirahət hüququ**

I. Hər bir qadının istirahət hüququ vardır.

II. Əmək müqaviləsi ilə işləyən qadına, qanunla müəyyən edilmiş, lakin gündə 8 saatdan artıq olmayan iş günü, istirahət və bayram günləri, ildə azı bir dəfə 21 təqvim günündən az olmayan ödənişli məzuniyyət verilməsi təmin edilir.

**Maddə 32. Qadının tətil hüququ**

I. Hər bir qadının təkbaşına və ya başqaları ilə birlikdə tətil etmək hüququ vardır.

II. Əmək müqaviləsi əsasında işləyən qadının tətil etmək hüququ yalnız qanunla nəzərdə tutulmuş hallarda məhdudlaşdırıla bilər. Azərbaycan Respublikasının Silahlı Qüvvələrində və digər silahlı birləşmələrdə xidmət edən qadın tətil edə bilməz.

III. Qadının fərdi və kollektiv əmək mübahisələri qanunla müəyyənləşdirilmiş qaydada həll edilir.

**Maddə 33. Qadının birləşmək hüququ**

I. Hər bir qadının başqaları ilə birləşmək hüququ vardır.

II. Hər bir qadın istənilən birlik, o cümlədən siyasi partiya, həmkarlar ittifaqı və digər ictimai birlik yaratmaq və ya mövcud birliyə

daxil olmaq hüququna malikdir. Bütün birliklərin sərbəst fəaliyyətinə təminat verilir.

III. Heç bir qadın hər hansı birliyə daxil olmağa və ya onun üzvlüyündə qalmağa məcbur edilə bilməz.

**Maddə 34. Qadının sosial təminat hüququ**

I. Hər bir qadının sosial təminat hüququ vardır. Bu hüququn icrasına nəzarət dövlət tərəfindən həyata keçirilir.

II. Yardıma möhtac olan qadına kömək etmək, ilk növbədə, onun ailə üzvlərinin borcudur.

III. Hər bir qadın qanunla müəyyən edilmiş yaş həddinə çatdıqda, xəstəliyinə, əlilliyinə, ailə başçısını və əmək qabiliyyətini itirdiyinə, işsizliyə görə və qanunla nəzərdə tutulmuş digər hallarda sosial təminat almaq hüququna malikdir.

IV. Qadın üçün nəzərdə tutulan təqaüdlərin və sosial müavinətlərin minimum məbləği qanunla müəyyən edilir.

V. Dövlət qadının xeyriyyəçilik fəaliyyətinin, könüllü sosial sığortanın və sosial təminatın başqa növlərinin inkişafı üçün imkan yaradır.

**Maddə 35. Qadının mədəniyyət hüququ**

I. Hər bir qadının mədəni həyatda iştirak etmək, mədəniyyət təsisatlarından və mədəni sərvətlərdən istifadə etmək hüququ vardır.

II. Hər bir qadın tarixi, mədəni və mənəvi irsə hörmətlə yanaşmalı, ona qayğı göstərməli, tarix və mədəniyyət abidələrini qorumalıdır.

**Maddə 36. Qadının cəmiyyətin və dövlətin siyasi həyatında iştirak etmək hüququ**

I. Azərbaycan Respublikası vətəndaşı olan qadının cəmiyyətin və dövlətin siyasi həyatında maneəsiz iştirak etmək, ictimai və dövlət vəzifələri tutmaq, siyasi və ictimai fəaliyyətlə məşğul olmaq hüququ vardır.

II. Dövlətə qarşı qiyama və ya dövlət çevrilişinə, müstəqil müqavimət göstərmək Azərbaycan Respublikasının vətəndaşı olan hər bir qadının borcudur.

**Maddə 37. Qadının dövlətin idarə olunmasında iştirak etmək hüququ**

I. Azərbaycan Respublikası vətəndaşı olan qadının dövlətin idarə olunmasında iştirak etmək hüququ vardır. Bu hüququ o bilavasitə və ya nümayəndələri vasitəsilə həyata keçirə bilər.

II. Azərbaycan Respublikasının vətəndaşı olan qadının dövlət orqanlarında qulluq etmək hüququ vardır. Dövlət orqanlarında müəyyən vəzifələrə Azərbaycan Respublikasının vətəndaşı olan qadın kişi ilə bərabər statusda təyin edilə bilər. Əcnəbi və ya vətəndaşlığı olmayan qadın dövlət qulluğuna qanunla müəyyənləşdirilmiş xüsusi qaydada qəbul edilə bilər.

**Maddə 38. Qadının azad seçki hüququ**

I. Azərbaycan Respublikası vətəndaşı olan qadının dövlət orqanlarına seçmək və seçilmək, habelə referendumda iştirak etmək hüququ vardır.

II. Məhkəmənin qərarı ilə fəaliyyət qabiliyyətsizliyi təsdiq olunmuş qadının seçkidə və referendumda iştirak etmək hüququ yoxdur.

III. Qadın olan hərbi qulluqçuların, hakimlərin, dövlət məmurlarının, din xadimlərinin, məhkəmənin hökmü ilə azadlıqdan məhrum edilmiş şəxslərin, Azərbaycan Respublikasının Konstitusiyasında və qanununda nəzərdə tutulan digər şəxslərin seçkilərdə iştirak etmək hüququ qanunla məhdudlaşdırıla bilər.

**Maddə 39. Qadının vətəndaşlıq hüququ**

I. Azərbaycan dövlətinə mənsub olan, onunla siyasi və hüquqi bağlılığı, habelə qarşılıqlı hüquqları və vəzifələri olan qadın Azərbaycan Respublikasının vətəndaşıdır. Azərbaycan Respublikasının ərazisində və ya Azərbaycan Respublikasının vətəndaşlarından doğulmuş qadın Azərbaycan Respublikasının vətəndaşıdır. Valideynlərindən biri Azərbaycan Respublikasının vətəndaşı olan qadın Azərbaycan Respublikasının vətəndaşıdır. Qadının vətəndaşlıq statusu qanunla müəyyən edilir.

**Maddə 40. Qadının vətəndaşliq hüququnun təminatı**

I. Azərbaycan Respublikasının vətəndaşı olan qadın heç bir halda Azərbaycan Respublikası vətəndaşlığından məhrum edilə bilməz.

II. Azərbaycan Respublikasının vətəndaşı olan qadın heç bir halda Azərbaycan Respublikasından qovula və ya xarici dövlətə verilə bilməz.

III. Azərbaycan Respublikası onun ərazisindən kənarda müvəqqəti və ya daimi yaşayan Azərbaycan Respublikası vətəndaşı olan qadının hüquqi müdafiəsinə təminat verir və ona hamilik göstərir.

**Maddə 41. Qadının milli mənsubiyyət və ana dilindən istifadə etmək hüququ**

I. Hər bir qadının milli mənsubiyyətini qoruyub saxlamaq hüququ vardır. Heç bir qadın milli mənsubiyyətini dəyişdirməyə məcbur edilə bilməz.

II. Hər bir qadının ana dilindən istifadə etmək hüququ vardır. Hər bir qadının istədiyi dildə tərbiyə və təhsil almaq, yaradıcılıqla məşğul olmaq hüququ vardır.

III. Heç bir qadın ana dilindən istifadə hüququndan məhrum edilə bilməz.

**Maddə 42. Qadının siyasi sığınacaq hüququ**

I. Hamılıqla qəbul edilmiş beynəlxalq hüquq normalarına uyğun olaraq Azərbaycan Respublikası əcnəbi və ya vətəndaşlığı olmayan qadına siyasi sığınacaq verir.

II. Siyasi əqidəsinə görə, habelə Azərbaycan Respublikasında cinayət sayılmayan əmələ görə təqib edilən qadını başqa dövlətə verilməsinə yol vermir.

**Maddə 43. Bərabərlik hüququ**

I. Hər bir qadın qanun və məhkəmə qarşısında bərabərdir.

II. Qadının kişi ilə eyni hüquqları və azadlıqları vardır. Qadın hüquqlarından və azadlıqlarından istifadə cins, irq, mənşə, rəng, dil, din, siyasi və digər baxışlar, milli, sosial və etnik mənsubiyyəti, əmlak vəziyyəti və digər hər hansı əlamətə görə ayrı seçkilik olmadan təmin edilməlidir.

III. Dövlət, irqindən, milliyyətindən, dinindən, dilindən, cinsindən, mənşəyindən, əmlak vəziyyətindən, qulluq mövqeyindən, əqidəsindən, siyasi partiyalara, həmkarlar ittifaqlarına və digər ictimai birliklərə mənsubiyyətindən asılı olmayaraq hər bir qadının hüquqlarının və

azadlıqlarının bərabərliyinə təminat verir. Qadının insan və vətəndaş hüquqlarını və azadlıqlarını irqi, milli, dini, dil, cinsi, mənşə, əqidə, siyasi və sosial mənsubiyyətə görə məhdudlaşdırmaq qadağandır.

IV. Bu maddənin III hissəsində göstərilən əsaslara görə qadına zərər vurula bilməz, güzəştlər və ya imtiyazlar verilə bilməz, yaxud güzəştlərin və ya imtiyazların verilməsindən imtina oluna bilməz.

V. Hüquqlarla və vəzifələrlə bağlı olan qərarlar qəbul edən dövlət orqanları ilə və dövlət hakimiyyəti səlahiyyətlərinin daşıyıcıları ilə münasibətlərdə qadının bərabər hüquqları təmin edilir.

**Maddə 44. Qadının şərəf və ləyaqətinin müdafiəsi hüququ**

I. Hər bir qadının öz şərəf və ləyaqətini müdafiə etmək hüququ vardır.

II. Hər bir qadın ona qarşı irəli sürülmüş ittiahımın xarakteri və əsasları haqqında onun başa düşdüyü dildə, dərhal və ətraflı məlumatlandırmaq, öz müdafiəsini hazırlamaq üçün kifayət qədər vaxta və imkana malik olmaq, şəxsən və ya özünü seçdiyi müdafiəçi vasitəsilə özünü müdafiə etmək, zəruri hallarda müdafiədən pulsuz istifadə etmək, onun əleyhinə ifadə vermiş şahidləri dindirmək hüququna malik olmaq və tərcüməçinin pulsuz köməyindən istifadə etmək hüquqlarına malikdir.

III. Hər bir qadının şəxsi ləyaqəti dövlət tərəfindən qorunur. Heç bir hal qadın ləyaqətinin alçaldılmasına əsas verə bilməz.

IV. Heç bir qadına işgəncə və əzab verilə bilməz. Qadına qarşı zorakılıq məsuliyyət yaradır. Heç bir qadın insan ləyaqətini alçaldan rəftara və ya cəzaya məruz qala bilməz. Özünün könüllü razılığı olmadan heç bir qadının üzərində tibbi, elmi və başqa təcrübələr aparıla bilməz.

**Maddə 45. Müraciət hüququ**

I. Azərbaycan Respublikası vətəndaşı olan qadının dövlət orqanlarına şəxsən müraciət etmək, habelə fərdi və kollektiv yazılı müraciətlər göndərmək hüququ vardır. Hər bir müraciətə qanunla müəyyən edilmiş qaydada və müddətlərdə yazılı cavab verilməlidir.

II. Azərbaycan Respublikası vətəndaşı olan qadın dövlət orqanlarının və onların vəzifəli şəxslərinin, siyasi partiyaların, həmkarlar itti-

faqlarının və digər ictimai birliklərin, habelə ayrı-ayrı vətəndaşların fəaliyyətini və ya işini tənqid etmək hüququ vardır. Qadının tənqidə görə təqib edilməsi qadağandır. Təhqir və böhtan tənqid sayıla bilməz.

**Maddə 46. Qadının təqsirsizlik prezumpsiyası**

I. Hər bir qadının təqsirsizlik prezumpsiyası hüququ vardır. Cinayətin törədilməsində təqsirləndirilən hər bir qadın, onun təqsiri qanunla nəzərdə tutulan qaydada sübuta yetirilməyibsə və bu barədə məhkəmənin qanuni qüvvəyə minmiş hökmü yoxdursa, təqsirsiz hesab edilir.

II. Heç bir qadın törədildiyi zaman milli və beynəlxalq hüquqa görə cinayət sayılmayan əməllərə görə təqsirli hesab edilə bilməz, qadına cinayət əməli törədildiyi zaman tətbiq edilməli olan cəzadan daha ağır cəza verilə bilməz.

II. Qadının təqsirli olduğuna əsaslı şübhələr varsa, onun təqsirli bilinməsinə yol verilmir.

III. Cinayətin törədilməsində təqsirləndirilən qadın özünün təqsirsizliyini sübuta yetirməyə borclu deyildir.

IV. Ədalət mühakiməsi həyata keçirilərkən qanunu pozmaqla əldə edilmiş sübutlardan istifadə oluna bilməz.

V. Məhkəmənin hökmü olmadan heç bir qadın cinayətdə təqsirli sayıla bilməz.

## ÜÇÜNCÜ FƏSİL
## QADIN AZADLIQLARI

**Maddə 47. Qadının azadlıq hüququ**

I. Hər bir qadının azadlıq hüququ vardır.

II. Qadının azadlıq hüququ, yalnız qanunla nəzərdə tutulmuş qaydada və hallarda tutulma, həbsəalma və ya azadlıqdan məhrumetmə yolu ilə məhdudlaşdırıla bilər.

III. Qadın Azərbaycan Respublikasının ərazisində sərbəst hərəkət edə bilər, özünə yaşayış yeri seçə bilər və Azərbaycan Respublikasının ərazisindən kənara gedə bilər.

IV. Azərbaycan Respublikası vətəndaşı olan hər bir qadının hər zaman maneəsiz olaraq öz ölkəsinə qayıtmaq hüququ vardır.

**Maddə 48. Qadının fikir və söz azadlığı**

I. Hər bir qadının fikir və söz azadlığı vardır.

II. Heç bir qadın öz fikir və əqidəsini açıqlamağa və ya fikir və əqidəsindən dönməyə məcbur edilə bilməz.

III.Qadınlar arasında irqi, milli, dini, sosial ədavət və düşmənçilik oyadan təşviqata və təbliğata yol verilmir.

**Maddə 49. Qadının vicdan azadlığı**

I. Hər bir qadının vicdan azadlığı vardır.

II. Hər bir qadının dinə münasibətini müstəqil müəyyənləşdirmək, hər hansı dinə təkbaşına və ya başqaları ilə birlikdə etiqad etmək, yaxud heç bir dinə etiqad etməmək, dinə münasibəti ilə bağlı əqidəsini ifadə etmək və yaymaq hüququ vardır.

III. Qadının dini mərasimləri yerinə yetirməsi, ictimai qaydanı pozmursa və ya ictimai əxlaqa zidd deyildirsə, sərbəstdir.

IV. Qadının dini etiqadı və əqidəsi hüquq pozuntusuna bəraət qazandırmır.

V. Heç bir qadın öz dini etiqadını və əqidəsini ifadə etməyə (nümayiş etdirməyə), dini mərasimləri yerinə yetirməyə və ya dini mərasimlərdə iştirak etməyə məcbur edilə bilməz.

**Maddə 50. Qadının sərbəst toplaşmaq azadlığı**

I. Hər bir qadının başqaları ilə birlikdə sərbəst toplaşmaq azadlığı vardır.

II. Hər bir qadının başqaları ilə birlikdə müvafiq dövlət orqanlarını qabaqcadan xəbərdar etməklə dinc, silahsız yığışmaq, yığıncaqlar, mitinqlər, nümayişlər, küçə yürüşləri keçirmək, piketlər düzəltmək hüququ vardır.

**Maddə 51. Qadının məlumat azadlığı**

I. Hər bir qadının qanuni yolla istədiyi məlumatı axtarmaq, əldə etmək, ötürmək, hazırlamaq və yaymaq azadlığı vardır.

II. Qadının kütləvi informasiya azadlığına təminat verilir. Kütləvi informasiya vasitələrində, o cümlədən mətbuatda dövlət senzurası qadağandır.

III. Hər bir qadının kütləvi informasiya vasitələrində dərc edilən və onun hüquqlarını pozan və ya mənafelərinə xələl gətirən məlumatı təkzib etmək və ya ona cavab vermək hüququna təminat verilir.

**Maddə 52. Qadının yaradıcılıq azadlığı**

I. Hər bir qadının yaradıcılıq azadlığı vardır.

II. Dövlət qadının ədəbi-bədii, elmi-texniki və başqa yaradıcılıq növlərini azad həyata keçirməsinə təminat verir.

## DÖRDÜNCÜ FƏSİL
## QADININ VƏZİFƏLƏRİ

**Maddə 53. Qadının vəzifələrinin əsası**

I. Azərbaycan Respublikasının vətəndaşı olan hər bir qadın dövlət və cəmiyyət qarşısında onun hüquqlarından və azadlıqlarından bilavasitə irəli gələn vəzifələr daşıyır. Hər bir qadının üzərinə vəzifələr yalnız Azərbaycan Respublikasının Konstitusiyası ilə bu qanunla qoyula bilər.

II. Hər bir qadın Azərbaycan Respublikasının Konstitusiyasına və qanunlarına əməl etməli, başqa şəxslərin hüquqlarına və azadlıqlarına hörmət bəsləməli, qanunla müəyyən edilmiş digər vəzifələri yerinə yetirməlidir.

III. Qanunu bilməmək qadını məsuliyyətdən azad etmir.

**Maddə 54. Qadının vergi və başqa dövlət ödənişləri**

I. Qanunla müəyyən edilmiş vergiləri və başqa dövlət ödənişlərini tam həcmdə və vaxtında ödəmək hər bir qadının borcudur.

II. Heç bir qadın qanunla nəzərdə tutulmuş əsaslar olmadan və qanunda göstərilmiş həcmdən əlavə vergiləri və başqa dövlət ödənişlərini ödəməyə məcbur edilə bilməz.

**Maddə 55. Qadının vətənə sədaqəti**

I. Azərbaycan Respublikasının vətəndaşı olan hər bir qadının Vətənə - Azərbaycan Respublikasına sədaqəti müqəddəs mahiyyət daşıyır.

II. Vəzifəyə seçilmə və ya təyinat yolu ilə qanunvericilik, icra və ya məhkəmə hakimiyyəti orqanlarında işləyən qadın öz vəzifələrini dürüst və layiqincə yerinə yetirməməyə görə məsuliyyət daşıyır və qanunla müəyyən edilmiş hallarda and içir.

III. Vəzifəyə seçilmə və ya təyinat yolu ilə qanunvericilik, icra və ya məhkəmə hakimiyyəti orqanlarında işləyən qadın, Azərbaycan Respublikası Konstitusiyasına sadiq qalacağına and içmiş, dövlətə qarşı cinayətdə, o cümlədən dövlətə qarşı qiyamda və ya dövlət çevrilişində

ittiham edilibsə və bu ittiham əsasında məhkum olunubsa, həmin vəzifədən getmiş sayılır və bir daha bu vəzifəni tuta bilməz.

**Maddə 56. Qadının dövlət rəmzlərinə hörməti**

I. Hər bir qadın Azərbaycan Respublikasının dövlət rəmzlərinə - bayrağına, gerbinə və himninə hörmət etməlidir.

II. Qadının dövlət rəmzlərinə hörmətsizliyini nümayiş etdirməsi qanunla müəyyən edilmiş məsuliyyətə səbəb olur.

**Maddə 57. Qadının vətəni müdafiə vəzifəsi**

I. Azərbaycan Respublikasının vətəndaşı olah hər bir qadının Vətəni - Azərbaycan Respublikasını müdafiə etməsi müqəddəs borcudur. Qanunla müəyyən edilmiş qaydada qadın, lazım gəldikdə hərbi xidmət keçə bilər.

**Maddə 58. Qadının tarix və mədəniyyət abidələrinin qoruması vəzifəsi**

I. Tarix və mədəniyyət abidələrini qorumaq hər bir qadının borcudur.

**Maddə 59. Qadının ətraf mühiti qoruması vəzifəsi**

I. Ətraf mühit qorumaq hər bir qadının borcudur.

**Maddə 60. Qadının qanuna zidd vəzifələrin icrasına yol verməməsi**

I. Heç bir qadın Azərbaycan Respublikasının Konstitusiyasına və ya qanunlarına zidd vəzifələrin icrasına məcbur edilə bilməz. Qanuna əməl etmək qadının borcudur.

**Maddə 61. Qadının məsuliyyəti**

I. Konstitusiyanın və qanunların pozulması, o cümlədən Konstitusiyada və qanunlarda nəzərdə tutulan hüquqlardan sui-istifadə etməsi və ya vəzifələrini yerinə yetirməməsi qadının qanunla müəyyən edilən məsuliyyətinə səbəb olur.

## BEŞİNCİ FƏSİL.
## YEKUN MÜDDƏALAR

**Maddə 62. Qadın hüquqlarına əməl edilməsi üzərində dövlət nəzarəti**

I. Qadın hüquqlarına əməl edilməsi üzərində dövlət nəzarəti Azərbaycan Respublikası Prezidenti tərəfindən müəyyən edilmiş qaydada Azərbaycan Respublikasının Ailə, qadin və uşaq problemləri üzrə Dövlət Komitəsi tərəfindən həyata keçirilir. Qadın hüquqlarının və azadlıqlarının məhkəmə müdafiəsinə təminat verilir.

**Maddə 63. Bu qanunun pozulmasına görə məsuliyyət**

I. Bu qanunun tələblərinin pozulmasısnda təqsirli olan şəxslər Azərbaycan Respublikasının Qanunvericiliyinə müvafiq olaraq intizam, inzibati, cinayət və ya mülki məsuliyyət daşıyırlar.

**Maddə 64. Beynəlxalq aktların hüquqi qüvvəsi**

I. Azərbaycan Respublikasının qanunvericilik sisteminə daxil olan normativ hüquqi aktlarla (Azərbaycan Respublikasının Konstitusiya və referendumla qəbul edilən aktlar istisna olmaqla) Azərbaycan Respublikasının tərəfdaş çıxdığı dövlətlərarası müqavilələr arasında ziddiyyətlər yaranarsa, həmin beynəlxalq müqavilələr tətbiq edilir.

# *QEYDLƏR ÜÇÜN*

Nəşriyyatın direktoru: Şöhrət Səlimbəyli
Texniki redaktor: Mail Xəlilov

SƏİDƏ HƏSƏNZADƏ
Hüquq üzrə fəlsəfə doktoru

AZƏRBAYCANDA
QADIN HÜQUQLARI VƏ AZADLIQLARI
(konstitusiya və beynəlxalq hüquqi təhlil)

Yığılmağa verilib:10.06.2014
Çapa imzalanıb:15.07.2014
Format:60x84 16/1
21,5 ş.ç.v
Tiraj:500

*«AVROPA»nəşriyyatı*